

# QARABAĞNAMƏLƏR

MİRZƏ YUSİF QARABAĞİ
**TARİXİ-ŞƏRİF**

MİR MEHDİ XƏZANİ
**KİTABİ-TARİXİ-QARABAĞ**

**RZAQULU BƏY MİRZƏ CAMAL OĞLU**
**PƏNAH XAN VƏ İBRAHİM XANIN QARABAĞDA HAKİMİYYƏTLƏP VƏ O ZAMANIN HADİSƏLƏRİ**

**İKİNCİ KİTAB**

ŞƏRQ-QƏRB

BAKl 2006

Bu kitab "Qarabağnamələr. II kitab" (Bakı, Yazıçı, 1991) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır

Tərtib edəni: **Nazim Axundov**

Elmi redaktoru: **Akif Fərzəliyev**

**947.54-dc22**
**AZE**
**Qarabağnamələr. II kitab. Bakı, "Şərq-Qərb", 2006, 288 səh.**

"Qarabağnamələr"in ikinci kitabında Azərbaycanın XIX əsr salnaməçiləri Mirzə Yusif Qarabağinin, Mir Mehdi Xəzaninin və Rzaqulu bəy Mirzə Camal oğlunun Qarabağ haqqında tarixi, ədəbi-bədii, publisistik oçerkləri toplanmışdır.

**ISBN10 9952-34-069-9**
**ISBN13 978-9952-34-069-3**

© "ŞƏRQ-QƏRB", 2006

# TƏRTİBÇİDƏN

“Qarabağnamələr”in ikinci kitabına XIX əsrin 60-70-ci illərində Qarabağ tarixi haqqında yazılmış aşağıdakı salnamə və materiallar daxil edilmişdir:

Mirzə Yusif Qarabağinin “Tarixi-Safi”, Mir Mehdi Xəzaninin “Kitabi-tarixi-Qarabağ”, Rzaqulu bəy Mirzə Camal oğlunun “Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri” əsərləri.

Müəlliflərdən Mirzə Yusif Qarabaği “Tarixi-Safi”ni və Rzaqulu bəy Mirzə Camal oğlu “Pənah xan və İbrahim xanım Qarabağda hakimiyyətləri və o zamanın hadisələri”ni fars dilində, Mir Mehdi Xəzani isə “Kitabi-tarixi-Qarabağ”i Azərbaycan dilində yazmışdır. Ana dilində yazılan “Qarabağnamə”lər tarixi, coğrafi, etnoqrafik, onomastik məlumatlarla yanaşı, XIX əsrin 40-cı illərindən başlayaraq dövrümüzə qədər zəngin dil materialı verən abidələrdir.

“Qarabağnamələr”in ikinci kitabına daxil edilən əsərlərin əlyaz-maları aşağıdakı arxiv və fondlardan toplanılmışdır.

Mirzə Yusif Qarabağinin “Tarixi-Safi” əsərinin farsca yazılmış yeganə nüsxəsi Gürcüstan SSR Elmlər Akademiyasının yanında akademik S.N.Canaşia adına Dövlət Muzeyi Əlyazmaları Fondunda 195 nömrəli şifrlə saxlanılır.

Mir Mehdi Xəzaninin Azərbaycan dilində yazılmış “Kitabi-tarixi-Qarabağ” əsərinin Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda saxlanılan beş əlyazmasından B-518 nömrəli nüsxə keyfiyyət etibarilə digər nüsxələrdən yaxşı olduğuna görə əsas götürülmüş, naqis olan iki vərəq başqa əlyazmadan alınmışdır.

Rza qulu bəy Mirzə Camal oğlunun “Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri” əsərinin Qarabağ tarixi barədə farsca yazılmış 162 səhifəlik əlyazması Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda B-470 şifrlə mühafizə olunur. Müəllifin etiraf etdiyi kimi o, atası Mirzə Camalın “Qarabağ tarixi”ni xülasə etmişdir. Rzaqulu bəy atasının yazdığı tarixə bir neçə dəyərli əlavələr etdiyindən burada çap olunmasını məqsədəuyğun bildik.

Bir küll halında “Qarabağnamələr” yalnız adi tarixi salnamələr deyildir. Bu əsərlərdə etnoqrafik materiallara, tarixi-memarlıq abidələrinin təsvirinə, Qarabağın bir çox maraqlı şəxsiyyətlərinə, adət-ənənələrinə dair zəngin faktlarla, vəqf mülkiyyətinin Qarabağda geniş vüsət tapmasına dair tutarlı sübutlarla rastlaşırıq.

MİRZƏ YUSİF QARABAĞİ

TARİXİ-SAFİ

# MİRZƏ YUSİF QARABAĞİ VƏ ONUN "TARİXİ-SAFİ" ƏSƏRİ*

XIX esrin salnaməçilərindən olan Mirze Yusif Qarabağinin (1798-1864) Rusiya-İran münasibətlərinin (1800-1828) və Azərbaycan tarixinin müəyyən səhifələrini öyrənmək nöqteyi-nəzərindən qiymətli mənbələrdən birini təşkil eden "Tarixi-Safi" əsəri fars dilində yazılmışdır və heləlik bizə onun yeganə bir nüsxəsi məlumdur[1]. Mirzə Yusif Nersesov ədəbiyyatımızda hələ XX əsrin birinci rübündən bəlli olsa da[2], onun "Tarixi-Safi" əsəri əsrimizin otuzuncu illərində belə tarixçilərimizə bəlli deyildi[3]. Bu əser haqqında bizə ilk məlumat verən Mirzə Yusif Qarabağinin tərcümeyi-halını tedqiq edən Əli Əjdər Səidzadədir. O zaman bu əsəri şəxsən görməmiş olan Ə.Ə.Səidzadə "Tarixi-Safi"nin bizə gəlib çatmadığı ehtimalında idi[4]. "SSRİ-də tarix elminin tarixinə dair oçerkləri"ə daxil olan Azərbaycan tarixşünashğına həsr olunmuş məqalədə isə bu əsərin ancaq adı çəkilir, yanlış olaraq, əsərin yazıhş tarixi XIX esrin birinci yarısına aid edilir[5].

"Tarixi-Safi"nin mündəricəsi haqqında çox müxtəsər də olsa, ilk məlumata biz "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" adlı məqaledə və həmin məqale müəlliflərinin iştirakı ilə yazılmış "XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda tarix elminin inkişafı" adlı əsərdə rast gəlirik[6]. Yuxarıda adları çəkilən her iki əsərdə müəlliflər Mirzə Yusifin müxtəsər tərcümeyi-halını verdikdən sonra "Tarixi-Safi"nin qısa məzmunundan danışırlar.

"Tarixi-Safi" müəllifi Mirzə Yusif 1798-ci ildə Qarabağ mahalının Hadrut kəndində anadan olmuşdur. Onun atası Nerses Cənubi Azerbaycanın Əhər şəhərindən idi. O, İran hökmdarlarının ermənilərə münasibətindən narazı qaldığı üçün Qarabağa köç-müşdü[7]. Mirzə Yusif öz əsərinin müqəddiməsində hələ uşaq ikən Qarabağdan "Qızıl-

---

* Məqalə Əli Hüseynzadənin "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" (Bakı, 1967) əsərindən götürülmüşdür (seh.88-102).

1 Gürcüstan SSR EA yanında akademik S.N.Canaşia adına Dövlət Muzeyi Əlyazmaları Fondu, inv.195; bu əlyazmanın fotosurəti Azərbaycan SSR EA TİEA, inv.2251.

2 S.Mümtaz. Azərbaycan ədəbiyyatı, sayı 2, Molla Pənah Vaqif, Bakı, 1925.

3 Q.İmanov. Вопросы историографии Азербайджана. Наука в АССР за 15 лет, Баку, 1936, səh. 163.

4 A.A.Сеидзаде. Мирза Юсиф Нерсесов (Шушинский). "Известия Азербайджанского Филиала Академии Наук СССР", 1942, №9, səh. 10-11.

5 Очерки истории исторической науки в СССР, I cild, Moskva, 1955, səh.643.

6 А.Н.Гулиев, И.М.Гасанов. Историческая наука в Азербайджане во второй половине XIX в., Azərbaycan SSR EA Tarix İnstitunun əsərləri, XIII cild, Bakı, 1958, səh.236; Ə.N.Quliyev, İ.M.Həsənov, 1.V.Striqunov. XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda Tarix elminin inkişafı, Bakı, 1960.

7 A.A.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушинский). "Известия Азербайджанского Филиала Академии Наук СССР", 1942, №9, səh.12.

baş vilayətinə” (görünür, Cənubi Azerbaycana. - Ə.H.) aparıldığını qeyd edirsə də, bunun səbəbini izah etmir[1].

Ə.Ə.Səidzadə bu məsələdən bəhs edərkən Mirzə Yusif Qarabağinin 8-9 yaşlarında ikən talan məqsədilə Qarabağa soxulan qarətçilər tərəfindən əsir edilib aparıldığını və digər əsirlər sırasında İran şahına təqdim olunduğunu göstərir[2]. Mirzə Yusifin özünün etirafına görə, o, 18 il İranda Əmirxan sərdarın[3] yanında qalaraq, farscanı mükəmmıl öyrənmişdi. O, bir müddət divanxana katibliyi vəzifəsində işləmiş, vaxtının müəyyən hissəsini də tarixə dair əsərlər mütaliəsinə sərf etmişdir[4].

1828-ci ildə Türkmənçay sülh müqaviləsi bağlandıqdan sonra Mirzə Yusif öz doğma vətəni olan Qarabağa qayıdır[5] və bir müddət müəllimliklə məşğul olur[6]. İranda müsəlmanlığı qəbul etmiş Mirzə Yusif Qarabağa qayıtdıqdan sonra mitropolit Baqdasar Həsən Cəlalyanın təkidi ilə yenidən xristianlığı qəbul edir[7].

Mirzə Yusifin dediyinə görə o, 1854-cü ildə Kaspi və Şimali Dağıstan ölkələrinin komandanı general-leytenant knyaz Qriqori Orbelianinin yanında xidmətə girmiş[8] və mütərcimlik etmişdir. Rusiya hərbi komandanlığı ilə Şamil arasında aparılan yazışmada Mirzə Yusifin yaxından iştirak etdiyi ehtimal olunur[9].

Mirzə Yusif Dağıstanda işlədiyi dövrdə Teymurxan-Şurada (Buynakskda) Vaqif və onun müasirlərinin əsərlərindən ibarət bir ədəbi məcmuə də çap etdirmişdir[10]. Dağıstanda üçillik xidmətdən sonra Qarabağa qayıdan Mirzə Yusif yenə də müəllimliklə məşğul olmuş və 1864-cü ildə öz vətənində vəfat etmişdir[11].

Mirzə Yusif əsərin müqəddiməsində öz əsərini “Tarixi-Safi” adlandırmasının səbəbi haqqında yazır: “Mən bir zaman köhnə və yeni Əhd (yəni İncil) kimi müqəddəs kitabların mütaliəsilə məşğul oldum. Onları tamamilə öyrəndim. Tarix kitablarında təəssübkəşlikdən doğan bəzi uyğunsuzluqları gördüm. Yalan xəbərləri eşitdim. Bəzi dostların xahişi və göstərişi ilə artıq təriflərdən və yalan xəbərlərdən təmiz və saf bir

[1] Mirzə Yusif Qarabaği. Tarixi-Safi, vər.2a (fotosurəti), TİEA, inv.2225.

[2] А.А.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушинский). “Известия Азербайджанского Филиала Академии Наук СССР”, 1942, №9, səh.12.

[3] Əmir xan Sərdar Fətəli şahın qayınatası, naibüssəltənə Abbas Mirzənin babasıdır. Abbas Mirzənin tanınmış sərkərdələrindən olub, hicri 1242 (1826-1827)-ci ildə Rusiya-İran müharibəsində Şəmkirdə öldürülmüşdür (bax: Rzaqulu Hidayət. Rövzət-üs-səfa, IX cild).

[4] Tarixi-Safi, vər.2a.

[5] А.А.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушинский). Известия Азербайджанского Филиала Академии Наук СССР», 1942, №9, səh.12.

[6] Yenə orada, səh.13.

[7] Yenə orada.

[8] Tarixi-Safi, vər.3a.

[9] А.А.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушинский). “Известия Азербайджанского Филиала Академии Наук СССР”, 1942, №9, səh.13.

[10] Kitabi-məcmuəyi-divani-Vaqif və digər müasirin. Teymur-xan-Şura, 1856.

[11] А.А.Сеид-заде. Мирза Юсиф Нерсесов (Шушинский). “Известия Азербайджанского Филиала Академии Наук СССР”, 1942, №9, səh.17.

tarix yazmaq qərarına gəldim. Bu məqsədlə bir sıra kitabları nəzərdən keçirdim. Həqiqətin saxtalaşdırıldığını gördüm. Ona görə də Asiya xanlarının, Qafqazda fəaliyyət göstərmiş böyük adamların əhvalatından və Qafqazın qüdrətli Rusiya dövləti tərkibinə daxil olmasından bəhs edən bir tarix yazmaq fikrinə düşdüm".

Gənc yaşlarından tarix həvəskarı olan Mirzə Yusif özünün dediyinə görə, bu tarixi yazmazdan əvvəl qədim dini-tarixi kitabları əsaslı surətdə öyrənmişdir. Qafqazın Rusiya ilə birləşdirilməsi prosesində bir çox hadiselərin şəxsən şahidi olan və bəzi hadisələrin gedişini etibarlı adamlardan eşidən müəllif öz əsərini yazarkən fars və erməni dillərində bir çox əsərlərdən istifadə etdiyini qeyd edir. Lakin konkret olaraq o, Tövrat, İncil və Zəburdan başqa ayrı müqəddəs kitabların, təfsirlərin adını çəkmir. Bu üç dini kitabdan başqa müəllif hələ İranda olduğu dövrdən etibarən bir çox tarixi əsərlərin mütaliəsilə məşğul olduğunu, əsərlərin adını göstərmədən ümumi surətdə qeyd edir.

Mətndə erməni tarixçisi M.Çamçiyandan[1] və Mirzə Mehdi xandan[2] başqa heç bir müəllifin adı çəkilmir. Müəllifin dediyinə görə, o hələ İranda olduğu zaman "Tarixi-Safi"ni yazmaq fikrinə düşür. Lakin məişətdə qarşısına çıxan çətinlik üzündən o bu arzusunu həyata keçirə bilmir[3]. Yalnız knyaz Qriqori Orbelianinin yanında xidmətə girdikdən sonra, onun tapşırığı və knyaz D.Georqadzenin yardımı ilə[4] Mirzə Yusif öz əsərini yazmağa başlayır. O, 1855-ci ildə əsərini bitirir[5].

[1]Klerikal-feodal erməni millətçiliyinin fanatik nümayəndələrinden olan Mikael Çamçiyan (XVIII) mürtəce bir tarixçidir. 1784-1786-cı illərdə çap edilmiş üç böyük cilddən ibarət "Ermənistan tarixi"ndə müəllifin əsas məqsədi - bəşəriyyətin ilk dəfə Ermənistan ərazisində meydana gəldiyini və İncildə təsvir edilən bütün hadisələrin burada cərəyan etdiyini isbat etməkdən ibarətdir."Müəllifin mürtəcə görüşləri üzündən Çamçiyanın "Tarixi" öz elmi mahiyyətinə görə, çox aşağı səviyyədədir". "Müəllifin klerikalizmi "tarix"in, demək olar ki, bütün səhifələrində özünü göstərir". Л.С.Хачикян.Историография («Очерки истории исторической науки в СССР" I cild, Moskva, 1955, səh.261-262.

[2] Mirzə Məhəmməd Mehdi xan Astarabadi-Nadir şah Əfşarın şəxsi katibi (münşisi) və saray tarixçisi olmuşdur. Böyük dilşünas olan Mirzə Mehdi xanın "Sənglax" adlı özbək-fars dilləri lüğəti məşhurdur. 1747-ci ildə yazdığı "Tarixi-Nadiri" (Nadirin tarixi) adlı əsərində Mirzə Mehdi xan əsas etibarilə Nadirin müharibələrini və qəhrəmanlığını təsvirə çalışmışdır. Nadir dövründə Zaqafqaziya ölkələrinin siyasi tarixini öyrənmək nöqteyi-nəzərindən bu əsər çox əhəmiyyətlidir.Müəllifin bundan başqa Nadir dövrünə aid rəsmi vəsiqələrin – fərmanların və məktubların surətindən ibarət "İnşa" adlı digər bir mühüm əsəri də vardır (bax: И.П.Петрушевский. Очерки по истории феодальных отношений, səh.13, 40-41).

[3] Tarixi-Safш, vər.3a.

[4] Yenə orada.

[5] Əsərin bitməsi tarixini müəllif aşağıdakı beytdə ifadə etmişdir:

Rəqəm bəsaləş ki biiştibah betarix
Safi şödəm namegah.

Bu beytin son misrasının rəqəmlərlə ifadəsində 1855-ci il verilir (Tarixi-Safi, 4a).

Mən bu tarixin müəllifı kiçik bəndə Mirzə Yusif Qarabaği uşaqlıqdan Qarabağdan Qızılbaş vilayətinə gedərək orada sərdar Əmir xanın yanında 18 il qalıb, onların dilini mükəmməl surətdə öyrəndim[1*]. Bir müddət divanxanada yazı işləri ilə məşğul olub, öz vaxtımı tarix və qayda-qanunlar, səyahətlər haqqında kitab oxumağa sərf etdim. Hər tayfa və millət ilə əlaqəyə girib onların adət və ənənələri ilə tanış oldum.

Hicri 1244 (1828)-cü ilində qüdrətli Rus dövləti iranlılar ilə ikinci dəfə sülh müqaviləsi bağladı.

Mən İran vilayətindən öz vətənim olan Qarabağa gəldim. Calallı və kəramətli rus çarı birinci Nikolay Pavloviç çox mərhəmətli və xeyirxah olduğu üçün heç kəsin əqidə və inamına toxunmur, ölkə idarə etmek işi ilə əlaqəsi olmayıb, böyük Allahın əmrinə aid olan din və şəriət işlərinə qarışmırdı. O heç kəsin tərəfini saxlamır və heç kəsə ədavət bəsləmirdi. O bütün tayfaları və Adəm övladını bir qayda ilə yola verir və onlar ilə eyni cür rəftar edirdi.

Mən bir neçə müddət qədim və təzə müqəddəs ruhani kitablarını (İncil, Tövrat, Zəbur) oxumaqla məşğul olub onlar ilə də lazımi qədər tanış oldum. Bir çox tarix kitablarında fərqlər, dolaşıqlar və tərəfgirlik görüb yalan, uydurma sözlər eşitdiyim üçün bəzi dostlarımın xahişilə mübaliğə və yalandan azad bir kitab yazmaq qəranına gəldim. Hər fənnə və elm sahəsinə baxdımsa o sahədə bir əsər və ya bir kitab yazıldığını gördüm. Buna görə mən də Asiya xanları və Qafqazda olan böyüklərin tarixini, habelə bu ölkələrin qüdrətli Rus dövləti ixtiyarına necə keçdiyini təsvir etməyə çalışdım. Bu müharibələrin bəzilerində özüm iştirak edib, bir çox hadisələri öz gözlərimlə görmüş, bəzilərini mötəbər adamlardan eşitmiş və bir hissəsini də ermənicə və qeyri kitablardan istifadə edib, həqiqəti meydana çıxarmağa cəhd etdim.

İzah etdiyim hadisə silsiləsinin qırılmaması və sözün gözəlliyinin itməməsi üçün keçmiş şəxslərin əhvalından da sonrakı tarixçilərin verdiyi məlumata müvafiq şəkildə bəhs etdim, hamı rəğbətlə oxusun deyə, bu tarixi xoş üslub və fars dilinin gözəl ibarələri ilə yazdım.

---

[* 1] Əsər farscadan sərbəst tərcümə olunmuşdur. - N.A.

Adəm əyyamından başlayaraq, İsa Məsihinin peyğəmbərliyinə qədər bir tarixi müxtəsər yazdım[1*] ki, hər məsələni izah etmək asan olsun, dolaşıqlıq və təhriflər aradan qalxıb hamı ondan istifadə edə bilsin. Bununla belə maddi vəziyyətin çətinliyi üzündən məqsədə çatmaq yolu bağlı olub zəmanənin pisliyi ilə bəxtimin kəmliyindən bu arzumu və dostların xahişini həyata keçirməkdə ləngidim. Çünki zəmanənin haqq adamların ziddinə olduğu ağıllı şəxslərə bəllidir.

Bir neçə vaxt istirahət etmədən bu fıkir ilə yaşadım. Nəhayət, zəmanənin zülmü aradan qalxdı, işlər düzəldi və qüdrət sahibləri üçün işləməyə imkan yarandı.

1854 miladi, 1271 hicri ilində iradəli və tədbir sahibi, böyük və kiçik işləri qaydaya salan, gözəl əxlaq sahibi, lütfkar, nəcib nəsildən olan, yüksək calallı fərmandar, Kaspi dənizi ətrafının və Şimali Dağıstan qoşunlarının başçısı, şahlar şahının mərhəmət və iltifatına layiq olan general-leytenant knyaz Qriqori Orbelianinin icazəsi ilə onun hüzuruna gəlib yanında yazı işləri üzrə vəzifəyə daxil oldum və onun buyuruğuna görə həmin bu kitabı yazmağa başladım.

Misilsiz vəzir, qılmc və qələm sahibi olan, biliklər müəllimi cənab knyaz Dmitri Davidoviç Curcazinin tədbiri vəköməkliyi ilə bu kitabı yazıb onun mədhi ilə qurtardım.

Bu kiçik töhfəmi böyük utancaqlıqla qarışqanın Süleymana verdiyi bir töhfə kimi, o ədalət işığı ilə nurlanmış Q.Orbelianiyə təqdim etdim.

[1*] Əsərin əfsanəvi tarix xarakteri daşıyan və Qarabağa dəxli olmayan hissəsi ixtisar edilmişdir.

## GƏNCƏ VƏ GƏNCƏ XANLARININ ƏSİL-NƏSƏBLƏRİ HAQQINDA[1]

İstər qədim dövrdə, istər monqolların istilası zamanında və istərsə də səlcuq və türkmən sultanlarının hakimiyyəti dövründə, Gəncədə həmişə böyük xanlar və bəylərbəyilər oturmuşlar. Amma Səfəvilər dövründə Şah Abbas Gəncədə abadlığın binasını qoyduğu üçün orada çox vaxt Qacar Ziyadoğlunun xanları hökmranlıq edir və Qarabağın da ixtiyarı onların əlində idi. Ziyadoğlu xanları həmişə Səfəvi dövlətinə havadar və sadiq olmuşlar. Buna görə də fərman və yazılarda onları böyük əmirlər əmiri, Gəncə və Qarabağın bəylərbəyisi, Qacar Ziyadoğlunun müsahibi kimi adlandırırlar. Tiflis və Gəncə sərhədi olan Sığnaqdan Xudafərin-Araz körpüsünə kimi bütün ərazi həmin xanların ixtiyarında idi. Onlar bəzi vaxtlar hətta Tiflisdə də hökmdarlıq etmişlər. Hicri 1148 (1736)-ci ildə, İran şahı seçmək üçün Muğan səhrasında çağırılmış böyük qurultaya Nadir şahın əmr və fərmanı ilə hər bir ölkədən camaat toplanmışdı. Gəncə xanları isə Nadir şah dövlətinin tərkibinə daxil olmağa razı deyildilər və hətta kütləni də təbliğ edirdilər ki, Səfəvi övladlarından başqa heç kimi şahlığa seç-məsinlər.

Buna görə də qəzəbli və kinli Nadir şah səltənətə keçdikdən və müstəqil şah olduqdan sonra dərhal Gəncə xanlarını məhv etmək qərarına gəldi və get-gedə onların səlahiyyətlərini əlindən aldı, sonra Qazax və Borçalı ellərinin ixtiyarını da onlardan alıb Gürcüstan valisinə verdi.Nadir şah Qarabağ ellərindən ibarət olan Cavanşirlilər, Otuzikililər və Kəbirlilərin Xorasana köçürülməsi haqqında əmr verdi. Qarabağın Xəmsə mahalındakı Çiləbörd, Xaçın, Talış, Vərəndə, Dizaq mahallarına ermənilərdən məliklər təyin etdi və onlara əmr verdi ki, heç vaxt heç kəsin əmrinə tabe olmasınlar, özlərinin lazımi şikayətlərini birbaşa padşaha yetirsinlər. Buna görə də Gəncə xanlarının səlahiyyətləri əllərindən alındı və get-gedə onlar zəifləşdilər.

[1] Söhbət Mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyindən gedir.

## QARABAĞIN XƏMSƏ MAHALLARI VƏ XƏMSƏ MƏLİKLƏRİNİN ƏSİLLƏRİ HAQQINDA

Qarabağ Taxtaqapısının beş mahalının əhalisi tamamilə xaçpə-rəst olub, Xəmsə adı ilə məşhurdur. Bu mahallar aşağıdakılardır:

Birinci, Dizaq mahalıdır ki, uzunu Əkərə çayı və Kültəpədən başlayaraq, Maltəpəyə kimi, eni isə Araz çayından Xurat dağına kimidir. Bu mahalın torpağı çox məhsuldardır. Burada yaxşı pambıq, çəltik, ipək və taxıl yetişdirilir. Araz çayı boyunca bir neçə böyük şəhər var idi. Həmin şəhərlər dağılmış və indi onların ancaq xarabalıqları qalmışdır. Onların melikləri keçmişdə Rumdan gəlmişdir. Bunlardan Məlik Yegan adlı bir şəxs Nadir şahın yanında böyük hörmətə və ehtirama malik olmuşdur və onu babalıq şah adlandırmışdılar.

Əhvalat belə olmuşdur: qış fəslində Nadir şahın ordusu Muğanda idi. Bir gün Nadir şah Məlik Yeganı öz yanına çağırıb imtahan üçün ondan göbələk istədi. O da baş üstə deyib şahın yanından getdi. Əyanlar və kəndxudalar ona dedilər ki, nə üçün şahın bu çətin tələbini qəbul etdin. Məgər ilin bu vaxtında göbələk tapılarmı? Məlik Yegan isə cavabında dedi: “Bu sizin işiniz deyil, necə cavab verəcəyimi özüm bilirəm”. Beləliklə o, bir neçə gündən sonra şahın qulluğuna gedib dedi:

- Sizin əmrinizə görə mən dağlara adam göndərdim, lakin göbə-lək bitən yerləri indi qar basdığından göbələk tapmaq mümkün olmamışdır.

Nadir şah Məlik Yeganın belə itaətkar olduğunu görüb çox xoşu gəldi və dedi: “Babamsan, babam. Mən də bilirdim ki, bu mövsümdə göbələk olmaz, ancaq sizin nə dərəcədə ağıllı və itaətkar olmağınızı yoxlayırdım”. Həmin gündən sonra onu baba çağırmağa başladılar.

Məlik Yegan Nadir şah dövründə Qarabağın başqa məliklərinə nisbətən vəzifə etibarilə böyük hörmətə malik olmuşdu. O bəzi vaxt-lar isə bütün mahallarm vəkilliyini də aparmışdır. Onun təmiz və doğruçu adam olması haqqında belə nağıl edirlər: bir gün Nadir şahm arvadı da öz iltifatım göstərmək üçün Məlik Yeganın arvadmı qonaq çağırır. Məlik Yeganm arvadı şahm hərəmxanasma gəlir. Şahın mət-bəxində hörmətli qonaqlar üçün hazırlanmış cürbəcür xörəklər Məlik

Yeganın arvadı üçün də hazırlanır. Xörək hazır olandan sonra onu yeməyə dəvət edirlər. Məlik Yeganın arvadı isə bu təklifə cavab olaraq demişdi ki, bu gün pəhriz saxladığına görə yeyə bilməyəcək. Bu sözdən sonra onun etiqadlı və dindar olması şaha daha çox xoş gəlmiş və ona hədiyyə verilməsini əmr etmişdir.

İkinci, Vərəndə mahalıdır ki, o, Kirs dağından başlayaraq Əli-baba düzənliyinə qədər uzanır. Eni Kirs dağından Şuşakənd çayına və Xəlifəliyə qədərdir. Bu ərazi çox gəlirli və məhsuldardır. Burada buğda və başqa dənli bitkilər yaxşı yetişir. Adları qeyd olan yerlərin məlikləri Göycə və Zivə kəndlərindən gəlib Çanaqçı kəndində məskən salmışlar və get-gedə oranın adlı-sanlı adamları olmuşlar. Bu məliklər çox zaman Vərəndə mahalı məlikliyinin işi ilə də məşğul olmuşlar. Onlar Məlik Şahnəzərlilər adı ilə məşhurdurlar. Hərçənd məliklik üstündə onların övladları arasında çəkişmə və ziddiyyət vardı, amma onlardan hər birinin özü üçün çalışdığı aydın idi. Hətta Nadir şah onlardan Mirzəbəy adında bir məliki müqəssir bilib onu boğazından asdırmışdı.

Bir müddət məlik mənsəbliyi başqalarının əlində idi. Sonra isə yenə də məliklik Şahnəzərin övladına yetişdi. Məlik Şahnəzər çox varlı və dövlətli idi. Məlik Şahnəzər Qarabağ xanlıqları dövründə onlara çox xidmət göstərmişdir. Buna görə də böyük hörmətə malik idi. Pənah xan da yenicə hökmranlığa başlamışdı və pula böyük ehtiyacı var idi. Məlik Şahnəzər bu vaxt Pənah xana yaxından kömək etmiş və onun lazımi maddi ehtiyacını ödəmişdi.

O həmişə öz oğlu Məlik Cəmşid ilə xanlara qulluq etmiş və onların hörmətini qazanmışdı.

Hətta Məlik Şahnəzər işin və vəziyyətin yaxşılaşması xatirinə qızı Hürzad xanımı Pənah xanın oğlu İbrahim xana ərə verdi. Beləliklə də, onların arasında yaxınlıq və qohumluq yarandı. Deyilənə görə, Pənah xanın hakimiyyətinin ilk günlərindən birində Məlik Şahnəzər onun yanına gedib demişdi ki, fikir çəkmə, yeddi il sənin qoşununu köhnə darı ilə saxlaram.

Hazırda Məlik Şahnəzərin övladları sağdırlar. Rusiya hakimiyyəti zamanında da onlar böyük hörmət sahibi idilər.

Üçüncü, Xaçın mahalıdır, eni Qarqar çayından başlayıb Qabartıda qurtarır. Uzunu Qırxqız və Mıxtökən dağından Bayat meşəsinə

qədərdir. Bura da keyfiyytcə Vərəndədən yaxşı olmasa da buğda və sair məhsulları boldur.Bəzi yerlərində çəltik də yetişdirilir. Bu yerlərin çoxu meşəlik və cəngəllikdir- Deyilənə görə, Xaçında vaxtilə kiçik bir qala olmuş, adına Hetrak qalası demişlər. İndi isə bu qala kiçik bir kənd halında qamaqdadır. Bu kəndin məlikləri qədimdə Həsən Cəlalovların övladlarından olmuşlar. Onların hakimiyyəti bitdikdən sonra Pənah xanım dövründə Xndzristandan Məlik Mirzə xan adlı bir nəfər Pənah xana göstərdiyi xidmət və sədaqətinə görə onun tərəfindən məlik təyin olunmuşdur. Bu məlikin övladları da məlik olmuş və bu vəzifədə xidmət göstərmişlər. Rusiyanın hakimliyi dövründə onların axırıncı məliki Məlik Qəhrəman idi.

Dördüncü, Çiləbörd mahalıdır. Bu mahalın uzunluğu Qırxqızdan başlayıb Bərdə və Bayat meşəsinin kənarında qurtarır. Eni isə Xaçın və Qabartı çayından Tərtər çayına qədərdir. Burada toxumluq buğda və başqa taxıl məhsulu yaxşı yetişdirilir. Bunların məlikləri vaxtilə Məğavizdən gəlmişlər və burada məliklik etməyə başlamışlar. Bu məlikliyin əhalisi cəsurluqda və qəhrəmanlıqda məşhur olmuşdur. Buranın ərazisinin böyük bir hissəsi meşəlikdən və keçilməz yerlərdən ibarətdir. Garmırx adlanan məşhur qala da buradadır. Bu qala olduqca möhkəmdir. Məliklər həmişə bu qalada yaşamış, igidlik və rəşadət göstəmıişlər. Öz qəhrəmanlığı ilə məşhur olan həmin məliklərdən biri Nəlik Allahqulu idi. Allahqulu Nadir şah dövründə onun xidmətində olub, Abdulla paşa Köprülü oğlu sərəsgər ilə müharibədə böyük rəşadət göstərmişdir. Bu səbəbə görə də o, Nadir şahın əmrinə görə Məİik deyil, Sultan Allahqulu çağırılmış, böyük nüfuza malik olmuşdur.

Beşinci, Talış mahalıdr. Bu mahalın uzunluğu Murov və Gülüstani-İrəm dağından, Kürün kənarına qədər, eni isə Tərtər çayından Gorana qədərdir. Buranın torpağı çox münbitdir. Burada taxıl və sair dənli məhsul yaxşı əmələ gəlir. Bunların məlikləri əslən şirvanlı olub, Talış kəndində məskən salmışlar. Bunlar Bəylərovlar adı ilə məşhurdurlar. Onların övladlarından bir neçəsi də məliklik vəzifəsini daşımışdır.

Nəhayət, böyük məlik Usub Gülüstan qalasını zəbt edərək orada yerləşmişdir! Onların övladları hazırda Rusiya hakimiyyəti dövründə də böyük nüfuza malikdirlər

## XANLARIN ƏSLİ VƏ TƏRƏQQİ DÖVRÜ HAQQINDA

Qarabağ xanlarının əsli Cavanşir oymağı və Sarıcalı tayfasındandır. Bəzilərinin dediyinə görə, onların əsli tatar elindəndir. Həmin elin əziz və hörmətli adamlarından biri vətəni tərk edib Gürcüstanda Lori qalasına getmişdi. Gəncə xanlarının tərəqqi dövründə həmin şəxs onların yanına gəlib vəzifə sahibi olmuşdu. Nəhayət, oradan da Qarabağa, Cavanşir elinə gəlmiş, burada evlənmiş, bir oğlu da olmuşdur. Oğlanın adını da Əli qoymuşdur. Bu oğlan san olduğu üçün onu Sarıca Əli çağırırdılar. Malı, dövləti çox olduğu üçün o, ətrafına çoxlu yoxsul və muzdur toplamışdı. Bu el Sarıca Əli adı ilə məşhurdur.

Sarıca Əlidən sonra mal-dövlət onun oğlu İbrahim ağaya keçdi. İbrahim ağa isə mal və dövləti çox olduğuna görə məşhurlaşdı. İndi də Ağdam şəhərində onun bağından nişanələr var. Arasbar isə İbrahim ağanın mal-qarası üçün otlaq yeri idi.

İbrahim xanın Qalaq yaylağı da məşhur yerdir. Nadir şah Cavanşir elindən qoşun toplayarkən İbrahimxəlilin böyük oğlu Fəzləli bəyi öz yanına aparıb eşikağası təyin etdi. Fəzləli bəy vuruşma meydanında öldürüldükdən sonra Nadir şah onun kiçik qardaşı Pənahəlini öz yanına gətirib onu qardaşının əvəzində carçı təyin etdi. Pənahəli öz vəzifəsini bir müddət yerinə yetirdi. Lakin müəyyən zaman keçdikdən sonra Nadir şahın xidmətindən qaçıb Qarabağa getdi. Orda-burda gizlicə yaşayıb özünü müdafiə etdi. Nadir şah Pənahəlinin tutulması və onun yanına gətirilməsi haqqında Azərbaycan əmirlərinə, bəylərbəyilərinə, Şirvan xanlarına və başqa şəxslərə təkidlə fərmanlar göndərdisə də, onun əmri yerinə yetirilmədi.

Nəhayət, 1747-ci ildə Nadir şahın öldürülməsi xəbəri hər tərəfə yayıldı. Nadirin ölümündən sonra Pənahəli üzə çıxdı və Qarabağ elində başına bir dəstə toplayıb hakimiyyətdən dəm vurdu.

Pənahəli bəy Qarabağın ən böyük ellərindən olan Cavanşir, Otuz-iki və Kəbirli elləri ilə bərabər sürgündən qayıtmış Gürcüstan ellərini də öz ətrafına toplamışdı və bu ellərin hər biri ilə yaxşı rəftar edirdi. Pənahəli bu ellərin içərisində olan adlı-sanlı cavanları öz başına toplayıb vilayətlər içərisində böyük qəhrəmanlıq göstərdi, qonşu hökmdarlarla çəkişmə və vuruşma başladı. Belə bir şəraitdə, yəni Nadir şah öldürüldükdən sonra Adil şah adı ilə məşhur olan qardaşı

oğlu Əli Qulu xan onun yerində hökmran oldu. Əmiraslan xan isə onun tərəfindən Azərbaycan ölkəsinin sərdarı təyin edildi. Əmiraslan Pənahəli bəyin əhvalatını eşidib onu görmək arzusuna düşdü. Nəhayət, onlar bir-biri ilə görüşdülər. Bu görüş zamanı Əmiraslan xan Pənahəliyə Adil şaha itaətkar olmağı təklif etdi.

Pənahəli bəy dövrün hökmünə görə bu təklifi qəbul etdi. Əmiraslan işin nə yerdə olduğunu Adil şah həzrətlərinə xəbər verdi. Xələti, qılıncı və xanın yazılı hökmünü Pənah xana apardı. Pənah xan işə təzə başladığından möhkəm bir yerin (mərkəz) olması haqqında düşündü ki, baş verə biləcək hadisələrdən orada özünü qoruya bilsin.

1162 (1748)-ci ildə Bayatda səngər və qala binası qoydu, orada bir divanxana hasarı tikdi. Bu zaman Qarabağ Xəmsə məlikləri bir yerdə Şirvanatda və başqa yerlərdə ixtiyar sahibi Hacı Çələbiyə belə bir məktub yazdılar ki, Pənah xan Qarabağda hökmdar olmuşdur, qala və səngər tikdirməyə başlamışdır. Özü də ağalıq iddiasındadır. Araqarışdıranlar Hacı Çələbini Pənah xanla vuruşmağa təhrik etdilər və ona yazdılar ki, əgər bu işdə lazımi ölçü götürülməsə, bu adamın öhdəsindən gəlmək çətin olacaqdır.

Hacı Çələbi onların yazdıqlarına əsasən Car və Balakəndən, Şir-vanatdan və başqa yerlərdən güclü qoşun toplayıb, Pənah xanı əzmək və məhv etmək niyyətilə yola düşdü. Pənah xan da öz adamlarını Bayat qalasında toplayıb müdafiəyə hazırlaşdı. Hacı Çələbi inadla davaya girişdisə də arzu və məqsədinə çatmadı və geri qayıtmağa məcbur oldu.

Hacı Çələbi geri qayıtdığı zaman yolda demişdi: "Pənah xan indiyə kimi sikkəsiz qızıl kimi idi, biz də gəlib sikkə vurduq və geri qayıtdıq". Bu söz camaatın arasında zərbi-məsəl oldu. Bundan sonra Pənah xan daha özünə möhkəm yer axtarmağa başladı. 1165 (1751)-ci ildə Şahbulaqda dağın lap ətəyində Şahbulaq adlanan yerdə bir qala tikdirdi[1*]. Məscid, dörd yol ayrıcında hamam tikdirmək üçün plan tərtib edib bu yeri özü üçün sakit və rahat bir mərkəzə çevirdi.

Bundan əlavə, Çiləbörd və Talış məlikləri ilə davaya və döyüşə başladı. Belə bir vəziyyətdə Qarabağ məlikləri arasında özlərinə rəhbər seçmək işində ziddiyyət və ixtilaflar yarandı.

---

[*] [1] Müəllif səhv edir. Şahbulaq qalası 1749-cu ildə tikilmişdir. Bayat qalası isə 1748-ci ildə bina edilib.

Qarabağ məlikləri öz içərilərində bir nəfər rəhbər məlik seçmək istədilər. O hər bir səlahiyyətə malik olub hamı onun əmrinə tabe olmalı idi. Buna görə də məliklər arasında ziddiyyət yarandı.

Məliklik iddiasında olan və özbaşınalıq edən Məlik Şahnəzər Vərəndə mahalının məliki olan əmisi Məlik Həsəni öldürdü.

Xəmsə məlikləri bu həyəcanlı xəbəri eşidən kimi öz qoşunlarını götürüb haqsızlıq edərək, əmisini öldürmüş Məlik Şahnəzəri cəza-landırmaq üçün onun üzərinə birgə hücuma keçdilər.

Məlik Şahnəzər özünü müdafiə etmək üçün Çanaqçı kəndində qalaça tikdirib, ətrafına divar çəkdirmişdi. Ona görə də məliklər Çanaqçı kəndini tuta bilməyib, Vərəndə mahalını qarət etdilər. Onlar gələn il yenə də qoşun və adamları ilə Çanaqçı kəndinin üzərinə hücum çəkmək, buranı güclə zəbt etmək və Məlik Şahnəzəri tənbeh etmək niyyətilə geri qayıtdılar.

Məlik Şahnəzər o biri məliklərə nisbətən özünün zəif olduğunu və işin pis nəticə verəcəyini hiss etdi. O, ümidsiz qalıb, Pənah xanın yanına gəldi və ona pənah gətirdiyini, itaət etdiyini bildirdi. Məliklərin şərindən qurtarmaq üçün ona kömək göstərməsini xahiş etdi. Pənah xana axıradək itaətkar və sədaqətli olacağını bildirdi.

## PƏNAH XANIN YÜKSƏK DƏRƏCƏDƏ TƏRƏQQİSİ VƏ ONUN BİR NEÇƏ VİLAYƏT ÜZƏRİNDƏ SƏRDARLIĞI

Nadir şahdan sonra İranda müstəqil şah yox idi. Ona görə də İranın müxtəlif vilayətlərində hər kəs yerindən qalxıb padşahlıq iddiasına düşür, qoşun düzəldib vuruşurdular. Yuxarıda da bu barədə yazılmışdı.

Azad xan əfqan tayfaları ilə birlikdə İranın bir hissəsini öz əlinə keçirtdi. Fars, Luristan, İran qoşunlarının köməyi ilə Kərim xan başqa yerləri öz əlinə aldı. Astarabad və Mazandaran tərəfləri Məhəmməd-həsən xan Qacar zəbt etdi. Urmiya və Əfşar vilayətlərinə Fətəli xan sahib oldu. Bunlardan heç birisi bir-birinə tabe olmurdular. Bu zaman Pənah xan da Qarabağ mahalında baş qaldırmışdı. Xəmsə məliklərini sakitləşdirdi və tərəddüd edənlərə də lazımi tənbeh etdi.

O, Qaradağ hakimlərindən Mehri, Güney mahallarını, Bərgüşada kimi Naxçıvan hakimindən Tatef və Sisyan mahallarını, Təbriz

bəylərbəyisindən Uşacıq kəndinin yuxarısınadək, Tərtər çayı sahilində Kolanıların məskəni olan Göyçə sərhədinə kimi İrəvan hakimindən aldı. Vaxtilə Xudafərin körpüsündən Kürək çayına kimi ərazi Gəncə bəylərbəyilərinə tabe idi. İki-üç ilin müddətində, yəni 1755-1757-ci illərdə bu qeyd olunan yerləri onların əllərindən alıb öz ixtiyarlarına keçirdi.

Bundan başqa Kəngərliləri Naxçıvandan olan bir minbaşıya, Gürcüstan elindən olan Dəmirçi Həsənli, Çinli tayfalarını da başqa minbaşıya tabe etdi.

Bunların hamısını öz yanına çağırıb, onlara Qarabağda yer verdi. Onlar həmişə Pənah xana ürəklə və sədaqətlə xidmət edirdilər və heç vaxt onlarda Pənah xana qarşı xəyanət və ya inadcıllıq görünmürdü. Əsil Elat - Qarasuvay, Taxtaqapı, Cavanşir, Otuzikilər və Kəbirli eli idi. Bunlar hamısı Pənah xanın itaətindəydi. Cavanşir və Otuziki mahallarının əhalisindən bəzi vaxtlar müxtəlif xəyanətlər görünürdü.

Az vaxtda Pənah xan Gəncə, Qaradağ, Ərdəbil, Naxçıvan hakimlərini və xanlıqlarını özünə tabe edib, itaətə gətirdi. Pənah xan vilayətlərin bəzilərində onların öz adamlarından hakim və başçılar təyin etdi. Vilayətin hər birinin adlı-sanlı adamlarının uşaqlarından və qadınlarından gətirib Tərnəküt qalasında əmanət saxlayırdı.

## ŞUŞA QALASININ BİNASI, QACAR MƏHƏMMƏDHƏSƏN XANIN ŞUŞA QALASINA HÜCUMU VƏ MƏQSƏDƏ ÇATMADAN GERİ QAYITMASI

Qacar Məhəmmədhəsən xanın istiqlaliyyət xəbəri İran, Azərbaycan və Mazandaran vilayətlərinə çatan kimi Pənah xan təşvişə düşdü. Çünki Nadir şahdan sonra Məhəmmədhəsən xanın qardaşı oğlu Adil şah sərdar Əmiraslan xan ilə dostluğu möhkəmlətmişdi. Buna görə də Məhəmmədhəsən xana onların ziddinə getmək və onlarla düşmənçilik etmək çox çətin idi. Eyni zamanda ətraf xanlardan da arxayın deyildi. Daxildə də düşmənlər çox idi. Əgər o başqalarının təhriki ilə Qarabağa hücum etsə idi, bunun nəticəsində ancaq onun eli və adamları düşmən ayağı altında əziləcəkdi. Yaxşı demişlər: “Olacaq hadisənin qarşısını yalnız hadisə baş verməzdən qabaq

almaq gərək”. O öz vəzir-vəkilləri ilə məsləhət etdi, bu qərara gəldilər ki, gözəl, səfalı və xətasız bir yerdə qala tikdirsinlər. Soraqlaşdıqdan və axtarış etdikdən sonra Məlik Şahnəzərin bələdçiliyi və nümayəndəliyi ilə əhalinin indiki yaşayış yeri olan Şuşa qalasının yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gözü ilə görmüş və hər cəhətdən bəyənmişdi. Lakin ərazinin ortasından su axmadığı üçün bir neçə yerdə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1166 (1752)-cı ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu. Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin aşağı tərəfini və bir də şərq tərəfinin bəzi yerlərini ölçdülər. Bu işdə kənd əhli, mahalların məlikləri, ellərin başçıları ilə bir yerdə çalışaraq, beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər.

Bu divardan nə top gülləsi, nə də başqa bir şey keçməzdi. Çünki divar daş və əhənglə bərkidilmişdi. Bu divarlardan dörd darvaza açdılar. Şimal və şərq tərəfdən olan darvazaya - Şuşa kənd darvazası deyilir. İki darvaza isə şimal ilə qərb arasındadır. Bunlardan birinə İrəvan darvazası, digərinə isə Gəncə və Çiləbörd darvazası deyilir. Dördüncü darvaza isə dağılmış və hazırda onun yerinə divar tikilmişdir. İndi isə şəhərin ancaq üç darvazası var.

Şuşa şəhəri bina olandan sonra Pənah xan Şahbulaq qalasının əhalisini, bəzi Qarabağ və başqa kənd adamlarını köçürüb Şuşa şəhərinə gətirdi, onlara burada yer verdi. Burada sikkəxana tikdirdi. Pənahabad adı ilə bir misqal vəznində gümüşdən pul sikkəsi vurdurdu. Sikkənin bir tərəfində Pənahabad, o biri tərəfində isə “La ilahə illəllah, Muhəmmədən rəsulullah” sözləri yazılmışdı. “Pənahabadın” altısı bir manat, səkkizi isə Qarabağ tüməni adlanırdı.

Pənah xan Şuşa qalasını tikdirib qurtardıqdan sonra asudələşdi. Bir il bundan sonra belə bir xəbər gəldi ki, Qacar Məhəmmədhəsən xan İraq, Azərbaycan və başqa vilayətlərin əhalisindən topladığı çoxlu qoşunla Qarabağ tərəfə, Şuşa qalası üzərinə basqın etmək fikrinə düşübdür. Pənah xan da özünə tabe olan ellərdə, Taxtaqapının və başqa kəndlərin işgüzar və döyüşə qabiliyyəti olan kişilərini Şuşa qalasına toplayıb, düşmənə qarşı müqavimət göstərməyə və şəhərin müdafiəsinə hazırlaşdı. Məhəmmədhəsən xan da özünün çoxlu

qoşunu ilə gəlib Şuşa şəhərinin ətrafındakı Xatın arxı yanmda dayandı. Oradan yuxarı tərəfə hərəkət etməyə cəsarəti olmadı. O, Pənah xanı tutmaq üçün müxtəlif hiyləyə əl atdısa da, bu iş mümkün olmadı. O biri tərəfdən də Qarabağ əhli, onların qoşunları və başqa dəstələr düşmənin mal-dövlətini əlindən alıb zərər vurdular, hətta əsgərlərin də atlarını əllərindən alıb, var-yoxunu qarət etdilər. Bunlar üçün azuqə gətirənlərin yolunu kəsirdilər. Bu zaman Kərim xanın qələbəsi, istiqlaliyyəti və onun İran tərəfə olan yürüşü Məhəmmədhesən xanm qulağma çatdı. Bu xəbəri eşidən Məhəmmədhəsən xan İraqa getmək fikrindən əl çəkdi. Məhəmmədhəsən xanm Tehran-dan gətirdiyi hasar topu adı ilə məşhur olan iki böyük topu Xatm arxmda qalmışdı. O gedəndən sonra bu toplar Şuşa qalasma gətirildi. 1242 (1826)-ci ildə Şuşa qalasmm qızılbaşlar tərəfindən mühasirəsi zamanı bu toplar rus əsgərlərinin əlində idi. Əsgərlər lazım olan vaxt toplardan istifadə edirdilər. Şuşa qalası əhli gün-gündən artırdı. Keçmişdə Pənah xanın zamanmda çəkilmiş qalanm qədim divarları 1214 (1799)-cü ildə dağılmışdı. İbrahim xanın dövründə və Rus döv-ləti zamamnda bilikli və məlumath mühəndis və bələdçilərin yaxşı planı və nəqşəsi üzrə həmin divarlar bir verstdən artıq uzadıldı və əvvəlkindən daha möhkəm bir divar çəkildi...

Şuşa şəhərinin məhəllələri aşağıdakılardan ibarətdir:

Mehrili, Qazançılı, Əylisli, Çiləbörd Dərə, Aşağı məhəllə, Qurdlar, Culfa, Quyuluq, Çuxur məhlə, Hacı Yusuflu, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Çölqala və Hamamarası.

## PƏNAH XANIN BAŞQA XANLARLA BİRLİKDƏ İRAKLİ XAN TƏRƏFİNDƏN TUTULMASI

Elə ki Məhəmmədhəsən xan müvəffəq olmayıb geri qayıtmağa məcbur oldu, Pənah xan özünün bacarıq və qabiliyyətini hiss etdi. Qaradağlı Kazım xanı, naxçıvanlı Heydər xanı, gəncəli Şahverdi xanı yanına çağırıb, müşavirə etdi və belə bir qərara gəldi ki, Şirvanat vilayətləri və Dağıstan tərəfləri Hacı Çələbinin ixtiyarına keçdiyi üçün ona tənbeh etmək lazımdır. O bizə heç etina etmir və heç bir işdə də məsləhətləşmir və nə də yoldaşlıq edir, ona görə biz gərək

bütün səyimizi və gücümüzü sərf edib, onu cəzalandıraq və onu qəflət yuxusundan ayıldaq.

Bu əzm və iradə ilə Gürcüstan valisi İrakli xanla əlaqəyə girmişdi. İrakli xan öz razılığını onlara xəbər verdi və dedi:

- Bu barədə müzakirə etmək üçün Gürcüstan tərəfinə gəlməlisiniz. Mən məsləhət görürəm ki, birlikdə Hacı Çələbinin dəfinə və əleyhinə mübarizə aparaq.

Yuxanda adları çəkilən xanlar hazırlıq görərək qət etdikləri qərarın icrasına böyük səy ilə çalışırdılar. Buna görə də Gəncənin yuxarısında Qızılqaya deyilən yerdə çadır qurdular.

Burada İrakli xan müzakirə üçün gələn dörd nəfəri - yəni Pənah xanı, Kazım xanı, Heydərqulu xanı və Şahverdi xanı rutub həbs etdirdi. O saat Şahverdi xanın nökərlərindən biri atına minib özünü Hacı Çələbiyə yetirdi. Bu vaxt Hacı Çələbi Mingəçevirin ayrıcında, Kürün kənarında dayanmışdı. Hacı nökəri görcək onun Kürdən keçirilməsini əmr etdi və soruşdu: “Oğlan, nə var?” Nökər cavab verdi: “Qoca baba, vali xanları tutdu”. Hacı Çələbi atlıya dedi: “Yenə qoca baban onları qurtarar”. Bundan sonra Hacı Çələbi öz qoşun başçılarına və əyanlarına əmr verdi ki, bu barədə məsləhətləşin və eyni zamanda dedi: “Hər nə məsləhət görürsüz görün, Kürü keçməyi unutmayın”. Sonralar bu söz xalq içində bir məsəl kimi işlənirdi. O saat Hacı Çələbi qoşunu ilə Kürdən keçir, vali İrakli xan olan tərəfə üz qoyur. Vali İrakli xan bu xəbəri eşitdikdə çox qorxur. Çünki ondan qabaq da Hacı Çələbinin zərbəsini yemişdi. Amma çarəsiz qalıb qoşunu Hacı Çələbinin qarşısına çıxardı. Şeyx Nizami məzarının ətrafında hər iki dəstə qarşılaşdı. Valinin qoşunu məğlub olub qaçmağa üz qoydusa da Hacı Çələbi onlara qaçmaq üçün fürsət vermədi. İrakli çadırları, ordunu və hərbi sursatı Qızılqayada qoyub Tiflisə tərəf qaçdı.

Hacı Çələbi gürcü qoşununu Sınıq körpüdən üç fərsəx uzağa kimi təqib etdi. Onlardan bir çoxlarını qətlə yetirdi. Hacı Çələbi Paydarda səngər qazıb, öz oğlu Ağakişini Tiflisin bu tərəfində yerləşən müsəlmanlar üçün başçı və hakim təyin etdi. Həbs olan xanlan da azad etdi və onları öz yerlərinə göndərdi, özü isə qayıdıb Şirvana gəldi. Ağakişi bəy üç il o nahiyələrdə hökmranlıq etmişdir. Sonralar isə vali Gürcüstandan, Başıaçıq və Çərkəslərdən çoxlu adam toplayıb, güclü qoşunla Ağakişi bəyin üzərinə hücum etdi. Ağakişi bəy ona nisbətən gücsüz olduğundan onun qarşısmda davam gətirə bilməyib, qaçmağa

başladı. Valinin qoşununun qabaq hissəsi Tovuz çayında ona yetişdi, hər iki qoşun arasında vuruşma başlandı.

Vuruşma nəticəsində bir neçə nəfər adamlarından və qoşunundan öldürüldü, bəziləri də əsir alındı. Özü isə sağ və salamat Kür çayından keçib Şəki vilayətinə gəldi. Valinin qoşunu Xudafərin körpüsünə kimi getdi, qayıdan zaman Gəncə və Qarabağ əhalisinə çoxlu zərər vurdu və onları qarət etdi.

## URMİYA HAKİMİ FƏTƏLİ XAN ƏFŞARIN QARABAĞ ÜZƏRİNƏ HÜCUMU, MÜHARİBƏ VƏ SÜLH ETMƏSİ, İBRAHİMXƏLİL AĞANIN APARILMASI

Urmiya hakimi Fətəli xan Əfşar Nadir şahın adlı-sanlı sərkərdələrindən biri olub, Azad xandan sonra Azərbaycanın bəzi vilayətlərini istila etmişdi. Bu vilayətlərdə Pənah xandan başqa ona müqabil adam yox idi. Bir neçə dəfə Pənah xanın üzərinə hücum edib onunla müharibə etdi, amma məqsədə nail ola bilməyib, geri döndü. Axırıncı dəfə isə çoxlu qoşunla geniş düzənlik olan Ballıca çayı ilə Xoca Əlili çayının arasına gəldi və yolun kənarında səngər qurub burada dayandı. Hazırda da burada o səngər divarlarının xərabələri və nişanələri qalmaqdadır. Bu yer xalq arasında Fətəli xan səngəri adı ilə məşhurdur.

Fətəli xan qış fəslini burada keçirdi. O zaman Çiləbörd və Talış məlikləri - Məlik Hatəm və Məlik Usub da Fətəli xanın yanına gəlib onun qoşunu ilə birləşdilər və burda özləri üçün ayrıca səngər qurdular. Bu səngərlərin də nişanələri qalmışdır. İran qoşunları altı ay burada qaldı, amma bir nəticə əldə edilmədi. Nəhayət, məliklərin köməyi, ümumi əhalinin ittifaqı ilə qətiyyətlə və döyüşə hazır bir halda müharibə meydanına qədəm qoydular. Pənah xan da düşmən öldürməkdə, sədaqətdə, inadkarlıqda tərifə ehtiyacı olmayan bir dəstə qarabağlılarla qarşıya çıxdı, düşmənlə müharibə etməyə başladı.

Hər iki tərəf mübarizəyə hazır olub vuruşa başladılar. Bu vuruşmada hər iki dəstə öz igidlik və rəşadətini göstərdi...

Həmin gün güclü vuruşma oldu. Öldürməkdə, əzməkdə, bir-birinin qol-qıçını qırmaqda heç kəs özünü müqəssir bilmirdi. Fətəli xan gördü ki, bu müharibədən bir nəticə çıxmayacaq və məqsədinə

nail olmayacaq. Bu qədər çalışmaq və səy hədər getdi. Çarəsiz qalıb başqa yol axtardı, hiylə düzəltdi, Pənah xanla barışmaq və dostluq yolunu seçdi. Pənah xan da ədalətli bir sülhün olmasına razılıq verdi. Ağa körpüsündə bir-birilə görüşdülər. Dostluq, bir-birinə sadiq olmaq şərtilə möhkəm bir müqavilə bağladılar. Fətəli xan Pənah xana müraciətlə qeyd etdi ki, bundan sonra bizim aramızda ayın-seçkilik olmamalıdır, sizin oğlunuz İbrahimxəlil ağanın məhəbbəti də bizim qəlbimizdə yer tutmuşdur. Yaxşı olardı ki, gözəl xasiyyətə malik xanzadəni[1*] bir neçə günə bizim yanımıza qonaq göndərəsən, onun barəsində lazımi məhəbbət və qonaqpərvərlik göstəriləcəkdir, belə bir mərhəmət bizim üçün başıucalıq olardı. Əlbəttə, görüş bitdikdən sonra yenə də böyük hörmət və ehtiramla oğlunuz siz dostumuzun xidmətinə göndərilər. Pənah xan onun qurduğu hiyləyə aldanıb, bir neçə nəfər iş bilən adamları ilə oğlu İbrahimxəlil ağanı Fətəli xanın qərargahına göndərdi. Fətəli xan da dövlət başçılarından bir neçə nəfəri İbrahimxəlili qarşılamaq üçün göndərdi və onu böyük ehtiramla öz qərargahına gətirdi. Bir neçə gündən sonra İbrahimxəlil ağa işin başqa şəkildə olduğunu görüb, atasının yanına adam göndərdi və bildirdi:

\- Davranışından məlum olur ki, Fətəli xan məni özü ilə aparacaqdır. Ona görə də mənim kürən atımı göndər, ola bilsin ki, o atın köməyi ilə gərək özümü bu fəlakətdən qurtarım.

Atasından sifariş və at gəlincə Fətəli xan köçmək əmrini verdi və İbrahimxəlil ağanı da özü ilə götürüb geri qayıtdı. Bu dəhşətli xəbər Pənah xana çatanda işıqlı dünya onun gözünə qaranlıq göründü. Ciyərinin parası olan oğlunu xilas etmək üçün öz yaxın adamları ilə məsləhətləşdi və dedi:

\- Bu barədə kim bir tədbir görə bilər? Kimin açarı ilə zəfər qapısı açıla bilər?

Bu vaxt Kərim xan Zəndin qardaşı İskəndər xanın öldürülməsi xəbəri gəldi. Kərim xan qardaşının qanını almaq məqsədilə Azərbaycana gəlmək fikrinə düşdü və Pənah xanın da onun yanında olmasına çalışdı. Bu məsələnin təfsilatı belədir: Kərim xan Zənd yaxşı xasiyyətli bir əmir, güclü bir başçı idi. İraq, Fars və Rəşti öz möhkəm qolunun gücü ilə almışdı. Fətəli xan öz vilayətinə qayıtdığı vaxt Kərim xanla vuruşmağa başladı. Kərim xan öz qardaşı İskəndəri

---

[*] [1] Xanzadə - Pənah xanın oğlu İbrahimxəlilə işarədir.

onunla vuruşmağa göndərdi. Vuruşma İsfahan ətrafında başlandı. Allahın qəzası ilə bu davada İskəndər xan öldürüldü, qoşunu da məğlub edildi.

Fətəli xan İraq vilayətlərinin bir neçəsini istila etdi. Qardaşı İskəndər xanın ölüm xəbərini eşidən kimi Kərim xanın hirsindən qanı beyninə sıçradı. İntiqam almaq və qan tökmək məqsədilə qüvvətli qolunu çırmalayıb saysız-hesabsız qoşun topladı. Azərbaycana gəlməmişdən qabaq Pənah xana bir dostluq məktubu yazıb, etibarlı adamlarından biri ilə göndərdi. O bu məktubda belə yazmışdı: "Pis adam olan Fətəli xan bizimlə qanlı, sizinlə də qatı düşməndir, bizim qardaşımızı öldürüb, sizinlə isə bağladığı müqaviləni pozub, ona riayət etməyib, oğlunuzu götürüb aparmışdır, hər gün bir tərəfə və hərdən biri ilə vuruşmaya başlayır (həyat sizin üçün qisas almaqdan ibarətdir). Buna görə də ədavət qılıncını qınından çıxarıb intiqam almağa əzm etmişəm. Sizdən dostcasına xahiş edirəm ki, tezliklə ixtiyarınızda olan qoşunu götürüb mənim yanıma gələsiniz, bir yerdə onunla vuruşmağa hazır olasınız. Həm sizin oğlunuzu fəlakətdən qurtarım, həm də öz qardaşının intiqamını ondan alım". Pənah xan oğlunu xilas etmək üçün fürsət axtarırdı və Allahdan yeganə arzusu o idi ki, Fətəli xanı cəzalandırsın. Pənah xan bu xəbəri eşidən kimi cəld çoxlu atlı və piyada götürüb, Kərim xanın yanına gəldi. Kərim xan onu böyük hörmət və izzətlə qarşıladı. Onlar birlikdə Fətəli xanı dəf etməyə yola düşdülər. Urmiya ətrafına yetişərkən Fətəli xanla qarşılaşdılar. Fətəli xan bir az vuruşduqdan sonra davam gətirə bilməyib qalaya qayıdaraq gizləndi. Bir neçə müddət sonra zəiflədiyini hiss etdi, çarəsiz qalıb, Kərim xana itaət etməyə başladı.

Kərim xanın verdiyi vədə inanıb üzə çıxdı və itaətkarlıq göstərdi. Kərim xan özünü şah yox, vəkil adlandırırdı. Burada İbrahimxəlili öz yanına çağırıb ona xələt, qılınc, qızıl yəhərli bir at bağışladı, eyni zamanda ona Qarabağa getməyə və orada hökmranlıq etməyə əmr verdi. Kərim xan Pənah xandan bir neçə günlüyə birlikdə səyahətə və kef çəkməyə Şiraza getmələrini xahiş etdi. Pənah xan isə onun bu xahişini qəbul etdi. Kərim xan Fətəli xanı da özü ilə götürüb Şiraza getdilər.

Kərim xanın anası öz qardaşının qisasını Fətəli xandan almağı oğlundan tələb edirdi, buna baxmayaraq, Kərim xan öz verdiyi vədi və bağladığı müqavilənaməni pozmaq istəmədi. Birlikdə getdikləri

zaman yolun yarısında Fətəli xanla İskəndər xanın vuruşduğu yerə yetişdilər. Kərim xan Fətəli xandan soruşdu: “Bu yer nə yerdir?” Kərim xan dalğınlıqla cavab verdi ki, bu həmin təhlükəli döyüş meydanıdır ki, burada İskəndər xanın həyat günəşi qaranlıqlar içərisində söndü. Kərim xan Fətəli xanın bu cavabından elə qəzəbləndi ki, az qaldı ürəyi partlasın. Kərim xan o saat Fətəli xanın ölümünə əmr verdi, cəsədini isə qardaşı İskəndər xanın yanında basdırdılar. Bir neçə gündən sonra Kərim xan və Pənah xan Şiraza çatdılar. Orada bir neçə gün qaldılar, Pənah xan Şirazda xəstələnib öz əcəli ilə vəfat etdi, onun cənazəsini böyük hörmətlə Qarabağa gətirdilər. Ağdamda öz pulu ilə alınmış yerdə dəfn etdilər... Bəziləri deyirlər ki, Pənah xan qəsdən özünü ölülüyə vurmuş idi. O öz yaxın adamlarına vəsiyyət etmişdi ki, öləndən sonra onun cənazəsini Qarabağa aparsınlar, bu məqsədlə və hiylə ilə Şirazdan çıxıb, yolda ata minib, Qarabağa getsin və burada öz hökmdarlığını davam etdirsin. Kərim xan Pənah xanın fikrini başa düşərək deyir:

- Pənah xan mənim xeyirxah dostumdur. Buna görə də mən gərək onun cənazəsini tam hörmətlə Qarabağa göndərəm.

Onun qarnını yarıb ədviyyat ilə doldurduqdan sonra Qarabağa yola salır.

## QARABAĞDA VƏ BAŞQA YERLƏRDƏ İBRAHİMXƏLİL XANIN HÖKMDARLIĞI VƏ ONUNLA YAXIN YERLƏRDƏ OLAN XANLARIN ARASINDAKI HADİSƏLƏR

1148 (1762)-ci ildə Pənah xanın vəfatından sonra böyük oğlu İbrahimxəlil xan atasının yerində hakim oldu. O heç kəsə tabe olmurdu, əksinə İraq, Azərbaycan hüdudları arasında olan Şəki, Şirvan, Gəncə, Ərdəbil, Xoy, Marağa, İrəvan, Qaplanguha kimi vilayətlərin məlik, hakim və xanlıqlarından üstün idi.

Çox vaxt göstərilən hakimlərin işdən götürülməsi və ya təyin edilməsi onun əmri ilə icra olunurdu.

O, avar və Dağıstan hakimi Ümmə xanın bacısı Bikə ağaya evlənərək onunla qohum oldu. Dağıstan ölkəsindən ona kömək gəlirdi və

çox vaxt ləzgilərin qonşularını yanında qonaq sifətilə Qarabağ kəndlərinin hesabına saxlayırdı. İbrahimxəlil xan Qaradağ vilayətini də həmin ləzgi qoşununun köməyi ilə zəbt etdi. Araz kənarında bir çox binaları və abadanlıqları olan və eyni zamanda Qaradağ vilayəti hakiminin əyləşdiyi yeri - Guruşt qalasını dibindən dağıdıb yerlə-yeksan etdi, oranın əhalisini başqa vilayətlərə köçürərək, pərən-pərən saldı.

R ü b a i (sətri tərcümə):
Guruşt haradır? Gözəllikdə səkkizinci cənnətdədir,
Onunla mənim qəlbim həmişə sevinirdi.
Bunda nə hikmət var ki, Adəm behiştdən,
mən də Guruştdan qovuldum.

İbrahimxəlil xan Guruşt hakimi Mustafa xanı tutub özü ilə gətirdi və Şuşa qalasında həbs etdi. Qaradağın bəzi mahallarını hədiyyə və bəxşiş olaraq sərkərdələrinə bağışladı ki, onun gəlirindən və xeyrindən istifadə etsinlər.

## İBRAHİM XANIN NAXÇIVANA HÜCUMU

O zamanlar Naxçıvan hakimi Kəlbəli xanla İbrahim xanın arasında ədavət törəmişdi. Buna görə də İbrahim xan Dağıstan ləzgilərindən kömək istədi və Dağıstan hakimi Ümmə xan öz qoşunu ilə İbrahim xanın köməyinə gəldi. İbrahim xan Qarabağın atlıları və könüllüləri ilə (çəri) birlikdə hərəkət etdi. Kəlbəli xana cəza vermək qərarına gəldi və onun olduğu Qarababaya yetişərək dayandı. Qoşuna kəndləri və əkin yerlərini dağıtmaq əmrini verdi. O, Qara-babanı mühasirəyə aldı.

Kəlbəli xan da qabaqcadan İrəvan hakimindən kömək istəmişdi. O da ona bir qədər kürdlərdən və başqa ellərdən kömək göndərmişdi.

Yuxarıda qeyd etdiyimiz yerdə hər iki tərəfin qoşunu bir-birinə rast gəldi. Kəlbəli xan bir qədər geri çəkildikdən sonra Tiflis yolu ilə qaçmağa üz qoydu. Bunu görən Ümmə xan iti gedən atını onların dalınca çapdı. İbrahim xan isə Ümmə xanın Kəlbəli xanı təqib etməsinə mane oldu və onun təqibi nəticəsiz qaldı.

Bu zaman igidlikdə dünyada ad qazanan Zeylan və Qarapapaq kürdləri qaçağan atlarının cilovunu buraxıb və iti qılınclarını kəmərlərindən çıxarıb ləzgilərin üzərinə hücum etdilər. Ləzgilər artıq tab gətirə bilməyib, qaçmağa üz qoydular. İbrahim xan könüllü qoşunu (çəri) Qarababanın mühafizəsi üçün qoymuşdu. O, çarəsiz qalıb məlik və yüzbaşıların yanına adam göndərdi, onlara geri qayıtmaq əmrini verdi. Burada Kəlbəli xanla dostluğun əsasını qoydu. Beləliklə, dostluq və məhəbbət əlaqəsi bu gündən etibarən davam etdi. İbrahim xan qoşunu və çəriləri götürüb Qarabağa gəldi.

## İBRAHİM XANIN XOYA GETMƏSİ

İbrahim xan Naxçıvanı zəbt etdikdən sonra öz bacarığına daha da güvəndi. Ağa Məhəmməd xanın İranda hökmranlıq etməyə başlamasına baxmayaraq, işi hələ də tərəqqi etməmişdi. Onun bu zaman Fars və Şiraz tərəflərdə olduğundan istifadə edərək İbrahim xan Xoy vilayətini özünə tabe etmək fikrinə düşdü. O, 1203 (1788)-cü ildə ləzgi, Car, avar və Qarabağın könüllülərini və Qaradağın qoşununu toplayıb Xoy tərəfə hərəkət etdi.

Özünün çoxlu və güclü qoşunu ilə keçə-keçə Mərəndə varid oldu. Xoy hakimi Cəfərqulu xan da öz adamları ilə İbrahim xanın qarşısını almaq üçün tələsik hərəkət etdi. Bəzi elmlərdə şöhrəti olan və Molla Pənah təxəllüsü ilə bir alim İbrahim xanın yanında qulluq edirdi. Bu şəxs hesab, rəml və astronomiya elmlərini yaxşı bilirdi. O, İbrahim xanın qoşununun taleyini düşünərək demişdi: “Sabah biz Xoy şəhərinin ortasında olmalıyıq”.

Müxtəsər, hər iki tərəfin qoşunu Mərənd sahəsində bir-birinə yetişdilər. Hər iki qoşun hissəsi bir-birinə yaxınlaşanda hər iki tərəfdən çarxçılar müharibə meydanına çıxdı. Xoy süvarilərinin bir çarxçısı əldə siyirməqılınc ilə at çapıb o tərəfin bir çarxçısının boynunu vurdu.

Qoşun bunu görcək daha artıq davam gətirə bilməyib qaçmağa üz qoydu. Güc və taqətdən düşüb ixtiyarlarını itirdi. Könüllü piyada dəstəsi isə öz yerində dayanıb durdu, silaha əl atmadan hamısı əsir düşdü. Süvarilərin də çoxu tutulub tərk-silah edildi, qalanları isə bir daha müharibə meydanına qayıtmayıb evlərinə və səhraya üz qoydular. İbrahim xanın bütün hərbi ləvazimatı qarət edildi. Bir gün

əvvəl (sabah Xoy şəhərini tutub, özümüzü Xoy şəhərinin içində görərik) deyən Molla Pənahı da tutub, bir neçə əyan və əşrəflə Xoy şəhərinə apardılar.

Tutulanlar içərisində olan İbrahim xanın əmisi oğlu Fərzi bəy ona hirslənib dedi:

- Bəs söyləyirdin ki, Xoyu tutub özümüzü şəhərin içərisində görəcəyiz, halbuki özümüz əsir düşüb buraya gətirildik.

Əsirlər bir müddət burada qaldılar, bir az keçdikdən sonra İbrahim xan yenə tədarük görüb, Cəfərqulu xanın yanına gedib, sülhə girərək öz adamlarını xilas etdi. Molla Pənah bu səfərdə demişdi:

F ə r d:

Vaqifəm mən bu səfərdən ki, salamat qayıdam.
Tövbə gör bir də qiyamət günü çıxsam Qələdən.

İbrahim xan bir çox xanların və hökmdarların üzərində nüfuz və üstünlüyə malik olduğundan, bəzi vaxt əşrəf və əyanları, xan və xanzadələrilə birlikdə əmanət sifətilə Şuşa qalasında saxlayırdı. Gürcüstan valisi İrakli xan da başqa böyük xanlara nisbətən təmtərağa sahib olsa da əvvəllər İbrahim xan ilə onun arasında möhkəm dostluq var idi və ölkəni idarə etmək işində qarşıya çıxan hər bir məsələni bir-biri ilə məsləhətləşib həll edərdilər.

Eyni zamanda qohumluq münasibətinə görə avar hakimi Ümmə xan və Dağıstan əmirləri də İbrahim xana sadiq və dost idilər, əgər aralarında bir narazılıq üz versəydi, dərhal İbrahim xanın işarəsi ilə Dağıstan əmirləri bütün qoşunlarıyla Gürcüstan üzərinə hücum edərək oranı çapıb dağıdırdılar, necə ki, 1205 (1790)-ci ildə Gürcüstan valisi ilə İbrahim xanın arasında olan narazılıq üz vermişdi.

Bu səbəbə görə Ümmə xan çoxlu qoşunla Gürcüstan tərəfinə gedib bacardığı qədər Gürcüstan torpağını qarət edərək Sığnaq və Gümüşxananı zəbt etdi, camaatın çoxunu öldürdü. Bir qədərini əsir və bir qədərini də dustaq edib, təcili surətdə Axalsixə, Süleyman paşanın yanına getdi. Qışı orada keçirib, bahar fəslində geri qayıdaraq, yenə də Gürcüstan torpağına daxil oldu. Ümmə xan yolun üstündə knyaz Abaşidzenin arvad-uşağı ilə yaşadığı möhkəm qalanı mühasirə edib zor ilə zəbt etdi. Oranın əhalisini qılıncdan keçirdərək, bəzilərini də əsir etdi. Knyaz Abaşidzenin qızlarından Cavahir xanımı İbrahim xan üçün göndərdi, bir qızına da Ummə xan özü evləndi.

## AĞA MƏHƏMMƏD XAN QACARIN ŞUŞA QALASI ÜZƏRİNƏ HÜCUMU VƏ MƏQSƏDİNƏ NAİL OLMADAN GERİ QAYITMASI

Ağa Məhəmməd xan Kərim xanın vəfatından sonra Şirazdan qaçıb öz elinə gəldi və özünü şah elan edib İraq vilayətinin bəzi yerlərini zəbt etdi, 1201 (1785)-ci ildə Tehranda şahlıq taxtına oturdu və oranı ölkənin paytaxtı elan etdi, adını da Darülxülafə adlandırdı. O, Azərbaycana qoşun çəkib Araz çayının cənub tərəfini tutdu və Arazın bu tayına keçdi. Talış, Lənkəran və İrəvan vilayətlərini istila etməyə çalışdısa da lakin zəfər qapısını açmaq mümkün olmadı. Bu zaman Ağa Məhəmməd xan İbrahim xana hədiyyə olaraq xələt və qılınc göndərdi, onu özünə tabe etməyə çağırdı və ortada bəzi zahiri vədlər də verildi. Həmin ildə Ağa Məhəmməd xan yenə də Azərbaycandan İrana qayıdıb Fars və Kirmanda olan düşmənlərinə, ona zidd çıxanlara cəza verdi və o tərəflərdə baş vermiş iğtişaşları yatırtmaq işinə başladı.

O vaxtlar bir sıra məsələlər üzrə İbrahim xanla onun arasında kin və ədavət yaranmışdı. Ağa Məhəmməd xan o tərəflərdə olan iğtişaşları sakit və aranı etdikdən sonra o vilayətlərin əhalisini özünə tabe etdi və yenə də 1209 (1795)-cu ildə Gürcüstan, Talış, Qarabağ və İrəvan vilayətlərini istila etmək fikrinə düşdü. Buna görə də çoxlu qoşun və hazırlıqla Azərbaycanı düşmən atlarının ayaqaltısı etdi. Öz qardaşı Əliqulu xanı baş sərkərdə təyin edərək başqa xanlarla birlikdə İrəvanı almaq üçün göndərdi. Özü isə İraq, Fars, Xorasan və Azərbaycan qoşunlarını götürüb Nabatxan və Yurdşah adı ilə məşhur olan Şuşa qalası ətrafında Çanaqçı və Şuşakənd həndəvərinə gəlib, orada dayandı və öz ordusunun ətrafında səngərlər saldırdı və (indi də onların yeri görünməkdədir) Şuşa qalasının mühasirəsinə başladı.

Gürcüstan valisi İrakli xan, İrəvan hakimi Məhəmməd xan, Talış hakimi Mir Mustafa xan hamısı bir yerdə and içdilər ki, Ağa Məhəmməd xanın itaət haqqında etdiyi təklifi qəbul etməyib, fürsət düşdükdə bir-birinə yardım göstərsinlər. Bundan sonra İbrahim xan əhalinin bir hissəsini Gürcüstan tərəfə göndərdi, bir hissəsi də şirvanlı Mustafa xanın yanına getdilər. Qarabağ elatının qalanları

kənd əhalisinin bir hissəsi ilə dağlarda çətin və keçilməz yerdə məskən saldılar. Onların bir qismi də qalanın içərisində yerləşdi. Elat və kəndlərdən çoxlu atlı, piyada toplanıb döyüşə hazır dayandılar. Xülasə daşürəkli Ağa Məhəmməd xan otuz üç gün döyüşçüləri ilə Şuşa ətrafında dayandı.

Ağa Məhəmməd xan İbrahim xanı və Qarabağ əhlini özünə tabe etmək məqsədilə məktublaşma, səfirlərin və elçilərin mübadiləsi kimi vasitələrdən istifadə etdisə də, amma bunların heç biri nəticə vermədi. O cümlədən bir dəfə Ağa Məhəmməd xan demişdi: "Xəzinə dərəsi - qalanın yanındakı çox dərin bir dərədir. Mən bir saatda hücumçular dəstəsi ilə oranı doldurub Şuşa qalasını tutaram".

Bir gün Ağa Məhəmməd xan Şuşa hakimi İbrahim xanı qorxaq və namussuz adlandıraraq Ürfi Şirazinin aşağıdakı fərdini yazıb onun üçün Qalaya göndərdi:

Fələkin mancəqindən fitnə daşı yağır,
Sən axmaqcasına Şişə içərisinə sığınmısan.

Məktub İbrahim xana yetişən kimi onun həmsöhbəti olan Molla Pənah Vaqif Ağa Məhəmməd xanın yazdığı məktubun arxasında aşağıdakı sözləri yazıb geri qaytardı:

Əgər məni qoruyan, mənim bildiyimdir,
(O), şişəni də daşın qoltuğunda mühafizə edər.

Ağa Məhəmməd xan Vaqifin cavab məktubunun məzmunundan xəbərdar olan kimi acığından gözlərindən od çaxdı, ağlı-huşu başından uçdu, qəzəb odu sinəsində alovlandı. O saat əmr etdi ki, nağıllarda deyilən nişan vuran toplardan Şuşa qalasının üzərinə od səpsinlər, qumbaraları Şuşa əhlinin üzərinə leysan kimi töksünlər, dörd tərəfdən qalanın üstünə hücum etsinlər, şiddətli qırğına, qəzəbli vuruşmaya, hərbə və döyüşə başlasınlar...

Ağa Məhəmməd xanın qoşununun çoxu Mazandaran tüfəngçilərindən ibarət idi, onlara Qaraçuxa deyərdilər, onların tüfəngləri maşalı, uzunçaxmaq idi. Bu döyüşdə maşanın başında fıtılyandıran var idi. Fitilin yanması ilə də tüfəng atılırdı. O gün səhər saat altıdan axşam gün batana kimi vuruşmalar davam etdi. Hər iki tərəf vuruş-

maqdan, öldürməkdən, güllə atmaqdan, əzməkdən çəkinmirdi. Ölülərdən təpələr əmələ gəlmişdi, qan su yerinə axırdı, Qarabağ əhli dəniz kimi dalğalanan qoşunun qabağında mərd-mərdanə dayandı.

Rəşadət və igidlik meydanında can-başla vuruşurdular. O gün Şuşa qalasında top-tüfəng güllələrindən, qumbara qəlpələrindən çoxlu adam: arvad, kişi tələf oldu.

Ağa Məhəmməd xanın qoşunundan ölənlərin sayı-hesabı məlum deyildi. O gördü ki, nə qədər Həmrud odunu gücləndirirsə, İbrahim-xəlil xan Səməndər və ya İbrahimxəlil (peyğəmbər) kimi oddan qorxmur, top-tüfəngin yandırıcı qığılcımı və parlaq şöləsini özünə Xəlil bağı kimi rahatlıq məkanı hesab edir. Ağa Məhəmməd xan müharibədə nə qədər səy göstərib cidd-cəhd etdisə, qalibiyyət mələyi üzünə gülümsəmədi, onun qoşunu qarabağlıların mərdanə və igidcəsinə həmlələri qarşısında öz acizlik və zəifliyini göstərdi, çoxları qırıldı, qalanları da məğlub və şikəst olub qorxaqcasına aradan çıxdılar.

Bir tərəfdən də Qarabağ əhli Ağa Məhəmməd xanın qoşununun üzərinə tökülüb tələfata uğratmaq, qarət etməkdən əl saxlamırdı, onlarla vuruşub sursatlarını əllərindən alırdı. Ağa Məhəmməd xan gördü ki, əgər bir neçə gün bu cür keçsə, onun adamları qırılıb, qoşunu dağılacaq və bundan da ona böyük zərər dəyəcək. Odur ki, qoşun başçıları və zabitləri ilə məsləhətləşib, geri çəkilmək əmrini verib dedi:

- İşin axırını qabaqcadan görmək və zərərin yarısından qayıtmaq yaxşı cəhətdi, əks təqdirdə bizim qoşunumuzdan bir nəfər də sağ qalıb öz canını xilas edə bilməyəcək.

Belə bir vəziyyətdə İbrahim xandan üz çevirmiş və Ağa Məhəmməd xanla birləşmiş gəncəli Cavad xan və çiləbördlü Məlik Məcnun Ağa Məhəmməd xana bildirdilər ki, Şuşa qalasını almaq sizə mümkün olmadı. Əgər buradan məqsədə çatmadan geri dönüb əliboş qayıtsanız, İran əhli sizdən üz çevirib özbaşınalıq edər və siz bundan sonra şahlıq edə bilməzsiniz. Yaxşısı budur ki, buradan gedib Tiflisi qarət edib, əhalisini də əsir edəsiniz. Beləliklə, qoşununuzu qarət ilə həvəsləndirəsiniz ki, lazım olan vaxtda vuruşa bilsinlər.

Ağa Məhəmməd xan bu məsləhəti bəyənib əsas diqqətini Tiflis və Gürcüstan üzərinə hücum etməyə yönəltdi.

## VALİ İRAKLİ XANLA DAVASI, GÜRCÜ QOŞUNUNUN MƏĞLUBİYYƏTİ, TİFLİS ŞƏHƏRİNİN QARƏT EDİLMƏSİ

Ağa Məhəmməd xan 1210 (1795)-cu ildə Şuşa şəhərini istila etməkdən aciz qalıb, Tiflis şəhərinə hücum etməyi qərara aldı.

İbrahim xan Məhəmməd xanın bu niyyətini təcili çapar vasitəsilə vali İrakli xana çatdırıb onu başa saldı, İrakli xan Ağa Məhəmməd xanın Qarabağdan əl çəkib, Tiflis tərəfə gəldiyini eşitdikdə Başıaçıq valisi olan nəvəsi Solomon xanı və Gürcüstan torpaqlarını öz aralarında bölüşdürmüş başqa övlad və nəvələrini köməyə çağırdı. İrakli xan qoca və şikəst olmasına, yaşının yetmişi keçməsinə, ömrünün axırları olmağına baxmayaraq, yenə də düşməni dəf etmək üçün səbir və aramsızlıqla hazırlıq görülməsinə və qoşun toplanmasına sərəncam verdi. Amma onun övladlarının arasında ədavət və düşmənçilik olduğundan heç birisi köməyinə gəlmədi, ancaq Solomon xan Başıaçıqdan dörd min nəfər İrakli xanın köməyinə göndərdi.

Vali o birilərinə nə qədər təkid etdi, çapar və adam göndərdisə də heç bir fayda vermədi və heç bir yerdən ona köməyə gələn olmadı, çünki hamısı kef və eyş-işrətlə məşğul idi. Nəhayət, naçar və çıxılmaz vəziyyətdə qalıb, öz qoşunu ilə düşmənin çoxlu qoşununun müqabilində durdu. Ağa Məhəmməd xanın Gürcüstana hücumunun qabağını almaq üçün öz adamlarından və Qazax elinin müsəlmanlarından bir qədər atlı toplayıb onun qarşısına göndərdi. Buna görə Qazax mahalındakı İncəçayda dayanıb oğlanlarından köməyinə gələn olub-olmadığını gözlədi. Elə ki Ağa Məhəmməd xan Gəncəyə daxil oldu, vali İncəçaydan qayıtdı. Arvadı Deda Valonu ehtiyat üçün Tuşetə göndərdi. Özü isə həmin az qoşunu ilə Tiflisdə dayandı.

Ağa Məhəmməd xan keçə-keçə Soğanlığa gəlib çatdı. Gecəni orada qaldı, sübh tezdən Tiflis üzərinə yürüş etdi. Vali İrakli xan öz adamları ilə orada olan top və silah anbarını indi Karantin adlanan yerə kimi gətirdi. Bunlar bir-birinə yaxınlaşandan sonra çarxçılar müharibə meydanına daxil oldular, aralarında şiddətli vuruşma başlandı. Topçular cəld, olduqca məharətlə qızılbaş qoşunlarının qabağını kəsib, onların irəli getməsinə mane oldular. Ağa Məhəmməd xan öz rəşadətli sərkərdələrindən biri olan böyük sərdar Mustafa xan Dəvəlini öz yanına çağırıb ona əmr etdi və dedi: “Tiflisi sizdən istə-

yirəm”. Təsadüfən o gün hava tüstü və tozdan elə tutuldu ki, adamlar bir-birini görə bilmirdilər.

Mustafa xan öz qoşunu ilə qabağa yeridi. Qızılbaşlar yolu tanımadıqlarından nəhəng dağın üstündən aşdılar. Hava buluddan və tozdan təmizlənən kimi valinin əsgərləri gördülər ki, qızılbaşlar şəhərin yuxarı hissəsindən keçib onların arxasını kəsmişdir. Axırda çarəsiz qalıb geri qayıtdı və artıq İrakli xan öz imarətinə gəlməyə imkan tapmadı. Bir atlı və bir qatırçı ilə Hələvar körpüsündən keçib dağlara qaçdı. Qızılbaş qoşunları Tiflis şəhərinə daxil olaraq şəhəri dağıtmağa və qarət etməyə başladılar. Tiflis şəhərini matəmxanaya döndərdilər.

Ağa Məhəmməd əhalinin bir hissəsini iti qılıncdan keçirtdi, bir hissəsini də əsir aldı. Hər pəriüzlü bir divsifətlinin əlində əsir, hər gözəl bir zalıma dəstgir oldu. Bir çox laləüzlü əziz adamın müsibətində ürəyi dağlı və çox gülyanaqlı bir qonçabudaqlının qəmində inlədi. Bir çox ceyrangözlülər öz sevgilisinin matəmində qan-yaş tökdü, çox mələksimalının qəlbi bir yasəmən yarpağının həsrətilə yandı.

Ş e i r (sətri tərcümə):

Çadralı qızlar işıqlı ulduza döndülər,
Nə çadra onları qorudu, nə də çarqat onları gizlətdi.
Günahsız uşaqlar göz yaşı axıtdılar.
Oddan kül çırpdılar, şəkərdən şərabı ayırdılar.
Bir çox incəgözlülər divlər və şeytanlarla qucaqlaşdılar.

Zəmanənin məharətli oyunçusu o aləmdə elə qəribə bir oyun oynadı ki, hər şahmat oyununun piyadası kimi fılin əlində əsir olub yüz möhnətdən əziyyət çəkdi. Hər divsifətli piyada isə kin yolu ilə vəzirin sahibi olan şaha hücuma cəsarət göstərdi.

Q i t ə (sətri tərcümə):

Bu tərs hərəkət fələyin hiyləsi sayəsində,
Piyadalar şahların üzünə ağ oldular.
Altı tərəf (dünya) elə alt-üst oldu ki,
Böyüklər aciz və mat qaldılar.

Bütün adamlar fil və vəzirin sahibi oldular.
Qiymətli və nəfis şeylər xəbis adamlar
Tərəfindən qarət olundu.
Ürəkaçan imarətləri şeytan tayfaları
darmadağın etdilər.

Beləliklə, cəllad Ağa Məhəmməd xan mənfur və qara niyyəti ilə yeddi gün orada qaldı. Dönə-dönə dağıdılmış şəhəri dağıtdı, tar-mar etdi. Uca imarətlər sahibsiz qaldı, mal-dövlətdən əsər qalmadı. Bundan sonra geri qayıtmaq təbili vuruldu və Ağa Məhəmməd xan qış fəslini Muğanda keçirib baharda vətəni İrana getdi.

Vali İrakli xan Tiflis hadisəsindən sonra yerdə qalan qoşunlarını, Tuşetdə və başqa yerlərdə yaşayan övladlarını və dostlarını toplayıb onlarla bir yerdə ailəvi bir məclis təşkil etdi.

Bu məclisdə o çıxış edərək dedi: “Mənim ömrümün kasası həyat şərabı ilə dolmuş, yaşım da yetmişə çatmışdır, bundan sonra Ağa Məhəmməd şahın məclisinin ayağında oturub nağıl danışan və ona kəlməbaşı “bəli-bəli” demək mənə yaraşmaz.

Şadlıqla mən necə bir nəfəs alım,
Bilirəm məndə bir dəfəlik nəfəsdən başqa
heç zad qalmamışdır.

Vəziyyət belə tələb edir ki, övladlarımdan birisini sizinlə Ağa Məhəmməd xanın yanına göndərim, işin xeyri və düzəlməsi üçün ona əmanət verim ki, daha farağat və sakit olsun”.

Bu arada valiyə xəbər çatdı ki, Ağa Məhəmməd xan Tiflisi tərk edib getmişdir. Bu xəbər vali İrakli xanı sevindirdi. Ürəyini şübhə ilə təşvişdən qurtardı.

## GENERAL-ANŞEF QRAF VALERİAN ZUBOVUN QAFQAZA GƏLMƏSİ VƏ BU ÖLKƏLƏRİ ZOR İLƏ ZƏBT ETMƏSİ

### TİFLİS HADİSƏSİNDƏN SONRA AĞA MƏHƏMMƏD XANIN İRANA QAYITMASI

Gürcüstan valisi İrakli xan bütün vəziyyəti və gedişatı itaət əlaməti olan bir ərizə ilə əlahəzrət imperator Yekaterinaya bildirib, əhvalat və hadisələri ətraflı surətdə məlum etdi. Yekaterina mərhəmət və lütfkarlıq üzündən Gürcüstan valisi İrakli xana kömək işini öz yaxın adamı və dostu, Qızılayaq adı ilə məşhur olan general-anşef qraf Valerian Zubova həvalə edib, ona hər biri dəryada nəhəng kimi və dağlarda pələng kimi igid olan əsgərlərdən ibarət qırx min atlı götürüb, Ağa Məhəmməd xanın zəiflər üzərinə vəhşi basqınını dəf etmək əmrini verdi.

1211 (1796)-ci ildə məşhur sərdar Dağıstan tərəfindən Dərbəndə daxil oldu və qapılar qapısı olan düzənliyi zəfər qoşunu üçün müharibə meydanına çevirdi.

Zaqafqaziya vilayətlərini Qarabağ sərhədinə kimi tutub, iti sürətlə gedən düşmənə qalib gəldi.

O, həmin ilin qış fəslini Kür ilə Araz çaylarının birləşdiyi yerdə, Salyanda keçirib, Araz çayı ilə Kür çayı arasında olan xanın oturaq yerini zəbt edərək, oranı özü üçün dayanacaq yeri təyin etdi və Ağa Məhəmməd xana müfəssəl bir məktub yazıb bildirdi ki, siz gedəndə Tiflisdən çoxlu əsir və qənimət aparmısız, bunlan geri almaq mənə tapşırılmışdır. Ya geri qaytarmalısınız, ya da müharibəyə hazırlaşmalısınız.

Ağa Məhəmməd xanın müqavimət göstərməyə qüvvəsi yox idi, o, qarşı-qarşıya durub vuruşmaqdan qorxaraq vaxtı uzatmaq üçün özünü kənara çəkmişdi.

İbrahim xan öz oğlu Əbülfət xanı əlahəzrət imperator Yekaterinaya yazdığı məktubla birlikdə qiymətli bəxşiş, hədiyyə və cins atlarla böyük sərdarın (Zubovun) yanına göndərdi. Əzəmətli və qüvvətli Rusiya dövlətinə özünün sədaqətini və itaətkarlığını bildirdi.

Yüksək ailədən olan sərdar Əbülfət xana layiqi hörmət, ehtiram və mehribançılıq göstərdi və İbrahim xanın ərizəsini Dərbənd və Qızlar yolu ilə əlahəzrət imperator sarayına göndərdi. Sərdar öz adamlarından birinin vasitəsilə əlahəzrət imperatriçənin İbrahim xana hörmət və məhəbbətini bildirərək, ona çoxlu hədiyyə, eyni zamanda həmsöhbəti və məsləhətçisi Molla Pənaha da qaş-daşla bəzənmiş bir əsa göndərdi.

Elə ki başqa xanlar İbrahim xanın əlahəzrət imperatriçəyə ərizə ilə müraciətini və qüvvətli Rus dövlətinə edəcəyi itaət təklifini eşitdilər, hərə bir ərizə ilə yüksək ailədən olan sərdara müraciət edib özlərinin Rus dövlətinə tabe və itaət edəcəklərini bildirdilər. Həmin xanlar bunlardır: talışlı Mir Mustafa xan, şirvanlı Mustafa xan, gəncəli Cavad xan, İrəvan, Naxçıvan və Qaradağ xanları. Belə bir vəziyyətdə ikən Rusiyanın günəş taclı həzrəti imperatriçə Yekaterina Allahın qəzasilə vəfat etdi. Buna görə böyük sərdar qraf Zubov öhdəsində olan vəzifədən boyun qaçıraraq Rusiyaya getdi.

## İBRAHİM XANIN GÜRCÜSTAN VALİSİ İLƏ GƏNCƏ ÜZƏRİNƏ HÜCUMU VƏ MƏLİK MƏCNUNUN ÖLDÜRÜLMƏSİ

İbrahim xan Zubovun Rusiyaya qayıtması xəbərini eşidib vali İrakli xana məktub yazdı və onu başa saldı ki, Tiflisin dağılmasına və onun əhalisinin qanının tökülməsinə gəncəli Cavad xan və Çiləbörd məliki səbəb olmuşlar. İrakli xan Gürcüstanın saysız-hesabsız əsgərləri ilə o taydan Gəncənin üzərinə yürüş etdi. İbrahim xan da Qarabağ qoşunu ilə bu taydan hərəkət edərək, hər iki tərəfdən Cavad xana cəza verməyə və onu dəf etməyə çalışdı. Vali İrakli xan və İbrahim xan Gəncəyə çataraq Gəncə qalasını bərk mühasirəyə aldılar. Bir qədərdən sonra qala ərazisi ilə birlikdə zəbt olundu. Məlik Məcnun öldürüldü, Cavad xan isə tabe oldu, oğlunu və bacısını İbrahim xana əmanət verdi.

## AĞA MƏHƏMMƏD XANIN İKİNCİ DƏFƏ QARABAĞ ÜZƏRİNƏ HÜCUMU VƏ ONUN ORADA ÖLDÜRÜLMƏSİ

Qızılayağın geri qayıtdığını eşitdikdən sonra Ağa Məhəmməd xanın zəif ayaqları qüvvət tapdı, əldən buraxdığı imkanı qaytarmaq məqsədilə Qarabağ vilayətini zəbt etmək fikrinə düşdü.

1212 (1797)-ci ildə Ağa Məhəmməd xan saysız-hesabsız qoşunla Azərbaycan torpağına tərəf hərəkət etdi. Qarabağda quraqlıq olduğundan üç il idi ki, təbii fəlakət nəticəsində taxd bitmirdi. Buna görə qəhətlik və çətinlik üz vermişdi. Əhalinin çoxu bir tikə çörəkdən ötrü Şəki, Şirvan, Qaradağ və başqa yerlərə dağılıb, pis vəziyyətə düşmüşdülər.

Qarabağda o qədər adam qalmamışdı ki, Şuşa qalasını saxlaya bilsin.

Ağa Məhəmməd xan öz qızılbaş qoşunu ilə Arazın kənarına yetişdiyi zaman İbrahim xan çarəsiz qalıb arvad-uşağını, yaxın adamlarını, öz canını ona qurban etməyə hazır olan tərəfdarlarından bir neçəsini götürüb Car və Balakən tərəfə yollandı.

Bəzi ayrı-ayrı xanlar da, o cümlədən şahsevənli Nəsin xan, şəkili Səlim xan, mişkinli Ətaülla xan və Qarabağın seçilmiş və məşhur bəylərindən bir neçəsi onunla səfər yoldaşı olub birgə dərə-təpəli yerlərlə yola düşdülər.

Ağa Məhəmməd xan onların getməsi xəbərlərini eşidib öz qoşununun bir hissəsini onların dalınca göndərdi.

Göndərilən İran qoşunları Tərtər çayında körpü yanında onlarla rastlaşıb vuruşdular, amma bir şeyə nail ola bilmədilər.

Ibrahim xan öz adamlarını və sursatını sağ və salamat Kür çayından keçirib, Car və Balakənə daxil oldu.

Ağa Məhəmməd xanın tapşırığı ilə ləzgilərdən bir neçəsi yolda İbrahim xana hücum etməli, onu tutub Ağa Məhəmməd xanın yanına gətirməli idi.

Hər iki tərəf vuruşa hazır oldu. İbrahim xanın arvadı, Ümmə xanın bacısı Bikə ağa işə qarışdı və xahiş etdi ki, adət-ənənələrinin əksinə çıxıb vuruşmasınlar. Onlar bu çəkişmədə ikən Şuşa qalasından bir adam gəlib Ağa Məhəmməd xanın öldürüldüyünü xəbər verdi.

## AĞA MƏHƏMMƏD XANIN ÖLDÜRÜLMƏSİ TƏFSİLATI

İbrahim xanın Car və Balakənə qaçmaq xəbərini eşitdikdən sonra Ağa Məhəmməd xan böyük bir dəbdəbə və təmtəraqla özünü şöhrətli və ehtirama layiq bir adam kimi göstərərək, Şuşa qalasına daxil olub, qalanın aşağı darvazasının yaxınlığında olan İbrahim xanın böyük oğlu Məhəmmədhəsən ağanın evində yerləşdi. Şah, İbrahim xanla birlikdə gedə bilməyən əyanların və xanın qohumlarının, dostlarının axtarılıb tapılması və həbs edilməsi əmrini verdi. Həbsə alınanlar içərisində Məlik Şahnəzərin oğlu Məlik Cəmşid (Vərəndə məliki), Molla Pənah və bir çox əyanlar var idi. Ağa Məhəmməd xanın məqsədi bunların hər birisindən bir qədər pul və cərimə almaq, sonradan onların hamısını öldürüb öz ürəyindəki köhnə ədavəti soyutmaq idi. Bundan sonra Ağa Məhəmməd xan bir neçə gün kefə qurşandı.

Ağa Məhəmməd xanın yaxın qulluqçularından olan Səfərəli bəy və Abbas bəy kiçik bir xəta etdiyi üçün şah onlara qəzəblənib deyir: "Sabah gün çıxan kimi həbs olunan Şuşa əhalisinin başlarını bədənlərindən ayırıb, onlardan minarələr düzəldəcəyəm, sizin də başınızı kəsib həmin başların üstünə qoyacağam".

Belə nağıl edirlər: Ağa Məhəmməd xan şam namazı vaxtında adları qeyd olunan qulluqçuların birinə əmr edir ki, get filan sərdarı mənim yanıma çağır. Həmin qulluqçu fərmanı eşitmədiyindən sərdarın yanına getmir. Məhəmməd xan namazı qurtarandan sonra qulluqçudan soruşur: "Sərdar nə üçün gəlməmişdir?" Qulluqçu üzr istəyib deyir ki, çün şam namazı idi, onun qulağı şahın fərmanı eşitməmişdir. Şah o saat onun qulaqlarının kəsilməsinə əmr etmiş və demişdir: "Bir qulaq ki, şahın əmrini eşitməyə, kəsilməsi daha yaxşıdır". O biri qulluqçu ilə də təqribən belə bir xəta baş vermişdi. Qulluqçular bir qədərdən sonra şahın təhdidlərini və olanların öldürülməsi vədlərini şahdan eşitdikdən sonra artıq yatmadılar və yəqin etdilər ki, Ağa Məhəmməd şahın sözü sözdür, onun daş ürəyində heç bir rəhm yoxdur. Onların ölümündən keçməyəcəkdir.

Həmin gecə Abbas bəy və Səfərəli bəy sübhə yaxın hərəm-xanaya girib iti və üryan xəncər ilə onun bədənini Davudun zirehi kimi tikə-tikə doğradılar.

Şahın qolbağını, cavahir nişanlı həmailini götürüb, böyük sərdarlardan biri olan Sadıq xan Şəqaqiyə verdilər və Ağa Məhəmməd xanın necə öldürülməsini ona danışdılar. Sadıq xan əvvəlcə onların sözünə inanmadı, çünki həmişə şahdan çox ehtiyat edirdi və bu xəbəri şahın hiyləsi hesab etdi. Nəhayət, çox ciddi və möhkəm and içməklə onu inandırdılar. O çox dəhşət və qorxu ilə şahın yaşadığı Məhəmmədhəsən ağanın imarətinə gəldi. Səfərəli bəy qabaqcadan hərəmxanaya girib, yorğanın ucunu Ağa Məhəmməd xanın üstündən qaldırdı, ikinci dəfə xəncərini onun ürəyinə batırdı. Sadıq xan belə vəziyyətə davam gətirməyib, onun tacını, həmailini və qolbağını götürüb öz mənzilinə gəldi və hay-küy saldı ki, şah onu bir qulluğa təyin etmişdir, gərək gedə, İbrahim xanı və onun yoldaşlarını harada olsa tutub gətirə. Bu bəhanə ilə sərdar Şəqaqi qoşununu götürüb qaladan salamat çıxdı. Qatillərdən Abbas bəyi də özü ilə apardı. Səfərəli bəy isə Şuşa qalasında qaldı.

Sadıq xan Şuşa qalasından çıxandan sonra oranın camaatı günortaya kimi bu sirri başa düşə bilmədi. Günortaya yaxın şahın ölüm xəbəri şəhərə yayıldı, qızılbaş xanları bu hadisəni eşitdikdən sonra başlarını itirib, təşvişə düşdülər. Hər kəs öz adamlarını və sursatını götürüb qaçmağa üz qoydu. Qoşun dəstə-dəstə qaladan çıxmağa başladı, hər kəs təşviş və qorxu içərisində öz bildiyi kimi hərəkət edib, qaçırdı. Qarabağın əhli Məhəmməd şah olan imarətə hücum edərək, oraya daxil oldular. Şahın qızıl-gümüşünü, ləl-cavahirini və şahlığa aid qab-qacağını qarət etdilər. Tutulan qızdbaşları soyub, libaslarını çıxararaq lüt etdilər.

İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy imarətə daxil olub, şahın xəzinəsində qab-qacaq, qızıl, gümüş, qiymətli ləl-cavahirdən nə qalmışdısa, hamısını götürüb Məhəmmədhəsən xanın evindən öz evinə gətirdi. O, xanlıq, hökmdarlıq işlərini ələ alıb, Qarabağda nizam-intizam bərpa etməyə başladı.

Ağa Məhəmməd xan lovğa olduğundan başqalarının bədəninin üzərində başını ağır görüb, boyunlarını vururdu. İndi isə Ağa Məhəmməd xanın özünün tacsız başı körpə uşaqlarını oyuncağı olmuşdu. Onun murdar meyiti isə meydanın ortasına atılmışdı:

Gecə düşdükdə, ölü baş edildi tarac,
Nə bədəndə baş qaldı, nə də başda tac.

Məhəmməd bəy Ağa Məhəmməd xanın başını Məhəmməd Rəfi bəyin yaxın adamı ilə Balakənə İbrahim xana göndərdi. Həmin xan da onun başını bir əyləncə kimi valinin tamaşasına çıxartdı. Molla Pənahın yazdığı şeri burada verməyi münasib gördük.

N e z m:

Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax!
Ruzigara qıl tamaşa karə bax, kirdarə bax!
Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,
Hökmi-adil padişahi-qadiri-qəhharə bax...

Ağa Məhəmməd xanın ölüm tarixini tarix[1*] sözündən hesab edirlər. Məhəmməd xanın şahlığı on iki il davam etmişdir. O çox acıqlı, qaniçən, qan tökməkdə rəhmsiz, qorxmaz adamlara qarşı kin saxlayan idi, kimsəyə rəhm etməzdi. Buna görə də vaxtının çoxunu ovda və eyş-işrət məclislərində keçirərdi. Evdə olan zaman isə qan tökmək və tənbeh üçün bəhanə axtarardı, xacə olmasına baxmayaraq, gözəllərə meyli və həvəsi çox idi. Belə deyirlər ki, Nemətulla onun belə rəftarını görüb haqqında bir şeir demişdi. Bəzi rəvayətə görə, bu beyt Ağa Məhəmməd şah Qacar üçün yox, Abbas Mirzənin oğlu Məhəmməd şah üçün deyilmişdir.

Ş e i r (sətri tərcümə):

O padşahın adını doxsan iki gördüm.
Onun qəlbi kinlə dolu olduğu üçün,
Pulunu qiymətsiz gördüm.
Əlli beş yaşı var,
Hamısını da müharibədə keçirmişdir.
Ömründən otuz altı keçdikdə
Ağır dərdlərə düçar gördüm...

Bir dərvişin dediyinə görə, bu şeir Mədətov və Paskeviçin Şəmkir (Şamxor) və Gəncədə etdikləri müharibəyə aiddir:

Min iki yüz qırxıncı ildə
İranın halına ağlamaq lazımdır.

---

[*] [1] Tarix - əbcəd hesabilə Hicri 1211 (1797)-ci ile bərabərdir.

İbrahim xan ağa Məhəmməd xanın qətl xəbərini eşitdikdən sonra oğlu Mehdiqulu ağanı Qarabağa göndərdi. Bir azdan sonra onun ardınca böyük oğlu Məhəmmədhəsən ağanı da yola saldı. Özü də bir neçə həftədən sonra Qarabağa gəldi və burada hökuməti əlinə aldı. Qarabağ hakimi Məhəmməd bəy hakimliyi dövründə Molla Pənah ilə öz arasında olan ədavətə görə, fürsətdən istifadə edərək, Molla Pənahı oğlu ilə birlikdə qətlə yetirdi.

Belə nəql edirlər ki, Molla Pənahı oğlu ilə bir yerdə apardıqları vaxt oğul atasından soruşur:

- Ata! Bizi haraya aparırlar?

Atası cavabmda demişdi:

- Bizi o yerə aparırlar ki, çoxlarını biz ora göndərmişik.

Q i t e (sətri tərcümə):

İsa yol üstündə düşmüş bir ölü gördü,
Təəccüb edərək barmağını dişlədi.
Dedi: əyər öldürməsəydin öldürülməzdin,
Səni öldürən də öldürüləcəkdir.
Ta ki, başqası sənin qanını yumraqla tökməsə.

## İRAKLİ XANIN VƏFATI, GEORGİ XANIN TİFLİSDƏ VƏ GÜRCÜSTANDA VALİLİYİ

Vali İrakli xan Tiflis hadisəsindən sonra birbaşa Tiflisə daxil olmayıb, əvvəlcə Kaxetiyada özünə bir mənzil seçib, orada yaşayırdı. O, iki ildən sonra, yəni 1213 (1798)-cü ildə vəfat etdi. Bu fani dünyadan əbədi dünyaya köçdü.

İrakli xanın vəfatından sonra onun böyük oğlu və vəliəhdi Georgi xan atasının yerində valilik vəzifəsinə keçdi. O biri qardaşları atalarının yerinə Georgi xanın keçməsinə razı deyildilər, çünki onlar bir anadan idilər, Georgi xan isə ayrı anadan olmuşdu.

Hərəsi bir yandan inadlıq və itaətsizliyə başlayıb, onunla ədavət və düşmənçilik edirdilər. Onlardan Aleksandr Mirzə Qazax, Borçalı və Şəmsəddin mahalına kimi olan yerləri zəbt etdi. İstər Aleksandr Mirzə, istərsə o biri qardaşlar Georgi xanı saymırdılar, ona yaxın da

gəlmirdilər. Georgi xan, nəhayət, məcbur olub kömək üçün Dağıstandan muzdla qoşun gətirdi. O, ləzgi qoşununun və Kaxet əhlinin köməliyə Göyçəyə gəlib, Kəsəmən qışlağına keçərək Qazax torpağına daxil oldu.

Aleksandr Mirzə müqavimətə tab gətirə bilməyib, Qarabağ vilayətinə getdi. Buradan da Qızılbaş vilayətinə yollandı. Vali Qazax və Borçalı mahallarının fitnə-fəsadla məşğul olan nadinc adamlarını tənbeh edib, onların xoş arzulara çatmasına imkan vermədi.

Oradan qoşunu Kars və onun nahiyələrini qarət etmək üçün göndərdi. Qoşun da həmin yerləri soyub tarac edəndən sonra onun yanına qayıtdılar. Bali oradan geri qayıdıb, Tiflisə gəldi.

## RUSLARIN QAFQAZ VİLAYƏTLƏRİNƏ KEÇMƏSİ, ŞƏHƏRLƏRİN ALINMASI, QIZILBAŞLARLA MÜHARİBƏ VƏ SAİRƏ HAQQINDA

İbrahim xan yüksək rütbəyə çatıb hakimiyyətini möhkəmləndirdikdən sonra ölkədəki düşmənləri tənbeh etməyə, onları cəzalandırmağa başladı. İranda Ağa Məhəmməd şahın yerinə Fətəli şah adı ilə məşhur olan onun qardaşı oğlu Sərdar Baba xan şahlığa keçdi. O öz hakimiyyətinə qarşı çıxanları və başqa düşmənləri cəzalandıraraq tabe etdi.

Baba xan hakimiyyətdən dəm vuran Sadıq xan Şəqaqiyə və Cəfərqulu xan Dünbiliyə qalib gəldi və düşmənlərin çoxunu məhv etdi.

Qarabağlı İbrahim xan bu hazırlıqların və müharibələrin Qarabağ üstündə baş verdiyini bilirdi. Çanağın da öz başında çatlayacağını, Fətəli şahın onu asudə qoymayacağını bilirdi. O, uzaqgörənlik edərək Fətəli şahla qohum olmaq fikrinə düşdü və onun bütün narazılıqlarını aradan qaldırmaq məqsədilə qanbahası olmaq üçün oğlu Əbülfət xanla qızı Ağabəyimi Fətəli şahın yanına Tehrana göndərdi. Özünün şəxsən şah sarayına gedə bilməməsini isə qocalığı, zəifliyi və xəstəliyi ilə izah etdi.

Gürcüstan valisi Georgi xan xalqına və ailəsinə düşmən olan İrandan, Türkiyədən və Dağıstandan ehtiyat edirdi. Həmçinin o, qardaşlarının hələ çoxdan bəri davam edən ədavətindən də qorxaraq, 1213 (1798)-cü ildə böyük oğlu Davud Mirzəni yalvarış dolu bir ərizə

ilə rus məmləkətinə göndərib, böyük rus imperatoru Pavel Petroviçdən belə xahiş etdi ki, bu qədər ayrı dində olan düşmənlərin arasında aciz qalmışam. Mənim fikrim-zikrim hər zaman, hər saat bir tərəfdən və bir kəsdən ehtiyat etməkdir: "Əlahəzrətin yüksək rütbəli yaxın əmirlərinə mənim vəziyyətimin gedişi tamamilə məlumdur. Onlar Ağa Məhəmməd şahın mənə etdiyi zülmünə və onun törətdiyi fitnə və fəsadına şahiddirlər.

Bütün dünya xalqlarının ümidgahı olan o padşahın dərgahında bizim xahişimiz budur ki, məzhəb və millətlərimizin birliyi xatirinə aciz və cəsarətsizlərə kömək olub üstümüzə kölgə salaraq bizə hamilik edəsiz. Dünyaları bəzəyən bayrağınızın hilalının nuru ilə zalımları dəf edəsiniz". Xalqların pənahgahı olan şahlıq sarayında keçmişdən tanınmış Gürcüstanın tavadlarından olan eşikağası, knyaz Kərsəvan bəy Çavçavadzeni saraya ərizənin ardınca göndərdi. Buna görə də imperatorun mərhəmət dəryası dalğalandı, qeyrəti və şahlıq məhəbbəti hərəkətə gəldi. Gürcüstan sərhədinin mühafizəsindən ötrü şəhərlərin asayişini və xalqın rahatlığını bərpa etmək və düşmənlərin zülmünü dəf etmək üçün lazımi fəaliyyət göstərmək məqsədilə 1214 (1799)-cü ildə general-mayor Lazarevin başçılığı ilə beş min nəfərdən ibarət seçilmiş rus əsgəri Gürcüstana göndərildi. Əhalinin işlərini idarə etmək və habelə ölkənin böyük dövlət əhəmiyyəti olan işlərini qaydaya salmaq niyyətilə general-leytenant Knorrinki valinin yanında nazir və inspektor təyin etdi. Yüksək rütbəli məmurlar general Lazarev və general Qulyakov haman il Tiflis valisinin hüzuruna gəlib dedilər: "Siz şəhərdən çıxmayın və vətəni tərk etməyin. Biz yalnız rus qoşunu ilə düşmənin qarşısına gedərik, əgər Allah etməmiş məğlub olsaq, ondan sonra siz də qaçıb bir tərəfə gedərsiniz".

Gürcüstan əhli bu sözü eşitdikdə bir az sakit oldu. Bundan sonra general Lazarev, general Qulyakovla birlikdə qoşun götürüb, Ümmə xanın qarşısına getdi. Suğraçu kəndinin altında... axşamçağı iki qaniçən qoşun üz-üzə gəldi. Ləzgi əhli rusların azlığını görərək, onların belə bir az qüvvə ilə müharibəyə girişmələrinə təəccüb etdi.

Ləzgi döyüşçülərinin bəzi sərkərdələri "Axşamın xeyrindən sabahın şəri yaxşıdır" deyib, səhərə qədər möhlət verməyi məsləhət bildilər. Onlar belə güman edirdilər ki, ruslar davadan əl çəkib aman istəyəcəklər və qayıdıb gedəcəklər. Ümmə xan və başqa sərkərdələr dedilər:

- Allahdan başqa kim bilir ki, sabah ruzigar nə oyun oynayacaq. Yaxşı olar ki, dərhal döyüşə başlayaq və vuruşmanı qızışdıraq, davamlı atlarımızı qanlı döyüş meydanına sürək və top-tüfənglərin gurultuları ilə dünya meydanına vəlvələ salaq, işıqlı günü düşmənin gözündə qaranlığa döndərək.

Sonra Ümmə xan əmr etdi ki, ləzgi qoşununun bir hissəsi rusları üzük qaşı kimi mühasirəyə alsın və bir nəfərin də döyüş meydanından xilas olmasına yol verməyərək, rusları bir-bir əsir edib, onun yanına gətirsinlər.

Dağıstan qoşunları öz sərkərdələrinin əmrini böyük səy ilə yerinə yetirərək rus qoşunlarına yaxınlaşdıqda general Lazarev böyük cürət və qəhrəmanlıqla əjdaha ağızlı toplardan atəş açılmasına əmr verdi. Cəsur rus əsgərləri birdən ura çəkərək ləzgilərin üzərinə hücum etdilər.

N ə z m (sətri tərcümə):

Bütün səhra və çəmən qan dəryasına döndü.
Yer üzünə gecə kimi qaranlıq çökdü və
göz çıraq kimi işıqlandı.
Zamanın çərxi tərsinə döndü,
Yerdən göyə ah-nalə yüksəldi.
Topun səsindən, tüfəngin tüstüsündən,
Dünya qaraldı, vəziyyət ağırlaşdı,
Başlarına hey fitnə yağdı.
Heç kəs heç kəsdən xəbər tuta bilmədi.

Dağıstanlı əsgərlər gördülər ki, top gülləsi alovlarından qarışmış aləm od dənizinə çevrilmiş, rus əsgərlərinin başları isə onların al-qanına boyanmışdır. Ləzgilər artıq davam gətirə bilməyib döyüş və vuruşmadan əl çəkdilər və qaçmağa başladılar. Beləliklə, müharibə qaçaqaçla əvəz olundu. Camaatın malına, dövlətinə olan zərər həddini keçdi. Qoşun və zabitlər içərisində ölənlərin sayı ağlasığmaz dərəcədə idi. Yerdə qalan döyüşçülər çox çalışdıqdan sonra başqa qoşun hissələri ilə birləşib, başlarına gələn qəziyyəni onlara nəql etdilər. Onlar bu hadisəni eşitdikdə ürəkləri sıxılıb öz-özlərinə dedilər:

Ş e i r (sətri tərcümə):

Bir yerdə namus və şöhrət naminə
İntiqam qılıncını qınından çıxaraq,
Bu vuraşda at çapaq,
Mizraq, nizə, qılınc və ox oynadaq,
Hamımız düşmən ovlayan atlılarla,
Müharibə meydanını düşmənə təng tutaq.
Əgər belə vaxtda kişilikdə ad qazanmasaq
Başımıza qoyduğumuz papaq bizə haram olsun.

General qalib gəlmiş qoşununu götürüb özünü sığınacağa yetirdi. Onların dağ kimi duran qoşunları qoçaqlıq və rəşadətlə zərbələr vurub gözəllərin saçları kimi düşməni pərakəndə və pərişan etdi.

Ümmə xan və digər sərkərdələr hər vasitə ilə qoşunu ram etməyə çalışdılar. Bununla da onlar istəyirdilər vaxtdan istifadə edib, ya müharibənin sonunda ad qazansınlar və ya da əksinə rüsvay olsunlar, amma onların bu səyi nəticəsiz qaldı.

Ruslardan aldıqları birinci zərbə bağırlarını elə çatlatmışdı ki, onların adlarını eşidən kimi vuruşa girişmədən qaçmağa üz qoydular. Elə ki gece oldu, ləzgilər durmadan Gəncəyədək qaçdılar, tərs yel kimi heç yerdə dayanmadılar. Bu beyt onların hallarına müvafiq olaraq deyilmişdi:

N ə z m (sətri tərcümə):
Sevinə-sevinə ov dalınca gəldim,
Özüm isə axırda ovçu əlində əsir oldum.

Ləzgilərin fikri oradan Qarabağa gəlmək, qışı burada qalıb bahar fəslində öz evlərinə və yurdlarına qayıtmaq idi. Dağları qar tutduğundan öz vilayətlərinə getmək mümkün deyildi. Gəncə əhli bu işdən xəbərdar olub qılıncları qınından çıxararaq, onlarla əlbəyaxa oldular. O köməksiz dəstədən çoxlarını öldürüb, o biri ölənlərin yanına göndərdilər. Ləzgilər artıq heç yerdə dayanmayıb, sığınacaq sözünü deyə-deyə çarəsiz qalıb Cara qaçdılar və qışı orada keçirtdilər.

Ümmə xan bu hadisədən sonra qəm-qüssədən xəstələnib vəfat etdi. Onu Carda dəfn elədilər. General Lazarev Tiflis əhlini Ümmə

xanın məğlub olmasından və ölməsindən xəbərdar etmək üçün Tiflisə adam göndərdi. Heç kəs Ümmə xanın məğlub olmasına inanmırdı. General Lazarev ləzgilərin başçılarından bir neçəsini Tiflisə göndərdi ki, Ümmə xanın ölüm xəbərini camaata bildirsinlər. Ondan sonra hamı aram oldu.

Elə ki təzə il başladı, 1217 (1801)-ci ilin baharında Liniyada yaşayan inspektor general-infanteri Knorrink əlahəzrət imperatorun hökmü ilə Tiflisə gəldi. Burada divanxanalar təşkil etdi. Mühüm işlərə, ərizələrə baxmaq və müəyyən nəticəyə gəlmək məqsədilə şahzadələrdən dörd nəfər divanbəyi seçdi. Bunlar hamısı general Lazarevin göstərişi ilə icra olunurdu. Bir il işlər bu qayda ilə görüldü. Bundan sonra cənab knyaz Sisianov sərdarlığa təyin olunub Tiflisə gəldi və görülən işləri və qərarların hamısını təsdiq etdi.

## QAFQAZDA KNYAZ SİSİANOVUN SƏRDARLIĞI VƏ ONUN DÖVRÜNDƏ OLAN HADİSƏLƏR

Cənab general-leytenant inspektor knyaz Sisianov işpextur (inspektor) adı ilə məşhur idi. 1218 (1803)-ci ildə Qafqaza və onun ətraf vilayətlərinə sərdar təyin olundu. O özü ilə bərabər quberniyaya lazım olan şeyləri də gətirdi və Tiflisdə beş qəza və vilayətin əsasını qoydu. Bunlar aşağıdakılardır: Qızlar, Mozdok, Georgiyevsk, Aleksandrovsk və Stavropolsk. Bu vilayətlərdə divanxanalar açdı. Rus qoşun və nizam-intizamını işə saldı. Gürcüstan valizadələri isə öz köhnə qanun-qaydalarını saxlamaq məqsədilə Sisianovun bu tədbirlərinin əleyhinə çıxdılar. Buna görə də çox pis xəyallara düşdülər. Knyaz Sisianov xeyirxahlıqla, mehribancasına nəsihətlər etdisə də və məsləhət verdisə də, onlar bunu nəzərə almayıb öz puç xəyallarından əl çəkmədilər. Knyaz heç bir əlac olmayacağını görüb, onların hamısını məcburən Rusiyaya göndərdi. Valinin arvadı Deda-Vala Rusiyaya göndərilənlərin içərisindəydisə də çox hay-küy salaraq getməkdən boyun qaçırırdı. Deda-Valanı Rusiyaya getməyə razı salmaq məqsədilə sərdar general Lazarevi onun yanına göndərdi. General Lazarev ona çox dil tökdü, Rusiyaya getməsinə israr etdisə də bunlar bir nəticə vermədi, qadın generalın şəfaətini və xahişini rədd etdi. General Lazarevin Gürcüstan əhlinin boynunda çox haqqı

var idi. Onlara çox yaxşılıq etmişdi. Bütün bu yaxşılıqlara Deda-Vala göz yumub gizlincə xəncərini çəkərək, onu yaraladı. General həmin yaradan öldü. Bundan sonra knyaz Sisianovun əmri ilə İrakli xanın arvadını zorla Rusiyaya apardılar. Bununla Gürcüstan vilayəti valinin övladlarından təmizləndi.

Bundan sonra knyaz Gürcüstandan tamamilə xatircəm oldu.

## KNYAZ SİSİANOVUN CAR VƏ BALAKƏN TƏRƏFƏ GETMƏSİ VƏ ORA LƏZGİLƏRİNİN CƏZALANDIRILMASI

Ləzgilər öz köhnə adətləri üzrə Gürcüstan vilayətini və nahiyələrini soymağı, qarət etməyi, əsir almağı və onlara zərər verməyi davam etdirir, öz pis əməllərindən, əqidələrindən əl çəkmirdilər.

Belə bir vəziyyətdə knyaz bir neçə dəfə onlara yazılı surətdə hökm və nəsihətlər etdi. Knyaz mehribanlıq və nəsihət yolu ilə nə qədər çalışdı onları başa salsın ki, indiki dövr qüdrətli rus şahının dövrüdür, bu dövr valinin dövrünə bənzəməz. Keçmişdə etdiyiniz pis əməllərdən əl çəkiniz. Onlar bu xəbərdarlığa əhəmiyyət vermədilər. Nəhayət, knyaz onlara qulaqburması verməyi və cəzalandırmağı qət etdi. O, az bir qoşunla Dağıstan tərəfə yola düşdü. Ləzgilər knyazın gəlməsini eşidib öz şöhrətlərini saxlamaq məqsədilə bir qədər qoşun toplayaraq, Qanıq çayının kənarında dayandılar. Ləzgilər hər vəchlə olursa olsun rus qoşunlarını Car torpağına buraxmamağı qət etdilər, amma onlar bu hərəkətin nəticəsini qabaqcadan görmürdülər və rusların qüvvəsindən xəbərdar deyildilər.

N ə z m (sətri tərcümə):

Koredici ildırımı çör-çöplə dəf etmək olmaz,
Göydən gələn bəlaya insan mane ola bilməz.

Rus əsgərləri Qanıq çayına çataraq onu qızılquş kimi bir anda keçdilər. Rusların toplarının səsi çayın şırıltısına qarışmışdı. İğtişaş, həyəcan və qiyamla dolu olan ləzgi qoşunundan ruslar bir əsər-əlamət qoymadılar. Balakən valisini və qoşununu qaçmağa məcbur etdilər. Onların çoxu həlak oldu.

Ləzgilərin möhkəm və yenilməz yeri olan Balakən tatar gözəllərinin saçları kimi pərakəndə oldu. Ləzgilərdən bir qismi öldürüldü, digər qismi də əsarət zəncirinə düşdü.

Bu vuruşmada ləzgilər ruslar tərəfindən lazımi qədər cəzalandırıldı. Bundan sonra vəhşi dəstələr yaman işlər görməyə və əks çıxmağa bir daha cəsarət etmədilər.

Bununla Gürcüstanı talan etmək və oradan əsir aparmaq hallarının qarşısı alındı.

Knyaz, general Qulyakovun başçılığı altında Carda bir qədər qoşun saxlanmasını əmr etdi. Knyaz ləzgilərdən bir pis hərəkət baş verdikdə, zidd işlər göründükdə general Qulyakovla onların cəzalandırılması və hər hansı vasitə ilə olursa olsun ləzgilərin bu hərəkətlərinin qarşısının alınması, ləzgilərin Gürcüstan torpağına soxulmağa qoyulmaması əmrini verdi. Bir ildən sonra knyaz Balakəndən Gürcüstana qayıtdı.

## RUS QOŞUNUNUN GƏNCƏ ÜZƏRİNƏ HÜCUMU VƏ GƏNCƏNİ ZƏBT ETMƏSİ

Knyaz Sisianov öz hakimiyyətinə Carda mütərəddidlik edənləri susdurduqdan sonra rahatlanıb Tiflisə qayıtdı.

Tiflisdən Gəncə xanı Cavad xana bir məktub göndərdi və ona qüdrətli rus dövlətinə tabe olmağı, düşmənçilikdən, ziddiyyətdən, üsyan və təhdidlərdən əl çəkməyini təklif etdi. Cavad xan isə sərdarın səmimi nəsihətlərindən boyun qaçıraraq ədavətdən dəm vurub döyüş meydanına qədəm qoydu. Cavad xanın bu hərəkətindən sonra yüksək təbəqədən olan sərdar gürcü tavadının adamlarını, Şəmsəddinlinin, Qazaxın qoşunlarını toplayıb rus qoşunları ilə Gəncəni zəbt və Cavad xanı tənbeh etməyi qət elədi. O, 1218 (1803)-ci ildə çoxlu qoşunla Gəncə tərəfə hərəkət etdi. Cavad xan knyaz Sisianovun rus qoşunu ilə Gəncə üzərinə gəldiyini eşidən kimi əyan, əşrəf və dövlət adamlarını toplayıb, onlarla məsləhətləşdi. Onun əyanlarının hamısı axund və seyidlərdən ibarət idi. Bunlar knyaz qoşununa nisbətən hər bir düşmənçilikdə və rus qoşununun qarşısını almaqda Cavad xana müttəfiq oldular. Onlar deyirdilər: “Nadir şah öz rəşa-

dətli, bacarıqlı qüvvələri ilə Gəncəni tuta bilmədiyi halda, rus qoşunlarının nə gücü var ki, Gəncə qalasını tuta”. Rus qoşunları Gəncə xanlığının ərazisinə çatar-çatmaz Cavad xan onların qarşısını almaq üçün bir az qoşun göndərdi. Qumlu Qobunun yaxınlığında hər iki tərəfin qoşunları bir-birinə rast gəlib vuruşa başladılar. Cavad xan bir az geriləd ikdən sonra davam gətirə bilməyib qaçdı. Gəncənin Ərk qalasına çəkilib, özünü mühafizə və müdafiə etməklə məşğul oldu. Rus qoşunu şəhərə girib, qalanı dörd tərəfdən möhkəm mühasirəyə aldı və Cavad xanın bütün çıxış yollarını bağladı. Onların azuqəsi ancaq top və tüfəng gülləsinin tüstüsü idi. Cavad xan və qala əhli bir aylıq mühasirədə böyük əziyyət çəkdi. Bu müddətdə sərdar qalanı zəbt etməyə hazırlaşdı. Sərdarın əmrilə orucluq bayramının axşamı rusların qalib qoşunları dörd tərəfdən qalanın üzərinə hücuma başladı. Qalanın hər iki tərəfindən Cavad xanın qoşununun üstünə gülləni yağış kimi tökdülər.

Cavad xan isə düşməninə ağır zərbələr vuraraq özünü qəhrəmancasına müdafiə edirdi. Şiddətli vuruşma əsnasında rus zabitlərindən biri olan mayor Lisanoviçin gülləsi Cavad xanı həyət divarından kəlləmayallaq yerə endirdi. Beləliklə, rus əsgərləri qalanı zəbt etdilər. Əsgərlər hər tərəfdən qalaya daxil olub, onların Orucluq bayramını Qurban bayramına çevirdilər və işıqlı günlərini qaranlıq gecəyə döndərdilər. Sərdar camaatı qırmağa əmr verdi.

Üç saat qılınclar başlara endi və canalan nizələr ürəklərə sancıldı, rus əsgərləri arası kəsilməyən qırğından əl çəkmirdilər. Üç saatdan sonra sərdar qırğının dayandırılması və əsirlərin onun yanına gətirilməsi əmrini verdi.

Sərdarın əmri və hökmü ilə qalada yaşayanların arvad-uşaqlarını qalanın içində saxladılar, Cavad xanın ailəsi və qohumlarını Cümə məscidində yerləşdirdilər. Bunların hamısının üzərində gözətçi qoydular.

Sonra knyaz Sisianov vilayətin işlərini və nizam-intizamını müəyyən bir qaydaya saldı. Orada komendant təyin edib, divanxanalar açdı və Gəncəni hörmətlə məlaikə Yelizavetpol adı ilə adlandırdı. Bəzi yaxşı göstərişlər verdi və şəraitə müvafiq qanunlar qoydu. Cənab knyaz Sisianov Gəncə işlərini nizama saldı, vilayət əhlini aram etməyə müvəffəq oldu. Sonra oradan qayıdıb Gürcüstana gəldi.

## GƏNCƏ UĞRUNDA MÜHARİBƏ VƏ ONUN ZƏBTİ

Cavad xanın qətli barəsində türk (Azərbaycan) dillərində çoxlu şeirlər və beytlər deyilmişdir. Bunlardan bir hissəsini biz burada qeyd edirik ki, oxucular Gəncə əhlinin nə kimi vəziyyətlərdən sonra tabe olduğunu bilsinlər.

N ə z m (türkcə):

Səmtində öldürən çoxdur.
Gələnə heç sözüm yoxdur.
Müxənnəs var isə qaldır,
Yüz min rus gəlsə vur öldür.
Cavad xan bu nə olacaq
Dildən dilə söylənəcək.
Cavad xan bir xan olacaq,
Aləmdə dastan olacaq...

## QALANIN (GƏNCƏNİN) ALINMASI OSMANLICA BELƏ TƏSVİR OLUNUR

Sərəsgərdir Əmin paşa
Hökmün keçər dağa-daşa...
Həp əsir olduq gavur elində.
Döyüşə çıxdı çərxçi,
Kimi seyid, kimi hacı,
Mollalar sizə duaçı,
Həp əsir olduq gavur elində...

## KNYAZ SİSİANOVUN İRƏVAN ÜZƏRİNƏ HÜCUMU, QIZILBAŞ QOŞUNU İLƏ ONUN MÜHARİBƏSİ, MÜVƏFFƏQİYYƏTSİZLİYİ VƏ GERİ QAYITMASI

Knyaz Sisianov Gəncədən Tiflisə qayıtdıqdan sonra haman ilin qışını burada keçirdi, qoşunu yenidən toplayıb səfərə hazırlaşdı.

Sərdar bir neçə dəfə İrəvan hakimi cənab Məhəmməd xandan məktub və ərizələr almışdı. Yazdığı məktub və ərizələrdə Məhəmməd xan sərdar İrəvana gələn kimi qalanın açarını ona verməyi, özünün də ona tabe olacağını vəd edirdi.

Naxçıvan hakimi o zaman İrəvanda idi. Məhəmməd xanın müstəqil bir hakim olmağına baxmayaraq, işin gedişi xatirəsinə mühüm işləri idarə etmək məsələsi, bir yeri və ya işi ələ almaqda və ya ayrı-ayrı məsələlərin daha geniş surətdə həllində Kəlbəli xandan istifadə edib, onunla əlaqə saxlayardı və onun məsləhət və məşvərətilə iş görərdi. Kəlbəli xan da öz növbəsində knyaza ərizə yazıb özünün sərdara olan sədaqətini və ona qulluq etməyə hazır olduğunu izhar edərdi.

Knyaz Sisianov bahar fəslində 1219 (1804)-cu ildə qələbə ilə şöhrət tapmış qoşunu və rəşadətli sərkərdələrilə İrəvana yollandı. Yerlərini dəyişə-dəyişə Üçkilsənin ətrafında təntənə ilə çadırlar qurdu. Knyaz Sisianovun igidliyi və təntənəsi bütün Qızılbaş vilayətlərini, onun ətrafını bürümüşdü. Sərdar Sisianova işpextur[1*] da deyirdilər.

Cənabi-naibüssəltənə Abbas Mirzənin kiçik yaşda olmasına baxmayaraq, böyük sərdarlarda olan ixtiyara malik idi.

Abbas Mirzə (İran tərəfindən) yüz yetmiş minlik qoşunla işpexturla müharibəyə girişdi. Ruslarla qızılbaşlar arasında bu günə kimi misli görünməmiş şiddətli vuruşmalar oldu. Amma heç kəs hələ belə bir müharibə görməmişdi.

N ə z m (sətri tərcümə):

Hər tərəfdə qoşun sıraya düzülmüşdü,
Çöldə əcəl də öz çadırını qurmuşdu.
Hər iki tərəf bir-birilə əlbəyaxa olub,
Müharibəni qızışdırırdı...

---

[*] [1] Bu söz inspektor sözünün təhrif edilmiş formasıdır.

Hər iki tərəf vuruşmada çox böyük səy göstərdi. Acıqlı bal arısı kimi bir-birinə qarışmışdılar. Nizə və iti qılıncların ucları ilə bir-birinin baş və sinələrini yarırddar.

N ə z m (şətri tərcümə):

Hər tərəfdə o qədər insan cəsədi vardı ki,
Qoşun müharibə etmək üçün yol tapmırdı.
Yerin üstü kişilərin qanı ilə damğalandı...

Bu, qızılbaşlarla ruslar arasında birinci müharibə idi. İranlılarla ruslar bu vaxta kimi müharibə etməmişdilər. Ona görə də ruslardan gözləri qorxmamışdı. Bu vuruşda iranlılarla ruslar qızğm surətdə əlbəyaxa oldular. Vuruşanlarm çoxu görkəmli xanlardan və igidlikdə ad qazanmış cavanlardan ibarət idi.

Qızılbaşlar atlarmı çaparaq, döyüş meydanma, rus əsgərlərinin içərisinə girirdilər. Ruslardan bir çoxunun başını qılıncla vurub, yenə igidliklə meydandan salamat çıxırdılar.

Döyüş günü sərdar qoşununu üç dəstəyə bölmüşdü. Qızılbaşların ruslara olan qəzəbli hücumu həddini aşırdı. Dava meydanında vuruşanların bir-birinə qarışmasından, toz-torpağın çoxluğundan, top-tüfəngin tüstüsündən işıqlı dünya elə zülmətə çevrilmişdi ki, rus qoşunları bir-birlərini görmür, zənn edirdilər ki, axırıncı alay məğlub olub. Cənab sərdar özü də qoşunların arasında şir və pələng kimi hər tərəfə dolanıb, onların vuruşmalarını izləyirdi. Tüstü çəkilərkən, ruslar bir-birinə baxıb gördülər ki, hamı sağ-salamatdır. Ölənlərin hamısı isə qızılbaşlardan idi.

Vuruşmanın nəticəsində çöldə olan yaşıllıqlar al-qana boyanmışdı. Bu davada qızılbaşlar davam gətirməyib qaçdüar. Qorxu və vahimədən İrəvan şəhərinə yaxın gələ bilməyib, şəhərin yuxan tərəfindən keçərək, etibarlı bir yerə gəlib çatdılar.

Knyaz Sisianov burada dayanıb özü də, qoşunu da istirahət etdi. İki gündən sonra yenə qoşunu və toplarını götürüb onların ardınca getdi. Axşamçağı qızılbaş qoşununa çatdı. Qızübaşlar rusların qabağını almağa çox çalışdılar ki, düşməni qoymayalar öz ordularına tərəf gəlsin. Öz qoşun və toplarını yolun hər iki tərəfinə düzdülər. Yenə də böyük vuruşmalar başlandı. Bir gün əvvəlki vuruş bunun yanında oyuncaq idi. Amma qızılbaşlar yenə də məğlub oldular, çadır və hərbi

ləvazimatlarını da, başqa hər nə vardısa hamısını qoyub, İrana tərəf qaçdılar. Aşağıda qeyd olunmuş beyti burada deyiblər:

N e z m (sətri tərcümə):

İnspektorun topunun bir nərəsindən,
Nə çadır yerdə qaldı, nə də dirəkləri.

Ruslar onların hədsiz-hesabsız şeylərini və toplarını, qənimətlərini ələ keçirtdilər.

Abbas Mirzənin qoşunu qaçandan sonra sərdar oradan köçüb, İrəvan şəhəri üzərinə yürüş etdi və oranın mühasirəsi ilə məşğul oldu. Bu zaman İran tərəfdən yenə də Fətəli şah çoxlu qoşunla Abbas Mirzəyə kömək etmək üçün İrəvana gəldi...

Ruslar qızılbaşlar üçün azuqə və başqa şeylər gətirilən yolların hamısını bağladüar. Knyaz Sisianov İrəvan şəhərinin ətrafmdakı bağları və məhəllələri zəbt etdi. Şəhərin dörd divarı qızılbaşların əlində idi.

Rus qoşunları İrəvan şəhərini mühasirəyə alddar. Rusların qoşunu isə qızılbaşların mühasirəsində oldu və gediş-gəliş yolunu birdəfəlik kəsdilər. Ruslann dörd tərəfini elə tutmuşdular ki, bəzi knyazlar hərçənd səyahət məqsədilə Sisianovla buraya gəlmişdilər, amma qaçan vaxtda qızılbaş qoşununa düçar oldular. Fətəli şah oradan sərdari-milli olan Qacar Pirqulu xanı Gürcüstan valizadəsi Aleksandr Mirzə ilə bir yerdə Tiflis şəhərinə yola saldı. Bu zaman Qazax və Borçalı elləri rusların itaətindən çıxıb, onlardan üz çevirmişdilər, ancaq Nəsib bəy Gəncə davasında özünün sədaqətini və itaətini güclü Rus dövlətinə göstərmişdi. Mayor Lisaneviç də onun yanında idi.

Tiflis, Şəmsəddinli, eləcə də digər böyük və kiçik kəndlərin bəzi valiləri Başıaçığa gəlib valizadə ilə birləşdilər. Tüğyan və üsyana başladüar. Qarakilsədə olan rus əsgərlərini və camaatı mühasirəyə aldüar. Lakin bu təşəbbüs heç bir nəticə vermədi.

Knyaz Sisianov orduda ərzağın azaldığını görüb Qara mayor adı ilə məşhur olan mayor Qandaurovu yüz əlli əsgərlə və Məlik Abunun oğlu Rüstəm bəyi də öz adamlarıyla bunlara qoşub, tələsik Gürcüstandan azuqə gətirməyə göndərdi. Qızılbaş qoşunu bu işdən xəbərdar olub, onların ardınca getdi. Üç gün vuruşma davam etdi.

Pənbəkə yetişən kimi valizadələr Qarakilsəni mühasirə edən Pirquluya dedilər: "Biz üç gündür ki, ruslarla vuruşuruq nəinki onlar, hətta biz də cana gəlmişik". Pirqulu valizadələrlə onlarm köməyinə gəlib səhər tezdən gün batana kimi vuruşdular, hər iki tərəfdən çoxlu adam tələf oldu. Mayor Qandaurov yaralandı, artıq şiddətli vuruşma öz gücünü göstərirdi. Nəticədə mayor üç yerdən yaralanıb oradaca öldü. Qoşunu da məğlub edib əsgərlərini dağıtdılar. Ermənilər də qaçıb o ətrafda olan bir mağarada səngər qazdılar. Nəhayət, hamısı tutulub əsir oldu. Sonra qızılbaşlar yenə də qayıdıb Qarakilsənin mühasirəsinə başladılar. Qubernator Tiflisdən sərdarın qoşunu üçün bir qədər əsgərlə 200 arabaya yaxın ərzaq göndərdi. Onlar Ulu yaylağına yetişən kimi yerli əhali onların yolunu kəsib qarət etdi. Əsgərlər özlərini müdafiə etmək üçün arabaları səngər etməyə məcbur oldular. Yerlilər nə qədər çalışdılarsa da onlann səngərlərini ala bilmədilər. Bu vəziyyətdən sonra Pirqulu xanı xəbərdar etdilər. Pirqulu xan buraya özünü vaxtında yetirib çox səy etdisə də amma səngərləri tuta bilmədi. Arzusuna çatmamış geri qayıtdı və Ağlağan dağının ətəyində yerləşdi. Bu xəbər Tiflisə çatan kimi qubernator sərdarm qoşununa azuqə və başqa sursatlar yetirmək üçün bir nəfər generalı 4 top və 300 əsgərlə göndərdi. Bundan sonra artıq heç kəs onlarm qabağım almağa cürət etmədi. Pirqulu xan da geri qayıtmağa məcbur oldu. Ruslar da azuqəni salamat Qarakilsəyə gətirdilər. Ərzaq yetişdikdən sonra knyaz Sisianov ordu içərisində qızdırma xəstəliyinin yayılmasını görüb qoşunu İrəvandan Qarakilsəyə çəkdi, azuqəni qoşun arasmda böldü.

Sərdar Pirqulu və valizadələr çarəsiz qalıb məyus halda geri qayıtdılar.

Rus dövlətindən üz çevirən Borçalı və digər Gürcüstan elləri qorxularından öz vətənlərindən köçüb Qarabağa gəlmək istədilər.

Mayor Lisaneviç bu işdən xəbərdar olub Nəsib bəylə bir yerdə onlara nəsihət və özlərinə cəlb etməyə səy etdilər. Onları sakitləşdirdikdən sonra bu vaxt sərdar da Gürcüstan torpağına daxil oldu. Sadaxlı kəndində ellərin böyüklərini çağırıb onları başa salaraq, qəflət yuxusundan ayıltdılar. Onlara bir çox suallar verdilər.

Güclü bir dövlətə qarşı bu inadkarhğa, qulaq asmamağa və itaətdən boyun qaçırmağa səbəb nədir? Hamısı sərdarın verdiyi sualların müqabilində bir söz deməyib, sakit durdu və xahiş etdi ki, sərdar

onları bağışlasın. Knyaz Sisianov mərhəmət edərək əmr etdi və dedi: "Bu hərəkətlər ağılsızlıqdan baş vermişdir və bəzi hallarda sizin tərəfinizdən qüvvətli Rus dövlətinin ziddinə olmuşdur. Sizin xatirinizə təqsirinizdən keçirəm, amma o şeylər ki, Gürcüstandan qarət edib və ya götürüb aparıbsız, onlann hamısını sahiblərinə qaytarmalısız". Knyaz Sadaxlı kəndindən Tiflisə gəldi, dağda yaşayanların bir hissəsini öz yanına çağıraraq, xatircəm edib inandırdı ki, qış fəslini o burada qalıb, baharda Gəncə üzərinə yürüş üçün hazırlıq görəcəkdir.

## KNYAZ SİSİANOVUN GƏNCƏ TƏRƏFƏ GETMƏSİ, İBRAHİM XAN VƏ SƏLİM XANLA MÜQAVİLƏ BAĞLAMASI, QARABAĞ VƏ NUXANIN QÜDRƏTLİ RUS DÖVLƏTİNƏ TABE OLMASI

1221 (1805)-ci ildə knyaz Sisianov İrəvandan qayıdıb Gəncəyə gəldi. Qarabağlı İbrahim xanın və Nuxa hakimi Səlim xanın yanına adam göndərib, onları qüdrətli Rus dövlətinə tabe olmağa çağırdı. Məzkur xanlar sərdarın təklifini qəbul etdilər. Qarabağdan İbrahim xan, Şəkidən Səlim xan, Gəncədən knyaz Sisianov bir-birilə görüşmək üçün Kürək çayının kənarına gəldilər.

Bir çox müzakirə və mübahisədən sonra şərti müqavilələr bağlandı, bir-birinə inandırıcı sözlər və vədlər verdilər. Bundan sonra sərdar mayor Lisaneviçi 500 əsgərlə Qarabağa göndərdi. O qədər də əsgər Nuxaya yola saldı. Özü isə Başıaçıq və ona yaxın olan rayonların intizam işləri ilə məşğul oldu.

## İBRAHİM XANIN QƏTLİ

Fətəli şah Qarabağı zəbt etmək ümidi ilə İbrahim xanla qohumluq və yaxınlıq etdi. İbrahim xanın Rus dövlətinə tabe olduğunu eşitdikdən sonra Qarabağa qoşun göndərdi.

Fətəli şahın sərbazları Xudafərin körpüsünə gəlib, Qarabağın ətrafını soymağa başladılar və onlar ilə döyüşə girişdilər. İbrahim xanın oğlu Əbülfət xan çoxlu qoşunla Tuğ kəndinin üzərinə hücum etdi. Ətrafın əhalisi bu yerlərə pənah gətirib özlərini mühafizə etmək üçün səngərlər qazdılar. Burda böyük vuruşma və qırğın oldu. Əbülfət xan bu vuruşmadan heç bir fayda aparmadı.

Mehdiqulu xan öz qoşun və adamları ilə Əbülfət xanın üzərinə hücum edib onu məğlub etdi. Yaşının çoxluğundan və qocalığından İbrahim xandan çox vaxt yersiz xəyallar və tədbirlər baş verirdi. Bu zaman avarlardan və onların tərəfdarlarından bir neçəsi İbrahim xana Qızılbaş dövlətinə tabe olmağı təklif etdilər. İbrahim xan Şuşa qalasından çıxıb Xan Səngər adı ilə məşhur olan qalanın aşağı tərəfini tutdu. Burada çadır qurub dayandı.

Rus dövlətindən üz çevirib Qızılbaş dövləti ilə birləşmək məqsədilə burada dayanıb onların gəlməsini gözlədi.

Qızılbaşlar gəldikdən sonra İbrahim xan onlarla birləşdi[1*].İbrahim xanın fikrincə, qızılbaşlara tabe olmaq ona daha əlverişli idi. Xalq arasında deyilirdi ki, Əbülfət xanın qızılbaş qoşunu ilə Qarabağın üzərinə hücum etməsi ancaq İbrahim xanın məsləhətilə olmuşdur. Buna görə də 1221 (1806)-ci ildə Dəli mayor adı ilə məşhur olan mayor Lisaneviç 100 əsgər götürüb gecə qaladan çıxdı, dörd tərəfdən məzkur xanın çadırını əhatə etdi. İbrahim xanı öz əyanları ilə oradaca öldürdü. Haman gecə yenə də qalaya qayıtdı. Ondan soma Rusiya başçılarının göstərişi ilə İbrahim xanın yerinə onun oğlu Mehdiqulu xan Qarabağın xanlığına və onu idarə etməyə başçı təyin etdi. Cəzalandırmağı, şikayətə baxmağı ona tapşırdılar. Onu inanılmış bir adam kimi tanıdılar ki, bundan sonra Rusiyanın qanun-qaydası üzrə işləri icra etsin...

İbrahim xanın qətlinin tarixini qızılbaşlar bu şeir vasitəsilə tapmışdılar:

Bir div şişədən (Şuşadan) qalxdı,
dünyanı əzabilə yandırdı.
Adı Xəlil Nəmrudun odunu alovlandırdı.

İbrahim xan çox şəhvətli bir adam idi və həmişə heç kəsə məlum olmayan məcunlar yeyərdi ki, cinsi əlaqə qabiliyyətini itirməsin. İbrahim xanın vəziri olan Molla Pənah onun barəsində belə demişdir:

Gözəli sevəsən yeddi yaşında,
Saxlıyasan bəlkə xüddam yar ola.
Gecə-gündüz bəsləyəsən naz ilə,
Bəlkə hal-əhvaldan xəbərdar ola...

---

[*] [1] İbrahim xan 1805-ci il Kürəkçay müqaviləsinə sadiq qalmışdır. Müəllifin İbrahim xanın qızılbaşlarla birləşməsi fikri uydurmadır.

# QIZILBAŞ QOŞUNUNUN QARABAĞ ÜZƏRİNƏ HÜCUMU VƏ POLKOVNİK KARYAGİNİN MÜHARİBƏSİ

Qızılbaşlar o zamanlar belə fikir edirdilər ki, İbrahim xan öz sağlığında Qarabağı saxlayırdı, indi isə öldürülübdür. Yaxşı olar ki, biz gedək Qarabağı zəbt edək. Ona görə qızılbaşlar Qarabağ mülkünə tamah edib, 1221 (1806)-ci ildə şahzadə Abbas Mirzə saysız-hesabsız qoşunla Qarabağ üzərinə yürüş etdi. Tiflisdən də polkovnik Karyagin 400 əsgərlə Qarabağa komandan təyin oldu. Məzkur polkovnik Əsgəran tərəfində qızılbaş qoşunu ilə şiddətli vuruşmalara girişdi. Qızılbaş qoşunlarından bir çoxu Əsgərandan yuxarı gedə bilməyib, oradan qayıdaraq Şahbulaq qalası tərəfə üz tutdu. Abbas Mirzə əvvəlcədən qoşunun bir dəstəsini Əmirxan Cahanbəylinin sərkərdəliyilə Tərnəküt qalasını mühasirə etmək və rusların qalaya daxil olmasına mane olmaq üçün göndərdi. Sonra polkovnik əsgərləri ilə birlikdə vuruşa-vuruşa Tərnəküt qalası tərəfə qayıtdı. Elə ki qalaya yetişər-yetişməz qalanın darvazasını bağlı görüb onu top ilə dağıtdılar. Ruslarla qalaya girib, orada olan qızılbaşları qırdılar. Qızılbaşların sərkərdəsi olan Əmirxan bəy canının qorxusundan qalanın divarı üstündən özünü aşağı tullayıb, başqa yoldaşları ilə birləşdi. Ruslar bir neçə gün qalada qaldılar. Qızılbaş qoşunları da onları ətrafdan mühasirəyə aldılar. Rusların sursatları qurtardıqdan sonra oradaca çiləbördlü məlik Vanya həmişə gecələr bunlara öz adamları ilə dallarında çörək daşıyırdı. Polkovnik bu işin çətinliyini görüb, qalan yüz əsgərlə bir yerdə gecə oradan çıxıb özlərini dağ yolu ilə Çarmıx qalasına yetirdilər.

Çarmıxda əhalidən çörək və başqa azuqə alıb, Gəncəyə daxil oldular. Oradan da Tiflisə getdilər. İkinci dəfə qoşun götürüb Zəyəm çayı kənarına gəldilər. Burada Abbas Mirzə ilə döyüşə girib, onu məğlub edərək İrana qayıtmağa məcbur etdilər. O zaman Fətəli şah çoxlu qoşunla gəlib Araz çayının kənarında dayandı. Ona görə cənab knyaz Sisianov həmin il avqust ayında Fətəli şah ilə müharibə edib, onu Iraq və Azərbaycana qaçmağa məcbur etdi. Özü isə yenə də Gürcüstana qayıtdı.

# KNYAZ SİSİANOVUN BAKIYA GƏLMƏSİ VƏ ORADA ÖLDÜRÜLMƏSİ

Rusiya başçılarının, o cümlədən knyaz Sisianovun əsas məqsədi hər hansı yolla olur olsun Qara dənizlə Xəzər dənizi arasındakı yerləri rus dövlətinin əlinə keçirmək idi. Onlar iki dənizin arasında olan xalqların ticarət işlərini və gediş-gəlişini asanlaşdırmaq məqsədilə də bu yerləri zəbt etmək istəyirdilər. Bu məqsədlə cənab knyaz öz dəyərli fıkirləri və möhkəm əzmiylə Qara dəniz kənarında qala tikdirdi və qət etdi ki, Bakını da öz ixtiyarına gətirsin. Bununla özü üçün hər cəhətdən asudəlik və əhali üçün rahatlıq və əmin-amanlıq əldə etmək istəyirdi. O, Tiflisə qayıtdıqdan sonra qoşun və səfər üçün lazım olan sursatları hazırlamaqla məşğul oldu. Knyaz 1221 (1806)-ci ilin fevral ayında qalib qoşunu ilə Bakı və onun ətrafına hərəkət etdi. Qarabağ hakimi Mehdiqulu xan[1*] da knyaza kömək etmək üçün onunla səfərə çıxdı, amma Şirvan xanı Mustafa xan Rusiya dövlətinə tabe olmayaraq kənara çəkildi və düşmənçilikdən dəm vurdu, inadla üsyan etməyə başladı. Buna görə də cənab sərdar əvvəlcə onu cəzalandırmağı vacib və lazım bilib Şamaxı tərəfə yönəldi. Mustafa xan bunu eşidən kimi dəhşətə və qorxuya düşüb qaçdı. Öz adamlarını və mal-qarasını götürüb Fit qalasında gizləndi. Sərdar gələndən sonra aralarında barışıq oldu, hər iki tərəf arasında müqavüə bağlandı və beləliklə, oranın işləri müsbət nəticə ilə qurtardı.

Bir neçə dəfə sərdar tək bir atlının müşayiəti ilə Mustafa xanın yanına getmişdi. Mustafa xan da xeyirxahlıqla sərdara demişdi ki, tək gəzmək qorxuludur. Sərdar cavabında demişdi: “Dünya xalqlarının pənahı olan şahımızın mənim kimi milyon-milyon nökərləri var, əgər mən məhv edilsəm, ancaq bircə nəfər azalmış olar”.

Bununla o demək istəyirdi ki, mənim ölümümlə bir rus əsgərinin ölümü arasında heç bir fərq yoxdur. Cənab sərdar buradakı işlərdən xatircəm olduqdan sonra Bakıya gedib, onun ətrafını həm dənizdən, həm qurudan möhkəm mühasirəyə aldı. Bir neçə müddət keçəndən sonra Bakı hakimi Hüseynqulu xan Rus dövləti ilə dostluq etmək üçün tədbirlər gördü, münasib yollar aradı və Rus dövlətinə

---

[*] [1] Mehdiqulu xan hələ Qarabağ hakimi deyildi. O, atasının göstərişi ilə Sisianova kömək göstərirdi.

qulluq və itaət etdiyini söylədi. Sərdar onun sözlərinə inanıb aralarında dostluq və sülh əlaqəsini möhkəmlətdi. Hüseynqulu xan qaladan kənara çıxıb, bir tərəfdə çadır qurub dayandı. Bir gün Hüseynqulu xan sərdar Sisianova xəbər göndərib hər iki tərəf üçün çox lazım olan bəzi gizli məsələləri həll etmək bəhanəsi ilə onu öz çadırına dəvət etdi. Belə kiçik şeylərə etina etməyən, geniş bir ürəyə malik olan, qorxaqlığı şəninə sığışdırmayan Sisianov təmiz qəlbli bir sima kimi bu dəvətə şübhə ilə baxmadı. Sərdar durub Hüseynqulu xanın çadırına gəldi. Çadırda onunla danışıq aparıb müşavirə etdilər. Hüseynqulu xan da qalasının açarını gümüş məcməyidə sərdarın qabağına qoydu. Söhbət əsnasında Hüseynqulu xanın qohumlarından İbrahim bəy adlı birisi əvvəlcədən verilən göstərişə görə, Hüseynqulu xanın işarəsilə namərdlik edib sərdarı tapança gülləsi ilə yaraladı, bu yaradan sərdar oradaca vəfat etdi.

N ə z m (sətri tərcümə):

Dünya bir piyalə, fələk saqi, qəm isə meydir,
İnsanlar onun məclisində mey içməklə məşğuldurlar.
Bu piyalədən, bu saqidən, bu meydən,
Heç kəs canını qurtara bilməz...

Hüseynqulu xan knyaza elədiyi bu xəyanəti Qızılbaş dövlətinə böyük bir xidmət saydı, ona görə də sərdarın başını çapar və qatil İbrahim bəy ilə Qızılbaş ölkəsinə göndərdi. Qızılbaş dövləti gücdə sınanmış və Bakı çöllərində vuruşa bilən saysız-hesabsız ulduzlar qədər qoşunu Bakının üzərinə tökdü. Qoşunun çoxluğundan al-qırmızı səhra çadırları insana qiyamət gününü andırırdı. Rusiya qoşunu bu vəziyyət ilə tanış olduqdan sonra quru yolla qayıtmaqdan ehtiyat etdi. Onlar gəmilərə minib Həştərxana gəldilər. Bundan sonra Şəkidə yaşayan baş komandan general-mayor Nesvetayev Qafqaz ərazisində iranlıların qoşunu tərəfindən əmələ gəlmiş intizamsızlığı, bəzi yerlərdə və kəndlərdə baş verə biləcək üsyan, iğtişaş, fitnəkarlıq əlamətlərini görüb sərdara lazım olan bütün vəzifələri aparmaqla bərabər işləri də qaydaya saldı.

Beş ay keçənədək, yəni böyük sərdar Qudoviç Tiflisə gələnə kimi general-mayor Nesvetayev sərdarlıq vəzifəsini apardı.

## GENERAL QRAF QUDOVİÇİN QAFQAZ TORPAĞINDA SƏRDARLIĞI VƏ BU DÖVRDƏKİ HADİSƏLƏR BARƏSİNDƏ

General qraf Qudoviç 1222 (1806)-ci il iyun ayında Gürcüstanın sərdarı, general Bulqakov isə Qafqazda ordu başçısı təyin olundu.

Qraf Tiflisə gəldikdən sonra Türkiyə sultanı ilə müharibəyə başladı. Çoxlu (hazırlıq) hərbi ləvazimat, qoşunla Axalkalaki tərəfə yollandı. General Bulqakov isə Bakını və Qubanı tutmaq üçün Dağıstanın cənubuna hərəkət etdi və həmin yerləri öz əlinə aldı. General-mayor Qlazian Dərbəndi zəbt etdi, sonra qoşununu götürüb Qarabağa getdi. Yerlilərlə vuruşaraq onları məğlub etdi, əhalini öz itaətinə gətirdi. General-mayor Nesvetayev Gömrü tərəfinə canişin təyin olundu. O zaman Axalsixi hakimi Xümşizadə Səlim paşa bu xəbəri eşidib olduqca qorxuya və təşvişə düşdü.

O, müzəffər rus qoşunlarının zərbələrini dəf edərək, Axalkalakini mühafizə etmək üçün oraya qoşun göndərdi. Cənab qraf atlı qoşunları ilə heç yerdə dayanmadan və heç yerdə yubanmadan ayın axırlarında Axalkalaki açıqlığına gəlib orada çadırlar qurdurdu. O, böyük qələbə həvəsilə qalanı dörd tərəfdən mühasirəyə aldı, qalanın içərisinə girmək üçün nərdivanlar hazırladı, bir həftədən sonra sübhə iki saat qalmış şəhərə yürüş etdi və günortaya yaxın müharibə odunu alovlandırdı, lakin murad güzgüsündə fəth və zəfərin surəti görünmədi. Orada bir neçə gün qaldıqdan sonra o biri gün Gürcüstana qayıtdı.

Qraf Tiflisə gəldikdən sonra eşitdi ki, Yusif paşa ordu başçısı təyin edilib və müharibə etmək niyyətilə Karsa gəlmişdir. 1222 (1807)-ci il iyunun 18-də sərdar müharibəyə hazırlıq görüb Gömrünün yaxınlığında - Arpaçayın kənarında - indi Aleksandropol adlanan yerdə hər iki tərəfin qoşunu bir-birinə rast gəldi. Çayın hər iki tərəfində dava başlandı. Atılan top və tüfənglər getdikcə döyüş meydanını kiçiltdi, bir azdan sonra türklərin qoşunu məğlub olub qaçmağa üz qoydu. Türklərdən saysız qənimət və çoxlu toplar ələ gətirdilər. Sərdar məqsədə çatmamış Tiflisə gəldi. 1808-ci il qışın şiddətli vaxtında lazımi tədarük görərək öz zəfər bayrağı ilə İrəvan tərəfə hərəkət etdi. Əvvəl qızılbaş qoşunu ilə Qarababada dava edib, onu

məğlub etdi. Ondan sonra İrəvana gəlib oranı mühasirəyə aldı və bir azdan sonra şəhərə yürüş etdi, amma bir iş görə bilmədi. Bu çəkişmədə çoxlu adam həlak oldu. Nəhayət, İrəvanı tutmaqda aciz qaldı. Məqsədə yetişmədən geriyə dönmə təbilini vurdurub, yenidən Tiflisə gəldi.

## SÜVARİ GENERALI TORMASOVUN QAFQAZDA SƏRDARLIĞI VƏ ONUN DÖVRÜNDƏKİ HADİSƏLƏR

1224 (1809)-cü ildə Rusiyanın dövlət başçıları və rəisləri tərəfindən süvari generalı Tormasov Gürcüstanın sərdarlığına təyin olundu, qraf Qudoviç isə Rusiyaya geri çağırıldı. Sərdar Tormasov türklərlə barışıb, çox vaxtlar qızılbaşlarla vuruşurdu. O zaman qızılbaşlar Rusiya dövlətinin başçılarını hiylə ilə sakit etdilər. 1224 (1809)-cü ildə Məhəmmədəli Mirzə Borçalını çapıb qarət etməyə göndərildi. Qızılbaş sərbazları borçalılara böyük zərər vurub, saysız-hesabsız qarət ələ gətirdilər. Haman ildə İrəvan sərdarı Ağa Hüseyn xanı valizadələrlə birlikdə Axalsixidən Gürcüstana keçirmək, yenidən fıtnəkarlığı işə salmaq məqsədilə onları Gürcüstana göndərdi. Tormasov işdən xəbərdar olan kimi Şəmkirdən keçib Sədra körpüsündə dayandı və general-leytenant Pauluççi və general Lisaneviçə qoşun verib Ağa Hüseyn xanın müqabilinə - Axalsixiyə göndərdi. Bu generallar müzəffər əsgərləri ilə yola düşdülər. Gecəyarısı zil qaranlıqdan istifadə edərək qəflətən qızılbaşlara hücum edib həddən artıq qətl və qarət etdilər. Qızılbaşların çoxunu öldürdülər. Qalanlar isə özlərini çox çətinliklə fəlakət uçurumundan qurtardılar. Piyadalardan bir hissəsi öz yurdlarına qayıtdı. Yolda osmanlı qoşunları onların çoxunu soydu. Çılpaq, ürəkləri, ciyərləri yanmış qızılbaşlar çox əzab-əziyyətdən sonra özlərini İran sərhədinə yetirdilər. Ağa Hüseyn xan bu məğlubiyyətdən sonra Qızılbaş dövlətindən utanıb qorxuya düşdü və Koroğlu qalasına qaçdı. Bir neçə müddətdən sonra onu inandırıb öz yerinə gətirdilər. Həmin il noyabr ayında general-mayor knyaz Orbeliani osmanlı əsgərlərini dağıdıb, onun ürəyinə yatan Budi qalasını tutdu.

1225(1810)-ci il yanvar ayında həmin qalanı məzkur Orbelianinin ixtiyarına verdilər. Həmin ildə bütün Gürcüstan İmeretiya vilayətləri ilə bir yerdə Rus dövlətinə tabe olub, bac verməyə başladı.

Orbeliani 1226 (181l)-cı ildə İmeretiyada divanxana qoyub, buranı İmeretinski oblastı adlandırdı. Bu işlərdən sonra general Tomasov Gürcüstan sərdarlığına general-leytenant markiz Pauluççini təyin etdi. Özü isə Rusiyaya qayıtdı.

## QAFQAZ HÜDUDUNDA (VİLAYƏTİNDƏ) GENERAL-LEYTENANT MARKİZ PAULUÇÇİNİN SƏRDARLIĞI VƏ BU DÖVRDƏ OLAN HADİSƏLƏRİN ƏHƏMİYYƏTİ

1226(181 l)-cı il sentyabr ayında cənab general-leytenant markiz Pauluççi Gürcüstan sərdarlığına təyin olub Tiflisə gəldi, polkovnik Kotlyarevski isə Axalkələyə təyin olundu. Polkovnik dekabr ayında Axalkələyə yürüş edib oranı tutdu. Beləliklə, oranın əhalisi də Rusiya dövlətinin təbəəliyinə keçdi. General markiz Bakıya getmək üçün lazımi qədər qoşunla Gəncə vilayətinə yollandı.

Cavad xanın dustaq edilmiş arvad-uşağını və digər bir neçə qızılbaş xanlarını dustaqdan azad edib Bakıya gəldi. Bu əsnada Kaxetiya və Qısıq əhli üsyana qalxıb, inad göstərdi və itaət eləmək istəmədi. General-mayor Semyonoviç Kaxetiya üsyanını yatırıb, camaatı özünə tabe etdi. Belə bir vəziyyətdə, yəni 1227 (1812)-ci ildə qarabağlı İbrahim xanın nəvəsi Cəfərqulu ağa qızılbaşların yanına qaçmışdı. Naibüssəltənə Abbas Mirzə gəlib Qırcıda olan batalyonu darmadağın etdi. Bu məsələ belədir: Məhəmmədhəsən ağanın oğlu Cəfərqulu ağa və əmisi Mehdiqulu xanla bəzi səbəblərə görə yaxşı rəftar etmirdi, onların arasında kin və ədavət var idi. Buna görə də Mehdiqulu xanın təhriki və işarəsi ilə dövlət başçıları onu Tiflisdən Rusiyaya çağırdılar. Tərtər körpüsündən keçərkən, o, faytonla çaydan keçməkdən qorxduğunu bildirib, gözətçi başçısı zabitdən çaydan keçmək üçün ona bir at verilməsini xahiş etdi. Bu bəhanə ilə ata minib oradan qaçdı və öz adamlarından toplayıb qızılbaşlar tərəfə keçdi. Abbas Mirzə öz qoşunu ilə Araz kənarında olan Aslandüzdə dayanmışdı. Abbas Mirzə həmin ilin qışında top və sərbaz götürüb Mehdiqulu xanın üzərinə hücum etdi. Mehdiqulu xan da Qırcıda olan türk-

mənləri və başqa elləri özünə tabe etmək üçün bir batalyon əsgər götürüb oraya gəldi. İki gün gecəbəgündüz aralarında şiddətli vuruşma oldu. Qızılbaşlardan bir çoxu tələf edildi.

Müsəlman tayfalarının arvad-uşaqları rus qoşununun içərisinə daxil olduqdan sonra onların arasında nizam-intizam pozuldu. Bu ellərin əhalisinin bir hissəsi rus qoşunlarının önündə, digər bir hissəsi isə arxasında gedirdi. Beləliklə, bu ellərin köçləri tamamilə dağıldı, onlardan bir hissəsi çarəsiz qalıb aman istədi və bir çoxu da qırıldı.

Mehdiqulu xan oradan qaçıb Şuşa qalasına gəldi və Cəfərqulu ağa da öz tayfa və adamlarından bir çoxunu oradan köçürtdü. Bunların hamısını həmin ilin qışında qızılbaşlar tərəfinə apardı, özü də gedib orada qaldı. Bir ildən sonra barışdılar və yenə oradan qayıdıb Qarabağa gəldi. General markiz bu xəbəri eşidəndən sonra Bakıdan Şirvana qayıdıb Mustafa xanın yanına getdi. Markiz Pauluççi Qırcıda olan hadisəni eşidəndən sonra Şirvandan Qarabağa yola düşdü və oradan da Şuşa qalasına gəldi. General markiz Pauluççi Qırcıda əmələ gəlmiş vəziyyətə görə əsəbiləşib bəzi adamlara qəzəbi tutur. O zaman gürcülərin Kaxetdə olan üsyanı barəsində arvadından məktub alır. Ona görə də tələsik Tiflisə yola düşür. Sərdar Qazax tayfasından ehtiyat edirdi. Bununla belə qazaxlılar yolda onun qarşısına çıxıb böyük ehtiramla Tiflisə apardılar. Bu dəfə gürcüləri açıqca dönə-dönə soyub qarət etdilər.

Bu zaman, yəni 1227 (1812)-ci ildə fransızların Rusiyaya gəlməsi xəbəri xalq arasında danışılırdı[1*]. Bu vaxt general markiz də sərdarlıqdan əl çəkib Rusiyaya getdi.

## GENERAL-LEYTENANT RTİŞŞEVİN SƏRDARLIĞI, QAFQAZDA QIZILBAŞLARLA SÜLH ETMƏSİ

1227 (1812)-ci ilin fevralında general-leytenant Rtişşev Qafqaz və Gürcüstan sərdarlığına təyin olub Tiflisə gəldi. Bu yerlərdə işləri qanun-qaydaya salmağa başladı. Həmin ilin oktyabrında Ağzıpara adı ilə məşhur olan general-mayor Kotlyarevski gecə Ağoğlandan Aslandüzə Abbas Mirzənin üzərinə hücuma keçib, onun qoşununu dağıtdı.

---

* [1] Söhbət fransızlara qarşı 1812-ci il Vətən müharibəsindən gedir.

Bu işin təfsili belədir: həmin general şam vaxtı bir batalyon qaniçən qoşunla Qazax atlılarından və bir dəstə Qarabağın igidlərindən ekspedisiya düzəldib Ağoğlandan, Muradxan adlı bir adamın bələdçiliyi və çıraq işığı ilə Arazdan keçib, Abbas Mirzənin ordusunun üzərinə hücum etdi. Gün çıxan vaxt ona yetişdi, top səslərini eşidən qızılbaşlar yuxudan sərsəm oyandılar. Çadır və orduya lazım olan şeyləri atıb, Aslandüz təpəsində tikdikləri qalaya tərəf getdilər. General ordugahı tutub burada qaldı.

İkinci gecə Aslandüz qalasının üzərinə yürüş etdilər. Səhərə yaxın əsgərlər hər iki tərəfdən qalanın üzərinə hücuma keçdilər. Gecənin qaranlığından istifadə edərək rus əsgərləri bir yaylım atəşi açıb öz yerlərində durdular. Qızılbaş əsgərləri rus əsgərlərinin qalada olmalarını zənn edərək öz adamlarını tanımadıqlarından səhərə kimi bir-birlərini qırırdılar. O gecə hamısı başlı-başına, dağınıq halda qaladan çıxdı. Bunlardan çoxu ruslara əsir oldu və bir çoxu da öldürüldü. Abbas Mirzə qaçan vaxt bir xəndəyin içinə, ölənlərin nəşələri arasına düşdü. Bir nəfər qabaqda gedən cilovdardan birisi Abbas Mirzəni görüb, ölənlərdən birinin atını ona yetirdi. Abbas Mirzə xəndəkdən çıxıb ata mindi və Təbrizə qaçdı. General Kotlyarevski fəth və zəfərlə çoxlu qəniməti ələ keçirib Qarabağa gəldi. Bir müddət orada qaldı. General həmin il qışın şiddətli vaxtında, yəni 1228 (1813)-ci ilin yanvarında yenə qoşun götürüb Lənkəran və Talış tərəfə üz tutdu. Həmin ilin qışı olduqca şiddətliydi və dənizin suyu hər tərəfdə çoxlu qalın buz bağlamışdı. General qorxusuz-hürküsüz Şuşa qalasından çıxıb Ərkvan qalasının üzərinə yürüş etdi. Bu arada böyük vuruşma və davalar oldu. Həm soyuqdan və həm də vuruşmadan hərçənd çoxlu adamlar tələf olub, general özü də bir neçə yerdən yaralandısa da, bununla belə qalanı və Talış mahalının xan oturan yerlərini zəbt edib öz ixtiyarına keçirtdi. Bundan sonra oradan geri qayıtdı. 1229 (1813)-cu ilin oktyabrında general Rtişşev qızılbaşlarla sülhə başladı. Sülh barəsində danışıqlar üçün İran tərəfindən Mirzə Əbdülhəsən xan gəldi. Burada əhali ilə danışıq aparıb "Gülüstan" adlı sülhün binasını qoydular. Fitnə və iğtişaşla dolu dünya bir az aramlıq tapdı. Bir neçə vaxtdan sonra general Rtişşevi xaric edib onun yerinə Yermolovu sərdar təyin etdilər.

## GENERAL-LEYTENANT YERMOLOVUN SƏRDARLIĞI VƏ QIZILBAŞLARLA SÜLHÜ

1232 (1816)-ci ilin oktyabrında cənab general-leytenant Yermolov Qafqaz dairəsinə və Gürcüstan sərdarlığına təyin olunub Tiflisə gəldi. Buranın işlərini qaydaya saldıqdan sonra 1233 (1817)-cü ilin aprelində hazırlıq görüb bir neçə inanılmış generallarla Sultaniyyəyə getdi, burada Fətəli şah və Qızılbaş dövlət başçıları ilə görüşdü. Rtişşevin sülh sazişi imperatorun arzusu və onun mübarək rəyi üzrə imzalanmışdı. Yəni Qaplanguhu sərhəd təyin etmişdilər, amma Yermolov işin əhəmiyyətini nəzərə alaraq, Araz çayını sərhəd təyin edib, geri qayıtdı və vilayətlərin nizam və intizam işlərinə başladı. Bütün işləri özünün tərtib etdiyi plan və nizam üzrə qurdu. Bəzi yerlərdə yerli şəraitə görə yeni qanunlar qoydu. Bu dövrdə Qarabağ və Şirvanın aşağıda göstərilən xanlarını qızılbaşların yanına çağırdı. 1238 (1822)-ci ildə əvvəlcə Mustafa xan, 1239 (1823)-cu ildə Mehdiqulu xan qızılbaşların tərəfinə keçdilər. Şəki xanı da həmin il vəfat etdi. Bu üç xanın vilayətləri Rusiya dövlətinin idarəsi altına keçdi. Cənab Yermolov bu vilayətlərdə divanxanalar açıb, komendantlar təyin etdi.

Dairə rəislərinin iqamətgahı Qarabağ xanlarının mərkəzi Şuşa qalası idi. İşlərin icrası Yermolovun özünün tərtib etdiyi qanun üzrə olurdu.

O, 1238 (1822)-ci ildə bütün görülən işləri toplayıb, hamısını dəftərə qeyd etdirdi. Cənabi Yermolov 1235 (1819)-ci ildə Dağıstan tərəfə hərəkət edib orada böyük vuruşlara girişərək, böyük fəthlərə nail oldu. Neçə il Dağıstanda arası kəsilmədən müharibələr etdi. Bunların hamısı geniş surətdə ayrıca bir kitabda qeyd edilmişdir.

1241 (1825)-ci ildə Şirvan və Qarabağ xanları qaçandan sonra Kumık ölkəsinin hakim və qazısı Surxay xan öz oğlu Nuhxan və nəvəsi Məhəmmədxan ilə Dağıstandan qaçıb qızılbaşların yanına getdilər. Bu neçə ildə qızılbaşlarla sülh dövrü olduğu üçün heç bir yerdə dostluğun ziddinə hadisə üz vermirdi. Cənab Yermolov vilayətlərin işlərini yaxşılıqla və düşüncə ilə aparırdı. Eləcə də general-mayor knyaz Mədətov dairə rəisi kimi Talış mahalında qərar tutmuşdu.

Mədətovun rəşadəti, igidliyi, cəsarəti və şücaəti hər yerdə məşhur idi. Dinc yaşayış, səmimiyyət, dostluq, birlik hər iki dövlət arasında mövcud idi. Həmişə Mədətovla Qızılbaş dövlətinin başçıları arasındakı yazışmalar dostluğun artmasına səbəb olurdu.

## GENERAL MƏDƏTOVUN ABBAS MİRZƏ İLƏ GÖRÜŞMƏSİ

Cənab general Mədətov çox məğrur, alicənab bir şəxs idi. Böyük adamların hamısı ilə özünü bir əqidə və bir fıkirdə bilirdi. Vəliəhd şahzadə Abbas Mirzə o zaman qış fəslində gəzmək və şikara çıxmaq məqsədilə Muğana, Araz çayının kənarına gəlmişdi. General Mədətov bu dövlətin başçılarının izin və icazəsi ilə şahzadə ilə görüşmək arzusunu bildirdi. Buna görə də öz ölkəsinin məşhur bəylərindən, Qazax atlılarından bir neçəsini götürüb Xudafərin körpüsünün o tayına, Abbas Mirzənin yanına getdi. Şahzadə Abbas Mirzə Mədətovun barəsində lazım olan ehtiramı və izzəti göstərdi. General Mədətov şahzadənin ordusunun içərisində rus adətilə atəşfəşanlıq və bayram keçirilmək üçün ona icazə verilməsini xahiş etdi. Abbas Mirzənin icazəsilə yaxşı atəşfəşanlıq tədarükü görüldü. Bir gecə elə atəşfəşanlıq göstərdilər ki, Abbas Mirzə ordusu atlarının çoxu cilovlarını qırıb ordu içərisinə qaçdılar. Sübhə kimi çox adamlar öz atlarını tapa bilmədilər. Qızılbaşlar bu atəşfəşanlığa, onun ustalıqla düzəlməsinə, təşkil edənlərinə heyrət edib afərin dedilər. Bir dəfə Mədətov şahzadə ilə olan söhbət və danışıq zamanında ona demişdi: “Siz gərək Göyçə və Sədərəkdən əl çəkib bizim ixtiyarımıza verəsiniz ki, Tiflis və Gürcüstan xalqlarının otlaq yerləri geniş olsun”. Şahzadə Abbas Mirzə Mədətovun belə cəsarət və ədəb qaydalarına riayət etməməsinə təəccüb edərək qəzəblənir. İkinci gün general Mədətovun dayısı Bidrus bəy şahzadənin yanına gedir.

Şahzadə Abbas Mirzə ona şikayət edib deyir:

- Sənin bu bacıoğlun çox cahildir. Heç sözünə həd və ölçü bilmir, o bir nəfər generaldır, Rusiya şahının onun kimi minlərlə generalı var, heç kəsin bu cür söhbətlər eləməyə ixtiyarı yoxdur. Şah babam Tehranda, rus padşahı da Peterburqda oturmuşdur. Ancaq onlar belə sərhəd və vilayətlər barəsində danışıb bir-birinə bağışlaya bilərlər. Mənə və ona bu cür söhbətlərdən danışmaq yaraşmaz. Siz ki qoca və böyüksünüz, ona nəsihət ediniz. Burada yaxşı demişlər: “Elə ki cavanın cavanlığı cuşa gəldi, təqsir qocadadır ki, onu aram etməyir”.

Bidrus bəy o saat cavabında deyir:

- Cavanın cavanlığı cuşa gələndə qocanın məsləhəti onun qulağına girməz.

Abbas Mirzə Bidrus bəyin bu hazırcavablığından xoşu gəlib onu tərif etdi.

## QIZILBAŞLARLA RUSLAR ARASINDAKI SÜLHÜN POZULMASI, ABBAS MİRZƏNİN QARABAĞDA MƏĞLUB OLMASI

Qızılbaşlarla ruslar arasında olan sülhün müddəti on bir ildən bir az əskik çəkdi. Bu neçə ilin müddətində əhali və İran qoşunu asudə, rahat yaşayırdı, heç bir güclü düşmən, güclü qoşun tərəfindən bir hadisə üz vermirdi. Ölkə içərisində kiçik toqquşma və ya iğtişaş baş verdikdə onu bir dəstə qoşunla sakit etmək mümkün olurdu. Abbas Mirzə özünü qüdrətli, istedadlı, mətanətli və qürurlu hesab etdiyi üçün və bir də digər səbəblərə görə Rusiya ilə sülh və dostluğun əsasını pozdu. Dostluğunu yüksək Rus dövləti ilə vuruşma və dava ilə əvəz etdi. Bunun birinci səbəbi ingilislərin hər il İrana müntəzəm olaraq top, tüfəng və başqa hərbi ləvazimat verməsi idi.

İngilislərin bunda əsas məqsədi rusların qurudan ingilis torpaqlarına olan yolunun qarşısını almaq idi. Fətəli şahın böyük oğlu və onun vəliəhdi olan naibüssəltənə Abbas Mirzə tədricən Azərbaycan vilayətində ingilis hərbi mütəxəssisi vasitəsilə qoşun üçün əsgər və topçu hazırlamağa başladı. İngilis dövləti həmin illərdə osmanlı, türkmən və qeyriləri ilə bir neçə vuruşmalarda oldu və həmişə onlara qalib gəldi. İranlılar belə xəyal etdilər ki, ruslarla olacaq müharibə həmin ordular arasındakı müharibələr kimi keçəcəkdir. Bəzi cahillərin başına ruslarla müharibə etmək düşdü. Lakin onu bilmirdilər ki, pişik siçan tutanda şirdir, pələnglə vuruşanda isə özü bir siçandır.

İkinci səbəb: neçə ildir ki, Göyçə və Sədərək sərhədləri barəsində bu iki dövlət arasında danışıqlar və mübahisələr gedirdi. Hər iki tərəf heç bir razılığa gəlməyib fürsət gözləyirdi.

Üçüncü səbəb: Mollalar Dağıstan vilayətində şəriət və din adından tüğyan edərək müqəddəs dini müharibəyə çağırırdılar. Hiylə və fitnəkarlıqla məşğul idilər. Rus qoşunlarının sərkərdələri ilə dağıstanlılar arasında ixtilaf əmələ gəldi. Bu məqsədlə də mollalar və müctəhidlər müqəddəs müharibə və cihad haqqında kitablar yazıb onu şirin sözlər ilə təbliğ edirdilər. Ətabətdə yaşayan Ağa Seyid Əli müctəhid Fətəli şaha belə bir məktub yazır: "Ruslarla olan müharibəni dini və müqəddəs müharibə hesab etmək olar. Mənə yuxuda xəbər veriblər ki,filan ayda fəth və qələbə sizinlədir. Əgər qoşunlarınız bu vaxt Rusiya üzərinə hücum edərsə, qalibiyyət sizinlə olacaqdır".

Xalq arasında belə bir danışıq gedirdi: “Ağa deyib ki, rusların top gülləsini əl ilə tutub onların üzərinə geri atacağam”. Bəllidir ki, xalq da bu kimi sözlərə tez inanırdı...

Dördüncü səbəb: Gürcüstan valizadəsi Aleksandr Mirzə neçə il idi ki, Gürcüstandan gedib İran dövlətinin çörəyini yeyirdi. Xanlardan bir dəstəsi şirvanlı Mustafa, qarabağlı Mehdiqulu xan, gəncəli Uğurlu xan Ziyadoğlu və şəkili Səlim xanın oğlanları böyük rus dövlətindən üz çevirib İran məmləkətinə getmişdilər. Bunların hər birisi yenidən öz vilayətlərinə sahib olmaq üçün fürsət gözləyirdi. Fətəli şah müharibəyə hazırlaşdığı üçün 1242 (1826)-ci ildə oğlu vəliəhd Abbas Mirzəni Tehrana çağırıb məsələni ona dedi və onu ruslarla müharibəyə göndərdi. Abbas Mirzə də atasının əmrini yerinə yetirərək dava və müharibəyə lazım olan qoşun və hərbi ləvazimat toplamaq məqsədilə Azərbaycana gəldi. Bu şəraitdə Rusiya şahı böyük imperator əlahəzrət Birinci Aleksandr Pavloviç vəfat etdi. Onun şahlıq taxtını əlahəzrət imperator Nikolay Pavloviç tutdu. Bu dəyişiklik hər şeydən artıq dostluq əlaqəsinin kəsilməsi və sülh müqavilənaməsinin pozulmasına bəhanə oldu. Vəliəhd Abbas Mirzə dövlət başçılarını və inanılmış işbilən adamlarını çağırıb onlarla müşavirə etdi. Dövlət başçılarının bəziləri işin axırını pis görərək, ruslarla müharibəyə girişməmək və şahı müharibə əzmindən uzaqlaşdırmaq istəyirdilər. Buna görə də müharibəyə tərəfdar olmayanlar çox anlaqlı və adlı-sanlı, söz söyləməkdə məşhur olan xəzinəçi Heydərəli xanı Tehrandan pul gətirmək bəhanəsilə və hərbə lazım olan şeyləri tədarük etmək məqsədilə Tehrana yola saldılar.

Bu niyyətlə ki, şahın yanına gedib onu iradə və əzmdən döndərsin. Heydərəli xan Tehrana gələndən sonra şahın hüzuruna getdi. Şahla danışan zaman şah ondan qoşunun vəziyyətini soruşdu. Heydərəli xan dedi: “Şahənşahın əmrinə görə vəliəhd ruslarla dava etmək məqsədilə qoşun və hərbə lazım olan ləvazimatın toplanması ilə məşğul olub ürəkdən şahın buyruqlarını yerinə yetirməkdədir. Yaxşı olardı ki, müharibə elan edilməyəydi. Müharibənin olması bir növ xəyanət kimi səslənərdi. Hərgah qibleyi-aləm icazə verərsə, ona bir neçə kəlmə deməyə sözüm var”. Şah icazə verdikdən sonra o belə deyir: “Hərçənd indi şahın zəfər qoşununun qabağında heç kəsdə müqavimət üçün qüvvə tapılmaz. Müzəffər qoşun hər tərəfə hücum edərsə, fəth və zəfər su kimi axar, qarşıda fəth və qalibiyyət aydın görünər. Heç kəs əlahəzrətin qüvvəsinin qabağında dura bilməz.

"Özgəyə xəyanət etmiş adam özünə xəyanət etmiş olur". Lakin sülh müqavilənaməsinin Rusiya ilə belə bir vaxtda pozulmasının gələcəyi xoş deyil. Dövlət üçün də yaxşı olmaz, çünki rus dövləti qədim bir dövlətdir, davada möhkəm olduğu kimi, dostluğu da möhkəm və yumşaqdır, heç kəsin adətilə, dinilə, məzhəbilə işi yoxdur. Heç kəsə əziyyət və əzab vermək üçün onu təqib etmir. Məxsusən bu vəziyyətdə sülhü pozmaq üçün heç vaxt dostluğa zidd hərəkətlər onlardan baş verməmişdir. Şahları vəfat etmiş və yeni şah yerində əyləşmişdir. Bu vəziyyəti nəzərə almalıyıq və bundan vaxtın tələbinə görə iş görməliyik, əgər belə bir zamanda bizdən onlara qarşı dostluq münasibətinə zidd bir iş baş verərsə, xalq bunu vaxtsız və müvəffəqiyyətsiz bir əməl hesab edər. Bu isə şahlıq məfkurəsinə və adətinə zidd olan bir qaydadır". Fətəli şah bu sözü eşidən kimi haman saat özündən çıxıb qəzəbləndi.

Kiçik oğlu Qoçəli xan həmişə əlində qaşdaşla bəzənmiş qılıncla atasının yanında durardı. Şah öz rəyinin əksinə məsləhət verən, ona xain çıxan Heydərəli xanın boynunu vurmağı oğluna əmr etdi.

Böyüklər bu barədə belə demişlər: "Sultanın rəyinin ziddinə rəy demək, öz qanınla öz əlini yumaq deməkdir".

Qoçəli xan Heydərəli xanın boynunu vurmaq istərkən şah tamahkar olduğundan onu öldürməyə qoymayıb dedi:

- Əgər Heydərəli xan ölümdən xilas olmaq istəsə, öz qanı bahasını verib xilas ola bilər.

Heydərəli xan şahın xasiyyətinə bələd idi, bilirdi ki, çox pulgirdir. Ona görə də əvvəlcədən yüz dənə əşrəfi hazırlamışdı. Cəld onları şaha rüşvət verib azad oldu. Ondan sonra Heydərəli xan şahın arzusuna və meylinə müvafiq söhbətə başlayıb dedi: "Hər cür siz məsləhət görsəniz düzü də odur, qüsursuzu da. İkinci dəfə vəliəhd Abbas Mirzəyə fərman verildi ki, şahın rəyinə və əmrinə əsasən tezliklə sərbaz, atlı, top və zənburəkxanadan ibarət qoşun hazırlayıb Qarabağa ruslarla dava etmək məqsədilə yola düşsün. Fərmanda qeyd edilmişdi: "Bu illər müddətində bizim sülh müqavilənaməsində bir çox səhvlər olmuşdur. Bu fasilə zamanında biz bir çox ölkələri tuta bilərdik, Qafqaz sərhədinə kimi fəth edə bilərdik".

F ə r d:

Əqlimizin sözünə baxdıqda bir şey əldə etmədik.
Hanı o eşq ki, biz onun vasitəsilə şah olaq.

## QOŞUNUN QARABAĞ TƏRƏFƏ VƏ DİGƏR YERLƏRƏ GETMƏSİ

Demək lazımdır ki, o zaman vəliəhd Abbas Mirzəyə xidmət edən türk (azərbaycanlı) piyada qoşununa, eləcə də şaha xidmət edən İraq piyada qoşununa canbazlar[1*] deyirdilər.

Xülasə Heydərəli xan aydın xəbər və fərmanla Tehrandan qayıtdı. Abbas Mirzə qoşunu və ordusunu gözdən keçirib hərbə lazım olan şeyləri yerbəyer edərək bir neçə tərəfdən Qafqaza qoşun göndərdi. Türk (azərbaycanlı) əsgər, atlı və topdan ibarət olan altmış minlik bir qoşunu Abbas Mirzə özü ilə götürüb, Qaradağ, Müşk-ənbər və Gülənbər yaylaq yolu ilə Qarabağa yola düşdü.

İkinci dəstə Xoy, Səlmas, Əfşar və Urmiya atlı və piyadalarından ibarət qoşunu sərdar Əmir xan və qarabağlı Mehdiqulu xanla Naxçıvan və Sisyan dağ yolu ilə Şuşa qalasının üzərinə göndərdi.

Qacar əmirlərindən birisi olan sərdar İbrahim xan şirvanlı Mustafa xanla birlikdə İraq qoşunu və Cahardolu atlılarından ibarət böyük bir dəstə ilə Şirvanat tərəfə yola düşdü. İrəvanlı sərdar Hüseyn xanı və Sarı Aslan adı ilə məşhur olan qardaşı Həsən xanı, Gürcüstan valisi Aleksandr Mirzə ilə birlikdə Tiflis tərəfinə təyin etdi. Qarakilsədə Pənbək və Şuragül tərəfindən knyaz Sivaralidze ilə vuruşmağa başladılar. Habelə talış Mir Həsən xan öz qoşunu və vilayətinin hərbi qüvvələrilə Lənkəran və Ərkivana, Hüseyn xan Şəkili (Səlim xanın oğlu) qardaşı Hacı xanla Nuxa tərəfə, Ziyadoğlu Uğurlu xan Gəncə tərəfə yollandılar. Bunların hər birisi on-on beş min qoşunla müharibəyə hazır olmaq bayrağını ucaldaraq Gəncə vilayətini tutmağa yola düşdülər. Rus dövlət başçıları bu xəbərin yayılmasına baxmayaraq, qızılbaşların sülhü səbəbsiz pozub müharibəni başlamalarına inanmırdılar. Belə bir dövrdə knyaz Menşikov adı ilə məşhur olan böyük və inanılmış adam elçi sifətilə yeni padşahı tanıtdırmaq, dostluq əlaqəsini möhkəmlətmək, sülh və səmimiyyəti artırmaq xatirəsinə Tehrana yola düşdü.

Knyaz Menşikov həzrətləri imperator tərəfindən Fətəli şah üçün bir büllur taxt gətirdi. Knyaz Menşikovun mütərcimi olan Şahmirxan Bəylərov da elçi ilə bir yerdə Tehrana gəldi. Bu elçilər Uçana yetiş-

[*] [1] Canı ilə oynayanlar və ya canından keçənlər

dikdə qızılbaşların burada hədsiz qoşun və ordusunu gördülər. Qızılbaşların bu hazırlığını rus dövlətinin başçılarına yetirə bilmədilər. Ruslar Tehrana elçi göndərdikləri üçün hələ müharibənin başlanacağına inanmırdılar. Hər kəs öz yerində və öz işində xatircəm əyləşmişdi. Müharibəyə hazırlıq və ya onu icra etmək fikrində deyildilər. Elçi knyaz Menşikovu Tehranda göz dustağı edib ona aydın bir cavab vermirdilər.

Xülasə, birinci sərdar Əmir xan Mehdiqulu xanla Xoy şəhərindən hərəkət edərək Naxçıvana varid oldu və Araz çayının kənarında dayandı, bir-birilə məsləhətləşdilər ki, onlar hərgah qoyulan şərt və işarələri gözləmədən bu qoşun və atlılar ilə Şuşa qalasının üzərinə hücum etsələr, ehtimal ki, qala əhli darvazanı açmasın, Mehdiqulu xana tabe olan adamlar da onların yanına getməsin; belə olduqda onların işi çətinləşəcəkdir və ixtiyarlarında olan qoşun və ordunun vəziyyəti pərişan olub dağılacaqdır. Nəticədə belə qərara gəldilər ki, Abbas Mirzəyə ərizə yazsınlar və ondan qoşun göndərilməsini və əlavə olaraq iki alay sərbaz və iki top verməsini xahiş etsinlər. Bu niyyətlə ki, əgər çətinlik baş verərsə, heç olmasa özlərini saxlaya bilsinlər.

Abbas Mirzə cavabında yazmışdı: “Sərbaz və top sizə lazım deyil, Qarabağın bəyləri mənə yazıblar ki, bizim qoşunumuz Xəlifəli darvazasına yetişən kimi, onlar darvazanı açacaqlar və bizim dövlətimizə itaət edəcəklər. Bu barədə də göstəriş verilmişdir. Siz birbaşa Naxçıvandan Sisyan dağı yolu ilə heç yerdə dayanmadan Şuşa qalasına gedərsiz, onlar sizə kömək etməyə hazırdılar və bizim qoşunumuzun köməyini gözləyirlər. Əgər siz əsgər və top götürsəniz, tez hərəkət edə bilərsiz. Rusların əsgərləri ilə bizim böyük və çətin müharibəmiz olacaqdır. Əgər sizə sərbaz, top verilərsə, sizin üçün dava çətin olar. Bir də yazmışdı: “Sərdar, qarşıda böyük işlər nəzərdə tutulmuşdur. Döyüşlər qabaqdadır, vuruşmalıyıq, irəliləməliyik, əgər qalib olsaq, uzun illər istirahət edəcəyik, əgər müvəffəq olmasaq, səhrada yorulmuş qədəmlərimiz əziyyət, zəhmətdə olub məşəqqətə düçar olacağıq.

F ə r d:

Əgər qabağa keçsək, bu mülk bizim olar.
Ölsək, başqasına çatar (Daraya çatar).

Allah qoysa, Allahın köməkliyi ilə, şahənşahın təmiz iqbalı ilə cümə axşamı Xudafərin körpüsündən keçib Cəbrayıllı bağında dayanıb, cümə günü Ağoğlana varid olaraq, şənbə günü isə Çanaqçıda yerləşən rus qoşunları ilə orada müharibə edib bir gün içərisində hər iki işi, yəni həm qalanı alarıq və həm rusların işlərini bitirərik," Həmin xanlar bir neçə dəfə rusların vuruşmalarını görmüşdülər. Abbas Mirzədən gələn məktubun məzmunundan xəbərdar olub, sərbaz və topun göndərilməsindən ümidlərini kəsdilər. Onlar Yeqorskinin bir batalyon əsgər və topları ilə Qapanat və Zəngəzur mahalının mühafizəsindən ötrü onların yollarının üzərində durmalarını eşitdilər. Rus əsgərlərinin igidlikləri məşhur idi. Buna görə də Əmir xan sərdar və Mehdiqulu xan Abbas Mirzənin məsləhətinə zidd olaraq tələsmək əvəzinə, aram və səbirlə yol gedirdilər. Naxçıvandan Sisyan dağına bir günlük yol idi. Onlar isə bu yolu üç-dörd günə qət etdilər. Oradaca sərdar Əmir xana və Mehdiqulu xana xəbər gəldi ki, Bazarçayda balıq tutmağa və çimməyə gəlmiş əlli nəfər rus əsgəri tutulub həbs olunmuşdur. Bu söz bir qədər sərdar Əmir xanı və Mehdiqulu xanı ruhlandırdı. Qədəmləri yorucu səhrada qüvvətə gəlib, özlərində zirəklik hiss etdilər. Sonra dağın üstündən aşıb Bazarçay kənarına və Qarakilsə kəndinə gəlib burada dayandılar. O gecə bir nəfər ruslardan üz döndərib qızılbaşlarla birləşən Hacı Ağalar bəy Qarabağlının yanından gəlib, rusların kənddən çıxıb harayasa naməlum bir tərəfə getdiklərini xəbər verdi. Bu xəbərdən qızılbaş qoşunlarının içərisinə qorxu və həyəcan düşdü. Qorxudan gecə qoşunun yerini dəyişdilər. O yerlərdə olan Pirsəng təpəsində səngər qazıb vuruşu gözləyirdilər. Sübhə yaxın ayrı bir xəbər gəldi ki, ruslar öz qoşunları ilə birləşmək üçün Şuşa qalasına tərəf gedirlər.

Sərdar Əmir xan bacısı oğlu Məhəmməd Zaman xanı vuruşmaq üçün həmin gecəyarısı min atlı ilə rusların ardınca göndərdi. Bu niyyətlə ki, özü sübh vaxtı Mehdiqulu xana yetişib birlikdə onlarla vuruşarlar.

Məhəmməd Zaman xan şərab içməkdə adətkər idi. Dava işini kənara qoyub yolun kənarına endi, yaxınlıqdakı Şəhpər kəndinə adam göndərib, oranın məşhur şərablarından gətirilməsini əmr etdi.

Hacı Ağalar Xudafərin körpüsü ətrafında dayanan Abbas Mirzəyə xəbər verdi ki, qullar ağası Qasım xan qoşundan bir dəstə tüfəngçi qulam və iki top götürüb Qaradağ yolu ilə gəlib Həkərə çayının

yanında ruslara çatmış, hər iki tərəfdən qoşunlar arasında şiddətli vuruşmalar olmuşdur. Bir tərəfdən qızılbaşlar, digər tərəfdən Hacı Samlının kürdləri və qeyri türklər, eləcə də günəşin istisi, yolların çətinliyi, əyri-üyrülüyü ruslara mane olduğu üçün qalaya gələ bilmədilər və batalyonu da suya çatdıra bilməyib dağıldılar. Bəziləri qətl olundu və bir hissəsi də əsir düşdü, bir qismi də özünü meşədə cəngəllikdə və ətrafda olan xaçpərəstlərin himayəsinə arxalanaraq xilas edilə bildilər.

Abbas Mirzə bu şad xəbəri eşitdikdən bir gün sonra ordunu oradaca qoyub Gorunruz kəndinə gəldi. Burada ölən və əsir düşən rusların başçıları ilə birlikdə sayı 300 nəfər idi. Əsirlərin içərisində polkovnik Nazımov və mayor Kovalenski də var idi. Abbas Mirzə onları Gorunruz kəndinə Hacı Ağaların yanına qonaq gətirdi.

Gorunruz kəndində sərdar Əmir xan və Mehdiqulu xan Abbas Mirzənin hüzuruna gəlib ona öz sevinclərini bildirərək təbrik etdilər. Əmir xan Abbas Mirzənin dayısı idi, Mehdiqulu xana da bacısı Ağabəyim ağa şahın hərəmi olduğu üçün ona dayı deyirdilər. Abbas Mirzə bunların hər ikisinə acıqlanıb dedi:

- Bu nə azğmlıqdı, bu nə tənbəllikdi ki, siz etmisiz, bu ov, bu qələbə sizin idi, öz laqeydliyiniz və təqsiriniz nəticəsində ov əlinizdən çıxıb, şirin çənginə keçdi. Əsgərlər səlamət Şuşa qalasına yetişib, öz yoldaşları ilə birləşsəydilər, bu zaman bütün dünya qoşun olsaydı da onların öhdəsindən gələ bilməzdi.

Əmir xan cavabında dedi:

- Bu, işin əvvəli idi. Hələ fəthdən və müvəffəqiyyətdən bir nişan yox idi. Buna görə də biz ehtiyat etdik ki, zəfər qoşununa yaman göz toxunmasın. Allaha şükür, yenə də qələbə zəfər qoşununun əlində oldu. Bundan sonra da zəfər, qələbə və səadət bizimlə olacaqdır.

Bu cavabdan Abbas Mirzə qəzəblənib türkcə dedi:

- Danışma, saldırram, o qədər vurdurram ki, ayı səsi verərsən, nə dayı-dayı.

Əmir xan sakit olub danışmağa artıq cəsarət etmədi. Ondan sonra onların ixtiyarında olan qoşunları əllərindən alıb səlahiyyətdən məhrum etdi. Əlavə olaraq onlara dedi:

- Siz qocalmısız, qulluğa sadiq olmağı bilmirsiz, cavanları tərbiyələndirib iş başına keçirmək lazımdı ki, mənim rəyimə və tədbirimə müvafiq hərəkət etsinlər.

Sonra ölən rusların zabitlərini, başçılarını və əsirləri oradan Fətəli şahın hüzuruna göndərdi. Fətəli şah özü isə Ərdəbildə Qaradağ ətrafında idi. Onun fikri Abbas Mirzə Şuşa qalasını tutduqdan sonra gəlib orada yerləşmək idi.

Abbas Mirzə oradan qayıtdıqdan sonra qoşun və topları Ağaoğlan yolu ilə Şuşaya tərəf göndərdi, özü isə ruslarla vuruşmaq üçün Kirs dağı yolu ilə Çanaqçıya getdi. Bu xəbər rus qoşununun başçısı polkovnik Reutta çatdı. O, vəziyyətdən çaşbaş olub, qoşununu görürərək özünü qalaya yetirdi. Onlar bütün nəqliyyat vasitələrini qoyub getmişdilər. Zərgər və Cavanşir elləri bu qalmış nəqliyyat vasitələrini talan və qarət etdilər.

Şahzadə Abbas Mirzə Şuşanın bir ağaclığında Ağa Məhəmməd şah ordusunun dayandığı və Nabatxan adı ilə məşhur olan yerə gəldi.

Abbas Mirzə səngərlərin möhkəmləndirilməsinə, qoşunun nizam-intizamının qaydaya salınmasına başladı, üç yerdə qərargah düzəltdi. Yuxarıda adı çəkilən Nabatxanda böyük ordu ilə dayanmışdı.

Nabatxandan yuxarıda Əmir xan, Mehdiqulu xan və sair qarabağlılar, eləcə də Xocalı kəndçiləri meşənin və dağın ətəklərini sığınacaq etmişdilər. Abbas Mirzənin qardaşı Şıxəli Mirzə isə Əsgəran yaxınlığında yerləşmişdi.

## GÖRÜLƏN İŞLƏRİN NƏTİCƏLƏRİ VƏ FƏTHLƏR

Naibüssəltənə Abbas Mirzə böyük təmtəraq və təntənə ilə Şuşa qalasını mühasirəyə alıb orada dayandı.

Qarabağ bəylərinin və məliklərinin bir hissəsi qaladan uzaq olduqları üçün oraya gələ bilmədilər. Qalanları isə istər-istəməz Abbas Mirzənin və Mehdiqulu xanın yanına gəlib onların itaətlərində olacaqlarını izhar etdilər. Məsələn, çiləbördlü Məlik Vanya, Məlik Aslan Dizaqi, Təklə Muğanlının başqa bəyləri, eləcə də qeyri bəyləri Mehdiqulu xanın yanına gəldilər. Bundan başqa Qarabağ əhlindən böyük bir dəstə yenə də Abbas Mirzənin yanına yollandı. O, sərdar Əmir xanı və Mehdiqulu xanı öz yanına çağırıb təkəbbür və qürurla dedi:

- Bundan sonra heç kəs mənim fikrimin ziddinə getməməlidir...

Sərdar Əmir xan və Mehdiqulu xan naçar qalıb bu ağlasığmaz fikri təsdiq edib dedilər:

- Sənə qurban olaq. Bir neçə əlsiz-ayaqsızdan başqa Rusiyada bir kəs qalmamışdır. Onlar da başlarını götürüb gedəcəklər.

Məliklərdən birisi birinci dəfə idi ki, onun yanına gəlmişdi. Abbas Mirzə ona müraciət edərək dedi:

- Məlik Vanya! Bundan qabaq Əsgəran və Tərnəküt davasında rusların belini yaxşı sındırmışdım, amma siz rusların əlindən tutub, yerdən qaldırdınız, özümə söz vermişdim ki, sizi yaxşıca tənbeh edəm, amma indi ki, siz öz ayağınızla mənim yanıma gəlmisiniz və bizə itaət və qulluq etməyi boynunuza götürürsünüz, ona görə sizin təqsirinizdən keçirik.

Üzdə Abbas Mirzənin lovğalığına və yalan deməsinə baxmayaraq, ruslardan çox qorxurdu, o deyirdi: "Elə olmasın ki, ruslar əvvəlki kimi gecə hücuma keçsinlər və qoşunumuzu və adamlarımızı darmadağın etsinlər".

Xülasə, Abbas Mirzə məsləhət almaq məqsədilə Əmir xana bir məktub yazdı və izhar etdi ki: "Sərdar! Hərbi araba və çadırları öz yanımızda saxlayaq və ya Çanaqçı kəndinə göndərək ki, özümüz də yüngülləşib qərargahda qalaq və ya ordu içərisində yerləşək".

Sərdar cavabında belə yazdı: "Böyük vəliəhd! Qızılbaş qoşununun xasiyyətini siz yaxşı bilirsiz, onlar gecə vaxtı dava etməzlər, gündüz ya hücum edərlər və ya qoyub qaçarlar. Hərbi ləvazimat və arabalar Çanaqçı kəndində qalarsa, ruslar gecə hücum edib, qoşun və arabaları ələ keçirəcəklər. Əgər yükləri öz yanlarında saxlasalar, onda vuruşmayıb yüklərini qorumağa məcbur olacaqlar". Abbas Mirzə sərdarın məsləhətinə görə hərbi arabaları öz yanında saxladı.

Qoşuna itaət etməyən adamların mallarını talamaq və ölkəni qarət etmək əmrini verdi. Bundan sonra rusların Çanaqçıda qoyub getdiyi hərbi ləvazimatı da talan etdilər. Mehdiqulu xanın göstərişi ilə general Mədətovun imarətlərini və kilsələrini, eləcə də rusların Çanaqçı yaxınlığında qurduqları qərargahların hamısını yandırıb xarab etdilər. Mədətovun nəslini, ata-babasının adını hörmətsizliklə yad etdilər.

## QIZILBAŞ QOŞUNUNUN TORA DÜŞMƏSİ VƏ BİR-BİRİLƏ ƏLAQƏLƏRİNİN KƏSİLMƏSİ

Hər iki tərəf sakit oldu, Rus dövləti tərəfdarlarından olan digər kəndləri həddindən artıq qarət etdilər... İranlılar hamısı ərazi və ətrafları xarabalıqlara çevirib, çalıb-çapdılar. Yıxıb dağıtmaqda, silib-süpürməkdə bir dəqiqə də olsun ara vermirdilər. Dağılası yerləri dağıtdılar. Quru və əkin yerlərini yandırıb külünü göyə sovurdular. Qarabağ əhlinin qızılbaşlara, eləcə də Abbas Mirzəyə vurduğu dağların intiqamını almaq üçün iranlılar bir an belə sakit durmayırdılar. Bu əsnada xəbər gəldi ki, Şuşa qalasının əhalisi Xəlfəli çayı tərəfdən çıxıb, qalaya yaxın olan yerlərin məhsullarını toplayıb, qalaya aparırlar. Buna görə də Mehdiqulu xan və sərdar Əmir xan belə bir məsləhət etdilər:

- İndi fürsətdən istifadə edib qulluq göstərmək vaxtıdı. Yaxşı olar ki, bir alay qoşun götürüb qalaya gediş-gəliş yolu olan Xəlfəli çayı kənarında gecə pusquya duraq. İşi belə başlayaq, ərzaq gətirmək üçün qaladan çıxan adamları tutaq və eyni zamanda qalaya hücum edib onu zəbt edək.

Bu məsləhət və hiylə barəsində naibüssəltənə Abbas Mirzəyə xəbər verdilər. Belə qərara gəldilər ki, onlar pusquda durmağa getdikdən sonra naibüssəltənə də o gecə topları qala ətrafına çəksin, səhər hər iki tərəfdən həngamə qopartsınlar və qalanı zəbt etsinlər.

Bundan sonra Əmir xan və Mehdiqulu xan 4 alay sərbaz və 2 min Qarabağ və sair atlılarla gecə gedib Xəlfəli çayının ətrafında Gəncə darvazası tərəfdən pusquda dayandılar. Nəhayət, Mehdiqulu xan və Əmir xan bu işə başlayandan sonra həmin xanlarla ədavətləri və düşmənçilikləri olan bir neçə nəfər fürsətdən istifadə edərək, Abbas Mirzəni başa saldılar ki, qalada o qədər rus qoşunu yoxdur, əgər siz bu işdə əzm edib onlara kömək etsəniz, top və hərbə lazım olan şeylərdən onlara göndərsəniz, onlar şəksiz qalanı alacaqlar. Qalanın malını və dövlətini, habelə Ağa Məhəmməd şahın qalada olan xəzinəsinin hamısını qoşun qarət edəcək, Fətəli şahın yanında onların adı uca olacaqdır. Bu məsləhət Abbas Mirzənin başına girdi, qoşun göndərmək fikrindən əl çəkdi.

Əmir xan və Mehdiqulu xan öz fikirlərinə və tədbirlərinə əmin olaraq o gün - bazar ertəsi səhər tezdən pusqudan çıxıb, ərzaq üçün

yollanan adamların üzərinə hücum edib vəlvələ saldılar. Qalada yaşayan köməksizlərin bəzilərini qılıncdan keçirdilər və güllələdilər. Sonra qala üzərinə hücum çəkdilər. Gəncüm ağa Xandəmirov həmin vaxt qalabəyi idi. O, iki dəstə əsgərlə qabağına torpaq qalanmış qala darvazasını açaraq, qaladan çıxıb onlarla vuruşdu, bəziləri isə fürsətdən istifadə edib bürclərdən keçərək, qalanın üstü ilə içəriyə girdilər.

Gəncüm ağa yenə də qalaya qayıdıb darvazaları torpaqla doldurdu. Bürclərin başında yenə dava başlandı. Əsgərlər qalaya aşıb düşsələr də qalanın bürclərindən onlara top atılırdı. Qaladakılar da ruslar ilə birləşib birlikdə vuruşurdular. Polkovnik onların hamısına silah verib bürclərin zirvəsinə göndərmişdi. Burada çox böyük vuruşmalar baş verdi, amma Abbas Mirzə tərəfindən bir kömək yetişmədi. Vuruşmalar səhər gün çıxandan gün batana kimi çəkdi. Bu zaman Abbas Mirzə adam göndərib xanların qalaya girmələrinə və qalaya hücum etmələrinə mane oldu və geri qayıtmaq əmrini verdi. Həmin xanlar məqsədlərinə nail olmadan geri qayıtdılar və öz ordularına daxil oldular.

## İQBALIN MÖHKƏMLƏNMƏSİ, FƏTHLƏR VƏ TƏRİFLƏR

Bu hadisələrin əsnasında xanlar və ətraf bəylərin qələbə xəbərləri və təbrikləri yetişdi. Belə xəbərlər Mehdiqulu xan və sərdar Əmir xanın təkəbbür və iddialarını birə-yüz artırdı: o cümlədən Mirhəsən xan Talış və Lənkəran tərəflərini asanlıqla zəbt etdi, rusları Ərkivan qalasından çıxartdı. Sərdar İbrahim xan Mustafa xan ilə birlikdə Şirvandan Salyana kimi torpaqları tutdu. Ruslar tərəfindən buranı mühafızə edən general Qrabbe baş götürüb Qubaya qaçdı. Sərdar Hüseyn xan Pənbək və Şuragül hüdudlarını öz əlinə keçirdi. Bu yerlərdəki rus istehkamlarını dağıtdılar. Həsən xan və onun qardaşı Borçalı mahalını talan etdi. Çoxlu əsir aldı, Rusiyanın bu vilayətlərdə olan qoşunlarının hamısı Tiflisə tərəf getdilər. Gəncənin Zurnabad kəndində olan rus qoşunları Gəncəyə daxil olmaq istədilərsə, amma Gəncə əhli onlara mane oldu. Onlar da bütün hərbi ləvazimatı atıb Tiflisə tərəf qaçdılar. Abbas Mirzə sərdar Hüseyn xanın ərz-halına belə cavab yazdı.

Cavabın eyni: “Allahın sonsuz iltifat və köməyi ilə bu ali tərəfin (Abbas Mirzənin) rəğbət və hörmətinə müvəffəq olan uca məqamlı, yüksək rütbəli, cəsur, qeyrətli, cah-calallı, dövlət və şöhrət sahibi, İrəvan və Çuxursəədin bəylərbəyisi, böyük əmirlər əmiri Hüseyn xan sərdara məlum olsun ki, o yüksək rütbəli xoşbəxtin sədaqətlə dolu olan ərizəsi mərhəmətli, ali tərəfin (Abbas Mirzənin) nəzərinə çatdırıldı. Böyük Allahın köməyi və ədalətli cənabın yüksək iqbalı sayəsində o səadətli ali məqama və qardaşı Həsən xan Sarı Aslana nəsib olan arasıkəsilməz qələbələrdən xəbər tutaraq onlara təşəkkür edilir”.

Abbas Mirzə yazmışdı ki, o yüksək rütbəli, calal sahibi qalib qoşunu ilə hərəkət edib Pənbək və Şuragülü ələ almış və Qarakilsəni də mühasirə etmişlər. Dünyaları yaradan Allaha şükür olsun. Bu gün düşmən üçün matəm günüdür. Bu gün şahın bədxahlarının qüvvətinin zəiflədiyi və məğlub olması Əli dininin qalibiyyətidir.

Talış zəfər qoşununun igidliyi nəticəsində düşmənlər məğlub oldu. Şirvan həvalisi Salyana kimi əlimizə keçdi.

Şəki və Carda Qacar təbilinin səsi ucaldı. Gəncənin qapıları səadətin sehrli açan ilə açıldı. Şuşa əhlinin şüşəyəbənzər taqəti və gücü daş kimi bərkimişdi. Top və tüfəngin gülləsindən ürəkləri təngə gəlmişdi. Ancaq o qüvvətli Allahın azacıq mərhəməti bu qədər fəthləri aşkar etdi:

F ə r d:

Kim Allahın hökmünü yerinə yetirməyə bilər.

O yüksək rütbəli və şücaətli Həsən Sarı Aslan şahlıq taleyinə və onun iqbalının məğlubedilməzliyinə ümid edirdi. Kim düşmən qarşısında igid və qüvvətli olsa, inşallah, biz Allahın köməkliyilə Şuşa qalasının işini ən yaxın zamanda bitirib, şəhəri zəbt edərik, Tiflisə gedərik...

## MÜHARİBƏ DÖVRÜNDƏKİ ƏHVALATLAR

Şuşa qalasının mühasirəsi aşağıdakı qayda üzrə olmuşdur: bir tərəfdən qapılar açılmırdı, uzun müddət mühasirədə qalmış qala əhli və qoşun təşvişdə idi. Abbas Mirzə dəfələrlə sifariş göndərib qalanın təslim olmasını tələb və təkid edirdi. Ancaq bu təkid bir nəticə vermirdi, ərzağın və yeyintinin azlığı və olmaması onları getdikcə qorxuya salıb taqətdən də salmışdı. Bəzi şayiələr yayılmışdı ki, guya sərdar ruslara vilayətdən kənara çıxmaq və qalanı təhvil vermək hökmünü vermişdi. Ona görə də qızılbaşlar bu məsələnin düzlüyünü yoxlamaq məqsədilə Biçin xanı polkovnik Reuttun yanına göndərdilər.

Qala əhli polkovnikin əmrinə görə Biçin xanın gözlərini bağladıqdan sonra qalaya buraxıb polkovnikin yanına gətirdilər. Danışıqdan sonra belə qərara gəldilər: qalanın komendantı mayor Çilayev kapitan Adıgözəl bəy ilə birlikdə tərəflərə iki həftə müddətinə əmanət və girov verilir. Bu məqsədlə ki, bir rus və bir də Abbas Mirzənin adamlarından biri Tiflisə gedib Yermolovdan xəbər gətirsin.

Beləliklə, ruslar tərəfindən bir mayor və şahzadə tərəfindən bir nəfər yasavul Tiflisə göndərildi. Tiflisdə sərdarı işin gedişatı ilə tanış etdilər və ondan qalanı təslim etməyə icazə verib-verməməsini soruşdular. Sərdar cavabında dedi ki, kapitulyasiya sözü rus dilində yoxdur, bu sözün mənası fransız dilində təslim olmaq deməkdir.

O günlərdə general Mədətov İstisudan qayıdıb Tiflisə gəldi. Abbas Mirzənin nümayəndəsini (yasavulu) generalın qulluğuna apardılar. General əvvəl yasavula qəzəblənib dedi:

- Mənim yanıma nə üçün əlağacı ilə gəlmisən, - sonra Abbas Mirzəni pis sözlərlə hədələdi: - Gör o əlağacı ilə Abbas Mirzəyə mən nə edərəm.

Şahzadə Abbas Mirzənin fikri və rəyi Şuşa qalasını tutmaq və əhalisini itaətə gətirib, mal-dövlətinə sahib olmaq idi. Abbas Mirzə istəmirdi qalanın mal-dövlətini qoşun qarət etsin. Başqalarının fikri və arzusu qalanı güc ilə zəbt edib, mal-dövlətini öz aralarında bölmək idi. Abbas Mirzə bir dəfə xidmətçilərinə dedi:

- Ey fahişədən törəyənlər! Hamınız göz dikmisiniz ki, mən Şuşa qalasını zor ilə alım, siz də oranın malını, dövlətini qarət edəsiz. Mən burada o qədər əyləşəcəyəm ki, Şuşa əhli özü zinhara gəlib qalanı

təslim etsin. Sonra da şah babamın malı və xəzinəsi kimin əlində olmuş olsa onu geri alacağam.

Qala hələ alınmamışdan varlılar və böyük rütbə sahibləri qalanın mal-dövlətini öz aralarında bu qayda ilə bölüşdülər.

Qala alındıqdan sonra oranın mal-dövlətini öz aralarında bölüşdürmək məqsədilə Abbas Mirzə Söhrab ağa Tarımovu və Şeyxovları, Mehdiqulu xan isə Müqdisi baba Haqumovu və Xandəmirovları öz tərəflərinə çəkdilər. Allah-Allah, bu nə təəccüblü işdir! Bunlar hələ suya çatmamış çırmalanırlar. Hamıdan artıq qalaya hücum edib, onu tutmaq üçün sərdar Əmir xan çalışırdı, bu iş onu heç vaxt rahat buraxmırdı. Ona görə də şah onu öz oğlu Məhəmməd Mirzə ilə Gəncə tərəfə göndərdi.

Bir gün kəndxuda və başçılardan biri yüzbaşı Sarıxan qala əhlinin yanına gedib onlara nəsihət etmək, İran dövlətinin təbəəliyinə təhrik və təşviq etmək üçün göndərildi. Yüzbaşı Sarıxan Abbas Mirzənin sifarişini qalada olanlara yetirdikdən sonra gizlincə belə demişdi: “Bizim oğlanlar, möhkəm olun, qızılbaşların arxaları boşdur”.

Bu sözləri eşidən Qarabağ türklərindən birisi bunu Mehdiqulu xana nəql etmişdir. Mehdiqulu xanın yüzbaşı Sarıxana qəzəbi tutub əmr etdi ki, onun dilini kəssinlər. Bu zaman yüzbaşı ilə dost olan Qarabağ bəylərindən biri birtəhər onu dilini kəsilməkdən xilas etdi.

Sonra Mehdiqulu xan özü iki-üç nəfər qızılbaşla qalanın yaxınlığına getdi. Qalanın məşhur adamlarından olan Ağa bəy Kələntərovu öz yanına çağırtdırdı. Ağa bəy əvvəl gəlmək istəmədi, bir-birinə sədaqətli olduqlarını bildirdi. Buna görə də özünü məzəmmətdən, şübhədən, pis fikirlərdən qoruduğunu xatırlatdı. Nəhayət, polkovnik türkcə bilən çinovniklərindən kapitan Qudoviç və Fonkloqinin paltarlarını dəyişdirib nökər adı ilə Ağa bəylə birlikdə Mehdiqulu xanın və qızılbaş xanlarının yanına göndərdi.

Mehdiqulu xan Ağa bəylə hal-əhval tutduqdan sonra ona dedi:

- Ağa bəy! Utanmırsınız mənim çörəyimi yaddan çıxarırsınız, bizə güllə atırsız.

Ağa bəy Kələntərov cavabında belə dedi:

- Biz sizin duz-çörəyinizi yaddan çıxarmarıq və sizə güllə atmarıq, əgər siz özünüz bizim aramıza gəlsəniz, biz hamımız ayaqyalın-başıaçıq imperatorun yanına gedib xahiş edərik ki, sizin təqsirinizdən

keçsinlər, amma siz utanmırsınız gedib bizlik-sizlik mal və canımıza göz dikən, ata-babalarımızın düşməni olan, köhnə qisasları geri almaq, mal-əyalımıza təcavüz etmək istəyən düşmənləri götürüb üzərimizə gəlmisiz.

Bu sözlərdən Mehdiqulu xan utandı və oradan geri qayıdıb, ondan sonra qalanın tutulmasına o qədər də israr etmədi. Abbas Mirzə də ona o qədər əhəmiyyət vermirdi, özünün hər cür məsləhəti, sözü olsaydı Hacı ağa ilə edərdi.

General Mədətovun qızılbaş qoşunları ilə Şəmkirdə vuruşması nəticəsində və Əmir xan sərdarın məğlubiyyət xəbəri Abbas Mirzəyə yetişən kimi o, Gəncəyə getmək fikrindən əl çəkdi. Bu isə belə olmuşdur: Elə ki Şuşa qalasının mühasirəsindən bir ay keçdi, sərdar Əmir xan hücum edib qalanı tutmağa çox mübarizə və böyük səy etdi. Abbas Mirzə Əmir xana əmr etdi ki, Cahardolu və qeyri yerlərdən 4 min atlı toplayıb Ziyadoğlu Uğurlu xan ilə birlikdə gedib Gəncədə otursunlar və Tiflisdən hərəkət edən qoşunun qabağını alıb ona xəbər versinlər.

Sərdar Əmir xan qocalmışdı, hər hansı bir işin həllində çox ləng hərəkət edərdi, heç də tələsməzdi. Buna görə də Abbas Mirzə öz böyük oğlu Məhəmməd Mirzəni sərdara qoşdu ki, fürsət düşdükdə onu zirəng tərpənməyə sövq eləsin.

Əmir xan da Məhəmməd Mirzə ilə qoşun götürüb Gəncəyə yola düşdü. Onlardan qabaq təyin olunmuş Uğurlu xanla yolda birləşib bir yerdə Tiflisə hərəkət etdilər. Kürək çayı ətrafında Tiflisdən Qarabağa kağız aparan bir qasidi tutdular. Bu kağızda general Mədətov Qarabağ əhlini özünə tabe olmağa çağırırdı. Kağız türkcə yazılmışdı...

Bu məktubun məzmunu ürəkləri qorxuya və titrəməyə saldı. Qoşun və zabitlər Mədətovun adını eşitcək sərsəm oldular. Aşağıdakı sözləri mahnı ilə oxudular.

F ə r d:

O türk nəslindən olan kişinin
Belə bir günə düşdüyünü göz görməsin.

Oradan köçə-köçə Gəncəyə yola düşdülər. Gəncə əhli bağların qurtaracağına kimi şəhərin aşağısında Əmirzadə Məhəmməd Mirzəni və sərdarı qarşıladılar. Onlara sədaqətli olacaqlarını bildirdilər. Uğurlu xan Gəncənin Narın qalasında yerləşdi, oranın camaatını hər nöqteyi-nəzərdən xatircəm etdi. Əmirzadə və sərdarın orduları şəhərin aşağı tərəfində, çayın kənarında dayandılar və şəhərin işlərini nizam-intizama salmaqla məşğul oldular. Bütün Ayrım, Şəmsəddinli rəisləri, eləcə də o vilayətlərin nümayəndələri onların görüşünə gəlib, itaət etdiklərini bildirdilər. Gəncə elləri Qacariyyə adı ilə adlandığı üçün gəncəlilər qızılbaş başçılarına dayı deyərdilər və onlara öz yaxınlıqlarını izhar edərdilər. Kəlisa kənd məhəlləsinin erməniləri də onlara itaət və xidmət etməyə hazır olduqlarını bildirdilər.

Sərdar Əmir xan qardaşı oğlu Məhəmməd Zaman xanı min nəfər atlı ilə birlikdə yolu mühafizə edib qorumaq məqsədilə Gəncə və Tiflis sərhədindəki Həsənsu və Zəyəmə göndərdi ki, orada durub Tiflisin vəziyyətindən və işlərindən xəbərdar olsunlar. Bundan iki həftə keçəndən sonra qəflətən general Mədətovun Tiflisdən Ağstafaya gəldiyi, qoşun, top və hərbi sursat topladığı xəbəri yetişdi. Sərdar Əmir xan vəziyyəti Abbas Mirzəyə xəbər verib, belə bir məktub yazdı: "Mən Şuşa qalasında istədim ki, qoşunun ixtiyarını mənə verəsiniz ki, qalanı zəbt edim. İndi də öz xahişimi bildirib mənə beş-altı alay sərbaz və beş top verməniz xahiş edirəm. Ya gedib Mədətovu məğlub edərək, Tiflisə qədər irəliləyərəm, ya da məhv olaram".

Abbas Mirzə onun xahişini qəbul etmədi. Bunun da səbəbi o idi ki, Abbas Mirzəyə demişdilər: "Mədətovun yanında o qədər də rus qoşunu yoxdur, əgər siz bu topları, əsgərləri sərdar Əmir xana versəniz, o gedib Mədətovu məğlub edib, Tiflisə kimi gedər və Tiflisi də zəbt edər. Nəticədə də şahın yanında adı çıxar".

Abbas Mirzə bu sözlərə inanıb top və əsgər göndərməkdən boyun qaçırdı. O belə yazdı: "Sizi Mədətov ilə dava etməyə göndərməmişəm, onunla mən özüm vuruşacağam. Siz Gəncənin Narın qalasını tutub, orada ruslardan qalmış topların hamısını qalanın içinə çəkin, bu topların güllə-barıtını hazır edin. Mədətov gələn kimi girib qalada oturun, ta ki, onda mən özüm gəlib Mədətovun cavabını verərəm".

Bir də belə demişdi: "Qoşun və atlı göndərin, rusların Mədətovun yanında olan topdaşıyan atlarını, cəbbəxanasını qarət edib özünüzlə gətirin ki, onlar irəliləyə bilməsinlər".

Abbas Mirzənin əmr və hökmü gələndən sonra Əmir xan ondan boyun qaçırıb, Abbas Mirzənin əmrini qəbul etmədi və Narın qalasının içərisinə getməyi rədd etdi, aydınca olaraq Abbas Mirzəyə yazdı ki, mən sərdaram, vəzifəm odur ki, qoşun götürüb düşmənin qabağına gedəm və onunla dava edəm. Zənən xeylağı kimi qalada əyləşə bilmərəm ki, düşmən bizim dörd tərəfimizi tutub əsir edə və ya öldürə. Mən heç vaxt Narın qalasının içərisinə getmərəm və getməyəcəyəm. Abbas Mirzənin oğlu Məhəmməd Mirzə də bu əhvalatı müfəssəl atasına yazmışdı ki, sərdar qalanın içərisinə getməyə razı olmur. Abbas Mirzə əmrini sərdarın rədd etməsindən və qalaya getməməsindən çox qəzəbləndi, özünün vəliəhdi olan oğlu Məhəmməd Mirzəyə zəhərdən də acı bir məktub yazdı.

Oğlu ona yazmışdı ki, sərdar Əmir xan qala üçün olan topu, gülləni və hərbi sursatı Gəncənin Narın qalasına çəkməyə razı deyil. Atası da cavabında ona yazdı: "Bunun eybi yoxdur, mən mərəndli Nəzərəli xanı iki alay sərbaz ilə Narın qalasında yerləşdirib, onun mühafizəsinə başlamaq üçün göndərirəm. Sizin qala ilə işiniz olmasın, onu Nəzərəli xanın öhdəsinə buraxın. Qalanın bütün işlərinə Nəzərəli xan cavabdehdir. Əgər mən oraya gəlsəm, oğluma xidmət edən o saqqallı arvadın üzünə gözüm sataşsa, mən bilmirəm ki, onun başına nə oyun açaram". Abbas Mirzə bundan başqa öz əli ilə sərdar Əmir xana bir məktub yazıb, oğlunun məktubunun içərisinə qoymuşdu. Əmir xana yazılan məktubun mətni: Məktubun surəti eynilə belədir: "Əmir xan! Ey kişi! Şahın tacına and olsun, səni Əmir xan Cahanbəylinin gününə salaram. Ey kişi! Bidrus bəy Mədətovun dayısıdır. Sən də mənim dayımsan, gör o, Şuşa qalasını təkbaşına necə saxlayır, sən isə qalanı qoşun və top gücü ilə saxlaya bilmirsən. Ah kişi! Bəlkə qorxursan ki, sən ölənnən sonra övladların ac qalar, onnan qorxma, övladlarını mən ac qoymaram. Bəlkə əsir düşməyin fikrini çəkirsən, övrətimin sırğasını satıb səni xilas edərəm, bu barədə fikir eləmə və qeyrət et! Vəssalam".

Bu sözlər Əmir xanın halına əsla təsir etmədi. Bu işdən daha da artıq boyun qaçırıb, mərəndli Nəzərəli xan sərbazları ilə gəlib qalanın içərisinə yerləşənə qədər qalanın bayırında oturdu. Bu əsnada Məhəmməd Zaman xanın yanından adam gəldi. O belə yazmışdı: "Keçən gecə general Mədətov öz qoşunu və adamları ilə onun üzərinə hücum edib dava etmişlər, o isə bir az müqavimət göstərdikdən

sonra davam gətirməyib qaçıb mağaralarda, cəngəllikdə (meşədə) gizlənib özlərini birtəhər qorumuş, sabahı isə oradan geri qayıdaraq bir mənzil geri oturmuşlar, Mədətov da gəlməkdədir. Əmir xan öz qızılbaş əmirlərini və sərkərdələrini, əsgərlərini toplayıb belə məsləhət etdilər: Mədətov adlı-sanlı bir sərkərdədi, rusların içərisində çəldlikdə, igidlikdə, rəşadətdə şöhrəti var. Rus qoşunları bizimlə vuruşsalar, biz onların qarşısını az qoşunlarımız və atlılarımız ilə ala bilmərik, bəziləri isə rusların piyadasının milçək kimi saysız olduğunu təsdiq edib, dağa çəkilməyi, Abbas Mirzə öz qoşunu və adamları ilə gəlib Mədətova cavab verənə qədər orada qorunmağı təklif etdilər. Digər bir qismi Kürün kənarına çəkilib meşə və cəngəlliklər arasında vaxt keçirməyi məsləhət gördülər. Bir başqaları geri oturmağı, digərləri isə irəliləməyi lazım bildilər. Məhəmməd Mirzə isə dedi:

- Mən rusların müharibəsini görmək istəyirəm, onları qabaqlayıb vuruşmaq lazımdır. Elə ki gördük qalib gəlirlər, onda Gəncə qalasına çəkilərik.

Əmir xan bu sözün müqabilində dedi:

- Bu rus davasıdır, zarafat və oyuncaq deyil, hərgah onlar qalib gəlsələr, işlərini qurtarmamış bizdən əl çəkməzlər.

Bu əsnada iranlı sərbazlardan ibarət dörd min qoşun və dörd top Abbas Mirzənin yanından buraya gəldi. Köməyin gəlməsi onlara dayaq oldu. İrəvan sərdan Gəncə yaxınlığında olan Hüseyn xana bir məktub yazdı: "Bizim fikrimiz və qərarımız Mədətovla vuruşmaqdır, siz də öz qoşununuzu götürüb, dağ tərəfdən köməyə gəlin, hər iki tərəfdən onunla vuruşub dəfinə çalışaq". Hüseyn xan da cavabında yazıb, özünün böyük düşməni olan knyaz kimi bir sərdarın qabağında durduğunu xatırlatdı, bura gəlməsini məqsədə uyğun bilmədi. Bu vaxt sərdar Əmir xan onun yanında xidmət edən, divanxana işlərilə məşğul olan katibi öz yanına çağırıb ondan soruşdu: "Siz qalib və məğlub olmağın səbəbləri ilə yaxşı tanışsınızmı? Hansımız qalib gələcəyik, Mədətov yainki biz?"

O ərz etdi ki, Mədətov bir Rüstəm-Zaldır, Abbas, Hüseyn, İbrahim və başqaları onun qarşısında nəkarədir? Sizin ki adınız Əmirdir, bu ad Rüstəm-Zal adına bərabərdir, əgər siz onun üzərinə getsəniz, qalib gələcəksiniz. O sizin üzərinizə gəlsə, o qalib olacaqdır.

Əmir xan müşavirə və müzakirədən sonra min qorxu və tərəddüd ilə qoşunu və topları götürüb, Gəncədən Şəmkir tərəfə yola düşdü. Gəncə qalasında olan Nəzərəli xana xəbər verdilər ki, o da bir-iki alay qoşun götürüb kömək məqsədilə onların yanına gəlsin. Əvvəlcə onlar gedib Mədətovla vuruşacaqlar, qalib gəlsələr, çox yaxşı, məğlub olsalar, həmin sərbazları götürüb Gəncə qalasına sığınacaqlar. Hamı birlikdə qalanı Abbas Mirzə gələnə kimi saxlayacaqdır. Nəzərəli xan sərbaz göndərməkdən boyun qaçırıb belə cavab verdi:

- Məni qalanı saxlamağa göndəriblər, sizə əsgər verməyə göndərməmişlər. Sizinlə birləşib vuruşmaq barəsində bir cavab verə bilmərəm.

Əmir xan və Məhəmməd Mirzə həmin İraq atlılarını, dörd top ilə götürüb, çayın bu tayındakı Şəmkirə gəldilər. Bir gecə keçdikdən sonra general Mədətovun rus qoşunu və adamları ilə onların üzərinə irəlilədiyi xəbəri yetişdi. Əmir xan bu xəbəri eşidən kimi arabaları və çadırları Gəncəyə tərəf göndərdi. Özü və qoşunu dörd topla Şəmkirin bu tayında dayandı. Üçüncü gün sübhdən gözətçilik edən Məhəmməd Zaman xan qaçaraq Mədətovun rus əsgərlərilə minarənin altında, çayın o tayından keçdiyini aşkar gördüyü xəbərini verdi. Hər iki tərəf döyüşə və müdafiəyə hazır dayandı. Topçular gəlib sərdardan soruşdular:

- Əvvəl biz atəş açaq, ya rusların atəşini gözləyək? Sərdar cavab verdi:

- Əvvəl fürsəti düşmənə verərlər.

Bu zaman rusların topları atıldı. Bu tərəfdən də top atəşi başladı. Getdikcə rusların top atəşləri şiddətlənirdi. Bir dəfədə yeddi topdan atəş açılırdı, bu tərəfdən isə yalnız dörd topdan atırdılar. Təəccüblü budur ki, qızılbaşlar arabaları bir gün əvvəl Gəncəyə yola salmışdılar.

Nəhayət, ruslar davanı başlayıb vuruşa-vuruşa öz çadırlarını qururdular. Əmir xan sərdar çayın kənarında atdan düşüb durbinlə rus qoşunlarının vuruşmasına baxırdı. Məhəmməd Mirzə də başqa bir tərəfdən qoşunun içərisində göstəriş və əmr verməklə məşğul idi. Rusların top gülləri atılandan sonra bu güllələrin bəziləri qızılbaşların üstünə düşüb çoxlarını tələf etdi. Yavaş-yavaş qoşunun

arxa hissəsinə çaxnaşma düşdü. Qazax[1*] qoşunları və rusların atlıları müharibə meydanının aşağı və yuxarısında durub çaydan keçdilər. Bu əsnada eşikağası sərdar Dəmir xanın yanına gəlib ona dedi:

- Nə durmuşsunuz, bütün qoşun qaçdı.

Əmir xan cavabında belə dedi:

- Mən hara gedim, mən bir də Abbas Mirzənin üzünə baxa bilmərəm. Mənim ruslara əsir düşməyim və ya ölməyim, diri qalıb Abbas Mirzənin yanında xəcalət çəkməyimdən yaxşıdır.

Onun atını gətirdilər, sərdar ata minib Məhəmməd Mirzəni salamat aradan çıxartmaq əmrini verib dedi:

- Məhəmməd Mirzənin başına bir iş gəlsə, mən Abbas Mirzənin əlindən xilas ola bilmərəm.

Özü isə getdi ki, topların rus qoşununun əlinə düşməsinə imkan verməsin. Bu vaxt qardaşı oğlu Məhəmməd Zaman xan iki yüz atlı ilə buraya gəldi. Qazax dəstələri də böyük xiyaban tərəfdən çayı keçib arxadan özlərini yetirdilər. Dava qızışdı, sərdarı buradaca bir qazax gülləsi yerə saldı və məhv etdi. Həmin qazax onun silah-yarağını götürdü. Ölənin sərdar olduğunu bilən general Mədətov çox təəssüf etdi ki, niyə onu diri gətirməyiblər.

Əmir xanın atı, cib Quranı generala çatdı. Sərdar Əmir xan ilə general Mədətov arasında keçmişdən bir tanışlıq var idi. Sərkərdələrin bir-birinə ehtiram etməsini və hörmətini bilirdi. General sərdarın nəşini müsəlman adəti üzrə oradaca yolun kənarında dəfn etmək əmrini verdi.

Ş e i r (sətri tərcümə):

Bu qorxulu fələyin qanunu belədir ki,
Dünya insanı gah ucaldır, gah da aşağı endirir.

Əmir xan yoğun, ucaboylu və qarınqulu bir adam idi. O, Qacar Qamqulu ağanın oğlu və Canməhəmməd xanın qardaşıdır. Elə ki Qacar Məhəmmədhəsən xan Nadir şahdan sonra taxta çıxdı, Qacarlar arasına ikitirəlik düşdü. Onlar bir-birlərini öldürüb, əsir edirdilər.

---

[*] [1] Don kazakları nəzərdə tutulurdu.

Nəhayət, düşmənçiliyi aradan qaldırmaq üçün qanbahası olaraq Qacar ağsaqqallarından olan Canməhəmməd xanın qardaşı Şamqulu ağanın qızını Fətəli şah adı ilə məşhur olan Baba xana verdilər. Abbas Mirzə də həmin arvaddan olmuşdur. Buna görə də Əmir xan Abbas Mirzənin dayısı idi.

Əmir xan öldürülən vaxt 50 yaşı var idi, yaxşı güllə atardı. Xülasə, rus qoşunları Məhəmməd Mirzənin qoşununu Gəncə ətrafına kimi təqib etdilər və onların çoxunu öldürdülər, çöl-düz əsgər meyiti ilə dolmuşdu. Ölənlərin nəşlərindən təpələr əmələ gəlmişdi. Ruslar saysız-hesabsız qənimət ələ keçirtdilər. Qabaqda qaçanlar çadırlara, arabalara yetişdilər. Hamısı bir yerdə Gəncədən Qarabağa qaçmağa üz qoydu. O qədər tələsdilər ki, çoxlu dəvə və qatırları sürü ilə başdı-başına buraxıb boş qaçırdılar.

İranlılar o qədər mal və qənimət tökürdülər ki, dağ və çöl bərabərləşdi. O başsız dəstədən o qədər qənimət qaldı ki, ayaq qoymağa yer olmadı.

Məhəmməd Mirzə qaçıb Gəncəni keçəndən sonra gecə bir neçə yerdə dayandı və şeypurçuya əmr etdi ki, hər kəs yolda yıxılıb qalarsa, şeypur çalsın. Ona görə də heç kəs qorxusundan yıxılmırdı və hər kəs çalışırdı ki, bir-birindən qabağa düşsün.

Xülasə, o gecə sübhə kimi qaçaqaç oldu. Sübh açılana yaxın Tərtər çayının kənarına yetişib, orada istirahət etdilər. 20 fərsəxlik yolu bir gecədə gedirdilər.

Nəzərəli xan gecəyarısına kimi əsgərlərlə Gəncə qalasında qaldı. Amma qalanın ruslar tərəfindən zəbt edilməsindən artıq dərəcədə qorxaraq, sərbazlarla qaladan çıxıb, Qarabağ tərəfə qaçdı, yolda Məhəmməd Mirzənin qoşununa qoşuldu. Məhəmməd Mirzə bütün baş vermiş hadisəni Abbas Mirzəyə yazdı və Abbas Mirzə çarəsiz qalıb Şuşa qalasını tutmaqdan əl çəkdi, oradan əliboş köçüb qoşunu ilə Gəncə tərəfə yola düşdü.

# GƏNCƏDƏ GENERAL MƏDƏTOVUN ABBAS MİRZƏ İLƏ MÜHARİBƏSİ, MƏDƏTOV TƏRƏFİNDƏN QIZILBAŞLARIN VƏ ABBAS MİRZƏNİN ƏZİLMƏSİ

Şəmkir müharibəsindən bir gün sonra general Mədətov Gəncəyə gəldi. İşləri qaydaya salmağa, vəziyyətlə yaxından tanış olmağa, pis vəziyyətdə olanlara, ürəyismanlara və xəstələrə ürək-dirək verməyə başladı. Kəlisa kəndinin ermənilәri can və mallarının qorxusundan məhəllələrin küçələrini bağlamışdılar. Bu yolla qorxulu vəziyyətdən və mühasirədən özlərini xilas etmişdilər.

Hörmətli adamlar, əyanlar, rəislər və kəndxudalar generalın yanına gedib öz sevinc və təbriklərini ona izhar etdilər. İki gündən sonra qraf Paskeviç 15 min rus qoşunu və 5 böyük topla Mədətovun yanına gələrək onun qoşununa qoşuldu. Atlı və qazaxdan başqa on doqquz min nizami qoşun və 22 top var idi.

Bu tərəfdən də Abbas Mirzə Şuşa qalasının ətrafında olan bütün qoşununu götürüb gəldi. Məhəmməd Mirzənin qoşunu ilə bir yerdə hamısı altmış min atlı və piyadadan ibarət idi. Məhəmməd Mirzənin 4 topundan başqa 24 topu da var idi.

Abbas Mirzə əmr etdi ki, mərəndli Nəzərəli xanın saqqalını qırxıb eşşəyə mindirsinlər və qoşunun içində gəzdirsinlər, ona görə ki, Abbas Mirzənin ənirinə əməl etməmiş, nə qalanı mühafizə etmiş, nə də Məhəmməd Mirzənin əmrinə əməl etmiş, həmçinin onun sərbazları da Məhəmməd Mirzəyə kömək etməmişdilər.

Məhəmməd Mirzənin qoşununun içərisində car çəkdilər: öz sərkərdəsini qoyub qaçan sərbazların cəzası düşmən qoşunu ilə öz qoşununun arasında öldürülməkdir.

Xülasə, Abbas Mirzə gecə ikən Gəncənin Zazalı deyilən yerinə gəldi və gecəni orada qaldı. O, sübhə kimi qorxusundan yatmayıb otaqda gəzirdi. O biri gün sübh vaxtı Abbas Mirzə Gəncəyə getməyib Şeyx Nizaminin məzarı olan yerin ətrafına gəldi. Qoşunu nizama salmaqla və vəziyyəti öyrənməklə məşğul oldu. Rus dövlətindən üz çevirən və Qızılbaş dövlətində sərkərdə olan Səmsam xan Abbas Mirzəyə dedi:

-

Mən bir dəfə and içmişəm ki, rus padşahı və onun qoşunu ilə müharibə etməyəm, amma yaxşı olar ki, siz qoşunu bir neçə tərəfdən onlarla müharibəyə aparasınız. Əgər bir tərəfdən güc gələrsə, siz ayrı tərəfdən gəlib, bizim qoşunun sırasını dağıtmağa qoymazsınız, çünki sizin qoşununuz çoxdur, onların qoşunu isə az.

Abbas Mirzə Səmsamın məsləhətini qəbul etməyib dedi:

- Siz dava etməmək haqqında and içdiyiniz üçün məsləhətiniz işə yaramaz.

Sonra Abbas Mirzə öz qoşunundan bir dəstə düzəltdi və Göy İmamdan başlayıb Kürün kənarına kimi səf çəkdirdi. Topxana və cəza dəstəsini (zənburəkxana) təpənin kənarında, sərbazların qabağında yerləşdirdi. Özü isə təpənin üstündə qərar tutdu.

O buradan hər iki tərəfin qoşununun vuruşmasına tamaşa edirdi. O biri tərəfdə də bütün rus qoşunu bir yerə toplandı.

General bu vaxt demişdi: "Əgər qızılbaşlar iki-üç tərəfdən vuruşmağa başlasalar, o vaxt vuruşma bir qədər çətin olacaq, əgər hamısı bir tərəfdən dava etsələr, o saat onları qaçmağa məcbur edərik".

Sərdar Paskeviç qoşunun başında durub, döyüşün ixtiyarını, qoşunu idarə etməyi general Mədətova tapşırdı, general toplan seçmə və barıtla doldurtdurub peyinlikdə və samanlıqda gizlətməyi əmr etdi.

Rus əsgərlərindən üç bölüyün qabağa getməsi və tüfəng atəşilə müharibənin qızışdırılması əmrini verdi.

Bu tərəfdən də ən igid sərbazlardan olan Mərənd və Qaradağ sərbazlarına əmr olundu ki, döyüşə başlasınlar. Sərbazlar tüfəngdən yaylım atəşi ilə "ya Əli" deyib haman saat amansızcasına, arasıkəsilmədən rus əsgərlərinə hücum etdilər, ruslar ilə əlbəyaxa olub onları geri oturtdular.

Bu zaman sərdar Paskeviç vəziyyətin çətin olduğunu görərək, sabaha kimi tədbir görmək məqsədilə qoşuna geri çəkilmək əmrini vermək istədi. Amma general Mədətov buna razı olmayıb dedi:

- Bunlar Avropa qoşununa bənzəməz, əgər siz geri çəkilmək təbilini vursanız, onlar o saat atlarını çapıb bizi dağıdarlar.

Bu sözdən sonra sərdar dedi:

- İxtiyar sizindir.

Sonra generalın əmri ilə qoşunun içərisində gizlədilmiş toplara birdən od vurdular. O əjdaha ağızlı toplar sağdan və soldan ağızlarından

od püskürdülər. Onlar hoqqabazlar kimi küy salıb hər tərəfə qaçır və ya ürəyi yanğın divanələr kimi min bir xəyalla boyunlarına zəncir salıb o tərəf-bu tərəfə hərəkət edirdilər. O, meydanda döşünə döyənləri birdəfəlik aradan qaldırıb, Abbas Mirzənin adamlarını və qoşunun səflərini bez kimi parçalayıb dağıdırdı. Meyit meyit üstünə qalandı, bənövşə rəngli göylər onların üzərinə pərdə çəkdi. Meydandan qalxan tüsrü, buxar bütün dünyanı zülmətə bürüdü.

N ə z m (sətri tərcümə):

...O vuruşmada qan su kimi axdı.
Ölüm sürətlə hərəkətdə idi.
O, müharibə meydanında o qədər
meyit var idi ki,
Dünya alt-üst olmuş kimi görünürdü.

İyirmi beş dəqiqə müddətində heç kəs bir-birinin üzünü görə bilmədi. Bir az sonra havanın üzü müharibə meydanındakı top-tüfəng tüstüsündən təmizləndi.

Top-tüfənglərin vahiməsindən gizlənmiş qızılbaşların bir hissəsi öz yoldaşlarının yanlarında görmədikdə sərsəm halda qaçmağa üz qoydular. Bəziləri də heç silaha əl atmadan dolu tüfənglə geri qayıtdılar.

Abbas Mirzə vəziyyəti belə görüb durduğu təpədən aşağı düşüb yel kimi gedən atına minərək qaçmağa üz qoydu. Araz çayının kənarına kimi atın cilovunu çəkmədi. Abbas Mirzənin qoşununun hamısı vadiyə doğru qaçmağa üz qoydu.

Bütün dava müddəti bir saat yarım, Şəmkir davası isə üç-dörd saat çəkmişdi. Abbas Mirzənin qaçan qoşunları Xudafərin körpüsündən keçdilər. Vuruşma zamanı böyük sərdarlardan biri olan salar Allahyar xanın qoşununun bir dəstəsi təpənin üstündə səngər düzəldib gizlənmişdi. Abbas Mirzənin qoşunu qaçandan sonra Allahyar xanın yanına adam göndərmişdi ki, boş yerə özünü ölümə verməsin.

Allahyar xan Mədətovun təklifini qəbul edib, bütün silah-yaraqlarını yerə tökdülər, təpədən aşağı düşdülər, beləliklə də ölümdən xilas oldular.

Abbas Mirzə qaçandan sonra onun iki topu Tərtər çayının kənarında, çəltik tarlası arasında qalmışdı, onları qoşuna yetirmək üçün Uğurlu xanı göndərdi, amma gətirilməsinə müvəffəq olmayıb, topları gizlədib getdilər.

Şahzadə Abbas Mirzə qaçandan sonra bir gün içərisində Arazdan keçib, mərəndli Nəzərəli xanın boğazına ip saldırıb asdırdı. Özü isə Şam torpağında olan Fətəli şahın yanına getdi. Bu məğlubiyyəti və qaçmağın təqsirini Əmir xan və Nəzərəli xanın boynuna qoyub dedi:

- Yalnız onlar süstlük və xəyanət edib, İranın belini sındırdılar.

Fətəli şah oradan köçüb İraq tərəfə yollandı. Abbas Mirzə isə Təbriz şəhərinə yola düşdü.

Belə nəql edirlər ki, Fətəli şah Qaplanguhdan İraqa keçəndə oradan Azərbaycana həsrət gözü ilə baxıb bu beyti oxumuşdu.

F ə r d:

Təbriz şəhəri mənim hərarətimi qaldırır,
Bu Azərbaycan mülkündən mənim
canıma necə od düşdü.

Bu böyük fəthdən sonra general Mədətov artıq dərəcədə şöhrət tapdı və bundan sonra Mədətova İranduf dedilər. Onun şəninə çoxlu şeir və mədhlər qoşdular. Bu aşağıdakı beyt de ixtisarcasına deyilmişdir:

Çəkdi nərradi qəza qalayi Fit üstünə döv,
Mustəfa məsnudinin sahibi oldu Mədətov[1*].

Bir neçə şeir və həcv də Abbas Mirzənin qoşununun sərdarı və saları olan Allahyar xanın barəsində deyilmişdi. Bəziləri də belə güman edirdi ki, həcvlər Abbas Mirzənin özünə deyilmişdir. Bu beytlərdən bir neçəsi burada qeyd olunur.

---

*
[1] Oyunbaz fələyin tərsliyindən,
Mədətov Mustafanın taxtına sahib oldu.

Ş e i r {sətri tərcümə):

Vaxtında qaç ki, qaçmaq vaxtıdır,
Get canının fikrində ol, can çox əzizdir.
Can o demək deyil ki, onu asanlıqla vermək ola,
Bilmirsənmi asan və çətin nə deməkdir?
Ey şahın və vəliəhdin çörəyinin xaini,
Şah və vəliəhdin özünə vəfalı olmaq lazımdır.

## QIZILBAŞLAR QAÇANDAN SONRA BAŞ VERƏN BƏZİ HADİSƏLƏR

Düşmən kökündən sarsıldıqdan və onların mal və dövlətləri əllərindən çıxdıqdan sonra şirvanlı Mustafa xan Şirvanı tərk edib, sərdar İbrahim xanla birlikdə Qaradağa tərəf qaçdılar. Mir Həsən xan da Talış mahalından əl çəkib, qızılbaşların yanına getdi. Amma nuxalı Hüseyn xan bir müddət Nuxada birtəhər yaşadı. Başqa yerlərdən buraya gəlmiş bəzi tacir və qaçqınlar da çoxlu mal və dövlət toplamışdılar.

Hüseyn xan qardaşı Hacı xanı ləzgi qoşunu ilə Qarabağa göndərdi. O da Kürü keçib Qarabağ obalarının bəzi yerlərini qarət etdi.

Nəhayət, sərdar Paskeviç Nuxanın üç fərsəxliyinə yetişən kimi Hüseyn xan və Hacı xan Nuxanı tərk edib İrana qaçdılar. Sərdar Paskeviç rus qoşunu ilə Qarabağda Tavus adlanan yerin ətrafında dayandı.

General Mədətov isə Şuşa qalasının içərisinə daxil oldu. Burada yaşayan müsəlman əhalisi Mədətovu görməyə çox şad oldular və ona xidmət etməkdə özlərini çox xoşbəxt hesab etdilər. O şəxslər ki, qüvvətli, vüqarlı Rus dövlətinə qulluqda və itaətdə sədaqət göstərmişdi, onlara yeni vədlər verildi, o adamlar ki, ağlının azlığından qızılbaşlarla birləşib, Rus dövlətinə qarşı qiyam və düşmənçilikdə bulundular, onlar tənbeh və təhdid olundu. Bundan başqa general onların hamısını özünə tabe etdi, öz yerlərində və yurdlarında yerləşdirdi. Generalın əmrinə görə müxtəlif yerlərdə saxlanılmış dövlət və qeyri azuqə anbarlarından Şuşa qalası əhlinə azuqə verildi.

Şuşa əhli mühasirə dövründəki vəziyyətdən xilas oldu. Mədətov Mehdiqulu xanın Çanaqçıda hörmətsizliyini eşitmişdi, odur ki, ondan qisasını aldı... General Paskeviç bu zaman Araz çayından keçib, Qaradağ vilayətini soyub qarət etdi, ondan sonra gəlib o tərəflərin əhalisini özünə tabe etdi. Çoxlu qoşunla Tiflisə tərəf yollandı. Həmin ilin qışında general Mədətov Qarabağ əhlinin əlinə qənimət və başqa şeylər keçirtmək məqsədilə mühasirə dövründə çəkilən əziyyəti əvəz etsin deyə, Qarabağ və Şirvan qoşunlarını götürüb Mişgini və Əhəri çapmağa, qarət etməyə getdi. Mişgin vilayətini o ki var soyub qarət etdilər. Çoxlu mal və dövlət bu tərəfin əhalisinə nəsib oldu. Bu yerlərdə yaşayan Şahsevən xanlarını imperatorun itaətinə dəvət etdi, onlara imperatora xəyanət etməyəcəkləri barədə and içdirdi. Onlardan biri Ata xan idi. Yermolovun sərdarlığı zamanında və Mədətovun hökmdarlığı dövründə Ata xan rəşid və sərt adam olub məhdud dünyagörüşü var idi. O qədər də qızılbaş qoşunlarının əmrlərinə əhəmiyyət verməzdi. Abbas Mirzə onu dəfələrlə Təbrizə çağırmağına baxmayaraq, o getmirdi. Hətta bir dəfə Abbas Mirzə sərdar Əmir xanla Qaradağda idi. Onun verdiyi əmrlərinin birisi də o idi ki, Ata xanı bir yol ilə tutub Təbrizə göndərsin. Əmir xan da Ata xanla yaxınlıq və qohumluq etdi, yəni öz qızını Ata xanın oğluna vermək bəhanəsi ilə onu tutmaq qəsdini etdi. Yenə də müvəffəq ola bilmədi, şirvanlı Mustafa xan Fit dağından qaçandan sonra Qızılbaş dövləti tərəfinə getdi. Ata xan qonaqpərvərlik göstərib onu Təbrizə apardı. Bu məqsədlə ki, Mustafa xan onun təqsirini bağışlayacaqdı.

Təbrizə daxil olandan sonra Abbas Mirzə onu tutdurub bir gözünü çıxartdırdı. Xülasə, general Mədətov Mişgindən Qaradağ xanlarının paytaxtı olan Əhər şəhərinə kimi getdi, orada Qarabağ əhlinin əlinə çoxlu qənimət keçdi, sonra general oradan da geri qayıtdı. O vaxt qızılbaş vilayətlərinə o qədər qorxu, vəlvələ, həyəcan düşmüşdü ki, əgər Mədətov Təbrizə və Tehrana getsəydi, heç kəs onun qarşısını ala bilməzdi. Hər hansı bir vilayətdə Mədətovun rus qoşunu ilə gəlməsini eşitcək itaətdə olanlar, xidmətdən canını qurtarmaq fikrinə düşənlər qaçmaq istəyirdilər. Hətta şahzadə Abbas Mirzə özü də Təbrizdən qaçmaq qərarına gəldi. Ona görə də hər gün əmrinə əsasən atları yəhərləyib həyətin ortasına aparırdılar, məşq və vərdiş

etmək üçün qadınları və qızları atlara mindirirdilər, bu məqsədlə ki, Mədətovun Qaradağdan keçib Təbrizə gəlməsini eşidən kimi arvadlarını və pul xurcununu götürüb qaçmağa üz qoya bilsinlər. Elə ki Mədətovun Əhərdən qayıtması xəbəri gəldi, çox şadlıq etdilər. Mədətov oradan qayıdıb Tiflisə getdi. Sərdar Yermolov onu çoxlu qoşunla İrana göndərdi. Mədətov da qoşununu götürüb Xudafərin körpüsündən keçməyə əzm etdi. Qızılbaş tərəfdən də qoşunlar qabağa yeriyib müdafiəyə və vuruşa hazır dayandılar. Bu zaman Yermolov sərdarlıqdan xaric olub, onun əvəzinə qraf Paskeviç müstəqil hökmdar təyin edildi.

Sərdar Paskeviç cənab knyaz Abxazovu general Mədətovun yerinə Qarabağ vilayətlərində hakim təyin etdi. Mədətovun komandanlığı altında olan qoşun general Pankratiyevin ixtiyarına və fərmanına verildi.

Eyni zamanda knyaz Abxazov qərargah rəisi vəzifəsinə təyin olub, beş günün içərisində Tiflisdən Mədətovun Xudafərin körpüsündə olan ordusuna gəldi və burada işləri Mədətovdan təhvil alıb, onu Tiflisə göndərdi, özü isə oradan qoşunu götürüb Qozluçaya gəldi və o vilayətlərin hökumət işini əlinə aldı.

General Mədətovun işdən götürülməsini bir çox səbəblərdən baş verdiyini söyləyirlər. Bəziləri deyirlər: Qraf Paskeviç gəldiyi zaman özünün sərdar olduğunu Mədətova bildirməmişdi və general bəzi hallarda onun əmrinə müxalif olurdu və onunla mübahisə edirdi. Bəziləri də deyirdilər ki, Mədətovun Mişginə getməsi və Əhərdən qayıtması barədə dövlət başçılarının icazəsi olmayıb. Bir başqaları isə Mədətovun Əhərdən qayıtmasının başqa səbəblərlə bağlı olduğunu deyirdilər. Bir sözlə, general Mədətov Tiflisə gedib başqa yerə təyin olundu.

## KNYAZ PASKEVİÇİN İRƏVANA TƏRƏF GETMƏSİ, ABBAS MİRZƏ İLƏ MÜHARİBƏSİ, ABBASABAD VƏ İRƏVAN QALALARININ TUTULMASI

İrəvan əmiri cənab qraf Paskeviç 1827-ci miladi ilinin martında sərdarlıq vəzifəsi əmri ilə Qafqaz korpusuna komandan təyin olundu. 0, vilayətlərin hüdudunu nizama salıb, yaxın və uzaq yerlərin işlərini tərtib edərək, hakimlərin təyinatı ilə məşğul oldu. Qoşunun və əsgərlərin qüvvətli, nizamlı, müzəffər, güclü olması haqqında lazımi tədbirlər gördükdən və sayıqlıq ruhunda tərbiyə verdikdən sonra İrəvana getmək haqqında qərara gəldi. Lazımi tədarük və çoxlu qoşunla Tiflisdən İrəvana hərəkət etdi: İrəvan bəylərbəyisi sərdar Hüseyn xan bu xəbəri eşitdikdən sonra həmin nahiyələrin el-obasına kömək etmək əmrini verdi. Qardaşı sərdar Həsən xanı Sərdarabad və İrəvan qalasının mühafizəsinə təyin etdi. Özü də qoşunla o yerlərin ətrafında dolandı. O biri tərəfdən vəliəhd Abbas Mirzə də qoşun toplayıb, sərbaz, atlı, topxana ilə Hüseyn xan və Həsən xanın köməyinə Təbrizdən Xoya tərəf hərəkət etdi. Araz çayı kənarının yaxınlığında Qara Ziyaəddin mahalına gəlib, orada dayandı. Bu əsnada İran dövləti tərəfindən Naxçıvan nahiyəsi Əylis dairəsində olan general-mayor Mehdiqulu xan sərdarın yanına adam göndərdi, özünün İran dövlətindən üz çevirib Rus dövlətinə itaət etmək arzusunda olduğunu bildirdi. Knyaz Ançarov general Pankratiyev ilə sərdarın əmri və fərmanına əsasən iki rota əsgər götürərək, Mehdiqulu xanı öz tabe və ya yaxın adamları ilə köçürüb yanına gətirdi. Onu yüksək rütbəli sərdarın əmri ilə Qarabağda yerləşdirdi. Həm özü, həm təbəələri üçün daimi yaşayış yeri müəyyən etdi.

Naxçıvan alayının başında duran naxçıvanlı polkovnik Ehsan xan uzaqgörən və məlumatlı bir adam idi. Əsgərləri ilə Abbasabad qalasının mühafizəsinə başladı. O, Qızılbaş dövlətinin zəifliyinə və düşkünlüyünə inanaraq sərdarın yanına adam göndərib, məlum etdi ki, hərgah sərdar qoşunla qalaya tərəf gələrsə o, Abbasabad qalasını ona təslim edər. Sərdar bu xəbəri eşidən kimi qoşunla Naxçıvan tərəfə hərəkət etdi. Qızılbaş dövlətinin başçdarı Ehsan xanın fikrini duydular. Onların böyük əmirlərindən biri Fətəli şahın yeznəsi Abbas

Mirzənin şəxsi gözətçisi olan Qacar Məhəmməd xan idi. Dörd min bəxtiyarlı əsgər və bir neçə xan ilə Abbasabad qalasının mühafizəsindən ötrü yola düşdü. Sərdar cənab Paskeviç Abbasabad qalasını möhkəm surətdə mühasirə etdi, həm Naxçıvan və həm də Arazın o tayında Xoy tərəfdən vuruşa girişdilər.

## GƏCLƏR VƏ CAVANBULAQ MÜHARİBƏSİNİN GEDİŞATI, ABBAS MİRZƏ QOŞUNUNUN ƏZİLMƏSİ VƏ BAYRAQLARININ ƏLƏ KEÇİRİLMƏSİ

Bu zaman Abbas Mirzə rus qoşununun Abbasabadda şiddətli müharibə apardığını və qazax atlıları hər gün Arazdan keçib, çayın o tayında dayanmış İbrahim xanın qoşunu ilə əlbəyaxa olub rəşadət ve qəhrəmanlıq göstərdiklərini bildirdi.

Abbas Mirzə özü ilə bir neçə min cəsur sərbaz götürüb gecəyarısı Araz kənarına yaxın, ruslara güllə çatan məsafədəki Gəclər dağının ətrafında pusquda durmağı məsləhət gördü. Abbas Mirzənin məqsədi o idi ki, sübh vaxtı qazaxlar hərgünkü göstəriş üzrə buradan keçərsə, İbrahim xan onlarla əlbəyaxa olub, hay-küy salsın, İbrahim xan vuruşa-vuruşa qaçmağa üz qoyub, rusları Abbas Mirzənin durduğu yerə çəksin, Abbas Mirzə bu vaxt çıxıb onları məhv etsin.

Beləliklə, Abbas Mirzə bu məqsəd və əzm ilə beş min döyüşçü götürüb, çox dərin olan Ağcabulaq dərəsində pusquda durdu. Gözünü dikib, səhərin açılmasını gözlədi. Sübh günəşi çıxan kimi xəbər gəldi ki, hərgünkü adət üzrə qazaxlar İbrahim xanın qoşunu ilə vuruşmaqdadırlar. İbrahim xan Abbas Mirzənin dünənki məsləhətinə görə öz sərbaz və qoşunu ilə məğlub olur deyə, Abbas Mirzənin oturduğu yerə çəkildi. Qazaxlar da öz növbəsində iki-üç min əsgər və iki nəhəng topla, nizam və intizam ilə gəlib arxadan yetişdilər. Bu zaman Abbas Mirzənin qoşunu pusqudan çıxıb İbrahim xanın qaçan qoşununa qarışdı, qaçmağa üz qoydular. Qızılbaş qoşunu bu fikirdə idi ki, qazaxlar onları təqib edərkən, bir-birlərindən ayrılıb dağılarlar, nəticədə qızılbaşlar güclü müqavimətlə onlara qalib gələrlər. Amma işlər əksinə oldu. Qazaxlar öz cinahlarını bərkidib, sıralarında nizam-

intizamı əldən vermədilər. Elə ki qazaxlar qızılbaşlara yaxınlaşdılar, öz toplarının ağızlarını qızılbaşların sıralarına tutdular, nəticədə qızılbaş süvarilərindən bir çoxunun başı bədənindən ayrıldı. Ruslar dörd-beş ağac Abbas Mirzənin qoşununu təqib edib, sərbazlarından çoxunu öldürdülər və bir neçəsini də əsir aldılar.

Nəhayət, Abbas Mirzə üzünü Gəclər dağına tərəf tutub, atını həmin dağın səmtinə sürdü. Abbas Mirzənin sərbazları hərəsi atını bir tərəfə çapıb dağıldı. Qızılbaşlar bu fikirdəydilər ki, qazaxlar bir-birindən ayrılıb dağılarlar, amma əksinə özləri bir-birindən ayrılıb, hərə bir tərəfə dağıldı. Qazaxlar onların ardınca at çapıb öldürməkdən, əsir almaqdan, əziyyət verməkdən, tutub bağlamaqdan, şikəst etməkdən əl çəkmirdilər. Onların çoxunu əsir etməklə bərabər bir bayrağı bayraqdarı ilə gətirdilər. Çoxlu qənimət və qarət ilə qayıdıb, sərdarın qulluğuna gəldilər. Abbas Mirzə bu məğlubiyyətdən sonra Qara Ziyaəddin kəndindən köçüb Xoy tərəfə qaçdı. Sərdar qızılbaşlardan ələ keçən bayrağı Abbasabada göndərdi və bununla demək istədi ki, boş yerə əziyyət çəkib, qalanın mühafizəsinə çalışmasınlar, çünki bu bayraq Abbas Mirzənin özünün bayrağı idi ki, onu qoyub qaçmışdı. Rus qoşunu sərdarın əmri ilə qalanı mühasirə edib, şiddətli müharibəyə başladı. Dörd tərəfdən hücum oldu. Xəndəklər və səngərlər qazıldı. Abbasabad qalasının əhalisi Abbas Mirzənin köməyindən ümidlərini kəsdilər. Naxçıvanlı Həsən xan da söz vermişdi ki, qalanı təslim etsin. Ona da xain kimi baxdılar. Həsən xan yaranmış vəziyyətdən qorxaraq, qalanı təslim etməyə razı oldu. Keçmiş təqsirlərinin bağışlanmasını xahiş etdi.

Sərdar Abbasabad qalasını zəbt edəndən sonra oradakı top və sursatları ələ keçirtdi. Məhəmmədəmin xanı isə qızılbaşların başqa xan və sərbazları ilə əsir elədi və Gəclər davasında əsir olanlarla bir yerdə birbaş Qarabağ yolu ilə Tiflisə göndərdi. Ehsan xana isə mehribançılıq edib, bəxşişlər verdi və Naxçıvan hakimlik və naibliyinə təyin etməklə onu çox şad edib, öz tayları və yaxın adamları yanında iftixarla adını ucaltdı.

Abbasabadın zəbti 1243 (1827)-cü il iyul ayında başa çatdı.

Məhəmməd xanı Tiflisə aparan zaman bir neçə gün Şuşa qalasında saxladılar. Məhəmməd xan Qacar nücabalarından olub, qısa-boylu, seyrəksaqqallı, qamətcə kiçik bir adam idi. Çox iri atı vardı.

At üstündə balaca bir uşaq kimi görünərdi. Abbas Mirzə onun süstlüyünü və qalanı əldən verməsini nəzərə alaraq, yüksək mənsəbdən məhrum etdi və həmin mənsəbi sərdar Əmir xanın böyük oğluna verdi. Abbas Mirzənin bacısı Məhəmməd xanın arvadı idi. O, bacısını Məhəmməd xandan boşatdırıb dedi:

- Qalanı düşmənə verən bir adam mənimlə arvad qohumu ola bilməz.

Abbasabad və Naxçıvan şəhərinin yerləri yay fəslində isti olduğundan Abbas Mirzə bu şəhərlərin nizam-intizamını qaydaya salıb bütün işlərini möhkəmləndirdikdən sonra Abbasabad qalasında qalabəyi və mühafizə dəstəsi qoydu, özü isə qoşunu ilə Qarababa yolu ilə Sisyan dağı və Qaradağ yaylaqları tərəfə getdi. İstilər qurtarana qədər bu yerlərdə qalmağı qərara aldı.

## ABBAS MİRZƏNİN İRƏVAN TƏRƏFƏ GETMƏSİ, RUSİYA İLƏ AVARANDA VURUŞMASI

Abbas Mirzə Abbasabad qalasını verdikdən sonra camaat arasında məzəmmət edilməsin deyə, bu nöqsanları birtəhər düzəltməyə çalışdı.

Abbas Mirzə Paskeviçin araba, çadırlar və qaladağıdan toplarla Avaran qalasını tutmaq üçün İrəvana tərəf hərəkət etdiyini eşitdi. O, Paskeviçin qarşısını almaq məqsədilə qoşununu və zənburəkxanasını götürüb Ağrı dağı yolu ilə İrəvana tərəf yollandı. Buraya gələndən sonra sərdar Hüseyn xanla görüşdü. Bəzi məsələləri ona danışdı. İrəvan qalası barədə kömək və tövsiyələr verdi.

Rusların yerləşdiyi yerlər möhkəm olduğu üçün və oraya bir neçə ağır top gətirildiyi nəzərə alınaraq Hüseyn xana rus qoşunu üzərinə hücum etməyi məsləhət görmədi.

Abbas Mirzə gözətçi adı ilə 200 cəsur atlı götürüb Avaranla üzbəüzdəki dağın ətəyində durdu. Durbinlə baxıb onların qalasını, durduğu yerlərin vəziyyətini öyrəndikdən sonra qayıtdı. İrəvandan Üçkilsə istiqamətində Həştərək həvalisinə tərəf yollanıb, onun iki ağaclığında düşdü. Gürcü Söhrab xanı iki batalyon əsgər və iki topla Üçkilsə qalasına hücum edib onu tutmaq məqsədilə oraya göndərdi.

Sərdar Paskeviçin əmrilə də orada mühafizədən ötrü 500 əsgər qoyulmuşdu.

Söhrab xan hər gün Üçkilsə qalasına top atırdı və onu mühasirə etməyə girişirdi. Burada olan rus əsgərlərinin azuqəsi qurtarmaqda idi. Paskeviç əsgərləri razı salmaq məqsədilə Avaranda olan Krasovskinin yanına adam və məktub göndərib oradan ya azuqə göndərmək, ya da əsgərləri yanına çağırmağı xahiş etdi. Dünya işi üçün bu yerləri dağıtmağa dəyməz. General Krasovski 4 min əsgərlə 4 top götürüb, onun yanına yola düşdü. O, Avarandan çıxdı.

Şam vaxtı qızılbaş keşikçiləri rusların Avarandan çıxıb gəldiklərini xəbər verdilər. Qızılbaş qoşunu içərisinə böyük qorxu düşdü. Arabaları yükləyib, atları yəhərləyib, rus qoşunları gələn kimi qaçsınlar deyə o gecə səhərə qədər gözlədilər. Bunun səbəbi o idi ki, qızılbaşlar gecə dava etməzdilər, öz canlarını mühafizə etməyi də vacib bilirdilər.

Ruslar gecəyarı hücum etməsin və körpünün təmiri ilə ləngisinlər deyə qızılbaşlar çay üzərindəki körpünü dağıtmışdılar. Gün çıxandan iki saat sonra rus qoşunlarının gəlməsi xəbəri çatdı. Abbas Mirzə bütün atlı qoşunlarını Üçkilsəyə gedən yolun ətrafına göndərdi, topxana və sərbazlarını yol kənarındakı böyük təpə üstündə yerləşdirdi, özü də onların arasında dayandı. Hökm elədi ki, onun işarəsi olmadan heç kəs təpədən enməsin. Birdən rus qoşunları göründü, onlar dörd dəstə ilə, nizamla yolun sağ tərəfindən Üçkilsəyə tərəf hərəkət edirdilər.

Qazax, Borçalı və Qarapapaq atlılarından ibarət rus qoşunlarını dövrəyə almış qızılbaşlar vuruşmağa başladılar. O gün güclü müharibə və vuruşma oldu. O gün gündüz saat ikidən gün batana kimi top və tüfəngin atəşi hər yeri bürümüşdü, dava və müharibənin odu isə alovlanırdı. Hər iki tərəf qurban verməkdən çəkinmirdi.

Ruslar ətrafından qızılbaş atlılarının güc gəldiyini hiss etdikdə, arabaları mahud və başqa şeylərlə doldurub orada qoyaraq özləri qabağa getdilər. Qızılbaş qoşunu arabalarda xəzinə və ya parça olduğunu zənn edib, qarətlə məşğul oldular. Bu vaxt ruslar toplarını seçmə ilə doldurub onların üstünə atdılar. Beləliklə, qızılbaşların bir çoxu məhv oldu.

Rus qoşunu Üçkilsəyə yaxınlaşdığı zaman Söhrab xan top-tüfəng səsi eşidib oradan əl çəkdi, əsgərləri və topları ilə Abbas Mirzənin qoşunu tərəfə gəldi. Rusların ön dəstələri ilə rastlaşanda, rus alayı onlara hücum etdi.

Söhrab xan çıxış yolunun kəsildiyini görüb, yolun kənarındakı təpəyə tərəf geri oturdu. Ruslar onlardan çoxunu öldürdülər. Sonra Miralay İbrahim xan Xoy alayının sərbazları ilə Abbas Mirzənin səngər tutduğu təpədən düşüb onların köməyinə gəldi. Onlardan sağ qalanlarını rusların əlindən xilas etdi. Burada İbrahimxəlil bəyə fürsəti əldən verməyib, çətin zamanda lazımi xidmət göstərdiyi üçün xanlıq mənsəbi verildi. Ruslar da bu qayda ilə vuruşa-vuruşa Üçkilsəyə yetişib, üç dəstə qoşunla qalaya daxil oldular. Rusların axırda qalan dördüncü dəstəsi istinin şiddətindən və susuzluqdan qalanın yuxarısından axan böyük çaya yetişdikdə su içməkdən ötrü çayın kənarına nizamsız olaraq səpələndilər. O vaxt qızılbaş atlılan fürsətdən istifadə edərək, atlarını onların üstünə çapıb, qoşunun içərisinə daxil oldular. Onların bəzilərini öldürdülər, bəzilərini də əsir aldılar.

Xülasə, bu dəhşətli vuruşmada 500 nəfərdən artıq əsir və ölən oldu. General Krasovskiyə güllə dəyib yaralandı. Abbas Mirzə bu hadisədən çox şad oldu, əsirləri şahın yanına göndərdi. Özü isə oradan köçüb təpənin döşündə, Toxmaq deyilən yaxşı bir yaylaqda yerləşdi. Orada bir neçə gün qaldı, birdən xəbər gəldi ki, sərdar Paskeviç bu vəziyyəti eşidərək on beş min rus qoşunu götürüb tələsik yola düşübdür. Abbas Mirzə bu xəbəri eşidən kimi təşviş içində oradan köçdü. Başı salamat qalsın deyə Xoy şəhərinə tərəf yollandı. Günorta vaxtı İrəvan qalası yanından keçərək, oranın camaatına qalanı saxlamaqdan ötrü səbirli və möhkəm olmalarını tapşırdı və özü isə axşamçağı qoşun və hərbi ləvazimatla Araz çayından keçib Ağrı dağı tərəfə üz tutdu və Arazın o tayında dayandı.

Abbas Mirzənin qoşunu atlar üçün ot və qeyri şeylər tapmaqdan ötrü ətrafa dağıldı. Birdən səs düşdü ki, budur, rus qoşunu gəlir. Qoşunun içərisində həyəcan, çaxnaşma qopdu. Çadırlardan başqa qalan şeyləri götürdülər, axşam düşəndə isə əhalini dağıtmaq üçün top atmağa başladılar.

Ordu döyüşçüləri elə zənn etdilər ki, atılan rus topudur. Odur ki, dava başlandı, çoxu şeylərini töküb, atına minib qaçdı, bəziləri də qorxu və vahimədən başqasının atına minib aradan çıxdı.

Bu qayda ilə həmin gecə səhərə kimi hamısı qaçmaqdaydı. Heç kəsin işin nə yerdə olduğundan xəbəri yox idi. Hava işıqlaşandan sonra məlum oldu ki, nə dava varmış, nə vuruş. Qızılbaş gözətçiləri

bir neçə atlını rus gözətçisi hesab edərək rus qoşununun gəldiyini xəbər veribmişlər. Buna görə də ordu içinə bir vəlvələ düşmüşdü. Abbas Mirzə oradan sərdarın ordusuna və ya adamlarına rast gəlmək ehtimalı ilə yenə Naxçıvana tərəf gəldi. O zaman sərdar Paskeviç knyaz Eristovu ordu başçısı təyin etdiyini və Naxçıvandan keçib Təbriz üzərinə hücuma keçəcəyini eşitdi. Həmin generalın rəşadəti və qızılbaşların arasında şöhrəti var idi. Abbas Mirzənin ayağı daha yer tutmayıb olduqca sürətlə Arazdan keçib tələsik Xoy tərəfə getdi. Evoğlu həvalisində ordunu yenidən nizama salıb durdu.

## SƏRDARABAD VƏ İRƏVANIN FƏTHİ

Paskeviç İrəvana gedib iri topları Sərdarabad üzərinə çəkdi. Haman il sentyabrda qalanı topa tutdu, tezliklə qalanı öz ixtiyarına gətirdi.

Hədsiz-hesabsız azuqə, ehtiyat və başqa sursatları əlinə keçirdi. Oradan haman il oktyabrın onunda İrəvan qalası üzərinə yürüş etdi.

Neçə gün bu qayda ilə topları güllə ilə doldurub, şəhərin şimal tərəfindəki divarını alt-üst etdi. Şəhər əhli nə qədər səy, nə qədər hümmət etdisə də fayda vermədi. Nəhayət, ruslar şəhəri güc ilə tutdular. Həsən xan və başqa əmirləri əsir və həbs etdilər.

Oranın işini qaydaya salandan sonra müharibə və vuruşma məqsədilə Xoy tərəfə, Abbas Mirzənin üzərinə hücum etmək qərarına gəldi.

## KNYAZ ERİSTOVUN TƏBRİZ ÜZƏRİNƏ GETMƏSİ

Abbas Mirzə Təbrizlə Xoy arasındakı Evoğluda olduğu zaman sərdarın əmrilə knyaz Eristovun Abbasabad həvalisindən keçib Mərənd yolu ilə Təbrizə gedəcəyini eşitdi.

Belə deyilirdi ki, knyaz Təbrizə getməzdən əvvəl Mərənd tərəfində Bəhri-Zənd adı ilə məşhur olan bənddə dayanacaqdır. Şahzadə gözətçi sifətilə Mərəndə gəlib gördü ki, knyaz bir neçə gözətçi

qoyub, Təbrizə tərəf getmişdir. Yenə də Evoğluya qayıtdı. Səs düşmüşdü ki, sərdar (Paskeviç) Sərdarabad və İrəvanın işini bitirib Xoya gəlir. Axşamçağı Araz tərəfdən bir toz qalxdı.

Qızılbaş qoşunu qorxuya düşüb, bunu Arazı keçib onların üzərinə hücum edən sərdar qoşunu hesab edərək, yüklərini bağlayıb Xoy şəhərinə tərəf qaçmağa üz qoydular. Ondan sonra məlum oldu ki, tozu çaya su içməyə gələn qoyun sürüsü qoparmışdır. Abbas Mirzə bu işdən çox təəssüf etdi və dedi: "Qoyunun qopardığı tozdan qaçan bir qoşunla rus müharibəsinə getmək ağlasığışmaz bir işdir".

Ş e i r (sətri tərcümə):

Ey ərəb, qorxuram sən Kəbəyə yetişə bilməyəsən.
Bu yol ki, sən gedirsən, bu Türküstan yoludur.

Və bir də dedi: "Mən şahlar arasında ən bədbəxtiyəm, hər bir şahın özünün tayı və babı olmuş, ona ya qalib gəlmiş və ya qaçıb xilas olmuş. Amma mənim düşmənim mənə tay deyildir. Rus kimi sayda güclü bir dövlətdir, mən nə edə bilərəm, nə ona güc gələr, nə də qaçıb qurtara bilərəm".

Odur ki, ruslardan qabaq Təbrizə çatıb onlarla sülh etmək məqsədilə oradan köçüb Təbrizə yola düşdü.

Şahzadə Abbas Mirzə Təbrizin bir milliyinə yetişən kimi xəbər gəldi ki, knyaz Eristov sərdar Paskeviçin əmrinə görə mərəndli Nəzərəli xanın oğlanlarının bələdçiliyi ilə Təbrizə daxil olmuşdur.

Bu məsələnin şərhi belədir:

Knyaz Eristov sərdar Paskeviçin əmri ilə qoşun götürüb, Arazdan keçərək Təbrizə getməli olur. Öz ixtiyarında olan qoşunu Arazdan keçirib Mərəndə gəlir. Mərəndli Nəzərəli xanın oğlanları Abbas Mirzə onların atalarını boğduqdan sonra ondan uzaqlaşmışdılar. Onlar həmişə knyazın yanına gəlib ona öz itaət, qulluq və sədaqətini bildirmək üçün fürsət axtarırdılar. Vaxtdan istifadə edən knyaz onları ümid elədi ki, bir neçə gündən sonra Təbrizə gedəcəklər. Nəzərəli xanın oğlanlarının bələdçiliyi ilə on dəstə Mərəndi keçib Təbrizə getdi. Rus qoşunu Təbriz həvalisinə yetişən kimi, Təbriz əmirləri darvazaları açıb əyan-əşrəflə bəylərbəyi Fətəli xan və müctəhid Mir

Fəttah darvazaların açarını götürüb itaət simvolu olan duz-çörəklə knyazı qarşılamaq üçün şəhərin kənarına gəldilər. Knyazın qarşısına çıxmazdan əvvəl darvazalardan top atdılar. Knyaz davanın başlandığını zənn etdi. Sonra bunun salam atəşi olduğunu başa saldılar. Hamı knyazın hüzuruna gəlib onu ehtiram və izzətlə şəhərə apardılar. Abbas Mirzə ürəksıxıcı hadisəni eşitdikdən sonra o gecə qızılbaş əmirləri və xanları ilə iclas və məsləhət etdi: "Bundan sonra gedib atama və qardaşıma dəxil düşmək, onların vilayətlərinə göz dikmək mənə ölümdən betərdir. Rus imperatoruna boyun əymək daha yaxşıdır, o, böyük və rəhmli padşahdır. Onun ixtiyarında mənim kimi şahlar və şahzadələr çoxdur, əlbəttə, məni də bir oğul, bir general kimi hesab edər, bir parça çörək verər ki, asudəliklə öz həyatımı keçirim".

Beş yüz nəfər xan və xanzadəni götürüb rus imperatorunun yanına getməyi məsləhət gördü. Bu məsləhəti və öz fikrini haman gecə öz xəzinədarı Biçin xanla qoşunları ilə Mərənddə dayanan Paskeviçə məlum etdi. Sərdar cavabında yazdı: "Mən bir neçə günə Təbrizə daxil olana kimi bu məsələ qalsın. Təbrizdə sizinlə görüşüb işi həll edərəm". Abbas Mirzəyə bu bərk toxundu və bundan xəcalət çəkdi. Özünə tabe olan qoşunu və adamların bir hissəsini dağıtdı. Bir az qoşun saxlayıb Səlmas yolu ilə Marağa yaxınlığındakı Dehqarqana gəldi. Paskeviç Təbrizə daxil oldu, şəhərin işlərini nizama salmağa başladı, hakimlərdən hər kəsi öz vəziyyəti və bacarığına görə rütbəyə çatacağını ümidvar etdi. Bir neçə generalları yaxın şəhərləri tutmağa göndərdi. General-mayor Laptev Urmiyanı zəbt etdi. General-mayor Pankratyev Marağanı aldı. General-adyutant Suxomilin Ərdəbili tutdu. Bundan sonra Abbas Mirzə ilə əlaqə başladı.

Paskeviç Abbas Mirzə ilə Marağanın Dehqarqanında görüşdü. Cənab sərdar ona hörmət və izzət göstərdi. Bir an belə ondan heç bir hörməti əsirgəmədi. Onlar bir müddət söhbət etdilər, aralarında sülh və dostluq yarandı, təminat və xəsarət barəsində danışıldı. Əvvəlcə, Fətəli şah razı olmadı, vaxtı uzatmaq istədi. Bir neçə müddətdən sonra sərdar Təbrizə gəldi. Abbas Mirzə də öz məmləkətinə getdi. Əmirlər arasında dostluq və birlik möhkəm oldu. Sərdar yaxşı bilirdi ki, bu fəsadları, işlərin çətinliyini, münaqişələri sülh yolu ilə imperatordan başqa heç kəs həll edə bilməz. Buna görə ikinci dəfə vuruşa

başlamaq fikrinə düşdü. Bütün ətraf qoşunları toplayıb İraq və Tehran səfərinə hazır olmaq əmrini verdi. Belə səs yaydı: “Mən Tehrana gedib paytaxtı zəbt edəcəyəm”.

Bu əsnada Abbas Mirzə bu əhvalatı öz atası Fətəli şah Qacara xəbər verdi: “Budur sərdar Paskeviç nagəhani bəla kimi üzərimizə gəlir”. Bundan sonra Fətəli şah sülhə razı olmağa məcbur oldu. Türkmənçay adlanan yerdə ikinci dəfə müzakirə başlandı. Hər iki tərəf sülh müqaviləsini bağlayıb dostluğun əsasını qoydular, iki tərəf arasında müqavilələr yazılıb, möhürlənib bağlandı. Araz çayını iki dövlətin sərhədi təyin etdilər. Bundan başqa Qızılbaş dövləti yeddi kürur - beş yüz min babaxanı tüməni verməli oldu. O zaman hər tümən dörd manatdan bir qədər az idi. Rusiya hesabı ilə on üç milyon manat eləyirdi. Bu pulları təzminat hesabına verməyə razı oldular. Bir neçə şərt və əhdnamələrlə sülh bağladılar. Bütün təzminatı verənəcən Xoy vilayətini girov olaraq tutdular.

Barışıq 1244 (1828)-cü il fevral ayında bağlandı. Təzminatın qalan hissəsini verəndən sonra Xoy da İran dövlətinə təslim olundu. Cənab general irəvanlı sərdar qraf Paskeviç qoşunu götürüb Tiflisə yollandı. Mirzə Əbülqasim Qaimməqam - Abbas Mirzənin vəziri bu barədə bir neçə misra demişdir. Yaxşı olar ki, burada ondan bir neçə beyt qeyd edək:

Ş e ir {sətri tərcümə):

Bu dünya gah insanı əzizlər, gah zəlil edər,
Bu oyunbaz dünyanın belə çox oyunu vardır.
O gah özünü kafirlər kimi islamla töhmətləndirər.
Gah rahban və keşişlər kimi kafirliyə meyl edər,
Gah Xorasandan Tiflisə yalançı qoşun çəkər.
Gah Peterburqdan Təbrizə amansız ləşkər gətirər...

**MİR MEHDİ XƏZANİ**

# KİTABİ-TARİXİ QARABAĞ

# MİR MEHDİ XƏZANİ VƏ ONUN "KİTABİ-TARİXİ-QARABAĞ" ƏSƏRİ

Mirzə Adıgözəl bəydən sonra Qarabağ tarixinə dair Azərbaycan dilində əsər yazmış ikinci müəllif Mir Mehdi Xəzanidir.

Mir Mehdi Mir Haşım bəy oğlu Qarabaği təqribən 1819-cu ildə Zəngəzur qəzasının Bərgüşad mahalına daxil olan Məmirli kəndində anadan olmuşdur.

Hələ kiçik yaşlarından atasız qaldığına, ailə vəziyyətinin ağırlığına baxmayaraq, mükəmməl təhsil almış, ərəb, fars dillərini öyrənmiş, dövrünün bir sıra elmlərinə dərindən yiyələnmişdir. "Xəzani" təxəllüsü ilə şeirlər yazmışdır. Bu şeirlər ilk dəfə olaraq bu yaxınlarda çap edilmişdir[1]. Mir Mehdi Xəzaninin həyat və yaradıcılığını tədqiq edən N.Quliyev öz araşdırmalarında onun 1830-cu ildə Qarabağa Şıxımlı kəndinə, 1838-ci ildə Gencəyə köçməsi, orada məktəbdarlıqla məşğul olması, yenidən Şıxımlıya geri qayıtması və 1859-cu ildə Qarabağa Tuğ kəndinə köçməsi haqqında məlumat verir[2].

Öz ana dilini dərindən sevən Mir Mehdi Xəzani müsəlman dini ehkamına dair uşaqlar üçün Azərbaycan dilində mənzum bir əsər yazıb 1884-cü ildə çap etdirmişdir[3]. O təxminən 1894-cü ildə vəfat etmişdir.

Mir Mehdi Xəzaninin yaradıcılığında ən əsas yeri onun "Kitabi-tarixi-Qarabağ" tutur. Müəllif özünün müqəddimədə qeyd etdiyinə görə əsəri Mirzə Adıgözəl bəyin, Mirzə Camal Cavanşirin "Qarabağ tarix"lərindən əlavə "təvarixi-qədimlər"dən geniş istifadə edərək Mirzə Camalın nəvəsi Məhəmmədbəy Cavanşirin xahişi ilə "xalis türki" (Azərbaycan-A.F.) dilində yazmışdır. Əsər müqəddimə, 24 fəsil və xatimədən (nəticə) ibarətdir[4].

Azərbaycan SSR EA Əlyazmaları İnstitutunda "Kitabi-tarixi-Qarabağ"ın beş əlyazma nüsxəsi saxlanılır.

Keyfiyyət etibarı ilə başqa nüsxələrdən fərqlənən B-518 şifrəli əlyazmanı transliterasiya üçün etibarlı saydığımızdan bu əlyazmanı çapa hazırlamağı lazım bildik. Fikrimizcə; bu nüsxədə müəllif tərəfindən düzəlişlər aparılmış və redaktə olunmuşdur. Əlyazma XIX əsrin ikinci yarısında naməlum katib tərəfindən Platunovun 7 №-li fabrikində hazırlanmış kağıza nəstəliq xətti ilə köçürülmüş, 105 vərəqdən ibarətdir.

"Kitabi-tarixi-Qarabağ"ın B-2044 şifrə altında saxlanılan əlyazma nüsxəsi 1298/1880-ci ildə naməlum katib tərəfindən nəstəliqtəlin xətti ilə köçürülmüşdür. Əsər 147 vərəqədə yerləşdirilmişdir.

Kitabın üçüncü - B-3158 şifrəli əlyazma nüsxəsi Həsənəli Qaradaği tərəfinden 1298/1880-ci ilin avqust ayında Şuşada üzü köçürülmüşdür. Bu nüsxədə əsərin adı səhv olaraq "Asar ul-Camal" ("Camalın əsəri") kimi qələmə alınmışdır.

Yuxarıda qeyd etdiyimiz bu üç nüsxə dil və üslubuna görə bir-birindən fərqlənməyən nüsxələrdir. Yerdə qalan "Kitabi-tarixi-Qarabağ"ın iki nüsxəsi isə yuxarıdakı üç nüsxədən bir qədər dil və üslub cəhətdən fərqlənirlər. Bunlar B-1917 və M-195 (I) şifrə altında saxlanılan əlyazma nüsxələridir. M-195 (I) nüsxəsi şikəstə-nəstəliq xətti ilə 1 məhərrəm 1294/16 yanvar 1877-ci ildə Hacı oğlu Çələbi tərəfindən köçürülmüşdür. B-1917 şifrəli nüsxə isə naməlum katib tərəfindən 1322/1906-cı ildə nəstəliq xətti ilə köçürülmüş və digər nüsxələrlə tutuşdurulmuşdur.

Mir Mehdi Xəzaninin "Kitabi-tarixi-Qarabağ" əsəri digər "Qarabağnamə"lər içərisində özünəməxsus yer tutduğuna baxmayaraq, ilk dəfədir ki, çap olunur. Əsərin dili və üslubu olduğu kimi saxlanılmışdır.

---

[1]Mir Mehdi Xəzani. Əsərləri (tərtib edənlər N.Quliyev, R.Kərimov), Bakı, 1989.

2Yenə orada, səh.5; N.Quliyev. Xəzani, "Elm və həyat" jurnalı, №2, 1977.

[3]Əli Hüseynzadə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı, Bakı, 1967, səh.114.

[4]Bizim istifadə etdiyimiz B-518 şifrəli əlyazmasında 25 fəsil var.

## BİSMİLLAH ƏR-RƏHMAN ƏR-RƏHİM

Hemdü sənayi-bihədd və ədəd ol maliki-külli-məmalik və xaliqi-külli-xəlayiqi-xüdavənde şayistə və layiqdir ki, taci-dövlət və şərafəti və külahi-izzət və səadəti hər kimin başına layiq bilsə qoyar və hər kimsədən nəz edib soyar ki, filhəqiqə dövlət və bəxtiyarlıq və sultan və sərdarlıq və hər növ sahibi-ixtiyarlıq məhz onun kərəmi-əmim və lütfi-qədimindər ki, xaliqi aləm və aləmiyan və saneyi-zəminü asiman və müğəllibi-övzai-zaman və xəbər-dari-cəmii-aşikarü nəhandır cəllət əzəmətəhü ve əmmət nemetehu. Və bedə çün sahibani-əql və bəsirətə və hüşməndani-əhli-fərasətə bu əmr vazeh və məlumdur ki, keçən güzarişat və vəqayeyi-qədim əhval və təvarixi bilib və xəbərdar olmaq və hər vilayətin keyfıyyət və övzaina mülahizə qılmaq insan üçün baisi-ibrət və bəsirət və əz cümlə səyahət və mərifi və ziyadəti fəzl və mənfəətdir[1]*.

Bəsirəti-əhli-ibrət sanma hər cahildən əxz eylər,
Süluki-əhli-təriqi mürşidi-kamildən əxz eylər.
Seyahəti-bəhrü bərr seyri deyil ərbabi-ürfanə,
Ki, talibi-rəsmi-hikmət arifı-aqildən əxz eylər.

Bu mənalara görə bəzi məxadimi-cani və əxlan-ruhani, o cümlədən sər-dəftəri-ərbabi-məani və mehri-sipehri-izzət və rüfət və nüktədani-alicahi-nicabəti-iktibah ki, səramədi-ərbabi-bəsirət və növnəhali-riyazi-nəcabət idi, səvabiqi-irtibat və təzayidi-iltifatları səbəbinə bu mühibbi-xeyirxah və raciyi-iləllah Axund Seyid Mir Mehdi ibn mərhum Mirhaşım bəy ibn Mirzə Məhəm-mədbağır-əl-Musəvi-ər-Rəzəvi, vəziri-vilayəti-sülseyi-Məşhədül-müqəddəssiyül-əsl və Qarabağiül-məskən, mütəxəllis be-Xəzanidən xahişmənd oldular

---

*
[1] Bütün məmləkətlərin maliki və bütün xilqətlərin xaliqi olan Tanrıya həmd və duamız layiqdir. Hər kimin başına layiq bilsə dövlət tacı, izzət, səadət və şərafət papağı qoyar. Həqiqətdə dövlət və bəxtiyarlıq və sultan və sərdarlıq, hər növ sahibi-ixtiyarlıq məhz onun böyük kərəmi və qədim lütfundədir ki, xaliqi-aləm və aləmlər və yeri-göyü yaradan, zamamn vəziyyətini dəyişən, bütün aşkar və gizli şeylərdən xəbərdar olan odur. Onun əzəməti daha cah-calallı və nemətləri daha bol olsun. Və sonra çün əql və bəsirət sahibləri, fərasət huşməndləri üçün bu məsələ aydın və məlumdur ki, keçmiş hadisələr və əhvalatlar, qədim əhval və tarixləri bilib xəbərdar olmaq və hər bir vilayətin keyfıyyət və vəziyyətini mülahizə etmək insan üçün baisi-ibrət və bəsirət, həm-çinin səyahət və mərifət, fəzl və mənfəəti artırar.

ki, bir kitabi-məcmueyi-müxtəsər tərtib və təsnif edib və vazeh türki lisanına tərcümə qılıb yazam ki, Qarabağ vilayətinin qədim və cədid övza və keyfiyyətləri və xəvanini-sabiqeyn-mərhumin Pənah xan və İbrahim xan və Mehdiqulu xanın ənsab və əhval və bəzi vəqaye və hekayətləri və Rusiya dövləti ilə İran dövlətinin təlaqiyi-əvaillərdə vaqe olan pareyi-cəng və ədavətləri onda cəm və mündərəc ola ki, həm mütaliə edənlər əhvali-vilayətə müttələ olub bəsirət qıla və həm bu duaguyi-müxlisdən mütəzzəkkir xatir olunmaq üçün yadigar qala. Əgərçi mən özümdə o ləyaqəti görməz idim və bu cür hadisələri yazıb qələmə almağı ömrünü sərf edib kağız üzərinə qeyd etməz idim. Bununla belə zəbani-türki, xüsusən istilahati-əhaliyi-Qarabağ tamam adi, bərbəzəksiz və çox sadə olduğu səbəbə heç cür yazı ki, mərifət sahiblərinə təqdim etməyə layiq ola əmələ gəlməz idi və əgər sözlər dəyişilib qanun-qayda çərçivəsinə sığışsaydı və başqa ifadələrlə yazılsaydı, təmiz türk dilində olmazdı. Lakin şul məxdumi-əzizin xatiri-şərifləri ziyadə əziz olmaq üçün əmrindən təcavüz etmək əmri-müşkül olurdu və bu mətalib tələbkarı olan bu nüsxə təlif və tərğimini həmin bu türki istilahati-Qarabaği ilə təmenna qılardı. Fehəza təhriri mavəcə əhvalı lazım bir zəmmə bilib tərğiminə şüur etdim. Ümid ki, mütaliə edənlər müayibi üçün bəndəni müatib etməyib məsadiqinə görə həqiri məfuz və məzur buyuracaqlar, minallah tovfıq. Bu kitabça bir müqəddimə və iyirmi dörd fəsil və bir xatimə ilə itmamə yetişdi.

Ya rəbb, nə olur qəbuli-dərgah ola bu,
Hər məcməi-xassü amə həmrah ola bu.
Lütfün bu səvadə bir şərafət verə kim,
Ərbabi-vəfa görəndə dilxah ola bu.

## AMMA MÜQƏDDİMƏ. BU HEKAYƏTLƏRİN ƏSİL ƏVVƏL RAQİM VƏ RAVİLƏRİN BƏYAN EDƏR

Çün mərhum Mirzə Camal qalabəyi Məhəmməd xan bəy oğlu Cavanşir Dizaği[1] əlli il qədri mərhumeyi-İbrahim xan və Mehdiqulu xan xidmətlərində mirzəlik edib və Qarabağ vilayətində dəxi vəzarət əmrində olub və xanların hökumət əyyamı münqəzi olandan sonra müddəti-mütəmadi yenə Rusiya dövlətində xidmətkar və kargüzar olub qocalmışdı[2] və özü dəxi ülumi-ərəbiyyə və farsiyyə və türkiyyədən xəbərdar və təvarix kitablarında və müsini və kardan kəslərdən təfəhhüs qılmaqda və hər gunə işlərdə kamil və huşyar idi və Qarabağın cəmi əhvalatına və hər növ nağıl və hekayətinə dürüst müttələ və xəbərdar idi. 1847 tarixi-məsihiyyədə ondan sərdari-sabiqi-məmaliki-səneyi-Qafqaziyyə general-adyunfanter sahibi-ənvayi-həmayilat knyaz qraf Mixail Semyonoviç Voronsov əhvalati-xəvanini-sabiqəni xahiş buyurmuşdu. Mirzə Camal dəxi onun fərmayişinə görə əhvalati-Qarabağı və parəyi-vəqayei-xəvanini-mərhumani-mütəfərri-qədən müfəssəl edib ona mərğum və mərsul qılmışdı. Onun köhnə və faris nüsxəcatı mütəfərriqə mənim yanımda hazır idi. Həmçinin kapitan Mirzə Adıgözəl Göranlı Haqverdi bəy oğlu, Qazaxi-ül-əsl dəxi özü bir zirək və kamil adam idi ki, o da mərhum Mehdiqulu xanın hökuməti-əyyamında onun hüzurunda hörmət və ixtiyar sahibi olmuşdu və ondan sonra sərhədlərdə nayiblik edib və sabiq komendantlar və naçalniklər yanında kargüzar olmuşdu və özü dəxi erməni və rus və gürcü dillərin və ərəbi və farsi istilahatın yaxşı bilirdi[3]. Haman Mirzə Adıgözəl dəxi, Rusiya hakimlərinin

---

[1]Azərbaycan tarixçisi, "Qarabağ tarixi" müəllifi Mirzə Camal Cavanşir (1773-1853) nəzərdə tutulmuşdur.

[2]Mirzə Camal 1840-cı ildə qocalığı ilə əlaqədar olaraq istefaya çıxmışdır.

[3]Söhbət ilk dəfə "Qarabağnamə" yazmış görkəmli Azərbaycan tarixçisi Mirzə Adıgözəl bəydən (1780-1848) gedir.

bəziləri ondan xahiş etməyinə görə, o da yenə bir para güzarişaş və vəqayei ki, məzkur xanların əsrlərində Qarabağda və Gəncə və Tiflis və Şirvanatda vaqe olmuşdu, bir kitabça tərtib edib yazmışdı. Onun həm surəti yanımda var idi və bunlardan əlavə təvarixi-qədimlər həm mövcud idi. Bu kitabı onlardan məxuz və mərqum edib tərcümə və təlif etdim. Ümid ki, xilafı olmaya. İnşallah təala.

## ƏVVƏLİNCİ FƏSİL

## QARABAĞ VİLAYƏTİNİN ƏSİL ABADLIĞINI VƏ SINUR-SƏRHƏDİNİ VƏ ONDA OLAN QƏDİM ŞƏHƏRLƏR VƏ NƏFLİ KÖHNƏ ARX VƏ NƏHİRLƏRİ BƏYAN EDƏR

O ki qədim təvarixə görə Qarabağ vilayətinin sınur və sərhədi budur: Cənub və qiblə tərəfi Araz çayıdır ki, Xudafərin körpüsündən gedir ta Sınıq körpüyə ki, Dəmirçi-Həsənli və Qazax əhlinin içində vaqedir ki, əmnayi-dövləti-Rusiya ona Krasmy most adı qoyublar, yəni Qızıl körpü derlər. Şimal tərəfi Kür çayıdır və məşriq tərəfi Cavad qəryəsidir ki, orada Araz ilə Kür suyu bir-birinə mülhəq olub gedib dəryayi-Xəzəriyə müttəsil olurlar və məğrib tərəfi böyük dağlardır ki, Qarabağın və Gəncənin və Qazax Şəmsəddin xalqının yaylaqlarıdır. Amma keçən əsrlərdə bəzi zamanlar iğtişaşlıq çox olub, bəzi övqat İran və Rum və Türküstan padşahları bu vilayətlərə təsəllüt tapıblar. Övzai-zəmanə mütəğəyyar olduğu səbəbə bəzi məkanlarda qalalar salıb və qeyri-sayaq abadanlıq edib, əlahəddə sərhədlər qoyublar və qeyri-ismlər ilə mövsüm ediblər.

Övzai-dəhrü kari-cahanü dövrü-ruzigar,
Daim təğyir ilə təbdil qılıb şüar.

Bundan qiyas eylə ki, gör gahi yay olur,
Gahi xəzanü, gahi zimistanü, gahi bahar.

Gah səfavü eyşü təravətdə gülü çəmən,
Məcmu səbzü xürrəm olur bağu laləzar.

Gah fəsürdəxatir üşşaq tək zəmin,
Fəsli-xərif cümlə nəhifü fükarü qar.

Güldən gedər o ətrü səfa gördüyün tamam,
Biçarə əndəlib olur bağdan kənar.

Gəh bir zəlili qaldırırbən dəhr edər əziz,
Eylər cəhanə xosrovi-sultani-tafdar.

Gəh bir əzizi sərvərü sultanü xan ikən, -
Eylər bu ruzigari-cahanda zəlilü xar.

Ari Xəzani dəhrdə bu rəsmdir qədim,
Əlbəttə bu fənayə könül vermə zinhar.

Şimdi Qarabağda sərhəd budur: Cənubiyyən rudi-Arazdır, Xudafərin körpüsünün ta Cavad, Əlvənd və Zərdab kəndlərinin müqabilinə (kimi). Şərqiyyən Kür suyudur. Qərbiyyən kühüstanatü-əzimi-Qarabağdır ki, Köşbək və Salvartı və Ərikli dağlarıdır. Şimaliki, Gəncə ilə Qarabağın sərhədidir, Göran çayıdır. Bu Qarabağ vilayəti Aran məmləkəti cümləsindədir. Ol zaman ki, Nuh peyğəmbər əleyhissəlam əsrində tufan oldu, tufan keçəndən bir müddəti-mütəmadi keçəndən sonra Nuh peyğəmbərin övlad və əhfatından bir kimsə Aran adlı gəlib bu vilayətlərdə malik və hökmran olub, bu məkanları abad edibdir və Kür suyu ilə Araz çayının arasında vaqe olan şəhərlərə və vilayətlərə ki, ibarət ola Tiflis və İrəvan və Naxçıvan və Gəncə ki, imdi Yelizavetpol ad qoyulubdur və Qarabağ vilayətində vaqe olan Bərdə və Beyləğan şəhərlərinə ki, imdi hər ikisi də xarabalardır, tamam bunlara öz ismini qoyub Aran müsəmma edibdir. Buna görə ki, onun öz adı Aran imiş və dəxi əvvəl şəhər və qala ki, Qarabağda bina olunub Bərdə şəhəridir ki, Tərtər çayının üstə və Kür suyunun üç ağaclığında və qiblə tərəfində vaqedir və ol şəhərin əhli qədim sabiqdə xaçpərəst imişlər. Xulafayi-sabiqi bəni Abbasiyyə ki, şəhri-Bağdadı bina və abad edib və darül xəlafə qılıb əyləşdilər. Həmin əsrdə ki, tarixi-islamiyyə sənə 306 hicridə mütabiqi-sənəyi-məsihiyyə 889 sənədə o şəhərin əhli müsəlman

oldular[1] və ondan sonra Beyləğan şəhəri Qarabağda səmti-Araz da bina olub. Onu da Qubad padşah ki, İran və fars padşahlarının cümləsindəndir o, bina edibdir ki, təxminən min beş yüz il olur və bəlkə daha dəxi ziyad ki, haman Qubad padşah rudi-Arazdan[2] bir əzim arx götürüb səhrayi-vəsiül-fəzayi Beyləğanda şəhər bina eyləyib Köndələn çayı ilə Qarqar çayının arasında yaxşı kəndlər salıb, əmlak və məzrəələr rəiyyətlərə təyin və təqsim etdirib, abadlıq və məmurəlik qaldırıbdır ki, hamı o aralıq bağ, ziraətgah və abadlıq imiş və qədimül-əyyamda o arxın adı Bərlasdır ki, imdi Govur arxı kimi məşhur olubdur.

Dəxi haman şəhər və nəhr və kəndlər abad idilər, tainki islam tarixi 695-ci hicridə Çingiz xanın qoşunu[3] gəlib o şəhəri mühasirə eylədilər və bir neçə aydan sonra oranı təsəllüt tapıb, o şəhəri qətliam buyurub şul arxı və şəhəri viran və xak ilə yeksan etdilər. Əhaliyi-Qarabağ dəxi təmamən mütəfərrin olub dağlara və Şirvanat vilayətlərinə dağıldılar və Çingiz xanın əhvalı budur ki, yazıblar: Çingiz xan ibn Yəsukay Bahadur ibn Bərtan ibn Fil - əvvəl adı Temuçin idi. Səneyi 649-cu tarixdə Zilqədə ayının 26-cı günündə anadan mütəvəllüd olub[4] ta otuz yaşına yetişənədək işi çox tənəzzüldə idi. Elə ki (yaşı) otuzdan təcavüz eylədi, günbəgün əhvalı və bəxti-dövləti və calalı qəvi olub ismi Çingiz xanı ona itlaq olundu. Əzəmət və şövkəti qayətdə tərəqqi bulub, tamam məmaliki-Quran və Xatay və Xubən və Çin və Maçin və Dəşti-Xəra və Seqestin və Bulqar və Valan və Rusiya, dəxi qeyri müsəxxər edib sahib oldu. Dəxi şul zamanda İran padşahı Sultan Məhəmməd Xarəzmşah idi[5]. Müddətlər Çingiz xan ilə mabeynlərində ülfət və saziş və dostluq var idi, tainki

---

[1]Miladi tarixi düzgün göstərilməmişdir. Hicri 306-cı il - 14/VI - 918-3/VI - 919 ili əhatə edir. Müəllif burada Mirzə Camalın səhvini təkrar etmişdir. Bax: Mirzə Camal.Qarabağ tarixi, Bakı, 1959, səh.12.

[2]Mirzə Camal “Araz” əvəzinə “Kür” yazmışdır (Qarabağ tarixi, səh.12).

[3]Xəzani Çingiz xanın qoşunlarını Azərbaycana gəlməsini səhv olaraq 695 hicri göstərir, bu da miladi tarixi ilə 1295/1296-cı illəri əhatə edir. Məlumdur ki, monqol dəstələri Beyləğanı 618-1221-ci ildə qarət edib dağıtmışlar.

[4]Müellif burada da tarixi düzgün göstərmir. Çingiz xan 649/1251-ci ildə yox, təqribən 550/1155-ci ildə anadan olmuşdur.

[5]Sultan Məhəmməd Xarəzmşah İranın yox, Xarəzm dövlətinin padşahı idi. İranın ancaq bir hissəsi 1194-cü ildə Xarəzmşahlar tərəfindən zəbt edilmişdir.

Xorasan hakimi Sultan Məhəmməd Xarəzmşahın ittilai və izni ilə beş yüz nəfər tüccadi Türküstani Çingiz xanın tabelərindən olalar, Xorasan diyarında qətlə yetirib çox əmval və əcnas və nəfanelərini qarət və təsərrüf etdilər. Bu səbəbə Çingiz xan əzim qeyznak olub, bihədd olan qoşun çəkib İran məmalikinə mütəvəcceh oldu. Dəxi hər tərəfdən əsakiri-naməhsur İran hüduduna məmur və müqərrər özü dəxi Muğan və Mazandaran səmtindən hərəkət eləyib əsgəri-məmaliki-İrana qalib oldu və qətli-am eylədi. Yazıblar ki, məcmui İranı müsəxxər qılıb, bir növ qətlü-am eylədi ki, heç bir təvarixdə belə iş görülməmişdi. Həmin ildə adı çəkilən Beyləğan şəhərini dəxi şöylə qətlü-am və şəhər və arxını viran və yer ilə yeksan etdi. 711-ci ildə yenə Turana müraciət qılıb müddəti-iyirmi beş il tamam məmalikə padşahlıq edib axır ki, 724-cü tarixdə Ramazan ayında dari-qüruri-fənanı vida edib vəfat etdi[1].

Beyt:
Bəli, belədir rəsmü-ayini-dəhr
Nə lütfu olur paydar, və nə qəhr.

Əlqissə, çox müddətlər Qarabağın Beyləğan şəhəri və o nəhri-əzim xaraba qaldı. Tainki Teymur padşahi-Qurqani ki, məmaliki-Türküstandan Rum məmləkətinə ləşkər çəkib və Rum məmalikinin sultanı İldırım Bəyazid ilə cəng və davalar eylədi və sultani-Ruma qalib olub[2] oradan müraciət edən zamanda bu sərzəmin cənibindən qayıdıb gəlib bu vilayətlərə. Güzarı Muğan və Beyləğan şəhərinə düşüb bir neçə müddət Arazbar səmtində əylənib təfərrür və tamaşa edərkən o məkan qayətdə xoşuna gəlib, dübarə onun abad olmağına əmr eylədi və dəxi ətraf və cəvanibdən rüaya və xalqları cəm etdirib, yenə Beyləğan şəhərini abad qılıb və haman arxı təmir edib suyun o şəhərə cari eylədi və ondan bir müddət abad olub. Pəs Səfəviyyə padşahları əsrlərinə yavuq, İran əsgərləri Rum və Gürcüstan

---

[1] Bu tarixlər də səhvdir. Çingiz xan 724/1328-1329-cu ildə deyil, 624/1227-ci ildə vəfat etmişdir. Görünür bu səhvlər müəllifin yox, əsərin üzü köçürülərkən buraxılmışdır.

[2] Teymur 1402-ci ilin 28 iyulunda Ankara yanındakı döyüşdə İldırım Bayazidin (1389-1402) osmanlı qoşunlarını məğlubiyyətə uğratdı.

və Şirvanat tərəfinə gəlib-getməkdən və tərəddüd etməkdən yenə oralar xarab olub, sakinləri dağılıb pərakəndə oldular; ondan ta indiyədək o şəhər və nəhr bərbad və viranə olub, hənuz qalıbdır. Fil həqiqətə o arx çox böyük və əzim arxdır və çox mənfəətli və mədaxilli arxdır. Əgər təmir oluna, onun altında hər qəsmi ziraat və məhsulat əmələ gələndir. Bağ və əbrişəm, çəltik, taxıl, pambıq, bostan, maş, küncüt və hər növ məhsul yaxşı əmələ gəlir. Əgər bir çetvert buğda ziraət olunsa otuz çetvert[1], bəlkə ziyadə əmələ gəlir və cəmin-əqsami-məhsulat və hübubat orada olandır. Xüsusən darı və çəltik ki, təxminən əgər bir çetvert əksələr olur ki, bəlkə əlli çetvert ya ziyadə əmələ gələ və ziraət olunmağı dəxi asandır ki, iki öküz ilə yaxşı əkmək olur, əgər bu arx yaxşı təmir olub yaxşı nizam və zabitə ilə ola, əlbəttə ki, əqəllən altı, yeddi min ev dəxi ziyadə orada rifahallıq ilə və fəraqəti-tamam ilə güzəran və təiş edə bilərlər ki, kəndlər salıb və bağ və ziraət qaytarıb ənva və əksam mədaxillər hasil edib nəfbərdar olarlar və vüsət ilə güzəran qılalar. Dəxi bu Govur arxı məşhur və məzkur olandan əlavə yenə neçə arxlar vardır ki, Arazdan Beyləğan şəhərinə və səhrasına qədim zamanlarda çıxarıblar ki, hər bir arxın üstündə yaxşı böyük kəndlər abad olub mərğub güzəran edə bilərlər ki, hər birisi yüz, iki yüz ev ola. Qəllədən və çəltikdən və bağdan və ipəkdən və pambıqdan və sair ənva mədaxilatdan gəlirlər hasil edib, çox yaxşı kamil vüsət ilə məişət və güzəran edərlər. Əgərçi şəhri-Beyləğan təxminən dörd-beş yüz ildən ziyadə olur ki, xarab olubdur, amma o qeyri kiçik arxlardan mərğumeyi-Pənah xanın və İbrahim xanın əvail hökumətlərində abad olanı var idi ki, xanlar həm nəfbərdar olardılar. Haman kiçik arxların adları bu təfsil ilədir: Kürək arxı, Meymənə arxı, Luvar arxı, Gəmiçi arxı, Sarı arx, Ayaz arxı, Xan arxı, Taşqay arxı.

---

[1] Bir çetvert 250 puda bərabərdir. Bu hissəni Xəzani Mirzə Camaldan istifadə edərək yazmışdır. Müqayisə üçün bax: Mirzə Camal Qarabaği, Qarabağ tarixi, səh.12.

İKİNCİ FƏSİL

## ƏSARİ-SABİQDƏ QARABAĞ VİLAYƏTİNİN ADƏTİN VƏ QAYDALARIN VƏ TƏBƏƏLİYİN BƏYAN EDƏR

Cənnətməkan Səfəviyyə padşahlarının əsrlərində xəvanini-Gəncənin əsilləri Qacariyyədir və məşhur Ziyadoğluna aid edirlər idi. Həmə vəqt onlar şahani-Səfəviyyənin müxlis dövlətxahları və xeyir-xahları və safül-əqidə dərgahları var idilər və daim o dudman rüfət bünyanə xülumi-tam ilə xidmətgüzar və sədaqətşüar olduqları səbəbinə əksəri-övqat onların əhdlərində bəylərbəyi sahibi-kar və sərdari-külli-ixtiyar həm olardılar. Belə ki, Sınıq körpü yuxarı Sürüdaş Gürcüstan ilə və puli-Xudafərin və Araz çayı Azərbaycan[1] ilə onların sərhədləri olub və həmişə Gəncədə sakin və hakim olublar. Və bəzi zaman Azərbaycana dəxi hökumət ediblər. Çün 1148-ci ildə Nadir şah özünün səltənətinə cülus edib məmaliki-İrana padişah oldu[2]. Əvvəl səhrayi-vəsi ül-fəzayi-Muğanda qışlaq və binayi çadır və otaq qoyub tamami-məmləkəti-İranın üməra və üləmasın və əyan və əkabir və ərkani-dövlətin o məkanə cəm edib onlara dedi ki, əyyühənnas Sizlərə vazeh və rövşəndirlər ki, məmaliki-İranı hər tərəfdən əcnəbi və biganələr əl tapıb qarət və viran və tarü mar etmişdilər. Həqq-təala tofiqi ilə təmami-təvayifı biganələrdən xilas etdim və səy ehtimam edib təsərrüfə getdim, şimdi həm həzrəti şah Təhmasibi-Səfəvi hazır və məlum və həm oğlu Abbas Mirzə əgərçi tifli çahar salədir, yenə mövcud və mənzur hansı birisin layiq və məsləhət bilirsiniz təhti-səltənətdə mütəməkkin edin. Mən özüm də sizinlə ittifaqi-kəmər xidmətlərin miyançecanə üstüvar edib, xülusi-təmam ilə xidmətgüzar və cansipar olaq. Pəs əhaliyi İran hamı əyan və əkabir təmamən müttəfiq üllәfz və lisan bu kəlamatı təqrir və bəyan etdilər: "Çün bizim can və malımızı və namus əyalımızı müxaliflər çəngində əsir və dəstgir və əhaliye-zülm əlində müqəyyid və məhbus və biəmir ikən, siz himayət və siyanət buyurub xilas edibsiniz. Gərəkdir ki,

---

[1]Cənubi Azərbaycan nəzərdə tutulur.
[2]Miladi tarixi ilə 1736-cı ildə Muğan qurultayında Nadir özünü İranın şahı elan etdi.

bizim sultanımız və padişahımız yenə sizin vala-cənabınız ola ki, sizin vücudi-məsudinizdən qeyri heç kimsə səltənəti-İranı vərtəq və fətəqi-mümümmati-cahani kəmayanbəqi dolandırmağa şayəstə və sizavar ola bilməz”.

Hərçənd Nadir şah üzv və təhaşa edib, qəbuli-əmri-səltənət eylə-məzdi, amma xəlaiq qəbul etməyib, israr və ilhahı həddən keçirdilər. Axır ki, qəbul edib məzkur sənədə evrəngi-səltənətə cülus edib, məsnədi-şahlıqda mütəməkkin oldu. Pəs şul məclisi-üzəma və məc-məyi-kübərayi-şura Muğanda bu güftəgu və mühavirə və müşavirələr müddəti bir ay və bəlkə ziyadə çəkdi. Haman vaxtlarda Gəncə xanı Ziyadoğluları pünhan və aşkar çox səy və təlaş edirdilər ki, Səfəviyyə nəslindən qeyri heç kəs kimsə əcnəbilərdən İrana şah olmasın və sair əsnafi-biganə balişi-səltənətə söykənməsin. Bunların bu gunə fikir və təlaşın tamam Nadir şaha xəbər aparmışlar. Elə ki Nadir padişah oldu və təxti-səltənətdə qərar qıldı, Ziyadoğlular nəzərdən düşüb, Nadir şahın məğzubi oldular və əz bəs ki, ocaqi-əzim və dudmani-qədim var idilər, o səbəbə görə bunlara qeyri-tənbeh və siyasət rəva görməyib həmin məratib və mənasiblərin və nemət və təvabelərini alıb əfsurdəhal və məqsurulcəlal etdi. Belə ki, Qazax Borçalını ki, ilati-mötəbər idilər, xəvaniləri ilə Gürcüstan valisinə təfviz etdi və Qarabağın ilatın ki, Kəbirli və Cavanşir və Otuziki ola, sürüb Xorasana aparıb Sərəxs torpağında məskun etdi. Xəmsə əraminə mahalların dəxi alıb, mütləqül-inan qılıb buyurdu ki, lazım olan mühümmatlarını vəqti-ləvazimdə özləri əlizəcat ilə məzuri-pişgahi-hüzur etsinlər. Pəs xəvanini-Gəncənin hamı ixtiyarları əllərindən gedib, məslubül-ixtiyar və mütkəsirül-bal oldular. Amma Nadir şah əsrindən irəli Qarabağın tamam ilatı və Xəmsə mahalları və Bərgüşad və Həkəri çayları əgər ki, kiçik xanlar Cavanşir və Otuziki və Bərgüşad ellərinin içində olublar, amma hamıları tamamən Gəncə bəylərbəyisinə tabe olubdurlar. Gah zaman dəxi Azərbaycan sərdarının ziri-hökmündə olublar. Bəd öz an ki, Nadir şah Gəncə və Tiflis və Qarabağ və İrəvan və Naxçıvan və Şirvanatı Rum əhlinin qanunlarını təsəllüblərindən çıxarıb öz təsərrüfünə götürdü. Bir qəlil müddətdə bu vilayətlər Gəncə hakiminə baxdılar. Amma sonra Azərbaycan bəylərbəyisinə tabe oldular. Belə ki, hər mahalların və ellərin içində xanlar və məliklər və mübaşirlər olardılar. Amma

xədamati-divani və fərmayişi-padişahi-sərdari-Azərbaycanın əmri və mərifəti ilə əncamə yetirdilər. Tainki Nadir şahı 1160-cı ildə cəmadül-axır ayının on beşinci gecəsi ki, yekşənbə gecəsi idi[1], Fəthabad mənzilində Məhəmməd bəy Qacar, Qacar İrəvanlı və Musa bəy Gündüzlü, Əfşar Qarimi və Qoca xan Əmirli, Əfşar Urmulu, Nadir şahın qardaşı oğlu Əliqulu xanın işarəsi ilə və Qırqulu Saleh xan Əbivərdinin və Əfşar Məhəmmədqulu xan Keşikçibaşının və hafeyi-keşiklərinin ittifaq və icvaları ilə öz ordusunda sərapərdə içində yatmış yerdə başını kəsib kuyi-baziye-tiflan eylədilər və o baş ki, xaqan və qeysərə sərəfrazlıq edirdi, ayaqlar altında paymali-ətfal etdilər. Pəs ondan sonra vilayətlər məğşuş və pərişan və məmalik xərab və viran olub, zəmanə qeyri nəsəq və siyaqə mübəddəl oldu. Bilmüəllifəhu:

Övzai-dəhrü kari-cahan dövri-ruzigar,
Daim təğyir ilə təbdil qılıb şüar.
Bundan qiyas eylə ki, gör gahi-yay olur
Gah xəzanu, gahi zimistanu, gahi bahar.
Gah səfavu eyşü təravətdədir çəmən,
Məcmu səbzü xürrəm olur dəştü kuhsar.
Gah fəsürdəxatir üşşaq tək zəmin,
Fəsli xərif cümlə nəhifu fükaru qar.
Güldən gedər ətrü səfa gördüyün təmam
Biçarə əndəlib olur bağdan kənar.
Gəh bir zəlili qaldırubən bəhr edər əziz,
Eylər cahanə xosrovi-sultani-tacidar.
Gəh bir əzizi-sərverü sultanu xan inək
Eyler bu ruzigari-cahanda zəlilü xar.
Ari, Xəzani dehrdə bu rəsmdir qədim,
Əlbəttə bu fənayə könül vermə zinhar.

[1] Nadir şah 1160/1747-ci ilin iyun ayının 25-də öldürülmüşdür.

ÜÇÜNCÜ FƏSİL

## PƏNAH XAN MƏRHUMUN ƏSİL VƏ NƏSƏBİNİN VƏ QARABAĞ VİLAYƏTİNDƏ HÖKUMƏT QILMAĞIN VƏ İSTİQLAL BULMAĞIN BƏYAN EDƏR

Mirzə Camal mərhum yazar ki, Pənah xanın əsil-nəsəbi Cavanşir Dizaq elindən və Sarıcalı oymağındandır ki, Sarıcalı həm qədim Bəhmənli elindən bir firqədir ki, əyyami-sabiqdə Türküstan məmləkətindən gəliblər. Amma Mirzə Adıgözəl və başqa adamlar rəvayət edərlər ki, Pənah xan mərhumun əsil-nəsəbi Arqun xan Çingizə yetişir. Guya belə nisbət veriblər ki, dudmani-Çingiziyyənin dövlət və səltənətləri münqəriz olandan sonra o nəsildən birisi fərar edib gəlib əvvəl Gürcüstanın Lori qalasında məxfi və mütəvari olub, sonra xavanini-Gəncənin işləri tərəqqidə olan zamanda gəlib Gəncədə onlara xidmət edərmiş. Sonra ali olan hümməti şöylə xanlara xidmət-güzar olmağı özünə ar bilib, oradan Qarabağa gəlib Cavanşir içində bəxti-cavani-yarıt qılıb, çox dövlət və mal və həşəm üz verib və bir fərzəndi-ərcüməndi və bir mövludi-səadətməndi dəxi təvəllüd edib ki, hüsni-vəcahəti və camali-bilətafəti həddən ziyad imiş. Pəs ol əxtər bürci-nəcabətə və ol mehr-süpehri-şərafətə Əli müsəmma ediblər və çün cəmali-rüxsarı və dürrbar olan məqal və göftarı ata-anasının gah misal olan qülubi-xatirələrini kəhrəba kimi məczubi-məhəbbət etmişdi. Bu səbəb kəsrəti-məhəbbətdən və nəhayəti-mehrü ülfətdən ona Sarıca Əli[1] xitab ediblər və əz bəski dövlət və müknəti və malü qəniməti ziyad olduğu səbəbə yanında naxırçı və ilxıçı və çoban və muzdur və xidmətkar çox olublar. Həmin obanın adı o zamandan Sarıca Əlili qalmışdır və Pənah xan dəxi şul nəsildən əmələ gəlmişdir. Əlqissə, Pənah xanın ata-babası həmişə Cavanşir içində məşhur və məruf və sahibi-üsmü rəsm və nanü sahibi-hörmət və dövlətü ehsan olmuşlar və atasına İbrahim Xəlil ağa derlər imiş ki, çox qövm və qəbilə sahibi və arxa və əqrəbası ziyad olan şəxs imiş ki, vaqiən dövləti bipayan və avazəsi məzkurül-lisan və

---

[1] Mirzə Camala görə o, Sarıcalı Cavanşir adı ilə şöhrət tapmışdır. Bax: Mirzə Camal. Qarabağ tarixi, səh.14.

məşhuri-cahan olmuş. Belə ki, Ağdam qəryəsində bağı və damı və divarı və Arazbarda çarpayının mərabei və əsarı və yaylaqda həm İbrahim Xəlil ağa Qalağı deyilən imarəti və nişaneyi-ali miqdarı vardır. Bir nişanələri dəxi əllərində və bilfel Mehdiqulu xan evində Səfəviyyə padşahlarından fərmanları və rəqəmləri vardır. O cümlədən Şah Abbasi-sani Səfəviyyədən 1083-cü ildə və zilqədə ayında yazılıb[1], İbrahim Sultan Budaq Sultan oğlu Cavanşir adına ki, hakimi-ali-Cavanşir və Otuziki müxatib olub və yeddi yüz otuz nəfər süvari qoşun böyüyü və sərkərdəsi edib və məbləği-doqquz yüz tümən və yeddi min altun təbrizli məvacib müqərrər imiş ki, Pənah xanın cəddi imiş. Bu cür nişanələr, onların rüfət və nəcabətinə dəlili-vazehdir. Pəs o vaxtlarda ki, Nadir şah Əfşar Gəncə və Tiflis və Qarabağ və Şirvanat vilayətlərinə təsəllüq tapdı, qaydası bu idi ki, hər bir el və obanın və kəndin içində ki, bir kimsəni rəşid və kardan və zirək bilsə və eşitsə idi, götürüb öz hüzuruna onu xidmətkar və kargüzar edər idi. Və mənsəb və məvacib və hörmət verər idi. O cümlədən Cavanşir əhlindən qoşun cəm edən vaxtda İbrahim Xəlil ağanın böyük oğlu Fəzləli bəyi ki, asari-nəcabət və cəladət və rəşadət cəbindən zahir və namayan idi, aparıb hüzurunda əvvəl naib edib, sonra eşikağasılıq mənsəbinə münasib görüb öz qapısında saxlayıbdır. Əz qəzayirirdigar Fəzləli bəy bir az zamandan sonra vəfat edib, sonra kiçik qardaşı Pənah xanı ki, ilat arasında Pənahəli bəy Sarıcalı Cavanşir məşhur idi, şah eşidir ki, qardaşı Fəzləli bəydən dəxi rəşadətli və fərasətlidir, götürüb hüzuruna əvvəl böyük qardaşının mənsəbini və məvacibini ona verir. Sonra günbəgün rəşadətinə və hüsnü-xidmətinə görə mənsəb və məvacibini və rütbəsini artırır. Şul vaxtda ki, Nadir şah Gəncə və Tiflis və İrəvan və Naxçıvan və Şirvanat vilayətlərini Osmanlı sultanının qoşunlarının təsəllütlərindən çıxardıb Abdulla paşa Köprülü oğlu vəziri-əzəmi-Rum yüz min qoşun və çox top və tədarükat ilə sultani-Rum tərəfindən məmur olub gəlmişdi ki, Nadir şah ilə cəng edə. Nadir şah Gəncə mühasirəsinə məşğul ikən Abdulla paşanın şul əzim əsagirləri ilə İrəvana gəlməyini eşidib, Gəncə üstə qoşun qoyub; özü əlli min qoşun ilə Abdulla paşaya

---

[1] Burada tarix səhv göstərilmişdir. Hicri 1083 miladi 1672/1673-cü ilə uyğun gəlir. Şah Abbas II isə 1642-1666-cı illərdə Səfəvi dövlətinin başında durmuşdur. 1083/1672-ci ildə Səfəvi dövlətini Süleyman şah idarə edirdi.

müqabil gedib Naxçıvan və İrəvanın Arpa çayında davalan vaqe olub, Rum qoşununu basıb və Abdulla paşa vəziri-əzəmi Rüstəm bəy Kürd Qaraçurlunu öldürüb başını Nadir şah hüzuruna gətirmişdi. Bəd əz Gəncə və Tiflis və Şəki və Şirvan və Naxçıvan və Qarabağ və İrəvan və sair bu vilayətlər tamam Nadir şahın təsərrüfünə yetişib Rumun qoşunların şəhərlərdən və qalalardan mürəxxəs edib, sair əsir və qoşunları Abdulla paşanın nəşi ilə Rum vilayətinə göndərib asayiş hasil etdi. Tamam şul davalarda Pənah xan rəşadətlər göstərib, həmə vəqt səfərdə və həzərdə Nadir şahın hüzurunda doğruluq ilə yaxşı qulluqlar və sədaqətlər edib, bu səbəbə şah hüzurunda sahibi-mənsəb olub, mərcu olan xidmətə sədaqəti-tamamilə qiyam edərdi. Neçə il bu minval ilə olub, günbəgün şahın mərhəməti ona ziyad olub, tay və tuşdan mənsəbi və mərtəbəsi artıq olur. Belə ki, paxıl və həsud kimsələrin adətidir, bir para şərir və bədxah adamlardan şah hüzurunda Pənah xanın qiybətini edib, məxfi və aşikar o qədər yaman sözlər qondarıb danışıblar ki, ta şahın məğazını Pənah xan mərhumdan mütəğəyyir ediblər. Elə ki Pənah xan əhvali-həqiqətdə bu növ görüb, canının qorxusundan dəxi dura bilməyib, o vaxta ki, şah Xorasan vilayətində imiş, fürsət tapıb zeyldə mərhum olan yeddi nəfər əqrəba və əğvam müxlisləri ilə oradan qaçıb, Qarabağ vilayətinə gəlibdir: Pənah xan, oğlu İbrahim xan, Lütfəli bəy Sarıcalı Pənah xanın bacısı oğlu, Seyidəli bəy, Hacı Məhəmməd bəy, Şahverən bəy, Hümmətəli bəy, Küküş bəy oğul-tamami Sarıcalı. Elə ki onun bu növ fərar etməyi şaha məlum olub çaparlar göndərib ki, bəlkə yollarda onu tutub gətirələr. Müyəssər olmayıb, ondan fərmanlar və hökmlər Azərbaycan sərdarına və Gəncə və Tiflis və Şirvan hakimlərinə yazıb ki, Pənah xanı hər yerdə tapalar, tutub şah hüzuruna göndərələr. Haman o vaxtlarda Pənah xanın ev və əyal və əqrəbaları Cavanşir ellərinin içində ki, şahın hökmü ilə Qarabağ vilayətindən köçürüb Xorasan məmləkətinə və Sərəxs torpağına aparmışdılar, orada qalıb və orada əhli-əyal və sair qövm və əqrəbalarını əgərçi şahın əmri ilə incidib və cərimə edib və zəhmətlər veriblər. Nəhayət, bir fayda hasil olmayıb. Pənah xan qaçıb özünü Qarabağ torpağına yetirib haman öz xəvasları və parə əqrəbaları ilə gahi Qarabağın dağlarında və meşələrində quldursayaq dolanıblar və gahi Nuxa vilayətinin Qəbələ mahalında övqat keçiriblər. Əlqissə, bu minval ilə

iki-üç il güzəran ediblər. Tainki 1160-cı ildə[1] Nadir şahı Xorasanda qətlə yetirdilər.

Əhvali hamı bu vilayətlərə məlum oldu. Ondan sonra Pənah xan qorxudan çıxıb Qarabağ ellərinin içində özün zahir edib və yaxşı zirək və rəşid cavanlardan öz başına dəstə cəm edib, dəsti-qarəti-Gəncə və Şəki və Şirvan və Naxçıvan və qeyri vilayətləri aşıb, çalıb və çapıb götürüblər. Pəs öz məxsuslarını və hamı o cavanları ki, yanında var imişlər ev, at, əmlak, libas və yarağ sahibi edib. Bu əsnalarda xəbər yetişib ki, ilati-Cavanşir və qeyrilər ki, şahın hökmü ilə köçürüb Xorasana aparmışdılar, Nadir ki, məqtul olub təmamən xodsər köçüb öz əsil vətənlərinə mütəvəcceh olub gəlirlər. Pəs haman cəmiyyət ki, Pənah xanın yanında var idilər, onları götürüb ta İraq və Azərbaycanın sərhədinədək haman ellərin istiqbal və qənşərlərinə gedib, vəqti ki o ilat və camaatlar və qövm və əqrəbalan onu salamat və şöylə barüfət gördülər və yanında o növ xəvas və nökər və mülazimlər müşahidə qıldılar, hamısı həmdü şükürlər edib xoş-hal və məsrur oldular. Oradan bilittifaq Pənah xan ilə gəlib Qarabağ torpağına daxil oldular və hər kimsə öz əsli olan yerlərində və yurdlarında və məkanlarında fərağət olub əyləndilər. Çün, ilat əhli və Pənah xanın əqarib və əşairləri təmamən bivəz və çapılmış və soyulmuş və qarət olmuş və biqizü təfriqə olmuşdular. Və çox qürbət və zəhmətlər çəkmişdilər. Mərhum Pənah xan onlardan çox kəramət cavanlara at və əmlak verib özü ilə müttəfiq qılıb gedib Şirvan, Şəki, İrəvan, Gəncə və Qaradağ vilayətlərindən çalıb və çapmağa məşğul olub, hamı cavanları vəz və övza və əsbab sahibi edib və sair xalqlara dəxi at və mal və əsbab xələt vermək ilə özünə rəğbət qazandı və bir para bəziləri ki, düşmənçilik və müxalifət başladılar, onları dəxi bozxast və tənbeh və qətlü qarət etmək ilə özünə müti və münqad edib heç kimsənin Cavanşir və Otuziki və sair ilat və dəhat camaatlarından qadir olmadılar ki, Pənah xanın əmrindən və hökmündən və itaətindən təxəllüf və təcavüz edələr. Pəs Pənah xanın avazəsi tədric ilə müttəşir olub hər yerdə hekayəti və hər vilayətdə şöhrəti məzkur oldu. Elə ki Şirvan və Şəki hakimləri bu növ ilə Pənah xanın Qarabağda ümur və istiqlalını eşitdilər. Özlərinə bu əmri zərər və müxəl bilib bir-biri ilə göftü gu və müşavirələr edib, axır

[1] Miladi tarixi ilə 1747-ci ildə

səlah bunu gördülər ki, hər ikisi ittifaq olub qoşun və cəmiyyət tədarük edib, Pənah xanın dəfinə kəməri-hümmət bağladılar. Çün o vaxtlarda Qarabağın xəmsəyi-əraminə mahalları Pənah xana müti olmamışdılar. Cavanşir və Otuziki və pareyi-ilat və dehatdan savayı qalan mahallat və vilayət itaət qılmamışdılar. Pəs səlah belə gördü ki, ilat içində bir münasib məqamda bir qala binası edə ki, hərgah ətraf xanları onunla dava və müdafiə məqamına gəlsələr labüdən ev və əyal və əqrəbalarını orada mühafizət qılsın. Bu xüsusda lazım olan böyüklər və xəvasları ilə tədbir və müşavirə və məsləhət qıhb, onların səlah görməkləri ilə Bayat qalasını ki, imdi Kəbirli mahalındadır, bina qoyub və təcil ilə bir az zamanla hasar çəkib və möhkəm xəndək və bazar və məscid və hamam təmir edib, tamam ev və əhlü əyallarını və qövmü əqrəbalarını və böyük kəslərinin ev və əyallarını və əhli-mahaldan mötəbər kimsələrinin evlərini orada cəm edib və ətrafdan hətta Təbriz və Ərdəbil və Qaradağ əhllərindən əhli-sənət olan xalqlardan həm götürüb orada qəsəbə və şəhər kimi məğam bina eylədi və dəxi xəlayiq ətraf və cəvanibdən Pənah xanın avazeyi-hörmət və məhəbbət və müraatın eşidən kimsələrdən ev və əyal və külfətlərilə gəlib onun yanında orada məskən ixtiyar eylədilər və Bayat qalasının binası 1162 hicridə miladi ilə 1745-ci tarixdə[1] vaqe olub əncam və ixtital buldu. Elə ki Bayat qalası istehkam tapıb Pənah xanın işi binayi-tərəqqi və istehkam hasil etdi günbəgün cəmiyyəti və kisrəti və rüfəti və avazeyi-istiqlal və istiqrar və şöhrəti mütəzayid olub, bu avazə Şəki və Şirvan xanlarına artıq gəran və nagüvar gəlib öz bəski, Pənah xanın özündən və qoşunundan və cəmiyyətindən və adamlarından onlara zərər və nöqsanlar çox yetişmişdi və gələcəkdə dəxi özlərinə müxəll və yaği hesab edib, onun bu cür iddia və istiqlalını və təzayid əhvalını və rövnəqi-karını xəlafi-məsləhət və özləri üçün nöqsan və zərəri-dövlət və rəfahət bilirdilər. Bu səbəbə Şirvanın və Şəkinin xanları hər ikisi ittifaq edib öz təvabelərindən çox qoşun fərahəm edib cəmiyyəti-tamam ilə Pənah xanın dəfinə və Bayat qalasının üstə gəldilər və qalanın ətrafını kəsib mühasirə etməyə məşğul oldular və Pənah xan dəxi yaxşı, rəşid və nami olan atlılardan, öz qövmlərindən və karaməd mülazim və təvabelərindən götürüb hər iki-üç gündə bir dəfə çıxıb qaladan kənara, bir meydani-vəsi ki,

---

1 Hicri 1162-ci il, miladi 1748-ci ilə bərabərdir.

düşmən qoşunu ilə qala arasında vaqe idi, orada tərhi-cəng salıb və dava edib, mərdanəliklər edərdi ki, tamam Şirvan və Şəki qoşunları xaif və hərasan olardılar. Bu minval ilə bir ay və ay yarım müddət mühasirə və dava olub xəvanin Şəki və Şirvan heç bir zəfər Pənah xana və təvabeinə və cəmiyyətinə tapa bilmədilər və dəxi hər gün və gecə qarət və zərəri-külli at-ulağlarına və qoşunlarına yetişib, axır gördülər ki, Pənah xana bir qələbə başarmayacaqlar, gəlməklərinə peşman və pərişan olub, qayət bidamaq və pərişanlıq ilə oradan köçüb geri qayıtdılar və çün xayib və xasir müavadət edirdilər. Yolda Hacı Çələbi ki, Şəki hakimi idi, bu sözü dedi: "Həqiqət Pənah xan, xan idi. Amma biz ki, gəlib belə qayıtdıq, onu şah qayırıb getdik" və bir də dedi ki, "Pənah xan şimdiyədək bir sikkəsiz gümüş idi. Amma bizim gəlib bu növ ilə qayıtmağımızla ona sikkə vurub getdik". Bu sözlər əhamünnas arasında şimdiyədək zərbülməsəl olub qalmışdır. Əlqissə, Şəki və Şirvan qoşunları dağılıb hər kəs öz mənzil və məkanlarına getdilər. Pənah xanın bu müqəddəmələrdən sonra avazeyi-istiqlal və hökuməti və rəşadət və rüfətinin sədası və şöhrəti hər yerdə ziyad olub ruzbəruz tərəqqi qılıb, ondan sonra Xəmseyi-əraminə mahallarını özünə müti etmək əzminə düşdü.

DÖRDÜNCÜ FƏSİL

## XƏMSEYİ-ƏRAMİNƏ MAHALLARININ ƏSİL VƏ NƏSƏBLƏRİNİ BƏYAN EDƏR

Bu Qarabağda ki, beş mahal bundan əqdəm Xəmsə mahalı işlaq olurmuş və şimdi hər birisi bir qeyri-ism ilə adlanırlar, çünki bu mahalati-məzkurə ədəd heysiyyəti ilə beş olmağına görə Xəmsə deyiblər. Zira ki, ərəb dilində beş ədədə "Xəmsə" itlaq edirlər və şul mahalatdan birisi Dizaq mahalıdır və məlikləri Məlik Yegan idi, əsilləri Loridən gəlmədirlər və keçmişdən ixtiyar sahibi mötəbər məliklərdirlər. Xüsusən, mərhum Nadir şahın əsrində və onun səltənət əyyamında çox tərəqqi və təmtəraq ilə olublar və Nadir şaha Məlik Yegan çox şayəstə xidmətlər edib və ixlas və sədaqətlər zühura yetiribdir. Nadir şah ona çox iltifat və nəvazişlər edib, həttadır ki, Məlik baba xitab edərmiş və şul Yeganın övladı çox müddəti-mütəmadi

Pənah xan ilə ədavətlər edib, yaği oldular. Çox zamanlar cəng və münaziə qıldılar. Aralarında uzun zamani-təvil və naireyi-qətl və atəşi-cidal-müştəil olub, gahi qalib və gahi məğlub olub. Axırül-əmr Pənah xanın özünə və övladına haqq-taala yarlıq edib, onlan məğlub və mənkub qıldılar və təsəllüti-tamam ilə qalib və faiq oldular. O nəsildən neçə nəfəri məqtul edib və neçə nəfəri dəxi hifzi-bədəni lazım bilib, bəsti-darüləman imanə mültəği olub nicat tapdılar. Əgərçi, irəli çox zəif hal və münkəsirül bal olmuşdular. Amma sonra mərhum Mehdiqulu xan əsri və dövləti-Rusiya zamanı yenə Məlik Aslan bəy və oğlanları tərəqqilər bulub mahallara hakim və naib olub, əyani-vilayət cümləsindən məhsub oldular.

İkinci Vərəndə mahalıdır. Məlikləri Məlik Şahnəzərgillərdir ki, onların əsli dəxi Göyçə nücəbalarındandır. Oradan fərar edib gəliblər və Qarabağın Vərəndə mahalında məlik və hökmran olublar. Məlik Şahnəzər Pənah xan əsrində çox mütəməvvil və dövlətli və varlı idi. Əvvəl keyfiyyəti bu növdür ki, Məlik Şahnəzərin əmisi Məlik Hüsü Vərəndə mahalında məlik idi. Məlik Şahnəzər bir para səbəblər cəhətinə əmisi Məlik Hüsünü qətlə yetirdi və özü onun yerində məliklik məsnədində oturdu. Bu səbəbə görə tamam Xəmsə məlikləri onun bu növ hərəkəti səbəbinə ona müddəi və düşmən oldular və onun dəf və rəfini vəcheyi-hümmət qıldılar. Hamısı ittifaq edib, cəmiyyəti tamam ilə onun üstünə gəldilər. Pəs Məlik Şahnəzər dəxi Çanaxçı qəryəsində qala tərtib edib onlar ilə dava başladı. Məliklər qoşun ilə gəlib onu mühasirəyə saldılar. Səylər edib qalanı o dəfə almağı başarmadılar. Məlik Şahnəzərin tavabeində olan kəndləri yağma və qarət edib, müahidə etdilər ki, əyyami-zimistan münqəzl olub bahar fəsli olanda, dübarə ittifaq ilə qoşunlar fərahəm qılalar. Gəlib qəleyi-Çanaxçını alalar və Məlik Şahnəzərə nə ki əldən gəlir eyləyələr. Elə ki onlar müraciət qıldılar və hər kəs öz məqər və məqamına varid oldular, pəs Məlik Şahnəzər fikir və əndişələr edib, məsləhət vaxtı səlahkarı belə gördü ki, Pənah xan ilə ki, o şol vaxtda cülusi-vilayətdə təzə və şöhrəti və tərəqqisi bülənd avazə olmuşdu, binayi-ülfət və itaət və rüsmü-ixlasi-müvafiqət möhkəm edə, tainki onun müavinəti və yarlığı ilə düşmənlərinə faiq gələ. Bu tədbiri xatirində müsəmmim edib tühəf və hədayalar və layiqli sovqatlar ilə Çanaxçıdan süvar olub, Pənah xanın hüzuruna getdi və ona itaət etdi. Elə ki mərhum Pənah xan dəxi bu növ görəndə qayətdə xoşhal və fərəhnak

olub, şöylə böyük sahibi-hörmət və sahibi-dövlət şəxsin itaətini özünə səadəti-əhval və amədi-iqbal bilib, ziyad olan izzət və hörmət və nəvazişlər eylədi və günbəgün dəxi hörmət və ehtiramın mütəzayid edib, heç bir mütalibatın müzayiğə etməz idi. Əlqissə, Məlik Şahnəzər ki, çox danəndə və sahibi-tədbir və huşmənd və zirək adam idi. Bu tədbir ilə müddəilərinə qalib oldu. Dəxi ondan sonra Xəmsə məlikləri ona səmt getmədilər və müzahim və mütəərriz olmağa cürət etmədilər. Əlhəqq, Məlik Şahnəzər həmişə oğlu Məlik Cəmşid ilə Pənah xana və İbrahim xana sədaqətlər göstəriblər və onların yanında mənzuri-nəzəri-atifət olublar və heç vaxt xanlara bir ədavət və xəyanət etməyiblər. Hətta ki, Məlik Şahnəzərin bir qızı Hurizad xanım İbrahim xanın kəbinli zövcəsi olub, aralarında ülfət və sədaqət birlə qürabət həm hasil olmuşdu.

Üçüncü Xaçın mahalıdır.

Qədimdən məlikləri Məlik Həsən Cəlalyan övladı olub və o nəsil aradan gedəndən sonra bir müstəqil məlik olmayıb və hər vaxtda bir kimsəni məlik ediblər. Ta Pənah xan əsrinədək və şul əsrdə Xaçın mahalında məlik Ulubab nəvadəsi ixtiyar idi. Çün Pənah xan əzm-cəzm eylədi ki, əhaliyi-mahali-Xaçını öz itaətinə gətirsin. Əvvəl onlara təklif edib, dəvət eylədi. Elə ki gördü rahatlıq ilə icabət və itaət qəbul etməzlər və ta quşmali-bəliq olmayınca rəftar ilə yol getməzlər, ondan sonra süvarilər cəm edib onların qətlü qarətinə əl açdı. Əhaliyi-mahali Xaçın övzai bu növ mülahizə edib, Ballı qaya müsəmma olan məkanı ki, bir möhkəm və qayətdə müstəhkəm məqam idi, özlərinə məlaz və mömən edib və səngəri möhkəm qayırıb orada sığınaq eylədilər. Və yaxşı çabun olan tüfəngçilərdən iki minə yaxın cəm edib mühəyyai-cədal və müdafiə oldular. Pəs Pənah xan mərhum pareyi-rəşid və nami olan atlı və piyadələrdən götürüb onların səngərlərin qəl və bərhəm və maddeyi-fəsadların dəf və dərhəm etməyi lazım və əhəmm büib haman səngərlərinə yürüşə başladı, dəxi üç gün və üç gecə müavidət qılmayıb, atəşi-peykar və naireyi-cəngü cüdal tərəfeyndən təskin bulmayıb, mərdanə səy və guşişlər etdilər. Üçüncü günü həməlati-dəmiranə ilə onları səngərdən çıxarıb sındırdılar və basıb dağıdıb çox adamların məqtul, övrət və uşaqların küllən əsir və dəstgir, əmval və əsbablarını hamı tarac və kəsib edib, kamil olan qətlü qarət zühura yetirdilər. Bədəz an mənsur və müzəffər oradan aşağa gəlib dəxi sair camaatlar üçün

ibrətün-nazirin olmaqdan ötrü Xaçın çayının başında şol məqtul olanların başlarından bir kəllə-minar qayırıb, üç yüzdən ziyadə baş o minarədə kəsb eylədilər. Elə ki bu müqəddimə vaqe oldu və mərhum Pənah xandan şöylə növ rəşadət və siyasət zühura gəldi ki, o tövr səb və möhkəm məkanda və şöylə düşvar dağın qülleyi-kuhda vaqe olan möhkəm səngərdə iki mindən ziyadə çabun tüfəngçini və sığınaqlarını dağıdıb, qətlü qarət edib şöylə kəllə-minarə tikdilər. Pəs tamami-xəlayiqi-ətraf xaif və hərasan olub məcmu ətrafın əhliləri və Xəmsə mahalının qalanları qorxuya düşüb, tamami Pənah xanı sayardılar. Dəxi əhaliyi-mahali-Xaçm Pənah xana müti olub, bir dəxi tüğyan və üsyan təriqinə getmədilər və ondan sonra bir də təmərrüd və müxalifət xəyalı etmədilər. Bəd əz an Xızınstanlı məlik Mirzəcanı[1] onlara malik mənsub etdi ki, sonra onun oğlu məlik Allahverdi və ondan nəvadəsi məlik Qəhrəman məliklik camından sərməst oldular.

Dördüncü Talış mahalıdır. Əyyami sabiqdə məlikləri var idi, Şirvandan gəlmə. Amma onlar münqəriz olub sonra məlik Usubgillər cülus etmişdilər. Gülüstan qalasını məlik Usub təhdi-təsərrüfə gətirib orada sükunət ixtiyar qılmışdılar ki, haman məlik Usubun orada ixtiyar və məlik olduğu illərdə Pənah xan cülus edib, onlar ilə davaları başladı və axırda məlik Usub tənha əhdə eyləməyib Çiləbörd məliki Məlik Hatəm ilə həmdəstan və müttəfiq oldu və Pənah xan ilə cəng və davalar qıldılar. Dörd ilə müddəti çalışdılar və hərçi səy və guşiş etdilər, axır bir zat başarmayıb fərar qıldılar. Mülk və mahallarına Pənah xan mütəsərrif və malik oldu. Onlar müzməhil və münqəriz oldular. Necə ki zeyldə müxtəsər mərqum olacaqdır.

Beşinci Xəmsə mahallarından Çiləbörd mahalıdır. Məlikləri məlik Allahqulugillərdir ki, onlar da əlhəqq qədimi-ocaq və sahibi-təmtəraq imişlər. Əsilləri Mağavizdən gəlmədir. Gəlib Çarmıx qalasını ki, Tərtər çayının arasında vaqedir, özlərinə məlaz və məskən qayırıb maliki bilistiqlal olublar və çox şöhrətlər qılıblar. Belə ki, Nadir şah ilə Osmanlı dövlətinin sərəsgəri Abdulla paşa Köprülü oğlu dava və müharibə etdilər. O davalarda Məlik Allahqulu çox rəşadətlər göstərib və xidmətlər zühura yetirib. O səbəbə Nadir ona sultanlıq verib,

---

1 [1] Mirzə Adıgözəl bəydə onun adı Məlik Mirzə xan kimi verilmişdir. Bax: Qarabağnamə, səh.60.

xələt və ənam və mənsəb sahibi eyləmişdi və şul Allahqulu sultan məliki mahali-Çiləbörd, Pənah xanın təzə əvvəl cülusunda ki, Ağdamda olurmuş, xanı görməyə gedib və o halda Heydərqulu xan-hakimi-Naxçıvan dəxi Pənah xana mehman gəlmiş imiş. Orada mülaqat hasil olub, bu Allahqulu sultanı ki, Heydərqulu xan Naxçıvani bu calal və təmtəraq ilə görüb Pənah xana xatirnişan edib işarə qıldı ki, bu tövr sultan bu təşəxxüs və hişmət və dimağ ilə sənə itaət etməz və iki sahibi-iddia və sahibi-calal bir şəhərdə yola getməz. Səlah budur ki, bu dəfə bunu buradan getməyə qoymayasan ki, sonra öhdəsindən gəlmək müşkül olur. Və bir də bunu belə dama salmaq çətin hüsul qılır. Pəs Pənah xan Heydərqulu xanın bu səlahdidini eyni-səvab bilib haman vaxt Allahqulu sultanı orada qətlə yetirdi və maneyi-vücudunu aralıqdan götürdü. Və dəxi ondan qardaşı Məlik Hatəm onun məsnədi-məlikliyinə malik olub, Talış məliki Məlik Usub necə ki, fövqdə işarə olundu, ittifaq edib öz əmisini dəxi həla-kətə yetirib, Məlik Usub ilə həmdastan və həmraz olub, Pənah xan ilə nəğmeyi-müxalifəti saz etdilər və Çarmıx qalasını ki, bir möhkəm qala idi, özlərinə mömən və məskən edib, ədavət və nifaq rəyətini əfraştə qaldırdılar və müddəti dörd il təpuri-müharibələri əfsurdə olmayıb, atəşi-müharibələri müştəil var idi. Hər qədər ki, Pənah xan onlara təklif və tədbir etdisə, itaətə gəlmədilər və kərrat ilə qoşun yığıb onların üstünə - Çarmıx qalasına yürüş edib həmləavər oldusa, qalanın möhkəmliyi səbəbinə ala bilmədilər. Axırül-əmr onları təngnayi-mühasirədə təngə gətirmək və cana yetirməyi məsləhət bilib hər nə ki, dağdan aşağa məhsul və ziraətləri var idi, qarət və pamali-mərakib eylədilər və güzəran və məişətlərini kəsib can və cəzana yetirdilər. Hər nə qədər, o iki mahalın məlikləri ki, çox sahibi-dövlət və sahibi-cəmiyyət idilər səy və cəhd edib cəng və rəzmlər sözü məğatla və davalar ağaz etdilərsə, axır aciz olub Pənah xanın qoşununun və adamlarının əlindən və qətlü qarət qorxusundan vaxtında ziraət və maaşgüzarlıq bilməyib, gördülər ki, asayiş və dolanmaq qeyri-mümkün və mütəzzir oldu və diriliyi onlara təng və haram qaldı. Əksər zamanlarda möhkəm dağlarda və dişvar dərələrdə olub və sərgərdan qalıb, axır hər iki məliklər ev və əmlaklarını, bağ və məzrəəcatların tamam cabəca qoyub, külfətlərini götürüb fərar və cılayivətən ixtiyar etdilər və Gəncə vilayətinə gedib Şəmkir mahalında bir para dağlarda övqat keçirdilər və yeddi il müddəti dəxi orada

olub zəhmətlər və əsrətlər çəkdilər. Ancaq şul müddətdə Pənah xanın üstünə hər kimsə ki, qeyri vilayətlərin xanlarından düşmənliyə gəlsə idi, onun yanında olub və ona gəlib bələdlik qılıb, Pənah xan ilə dava edərdilər. Aqibətül-əmr heç bir zad Pənah xana və İbrahim xana başarmayıb müzməhil oldular və Pənah xana həqq-taala nüsrət verdi. Hamı mahalati-Xəmsə və ilati-Qarabağ küllən itaət və inqiyad qıldılar.

BEŞİNCİ FƏSİL

## ADİL ŞAHDAN PƏNAH XANA FƏRMAN SADİR OLMAĞIN VƏ ONU QARABAĞDA XAN VƏ HAKİM QILMAĞIN BƏYAN EDƏR

Çün-səneyi 1160 - hicridə, yəni miladi - 1743-cü ildə Nadir şahı Xorasanda qətlə yetirdilər[1] Bəd əz an onun (Nadirin) qardaşı Zəhirəddövlə İbrahim xanın oğlu Əliqulu xan Adil şah müləqqəb edib Nadir şahın yerində şahlıq məsnədində əyləşdi və onun tərəfindən Əmiraslan xan sərdarlıq əmrinə mənsub olub Azərbaycana gəlib Təbriz şəhərində oturub hökmranlıq qıldı.

Elə ki həmin Əmiraslan sərdari-Qarabağ sahəsində Pənah xanın bu cür ixtiyar və istiqlal avazəsini eşitdi. Mirzə Adıgözəl bəyin rəvayətinə görə sərdar Təbrizdən özü Pənahəli bəyi görmək üçün Qarabağa gəlib və burada mülaqat hasil olandan sonra axşamı Pənahəli bəyə sultanlıq və sabahı xanlıq verib və ondan sonra (şaha) yazıb və Adil şahdan təsdiq fərmanı gəlib. Amma Mirzə Camal bəy yazır ki, Əmiraslan sərdar, çün Qarabağda Pənah xanın avazəsini eşidib öz yanında at və qılınc və xələt Pənah xana göndərib və onu Adil şahın itaətinə tərğib və dəvət edib. Mərhum Pənah xan dəxi bu tərəfdən Əmiraslan sərdarın göndərdiyi adamların adına görə yaxşı hörmət və lazımi ziyafət gətirib və bəd neçə nəfər nami və mötəbər olan ilat

[1] Hicri 1160-cı il miladi 1747-ci ilə Nadir şahın Xorasan yaxınlığındakı Xabuşan yaylağında, iyun ayında öldürülməsi ilə müqabildir. Burada göstərilən 1743-cü il səhvdir.

kəndxudalarından dəxi onlara qoşub töhaf və hədaya və yaxşı sədaqətamiz cavablar ilə sərdari-məzburun hüzuruna göndərib, dövləti Adil şaha izhari-itaət və inqiyad etdi. Çünki hənuz o vaxt deyil idi ki, o tövr sahibi-şövkət sərdar ilə dava və müqatilə məqamına gələ. Tamam ətraf xanları batinən onunla düşmən var idilər və Qarabağın əksəri həm Pənah xana dürüst itaət qılmamışdılar və hənuz müti olmamışdılar. Ona görə Adil şaha və Əmiraslan sərdara görə itaət və rəftari-süluki məsluk edərdi. Pəs Əmiraslan xan sərdar dəxi Pənah xanın o tövr itaət kəlamatını və xülus və iradatını və o növ göndərdiyi kəndxudalarını görüb, qayətdə xoşhal olub və məzidi iqbal bilib, Adil şaha görə bu əmri xədəmati-cəlilədən məshub edib pəs bu keyfiyyəti ərizə ilə Adil şah hüzuruna yazıb pişnəhad etdi. Ona görə 1160 səneyi-islamiyyedə mütabiqi səneyi-məsihiyyə 1744 Adil şahdan xanlıq[1] və Qarabağın hökumət və fərmani sadir olub. Pareyi-girənmayə xələt və ənam və mürəssə becəvahir qdınc və qızıl irasbablı at Pənah xana gəlib, sərdar Əmiraslan xan dəxi əlavə özü də sovqat və hədiyyələr məzid edib. O vəqtdə ki, Pənah xan Bayat qalasında məskən ixtiyar etmişdi, orada gəlib vüsul oldu və haman kəndxudalar ki, Pənah xan tərəfindən Əmiraslan sərdarın yanına getmişdilər, onlar dəxi xələt və ənam və hörmət ilə gəlib yetişdilər. İbtida o oldu ki, oradan Pənah xana xanlıq ismi qoyulub və Qarabağa hakimlik əmrinə mənsub oldu. Yövmən-yövmən tərəqqilər qıldı və İran məmalikinin ixtilalında tamam Qarabağa və qeyri-para ölkəyə istiqlal buldu. Ondan sonra bir az müddət çəkdi ki, Adil şahı Nadir şahın nəvadəsi Şahrux Mirzə qətlə yetirib təxti səltənətə əyləşdi və o hallarda Əmiraslan xan dəxi Qarabağ hakimi Kazım xanı dəstgir edib məğlub etdi. Bir çox qəlil zamanda Şahrux şahı dəxi məqtul etdilər. Növbət hökuməti-səltənəti-Zənd Kərim xan Vəkilə yetişdi. O dəxi vilayətlərə istiqlal və aram edənədək, müddəti-mütəmadi İraq və fars və Xorasan və Azərbaycan və hamı İran məmalikində hərci-mərc və məqşumluq olub xudsərlik və pərişanlıq əmələ gəldi. Dəxi o zamanlarda Pənah xan əzmi-hümmət bağlayıb cəhdü səy edirdi ki, Gəncə və İrəvan və Naxçıvan və Qaradağ və Ərdəbil vilayətlərini

[1] Hicri 1160-cı il miladi 1747-ci ildir. Mirzə Camala görə Pənah xana xan adı verilməsi və Qarabağ hakimliyi vəzifəsinə təyin edilməsi haqqında imzaladığı fərman hicri 1161-ci il miladi 1748-ci ildə verilmişdir (Mirzə Camal. Qarabağ tarixi, səh.18).

təsərrüfünə gətirsin. Bir az zamanda dəxi onların bəzilərini zor ilə və bəzilərini qövmlük ilə və bəzilərini rəsəl və rəsail ilə müti edib, Ərdəbildə məxsusən Dərgahqulu bəy Sarıcalını hakim qoydu və Gəncə xanzadələrindən hansını ki, xahiş etsə idi tikərdi və hansını istəsə çıxarardı. Dəxi neçə nəfər o vilayətlərin xanzadələrindən götürüb öz yanında zaval rəsmi ilə saxlayardı və hər diyarda avazəsi və şöhrəti müntəşir olmuşdu.

## ALTINCI FƏSİL

## PƏNAH XANIN TƏRNƏKÜT QALASINI VƏ ŞUŞA QALASINI TƏMİR ETMƏYİ VƏ BƏZİ İLAT-MAHALATINA İTAƏT EDİB, XİDMƏTİNƏ GETMƏYİN VƏ PAREYİ VƏQAYEYİ BƏYAN EDƏR

Çün mərhum Pənah xan 1162-ci il hicridə[1] Bayat qalasını təmir edib[2], dörd-beş il orada sakin olmuşdular. Baxıb gördülər ki, aran zəmindir, həmişə orada oturub dolanmaq mütəəssir olur. Yay fəsli olanda ilat əhli dağlara gedib, uzaq olurlar. Zərurət olanda onlara əl yetişmir. Ona görə məsləhət bilib Tərnəküt qalasını ki, indi Şahbulaq adlanır, bina eylədilər. Pəs böyük çeşmə başında bir bala tülənnək üstündə məzənnə edib, yaxşı mühəndis, peşə adamları ilə bir böyük hasari-vəsi tərh edib uca yerdə qala tikib bazar və hamam və çarsu və məscid təmir etdirib və tamam ilat böyüklərinin sükunəti üçün evlər bina etdirib. 1175-ci il hicridə[3] öz evini və tamam mülazim və məxsuslarının evlərini və mahal böyüklərinin evlərini cəm qılıb

---

[1] [1]Miladi tarixi ilə 1749-cu il. Mirzə Camala görə Bayat qalası 1161 (1748)-ci ildə tikilmişdir (Mirzə Camal. Qarabağ tarixi, səh.15). Mirzə Adıgözəl bəy də qalanın 1161/1748-ci ildə tikildiyini, səngər, sığnaq və qərargah saldırıldığını bildirir (Mirzə Adıgözəl bəy. Qarabağnamə, səh.56).

[2] Burada və aşağıda təmir sözü tikmək, inşa etmək mənasında işlədilir.

[3] Hicri 1175-ci il miladi 1761/1762-ci ilə uyğundur. Fikrimizcə, bu tarix səhvdir. Mirzə Adıgözəl bəy və Mirzə Camal tikinti işlərinin 1165/1751-1752-ci ildə sona çatdığını yazırlar (Mirzə Adıgözəl bəy. Qarabağnamə, səh.58; Mirzə Camal. Qarabağ tarixi, səh.17).

qələyi-Şahbulaqda sükunət qılıb mütəməkkin oldular və üç-dörd ildə orada istiqlali-təmam ilə əyləndilər. Pənah xanın avazəsi və istiqlah və şöhrəti-cəmiyyət və tərəqqisi və calalı günbəgün iştihari-təmam bulub ətraf və əknafın cümləsində məşhur oldu və tamam Gəncə, Şəki, Şirvan, Qaradağ, Naxçıvan və İrəvan xəvanini rəsəl və rəsail və mürasilat və peşkəş və töhəf və sovqatlar Pənah xana göndərib, izhari-xüsusiyyət və məvəddət və dusti və yeganəki və ülfət qoyardılar və əksəri xəvaninin övladlarından zəval rəsmi ilə Pənah xan öz yanına götürüb, qəleyi-Şahbulaqda saxlardı və bir parası ilə qövmlük edib və bəzilərilə dostluq və ülfət edib və bəzilərinə zor qılıb. Qərəz ki, Məğri, Günay və Çuldur mahallarını, ta Bərgüşad çayınadək Qaradağ hakiminin təsəllütündən və Tatif və Sisiyan mahallarını Naxçıvan hakimindən əxz eylədi və Zəngəzur və Qapanatı Təbriz bəylərbəyisindən intiza etdi və Tərtər çayı (sahilindəki) Uşacıq günbəzindən yuxarı, ta Göyçə sərhədinədək ki, Kolanı məskənidir və İrəvana tabedir, İrəvan hakimindən zəbt eylədi və Xudafərin körpüsündən, ta Gəncənin Kürək çayınadək xəvanini-Gəncənin əlində olardı. Gəncə xəvanilərindən əlinə keçirdi və bunlardan maəda Kəngərli dəstəsi ki, bir minbaşıya tabe idilər və Naxçıvan elidir, Naxçıvandan gəliblər və Dəmirçi Həsənli ki, Gürcüstan Dəmirçi Həsənlisindən gəlmədir və bir minbaşıya mütəəlliqdir və Cinni tayfası yenə bir minbaşıya tabe idilər. Onlar da Gürcüstandan gəlmədir və Gürcüstan elidirlər. Təmamən Pənah xanın avazeyi-hörmət və məhəbbət və riayəti səbəbinə və yaxşılığına görə ətraf vilayətlərdən gəliblər onun yanına və məcmuinə Qarabağda yurt və məskən və məkan və məhəlli-təiş və güzəran, yaylaq və aran verib və izzətlər edibdir. Hamı ona müti və mənqad olublar və xidmət və təbəiyyət edib, yanında qalıblar ki, şimdi təmamisi Qarabağ əhli cümləsinə mülhəq olub Qarabağ hesab olunurlar. Əlqissə üç-dörd il var idi ki, Tərnəküt qalasında sakin olmuşdular ki, Qacar Məhəmməd Həsən xan validi -Ağa Məhəmməd xan Mazəndəran, İraq, Fars və Azərbaycan məmləkətlərində istiqlal behəm yetirib, şöhrət və avazəsi iştihar buldu və çün həmə övqat Pənah xanın kargüzarları və hüzurunun xəvasları və ixtiyarları hökumət fikrindən qafil olmazdılar, fikr və tədbirlər əndişə edib Pənah xanın səlah və işarəsilə məsləhəti bu növ gördülər ki, “çün Nadir şahın vəfatından sonra müddətlər ki, Əliqulu xan və

Əmiraslan xan ilə müdara edib və rəbti-dostluq və ittihad var idi. Ola bilər ki, Məhəmməd Həsən xan ilə şöylə süluk və rəftar məqdur olmaya və o gunə müvafiqəti qəbul qılmaya və xəvanini-ətrafdan dəxi o qədər xatircəmliyimiz yoxdur və batində bəzilərinin bizimlə həsəd və ədavəti çoxdur və şayəd ki, onlar Məhəmməd Həsən xanı təhrik edələr və onunla ittifaq olub gəlib bizimlə dava və münaziə başlayalar və Qarabağın əmval və əhşamı Qızılbaş qoşunlarının paymalı ola. Bizlər bu Şahbulaq qalasında oturub şöylə qəvi olan düşmənə və xəvanini-ətrafa cavab verə bilmərik. Bilmərrə müstəsil oluruq". Pəs əlacı vaqiə piş əz vüqu bayəd kərd[1] babından lazımdır ki, bir yaxşı möhkəm və münasib məkanda bir yaxşı məstəhkəm qala bina edək ki, əbədi və həmişəlik ola və ortalıq ola ki, aran və yaylaq, hər ikisi əldə ola. Bir tərəfi güşad ola ki, yaylaqda onların qaladan xəbərdarlığı və əlləri üzülməyə və mütləğa qəvi olan düşmənlər onu təxir etməyə qadir olmayalar və bu məsləhəti Məlik Şahnəzər bəygilə həmişə sədaqət və xeyirxahlıqda var idi, eylədilər. Onun məsləhəti və rəhnümalığı və səvabdidi ilə bu Şuşa qalasının binasına müsəmməm oldular. Pəs əvvəla neçə nəfər əhli-vüquf və kardan kamil və aqil əşxaslardan göndərdilər ki, ətraf və cəvanibdən şöylə qala binası üçün yer tapsınlar. Pəs gedib gəzib və baxıb həmin Şuşa qalasının yerini ki, şul vaxtda Şuşa kəndinin sakinlərinin cüzvü otlaq və biçənək yerləri idi tapıb, gördülər ki, hər babda layiqdir. Nəhayət, içində bir cari suyu yox idi, məgər inki iki-üç balaca çeşməsi var idi ki, şöylə cəmiyyəti-kamil və şəhri-qabil üçün kifayət edən deyildi. Pəs səlah və məzənnə olan yerlərdən sudan ötrü quyu bina etdilər, gördülər ki, su çıxar. Məlum əksər məkanlarından su çıxandır. Gəlib mərhum Pənah xanı hali eylədilər və xan özü də neçə nəfər xəvasları ilə gəlib baxıb, bu növ qabil gördülər. Bəd əz an təmirinə ağaz edib 1170 hicridə mütabiqa səneyi məsahiyə 1753-cü ildə qalanı qayırıb[2] tamam Şahbulaqda olan evlərin və əyan və əşxas məliklər və ilat kəndxudaları və böyüklərinin və mülazimlərinin evlərini oraya gətirib və əlavə kəndlərdən və ilatın bəzilərindən çox

---

1 [1]Tərcüməsi: Hadisə baş verməzdən əvvəl çarə qılmaq lazımdır.

2 [2]Hicri 1170-ci il miladi 1756-1757-ci ilə təsadüf edir. Şuşa qalasının tikintisi, Mirzə Adıgözəl bəyin "Qarabağnamə"sinə şərh yazanlar qeyd edirlər ki, 1752-ci ildə başa çatmışdır. (Mirzə Adıgözəl bəy. "Qarabağnamə", səh.65-66).

evləri köçürüb gətirib qala içində onlara yurd, məqam və mənzil verib mərqub olan şəhər və abadanlıq qayırdı. Adını Pənahabad qoyub o ism ilə pullar məskun etdilər ki, avazası iqlimlərdə məşhur oldu. Ondan irəli heç bir əsrdə orada abadanlıq olmamışdı. Həmin ki, qalanın altı verstliyində vaqe olan Şuşa kəndinin otlaq yerləri idi ki, Pənah xan mərhum abad edibdir. Çün qala tamam oldu və orada möhkəmlənib aram və qərar və tədarükat əmələ gəlməkdən bir il müddəti keçmişdi, Məhəmməd Həsən Qacar ki, Ağa Məhəmməd şahın atası idi, İraq və Azərbaycan sipahından cəmiyyəti-mövhur və əsakiri-naməhsur götürüb Pənah xanın tənbehi və Şuşa qalasının təsxiri üçün Qarabağa azim oldu. Gəlib Arazı keçib, qalanın dörd ağaclığında vaqe olan Xatun arxı mənzilində ordu əylədi və xatirindən keçirdi ki, bəlkə Pənah xan itaətə gəlib bilamünaziə qalanı təslim edə. Müddəti-bir ay orada oturub hay-huy etdi. Baxıb gördü ki, Pənah xan məhəlgüzar olmaz çəndan mənzuruna olmaz, hənuz qalaya yavuq gəlməmiş ki, Qarabağın əhli və quldurları, ordu əhlinin at və qatır və çarpalarına küllü qarət və zərərlər həm yetirmişdilər. Bu əsnada daldan Məhəmməd Həsən xana xəbər yetişdi ki, Kərim xan Zənd Şiraz və Fars məmləkətlərində istiqlal bulub və sahibi-dayə olub iddiai-səltənət ilə əsakiri-firavan cəm edib Şiraz şəhərindən İran və Mazandaran təsxirinə müsəmməm və azim olubdur. Pəs bu əhvalata görə Məhəmməd Həsən xan qala almağı, Gəncə və Şirvanatı müsəxxər qılmaq ki, məqsudi-zəmiri idi, mövquf edib çox istecal ilə müraciət qılıb Mazandaran və İraqi-Fars tərəfinə mütəvəcceh oldu. Belə ki, gedəndə təcilindən öz qalakub olan topların dəxi Xatun arxında qoyub getmişdi ki, haman toplar ilə 1826-cı ildə qızılbaş qoşunu gəlib, qalanı mühasirə edən zamanda imnayi-dövləti-Rusiya onlardan istifadə edirdilər.

Əlqissə, Məhəmməd Həsən xan buradan qayıdıb, təcili-tamam ilə İraq məmləkətinə gedib yetişənədək Kərim xan Zənd tamami-Fars və Mazandaran vilayətlərini və İraq məmləkətindən əksərini təsərrüfə gətirib Məhəmməd Həsən xanın müqatilə və müdafiəsinə amadə olmuşdu. Pəs Məhəmməd Həsən xan dəxi bu tərəfdən, Azərbaycandan və sairlərdən əsakiri-şayan və ləşkəri-külli münəcid edib Kərim xanın dəfinə əzmi tamam üə mütəvəcceh oldu və çün bəxtü dövlət və fəthü nüsrət xudavəndi-aləmin ətiyyeyi-üzmalarından

və məğadiri-kübralarındandır. Neçə nəfər adam Məhəmməd Həsən xanın öz xəvas və məhrəmlərindən xəyanət fikrinə düşüb Məhəmməd Həsən xanı qətlə yetirdilər və başını kəsib ənam və mənsəb təmənnası üçün Kərim xanın hüzuruna apardılar. Əz anca ki, nəcib və böyük kəslərə görə şöylə böyük və əzim sərdarlarının təəssübü şöylə məzmum və şəni işlərdə sərdarlara yetişir. Kərim xan Məhəmməd Həsən xanın qatillərini tutub lazımeyi-siyasəti-kamil edib ənam və mərhəmətdən məhrum eylədi ki, qeyrilər üçün ibrəti-nazirin olub, bundan sonra heç kimsə dəxi öz vəli ünnemətlərinə ağ olub, bir də şöylə şeni olan əfala mürtəkib olmasınlar, bir şəxsin nəməkpərvəri olub, nəfsü həva və iblisi-bihəya əğvasilə ona fikri-xəyanət qılmasınlar.

## YEDDİNCİ FƏSİL

## GÜRCÜSTAN VALİSİ İRAKLİ XAN MƏRHUM PƏNAH XANI VƏ QARADAĞLI KAZIM XAN VƏ NAXÇIVANLI HEYDƏRQULU XANI VƏ GƏNCƏLİ ŞAHVERDİ XANI DƏSTGİR ETMƏYİN VƏ ŞƏKİ HAKİMİ HACI ÇƏLƏBİ ONLARI XİLAS EDİB QORA YETMƏYİN BƏYAN EDƏR

Çün Qacar Məhəmmədhəsən xan Ağa Məhəmməd şahın atası Qarabağa qala üstə gəlib hənuz bir mətləb hasil etməyib, qayıdıb Kərimxan Vəkilə müqabil getdi və bu tərəflərdən müavidət edib İran canibinə müraciət etdi. Haman ildə Pənah xan və qarabağlı Kazım xan və gəncəli Şahverdi xan və naxçıvanlı Heydərqulu xan bir yerdə cəm olub, məclis və məhfil arastə qıldılar və məsləhətlər edib buna səlah bildilər ki, dedilər: "Hacı Çələbi tamam Şəki və Şirvanda hakim məbsütülyəd və sahibi-ixtiyari-müvəbid olub, heç bizlərə iltifat etməyir və təriqi-müvafıqətə iqdam edib, mürafıqəti-birlə yol getməyir. Gərəkdir ki, ittifaq ilə ona bir tədbir və tənbeh edəlim ki, min bəd guşmali bəliq ola. Pəs bu cürə mühavirə edib məknun zəmir-

lərini mürasilə məzmunu ilə valiyi-Gürcüstan İrakli xana hali etdilər. Çünki Hacı Çələbidən o da sədəmələr çox görmüşdü. Onu dəxi bu əmrə talib və Hacı Çələbinin guşmalına rağib bilirdilər. Elə ki rnəcbur vali onlardan bu mənzur və məknun olan əhvali istima etdi. 0 dəxi bu mənzurda özünü onlar ilə həmdəm və həmqədəm olmaqlığını izhar edib əşar etdi ki, əcəb səlah edibsiniz, əlbəttə çox təcil ilə bu canibə hərəkət edəsiniz ki, fürsət fövt olmuya, pəs məzkur xanlar təhiyyə və tədarük mühəyya edib cəmiyyət ilə rəiyyəti-əzimət əfraştə edib yola düşdülər və gedib Gəncə şəhərindən yuxarı Qızıl qaya adlanan məhəldə düşüb, orada xeymə və xərgah qübbəsini övci-səmaya qaldırıb, valinin gəlməyinə intizar çəkdilər. Nagah vali dəxi gəlib o mənzilə varid oldu və yetişən kimi xanların dördün də tutub dəstgir və müqəyyəd və əsir eylədi. Əzqəza, haman dəmdə bir nəfər Şahverdi xanın nökərlərindən oradan bir iti qaçan ata süvar olub, qaçdı xəbərə. O vaxtda Hacı Çələbi dəxi bu mətalibatı eşidib, ictima əsakiri-Şirvanat üçün hökmlər yazıb, özü dəxi cəmiyyəti-şayan və istedadi fırəvan ilə Mingəçevir məbərində rəhli-iqamət sahb və müntəziri müqabilə əylənmişdi və hər canibə nəzzarə edirdi. Bu əsnada baxıb gördü ki, Kürün bu tərəfindən bir nəfər atlı peyda olub, sürəti-təmamilə müqabilə gəlib varid oldu. Hacı Çələbi gəmi ilə onu Kürdən keçirməyə əmr eylədi. Öylə ki, keçib Hacının hüzuruna gəldi, fılfövr ərz eylədi ki, “Qoca baba, vali xanları tutdu”. Hacı Çələbi cavab verdi: “Qoca baban onları inşallah xilas edər”, deyib haman vaxtda üzünü öz müqərriban həzrətinə və ərkani-dövlətinə tutub dedi: “Yaran nə deyirsiniz? Bu işdə tədbir və məsləhət necə eylə-məkdir?” Bu müşavirədən qərəzi onların mafiz-zəmirlərin bilmək imiş. Pəs ümərayi-Şəki və Şirvan əmirləri dedilər ki, bəli biz də bir məsləhət edək görək səlahi-vəqt nə təqazə edir. Hacı onlara buyurdu ki, “Hər nə ki səlah və məsləhət edirsiniz, edin. Amma gərəkdir ki, Kür keçidi içində olsun”. Onlar ki, bu kəlamatı Hacıdan istima etdilər dəxi müşavirə və məsləhət məqamında gəlməyi bərhəm edib Hacının hüzuruna gəlib, cəm və amadə oldular. Hacı Çələbi dedi: “Bəs nə üçün məsləhət və müşavirə məqamına getmədiniz və təm-hid və tədbir məclisini fərahəm etmədiniz?” Onlar ərz etdilər ki, bizlər tutiya və təmhid məcalisini onun üçün bina edərdik ki, Kürü keçmək içində olmasın. Çünki siz buyurursunuz, gərək Kür keçidi

içində ola. Dəxi nə məsləhətiniz var buyurun, qoşun atlansın gedək. Hacı Çələbinin o sözü zərbi-məsəl olub şimdiyədək xalq arasında məzkurül-lisandır. Pəs Hacı Çələbi buyurdu, qoşunu təcili-tamam ilə Kürdən keçirib valinin dalınca azim oldular və köçbəkeç ilqar edib, Gəncə torpağına yetişəndə vali xəbərdar olub bu əhvalı ki, istima etdi. Qayətdə hərəsan və xofnak oldular. Zira ki, keçən əsrlərdə Hacı Çələbinin qoşunundan zərb-dəst görmüşdülər. Naçar əzmi-müqabilə edib Şeyx Nizami əleyhürrəhmənin məqbərəsinin yanında təlaqiyi-fəstin vaqe olub dava etdilər[1]. Az müddətdə gürciyyə şikəsi-fahiş tapıb, vali dəxi ordugahı olan Qızü Qaya səmtinə qayıtmaq məqduru olmayıb, fərarı ixtiyar edib, təmamən xeymə və xərgahları və xanlar dəxi xeymələr də hamı mayəriflərilə cabəca Qızıl Qayada qalmışdılar. Vali qaçıb getmişdi və Hacı Çələbi Sınıqdan üç ağac yuxarıyadək dallarınca ilqar edib və Tiflisin beş ağaclığına yetişib və qaçan gürcüyyə qoşunlarının qabaqlarını Şəmkurdə və Şəmsəddində kəsib, çox adamların tələf etmişdilər. Hacı Çələbi Baydar torpağında səngər qayırıb, öz oğlu Ağakişi bəyi Tiflisdən bəri olan müsəlmanlara hakim və hökmran qıldı və ondan xanları dəxi xilas edib öz vətənlərinə mərsul və rəvanə qüdı və özü dəxi oradan müraciət edib Şirvana gəldi və Ağakişi bəy şul nəvahidə üç il hakimlik eylədi. Axır ki, valiyi-Gürcüstan Çərkəs və Başıaçıqdan[2] çox qoşunlar götürüb Ağakişi bəyi dəf etməyə azim oldu və Ağakişi bəy bu xəbəri ki, eşitdi tabi-müqavimət etməyib, oradan fərar etdi və valinin qoşunları dalınca ilqar edib öncə gedənlər Tovuz çayında ona yetişib bir qədər müqatilə və dava edəndən sonra Ağakişi bəyin neçə nəfər adamı dəstgir olmuşdu və özü səhi və salim Şəkiyə gəlib çıxmışdı. Pəs valinin qoşunu oradan, ta Xudafərin körpüsünədək gedib vəqti-müraciətdə Qarabağdan və Gəncədən çox qarət və çapavul və qəsb eyləyib aparmışdılar.

---

1 Müharibə Nizami Gəncəvinin məqbərəsinin yanında 1752-ci ildə olmuşdur.

2 İmeretiya (Gürcüstan) nəzərdə tutulur.

## SƏKKİZİNCİ FƏSİL

## FƏTƏLİ XAN ƏFŞAR HAKİMİ URMİYA QARABAĞA QALA ÜSTƏ GƏLMƏYİNİ VƏ MÜHARİBƏ EDİB BİR ZAT BARIŞMAYIB, AXIRI MƏKR VƏ HİYLƏ İLƏ İBRAHİMXƏLİL AĞANI ƏLƏ GÖTÜRÜB URMİYƏYƏ APARMAĞINI VƏ PƏNAH XANIN XATİMEYİ-KARINI BƏYAN EDƏR

Çün Məhəmmədhəsən xan Qacarın xatimeyi-karı və müqəddi-meyi-əhvalı həmin qərar ilə oldu, necə ki, fövqdə mərqum və bəyan olundu. Onun o qəziyəsindən sonra urmiyalı Fətəli xan Əfşar ki, Nadir şahın ümdə və namdar olan sərdarlarından idi, Urmiya vilayətində iddia və dəbdəbə sahibi olub bir qəlil müddətdə təlaş edib, təmam Azərbaycanın torpaqlarını zəbt etdi. Ondan əzm qıldı ki, bu vilayətləri öz əlinə gətirsin. Pəs neçə kərrə mərhum Pənah xanın yanına yaxşı dil bilən mötəmid və mötəbər elçilər və kağızlar və peyğəmbər göndərib öz itaət və ittihadına dəvət eylədi. Çün mərhum Pənah xan şöylə sərdarlara itaət etməyi həqiqətdə özünə ar və xiffət bilirdi. Onun göndərdiyi kimsələrdən (biri ilə) çox sanballı olan kəlmələr göndərib (Fətəli xanın) təklifini rədd etdi. O, (Fətəli xan) dəxi qeyzə gəlib elçiləri şöylə qəliz xəbərlər ilə gəldiyindən sonra cəmiyyəti-təmam və ləşkəri-malakəlam Azərbaycandan və Urmiyadan və qeyrilərdən münəqid və mühəyya qılıb Pənah xanı dəf etmək üçün Şuşa qalasını təsxir etməyi çeşmdaş edib Qarabağa ilqar etdi və gəlib qalanın bir ağaclığında Ballıca çayı ilə Xacə Əlili çayının arasında düşüb, orada səngər tərtib edib ordu eylədi ki, indi onun səngərlərinin yeri və asari hənuz məlum və xalq arasında Fətəli xan səngəri derlər məşhurdur. Orada ordu qayırıb mühəyyayi-cəng oldu. O tərəfdən Talış və Çiləbördün məlikləri ki, Pənah xan ilə batinən ədavətləri var idi, Fətəli xanın yanına gəlib ona kömək və bələd və mütəhərrik oldular. Qərəz, altı ay müddəti oturub, hər neçə gündən bir dəfə Fətəli xanın qoşunu ilə Pənah xanın (qoşunu) aralarında dava və müqatilə vaqe olardı. Hər bir kərrədə Pənah xanın qoşunu qızılbaş qoşununa faiq olurdular.

Əlqissə, bu müddətdə Fətəli xan bir iş qayıra bilməyib günbəgün öz qoşununun əhvalında isrət və şikəst müşahidə qılırdı. Axirül-əmr bir gün təmami-qoşunun nəki atlı və piyadə var idi və həmin Talış və Çiləbörd məliklərinin dəxi özləri və təvabeləri ittifaq edib heyəti-məcmuə ilə həmləvar və cəmiyyəti-təmam ilə qala üstə yürüş başladılar. Gəlib çayı keçib qalanın yarım verstliyinədək yetişdilər. Bu tərəfdən dəxi Pənah xan rəşid və nami və karaməd cavanları ilə və ilatın və Xaçın və Vərəndənin yaxşı çabuk və zirək tüfəngçiləri ilə əzmi-müqabilə edib və bir tərəfdən dəxi ilat camaatının rəşid atlıları ilə Pənah xanın qardaşı uşağı və övladları və qohum-əqrəbaları hücumavər oldular. Cəngi-əzim vaqe olub Fətəli xanın qoşununa şikəsti-fahiş yetirdilər. Oradan Fətəli xan məqsədinə çatmamış geri qayıdıb vəqti-müavidətdə bərk və dərin olan dərələrdə və möbərlərdə onları tutub öldürməyə əl açdılar. Ta Fətəli xanın ordusundan kimi tutmaqdan və qırmaqdan dəstbərdar olmayıb təxminən iki minədək atlıdan və piyadadan o günü məqtul və dəstgir edib müraciət qıldılar. Fətəli xan xaib və xasir oradan peşman və pərişan gəlib ordusunda məqam və aram rutdu. Pənah xan dəxi kəsib və əsirləri götürüb mənsur və müzəffər qalaya müavidət qıldı. Çün Fətəli xan Əfşar bu gunə kar və ətvarı mülahizə edib və qış mövsümü dəxi yaxınlaşmışdı, fikir və tədbirlər edib, bənayi-məkrühiylə qoyub sülh və müsalihə tərhini ağaz eylədi. Pəs yaxşı əhlidil və kardan elçilər göndərib Pənah xan mərhuma qəliz and və qəsəmələr və təəhhüdlər etdi ki, bizim giriftar və əsir olanlarımızı mürəxxəs etsin. Dostluq və ittihad aləmində yol getsin. Doğruluq və yeganəlik üçün mən də qızımı onun böyük oğlu İbrahim Xəlil ağaya əhd edərəm ki, həmə vəqt dostluq və qohumluq və yeganəliyimiz bərqərar olsun ki, əbədən bir-birimizdən ayrı və kənar olmayaq və həm məşrut budur ki, İbrahim Xəlil ağanı dəxi buraya mənim yanıma göndərsin ki, orada şərbət və şirni içək və siğə-nikah cari etdirək. İki-üç gün də burada qalsın, ondan qayıdıb getsin. Dəxi bu, rin istihnamı üçün ki, Pənah xan dürüst xatircəm olsun.

Üç nəfər də öz yaxın olan qohum və əqrəbalarından və namdar olan övladından göndərdi ki, ta İbrahim Xəlil ağa müraciət edənədək əvəz və girov rəsmilə Pənah xan saxlasın. Mərhum Pənah xan ki, bu cürə kələmat və təəhhüdatı istima etdi, onun şöylə qəliz andlarına və övlad və əqrəbalarını göndərməyinə etimad edib və qız

verməyinə dəxi şad və xoşhal olub İbrahim Xəlil ağanı iki-üç mötəbər kəndxudalar ilə Fətəli xanın yanına və ordusuna rəvanə eylədi. Elə ki Fətəli xan eşidib qayətdə xoşdil və fərəhnak olub, neçə nəfər öz övladlarından İbrahim Xəlil ağanın pişvazına göndərib, İbrahim Xəlil ağanı izzət və ehtiram ilə və əsbabi-eyşü inbisat ilə daxili-ordu eyləyib, sözü nəvazəndə ilə məşğuli-eyşü sürur qılıb, saatın bədliyini bəhanə qılıb əyləndirdi. İki gün İbrahim Xəlil ağanı əsbabi-sürur ilə və izzətü hörmətlər ilə saxlayıb və hər gündə mükərrər mötəmid əşxaslar qalaya və rəngarəng şirnilər Pənah xana və evinə göndərirdi. Belə ki, onların qızılbaşlıq adətləridir ki, öz işlərinin səlahı üçün təarif rəsmi və zahiriləri çox edələr, adamı aldatmaq üçün. Qərəz ki, bu günə əməllər ilə tutulmuş əsirlərin və adamların dəxi xilas edib üçüncü günü oradan İbrahimxəlil ağanı və yanınca gedən kəndxudaları tutub məhbus var götürüb, köçüb yola düşdülər və ta Urmi vilayətinədək heç bir məkan və mənzildə təvəqqüf etməyib özlərini Urmiyyə qalasına yetirdilər. Pəs mərhum Pənah xan və Qarabağda olan məcmuə əkabir və əyan, bu müqəddimədən çox məhzun və pərişan olmaqdan bir fayda mütəsəvvar deyil idi. Ancaq təsi-tamam ilə oturub Fətəli xanın dəfi üçün və oğlunun və adamlarının xilası üçün fikr və əndişələr və məsləhətlər və tədbirlər edirdilər ki, görələr məsləhət nə ola ki, nagah bu əsnalarda nəsimi-mürad əsib və uğur qapısı açılıb "bimusəddaq izə əradə Allah şeyən həyya əsbəbəhi"[1] həqqi-təala bir səbəb ortaya salıb. Belə ki, pərvərdigari-aləmyan və xəliqü-ünsü can hər hal və hər zamanda vəfadar və doğru və həqq-güzar olan kimsələrə yarü müin və mehrəban və qəmküsardır. Xüsusən tofiq və nüsrət o kəslər üçün kamil və şamildir ki, öz əhd və misaqlarında sadiq və sabit olalar və məkrü qədərü hilədən ki, ağibəti xəsarət və nidamətdir, pəhriz və ehtiraz qılalar. Necə ki, hükəmalar deyib: "Başqasına quyu qazan, özü düşər".

Beyt:

Ço çahi kəndə dər rəh ke, xəlqi-ra bər əndazi,
Nemitərsi əz-an ruzi ke, xod-ra dər miyan bini.*

---

[1] Doğrudur ki, əgər Allah bir şey (etmək) istəsə, onun səbəblərini də (qabaqcadan) hazırlayar (ərəbcədən tərcümə).

* Yolda quyu qazmısan ki, xalqı (ora) salasan
O gündən qorxmursan ki, özünü orada görəsən (farscadan tərcümə).

Əz qəzeyi-rəbbani bu hallarda Kərim xan Zənd ki, İraq və Fars məmləkətlərində sahibi-daiyyə olmuşdu və istiqlal və istedad bulmuşdu, Fətəli xan ilə bənayi-cəng və pürxaş qoyub öz qardaşı İskəndər xanı İraq və Fars qoşunu ilə Fətəli xanın rəf və dəfı üçün Azərbaycan sövbinə göndərdi. Fətəli xan dəxi bu xəbəri eşidib Azərbaycan və Urmiyyədən əsakir və cəmiyyət fərahəm edin İskəndər xan hənuz səmti-Azərbaycana gəlməmiş qoşun ilə onun müqabilinə əzm eylədi. Pəs həvaliyi-İsfahanda təlağiyi-fəriğin vaqe olub, İskəndər xan orada qətlə yetişdi. Kərim xanın qoşunu münhəzim olub fərari düşdü. Bəd əz an Fətəli xan mənsur və müzəffər İraq məmləkətindən bir para məkanlar həm təsərrüfə gətirib, oradan öz vilayətinə qayıtdı. Elə ki bu hadisə vaqe oldu, dəxi Kərim xan qayətdə qeyznak olub fars vilayətlərindən əzim olan qoşun cəm edib Fətəli xanın intiqamı üçün kəməri-himmət bağlayıb şiddəti-tamam və Azərbaycan sövbinə azim oldu və hənuz-Azərbaycana gəlib yetişməmiş yoldan bir yaxşı mötəmid kimsəni mərhum Pənah xanın yanına göndərib, şəraiti-məhəbbət və məvəddat və yeganəliklər təqdimindən sonra yazmışdı ki, "Çün Fətəli xan Əfşar qəddar və bədkirdir, bizim ilə nəinki düşmən, bəlkə qanlıdır və sizin ilə dəxi o növ əyyaranə hərəkətlər ki, heç kimsədən çıxmaz idi, əmələ gətirib yalan and içmək və əhd və iqrar edib sındırmaq və oğlunu məkrü qədərü hiylə ilə öz yanına aparıb götürüb qaçmaq ilə onu qürbətdə məhbus və sizi pərişan və məyus etmək işlərini tamam sizin həqqinizdə əmələ gətiribdir. Pəs lazımdır ki, nə qədər qüdrət və qüvvət və himmətin vardır, bizim ilə saziş və yarlıq etməkdən müzayiqə etməyəsən ki, həm o bədkarın mükafati-əməlinə görə intiqam və qisas və həm sənin oğlunu və adamlarını həbsdən xilas etmək müyəssər və məmul ola". Çün Pənah xan bu növ vəsiləni həqqi-təaladan xahan və cuyan idi, bu günə hekayəti eyni-bəşarət və qənimət və səadət bilib haman dəm arastə olan qoşun Qarabağın adlı və rəşid olan atlılarından fərahəm qılıb sürəti-tamam ilə Kərim xanın yanına gedib, özü oradan Azərbaycana yetişincə onun ordusuna mülhəq oldu. Kərim xan dəxi onun mülaqatı ilə qayətdə şad və xoşhal olub, necə ki, lazımdır, hörmət və izzət və ehtiram və ziyafətlər edib.

Bəd əz an hər ikisi müttəfiq olub Fətəli xanın dəfinə Urmiya vilayətinə mütəvəcceh oldular. Fətəli xan dəxi öz ziri-hökmündə olan vüayətlərdən qoşun cəm edib, tamam olan cəmiyyət ilə onlarla

müqabil gəlib, hər iki canibdən tərhi-cəng başlanıb, davayi-əzim vaqe oldu. Axırül-əmr, Fətəli xan məğlubiyyətə düçar olub və Urmiya qalasına fərar qıldı və oraya sığındı. Bir az müddətdə təngnayi-mühasirədə qalıb, axır itaət etməkdən qeyri çarə görməyib və Kərim xan tərəfindən dəxi ümidnəvidlər hasil edib, qaladan çıxıb Kərim xanın yanına gəldi və qalayi-Urmiyanı təslim edib itaət qıldı. Kərim xan dəxi özünə Vəkil şahi-İran ləqəb qoymuşdu. Bu səbəbə ki, çün hənuz İran mülkündə padşahi müstəqil yox idi. Deyirdi ki, ta padşahi-təzə və layiq xücur və cülus edənə kimi mən İranda Vəkili-şahi-İranəm. O səbəbə görə Kərim xan Zəndə Vəkil derlərdi. Əlqissə, İbrahim Xəlil ağa ki, Urmidə məhbus var idi, Kərim xan hüzuruna gətirdib, ona at və qılınc və xələt verib və Qarabağ vilayəti üçün xanlıq və hökumət fərmanı verib ezazi-tamam ilə əyaləti-Qarabağa mənsub edib, Rəvanə eylədi. Pənah xandan dəxi lütfü mehribanlıq ilə xahişmənd oldu ki, bir neçə vaxt gərək mənim yanımda olasan ki, sənin ialət və sədaqətinə əvəz və təlafi edəm. Onu hər hal ilə razı edib, öz hüzurunda Şiraz vilayətinə apardı. Fətəli xan Əfşan həm öz yanınca ittifaq aparırdı. Qərəz, yol gedirdilər. İsfahan həvaləsinə güzar düşüb, haman məkana yetişdilər ki, Fətəli xan ilə İskəndər xan müharibə qılmışdılar və orada Kərim xanın qardaşı İskəndər xan qətlə yetişmişdi. Kərim xanın validəsi o yolda hərçənd ki, pərakəndə xatir olub Kərim xana çox israr etdi ki, bu Fətəli xanı gərək İskəndər xana mülhəq edəsən və vücudunu bizim nəzərimizdən məlum qılasan. Amma Kərim xan öz əhd və iqrarını sındırmayıb və o sözlərə riza və mültəfit olmazdı.

Əlhasil, vəqti ki, gəlib haman o mənzilə yetişdilər və o məqama düşdülər. Kərim xan Fətəli xandan sual eylədi ki: “Bu məkanı tanımırsan ki, haradır, ya yox?” Fətəli xan əhvalını bal etməyib cavab verdi ki: “Bəli, bu haman məkandır ki, İskəndər xanın afitabi-ömrü məğribi-fənayə yetdi və burada məqtul olub aləmi-üqbayə getdi”. Elə ki Kərim xan Fətəli xandan bu cür cavabi-nasavabi eşidəndə, bir növ təğyiri-hal və mükəddər əhval oldu ki, yaxın idi ki, qəlbi çak və qeyzü qüssədən həlak ola. Dəxi (Kərim xan) bu münasibətsiz cavaba tab gətirməyib, dərhal orada Fətəli xanı qətlə yetirib, aləmi axirətdə qardaşı İskəndər xana qovuşdurdu. Ondan bir neçə gün yol gedib ta ki, Pənah xanın ittifaqı ilə Şiraz şəhərinə varid oldular və orada daxili-şəhr və imarət olandan sonra eyşü-işrətə və ləzzəti

söhbətə məşğul oldular və İbrahim Xəlil xan dəxi Urmiya məhbəsindən xilas olub və Kərim xanın fərmanı ilə hökumətə mənsub olub, gəlib daxili-Qarabağ oldu. Burada gəlib xanlıq taxtında əyləşib, təməkkün buldu və tamam əhaliyi-Qarabağ və bir para əlavə vilayətlər İbrahim xana dəxi müti və münqad olub beduni-itaəti-əhdi hökmüranlıq qılıb kəlami-istiqlal ilə hökumət qıldı[1].

Pəs mərhum Pənah xan az müddət Şiraz şəhərində ki, Kərim xanın darüssəltənəsi idi, söhbət və işrət ilə onun yanında qaldı. Bundan sonra qəzayi-rəbbani varid olub, əcəl yetişib Şirazda həqq-təalanın rəhmətinə vasil oldu və oradan onun nəşini kəmali-ehtiramla götürüb Qarabağa, öz halal və zərxərid olan mülkü Ağdam torpağında mədfun etdilər (Rəhmətullah əleyhi)[2]. Ondan pareyi-vəqaye və işlər ki, üz verib məlumdur ki, Nadir şah vəfat edəndən sonra on iki il müddətində Pənah xan Qarabağ vilayətində hökumət edib, sahibi-kar və ixtiyar olubdur. Öz əyyami-əhdində günbəgün tərəqqi və bəxt və nüsrət hər tərəfdən Pənah xana ruyi avər olub və məmləkəti-Azərbaycanın çox vilayətlərinə hökmü nüfuz edib ona itaət edərdilər.

## DOQQUZUNCU FƏSİL

## İBRAHİM XAN MƏRHUMUN HÖKUMƏTİ VƏ ƏYYAMİ-HÖKUMƏTİNDƏ SADİR OLAN HEKAYƏTİN BƏYANIDIR

Çün Pənah xan həqq-təalanın əmrini yetirib vəfat etdi, fərzəndi-ərşədi İbrahim Xəlil xan hökumətdə müstəqillən mütəşəkkin olub tarixi islamiyyə 1174 sənədən 1221 (1760-1806) tarixə kimi Qarabağ vilayətində hökumət edib İran və Rum padişahlarının heç birinin ziri-hökmündə olmayıb və heç kimsəyə itaət qılmayıb biduni-itaət və inqiyad əhədi-hakimi-sahibi ixtiyar olub, istiqlali-təmam ilə

---

[1]Burada əlyazmadan (B-518) iki vərəq (30ab-31ab) düşmüşdür. Bu çatışmayan hissəni biz başqa nüsxədən (şifr M-195; 61b, 62ab, 63a vərəqlərində) transliterasiya etmişik.

[2]Əslində isə Kərim xan Zənd Pənah xanın günü-gündən artan hörmət və qüdrətindən qorxub, onu hiylə ilə Şiraza gətirib Qarabağa buraxmamışdır. Pənah xan 1760-cı ildə Şirazda vəfat etmişdir.

hökmranlıq eləyibdir. Öz əsrində onun hökmü Qarabağdan əlavə Şirvan, Şəki, Gəncə, İrəvan, Xoy, Naxçıvan, Qaradağ, Təbriz, Ərdəbil, Marağa və hətta Qaplanguhadək ki, İraq ilə Azərbaycanın sərhədidir, cari və nafiz olubdur. Tamam bu vilayətlərin hakimlərinin ədl və kəsi mərhum İbrahim xanın əmr və hökmü ilə olubdur. Dağıstanın Avar vilayətinin valisi ki, şul vaxtda Nusal (xanın) oğlu Ümma xan[1] idi, onun ilə dəxi qüvvətlik edib və Ümmə xanın bacısı Bikə ağanı əqd və nikah edib almışdı. Çox yaxşı, şirin qohum idilər. Hər bir vəqtə ki, zərur və dərgah olurdu. Dağıstan vilayətindən ləzgi qoşununu cəm edib Ümmə xanın və sair sərkərdələrinin ittifaqı ilə Qarabağa gətirib, hər yerdə ki, qoşun göndərmək lazım olanda öz övlad və əqrəbalarından dəxi sərkərdə töküb Qarabağ qoşunu ilə müttəfiq göndərib, düşmənlik edənlərə tənbeh və guşmal edəndi, özünə müti və münqad qılırdı. Belə ki, Dağıstan qoşunu ilə Qarabağı alıb, Kürdəşt ki, xəvani-Qaradağın məhəlli-qərar və aramgahları idi, xərab və zirü zəbər edib. Hənuz asar və cəlina aliha, səfilha dər və divarında bağidir və oranın sakinləri fərar edib sair mahallarda pərakəndə olmuşlar və Kürdəşt xanı Mustafa xanı ələ keçirib və əsir edib, Qarabağa gətirmişlər. Həmçinin sair vilayətlərin xəvaninlərinin bəziləri ilə qohumluq edib və bəzilərinə zor edib, özünə müti və münqad etmiş idi. Belə ki, Xoy və Şahsevən və Dağıstan və Qaradağ və Gəncə xanları ilə qohumluq etmişdi və sairlərilə dəxi həm qohum və qərabət və xah zor və qüvvət. Qərəz, hər günə səbəb ilə hamısı mərhum İbrahim xana canü dil ilə itaət qəbul edib, müti olmuşdular. Hətta ki, Təbriz və Qaradağ vilayətlərindən bəzi mahalları öz adı-sanı və etimadı olan sərkərdələrinə ənam və mərhəmət rəsmilə vagüzar edib, mənsub edərdi ki, nəfbərdar olurdular. Fil həqiqət İbrahim xan mərhumun adında hərçənd ki, padşahlıq ismi yox idi, amma dövlət və calalı İran padşahları kimi qayət təsəllüt və rüfət ilə istiqlası var idi. Məzkur vilayətlərin xəvaninlərinin övlad və yaxınları həmişə zaval rəsmi ilə Şuşa qalasında onun hüzurunda sakin olardılar və fərmayişatına itaət qılardılar. Bu səyaq-qərar ilə mərhum İbrahim xanın hökuməti və ixtiyarı və əsas xanlığı və iqtidan ziyadə olan əzimət və istiqlal ilə bulub, kəmali-ehtişam və ixtiyar ilə rəyasət və hökumət qıldı.

[1] Nusal xan - avar xanı olmuş, 1744-cü ildə ölmüşdür. Oğlu Ümmə xan (Ömər) 1774-1801-ci illərdə avar xanı olmuşdur.

ONUNCU FƏSİL

## AĞA MƏHƏMMƏD ŞAHIN İRANDA CULUS ETMƏYİN VƏ QALA ÜSTƏ QARABAĞA GƏLİB, BİNEYİ-MƏRAM QAYIDIB GETMƏYİNİ VƏ PAREYİ-VƏQAYEYİ BƏYAN EDİR

Tarix səneyi - 1206 olanda Kərim xan Zənd vəfat etdi[1].

Vəkili-İran Kərim xan Zənd vəfat edib, Ağa Məhəmməd şah ki, Qacar Məhəmmədhəsən xanın oğlu idi, şul vaxtlarda Şiraz şəhərində zaval rəsmilə olurdu. Elə ki Kərim xan Zənd vəfat etdi, Ağa Məhəmməd xan oradan çıxıb padşahlıq iddiasına düşüb, bir neçə il səy və guşiş edib, ta ki, İraq və Fars məmləkətlərinə təsəllüt tapıb və Tehran şəhərini özünə darüssəltənə qayırıb müstəqil oldu[2]. Dəxi tarixi-islamiyyə səneyi 1280 sənədə olanda məmləkəti-Azərbaycana varid olub və tam Azərbaycanın cənub tərəflərini taki, Arpa çayınadək ələ keçirib[3] ondan sonra Arazın bu tərəflərini ki, İrəvan və Talış və Şirvanat və Gürcüstan və Qarabağ və qeyri zəbt etmək niyyətinə düşdü. Əvvəl dəxi İbrahim xana xələt və şəmşir və qızıl əsbablı at göndərib öz itaətinə dəvət eylədi və İbrahim xan tərəfindən dəxi zəbani-itaət izharı və təarüfat küftarı əmələ gəlib bir neçə müddət elçiliyi tərəfeyi gəlib-getməkdə oldu. O cümlədən mərhum İbrahim xan öz əmuzadəsi Əbdüssəməd bəyi Mirzə Vəli Baharlı ilə ki, o da bir kardan və şirinzəban adam idi, zaval rəsmilə Ağa Məhəmməd şahın yanına göndərib və şah dəxi orada onları kəmali-hörmət ilə hüzurunda saxlayırdı. Bir az müddət bu minval ilə keçib, ondan sonra bir para düşvar təkalif və hökmlər İbrahim xana eylədi. Xan baxıb gördü ki, ondan buyi-ülfət məşami-təmənnayi gəlmir. Dəxi onun təkliflərini qəbul etməyib və hökmlərinə məhəl qoymadı. Bu səbəbə miyanlarına ədavət və küdurət düşüb, aralarında bərhəmzədəlik oldu.

---

[1]Kərim xan Zənd 1779-cu ildə ölmüşdür. Yuxanda 1206 hicri - 1791 miladi ili səhv olaraq göstərilmişdir.

[2]Ağa Məhəmməd xan Qacar (1779-1797-ci illərdə) İranda hökmdarlıq etmişdir.

[3]Mətndəl 280 hicri (1863 miladi ili) səhv getmişdir. Ağa Məhəmməd şah Azərbaycanın cənub hissələrini 1791-ci ildə özünə tabe etmişdir.

Pəs 1208 səneyi-islamiyyədə (1793)1 Ağa Məhəmməd şah əsakiri-əzim və cəmiyyəti-kəsir ilə Gəncə və İrəvan və Tiflis və Qarabağ və Şirvan vilayətlərini təsxir əzmilə Azərbaycan sövbinə hərəkət edib, əvvəla Şahsevən Əliqulu xanı ki, onun ümdə sərkərdəsi idi, bir para xəvanin ilə İrəvan üstünə məmur edib və özü dəxi İraq və Fars və Xorasan və Azərbaycan məmləkətlərinin tamam ləşkəri ilə Qarabağa və Şuşa qalasını təsxir etmək üçün azim oldu və gəlib Arazı keçib Şuşa qalasının on iki verstliyində Qaraxan mənzilində düşüb ordunu əylədi. Ol vaxtlarda, çünki Tiflis valisi İrakli xan, İrəvan hakimi Məhəmməd xan, Talış hakimi Mir Mustafa xan mərhum İbrahim xan ilə and içib həmqəsəm olmuşdular ki, heç vaxt Ağa Məhəmməd şahın itaətini qəbul etməyib bir-birilə hər halda müttəhid və müttəfiq olalar və bir-birinə məqdur olduqca mədəd və kömək edələr. Bu səbəbə Qarabağın ilat və tərakimə xalqının bir paraların Tiflis səmtinə və bir parasın Şirvan tərəfinə ki, Şirvanatda Mustafa xanı İbrahim xan mənsub etmişdi, o səmtlərə göndərib və baqi ilat xalqının ki, əksəri dəftərdə və siyahidə qoşun cümləsindən idilər, Qarabağın dağlarında və qalanın içində sükunət verib, çox olan atlı və piyada Qarabağın ilət və dehatından və mahallarından cəm edib və külli olan tədarüklər ilə və böyük və kiçik toplar ilə müstəidiqital və amadeyi-cəng olub qaladarlıq əsbabına məşğul oldular. Ağa Məhəmməd şah müddəti-otuz üç gün qalanın həvaləsində əylənib və Çiləbörd mahalının mələyi Məlik Məcnun dəxi, keçən övqatda İbrahim xandan rugərdan olub və Qarabağdan fərar edib, gedib Gəncə vilayətində gəncəli Cavad xanın yanında olurdu. Cavad xan Gəncədən onu da özü ilə götürüb, gəlib Qarabağdan Ağa Məhəmməd şahın hüzurunda ona müttəfiq oldular. Şah dəxi bu müddətdə o qədər əsakiri-əzim və cəmiyyəti-kəsir ilə qadir olmadılar ki, qaladan altı verst kənar olan Şuşa çayının o tərəfindən qala tərəfinə keçə bilələr. Atlı və piyada, Qarabağın sərkərdələri və qoşunu, ilat və dihat xalqları və Dizaq və Vərəndə və Xaçın mahallarının məlikləri və əlilləri dərələrdə və meşələrdə və güzərgahlarda qızılbaş qoşununa hücumlar edib, hər gün onlara külli zərərlər yetirib və qənimətlər gətirərlərdi. Mərhum Mirzə Camal yazır ki, o vaxtda mən özüm xan hüzurunda

[1] Ağa Məhəmməd Qacar 1795-ci ildə Şuşa üzərinə hücum etmişdir.

var idim və hər gündə vaqe olan əhvalatı və vəqayeyi bilirdim. Şul vaxt Qarabağ əhli müsəlman və erməni küllü-qoşun və cəmiyyət xan hüzurunda var idi. Ağa Məhəmməd şah bir gün mərhum İbrahim xanı qorxutmaq və bikamal hesab edib sataşmaq üçün bu fərdi münasibi-məqam bilib, divani-qəsaidi - Seyid Məhəmməd Şərar[1] təxəllüsdən intixab edib İbrahim xana yazdı:

Beyt:

Ze məncənəqi-fələk səngi-fıtnə mibarəd,
To əblahanə gerefti miyani-şişə qərar.
(Fələk mancanağından fitnə daşlan yağır,
Sən axmaqcasına şüşədə qərar tapıbsan).

Bu kağız mərhum xana yetişən kimi, verdi öz nədim hüzuru və vəziri-müşir məmləkəti olan Axund Molla Pənah Vaqif təxəllüsə. Mütaliə edib haman dəmdə bu beyti o məktubun dalısına yazıb geri qaytardı.

Beyt:

Gər nigahbani mən an əst ke, mən midanəm,
Şişə ra dər bəğəli səng nigəh midarəd.
(Məni saxlayan mən tamdığımdırsa,
Şüşəni daşın qoynunda salamat saxlar).

Vəqti ki, Ağa Məhəmməd şah bu kəlamatı görəndə son dərəcə qəzəbnak olub haman səat əmr eylədi ki, ildırım kimi olan əjdaha ağızlı toplara od qoydular və qala canibanə atdılar ki, o sədəmələrdən neçə evlərin divarı dağıldı. Amma hər nə qədər hay-küy və qırr-vırr oldusa, hərkiz mərhum xan xaif və hərəsan olmayıb nəzərə almazdı.

Əlqissə, otuz üç gün müddəti ki, Ağa Məhəmməd şah orada ordu edib əyləndi. Hər gün və gecə Qarabağın müsəlman xalqının atlı və piyadəsi fövc və dəstə-dəstə meşələrdə və Araz kənarından qala

[1] Şirazlı şair Seyid Məhəmməd Ürfi nəzərdə tutulur.

kənarınadək yollarda orduya gələn azuqə karvanını və ota və ələfə çıxan qoşun əhlini tutub öldürüb, at və ulaqlarını qarət və özlərindən bəzilərini əsir və dəstgir edib xan hüzuruna gətirirlərdi. Şul vaxtda qalada azuqə və tədarük və top və tüfəng və barıt və qeyri hədsiz idi. Hətta Qarabağın quldurları gecələr Ağa Məhəmməd şahın ordusuna girib xanların və sərkərdələrin çadırlarını qarət edib götürərdilər. Dəvə və at və qatır o qədər götürərdilər ki, yaxşı at on manata və dəvə altı manata və qatır dörd manata alınmazdı. Ağa Məhəmməd şahın qoşununa, at və ulaqlarına külli zərərlər olub və çox qoşun adamları qətlə yetişib, o cümlədən hərçəndi ki, ordunun ətrafını yaxşı möhkəm bürclər tərtib etmək ilə xeyli müstəhkəm etmişdilər ki, məbadə Qarabağın qoşunu gecələr şəbixun gətirələr. Ba vücud bu yenə əramineyi-mahali-Vərəndə piyadaları ki, Məlik Şahnəzərin böyük oğlu Məlik Cəmşid onlara yüzbaşı idi və xan hüzurunda olardılar və həmişə ata-babadan onlar Pənah xana və İbrahim xana sədaqəti-tamam ilə sədaqət göstəriblər. Hətta ki, Məlik Şahnəzər öz qızı Hurzad xanımı İbrahim xana övrət verib, kəbin etmişdi. Ba vücudinki erməni məzhəbində olmazdı. Əlqissə, haman Malik Cəmşid yaxşı yüzbaşılar ilə bir gecə Vərəndə piyadəsini götürüb Şuşa çayının ətrafında olan səngəri və bir möhkəm bürcü ki, Ağa Məhəmməd şahın və xassə fövcünün tüfəngçiləri mühafizət edirlərdi, dağıdıb və zor ilə qələbə edib, içində olan mühafizət edənləri ki, altmış nəfərdən ziyad imişlər, təmamən qətlə yetirib, başlarını və iki-üç nəfər dəxi diri adamlarını haman gecə sübhə yavuq mərhum İbrahim xanın hüzuruna gətirdilər. Xan dəxi şul Vərəndə piyadələrinə külli ənam verdi. Bu növ ilə qarabağlılar gecə və gündüz aram və asayişi qızılbaş qoşununa haram edirdilər və bu 33 gün müddətdə üç-dörd dəfə şah külli olan qoşunu qala üstə məmur etdi. Bir dəfə özü dəxi əzim olan cəmiyyət ilə Şuşa çayından qala tərəfinə keçib, qala üstə yürüş gətirmək üçün səy və təlaş etdilər. Amma bu tərəfdən çevik olan piyadalar və qoçaq olan səvarələr və rəşid və nami olan sərkərdələr müqabilə gedib, mərdanə davalar edib, mane oldular və qala almağa qoymayıb, basıb geri qaytardılar.

Əlqissə, Ağa Məhəmməd şah baxdı ki, qala müsəxxər etmək mütəzzur olmur. Çiləbörd mahalının məliki, Məlik Məcnun və Gəncə hakimi Cavad xan ki, sabiqən məzgur oldu, gəlib şahın hüzurunda

idilər. Onlar hər ikisi şaha dəlil oldular. Şah çoxlu məğlubiyyət və pərişanlıq ilə səmti-qaladan köçüb, qaladan beş ağac kənar olan Qara təpə mənzilində ki, Ağdam səmtində vaqedir, ordu eylədi. Həqiqət özünü mühasirədən xilas eylədi və bir ay müddəti dəxi şul mənzildə olub qoşunu at və ulağı rahat və aram tapıb, bəd əz an Gürcüstan təsxirinə azim oldular. Mərhum İbrahim xan şah hərəkət edəndən irəli bu xəbəri valiyi-Gürcüstan İrakli xana məlum eyləmişdi ki, Ağa Məhəmməd şah qalanı tutmaqdan aciz olub, qoşununa və at-ulaqlarına külli zərərlər yetişib. İndi məsləhət görüb ki, bu zərər və məğlubiyyətini o səmtlərdən dürüst etsin. Pəs o tərəfə yönəldi ki, o yerləri qarət və zəbt etsin. Gərəkdir ki, bunun zəbt və fəsad şərrini dəf etməklik tədarükünə məşğul və hazır olasınız.

Pəs Ağa Məhəmməd şah hər yerdə Cavad xan gəncəlinin və Məlik Məcnun məliki-Çiləbördün bələd və pişrövliyi ilə Tiflisə tərəf yönəldi. Elə ki İrakli xan vali bu xəbəri istima etdi, tədarük əzmində olub, Başıaçıq valisi Süleyman xana[1] ki, öz nəvadəsi idi və sair övlad və yaxınlarına ki, Gürcüstanı qismət eyləmişdi, tamamına əhvalatı məlum edib, istimdad qıldı və kömək istədi. Çünki vali özü qocalıb kuhənsal olmuşdu və sinni və yaşı yetmişdən keçmişdi. Amma bunun ilə yenə düşmənin dəfində və cəngü davada çalışqan və cəhd edirdi. Amma o ki oğlanları və övladı var idi, bir-birlərilə aralarında ədavət və ləcacət və küdurət vaqe olmuşdu. O səbəbə heç birisi kömək qılmayıb, valinin sözünə və hökmünə mültəfit olmayıb gəlmədilər, səvayi Süleyman xan ki, dörd min qoşun cəm edib vali hüzuruna köməyə göndərmişdi. Hərçənd ki, qalan övladına vali təkid və təkrar ilə hökmlər və kağızlar və sifarişlər etdisə, heç birisi baxmayıb, köməyə və davaya gəlmədilər və valinin əmrinə qulaq asmadılar. Ancaq ləhu vələəb zənanə ilə kisvəti-mərdanəlikdən ari olub, eyş-nuşə məşğul olurlar. Axır vali naçar olub, haman dörd min adam ilə Ağa Məhəmməd şahın müqabilinə əzm edib və gəlib Qazax və Borçalı mahalının İncə çayı (kənarında) düşdü və camaatı Qazaxdan və qeyri ilatdan həm bir qədər səvarə və atlı qoşun tədarük edib, oradan yenidən hökmlər və təkidlər övladına yazıb, kömək təklif və təkrar etdi və hərçi gözlədi ki, kömək gəlmədi. Ağa Məhəmməd şah dəxi gəlib Gəncəyə yetişdi və daxili-Gəncə oldu. Bali labüd və

[1] İmeretiya valisi Solomon nəzərdə tutulur.

laəlac olub, ehtiyatən qayıdıb. Övrəti Dede Valini[1] Tuşetiyə ki, bir nıöhkəm məhəl idi, göndərib və özü haman az adam ilə Tiflisdə qaldı. Elə ki Ağa Məhəmməd şah köç bir köç gəlib Soğanlığa yetişdi, orada gecə mənzil edib, sübhü şəhərə yürüş binası qoydu. Vali dəxi haman qəlil cəmiyyəti ilə müqabil gəlib cəbbəxana və toplar ilə davaya başladı. Çünki o qədər Seyli-əzimə bu az adam tab gətirmək məqdur deyildi. Axır dörd tərəfdən ləşkər şəhəri əhatə edib, nikini-ənguştər kimi araya aldılar. Vali sarsılıb, dəxi imarətinə daxil olmaq fürsəti də bulmayıb, bir nəfər atlı və bir nəfər qatırçı ilə Hallavar körpüsündən keçib fərar edən və heç yerdə davam etməyib, Qara-qalxan dağlarına getdi. Süpahi-Qızılbaş şəhri-Tiflisə daxil olub, Darüssüruru (Tiflisi) matəmsəra etdilər[2]. Belə ki, hər simbər bir divpeykörə düçar və hər mahru bir sitəmkərə giriftar oldu. Qərəz ki, az müddətdə çox sitəmlər etdilər və şəhəri yandırıb, qarət və qənayimi-kəsir və hədsiz olan kəsb və əsir götürüb, getdilər. Elə ki oradan müavidət edib Kürün kənarı ilə Cavad kəndinin həvalisindən Arazı ubur edib Muğanın geniş səhrasında düşüb bənayi-qışlaq eylədilər ki, qışı orada qışlayıb, yazda yenə dübarə Qarabağa, qala üstə gələlər. Onlar bu əzmdə ikən, vali İrakli xan dəxi Tiflisdən qaçıb gedib Tuşetdə öz övlad və yaxınlarını cəm edir və onlar ilə məsləhət və məşvərətlər qılır. Axır təmhid bu məqama müncər olur ki, vali deyir: "Bundan soma mənim ömrüm keçibdir. Dəxi ru görməzəm ki, bu halımda Ağa Məhəmməd şaha xidmətgüzar olub itaət qılam. Ancaq səlah budur ki, öz övladımın birisini sizin ilə Ağa Məhəmməd şahın hüzuruna göndərəm və aramızda saziş və birlik olmaq üçün zaval verəm və özüm fərağət ilə oturam". Bu günə məsaleh və müahid əzmində idilər ki, bu əsnada xəbər gətirdilər ki, Ağa Məhəmməd şah bu sayaq ilə qarət və əsir və kəsb və sitəmlər etdi və şəhəri dəxi yandırdı və xarab edib, qayıdıb getdi. Elə ki vali macəra və əhvalı bu növ eşidib və görəndə dəxi bu tədbir və məsləhətləri bərhəm edib, götürüb oradan bir Rusiya dövlətinə ərizeyi-ixlasi-fərizə və böyük imperatur həzrətlərinə[3] yazıb, mədəd və kömək təmənnası qıldı. Ağa Məhəmməd şahın zülm və cəfaların dəxi dərc edib, ianət

[1]Dede Vali (Dede Valo) II İraklinin arvadı Dariya Georgiyevnadır.
[2]Ağa Məhəmməd şah Qacar qoşunu Tiflisə 12 sentyabr 1795-ci ildə girmişdir.
[3]Rusiya çarı II Yekaterina (1762-1796) nəzərdə tutulur.

və imdad mültəmis oldu. Vəqti ki, ərizeyi-imperaturiyyə-üzma Yekaterina astani-mədilət bünyaninə yetişdi, padşah Yekaterina aciznəvazlıq məqamına gəlib əmr eylədi ki, general anşef qraf Valerian Zubov[1] qoşun ilə Gürcüstana gəlsin. Zubov ləşkər və əsasi-tamam və tədarükati-şayəstə və malakəlam ilə vilayəti-Gürcüstana, valinin kömək və imdadı üçün Rusiyətdən azim olub köç bir köç gəlməyə məşğul oldu. Ağa Məhəmməd şah dəxi o qışı Muğanda qışlaq edib əyləndi ki, bahar fəsli olanda yenə Qarabağa qala üstə gələr. Amma haman ili Şiraz və Kirman vilayətlərində şüriş və inqilab əmələ gəlib, Ağa Məhəmməd şaha xəbər yetişdi ki, Lütfəli xan Zənd ki, o da bir rəşid və səxavətli və səbahətli nami cavan idi, Kirman vilayətində sahibi-daiyyə və istibdad olub və Ağa Məhəmməd şaha yağı olmaq binası başlayıbdır. Pəs bu əxbari-vəhşətəfpayə görə Ağa Məhəmməd şah o yazı Qarabağa gəlməyi mövquf salıb, yolunu İraq və Fars və Kirman canabinə çevirib, o vilayətləri islah etmək və Lütfəli xana müqabil getmək binasını ilzəm və müqəddəm bildi. Çün o ildə Ağa Məhəmməd şah Fars və Kirmana mütəvəcceh olub, bu nahiyələrdən uzaq və kənara getdi. Haman ilin bahar fəslində mərhum İbrahim xan Gürcüstan valisi İrakli xana dəxi təklif eyləyib və Dağıstandan dəxi ləzgi qoşunundan kömək götürüb, gedib şəhri-Gəncəni mühasirə eylədilər. Bu səbəbə görə ki, Tiflis şəhərinin xarabaçılığına Cavad xan gəncəli bais olmuşdu. Pəs bir az müddətdə Cavad xan dəxi rəyə gəlib, mərhum İbrahim xana itaət eylədi və öz oğlunu və bacısını həm İbrahim xana zaval verib, əhdi şərti-müvekkid və şərt və möhkəm qıldı ki, bir dəxi əbədən mərhum İbrahim xanın itaət və məhəbbətindən birun və kənara olmaya. Haman davada dəxi Çiləbörd məliki, fitnə-fəsadçı olan, şər işlərlə məşğul olan Məlik Məcnun öldürüldü.

---

[1]Qraf Valerian Zubov 1796-cı ildə Azərbaycana gələn rus qoşunlarının başçısı idi.

ON BİRİNCİ FƏSİL

## ƏVVƏLİNCİ SƏRDARİ-RUSİYA GENERAL ANŞEF QRAF ZUBOVUN GƏLMƏSİ VƏ İBRAHİM XAN OĞLU ƏBÜLFƏT XANI GÖNDƏRİB, ONU GÖRÜB RUSİYA DÖVLƏTİNƏ İTAƏT İZHAR QILMAĞINI BƏYAN EDİR

İslamiyyə tarixi 1208 (1793)-ci ildə idi ki, Ağa Məhəmməd şah hənuz Fars və Xorasan sahətlərində idi ki, Gürcüstan valisi İrakli xanın ərizəsinə və həsbüt-təmənnasına görə imperaturiyyə üzma Yekaterina əmr eyləyib sərdari-əzəm anşef qraf Zubov zəfərli əsgərləri ilə əzm eyləyib və gəlib səmti-Dərbəndə və qəleyi-Dərbəndi müsəxxər qılıb ölkayi-Salyana və həvaliyi-şəhri-Şamaxıya varid olub, orada ordu eyləmişdilər[1]. İbrahim xan eşidən kimi, öz oğlu Əbülfət xanı Qarabağ bəyzadələrindən neçə nəfəri ilə yaxşı sovqat və töhfə və hədiyyələrlə göndərib öz səmimi-qəlbi və rzayi-xatiri və xahişilə Rusiya dövlətinə dil verib, izhari-itaət eylədi və həm bir ərizeyi-ixlas və iradəti-farizeyi-imperaturiyyə-üzma Yekaterina hüzuruna yazıb mərsul etdi. Çün onlar oraya yetişdilər, sərdari-əzəm dəxi o ki var, lazimeyi-hörmət və təzim idi, Əbülfət xanın və Qarabağ bəyzadələrinin haqqında əmələ gətirib və İbrahim xanın ərizəsini dəxi mötəmid mərsuləsi ilə öz eşikağasına qoşub, Dərbənd və Kızlar yolundan imperaturiyyə hüzuruna göndərib və İbrahim xana dəxi yaxşı, qiymətli hədiyyə və töhfələr (verib), bir nəfər knyazın mürafiqətilə mərsul edib qayət məhəbbət və nəvazişlər ilə impera-turiyyə üzmanın əbədi olan mərhəmət və inayətlərinə ümidvar eyləmişdi və bir yaxşı əsayi-mürəssə becəvahir dəxi Molla Pənah Vaqif təxəllüsə göndərmişdi. Elə ki ətraf xanlar xəbərdar oldular ki, İbrahim xan öz oğlunu sərdari-əzəm hüzuruna göndərib, onların hamısı ki, Mir Mustafa xan Talış və Mustafa xan Şirvani və Cavad xan Gəncəli olalar, hətta xəvanini-İrəvan və Naxçıvan və Xoy və Qaradağ təmamən mərhum İbrahim xan xidmətinə elçilər və namələr göndərmişdilər ki, bizlər hamı İbrahim xanın əmrindən və məsləhətindən

[1] V.Zubov Azərbaycana 1796-cı ilin yayında gəlmişdir.

xaric və kənar deyilik. Hərgah səlah görərsə, bizlər hamımız padşahi-mərhəmət məstgah imperaturi-Rusiyanı qəbul edirik. Mərhum İbrahim xan dəxi dübarə həmin xanların yazdıqları məktubları və qamu bu əhvalatı mücəddidən sərdari-əzəm Zubov hüzuruna göndərib, məlum eylədi.

Məxfi olmaya ki, hərçənd Gürcüstan valisinin əzəməti və şövkəti və calalı sair xəvanini-Şirvan və Xoy və İrəvan və qeyri kimi deyildi. Onun ocağı qədim və vilayəti əriz və dövlət və neməti əzim idi. Amma bu vücudun sahibi yenə hər cür səlah və məsləhətdə mərhum İbrahim xanın sözündən çıxmazdı.

Bu səbəbə ki, valiyi-Dağıstan avar hakimi mərhum Ümmə xan və sair Dağıstan əmirləri qohumluq cəhətinə İbrahim xana kömək və müti və münqadvar idilər. Çünki Ümmə xanın bacısı Bikə ağanı mərhum İbrahim xan almışdı və çox da mehriban qohum idilər. Əgər əhyanən bir ədavət və küdurət Gürcüstan valisi ilə mərhum İbrahim xanın aralarına düşsə idi, İbrahim xan işarə etsə Dağıstanın əhlləri və qoşunu Ümmə xanın əmrilə Gürcüstan vilayətini xarab edərdilər. Necə ki, 1199 (1784-85)-cu tarixdə valiyi-Gürcüstan ilə İbrahim xanın aralarında bir küdurət oldu. Ümmə xan avar hakimi çox ziyad olan qoşun ilə Gürcüstan sahətinə hərəkət edib qalanı və sığınacağı və Gümüşxananı təsərrüt etdi və çox xəlayiq məqtul olub övrət və uşaqdan çox əsir apardılar və ətraf və cəvanibdən çox kəndləri qarət edib, çapıb, dağıtdılar. Oradan əsirlər və qənimətləri götürüb, apardılar Axısqa vilayətinə və oranın paşası Süleyman paşanın yanına gedib, qışda orada qalıb, Rum sultanı xandkari-Rumdan çox ənam və xələtlər hasil edib, yazda yenə qayıdıb Gürcüstanın kənarından keçib Dağıstana gedən vaxtda dübarə Baxan qalasını ki, sərhəd və güzərgahda vaqe idi və qəleyi-möhkəm idi və orada knyazlardan Abaşidze knyaz öz əhl və əyalı ilə sakin olurdu. Haman qalanı mühasirə qılıb və təsərrüfə gətirdilər və qala əhlindən çox adamlar qətlə yetirib, mal və dövlətlərin qarət edib, əyal və ətfallarını əsir edib aparmışdılar. Haman qızların birisini töhfə və hədiyyə rəsmilə, bir para əlavə şeylər ilə mərhum İbrahim xana sovqat göndərmişdilər. İbrahim xan dəxi o qızı nikah edib özünə almışdı ki, bir oğlu Abbasqulu ağa adlı və bir nəfər qızı ki, Gövhər ağa ola, şul Abaşidze knyazının qızıldan təvəllüd etmişlərdi. Ağaşidze knyazın o birisi qızını dəxi

Ümmə xan özü əqd-nikah edib, almışdı. Əlqissə, bu səyaq işlərə görə valinin İbrahim xana görə ehtiyacı və ehtiyatı çox olardı və həmçinin Şirvan və Şəki və Gəncə və İrəvan və Xoy və Naxçıvan və Qaradağ və Talış və Təbriz və habelə Şahsevən və Şəqaqi xanları dəxi İbrahim xana müti var idilər ki, onun əmrindən və məsləhətindən təmərrüd və təxəllüf etməyə qadir deyildilər. Tiflis valisi dəxi həm ixlas və həm ehtiyat yolu ilə mərhum İbrahim xana görə müti idi. Xülasə bunlar hamısı İbrahim xanın məsləhətilə dövləti-behiyeyi-Rusiya itaətinə razı olub, elçilər və ərizələr göndərdilər və təmamisi nisbəti-dövləti-əliyyəyə görə müheyyayi-ixlas və itaət olmuşdular ki, bu əsnada imperaturiyyə-üzmanın vəfat etmək qəziyyəti vaqe olub[1], salari-əzəm Zubov dəxi Əbülfət xanı və onunla oraya gedən Qarabağ bəyzadələrini və kəndxudalarını izzət və hörmət ilə və pareyi-ənam və hədiyyələr ilə mürəxxəs və mətuf edib, özü dəxi imperator-padşah Pavelin[2] əmrilə dala qayıtmalı olub, əhvalı İbrahim xana məlum etmişdi. Özü müavidət qılıb Rusiyaya getmişdi. Bəs bu növ xəbəri və qəziyyəni ki, mərhum İbrahim xan eşitdi, qayətdə məyus və məğşuş olub, hamılara yəsi külli ruyavər oldu. Vali İrakli xan dəxi Ağa Məhəmməd şahın hadisəsindən sonra bir də Tiflis şəhərinə gəlmədi və iki ildən sonra vidayi-cahan edib vəfat etdi[3] və oğlu Georgi xan ki, vəliəhdi-vali idi, dualadılar, vali oldu. Amma sair qardaşları ki, İldun (Yulan) xan və Pirnavaz (Parnaoz) xan və Aleksandr Mirzə bu əmrə razı olmadılar. Çünki anaları ayrı idi[4]. Hər biri bir tərəfdən iddia və düşmənlik başlayıb, küdurət və ədavət binası qurdular. Pəs təzə vali Georgi xan naçar olub adamlar irsal edib və məvaciblər verib, Dağıstandan özünə kömək və qoşun götürüb, ləzgi və gürcü qoşunları ilə hərəkət edib, Kəsəmən qışlağından keçib, Aleksandr Mirzə ki, Qazax və Borçalı və Şəmsəddin mahallarına malik olmuşdu və valiyə ağ olub binayi-rüğyan və üsyan qılmışdı, onun üstünə azim oldu. Elə ki o, cəmiyyəti tamam ilə Qazax torpağına yetişdi, Aleksandr Mirzə tab və müqavimət gətirməyib izqrarən oradan qaçıb

---

[1]II Yekaterina 6 noyabr 1796-cı ildə ölmüşdür.
[2] Rusiyanın çarı I Pavel (1754-1801) nəzərdə tutulur.
[3]II İrakli 11 yanvar 1798-ci ilde Telavda ölmüşdür.
[4] Mirzə Adıgözəl bəy yazır ki, əksinə onlar bir anadan olmuşdur (Qarabağnamə, səh.86-87).

Qarabağa gəldi. Qarabağ vilayətində (bir) müddət qalıb, ondan Qızılbaşa getdi. Bəd əz an orada Qazax və Borçalı əhlinin bir para fəsad peşəli və şərarət əndişə olanlarına tənbeh və siyasət edib, ondan sonra şul qoşunu müqərrər etdi ki, Qars vilayətini çapavul etsinlər və onlar dəxi həsbül-müqərrərə görə gedib o nahiyələrdən pareyi-qarət və kəsblər edib, ondan qayıdıb yenə valinin hüzuruna gəldilər. Bəd əz an oradan müraciət edib gəlib Tiflis şəhərinə varid oldular. Çün Aleksandr Mirzə Gürcüstandan çıxıb Qarabağ vilayətinə fərari oldu, ondan sonra qalan valizadələr fərağət olub, filcümlə valiyə itaət qılıb aram oldular və başlarını salamat saxlamağı qənimət bildilər.

ON İKİNCİ FƏSİL

## AĞA MƏHƏMMƏD ŞAH DÜBARƏ QARABAĞA QALA ÜSTƏ GƏLDİYİNİ VƏ İBRAHİM XAN QARABAĞDAN ÇIXIB DAĞISTANA, CAR VƏ BALAKƏNƏ FƏRAR QILDIĞIN VƏ AĞA MƏHƏMMƏD ŞAHIN ŞUŞA QALASINDA MƏQTUL OLDUĞUN BƏYAN EDƏR

Çün qeyd oldu ki, İbrahim xan davasız və səbəbsiz öz xahiş və rizası ilə Rusiya dövlətinə ixlas və iradət bağlayıb, öz oğlunu sərdari-əzəm Zubov hüzuruna göndərib, dil vermişdi. İslam və İran padşahını tərk edib, öz səmimi qəlbi ilə imperatori-əzəm itaətinə raqib olmuşdu. Əlavə ətraf xəvaninlərinə dəxi bais olub, Ağa Məhəmməd şahdan rukərdan qılmışdı. Bunlar tamam Ağa Məhəmməd şaha məlum olub. Onun üçün İbrahim xana görə ziyadə qəzəbnak olub, ədavət və küdurət qıldı. Bu işlər səbəbinə görə İbrahim xanın qətl və dəfinə kəməri-hümmət bağlayıb, əzmi tamam ilə müsəmməm oldu. Pəs buna görə səneyi 1210-cu ilin bahar fəsli olanda tədarükü-şayan və əsakiri-firavan ilə Azərbaycan sövbinə hərəkət edib[1], dübarə Qarabağa və Şuşa qalasına müsəxxər qılmağa azam oldu. Və çün müddəti-üç il olurdu ki, afati-səmavi və ərzi-Qarabağ vilayətinə ruavər olub,

[1] Bu tarix səhvdir. Ağa Məhəmməd şah 1797-ci ilin baharında yenidən Azərbaycana hücum etmişdir.

məhsuli-qəllə və sair hübubat elə gəlməzdi. Aclıq və qıtlıq olub. Bir növ şiddəti-tamam ilə aclıq olmuşdu ki, şul ildə bir çetvert buğda yüz manata və arpa və darı altmış manata düşvarlıq ilə məqdur olurdu. Hətta ki, xalq at və qatır və pişik və eşşək əti yedilər. Meşələrdən palıd yığıb, qurudub, dəyirmanda üyüdüb, yeyirdilər və çox adamlar aclıqdan həlak oldular. Pəs bu növ aclığa görə iş düşvara və intizara yetişdi. Əksər Qarabağın ilat və dehat xalqı tamam dağılıb fövc-fövc köçüb Şirvan və Şəki və Tiflis və İrəvan vilayətlərinə mütəfərriq oldu. Sipahiye-qızılbaş və Ağa Məhəmməd şahın qoşunu dəxi gəlib Araz kənarına yetişdilər. Pəs bu növ neçə illərin zəhməti və azuqənin yoxluğu və aclığın şiddəti və çoxluğu və Ağa Məhəmməd şahın həm bu tövr ədavət və hərəkətinə görə dəxi qəleyi-Şuşada durmaq müşkül idi. Labüdən mərhum İbrahim xan öz əhl və əyalını və evini və övlad və əqvamını və bir para məruf bəylərin və xassü canisar mülazamlarının ev və külfətləri ilə qaladan köçüb Dağıstanın Car və Tala vilayətinə əzm eylədi. Bu mənzurə ki, orada bir müddət qala. Əgər Dağıstandan və Gürcüstandan və sair vilayətlərdən bir tədarük və ianət və layiq kömək gəlsə, qayıdıb müqabilə gələ və illa oradan Dağıstana öz qohumu Avar hakimi Ümmə xanın evinə gedib, özünü və əhlü əyalını Ağa Məhəmməd şahın siyasətindən mühafizət edə. Və xəvanin cümləsindən ki, o vəqtdə mərhum İbrahim xanın hüzurunda var idilər və ondan kənarəlik və ayrılıq ixtiyar etmədilər. Xanın damadı Nəsir xan, Əta xan Şahsevən və Səlim xan Şəki vilayətinin hakimi ki, o da yenə xanın damadı idi və bir para Şahsevənin və vilayəti Şəkinin bəylərindən və onların övlad və yaxınlarından var idilər. Ağa Məhəmməd şah Araz kənarında xanın qaladan çıxıb getməyin eşidib, iki minə yaxın atlı qoşuna buyurub ki, gedib bəlkə Gəncə yolunda və Kürün kənarında düçar olub bir iş edələr. Onlar dəxi əzm və həzm ilə ilqar edib, Tərtər çayının körpüsündə xanın və sair əşxasın köç və əyallarına yetişib, dava ediblər. Köç və külfətdən və sair adamlardan bir zərər olmayıb. Amma çox mal və dövləti nəqdü cins köçdən qarət edib qayıtmışdılar. İbrahim xan dəxi oradan Kür kənarına yetişib, Səlim xan hakimi-Şəki ilə ki, qohum idilər. Xan qızını ona vermişdi və onun bacısını dəxi özünə almışdı. Onları yaxşı, salamat Kürdən keçirib və özü dəxi evi və əyalı və xəvasları ilə İbrahim xana mülhəq olub, Şəkidən keçib, Car və Tala torpağına yetişdilər.

Əgərçi Car və Tala camaatının böyüklərinə və kəndxudalarına Ağa Məhəmməd şah tərəfindən fərman yetişmişdi ki, İbrahim xanı və sair xanları ki, oraya getmişdilər, mane olub, qoymasınlar ki, oradan keçib Dağıstana gedələr. Onlardan bir para cahil və nadan adamları əvvəl bir o təmənnaya düşdülər ki, onlara hücum edələr. Amma sonra xanın mənhukəsi, Ümmə xanın bacısı Bikə ağa onlara təhdid və tənsih etməyinə görə və bir dəxi bu səbəbə görə ki, müddəti-mütəmadi Carın və İlisunun və Balakənin və sair Dağıstanın əhlləri mərhum İbrahim xandan çox hörmətlər və məhəbbətlər və külliyyə bəziləri ənamlar və ehsanlar görmüşdülər. Ona görə kamilləri həmin cahillərinə mane olub, bu hərəkətdən nadim oldular. Bəd xana və həmrahlarına çox ehtiram və izzət və xidmətgüzarlıq və mehmannəvazlıq edib, onları hər yerdə hörməti-tamam ilə Balakən qəryəsinə yetirdilər. Pəs xan Balakəndə əylənib, fərağət oldu və sükunət qıldı. Hamı o camaat onun itaətində və təəssübündə və xeyirxahlığında var idilər[1]. Çox ehtiram və izzət və mehmannavazlıq əmələ gətirdilər ki, biqayət rizaməndlik hüsula yetdi.

Əlqissə, iyirmi gün müddəti xan Balakəndə əylənmişdi ki, Ağa Məhəmməd şahın Şuşa qalasında məqtul olmaq xəbəri xana yetişdi. Ağa Məhəmməd şahın ölümünün müqəddiməsi belə olubdur ki, xan Balakənə köçüb gedəndən sonra Ağa Məhəmməd şah bilaniza və beduni mane Şuşa qalasına gəlib, İbrahim xan mərhumun böyük oğlu general-mayor mərhum Məhəmmədhəsən ağanın imarətində mənzil ixtiyar edib əyləşir. Müddəti-bir həftə aradan keçir. Bir gecə qəzadan, bir əmrdən ötrü ki, xatirinə nagüvara olub iki nəfər pişxidmətlərinə ki, çox xidmətgüzari müqərrəb imişlər, acığı tutub, qəzəbnak and içib, deyib ki, əgər sabah olur, sizin hər ikinizə də əzim siyasət edərəm. O iki nəfərin adları birisi Səfərəli bəy və birisi Abbas bəy imiş. Çün onlar bilmişlər ki, onun dediyi və buyurduğu hərgiz təğyir və təbdil olan deyil, canlarının qorxusundan o gecə onu qətlə yetirməyi lazım bilib amadə olublar ta ki, səhərin açılmasına yaxın ki, şah yuxuda imiş. Hər ikisi xəncər çəkib şahın tacını, cavahir həmailini, bazubəndlərini, məşhur olan Nur və Kuhi-Nur daşlarını götürüb

---

[1] Burada əsas nüsxədən bir vərəq düşdüyündən, biz bu çatışmayan hissəni B-1917 şifrə altında saxlanılan nüsxədəki 29b, 30b vərəqlərdən götürmüşük.

sübh vaxtı Sadıx Şəqaqinin yanına gedib, həqiqəti-əhvalı ona hali ediblər. Sadıx xan əvvəl bu nağılı şahın hiyləsi təsəvvür edib, etimad etmədi. Fikir eylədi ki, nəbada bu hiylə ola ki, şah istəronu təcrübə etsin. Şah tərəfindən həmişə xatircəmliyi yox idi və canı qorxulu var idi.

Axırül-əmr müqəlləz and və qəsəmlər ilə inandırdılar. Durub gəldi yenə tam kəmali-xof ilə dəstiri-sabiq ilə imarətə daxil olub, haman otağın ki, şah orada yatmış idi, pərdəsin ədəbi-təmam ilə götürüb baş endirib, ahəstə otağa daxil oldu. Hərçənd Səfərəli bəy qatil ona dildarlıq verirdi. Yenə Sadıx xan xaif və hərəsan idi. Pəs Səfərəli bəy irəli gedib, şahın üstündən yorğanı çəkib, onun xunalud bədənini Sadıx xana göstərib. Sadıx xan tab gətirməyib haman saat fövri qayıdıb şahın bazubəndlərini, tac və həmailini götürüb öz mənzilinə gəlib səs saldı ki, şah məni Gürcüstan və Gəncə tərəfinə məmur edibdir. Özünün tamam tabelərini və Şəqaqi qoşununu təmamən görürüb, qaladan çölə çıxıb və haman Abbas nam qatili-şah dəxi onun yanınca gedib, Səfərəli bəy qalada qaldı. Elə ki Sadıx xan yola düşdü, iki saat çəkmədi ki, şahın qətlə yetişməyi qalanın içində şöhrət tapdı. Pəs Qızılbaş xanları sərasimə və pərişan olub hər kəs öz təvabelərilə əllərinə gələni götürüb, istecal ilə fövc-fövc yola düşüb qaçmağa məşğul oldular. Şəhərin əhli tökülüb hər kəsi ələ keçirdilər, tutub soyub, lüt edirdilər. Qala əhli xəbərdar olub, şah olan imarətə tökülüb, qarət ağaz etdilər. Məhəmməd bəy ki, mərhum İbrahim xanın qardaşı Mehrəli bəyin oğlu idi, o vaxtlar qalada şah yanında idi. Bir yaxşı, şüca və rəşid və xoşsurət və məşhur cavan idi ki, hamı əhaliyi-vilayət onu sayardılar və bir eldən və camaatdan idilər. (Molla Pənah) bu əşarı inşa edib, ona mərqum və mərsul eylədi:

Ey Vidadi, gərdişi-dövrani kəcrəftarə bax,
Ruzigarə qıl tamaşa, karə bax, kirdarə bax.

Əhli zülmi necə bərbad eylədi bir ləhzədə,
Hökmi-adil, padşahi-qadirü qəhharə bax.

Sübh söndü, şəb ki, xalqa qiblə idi bir çırağ,
Gecəki, iqbali gör, gündüzdəki ədbarə bax.

Taci-zərdən ta ki, ayırdı dimaği-pürğurur,
Paymal oldu təpiklərdə səri-sərdarə bax.

İbrət et Ağa Məhəmməd xandan ey kəmtər gəda,
Ta həyatın var ikən, nə şahə, nə xunxarə bax.

Baş götür bu əhli-dünyadən ayaq dutduqca qaç,
Nə qıza, nə oğula, nə aşina, nə yarə bax.

Vaqifa, göz yum cahanın baxma xubu ziştinə,
Yüz çevir, Ali-Əbayə, Əhmədi-Muxtarə bax.

Çün Ağa Məhəmməd şahın aqibəti və müqəddiməyi-əhvalı bu növ olub Məhəmməd bəyin ərizəsi şahın kəsilmiş başı ilə Balakənə İbrahim xanın hüzuruna yetişdi. Xan və cümlə baxan əşxas və əyanlar ibrətlər hasil edib, bəd əz an necə ki, rəviyeyi-nəcabətdir orada şahın başına hörmət və ehtirami-tamam ilə qüslü kəfən etdirib və mötəbər və yaxşı kamil mollalar ilə göndərib, Carın üzmalarının məqbərələrində möhtərəm məhəldə dəfn etdilər və bir para maneələr və səbəblər cəhətinə İbrahim xan Qarabağa, tez qayıtmaq məqdur olmayıb üç ay müddəti Balakəndə təvəqqüf etdi. O vaxtlarda hər tərəfdən, xüsusən Gürcüstan valisindən və Gəncə hakimi Cavad xandan və Şirvan və Şəkidən xana çox sovqatlar, töhfə və hədayalar gəlirdi, hamısı izhari-dusti və ixlas və məhəbbət və yeganəlik edirdilər. Buna görə ki, çün o tövr, sahibi-calal padşah ki, qəvi olan düşmən idi. Fövt olub və hamı Azərbaycanın və sair məmalikin böyüklərini və xəvanini həmişə İbrahim xanın əzəmət və şövkətini və əmrini nüfuz və cərəyanını və hər yerdə sayılmasını çox müddət götürmüşdülər və bilirdilər. Hamısı bu səbəbə itaət məqamında var idilər. İstərdilər ki, qeyrilərdən irəli öz xeyir və səlahları üçün onun rizayi-xatirini ələ gətirib sədaqət və məhəbbət və möhkəm olan xüsusiyyət əmələ gətirələr.

Əlqissə, mərhum İbrahim xan bəd əz an ki, bir ay müddəti keçmişdi ki, Balakəndə təvəqqüd edirdi. Öz qohumu avar hakimi Ümmə xan Dağıstanın ruəsaları və böyükləri və sərkərdələri ilə və külli tədarüki-məkulat və məlbusat ilə və külli-qoşun ilə xanın yanına gəldilər. Orada o ki, lazimeyi-qohumluq və mehribanlıq və mehman-

darlıq və insanlıq idi, necə ki, şöylə əmiri-əzəmdən o tövr mehmani-möhtərəmə şayistə olan qayət mərtəbədə əmələ gətirib nəinki yalnız mərhum xana və övladına və Qarabağ bəylərinə, bəlkə tamam orada olan Şahsevən xanlarına və onların adamlarına və bəylərinə və əyallarına taarüfdən və hörmətdən və xörək və puşakdan və xərci-məişətdən necə ki, lazımdır qüsur və füturu qoymadılar. Hamı barədə ziyad olan rizaməndlik hüsula yetdi. Çün iki ay qədəri xan orada qaldı. Qarabağa gəlmək əzmin eylədilər...

ON ÜÇÜNCÜ FƏSİL

## BİR PARA MÜQƏDDİMƏLƏR Kİ, AĞA MƏHƏMMƏD ŞAH FÖVT OLANDAN SONRA VƏ İBRAHİM XAN QARABAĞDAN ÇIXANDAN VƏ QAYIDIB GƏLƏNDƏN SONRA ÜZ VERİB, ONLARI BƏYAN EDİR

O cümlədən Molla Pənah Vaqifin ölmək hekayətidir. Belə ki, məşhur Axund Molla Pənah bir sahibi-kəmal və müddəbir və təcrübəli və şair və xoşməqal adam idi. Əsli Qazax camaatından idi, amma gəlib Qarabağda İbrahim xanın hüzurunda izzət və şöhrət və xüsusiyyət hasil etmişdi ki, xanın ondan kənar məsləhəti olmazdı. Onun vəziri və mötəmidi idi. Və hər ümuri-hökumət və qeyridə Axund Molla Pənahın tədbiri və müşavirəsi ilə rəftar edərdi. Hər necə düşmüşdüsə ona yaxşı inanıb etimadi-külli etmişdi ki, hamı övlad və əqrəbalarından artıq onun xatirin və hörmətin mənzur edirdi. Və külli-ixtiyarın ona vermişdi[1]. Xan Dağıstana, Car və Balakənə gedən vaxtda Molla Pənah, çün Muğanlı Cəmil ağanın ittifaqı ilə Təklə Muğanlı həmçinin əslən qədim Qazax elindəndirlər, ikisi də Tiflis canibinə getmişdilər. Oradan Qarabağa müaviyət edən zamanda və yainki, bir rəvayətdə Qarabağdan Ağa Məhəmməd şahın xofundan qaçıb xanın dalınca o tərəfə əzm etdiyi halda, Gəncənin dağlarının həvaləsində Gəncə hakimi Cavad xan onu özünə ümdə olan sovqat

[1]Nüsxədə olan çatışmazlığı M-195 şifrəli əlyazmadan 77b, 78b vərəqlərindən görüşmüşük.

bilib, tutub öz ittifaqı ilə Ağa Məhəmməd şahın hüzuruna gətirmişdi. Çünki şah onu tutub çoxdan qətlə yetirmək arzusunda idi. Haman vaxt ki, onu dəstgir edib şahın hüzuruna qalaya gətirmişdilər, axşartı vaxtı idi. Şaha məlum etmişdilər, şah buyurmuşdu ki, onu möhkəm saxlasınlar ki, sübh onu əzim olan siyasətlə qətlə yetirəcəyəm.

Əlqəza, təqdir belə oldu ki, haman o gecə Ağa Məhəmməd şahı öldürdülər və Molla Pənah salamat qaldı. Bu qəribə mücməl hekayətin keyfiyyəti-təfsili budur ki, çün Axund Molla Pənahı qüruba bir-iki saat qalmış Şuşa qalasına gətirdilər. Məhəmmədhəsən ağanın evinin qapısında ki, şah orada mənzil eyləmişdi, dəstgir saxlayıb şaha məlum etdilər. Şah buyurdu ki, bu gecə onu yaxşı mühafizət edin, sabah ona bir siyasət edim ki, ibrətün-naziran olsun. Qərəz o halda Məhəmmədhüseyn xan Qacar ki, şahın çox yaxınlarından idi, Axundu qapıda əlibağlı görüb soruşdu: “Bu kimdir?” Dedilər: “Bu haman məşhur Molla Pənahdır ki, eşidibsiniz?” Haman dəm ağzını föhşə açıb Axunda çox yaman föhşlər və itab və xitablar eylədi. Axundi-biçarə ərz eylədi ki, “Ey xani-əzimüşşən. Siz böyük olan şəxs varsınız və padşahi-İranın mötəmidi və nəzərkərdəsi və müqərrəb hüzurusunuz. Layiq deyil ki, siz dəstgir və günahkar və müqəyyəd və giriftar və biçarə və dərməndələrə yaman kəlmələr və föhş və hədyan sözlər buyurasınız. Bəlkə sizin rütbə və məratibinizə şayəstə olan budur ki, gərək ətvar və əxlaqi-həsənə və küftar və rəftari-nəcibanə sizdən zühur edə. Bu gunə dərmandə və əsir və xaif olan acizlərə siz dildarlıq gərək verib, iltifat və mərhəmət, əvf və ətayə ümidvar qılasınız. Nəinki şahın qəzəbindən qəzəbnak olub, dilazarlıq edəsiniz”. Məhəmmədhəsən xan bu cür kəlamatdan heç bir mütəəssir olmayıb yenə föhş və hədyanı ziyadə başladı:

Axund, hər ke dəst öz can beşuyəd,
Hər çe dər del darəd bequyəd.
(Ey axund, canından keçibsə bir kəs
Ürəyində nə varsa açıb deyəcək).

Məzmuna görə dəxi qərar etməyib, haman xanın cavabını dəxi-ziyadə föhşkarlıq və darüştgüftarlıq edib dedi: “Ey xani-nanəcib, qəzayi-sübhani və dövri-zamani və müqəddimeyi-fərdani sən nə bilirsən, bəlkə sabah şah mənə ənam və xələt də verib, xoşhal və

azadə edəcəkdir və ya fələyi-kəcrəftar və təqdiri-pərvərdigar bir qeyri-təriq yol gedəcəkdir!

Şəb abestən əst, ta çe zayəd be ruz.
(Gecə hamilədir, görək gündüz nə doğacaqdır).

Mən ki indi dustağam, şah dustağıyam, sən nəkarəsən ki, mənə təərüz və əziyyət edə biləsən. Məhz bu günə ətvari-naqabil sənin nakəs və nanəcibliyinə dəlildir. Həqq-təala kərim və rəhimdir". Məsəldir ki, mıxı mismar eyləyən vardır. Qəzara iş şöylə oldu ki, o gecə şahı öldürdülər. Molla Pənah salamat qurtardı. Axund, Ağa Məhəmməd şahın əlindən xilas oldu. Amma Məhəmməd bəyin əlində giriftar olub qətlə yetişdi. Səbəbi-qətli bu idi ki, çün Axund mərhum İbrahim xanın yanında sahibi-ixtiyar və müdəbbirkar olan vaxtlarda Məhəmməd bəy ona çox hörmətlər edərdi ki, onun tədbiratı səbəbinə xandan bir para təmənnaları var idi, əmələ gələ. Axund vasitəçilik eyləyə, onu İbrahim xana ziyadə yaxın qıla və bəlkə qızını da ona ala ki, müqtəzi ül-məram ola. Amma onun bu mütalibatı axundi-məzburdan hasil olmamışdı və onun məsulatını icabət qılmamışdı. Çünki Məhəmməd bəy çox rəşadətli və qüvvətli və səlabətli idi. Tamam əmizadələri və xanın qohum və əqrəbaları və müqərribləri məcmuən ona hasid və məand və düşmən var idilər. İstəməzdilər ki, Məhəmməd bəy İbrahim xana şöylə yaxın ola. Hamısı ona bədxah idilər və bir də ki, çox fəsad işlər yer üzündə övrət səbəbinə olubdur. Deyirlər Molla Pənahın bir yaxşı, gözəl, sahibi-camal məşhurə övrəti var idi ki, çox şöhrətli idi və Məhəmməd bəy dəxi onun şöhrətini və tərifi-camalını eşitmişdi. Ona eşqi və əlaqəsi var idi. Çün övrət cahilə və cavan, axund qoca və natəvan idi və əlavə Məhəmməd bəyin rəşadət və şücaəti və xoşsurət olduğu və fərasəti padşah xəzinəsi əlində olmağı və cavan oğlanlığı övrəti dəxi ziyadə ona əlaqələndirmişdi. Övrət Məhəmməd bəyə demiş idi ki, hərgah Molla Pənah hali-həyatda sağ ola, şəraitə görə mən sənə gedə bilmənəm. Bir səbəb dəxi bu idi ki, pareyi-fəsadpişə adamlar özlərinin səlahkarları üçün Məhəmməd bəyi təhrik etmişdilər ki, Axund Molla Pənahı öldürə ki, o səbəbə Məhəmməd bəy İbrahim xandan uzaq ola və onlar da Məhəmməd bəyin hüzuruna sahibkar və yaxın olalar, iş-güc sahibi və rəşid və xəzinə sahibi və şüca adamdır.

Onları mühafızət qıla, xoş ovqat olalar və işrət qılalar. Hər hal ilə isə qərəz Ağa Məhəmməd şahın qətlindən neçə gün sonra Molla Pənah Axundu və bir oğlu Qasım Ağanı[1] Məhəmməd bəyin əmri ilə tutub qətlə yetirdilər. İndi qala içində günbədi var ki, orada mədfun ediblər. Əlqissə, bais o oldu ki, ondan sonra Məhəmməd bəyin İbrahim xan ilə ədavəti zahir olub, dəxi heç bir vəch ilə xatircəm olmadı. O qədər kənar gəzdi ki, axır gedib Şəkidə öldürüldü ki, onun da hekayəti ənqərib məzkur olacaqdır. Dəxi haman məzkurə və məşhurə övrəti Molla Pənah məqtul olandan sonra Məhəmməd bəy alıb özünə övrət eylədi. Bir az müddətdən sonra ki, Mustafa xan Şirvanlı, Məhəmməd bəyi qətlə yetirdi, haman övrəti Sarıcalı Hüseyn bəy adlı ki, əsli qarabağlı idi, şəkili Məhəmmədhəsən xanın yanında olardı, o, almış idi, onun övrəti idi ki, o, Hüseyn bəy dəxi sonra Şəkidə dəxi qaçıb Şirvana Mustafa xanın yanına getmişdi. Orada sakin olub, gahi oradan Qarabağa quldurluğa gələrdi. Bir dəfə dəxi quldurluğa gələndə Mehdiqulu xan ağa olan zamanda dəstəsilə gedərkən xidmətində polkovnik Fərəculla bəyin atası Uğurlu bəy və Əsəd bəyin atası mayor Rüstəm bəy və sair bəylərdən həm var imişlər. Haman quldur dəstəsinə düçar olub, quldurları basıb və qırıb dağıtmışdılar və haman Hüseyn bəyi dəxi Uğurlu bəy öldürmüşdü. Elə ki fövt oldu, ondan sonra haman övrəti Mustafa xan alıb özünə övrət eləmişdi və ondan Mustafa xanın iki oğlu oldu ki, ona kimi Mustafa xanın övladı olmazdı. Qəzadan o oğlanlar olandan sonra Mustafa xan haman övrətə təlaq verib boşadı. Övrət dəxi Qarabağa gəldi və Qarabağda dəxi mayor İmamqulu ağa almışdı ki, bu yaxın illərədək sağ qalmışdı. Səksən ildən yuxarı ömr elədi. Bu qəbil hekayətlər Qarabağda çox olub, tamamisi yazılsa çox böyük tulani kitab olar, qalsın.

Əlqissə, çün Ağa Məhəmməd şah qalada məqrul oldu və İbrahim xan dəxi Balakəndə üç ay qaldı. O müddətdə Məhəmməd bəy Qarabağda hökumət əmrinə və divan etməyə məşğul var idi. Əgərçi Məhəmməd bəy bir hökumət fikrinə düşüb, Axund Molla Pənahı öldürüb və övrətini ahb və üstünə rəşadətli adamlardan çox cəmiyyət yığıb, ilatdan və qeyrilərdən bir parça özünə ixlasmən olanlardan külli dəstə və havaxahlar cəm edib, şahın xəzinəsi də ki, təsərrüfündə idi bihədd olan qızıl və gümüş və cavahiratı ki, var idi, pareyi-

1

[1] Bütün mənbələrdə M.P.Vaqifin oğlu Əli ağa adlanır

məşhur adamlara verib, özünə cəmiyyət və havaxah çox fərahəm etmişdi. İlatın bir parasın dəxi köçürüb Araz kənarına aparıb, orada oldu. Sadıq xan Şəqaqi ilə həm qohumluğu var idi və İranda dəxi hənuz bir padşah müəyyən olmamışdı. Xalq Sadiq xana müti var idilər. Ona dəxi arxalanıb istərdi ki, hökumətə otura, görə axırı nə gunə olur və mirati-ruzigar nə surətə zahir qılır... Pəs elə ki, iki ay qədəri İbrahim xanın Balakəndə məks etməyindən keçdi, Qarabağın və Şahsevənin orada olan əhlləri Balakəndən Qarabağa gəlmək əzminə düşüb sövbi-vətənə varid olmağa şayiq oldular. Pəs xan məsləhət görüb əvvəl Balakəndən Mehdiqulu xanı ki, şul vaxtda Ağa derlər idi, Qarabağın bəylərinin övladları ilə və neçə nəfər bəyzadələr ilə yola saldılar ki, o gəlib Qarabağa daxil olanda Qarabağın əhlləri bir para xilaf işlərə mürtəkib olmayıb, avazeyi-təmərrüd kənar olur. Pəs Mehdiqulu xan bəyzadələr ilə gəlib Qarabağ torpağına yetişdilər və Məhəmməd bəy də hərçənd onun barəsində zahirən bir para rəviyyələr və mehribanlıqlar əmələ gətirdi. Amma çünki əyyami-cavanlığın və o günə var-dövlət və xəzaneyi-padşahlığın hövasına görə və bir parə insani təhriklər nəfsin və tamahın tələbinə görə batinən başına həvəsi-hökumət düşüb Mehdiqulu xana o qədər də məhəl-güzar olmaz idi. Mehdiqulu xan dəxi zərurəti-həsbi ilə onunla müdara qılıb pərdədürlük etməzdi. Gah ətraf səmtlərdə və gah qala içində yola gedərdi və həqiqəti-əhvalı və siyaqi-rəftari dəxi ərizə ilə atası İbrahim xan hüzuruna pişnihad edib, müntəzir var idi. Çün bu əxbar Kür kənarında İbrahim xana yetişib öz böyük oğlu Məhəmmədhəsən ağanı üç yüz ləzgi qoşunu ilə və Qarabağ sərkərdələrilə çaparvar göndərib yolda Məhəmmədhəsən ağaya belə xəbər verdilər ki, Məhəmməd bəy xanın gəlmək avazəsin eşidib, Qarabağın ilat xalqını yığıb, bir parasın köçürüb Arazın səmtinə aparıb orada saxlayıb və özü də çıxıb qalanın üç ağaclığında vaqe olan Kirs dağında cəmiyyəti-tamam ilə əylənib, əzmü iradəsi budur ki, dava başlayıb, müxalifətə başlaya. Buna görə mərhum Məhəmmədhəsən ağa sürəti-tamam ilə haman ləzgi qoşunu ilə ilqar edib, Məhəmməd bəyin cəmiyyəti və həvaxahları və özü ki, əsas və calal ilə şahın alatəpə və sərapərdəsin bu Kirs dağında dəxi qurub əylənmişdilər. Onların sərvəqtinə varid oldu. Çün Məhəmmədhəsən ağa həqiqətdə çox sahibi-tədbir və sahibi-hörmət, sahibi-nəcabət, sahibi-vüqar və sahibi-rəftar adam

idi və xalq hamı onu sayardılar və heç kimsə ona etinasızlığa olmağa cürət etməzdilər. Elə ki Qarabağ əhli mərhum Ağanı görcək hamısı fövc-fövc gəldilər, Ağanın xidmətinə baş endirdilər və bəziləri əlini öpdülər. Hamı Məhəmməd bəyin yanında olanlar gəldilər. Hərçənd Məhəmməd bəy əvvəl dəfə bir qədər xofnak oldu, amma axır Məhəmmədhəsən ağa ona xatircəmlik verib. O da gəlib Ağanın əlindən öpdü və üzr istədi və Ağa dəxi onu hər babda xatircəm edib çox məhəbbətlər etdi və hətta o qədər mehriban oldu ki, qızını da ona verməyə xahişi oldu. Bir az müddət müvafıq olub bir-biriylə mehriban oldular. Sonra bir neçə nəfər şər adamlardan Məhəmməd bəyin yanında var idilər ki, onun istiqlal və hökumət xəyalında olduqları vaxtda bir para fəsad işlərə bais və mürtəkib olmuşdular. Məhəmmədhəsən ağa onlara Məhəmməd bəyin öz gözünün qabağında tənbeh və siyasət olmağa əmr eylədi. Mehdiqulu xan da ki, qala içində idi. Elə ki eşitdi qardaşı Məhəmmədhəsən ağa qoşun ilə gəlib qalanın bərabərindən keçibdir. Haman dəm də Məhəmməd bəyin mənsub etdiyi adamları ki, öz əmizadələri idilər, tutdurub məhbus eləmişdi. Pəs mərhum Məhəmmədhəsən ağa Qarabağın ilat camaatına xatircəmlik və asayiş verib, hamı mahallara hökmlər yazdı ki, məcmui-xəlayiq asudə və rahat olub öz iş-güclərinə və kəsbü güzəranlarına məşğul olsunlar. Pəs ondan sonra mərhum İbrahim xan dəxi gəlib Qarabağ torpağına yetişib öz məğərri-hökumətində qərar tutdu və Qarabağın ilat və dehatı və əksər camaatı aclıqdan və qəhətlikdən pərişan və pis vəziyyətdə olub Gəncə və İrəvan və Şirvan və Gürcüstan vilayətlərinə dağılıb, hətta Rum vilayətinə dəxi dağılıb mal və dövlətləri təmamən qarət gedib, ziyadə əfsurdəlik olmuşdu və ətrafının zülmkar xəvaninləri dəxi, əgərçi zahirdə itaət və məvəd-dətilafi edirdilər. Amma batinən hamı öz səlahlarını güdüb və öz nəflərinə talib idilər. O cümlədən şirvanlı Mustafa xan vəqti ki, İbrahim xan Balakəndə idi, şəkili Məhəmmədhəsən xan ki, Səlim xanın böyük qardaşı idi və Səlim xan hakimi-Şəki ki, İbrahim xanın damadı idi və o da xanın ittifaqı ilə Dağıstana getmişdi. Mustafa xan Məhəmmədhəsən xanı təhrik edib, gətirib özü də ona kömək və yardım qılıb, Şəki vilayətində hökumət əmrində qoydu. Ba vücudi ki, haman Məhəmmədhəsən xanın gözləri dəxi kor idi. Mustafa xan o qədər də razı deyildi ki, Səlim xan Şəkidə hakim olsun. Çünki Səlim

xan İbrahim xanın damadı idi və bir-birinə müttəfiq idilər. O gəlib Şəkidə yenə hökumət edəndə və Qarabağ və Şəki birləşib müvafiq olanda ona zərərləri yetişirdi və onda Mustafa xan acizlik və itaətindən qeyri onlara başqa yol ilə üstünlük edə bilməzdi. Pəs buna görə Məhəmmədhəsən xan ilə razılıq edib, Səlim xan Dağıstandan gəlməmiş onu Şəkidə hökmran elədi ki, məbada Səlim xan gəlib yenə Şəkidə hökumətə əyləşə. Onu bidəxil etmək mətləbi idi və Məhəmməd bəy də Məhəmmədhəsən ağa ona xatircəmlik verdikdən sonra asudəxatir olub, o da sair xəvanin övladları kimi mərhum Pənah xan övladı və silsüəsinin içində mütləğa can qorxusu xatirinə gələn deyildi. Saymaz və rəşid və hünərmənd igid idi və həm o övqat saymazlıq məğrurluğu və xəzinə və dövlət havası və əlavə bir para şərir adamlar ki, xan Qarabağdan çıxıb və yenə vilayətə gələnədək bihesab işlər tutmuşlardı, onların təhrik etməkləri bais olub ki, xəzinədən çoxusunu Qarabağın dağlarında və daşlarında gizləyib və bir qədərin dəxi özü ilə aparıb Kürün kənarında olub, xana səmt gəlmədi. Pəs Məhəmmədhəsən xan şəkili ki, gözləri kor idi və Mustafa xan şirvanlı ilə müttəfiq var idi və qədimdən İbrahim xan ilə ədavəti küllüləri var idi, onun ilə dostluq binası qoyub Məhəmmədhəsən xan Məhəmməd bəyi aldadır. Adam göndərib Məhəmməd bəyə təhrik edir ki, gəlsin buraya, Şəki vilayətində əyləşsin. Mən özüm bir naibina və kor kişi varam və qızımı da ona verib özümə onu oğul edirəm və burada Şirvan hakimi Mustafa xanın bir para hərəkatı və nərəva təklif və təhəkkümatı məni cana yetirib, təngə gəlmişəm, gəlsin Şəkidə hökumət etsin. Çünki qədimdən Məhəmməd bəy Mustafa xanın atası Ağası xanı və qardaşı Əhməd bəyi və əlahiddə qardaşını öldürmüşdü. Bu səbəbə ki, Məhəmməd bəyin atası Mehrəli bəyi ki, İbrahim xanın qardaşı idi, Şirvan vilayətində Mustafa xanın atası Ağası xanın adamları öldürmüş idilər. Ona görə Məhəmmədhəsən xan Mustafa xanın təhrik və fitvası ilə Məhəmməd bəyə fərib verdi ki, bəlkə oraya gedə. Mustafa xan orada onu ələ gətirib öldürə. Bu mənzur ilə Məhəmmədhəsən xan çox and və qəsəmlər ilə mərhum Məhəmməd bəyi inandırıb öz yanına aparmışdı və haman günü ki, oraya yetişib, haman dəmdə onu tutub və hər nə ki, əlində və yanında dövlət və cavahir və qızıl-gümüş və sair nəqdü cins var idi hamısını alıb sahib və mütəsərrif olub və dəsti

Mustafa xana xəbər eyləmişdi və Mustafa xan dəxi təcili tamam ilə gəlib Məhəmməd bəyi məhbus və bağlı alıb, orada qətlə yetirmişdi:

Bəli ruzgar əst anke gəh izzət dəhəd və gəh xar darəd,
Çərxi-bazigər əz in baziçeha besyar darəd...[1]

Əlhasil, Ağa Məhəmməd şahın düşmənçiliyi və Qarabağa gəlməyi Qarabağ vilayətini xarab və viran etdi və xalq tamam mütəfərriq olub dağıldılar. Bir yandan dəxi taun azarı şiddət elədi və aclıq və qəhətlik əmələ gəldi. Vilayət ziyadə qüsur və məğşuşluq hasil etdi və dağılanı dağıldı və qalanlarına dəxi Mustafa xan hakimi-Şirvan və Məhəmmədhəsən xan hakimi-Şəki və Cavad xan hakimi-Gəncə çox zərərlər və qarətlər yetirdilər. O həm bir xarabalığa bais oldu və ətraf dəxi hər canibdən günə-günə cürətə və ədavətə başladılar. Qarabağın vilayəti və İbrahim xanın əsas və calal və işi və istiqlal və hökuməti bir qədər kəsrü nöqsan hasil elədi. Pəs bu əsnalarda Fətəli şahın əhvalı yetişdi ki, İranda şah olubdur və İbrahim xana elçisi gəldi.

## ON DÖRDÜNCÜ FƏSİL

## İRANDA FƏTƏLİ ŞAHIN ŞAH OLMAĞINI VƏ İBRAHİM XAN İLƏ MACƏRASINI BƏYAN EDƏR

Belə ki, Fətəli şaha Baba xan sərdar derlər idi, Ağa Məhəmməd şahın tərəfindən Fars məmləkətində və Şirazda vali idi[2]. Elə ki şahın Qarabağda Şuşa qalasında məqtul olmaq xəbərin eşitdi, oradan təcili-tamam ilə ilqar edib Tehran şəhərinə gəldi və oradan xəzinəyə və əsbabi-padşahlığa malik və mütəsərrif olub məsnədi-şahlıqda mütəməkkin olub, övrəngi-səltənətdə cülus qılıb, kəmali-istiqrar və istiqlal ilə əyləşdi. Bu tərəfdən Sadıx xan Şəqaqi ki, Şuşa qalasından fərar edib getmişdi, o da Azərbaycanda vilayəti sahibsiz görüb, başına külli

[1] Bəli, dünya belədir ki, gah izzətli olur, gah tikanlı, Adam oynadan dünya, belə oyunlardan çox edir.

[2] Fətəli şah (1797-1834) Ağa Məhəmməd şahın bacısı oğlu idi. Şah Fətəli xanı özünün sələfi adlandırmışdı

cəmiyyət yığıb Tehranı müsəxxər eləmək və öz zaval evlərini xilas edib gətirmək əzmində və Fətəli şahla cəng və rəzminə İraq səmtinə hərəkət elədi. O tərəfdən Fətəli şah xəbərdar olub, müqabilə gəlib, dava oldu. Sadıx xan tabi müqavimət gətirməyib, şikəst oldu və vilayətdən fərari düşüb, tərki-vətən qıldı. Bəd əz an Fətəli şah istiqlali-tamam ilə təxti-səltənətində əyləşib İranda şah oldu və İbrahim xan yanına kamali-hörmət ilə elçi göndərib Ağa Məhəmməd şahın nəşini istəyib və İbrahim xanı dəxi öz itaətinə dəvət elədi. Çün Qarabağ vilayəti necə ki, qeyd oldu, bir para səbəblər ilə müddəti qoşunkeşlik və aclıq və taun və sair əqsami-inqilab və iğtişaşə görə və ətraf xəvaninləri dəxi qaldırıb ədavətlər izhar etməklərinə binaən mərhum İbrahim xan müdara etməyi məsləhət bilib, münazilə məqamına gəlmədən və buradan Ağa Məhəmməd şahın nəşini ezaz və ehtiram ilə Tehrana rəvanə edib və bir para xoşayənd peyğamlar dəxi ilqa elədi. Çün Fətəli şah İbrahim xanın bu cür rəftarlığını və rəviyyə-güzarlığını mülahizə etdi, xoşhal olub, bunu yaxşı qarşıladı. Xanın göndərdiyi adamlarına tamam ənam və xələtlər verib qaytardı. İbrahim xana dəxi xələt və şəmşir və Qarabağın hökumət fərmanını və əlavə Qaradağ vilayətinin tamam mədaxilini yazıb, göndərib və binayi-qohumluq dəxi təmənna eyləmişdi ki, hər iki tərəf xatircəm olmaq üçün İbrahim xanın əzizeyi-mükərrəmeyi-səbiyyəsi Ağa Bəyim ağanı dəxi mənim hərəmxaneyi-şahanəmə layiq görsün ki, bizə banuyi-hərəm olsun. Pəs mərhum İbrahim xan dəxi məsləhət və məşvərətdən sonra Ağa Bəyim ağanı Fətəli şaha əqd və nikah edib və bir oğlu Əbülfət xanı ki, o vaxtda Əbülfət ağa idi, yolladı şahın hüzuruna ki, orada daim şah hüzurunda ola. Fətəli şah dəxi İbrahim xanın qızı Ağa Bəyim ağanı özünə banuyi-hərəm elədi və Əbülfət ağaya dəxi xanlıq ləqəbi qoyub, pərvəriş elədi və özünü əmir-ülüməra qılıb öz məclisi-xassına məhrəm elədi və son dərəcə izzət və hörmətlər edərdi ki, məşhuri-İran idi. Hər il dəxi İbrahim xana xələt və qılınc və qızıl irəsbablı at və sair sovqat və hədiyyə-lər Fətəli şahın tərəfindən gəlirdi və oğlu Məhəmmədhəsən ağaya dəxi əlavə xələt və ənamlar göndərirdi. Əlavə, Qaradağın tamam mədaxilini həm İbrahim xana vermişdi ki, onun ola və Qarabağ dəxi küllən özünün xalisəsi idi.

ON BEŞİNCİ FƏSİL

## RUSİYA QOŞUNU DÜBARƏ QAFQAZIN BU TƏRƏFİNƏ GƏLMƏYİN VƏ GÜRCÜSTANA MALİK OLUB, ƏLAVƏ CAR VƏ BALAKƏNİ ALMAĞIN VƏ VAQE OLAN VƏQAYEYİ-BƏYAN EDƏR

Çün yuxarıda mərğum və məzkur oldu ki, Ağa Məhəmməd şah əvvəlinci gəlib Qarabağa və Tiflis şəhərini yandırıb və qarət edib getdi. Haman hadisədən sonra vali İrakli xan dəxi Gürcüstan torpağına gəlməyib, iki il keçənədək vəfat etdi və böyük oğlu Georgi xanı dualadılar, yerində vali oldu və qardaşları dəxi ona dürüst itaət etməyib, təmərrud başladılar. İran dövlətində dəxi Ağa Məhəmməd şah məqtul olub, Fətəli şah məsnədi-səltənətə cülus qılıb, istiqlal buldu. Vali Georgi xan bir tərəfdən Rumdan və bir tərəfdən İrandan, bir tərəfdən Dağıstandan və bir tərəfdən qardaşlarının yağı olduqlarından vahimə edib, dübarə bir ərizeyi-niyazməndanə yazıb, öz böyük oğlu Davud Mirzəni şahənşahi-əzəm və imperaturi-əfkəm cənab Pavel Petroviçin astani-behiyyəsinə irsal etdi. Bu kəlamat ilə ki, bu qədər xaric məzhəblər miyanında tənha qalmışam və hər saatda bir kimsədən ehtiyat etməkdən cana gəlmişəm. Güzəran və istirahətimiz haram olub və Ağa Məhəmməd şahdan haqqımızda olan zülm və cəfalar həm hamılara məlum və aşkardır. Övlad və ixvanım hamısı mənə yağı və düşmən olublar. Diriliyimiz bəsi düşvardır. Ona görə padşahani-aləmyan və imperator cahandan xahişimiz oldur ki, riayəti-namus, məzhəb və millət edib, inayət və mərhəmətləri dərmandələr haqqında şamil ola və bizləri himayət etmək ilə düşmənlər dəfini vəcheyi-hümmət qıla. Pəs Gürcüstanın seçilmiş, nəcib olan tavadlarından eşikağası baş Kərsəvan bəyi ki, knyaz Çavçavadze məşhurdur və irəlicə dəxi padşahi-aləmpənah, astani-şərafət bünyanında məruf idi. Davud Mirzənin əqəbincə imperatori-əfxəm dərgahına mərsul və rəvanə etdi. Pəs padşahi-aləmpənahın mərhəməti cuşa gəlib, bir polk qoşun ilə general-mayor Lazarevi təyin edib göndərdi ki, mühafızəti-hüdudi-Gürcüstanda ehtimami-tamam əmələ gətirsin və ştatski sovetnik Kovalenskini həm ministr təyin etdi ki, Gürcüstan valisinin yanında otursun. Bir az müddət keçmiş, mərğum və

məzkur olan ümərralar qoşun ilə gəlib Tiflisə varid oldular. Bir il ondan keçəndə Ümmə xan Dağıstani, hakimi-Avar iyirmi min Dağıstan qoşunu ilə vali üstə gəldi. Bu əzmə ki, çün vali Rusiya qoşununa pənah gətirib və hüquqi-rəfaqəti-qədimini xatirdən götürüblər və gedib Rusiyanı Gürcüstandan xaric edərək və Gürcüstan vilayətini və Tiflisi irəliki kimi xarab və tarac qılıram. Elə ki vali bu əhvalı istina etdi, əz bəski, Ağa Məhəmməd şahın hadisəsindən və qabaqlar ləzgilərin etdikləri vaqiələrdən xofnak olmuşdu ki, bu xəbərlərdən çox vahimə edib, çox pərişan olub, qorxuya düşdü və əhaliyi-Tiflis dəxi vəhşətlər edib fərar etmək əzm eylədilər. Hər birisi hifzi-bədəni lazım bilib bir diyara qaçmaq fikrinə düşdülər və general Lazarev nə qədər onlara nəsihətlər və xatircəmliklər verdisə, fayda etməyib, əhaliyi-şəhər qəflət və kəmetiqadlıq ilə ona bavər edib mültəfit olmazdılar və nə qədər səy və cəhd edirdisə, əsla iltifat qılmazdılar. Zira ki, şul zamanədək Rusiya qoşununun zəfər əsərli olan hünərləri imtahan və təcrübə olmamışdı və bu diyarın əhlləri onların rəşadət və nizamına müşahidə qılmamışdı. General bu əhvalı anlayıb Tiflisdə car etdirdi ki, siz əhaliyi-şəhər və vilayət nahaq yerə məkanınızdan fərar olmayın və əbəs-bica yerə cəlayi-vətən ixtiyar qılmayın, sakit və asudə yerinizdə oturun, ta mən özüm məxsus öz qoşunu ilə onların müqabilinə gedirəm və Ümmə xan və qoşuni-Dağıstan ilə cəng və savaş edərəm. Hərgah qalib oldum fiha ül-mətlub və ila məğlub olsam və ya onlardan qaçsam, ondan sonra siz də fərar edərsiniz. Və hansı canibə istərsiniz gedərsiniz.

Pəs əhaliyi-Tiflis bu qissələri istima etdikdən sonra filcümlə aram buldular. Və bu kəlamatı ağılları qəbul edib təsdiq qıldılar. Pəs general-məzbur qoşuni-mənsuri fərahəm edib Ümmə xanın müqabilinə çıxdı və gedib Səğrəlu kəndinin altında və Qabırrı çayının üstündə axşamçağı təlaqiyi-fəriqin vaqe olub əsakiri-Dağıstan baxıb gördülər ki, urus qoşunu bir cəmdir. Nəzərlərinə az və çox həqir və zəlil gəlib təəccüblər edib və heyrətlər qılardılar ki, bir az cəmiyyəti ilə bunlar necə cəng və dəvaye cürət edirlər və bu gunə uzaq yolları gəlib məmalik hərasətinə iqdam qılırlar. Pəs hər iki tərəf barinüzül açıb düşdülər və çadırlar tikib əyləşdilər. Ləzgiyyə qoşunlarının sərkərdələrindən bəziləri dedilər: “Axşamın xeyrindən isə sabahın şərri yaxşıdır”. Amma Ümmə xanın özü və bir para sərkərdələr dedilər ki:

Çe danəd kəsi qeyri-pərvərdigar,
Ke fərda çe bazi konəd ruzigar.

(Tanrıdan başqa kim bilir ki, ruzigar sabah nə oyun çıxaracaq).

Səlah budur ki, haman bu halda dava başlayıb bu az camaatı tüfəng və tömeyi-tiğ və tüfəng edib ortadan götürək və ondan Tiflisi qarət və zəbt etməyə gedək. Pəs Ümmə xan nisfı-ləşkərinə müqərrər etdi ki, generalın qoşununu əhatə edib aralığa alsınlar, onların dörd ətrafını negini-ənguştər kimi tutub, tənk mühasirəyə alsınlar. Ləşkəri-Dağıstan bu hökmə əməl etdilər. General əhvala nəzər edib haman dəm müqərrər etdi ki, atəşbar olan əjdəhadəm toplara od qoysunlar və rəşid olan nüsrətli soldatlar "uray" çəkib onlara həmlə qılsınlar. Dağıstanlılar bir vaxt baxdılar ki, aləmi dəryayi-atəş tutub başlar havaya bülənd oldu və leşlər tökülüb qanları səhranın rəngin qıldı. Filfövr tabi-müqavimət gətirməyib fərarı qərara ixtiyar qıldılar və əhvali-macəranı gəlib Ümmə xana hali və bəyan eylədilər. Onlar bu müqəddiməni eşitdikdə qayətdə xofnak və pərişan olub, təqrir etdilər ki, sabah tezdən bunları zirü zibər edirik. Bu qisas əvəzin alıb ondan Gürcüstana müvaxizəsinə gedirik.

Əgər ma bemərdi nəyarim nam,
Bavəd in koləh bər səre-ma həram[1].

General ki, onları fərar edən gördü, ləşkər zəfər əsgərin götürüb, onların əqəbincə rəvanə olub özlərini onların sığınağına yetirib həməlati mərdanə və sədəmati-dəliranə ilə onların cəmiyyətlərini dağıdıb bərhəm etdilər. Hərçənd Ümmə xan və sair sərkərdələr səy və cəhd etdilər ki, o vəhşi xislətləri təskin edələr və mərdanəlik rəsmilə meydani-cəngə gedələr, heç fayda etməyib. Çünki Rusiyanın əvvəlinci sədəmati-zəhrə şikafından qayətdə xofnak olmuşdular. Dəxi durmayıb haman ki, axşam qaranlığı araya gəldi, ləzgiyyə üzü qaralıq edib atlarına minib fərar etdilər və ta Gəncə torpağınadək heç mənzildə durmayıb, "Eyn əl-məfəru"[2] söylədilər. Xəyalları bu imiş ki, oradan keçib Qarabağa gəlsinlər və qışı burada qalıb, yaz mövsümü olanda vətənlərinə azim olsunlar. O da olmadı və dağlar çox

---

[1]Əgər biz kişi adımızı doğrultmasaq, bu papaq bizim başımıza haram olsun.

[2] Eyni yol ilə" (ərəb.)

qar olduğu səbəbə geri getmək də müyəssər olmayıb, əhaliyi-Gəncə həm o qədər azlıq ilə onlara hücumvər olub, bir paraların məqtul etdilər. Axır ləzgiyyə yüz min məşəqqət ilə Car tərəfində qışlaq edib, əyləndilər. Haman o qışda Ümmə xan dəxi orada vəfat etdi. Aparıb Carın məscidində dəfn edib dübarə təziyəsində məhzun və pərişan oldular və rus generalı-məzkur dəxi haman dəm Tiflisə adamlar göndərib əhval və güzarişatı elan etdi. Amma Gürcüstanda əsla buna kimsənə inanmazdı və etibar edib bavər qılmazdı. Hətta məqtul olan ləzgiyyənin başlarından bir neçəsini dəxi göndərmişdi. Yenə heç kəs inanmayıb xatircəm olmadılar ta ki, bu neçə gündən sonra generali-mənsur və müzəffər (Lazarev) gəlib yetişdi və ehtiramı-tamam ilə daxili-Tiflis olub, əhali-şəhər şadyanəliklər eylədilər və tamam Gürcüstan əhli və sairlər Rusiya qoşununun hünər və rəşadətinə müqərr və qail oldular. Ondan sonra generalın hörməti və qoşunun şöhrəti məşhuri-miyan və məzkuri-billisan oldu. Bəd əz an vəli Georgi xan bir il zində qaldı. Ondan qış mövsümündə idi ki, 1215-ci il səneyi-islamiyyə tarixində rəhmətliyə getdi[1]. Pəs onun vəfatından sonra qardaşları Kartilidən çoxlu qoşun görürüb gəldilər ki, Tiflisdə böyük qardaşları İvan Mirzəni[2] vali və sahibi-ixtiyar qılsınlar. Elə ki Tiflisdən Yuxarı Bucan[3] kəndinə gəlib yetişdilər, general Tiflisdən qoşununu götürüb onların müqabilinə getdi və orada dava başlayıb onları ta Başıaçığadək fərari etdi. Ondan qayıdıb şəhri-Tiflisə valinin böyük oğlu Davud Mirzəni valilikdə əmani qoydu, ta bahar fəslinədək. Bu sayaq ilə keçib yaz açılanda, general adyunfantar Knorrinq ki, Liniyada sakin idi, mənsəbinə dəxi inspektor derlər idi. Tiflisə gəldi və divanxana binası qoydu və dörd nəfər tavad-zadələrdən[4] müntəxəb edib divanbəyliyə mənsub etdi ki, zərur olan mühümmat və ərizələr orada qət olunsun. Həmin general Lazarevin mərifəti ilə özü yenə dalı müraciət qıldı. Bir il dəxi bu qərar ilə dolandı. Bundan sonra sərdari-əzəm knyaz... İşpextur Sisianov[5] Qafqazın bu tərəfində olan vilayətlərə sərdari-sahib ixtiyar olub,

[1] Hicri 1215-ci il miladi 1800-cü ilə təsadüf edir. Bu ilin dekabr ayının 28-də gürcü hakimi XII Georgi ölmüşdür.

[2] Yulon nəzərdə tutulur

[3] Mirzə Adıgözəl bəy bu kəndin adını Habucala kimi göstərir (Qarabağnamə,səh.96).

[4] Tavad - gürcücə knyaz deməkdir

[5] Şpuxter, yəni inspektor. Azərbaycanın bəzi yerlərində Sisianovu bu adla çağırmışdılar (bax: Əhmədbəy Cavanşir, göstərilən əsəri, səh.43).

gəldi[1]. Quberniya əsbabını özü ilə gətirib Tiflisdə divanxanələr açdı. Elə ki valizadələr o vaxtda hamısı Gürcüstanda idilər. Bu cürə binaları görəndə şöylə ümurata razı olmayıb, keçən əsrlərin zabitlərini təmənna etdilər və bu xüsusda fasad olan xəyallara və kasıb olan əfallara başladılar. Hərçənd sərdar Sisianov onlara mülayim nəsihətlər etdisə, onlar qəbul etmədilər və rahat və fəraqət yol getmədilər. Axırül-əmr sərdar baxdı ki, mövizə və nəsihət onlara əsər eləməz. Ondan tamamini zor ilə Rusetə rəvanə elədi. O cümlədən, valinin övrəti dəxi getməkdən təmərrüd və təkəhül edirdi. Sərdar Sisianov general Lazarevi onun yanına göndərdi ki, mövizə və nəsihət ilə onu bu əmrə razı etsin. General dəxi gedib, ona nə qədər nəsihət və mehriban olan məvaizlər elədi, qəbul etməyib və gizlincə bir xəncər çəkib, generalı qətlə yetirdi. Elə ki sərdar bu müqəddimatı mülahizə etdi, haman dəm əmr qıldı ki, onu da cəbr və qəhr ilə sair valizadələrə qoşub aparsınlar. Dəxi şöylə yolladı ki, valizadələrdən o diyarlarda bir dəyyar qalmadı. Çün Gürcüstan məsələlərində filcümlə, fərağət hasil oldu və hər cəhətdən xatircəmlik əmələ gəldi. Əzbəs ki, Car və Balakənin ləzgiləri, vali əsirləri kimi Gürcüstanın ətraflarından qarət etmək və adam tutub aparmaqdan əl çəkməzdilər. Haman vaxt, Gürcüstan əhlinə zəhmətlər və qarətlər yetirirdilər. Sərdar əvvəl onlara nəsihətamiz kağızlar və hökmlər yazdı ki, keçən zamanlar vali zəmanlan idi və xudasərlik idi. İndi padşahi-aləmpənah dövlətidir. Bu cür hərəkati-nalayiq yola getməz. Gərəkdir ki, bu növ nalayiq əməlləri tərk qılasınız və xələf işlərdən mütəqaid olasınız ki, axırda səməri-nidamət və cəzası xəsarət olur. Hərçənd bu barədə təkrar etdisə, onlar əl çəkmədilər və adətlərini tərk qılmadılar. Aqibətül-əmr bir cüzvi ləşkər götürüb onların tənbehi nəsbül-eyn zəmiri-himmət qılıb səmti Dağıstana üz tutub yollandı. Elə ki ləzgiyyədə bu əhvalı eşitdilər, qoşun cəm edib, gəlib Qanıq çayının yanında xeymələr tikib, müntəziri-müharibə oldular. Məqsədləri bu idi ki, Rusiya qoşununun Car torpağına daxil olmasına mane olub, qovsunlar. Amma bilməzdilər ki atəşi-suzanə xari-xuşk mane ola bilməz, torpaq və qum böyük selə tab gətirməz.

Çün Rusiya ləşkəri Qanıq çayına yetişdi, orada üzbəüz dava düşdü. Haman ləhzə Qanıqda şahbaz kimi ləzgiyyenin cəmiyyətlərini pərakəndə edib və çaydan keçib, ta Balakən torpağınadək onlardan bir

[1] Sisianov 1803-cü ilin fevralından Gürcüstanı idarə etməyə başlamışdır

əsər qoymadılar. Balakən dəxi onların bərk olan məkanı və möhkəm olan hasarı idi. Oranı türreyi-xubani-tatar tək tarü mar edib, onlara yaxşı bir qulaqburması və tənbeh verdilər ki, bir də Gürcüstandan əsir və qarət etməyi cürət etməsinlər, əvvəlki kimi müxalifət və bietidarlıq təriqinə getməsinlər. Ondan Car torpağında dəxi qoşun təyin edib, general-mayor knyaz Orbelianovu və general-mayor Qulyakovu sərkərdəlik əmrinə mənsub elədi ki, əgər birdən bir də ləzgiyyədən bir hərəkəti xəlaf sadir olsa və yenə dübarə əsəri-şərarət onlardan zühur qılsa, mane olub, qoymasınlar və özü dəxi oradan müraciət edib daxili Gürcüstan oldu.

ON ALTINCI FƏSİL

## SƏRDAR KNYAZ SİSİANOVUN QƏHR VƏ QƏLƏBƏ İLƏ GƏNCƏNİ ALMAĞIN VƏ GƏNCƏ HAKİMİ CAVAD XANI, OĞLUNU MƏQTUL EDİB, ŞƏHRİ-GƏNCƏNİ QƏTLİ-AMM QILMASINI BƏYAN EDƏR

Çün sərdar Sisianov Car və Balakən sövbindən qayıdıb Gürcüstana gəldi. Gəncə hakimi Cavad xanı itaətə götürməyi nəsbül-eyn himmət qıldı. Əvvəl bir kağız yazıb, Cavad xana təklif etdi ki, itaəti-dövləti-behiyyeyi-Rusiyanı qəbul qılsın. Təriqi-tüğyan, üsyan və müxalifəti tərk edib müti və münqad olsun ki, bu dövlət əbədi müddət müxalifətindən xəsarətdən qeyri, bir səmərə gəlməz. Ədavət, qeyrəz, nədamət bir bəhrə görməz. Cavad xan şöylə nəsayeh və möizə qəbul etməyib haman vaxt Qızılbaşiyə dövlətinə şaiq və mail idi. Bir Məhəmmədhüseyn xan adlı, adı Sərdar, amma qoşunu yox, bir xan dəxi, Fətəli şah yollamışdı ki, Gəncə qalasında Cavad xanın yanında ola. Buyurmuşdu ki, 5 min qoşun Azərbaycan vilayətlərində onun üstünə və ixtiyarına cəm olalar ki, Gəncə qalasını mühafizə edib, Cavad xana kömək olalar. O, dəxi orada var idi. Amma qoşun hazır olmamışdı. Hənuz bir kimsə, onun təhti ixtiyarına gəlməmişdi. Cavad xan sərdar Sisianovun kağızına məğruranə cavablar deyib, itaət etməzdi. Kusi-müxalifəti-builənd avaz edib rast yola getməzdi. Buna görə sərdar knyaz İşpextor Sisianov səneyi-məsihiyyə 1803-cü tarixdə ilin əvaxirində ki, Ramazan idi cuyuyişi-bəhri xüruş ilə o

səmtə hərəkət edib, Gürcüstandan və Qazax Şəmsəddinlidən süvarilər cəm edib və soldatı dəxi götürüb cəmiyyəti-şayani ilə Gəncə üstə gəldi. Cavad xan dəxi fərahəm ləşkər edib, müqabilə əzm qıldı. Gəncənin iki verstliyində vaqe olan Quru-qobuda təlaqiyi-əsgəreyi və iştiali-nəvayiri-şurişin əmələ gəlib Cavad xan yaxşı mərdanəlik ilə savaş edib, axır tabi-müqavimət göstərməyib, qayıdıb Gəncənin qalasına daxil oldu. Bənaye-qaladarlıq qoyub, ixtiyari-təhəssün qıldı. Pəs Rusiya qoşunu gəlib, qəleyi-Ərkin dörd ətrafını əhatə edib, şəhər və qalanı təngnayi-mühasirəyə saldılar. Çün onlar bir aya yavuq mühasirədə qaldılar. Cavad xan və o Məhəmmədhüseyn xan nə qədər gözlədilər ki, bəlkə Qızılbaşiyə tərəfindən bir kömək gələ, olmayıb, axır Ramazanın 30-cu gecəsi ki, sabahı bayram idi - fıtir idi sərdar əmr eyləyib, qoşun qalaya yürüş etdi. Nərdivanlar tərtib edib, iki yerdən bayıra qalxdılar. Cavad xan dəxi rəşadət birlə süud edənləri həməlati-mərdanə və sədəmati dəliranə ilə rəf və dəf edirdi. Axır ki, mayor Lisaneviçin bir gülləsi ilə (Cavad xan) baruyi-həyatından sərazir oldu. Dəxi Hüseynqulu ağa adlı bir oğlu da, orada qətlə yetişdi. Pəs soldatlar haman saat dörd tərəfdən hücum edib, daxili-Ərk oldular[1]. O bayram gününü onlara qara edib, müddəti-üç saat tamam, o şəhərdə xalqı kütləvi şəkildə qırdılar. Bir növ ki, süknayi-bigünahların xuni-nahaqları ilə şəhərin səhrayi-vəsnül - fəzası taləzar və türfeyi-gülzar oldu. Üç saatdan sonra sərdar qadağan qıldı ki, dəxi səfəki-dəmadan əl götürüb, giriftar olanları hüzura gətirsinlər. Xalqı qaladan kənara çıxarıb, qalanı xalqdan təmizləsinlər, haman Məhəmmədhüseyn xan məzbur ki, Qızılbaşdan gəlmişdi, odun anbarında gizlənib, oradan uzun saqqalını qırxıb, erməni övrətlərinin içində çölə çıxıb, 4 günə Gəncədən Şuşa qalasına gəlmişdi. Pəs rus sərdarının təbarükül hökmündən sonra əhaliyi-şəhrin əyalını şəhər və Cavad xanın övlad və ətfalını məscidə apardılar. Sonra məsciddən dəxi çıxarıb, aparıb bir qeyri evdə üstlərində qarovul təyin etdilər. Bəd əz an sərdar orada divanxana və komendant təyin edib və əhli-vilayətə ümid və təsəllilər verib, ondan Gürcüstan vilayətinə müraciət qıldı. Həqiqətən bu cür qala almaq və bütöv qətli-am olunmaq Çingiz xan qoşunundan və Teymurləng zamanından sonra bu vilayətlərdə və bu məmalikdə görülməmişdi. Ona görə bu tərəflərin xalqına Rusiya qoşunundan çox əzim xoflar və vəhşətlər hasil oldu. Mail və raqib olanlar dəxi rub və istibad qıldı.

[1] Gəncə ruslar tərəfindən 1804-cü il yanvarın 3-də tutulmuşdur

ON YEDDİNCİ FƏSİL

## SƏRDAR SİSİANOVUN İRƏVAN SÖVBİNƏ HƏRƏKƏT ETMƏYİN VƏ ORADA FƏTƏLİ ŞAH VƏ NAİBÜSSƏLTƏNƏ ABBAS MİRZƏ GƏLİB, DAVALAR OLUB, İRƏVANDAN Bİ NEYL-MƏRAM QAYIDIB, GÜRCÜSTANA MÜRACİƏT ETMƏYİN BƏYAN EDƏR

Çün İrəvan hakimi Məhəmməd xan və Naxçıvan hakimi Kəlbəli xan hər ikisi Fətəli şahdan xaif və harasan var idilər, o səbəbə şahdan qaçıb İrəvanda sakin olurdular. Oradan 1804-cü ildə hər ikisi sərdar knyaz Sisianovun hüzuruna elçi və qasid göndərib, sığınacaq təmənnası edib, öhdəsinə götürmüşdülər ki, hərgah sərdar bu tərəfə təşrif gətirib, bizlərə kömək və yarlıq edə, biz qəleyi-İrəvanı ona təslim edib və özümüz dövləti-Rusiyaya itaət edib, xidmətgüzar oluruq. Zira ki, Fətəli şah o dəmlərdə öz oğlu və vəliəhdi olan naibüs-səltənə Abbas Mirzəni məmur etmişdi ki, onların tənbehi üçün İrəvan üstə gələ. O da, tədarükdə idi ki, gəlsin. Lihaza sərdar knyaz Sisianov Gəncə şəhərini zəbt və kütləvi qırğın və sakit edəndən sonra qayıdıb o qışı Tiflisdə qalıb, yaz açılanda İrəvan səmtinə hərəkət elədi. Köç bir köç gəlib, ta ki, Üçkilsəyə yetişənədək. O tərəfdən Abbas Mirzə naibüssəltənə ki, o zamanlarda tifli-Səğir idi, şah tərəfindən məmur olub, çox sərkərdələr ilə və çoxlu əsgərlərlə İrəvan üstünə və sərdar Sisianovun müqabilinə gəlməkdə idi. Gəlib yetişib Üçkilsədə təlaqiyi-fariqin və təqabülü-əsgərin vaqe oldu. Dava düşüb bir əzim cəngi-sultani baş verdi ki, tez torpağın göyə qalxmasından hər tərəf və göy üzərində günəşin də rəng və rüxsarı gecə zülməti kimi tirə və tar oldu. Rusiya əsgərləri o günü üç tip olmuşdular. Qızılbaş qoşunu onlara bir növ həmləvər və bir şiddət ilə hücum avər oldular ki, işıqlı dünya onların gözlərinə tirə və siyah olub, bir-birlərindən bixəbər oldular. Hər birisi belə xəyal eylədilər ki, o biri dəstələri məğlub və mənkub ediblər. Sərasimlik onlara üz verib ta bir vaxtadək ki, toz-torpaq yatıb, hava açıldı. Rusiyalılar nəzzarə qılıb gördülər ki, məcmusu sağ-salamatdırlar. Qızılbaş dəxi bu əhvalı gördülər ki, hər nə tələf olubdursa, bunlardan imiş. Heyrət edib, oradan köçüb, gedib İrəvanın dağ səmtində Kənəkir adlı məhəllədə ki, bir mömən,

müstəhkəm idi, orada düşüb, ordu bazar edib əyləndilər. Sisianov orada qalıb bir neçə gün istirahət etdi. Vəqti ki, qoşun aram və ağayiş qıldı, ondan qalxıb onların dalınca və canibə yola düşdülər. İttifaqən axşamçağı idi. Onlara yetişib qəflətən həmlə elədilər. Qızılbaş ləşkəri bu halı müşahidə edərək, hərasan olub, sərreşteyi-intizamı buraxıb, qaçdılar. Tamam ordu bazarları cabəca qalıb, tamam qəni-mətlərini, xeymə və xərgahlarını Rusiya qoşunu ələ keçirdi. Bəd əz an oradan köçüb İrəvanı mühasirə etmək bina etdilər. Bu əsnada Fətəli şah özü sipahi-əzim və ləşkəri-kəsir ilə gəlib, Dəvəli nam məhəldə[1] yolboyu Abbas Mirzəyə birləşib, birlikdə Rusiya qoşunu İrəvanı mühasirə etmiş ikən onları mühasirə elədilər. Bir növ ilə onları əhatə qıldılar ki, rahi-tərəddüd qət olub azuqə və başqa ehtiyaclar Rusiya qoşununa heç bir tərəfdən gəlmək məqdur olmadı. Pəs çarə və güzəran yolunu onlara şöylə məsbud etdilər ki, Gürcüstan knyazlarından Sisianov ilə o səfərdən həmrah və həmsəfər olanları o girdabdan qaçmaq istərkən qaçmaq yolu da tapmayıb, Qızılbaş qoşununa düçar və giriftari-kəməndi üsar olmuşdular.

Bu halda Fətəli şah oradan Pirqulu xan sərdarı, valiyi-Gürcüstan Aleksandr mirzə ilə Tiflisə yola saldı ki, gedib orada zəbti-vilayətə məşğul olalar. Onlar dəxi müstəcilən gedib Gürcüstana əzim şurim və inqilab saldılar. Tamam Qazax, Borçalı ilatını Rusiya dövlətindən rugərdan edib, bircə məhz Tiflis şəhərindən və Şəmsəddinlidən savayı məcmuən Gürcüstanın ilat və dihatının dönüklük edib, hətta Başıaçığa gedən valizadələr dəxi qayıdıb gəlib valiyə mülhəd olub, üsyan və tüğyan təbilini bülənd avaz elədilər. Qarakilsə kəndində bir qəlil soldat var idi. Kəndin əhli ilə onları dəxi mühasirə etmişdilər. Təngnayi-mühasirədə qalıb, müddəti-mütəmadi əsarət çəkirdilər. Əlqissə, müqəddimə bu növ olub: Sərdar Sisianovun qoşunundan azuqə və zəxirə qurtarıb və kəmyab olub. İrəvandan mayor Kondratovu ki, qara mayor xitab edirdilər, 150 nəfər soldat ilə yola saldılar. Sisianov məlik Əbu oğlu Rüstəm bəyi dəxi öz təvabeləri ilə onlara qoşub, göndərdi ki, gedib Gürcüstan tərəfindən zəxirə gətirsinlər. Qızılbaş qoşunlan xəbərdar olub onların dalınca gedib, üç gün dava-gunan apardılar. Pəmbəkə vüsal olacaq, valizadələr Pirqulu sərdara elan etdilər ki, üç gün müddəti bunlar ilə cəng etmişik. Nəinki bun-

---

[1] Qədim adı Dəvəli olan bu şəhərin adını sovet dövründə ermənilər dəyişdirib “Ararat” qoymuşlar.

lar, bəlkə özümüz də cana yetişmişik. Gərəkdir ki, bizə kömək edəsiniz. Pirqulu sərdar və valizadələr dəxi onların müavinətinə gəldilər. O camaata mülhəq oldular. Sübh çağından, ta axşamadək müharibə etdilər. Çox adamlar tələf oldular. Nə qədər ki, mayor zəxmdar olmamışdı, bazari-girudvar kərimdi, elə ki mayor üç yerdən güllə ilə zəxmdar oldu, döyüş meydanı söndü, mayor öldü və əsgərlər əzildi və soldatlar pərakəndə olub, ermənilər dəxi fərar edib bir mağarı özlərinə məlcə və məskən qıldılar. Axırül-əmr giriftar və əsir oldular. Pəs haman qoşun oradan qurtarıb qayıdıb Qarakilsəni mühasirə etdilər və orada qübari-fitnə və fəsadi-çərxi-fəvvarə yol verdilər. Qubernator Tiflisdən iki yüz araba zəxirə bir az soldat ilə serdarın qoşununa irsal etdirdi. Onlar dəxi gəlib, yaylaqda Cığı[1] adlı mənzildə düşdülər. Pəs haman dəm orada sakin olan ilatlar gəlib onların keçidlərini tutdular. Onlarlın qitalına müntəzir və mühəyya oldular. Elə ki, o soldatlar übur və çarə yolunu məsdud gördülər, haman arabaları özlərinə səngər qayırıb oturdular. Bir sürü qoyun onların əhşamından götürüb, daxili-səngər edib, sərf qıldılar və məşquli-xudadari və müdafiə oldular. O camaat dəxi nə qədər səy və ehtimam elədilər, təsxiri səngərlərdən aciz olub, müstəqir qaldılar. Axır əhvalı Pirqulu sərdara məlum və hali qıldılar. Pirqulu sərdar dəxi tez hərə-kət edib oraya gəldi. Nə qədər ciddi-cəhd ilə tədbirlər əmələ gətirdisə, onları və səngəri almaq məqdur və müyəssər olmayıb, aciz qaldılar. Axırül-əmr zəfər bulmayıb, bineyi-məram, həsrəti-maləkəlam ilə hirsindən və həyəcandan xəcalət çəkib ağlarmış. Bu əhval Tiflisdə müntəşir olub, bir general ilə üç yüz soldat və dörd arabada top göndərdilər ki, təcili-təmam ilə özlərini onların köməyinə yetirsinlər. Birlikdə o ehtiyatı sərdarın qoşununa gətirsinlər. Çün general məzkur səngərdə olan qoşuna mülhəq oldu, dəxi bir kimsə cürət edib, səmtlərinə gəlmədi. Pirqulu sərdar dəxi döyüş meydanına əzm qılmadı. Zəkirəni səhih və salamat oradan götürüb, Qarakilsəyə yetirdilər. Əlqissə, o döyüşdə şah özü bir tərəfdən və naibüssəltənə bir tərəfdən, Məhəmməd xan və Kəlbəli xan dəxi öz əhdlərindən nigül edib, qalanı sərdara verməyə qoymadılar. Ətraf və əknafı tamam Qızılbaş qoşunu tutub, mütləqa azuqə və zəkirə gəlməyə qoymadılar. Dəfələrlə davalar olub, hər iki canibdən çox qoşunlar tələf oldu. Küllü zərərlər hasil buldu. Sərdar Sisianov baxıb gördü ki, zəxirə

---

[1]Mirzə Adıgözəl bəy "Qarabağnamə"sində (səh.106) Cılğı kimi göstərilmişdir.

gəlmədi, qala dəxi ələ keçmədi, qızdırma və qeyri naxoşluq dəxi qoşuna tari oldu. Şöylə hal ilə İrəvanda məks etməyi dəxi məsləhət bilməyib, pəs oradan müraciət edib Qarakilsəyə gəldi. Orada zəxirəni qoşununa təqsim qıldı. Elə ki Pirqulu xan sərdar və müxalifətçi valizadəgan bu əhval və ətvan mülahizə qıldılar, xaib və xasib olub naçar öz əşhəbi-müraciəti tez rəftar edib qayıdıb Gürcüstandan çıxıb, yenə Qızılbaş ordusuna qoşuldular. Çün Məhəmməd xan İrəvanlı və Kəlbəli xan Naxçıvanlı öz əhdlərini sındırıb, qalanı sərdara məsdub edib, Qızılbaş qoşununu qalaya daxil etmişdilər. Naibüssəltənə Kəlbəli xanı məcmu əhli və əyah ilə köçürüb Tehrana yolladı. Məhəmməd xanın dəxi hökumət və xanlığını qət edib. Qacar Mehdiqulu xanı İrəvanda hökumət əmrinə mənsub elədi. Şul əhdü xəyanətin əvəzində xəsarət və nədamətdən qeyri bir səmərə və mənfəət görmədilər. Əlqissə, sərdari-əzəm knyaz Sisianov elə ki İrəvandan qayıdıb, qoşun ilə Qarakilsəyə varid oldu, ilati Borçalı və sair camaat əhaliyü-Gürcüstan ki, dövləti-qəvibünyan Rusiyadan, rukərdan olub, həvayi-Qızılbaşiyə ilə havalar başlamışdılar. Sərdarın gəlməyini eşidəndə öz napəsənd əməllərinə binaən xahiş etdilər ki, dəxi Gürcüstanda durmayıb, köçüb Qarabağa gedələr. Fərarı qərara ixtiyar edib üstün tutub qədim vətənlərini tərk edələr. Mayor Lisaneviç xəbərdar olub, Nəsib bəyin ittifaqı ilə gəlib, onlara çox möizələr və xoşagələn nəsihətlər edib, niyyətlərindən dönməyi dedilər və təsəlli-verici sözlərlə onları xatircəm edib, qərini aramiş qılıb əyləndilər, ta ki, sərdar Gürcüstan torpağına varid olub, şul ilat ağalarını izhar edib, onlara bir para tünd və tələx hədə-qorxular gəldi. Sonra dəxi cəhalət və nabələdlikləri səbəbinə, təqsiratlarını əfv və güzəşt edib, haman buyurdu ki, gərək hər nə qədər əmvali-mənhubə ki, Gürcüstandan qarət edib, aparıbsınız tamamilə öz sahiblərinə qaytarasız. Ondan sonra daxili Gürcüstan oldu. Bir neçə gün asayişdən sonra Gürcüstanın kuhnəşinlərindən yağı və tağı olanların istimalına gedib onları qərini-aramiş və ətraflara asayiş verəndən sonra qayıdıb daxili-şəhri-Tiflis oldu. Və qış mövsümünü keçirəndən sonra yaz fəslində Gəncəyə gəldi.

ON SƏKKİZİNCİ FƏSİL

## İBRAHİM XAN VƏ ONUN DAMADI ŞƏKİ HAKİMİ SƏLİM XAN GƏNCƏNİN KÜRƏK ÇAYINDA SƏRDARİ-ƏZƏM KNYAZ SİSİANOV İLƏ MÜLAQAT EDİB VƏ MÖHKƏM ƏHDNAMƏ İLƏ RUSİYA DÖVLƏTİNƏ İTAƏT ETMƏKLƏRİNİ BƏYAN EDƏR

Çün fövqdə məzkur oldu ki, Ağa Məhəmməd şah əvvəl dəfə Qarabağa qala üstə gəlib təsxir edə bilməyib, buradan süxtə damaq və qeyzli halda gedib, Tiflis şəhərini qarət və xarab edib, çapıb və yandırdı. Ondan sonra qayıdıb səhrayi-Muğana və bəd səmti Şiraz və Kirmana getdi. Onun zülm və cəfasına görə Gürcüstan valisi İrakli xan dəxi Rusiya dövlətinə ərizə yazıb mədəd istədi. Haman o ildə İbrahim xan dəxi imperatoriyyə Yekaterina hüzuruna elçi və ərizə göndərib, Mazdok və Yelenada sərdar olan qraf Qudoviçə izhari-ixlas və itaət eləmişdi. Haman ilin əvaxirində cənabi-sərdari-Valerian Zubov qoşuni-külli ilə ki, Şamaxı səmtinə gəlmişdi, onda dəxi oğlu Əbülfət ağanı Qarabağın neçə bəyzadələri ilə sərdarın yanına göndərib dövləti-behiyyə üçün sədaqət və iradət izhar etmişdi. Aralıqda ülfət və məhəbbət olub taarüf və tühəf və hədiyyələr göndərmişdi. Ondan bir müddət keçmiş imperatoriyyə vəfat qəziyyəsi vaqe olub sərdar Zubov müavidət edib Rusiyaya getmişdi. Onun ayəndəsi ili Ağa Məhəmməd şah dübarə Qarabağa qala üstə gəlib, İbrahim xan Dağıstan və Balakənə qaçıb, Ağa Məhəmməd şah daxili-qəleyi-Şuşa olub və orada qətlə yetişdi. Xan yenə Balakəndən qayıdıb, Qarabağda öz hökumət təxtində möhkəmləndi. O ildə valiyi-Dağıstan Ümmə xan ki, İbrahim xanın qohumu idi, vəfat etdi. Carın məscidində də dəfn elədilər. Haman ildə Fətəli şah İranda padşah oldu. İbrahim xanın qızını da alıb, qohum oldu. Növ-növ hörmət və nəvazişlər edərdi. Qarabağın hər şeyi özünəməxsus olmaqla bərabər Qaradağ vüayətinin dəxi tamam mədaxilini ona vargüzar etmişdi. Bunlar ilə yenə şul ildə ki, valiyi-Gürcüstan İrakli xan vəfat edib, oğlu Georgi xan yerində qalmışdı. Qardaşlan ona müxalifət etməkdən

və İran və Rum və Dağıstan əhlindən xofnak və vahiməli olduğu səbəbdən, o da dübarə ərizə yazıb padşahi-cahanpənah imperaturi-əzəm Pavel Petroviç həzrətlərindən kömək təmənnası eləmişdi. Onun xahişinə görə general-mayor Lazarevi sərdar edib, qoşun ilə Gürcüstana ki, göndərmişdilər, gəlmişdi Tiflisə. İbrahim xan ona dəxi kağız yazıb və elçi göndərib, təcdidi-ixlas və izhari-itaət qılmışdı. Çün o da gedib yerinə general Kovalenski mənsub olmuşdu. Ona dəxi İbrahim xan dübarə elçi göndərib, izhari-dostluq və itaət eləmişdi. Əlhəqq, general Kovalenski dəxi mərhum xanın göndərdiyi adamlarına çox ezazi tamam edib və xana dəxi çox töhfələr və sovqatlar göndərib, kəmali-mehribanlıq əmələ gətirmişdi. Ondan sonra ki, sərdari-əzəm Sisianov ki, knyaz Şpuxter derlər idi, sərdar olub, Gürcüstana gəldi. Əz bəs ki, çox qeyrətli və şövkətli və sahibi-hörmət və sahibi-cürət idi. Car və Tala ləzgiyyələrinin bir para xəlafi-hərəkatına və Cavad xan Gəncə hakiminin cürbəcür etirazlarına o da sair sərdarlar kimi mütəhəmmil olmayıb, onlara tənbeh və siyasətlər etdi. Necə ki, fövqdə hamısı məzkur olundu. Gəncə şəhərində 1804-cü ildə üç saat tamam səfəki-dima və təqliam elədi. Əgərçi Gürcüstan vilayətini və qeyriləri mütməin və qərini asayiş və aram elədi. Amma fılvaqe bu növ qala alınmaq və qətliam olunmaq Çingiz xan qoşunundan və Teymurləng zamanından sonra bu vilayətlərdə görülməmişdi. O səbəbə bu ətrafın xəlayiqinə Rusiya qoşunundan çox xof və dəşhət və qorxu hasil oldu.

Əlqissə, sərdar Sisianov bir dəfə mayor Starikovu Gəncədən mərhum İbrahim xanın yanına elçi göndərib, padşahi-mərhəmətdar, daimül-qərar Rusiyaya itaət dəvət eləmişdi. Xan dəxi mayora çox ezaz və hörmətlər edib, demişdi ki, mən keçən illərdə öz xalis olan səmimi-qəlbim və rizayi-xatirim ilə imperaturi-üzma Yekaterina həzrətlərinə və qraf Qudoviçə və sərdari-sabiq Zubova və Lazarevə sözlər verib, dövləti-daimül-qərara ixlasi-qaibanə bağlamışam. Ümidvaram ki, ixlasın təğyir olmayıb günbəgün ziyadə ola. Bu tövr ilə qərəzi-kələməti məvədətamiz ilə mayoru yola salmışdı.

Pəs sərdar haman sənə qışı Tiflisdə qalıb, yazda irəvanlı Məhəmməd xan və naxçıvanlı Kəlbəli xan sərdara dil verməkləri səbəbinə, o yazı İrəvan üstə getdi. Orada necə ki, məzkur oldu. Fətəli şah və naibüssəltənə Abbas Mirzə gəlib, dava və mülaqat olmuşdu. Məhəm-

məd xan və Kəlbəli xan dəxi əhdlərindən nikül etmişdilər. Sərdar bineyi-məram Tiflisə qayıtmışdı. Fətəli şah və Abbas Mirzə dəxi Azərbaycan sövbinə qayıtmışdı. Pəs sərdari-əzəm knyaz Sisianov gəlib, o qışı da Tiflisdə qışladı. Bahar fəsli olanda Gəncəyə gəlib, Gəncədən dübarə mərhum İbrahim xana və şəkili Səlim xana kağız və elçi göndərib hər ikisini mülaqat və itaətə təklif etmişdi. Onlar dəxi hər ikisi sərdari-əzəmin şahidi-məsulin zivər qəbul ilə məhəlli edib, İbrahim xan Qarabağdan, Səlim xan Şəkidən və knyaz Sisianov Gəncədən gəlib, Kürək çayında ittifaqi-mülaqat düşüb mühavirat və traktat vaqe oldu.

Təfsili-icmal və tövzihi-məqal bu ki, çün sərdari əzəm Sisianov İrəvan səfərindən müraciət edib, qışı Tiflis şəhərində idi. Mərhum xan elçi göndərib, təvəqqe eləmişdi ki, sərdar Kürək çayına təşrif gətirsin. İbrahim xan damadı Səlim xan hakimi Şəki ilə gedib, orada sərdarı görüb, əhd və itaəti-dövləti behiyyeyi-Rusiya imperator Aleksandr Pavloviçə itaət edələr. Sərdar dəxi vədə vermişdi ki, yaz mövsümü oraya təşrif gətirə ki, onlar ilə mülaqat və dər ittifaq hasil ola. Ona görə tarixi məsihiyyə 1805-ci sənədə olanda may ayında ki, bahar fəsli idi. Sərdar varidi-şəhri Gəncə olub, sahəti-Gəncəni zəfəri-ehtişam qıldı. Sonra İbrahim xana və onun damadı Səlim xana ki, İbrahim xanın tərəfindən Şəkidə hakimlik əmirinə mənsub olmuşdu və onun müavinəti ilə xanlıq və hökumət balışına tikrə qılmışdı. Hər ikisinə adamlar göndərib, öz gəlməyini izhar etdikdən sonra mücəddədən onları dövlət-aliyeyi-Rusiyanın təcdidi-itaətinə çağırdı və öz hökumətlərini rus padşahı vasitəsilə möhkəmləndirməyə işarə qıldı. Fəlihaza İbrahim xan və böyük oğlu Məhəmmədhəsən ağa və Mehdiqulu ağa və Xanlar ağa və Qarabağın təmam ümdə bəyləri ilə gedib, Səlim xanı dəxi xəbərdar etdilər. O, dəxi Şəkinin zübdə bəyzadələri ilə gəlib, ittifaqi-təmam ilə gedib, Kürək çayında sərdari-əzəmi mülaqat etdilər. Lazımlı eyş və bayram və qonaqlıqlar əmələ gəlib, işrət və ləzzət və söhbətlər çox vaqe oldu. Aralarında məsləhət və məşvərət və çox müahidat və mühavirat hasil olduqdan sonra bənayi-müsalihə hər iki tərəfdən əhd və iman və şürüt və peyman ilə möhkəm olub, Sərdari əzəm knyaz Sisianov əhdnamələr mərqum etdirib, İbrahim xan və Səlim xan o əhdnaməni möhür elədilər. Əlahəzrət imperator əfxəm tərəfindən dəxi lazım

olan əhd və şərtləri yazıb sərdari-əzəm qol çəkib və dəstxət yazdı[1]. Bəd bir-birlərinə çox ezaz və ehtiram və artıq töhfə və lütfkarlıq göstərib, sərdar yaxşı sovqatlar İbrahim xana və Səlim xana və Məhəmmədhəsən ağaya və Mehdiqulu ağaya və sair Qarabağın bəylərinə və Şəki bəylərinə verib, haman məclisdə general-leytenantlıq mərhum İbrahim xana və şəkili Səlim xana və general-mayorluq Məhəmmədhəsən ağaya və Mehdiqulu ağaya və polkovniklik çini Xanlar ağaya sərdari-əzəm vəsatit və prisvoit edib imperaturi-əzəm hüzuruna yazdı ki, dörd aydan sonra bu iltifatlarının fərmanı və münasib məvacibi-müssəmərri ilə gəlib yetişsin. Dəxi haman əhd və şərtnamədə də qeyd olunmuşdu ki, İbrahim xan və nəslində nə qədər ki, varisi vardır sonradan nəsli-imperaturi-əzəm tərəfindən Qarabağda tam istiqlaliyyəti olan hakim olalar. Ona görə Məhəmmədhəsən ağa ki, İbrahim xandan sonra varisi-Qarabağ idi. Sərdar onun özünü və kamalını çox pəsənd eləmişdi və artıq bəyənmişdi. Onun ikinci oğlu Şükrulla ağanı istədi ki, itminan və istihkamı-ümur üçün versinlər ki, Gəncə qalasından zaval rəsmi ilə qoşunda qalsın. Hər gündə də 10 manat vəchi-nüqrə Rusiya ona məvacib və vəzifə versin. Bunlar hamı məqbul və mərbut olub 11 gün orada bir yerdə olub, bu növ ümurat hamı əncam bulub, bəd əz an sərdari-əzəm qayıdıb, Tiflisə getdi. İbrahim xan və Səlim xan dəxi öz vilayətlərinə gəldi-lər. Dəxi əhdnamə bağlanarkən İbrahim xan və Səlim xan hər ikisi xahiş etdilər ki, hər birinə bir dəstə rus qoşunu verilsin ki, topxana ilə gəlib, bizim yanımızda olsun. Ona başlanğıc üçün sərdari-valata-bar mayor Lisaneviçi beş yüz soldat ilə Qarabağa və şul qədər qoşun dəxi Şəkiyə məmur və rəvanə edib göndərdi. Ondan (sonra) özü qayıdıb Tiflisə, Gürcüstan və Başıaçıq vilayətlərinin nizam və işlərinə məşğul oldu.

---

1 İbrahim xanla Sisianov arasında Kürəkçay kənarında aparılan danışıqlar 14 may 1805-ci ildə Qarabağın Rusiya himayəsini qəbul etməsi haqqında müqavilə bağlaması ilə nəticələndi. Şəki xanı Səlim xan isə Sisianovla 21 may 1805-ci ildə Şəkinin Rusiya himayəsini qəbul etməsi müqaviləsini imzaladılar.

ON DOQQUZUNCU FƏSİL

## PAREYİ-SƏBƏBLƏR Kİ, FƏTƏLİ ŞAHIN İBRAHİM XANDAN PƏNCİDƏLİYİNƏ BAİS OLDU VƏ ARADA MÜNAZİƏ ƏMƏLƏ GƏLDİ. ONLARI BƏYAN EDƏR

Əvvəla, bir səbəb bu idi ki, İbrahim xan tamam ömründə sədaqəti-qəlb və ixlasi-kamil ilə İran şahına müti olmadı. Səmimi-xatir ilə itaət qılmadı. İkincisi, İran padşahı Ağa Məhəmməd şah kimi sahibi-İran burada məqtul olundu. Dərya xəzinəsi bu yerdə batdı ki, onun müqabilində Qarabağdan və Qarabağın xanı İbrahim xandan İran dövlətinə onda bir və mində bir qədər xeyir hasil olmadı. Bəlkə hər zaman zəhmət və qəramətlər yetişdi. Salisən İbrahim xan bir vasitə və dostrəs tapan vaxtda bitəvəqqüf və ehmal Rusiya dövlətinə qayibanə ixlas bəsləyib, heç bir mərhəmət o dövlətdən hənuz görməmiş, ona meyil və rəğbət göstərmişdi. Onu da anlayıb və bilmişdilər. Dördüncüsü, Fətəli şahın vaqedə mərhum İbrahim xana görə qayətdə çox məhəbbət və mərhəməti var idi ki, onun qızı Ağabəyim ağanı öz hərəmxanasında banuyi-hərəm eləmişdi. Oğlu Əbülfət xanı öz hüzurunda tərbiyə edib, əzizləmiş və möhtərəm qılıb, müqərrübül-Xaqan və əmirül-ümərayi-İran və məsahib və mərhəmi şah eləmişdi. Qarabağ vilayətindən heç bir zərrə və bir dinar tama və təvəqqə etməyib, əlavə Qaradağ vilayətinin təmam mədaxilini İbrahim xana vagüzar etmişdi. Bundan masava yenə hər ildə o ki lazımdır, öz tərəfindən əsb və şəmşir və xələt və ənamlar və mərhəmətlər mərsul edərdi. Dəxi Qarabağ bəylərindən və əhllərindən hər kimsə ki, onun yanına getmişdilər təmamisinə izzət və hörmət və mənsəb və məva-ciblər verib, sahibi-ənamına külliyə eləmişdi. Tamam hamı bunlar ilə yenə İbrahim xan ona meyli-qəlb etməyib, sədaqəti-kamil ibraz etməzdi. Bir dəxi Qarabağın quldurları bir para nadanlığa görə mərhum xandan xəlvət gedib quldurluğa, Gəncə şəhərində olan Rusiya qoşununun ərradə və top atanlarını qovub gətirmişlərdi. İbrahim xan xəbərdar olub, o quldurlara acığı tutub, əzim basxast onlara elədi. Atları dəxi cəm etdirib, sərdar Sisianov tərəfindən şul zamanda elçiliyə gələn mayor Dimitri Lisaneviçi halı edib, o da sərdara məlum etdi. Sərdarın əmri ilə Gəncə böyüyü polkovnik Gulugin hüzuruna

göndərdi. Amma əgər İran təvabelərinin dərya qarəti Qarabağa gəlsəydi, bir həbbə rədd etməyə meyli olmazdı. İbrahim xanın dəxi Rusiya dövlətinə itaət etməyinə ümdə səbəblərdən bais bu idi ki, Ağa Məhəmməd şah Qarabağa gələndə, xan tamam övlad və əqrəbaları və qohumları ilə qaçıb ki, Balakənə getdi. Vilayət təmam əfsurdə və aclıq və çox pərişan və xarab oldu. Xalqın çoxu qeyri vilayətlərə dağılıb, pərakəndə oldular. İbrahim xan dəxi sonra Dağıstandan və Balakəndən ki, qayıdıb gəldi. Camaat hamı müqəşvəş və əfsurdə olmuşdu. Övzadan və mədaxildən düşüb, dağılanı dağılıb və qalanları dəxi nimcan və pərişan olmuşdular. Ətraf vilayətlərin xanları dəxi ayaqlanıb, Şəki və Şirvanın xanları və qeyrilər ədavət və düşmənlik başladılar. Xanın calal və şövkəti bir az kəsr və qüsur hasil elədi. Əlavə, xanın özü qoca və müsini olmuşdu. Övladı və oğlanları dəxi bir-biri ilə ədavət başladılar. Qarabağda nifaqlıq vaqe olub İbrahim xanın hökmü dürüst cari olmadı. Xüsusən bir para şərir adamlar ara-lıqda şeytanlıq edib, İbrahim xan ilə öz böyük oğlu Məhəmmədhəsən ağanın arasına və Mehdiqulu ağa və Xanlar ağanın aralarına küdurət və iğtişaş saldılar. İbrahim xanı Məhəmmədhəsən ağadan dilxor və rəncidə elədilər. Cəbrayıllı tayfası ki, Vərəndə mahalında bir böyük eldir və Məhəmmədhəsən ağanın anasının qohumları olan ümdə bəyləri var idilər. Məhəmmədhəsən ağaya itaət edib, İbrahim xanın əmrinə müti olmadılar. Bu gunə işlər çox baisi-küdurət oldu. Hərçənd mərhum xan iradə elədi ki, Mehdiqulu ağa və Xanlar ağa ittifaq olub Məhəmmədhəsən ağanın hökmünü və rütbəsini aşağı salalar və cəbrayıllı camaatını dəxi bir növ (sakit) edib, ondan kənar və uzaq edələr ki, İbrahim xana dürüst müti olalar. Amma Mehdiqulu ağa və Xanlar ağa Məhəmmədhəsən ağa ilə bihörmətlik etməyə razı olmadılar ki, İbrahim xan yaşlaşmışdı. Məhəmmədhəsən ağa sayılan və sahibi-hörmət və sahibi-əql və rəftar və fərasətli və kamallı və sahibi-ədəb və adab və qırx yaşına yetmiş və təcrübə etmiş və hamı vilayətlərdən ümdə mötəbər və sahibi-tədbir hesab olunan idi. Məhəmmədhəsən ağanın vücudu ilə onlar və sair övlad və qeyrə xəlaf hərəkət etməyə məqdur ola bilməzdi. Pəs İbrahim xan, xəlvət oğlu Əbülfət xana ki, Fətəli şah hüzurunda əmiriül-üməra hesab olmuş idi, adam göndərib və sifariş edib, dəvət elədi ki, şahdan mürəxxəs olub Qarabağa gəlsin ki, ona məsləhətlərim var. Çünki Fətəli şah dəxi imperaruri-əzəmdən ki, sərdarı Tiflisdə idi, ehtiyat

edirdi ki, İbrahim xan Rusiya tərəfinə getməsin. Elçilər və adamlar İbrahim xan ilə sərdarların arasında gəlib-getməyi dəxi eşitmişdilər. Fətəli şah Əbülfət xanı beş min qoşun ilə Qarabağa İbrahim xanın yanına məmur elədi. Çox giran ənam və mərhəmətlər ilə ona göndərdi ki, İbrahim xanın inaət və köməyinə iqdam edə. Onun hüzurunda vəkil və naib kimi olub, dəxil və təsərrü edənləri, xüsusən Məhəmmədhəsən ağanı, bir para Qarabağın bəyzadələri ilə Fətəli şahın hüzuruna rəvanə edə. Nə qədər ki, İbrahim xan hali-həyatdadır, onun xidmətində olub, Qarabağda heç bir iş Əbülfət xanın səlah didindən xaric olmaya. Pəs Əbülfət xan sərhədi-vilayətə gəlib, Fətəli şahın bu gunə səlahdidin atası İbrahim xana hali elədi. Xan dəxi bir para işlərə və övladından küdurət etməyinə görə əvvəl hər-çənd bu əmrə razı olmaq istədi, amma sonra oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağa və Xanlar ağa hər üçü ittifaq olub, əzbəski, Əbülfət xan bir ədna olan övrətdən olmuşdu və həmə vaxt Qarabağda olanda Məhəmmədhəsən ağaya və Mehdiqulu ağaya nökərlər rəftarı kimi xidmətlər qılmışdı. Onun şöylə vəkil və sahibi-ixtiyar olmağına razı olmayıb, İbrahim xanı nikul və təğyir elədilər. Əbülfət xanın dedikləri kəlamatın əksinə rəftar və əməl başladılar. Xan dəxi Fətəli şahın bir para təklifatını xoşagəlməz bilib dübarə Əbülfət xana yazdı ki, qayıtsın və Qarabağ torpağına gəlməsin. Əbülfət xan əhvalatı bu növ görəndə bildi ki, tədbirlər qardaşlarınınkıdır. Dəxi atasının əmrini qəbul etməyib iki nəfər xan dəxi, şahın əmri ilə həmrah götürmüşdü. Beş min dəxi Qızılbaş qoşunu əmrində idi. Əvvəl Qarabağın Zəngəzur və Qapanat mahalatına daxil olub, hər kənddə və hər qəryədəki xanın və Məhəmmədhəsən ağanın və Mehdiqulu ağanın və sair bəylərin və ağaların darğa və nökərləri var idi çıxarıb və məzul etdi. Özü əlavə nökər və darğa kəndlərə qoydu. Tamam məlikləri və kəndxudaları hüzuruna cəm edib, xələt və bərat verib, özünə müti və münqad elədi. Qapan və Çuldur və Günay mahallarına tamam malik olub, ta Bərgüşad çayınadək mütəsərrüf oldu. Çayda ordu edib oturdu. Hərçənd İbrahim xan bu cür hərəkət-lərdən onu mən edib mükərrər adamlar göndərdi ki, bu gunə əməlləri tərk etsin və ya qayıdıb getsin və ya mənim yanıma gəlsin. Necə məsləhət desəm, şöylə eləsin. Əbülfət xan baxmayıb və qulaq asmayıb hökumət iddiasının əlamətlərini zahil eylədi. Bir para bəylərdən ki, onun qohumları idilər Mirzə Əlibəyi və Fazil bəyi ki, ümdə bəylər

və övlad və əqrəbaları çox və İbrahim xanın əmizadələri və Qarabağ vilayətində ümdə və zübdə hesab olunan şəxslər idi. Hərçənd, zahirən xandan, Məhəmmədhəsən ağadan və Mehdiqulu ağadan və Xanlar ağadan ehtiyat edib Əbülfət xana aşikar yardım və kömək izhar edə bilməzdilər. Amma batinən onun istiqlalına kömək etməyə və himayət etməyə çalışırdılar. Mirzə Əlibəyin əmisi qızını Əbülfət xan alıb övrət eləmişdi. Şuşa qalasında olurdu. Əbülfət xan Bərgüşad mahalında ordu eyləyib oturdu. Qarabağın tamam ilat və kəndlilərini öz yanına dəvət edib, ziyadə məğrurluq başladı. Axır İbrahim xan oğlanları Məhəmmədhəsən ağa və Mehdiqulu ağa hüzurunda qoşun bina edib, Əbülfət xana müqabil getməyə məcbur oldular. İbrahim xan ilə Məhəmmədhəsən ağa Dizaq mahalının Tuğ kəndinə gəldilər. Mehdiqulu ağa və Xanlar ağa xandan mürəxxəs olub Zəngəzur mahalına tərəf əzm eylədilər. Xanlar ağa öz müqərrəbi və ixtiyarı olan Əhməd ağa ilə Qaraçurlu və Hacısamlı kürdlərinin mahalına daxil olub, Mehdiqulu ağa dəxi özünün mötəbidi və müqərribləri Rüstəm bəy və Uğurlu bəy və s. rəşid nökərləri ilə hərəkət etdi. Qasım bəy, Rüstəm bəyin atası ki, bir sahibi-tədbir, rəşid və kardan adam idi, Diq və Gorunzur kəndlərində olurdu, Əbülfət xana itaət etməmişdi. Mehdiqulu ağanı Diq və Gorunzur kəndlərinə daxil edib, üç yüzdən ziyadə tüfəngçi adamlar ilə möhkəmləşib möhkəm məkanda oturub və Xəzzək kəndinin kuxasına ümid və nəvad verib, Əbülfət xandan rukərda edib öz hüzuruna gətirdi. Mehdiqulu ağa dəxi Uğurlu bəyi neçə atlı ilə göndərib, Əbülfət xanın Xəzzək kəndində qoyduğu bəyləri tutub, at və əsbablarını alıb və özlərini dustaq elədi. Bu xəbərlərdən Əbülfət xan müstərib olub, sürət ilə Dizaq mahalına əzm eylədi. Məqsudu bu oldu ki, İbrahim xanın və Məhəmmədhəsən ağanın hənuz cəmiyyətləri güc toplamamış gəlib Tuğ kəndində Məhəmmədhəsən ağanı tutub və İbrahim xanı dəxi bidəxil edib, gəlib Şuşa qalasına daxil ola. Əcəb batil fikirlər və biəsl xəyallar eləmişdi ki, heç ola bilməzdi. Ol vaxtda İbrahim xanın və Məhəmmədhəsən ağanın yanında ancaq iki yüz nəfər atlı və piyadə ola bilərdi. Pareyi-bəylər dəxi onların hüzurunda var idilər ki, zahirən orada idilər. Amma batinən Əbülfət xanı istəyən idilər. Şayət Əbülfət xana dəxi onlar elam etmiş ola idilər ki, burada İbrahim xanın və Məhəmmədhəsən ağanın cəmiyyətləri kəm və özləri bixəbər və xatircəmdirlər. Gəlmək münasibdir. Və illa Əbülfət xandan bu gunə

hərəkəti və ağılı qəbul etməz idilər. Əlqissə, bu əhval məlum olan kimi İbrahim xan və Məhəmmədhəsən ağa Mehdiqulu ağaya ki, Zəngəzur mahalında olurdu, kağız yazıb, təcili-təmam ilə istədilər ki, dörd-beş yüz atlı və piyada o səmtlərdən cəm edib, iki günədək buraya Tuğ kəndinə gəlməyəsiniz, işlər xarab olur. Qızılbaş qoşunu və Əbülfət xan Qarabağa və Şuşa qalasına təsəllüd tapacaqdır. Hətta Qasım bəy və oğlu Rüstəm bəy mərdanəlik edib və sədaqət göstərib, Xanlar ağa dəxi öz ixtiyarında olan Hacısamlı və Sultanlı xalqının atlı və piyadəsin cəm edib, Mehdiqulu ağa və Qasım bəy Diğ və Goruzur və Xəzzək və Qala dərəsi və müsəlman kəndlərinin rəşid və qoçaq rüfəngçilərindən yeddi yüzə yavuq atlı və piyadə cəm edib Rüstəm bəy və Uğurlu bəy və s. Mehdiqulu xanın nami və rəşid nökərləri ilə şul gecə vaxtı kamila kamali-təcil və sürət ilə Tuğ kəndinə İbrahim xanın və Məhəmmədhəsən ağanın yanına gəlib, hazır oldular. Haman vaxt idi ki, Əbülfət xan gəlib, Tuğ kəndinin iki ağaclığında Qızılqışlaq mənzilinə varid olmuşdu. Yanında külli və çox olan cəmiyyət və qoşun ki, o vaxtda məcmu, Qapan və Bərgüşad və Dizaq mahallarının kəndlərinin əhli və Dizaq, Cavanşir və Hacılı xalqı və hətta Cəbrayıllı bəyləri və əhlləri tamam ehtiyat və xofdan ki, məbada Əbülfət xan çapıb və qarət edə məcmusu onun yanında idilər. Əbülfət xanın təsəvvürü bu idi ki, İbrahim xanın və Məhəmmədhəsən ağanın hüzurlarında cəmiyyətləri yox və bəylərin dəxi aralarında nifaqlıq və əksərinin qəlbləri batinən ona maildir. Sübhdən gedib Məhəmmədhəsən ağa ya qaçıb Gəncəyə və ya Tiflisə gedər və ya tutulur və Qarabağ vilayəti təmamən əlində olur. Bu cür xəyalda amma bu əhvaldan xəbəri yoxmuş ki, Mehdiqulu ağa şöylə nökərləri ilə və şöylə zübdə və zirək-çevik qoşun və tüfəngçi ilə gecə gəlib Tuğ kəndində İbrahim xan hüzurunda hazır olublar. Pəs sübhdən Qızılqışlaqdan çıxıb, qoşunlarını dəstə-dəstə edib, nizam verib, cəmiyyəti-tamam və izdihami-malakamal ilə Tuğ kəndinin üstünə yollandılar. İbrahim xanın və Məhəmmədhəsən ağanın üsrünə, Allah, Allah, çəkib yürüşə başladılar. Əz qəza haman günü hava bulud və duman idi. Görməzdilər ki, Tuğ kəndində cəmiyyət nə qədərdir. Şul qədər gəldilər ki, bir verst qədəri kəndə qalmış, duman açılır. Əbülfət xan və qoşunu baxıb, Tuğ kəndində cəmiyyəti-küllü və kisrət və izdihami-kami görəndə müztərib-əhval olub, xəbər hasil edirlər. Məlum olur ki, o gecə Mehdiqulu ağa çox cəmiyyət və tüfəngçi ilə

varid olub, döyüşə amadə vardılar. Pəs bu gunə gəlməkdə peşman olurlar. Amma peşmanlıq dəxi nə fayda edər. Xüsusən ki, çox iddia və qürur ilə gəlmişdilər. Dəxi labüdən qalıb davanı başladılar. Orada Əbülfət xanın iki nəfər adamını qətlə yetirdilər. Mehdiqulu xanın dəxi bir yaxşı məruf nökəri məftul oldu. Birisi dəxi zəxmdar olub gün məğribə yetişib, hava artıq soyuq oldu. Ramazan və orucluq ayı idi. Yer dəxi qar idi. Çox məğşuş oldular ki, soyuğun çoxluğundan əlləri iş tutmaq müşkül idi. Naçar haman yerdə bir kiçik dağın üstə qarın içində yerbəyerdən tökülüb, yüklərini açdılar və sübhə kimi burada qalıb, sübh tezdən köçmək binası etdilər ki, dala qayıtsınlar. Nagah Məhəmmədhəsən ağa və Mehdiqulu ağanın atlı və piyadə qoşunları əzmicəng edib, ətrafdan dava salıb və şənlik başladılar. Əbülfət xanın cəmiyyətinə hücum və həmlə qıldılar. Pəs Əbülfət xanın qoşunu şikəst tapıb, yerbəyer yüklərini töküb, qaçmağa başladılar. Bir tərəf dəxi öz yanlarından olan Cəbrayıllı və Hacılı və Cavanşir xalqı həm dönüklük edib, ümdə şikəstliyi onlar saldılar. Əbülfət xanın qatırxanası və sandıqxanası tədarükatı və sair xanların tədarükləri və qoşun əhlinin yükləri və ulağları təmamən qarətə gedib, Əbülfət xan bir neçə nəfər məxsus nökərləri ilə Araz tərəfinə fərari olub, əksər qoşunları isə əsir (oldu) və xanlar dəstgir olub, yüz nəfərə yaxın adamları qətlə yetişdilər. Qalan qoşunları dəxi soyulub və basılıb əsirvar və piyada Araz səmtinə həzimətə gedib, hər kəs öz tərəfinə dağıldılar. Hətta o cümlədən beş yüzə yaxın atlı Əbülfət xanın dalısınca gələrmişlər. Yolda Heregül kəndində Cəbrayıllı bəyləri və xalqı tökülüb, onları qarət edir və soyub, lüt və piyada mürəxxəs etmişdilər. Pəs Əbülfət xan şul gecə gedib, çox xof ilə Araz kənarında qalıb, sübh Arazdan keçib Qaradağa getmişdi ki, məhz cərideyi-subay atlı oraya çıxıb təmam əsbab və barxana və tədarükatı qarətə getmişdi. Və bəd Əbülfət xana xəlvət söz verib, təhrik edənlər və ona mail olan bəylər şərməndə və xəcalət qaldılar. Məhəmmədhəsən ağa dəxi hərçənd ki, onlara cəza və siyasət etməyə asanlıq ilə qadir idi. Amma bir para xanın əmizadələri və bir-iki nəfər müsinn və sahibi-hörmət bəylər onların içində var idilər. Dəxi aşkar onların xəyanət və batil fikirlərin açıb, bir məvaxizə və bazxast etmədi. Əlqissə, bu xəbərləri dəxi Fətəli şah eşidib, zahirən Əbülfət xana məzəmmətlər yazıb və İbrahim xana elçi göndərib, izhar etdi ki, Əbülfət xan padşah əmrinə xilaf edib ki, xanın əmrinin əleyhinə çıxış edibdir. O

nə şöylə buyurulmamış idi ki, o növ hərəkət əmələ gətirib. Mən bu babda hərgiz İbrahim xandan və Məhəmmədhəsən ağadan inciməyib, razı varam. Mətləblərinin həmə vaxt məqruni-əncam bilib, ərz edələr ki, hər cür ehtiyacları ödənilir. İbrahim xan cavab verdi ki, mən şöylə təsəvvür eylədim ki, bundan əvvəl olan keçmiş müqəddimədər İran dövlətinin xatirindən çıxıb. Sair padşahlar kimi öz əhdlərində vəfa və dürüstlük fəramuş olub. Şimdi ki, keçmiş ədavət yenə zühur edib, pəs mənə vacib oldu ki, əhdi dürüst olan ədalətli və mərhəmətli, ədəbli və hörmətli padşaha itaət edəm ki, qoşunu çox nizamlı və qüdrətli və mərhəmətli padşahdır ki, imperator adlanıbdır. Fətəli şah, bu sözlərə sakit olmayıb, bilirdi ki, İbrahim xan Rusiya dövlətinə itaət edib, Şuşa qalasını ki, ruyi-zəmində şöylə qala yoxdur və bəlkə əgər olsa da az olur. Bu tövr böyük vilayət torpağı və dağları və səhrası çox vəsi və ərzi məmləkətdir ki, quberniya demək olur. Əlbəttə ki, onun damadı Şəki hakimi Səlim xan ki, onun da dağları Qafqaz və Dağıstan və Car vilayətinə mübtəsil olur. O, dəxi təbii olaraq itaət edir. Bu iki xan itaət edəndə, onların qorxusundan Şirvan hakimi Mustafa xan dəxi xahi-nəxahi itaət edəcək. Çünki hərgah Rus dövlətinə düşmənlik etsə, Qarabağın və Şəkinin əhlləri Şirvanı qarət və xarab edib, zərb ilə çoxusunu köçürüb Şəkiyə və Qarabağa aparırlar. Bunlara binaən, o da gərək itaət edə, bu surətdə Azərbaycanın əlavə xanları fürsət tapalar İbrahim xan ilə müttəfiq olub, xarablıçılıq edərlər. Belə ki, Şahsevən xanı İbrahim xanın damadı idi. Xoy hakimi damadı və Qaradağ xanı dəxi damadlıq etmiş idi. Şəqaqi və Təbriz və Marağa təmamən Rusiya dövlətinə itaət edərlər. Necə ki, irəli tarixi islamiyyə 1209 sənədə[1] imperaruri-üzma Yekaterina əmri ilə sərdar qraf Zubov qoşunu səmti-Şirvana gələndə, İbrahim xan oğlu Əbülfət xanı ki, onda Əbülfət ağa idi, onun hüzuruna göndərib, dövləti Rusiyaya izhari-itaət qılmışdı. O vaxtda, bu qeyd olan xanlar necə ki, fövqdə yazıldı, təmamisi İbrahim xana Ağa Məhəmməd şahdan xəlvət kağızlar yazıb və adamlar göndərmişdilər ki, İbrahim xan bizim böyüyümüz və ixtiyarımız və atamızdır. Əgər səlah bilib, dövləti-Rusiyaya itaət edirsə bizlər hamı onun məsləhətindən xaric olmayıb, itaət edirik. İbrahim xan o vaxtda haman kağızları ki,

---

[1] Hicri 1209 - miladi 1794/1795 ilə uyğun gəlir. Lakin V.Zubov Şirvana 1796-cı ildə gəlmişdir.

xəvanini-Azərbaycan yazmışdılar bir nəfər mötəmid adamla sərdar qraf Zubovun hüzuruna göndərdi ki, bu gunə əhvalat məlum olsun. Şahid şul kağızları qraf Zubova (verdi ki), imperaturi-üzma Yekaterina hüzuruna yollamış olar. Bir dəxi o ildə ki, İrəvan səbtində sərdari-əzəm knyaz Sisianov ilə Fətəli şah və naibüssəltənə mülaqat və müharibat etdilər və oradan sərdar Sisianov Tiflisə qayıtdı. Şah dəxi Azərbaycan və Tehran sövbinə müraciət etdilər. Ol vaxtlarda şaha xəbər verdilər ki, İbrahim xan həmişə Rusiya dövlətinə mail və şaiqdir. Doğru sözü və elçisi və sovqatı həmə vaxt onlar ilə gəlib-getməkdədir. İran dövlətinə və Qızılbaşa qəlbən bədxah və xaindir. Necə ki, sabiqdə həmişə Qızılbaşiyə ilə dava və münaqişələr edib. Azərbaycanın keçmiş hakimlərinə və Ağa Məhəmməd şah kimi şahi-İrana xain və bədxah olduğu aydındır. Lakin Rusiya böyüklərindən hansı ki, o səmtə gəlsə və ya birisinə dəstrəs əl versə dərhal onlar ilə mehriban və səmimi və sədaqət ilə xahan olur. Heç bir davasız və münaciəsiz və o dövlət tərəfindən bir artıq hörmət və mərhəmət görməmiş, onlara müti və raqib olur. Hərçənd Fətəli şah özü də bu gunə əhvalatın əsərin müşahidə edərdi, amma necə ki, yuxarıda məzkur olundu, İbrahim xana artıq məhəbbət və mərhəməti və Qarabağ əhlinə ziyadə iltifat və şəfəqqəti olduğu səbəbə, bunlara mültəfit olmayıb, yenə Kərim xan və Abdulla xanı İbrahim xanın yanına göndərib, kamali-hörmət və mərhəmət və mülayimət ilə yazmışdı ki, Allah rizasına namusi-islamı mənzur edib, hər nə təvəqqeyi var, məndən etsin, yerinə yetirim. Urus padşahına itaət etməsin. Şuşa qalası ki, toxunulmazdır və qəleyi-Xudafərin və məmləkətdə səddi-mətindir və İranın giriş qapısıdır, Urus dövlətinə verib Rusiya qoşunlarını daxili-şəhr və (onların) qalası eləməsin. Və ehtiyat etməsin ki, Urus dövlətindən ona zərər və vilayətinə xarabalıq gələr. Mən əvvəla, İran qoşunun zübdə atlısından çox atlı, yaxşı rəşid sərkərdə ilə və öz xərcim ilə Tərnəküt qalasında ki, Şahbulaq ola, qoyaram ki, həm Qarabağı mühafizət edər və həm İbrahim xanın itaətində olar. Və saniyən oğlum Abbas Mirzəni sinahi-əzim ilə göndərim ki, sər-hesab olur. Həm Şirvan və Şəki hakimlərini və sairləri tənbeh edər və Qarabağdan dağılıb o vilayətlərə qaçan və təfriqə olan evləri təmamən cəm edib, Qarabağa gətirər ki, sabiq əyyamda Qızılbaş tərəfindən sənin vilayətinə yetişən nəqs və sədəmələrin mükafatı əmələ gəlib Qarabağ yenə ziyad gözəlləşər və abad olur. Əlavə, iki

min piyadə sərbaz və top yollaram Əsgəran qalalarında oturar ki, oradan Şuşa qalasına üç ağac yoldur, Rusiya qoşununun qala üstə gələn yoludur. Mühafizət edərlər. Əgər küllü və güclü cəmiyyət Rusiya tərəfindən gəlməli olsa, özüm də köməyə gələrəm. Heç fikir eləməyin. Çün şul vaxtlarda Rusiya dövlətinin necə ki, şimdiki kimi küllü qoşunu və bu tövr top və tədarükü və bu gunə əzəmət və əsası yox idi. İbrahim xan cavab verdi ki, mən hənuz Urus dövlətinə itaət etməmişəm. Bir güclü və qüdrətli və mürüvvətli padşahdır. Onun qoşunu gəlib və sərdarı Tiflis şəhərindədir. Çünki mən sadiq Rusiya dövlətinə, imperaturi-üzma Yekaterina hüzuruna və qraf Qudoviçə və qraf Zubova elçi və adam göndərib, izhari-ixlas etmişəm. Layiq deyil ki, şöylə padşahın sərdarı bu yaxında Tiflis şəhərində ola, mən (də) ona elçi və adam göndərməyim. Əlbəttə ki, təqazeyi-vaxt necə olsa və qəzayi-fələki nə surət göstərsə, şöylə əməl olacaqdır. Əlqərəz, bu növ cavablar ilə Fətəli şahın adamların geri qaytardı. Fətəli şah elə ki, bu gunə əhvalatı və cavabları görüb, yenə sakit olmayıb, dübarə yenə Kərim xan və Abdulla xan və Rəhim xanı İbrahim xanın yanına göndərib, müqəllizə andlar və qəsəmlər edib və Quranı möhürləyib, yuxarıda mərqum və məzkur olan təəhüdat və mətalibata dübarə təkid edib və külli böyük ənamlar və mürəssi və cavahir qılınc və qızıl, iri əsbablı başdan-ayağa qaşdaşla bəzənmiş at və üç min əşrəfi məzkuk nağd və giranbaha xələt və şal ilə göndərib yenə İbrahim xandan Şuşa qalasını Rusiya qoşununa verməməyə və rus padşahına itaət etməməyə iltimas və təkid etmişdi. İbrahim xan şul xanları mürəxxəs etməyib qalada göz dustağı kimi saxlayıb, bu əhval və hadisələrin sərdar Sisianova məlum eylədi. Sərdar buyurmuşdu ki, əgər doğru-həqiqət, canü dil ilə imperaturi-əzəmə və dövləti-əfxəmə (Rusiyaya) ixlas və itaəti varsa, şul xanları ki, qasidliyə gəliblər saxlasın, buraxmasın. Və illa onun dövləti öz fikrini yaxşı bilir. Pəs İbrahim xan cavab verdi ki, mən qədimi ixlas və sədaqətimdə sabit və möhkəm varam. Heç vaxt təğyir verməmişəm və verməyəcəyəm. O, xanları dəxi buraxmayıb saxladı. Sonra sərdara pişnəhad etdi. Əlqissə, İbrahim xana Fətəli şah hər nə qədər ki, mülayimlik və mərhəmət göstərdisə, hərgiz ona xülus və iradət ilə itaət eləmədi. Onun yanında banuyi-hərəmi-şah olan əzizeyi-mükərrəmə qızını və oğlu Əbülfət xanı və Qarabağ bəylərini ki, İran dövlətində ıdilər və Qaradağ vilayətinin məbaliğ mədaxilini ki, İbrahim xana

yetişirdi və islamlıq və həmməzhəblik şərtini ki, məscidlərdə İbrahim xana bəd dualar edəcəklər, təmamini atıb mənzurə gətirməyib, Rusiya dövlətini hörmətli və şəfəqqətli və əhdi dürüst və mərhəmətli bilib, öz rizası və səmimi qəlbi ilə bu dövlətin itaətini qəbul eylədi. Axır ki, Fətəli şah dəxi incidi və aralığa küdurət düşdü.

## İYİRMİNCİ FƏSİL

## İBRAHİM XANIN TƏMƏNNASI İLƏ RUSİYA QOŞUNU ƏVVƏL QARABAĞA GƏLMƏYİNİ VƏ QIZILBAŞ LƏŞKƏRİ İLƏ CƏNG VƏ MÜHARİBƏ VAQE OLMASINI BƏYAN EDƏR

Belə ki, yuxarıda mərqum və məzkur oldu ki, məsihi ilinin 1805-ci ilində - may ayının əvvəlində sərdar Sisianov Kürək çayına gəlib, İbrahim xan dəxi damadı Səlim xan şəkili ilə və Qarabağın və Şəkinin bəyləri və böyükləri ilə gedib orada görüb və əhdnamələr tərtib edib əhd və peymanı və itaəti Rus dövlətinə möhkəm etdilər. Oradan müraciət edəndə sərdardan qoşun və topxana təmənna etdilər. Ona görə sərdar Sisianov mayor Lisaneviçi beş yüz yeger adla-nan dəstə və topxana ilə Qarabağa - İbrahim (xanın) yanında olmağa təyin elədi. Bir dəstə dəxi Şəkiyə müqərrər və məmur eləmişdi. Elə ki İbrahim xan və Səlim xan və onlar ilə oraya gedən Qarabağın və Şəkinin əyanları Kürək çayından və sərdar hüzurundan müavidət edib, hər kəs öz yerinə və məqamına gəlib yetişdilər, haman əsnada İbrahim xana əhval və xəbər yetişdi ki, qızılbaş qoşunu Fətəli şahın əmri ilə Qarabağa azim olub, gəlməkdədirlər. Və yeger dəstəsi və mayor Lisaneviç dəxi topxana ilə gəlməkdə idilər. Təxir oldu. Qızılbaş ləşkəri gəlib yaxınlaşdı. Bu keyfıyyətə görə Məhəmmədhəsən ağa təcil və ixtirab edib, batalyonun istiqbalına əzm eylədi. Gedib batalyonu götürüb, o ilin aprel ayında gəlib, Xan bağına varid oldular. Və çün o vaxtda yaz fəsli idi. Arazın suyu daşıb, həddən ziyadə olmuşdu. İbrahim xan belə səlah gördü ki, əgər rus qoşunu ilə Qarabağ qoşunu gedib Xudafərin körpüsünü kəssələr, dəxi qoşun körpü-

dən keçməsə, qeyri yerdən keçmək məqdur olmaz. Bir-iki ay təxir olar. Onadək əhaliyi-Qarabağ, xüsusən Dizaq və Vərəndə mahalının əhlləri taxıl və əkinlərini cəm edib və döyüb götürərdilər ki, pamal olub Qızılbaş qoşunu qarət eləməzlər. İşin axır əncamını görələr necə olur. Bəlkə daldan qoşun gələ. Şayəd sərdar Sisianov öz qoşununu götürüb köməyə gələ. Əlhasil, bu mənzurələrə əsasən mayor Lisaneviç batalyon ilə Məhəmmədhəsən ağa İbrahim xanın böyük oğlu, varisi - Qarabağ və bəyzadələr ilə və çox atlı və piyada cəmiyyət ilə getdilər, ta Cəbrayıllı bağlarınadək ki, şimdi orada tamojni və qarantin olur. Amma ta bunlar oraya yetişənədək Qızılbaşın adamları xəbərdar olur. Çünki qızılbaşın məşhur sərkərdələrindən zübdə atlılar və küllü qoşun ilə körpünün ətrafında imişlər. Haman vaxtda piştdəstlik edib, körpüdən keçib, cəmiyyəti-təmam ilə gəlib, haman Cəbrayıllı bağlarından onlara düçar olub dava başladılar. Orada şiddət ilə savaş olub, ta axşamadək nayireyi-qital və atəşi-cidal müştəil oldu. Hər iki tərəfdən adamlar qətlə yetişib, elə ki gün batıb gecə oldu, çünki xan və Məhəmmədhəsən ağa pareyi-Əbülfət xanın qohumları olan bəylərdən xatircəm deyildilər. Onlar Şuşa qalasında olurdular. Onlardan ehtiyat və əndişələri var idi. Məhəmmədhəsən ağa orada dava eləməyi məsləhət bilməyib, mühafizəti-qalanı ümdə mətləb bildilər. Məhəmmədhəsən ağa haman gecə oradan urus qoşununun əsbab və tədarükatını, dəxi sair qoşun atlılarının atlarına yükləyib birahə dağların üstündən aşıb, şul gecənin sübh vaxtı Tuğ qəryəsinə özlərini yetirdilər. Sabah olanda, Qızılbaş qoşunu xəbərdar olub, çöl və səhra yolu ilə ilqari-tamam və səy və cəhd etdilər ki, bəlkə Məhəmmədhəsən ağanın və qoşuni-Rusiyanın dağlarda qabaqlarını kəsib qoymayalar ki, qalaya daxil olalar. Dalıdan Abbas Mirzə naibüssəltənə dəxi, çox qoşun ilə gəlib, Şuşa qalasına müsərrəf olalar. Amma fikri-mahal idi ki, Şuşa qalasını almaq ola, bəlkə nifaq olan bəylərdən qala içində xəyanət edib, bir növ məğşuşluq ola biləydi. Əlqissə, haman günü Məhəmmədhəsən ağa Tuğ kəndindən gəlib, Rusiya qoşunu ilə qalaya varid oldular. Qalanın hasarının çölündə ordu edib, İbrahim xan və Məhəmmədhəsən ağa və rus batalyonu və tamam atlı və piyada Qarabağın qoşunu ilə çadırlar tikib, orada əyləndilər. Qarabağın və Dizaq və Vərəndənin mahalat kəndləri tamam köçüb dağlarda və möhkəm yerlərdə sığınaq elədilər. İlat və

tərəkəmə əhli dəxi küllən yaylaq dağlara gedib, möhkəm oldular. Pəs naibüssəltənə Abbas Mirzə təmam qoşunu ilə gəlib Çanaxçı kəndində ordu eylədi. Əliqulu xan, sərdari-Şahsevən dəxi beş min qoşun ilə Əsgəran qalasının həvaləsinə gəlib ki, Tiflisdən gələn yolun üstü ola. Orada ordu edib və bir dəstə atlıları dəxi Tərtər çayınadək qarovula getdi. Qərara gəlmişdilər ki, hər iki tərəfdən yürüş eləyib, qalanı müsəxxər edələr, Əbülfət xan bir para Qarabağdan Qızılbaşa fərar edən bəylərlə, Qarabağın ilat və dihatın xah erməni və xah müsəlman naibüssəltənə hüzuruna itaətə aparıb, (onlara) ənam və xələtlər verirdilər. Erməni kəndlərinin məcmu məlikləri və koxaları təmamən Əbülfət xanın yanına gedib xələt və xatircəmlik hasil elədilər ki, qarət və əziyyətdən arxayın olalar. Bu müqəddimələri və əhvalatı İbrahim xan və mayor Lisaneviç təkrarən sərdar Sisianov hüzuruna hale elədilər. Pəs sərdar Sisianov dəxi polkovnik Karyagini yeger polku ilə ki, Bahadur adı ilə məşhur idi, topxana və podpolkovnik Kotlyarevski ilə Qarabağ əhlinin himayətinə məmur və məsul elədi. Onlar da tezlik ilə gəlib haman günü ki, əzm eləmişdilər ki, Əliqulu xan Əsgəran səmtindən və şahzadə Abbas Mirzə Çanaxçı kəndindən qala üstə yürüş edələr. Bu əsnada İbrahim xanın məmur elədiyi qarovul xəbər gətirdi ki, polkovnik Karyagin qoşun ilə Şahbulağa gəlib düşdülər. Naibüssəltənə Çanaxçıdan köçüb Şuşa kəndinin üstündən keçib, Əsgəran qalasına tərəf getməyə başladılar. Xan və Məhəmmədhəsən ağa belə təsəvvür edirdilər ki, qala üstə gələcəklər. Bu heyndə polkovnik Karyagin dəstəsi Şahbulaqdan Əsgərana tərəf zahir olub, topunun tüstüsü aşkar nümayan oldu. Naibüssəltənə həm qala səmtindən keçib, top və zənburək ata-ata getdi. Amma yollarda dava eləyə-eləyə gələn, Əliqulu xanın üstə olan qoşunu idi. Polkovnik qoşun ilə dava edə-edə Qarağacı mənzilinədək ki, əzim qəbiristan idi, gəldilər. Orada yolun içi qəbirlərin hasarları idi. Təng və çətin yerlər idi ki, ərradə keçib gələ bilməzdi. Xüsusən ki, Əsgəran qalalarını qızılbaş qoşunu tutub və möhkəmləndirmişdilər. Qaladan dağa kimi hər iki tərəfini möhkəm səngər qayırmışdılar ki, keçmək mümkün deyildi. Əlacsız qalıb, geri Şahbulağa tərəf qayıtmağı dəxi ar və namus bildi. Qəbiristanın kənarında iki kiçik balaca hasar var idi. Ərradələri oraya sürüb yerbəyer düşdülər. Və ətraflarını səngər elədilər. Aşkar idi ki, əgər Əsgəran qala-

larının şul Qarağacı yerinin arasında daşlı və enişli-yoxuşlu dərələr olmasaydı, düz və səhra yer olsaydı, polkovnik və yeger batalyonu, xüsusən bahaduri-namdari-şardil Pyotr Stepanoviç Kotlyarevski Qızdbaş qoşununa qalib olub, Əsgəran qalalarınadək gedərdilər. Ləşkəri-qızılbaş onlara mane ola bilməzdi. Şul yerdə ki, batalyon səngər eləmişdi, ətrafı tamam səhra və düz yer idi. Qarqar çayı ilə onların arası bir verst olurdu. Qızdbaş qoşunu çox piyada batalyonla suyun arasında və qabaqlarında çoxlu möhkəm səngərlər qayırıb batalyonu mühasirə elədilər. Su aparmağa məqdur ola bilmədi. Batalyon iki gün əvvəl götürdükləri su ilə güzəran edib, ondan sonra susuz qaldılar. Quyu qazdılar ki, bəlkə su çıxa. Məqdur ola bilmədi. İki gündən sonra bir gecə bir rota qoşun su aparmağa çaya yürüş edib Qızılbaş ləşkərini suyun ətrafından kənar edib, bir dəfə beqədri-məqdur su apardılar. Sonra suyun ətrafını yerbəyer şöylə möhkəm eylədilər və kəsdilər ki, batalyon əslən su aparmağa məqdur ola bilmədi. Müddəti-on bir gün və gecə o tövr ilə dava edib ki, ətrafdan tüfəng və zənburəng batalyonun üstə barani-bahari kimi tökülürdü. Amma rəşid və cürətli və tab və taqətli olan batalyon şöylə zəhmət və məşəqqətlərə və səngərlərdə güllə dəyib ölməyə tab və taqətlər gətirib, yenə pozulmadılar. Bavicudi ki, polkovnik Karyagin dəxi yaralı olub və Kotlyarevski həm yaralı olub, qoşunun yarıdan çoxu qınlıb və zəxmdar olub, üç yüzə yavuq soldat ancaq qalıb, onlar da əksəri yaralı və susuz (idilər). Qızılbaş qoşunu ətrafdan səngərlərə yavuq yeriyib batalyonu məşəqqətə və müşkül hərə-kətə gətirdilər. On bir gün keçdi, bir yerdən kömək olmadı. Məlik Vanya o vaxt da yüzbaşı idi və batalyonun içində olurdu. Pyotr Stepanoviç ona şəfəqqətlər və məhəbbət etməyinə görə qulluq edərdi. On birinci gecə bələdçilik edib, əlhəq o səfər yaxşı qulluq edib, batalyonu və yaralı soldatları götürüb, gecə vaxtı səngərdən çıxıb və topxananı da götürüb birahədən Şahbulaq tərəfinə rəvanə oldu. Hərçənd ki, çox piyadə Qızılbaş qoşunundan Şahbulaq qalasında qoymuşdular ki, Rusiya qoşunu gəlib, qalaya daxil olmasınlar. Amma qoçaq bahadur namdar Kotlyarevski bavicudi-zəif və yaralı ki, dava umurunda səramənd idi, yürüş edib, qalanın qapısını dağıdıb, daxili-qala oldular. Qızılbaş qoşunundan ələ düşəni öldürüb və mabədisi qaladan yerə töküb, Əmirastan adlı sərkərdə dəxi qaladan yıxılıb

vəfat etmişdi. Sabahı Abbas Mirzə gəlib İran ləşkəri ilə qalanı mühasirə edib, adamlar göndərib ümid və nəvidlər verdi ki, guya Pyotr Stepanoviç və polkovnik hər ikisi yaralıdırlar. Qoşun dəxi cüzvi və əksəri yaralı və aclıq dəxi qoşunda var. Bəlkə polkovnik rəyə gəlib, Abbas Mirzəyə itaət edə. Xəyalı xam idi. Rus qoşunu tamam acından qırılsa da, şöylə zillət ilə itaət etməzdi. Polkovnik cavabı-mülayim və vədeyi-fərib verib, üç gün orada məqs edib, soldatlar və yaralılar bir qədər aram hasil edib, yenə bir gecə Vanya yüzbaşı bələdçilik edib, tədbir ilə qaladan çıxıb xəlvət yol ilə Çöləbörd mahalının möhkəm və düşvar olan Cermuq dərəsində olan qalaya iki günədək gətirdi. Bir gecə, yolda qoşunu bir möhkəm dərədə şöylə xəlvət saxlamışdı ki, bir gün bir gecə qızılbaş əsgərləri nə qədər batalyonu axtarmışdılar və səy-təlaş ilə cüstəcu etmişdilər tapa bilməmişdilər. Məlik Vanya gedib dağlarda sığınaqlardan subay adamlar gətirib Çiləbördün kəndlərində quyulardan taxıl çıxarıb, özünün həm nə qədər buğdası varsa, çıxarıb un edib batalyona verib, cüt öküzlərini və camışlarını da onlara verib aclıqdan çıxartdı. Cermuq dərəsində üç-dörd gün qalıb, soldatlar dürüst fəraqət elədilər. Ondan suxarı və ət tədarük edib, Murov dağınm xəlvət yolları ilə Məlik Vanya batalyonu Gəncə şəhərinə gətirmişdi. Şul ilin haman günlərində Fətəli şah bu əzmə ki, bəlkə bir əlac edə, Şuşa qalası Rusiya qoşununun əlinə düşməyə, təmam qoşunu ilə Arazdan keçib, gəlib Quru çay üstə, Dizaq mahalında təxti-tavus müsəmma olan mənzildə ki, Şuşa qalasının altı ağaclığında vaqedir, düşüb ordu elədi. Qarabağ xalqına küllü ənamlar verib, hüzuruna apardı ki, bu əhvalat və güzaridatı Tiflis şəhərində sərdari-əzəm Sisianov eşidib, qoşun ilə Tiflisdən çıxıb, Fətəli şah və Abbas Mirzənin müqabilində Qarabağa azim oldu. Ta, gəlib Tərtər çayına yetişənədək, Fətəli şaha daldan xəbər gəlmişdi ki, Rusiya qoşunu dövlət tərəfindən məmur olub, dəryayi-Xəzərdən keçib Talış və Rəşt-Ənzəli tərəfindən İrana gəlib davaya başlayıblar. Buna görə şah buradan Ərdəbil səmtinə qayıdıb getmişdi. Xüsusən, sərdar Sisianovun həm gəlmək əhvalını eşidib, onunla rubəru cəng etməyi məsləhət bilmədi. Abbas Mirzə naibüssəltənə dəxi səmtini xali görüb, polkovnik Karyagin Gəncə şəhərinə gedəndən sonra Şahbulaq ətrafında bir müddət ordu eləmişdi. Sonra Tiflisi çapıb və qarət etmək məqsədilə köçüb Gürcüstan tərəfinə Axısqa

çayınadək getmişdi. Oradan dəxi Tiflisə getməyi məsləhət bilməyib, İrəvan vilayətinə getmişdi. Mayor Lisaneviç də ki, qalada idi, batalyonu götürüb Mehdiqulu ağa ilə Zəngəzur mahalına gedib, orada var idilər. Əbülfət xan ki, o vaxtlarda Qapan mahalından köçüb Arazın o tərəfinə keçmişdi. Bəd əz an Qapan və Zəngəzur və sair o tərəflər təmamən yenə Qarabağ hakimi İbrahim xana müti oldular. Sərdar Sisianov dəxi Xanaşen mənzilinə gəlib məlum oldu ki, Fətəli şah köçüb gedibdir. Oradan geri qayıtmalı oldu. Bu əsnada Məhəmmədhəsən ağa varisi-Qarabağ İbrahim xanın əmri ilə gedib oradan sərdar Sisianovu qalaya götürdü. Lazımeyi-çeşn və qonaqhq və şadyanəlik əmələ gətirdilər. Çünki sərdara məlum olunmuşdu ki, İbrahim xanın əmizadələri Mirzə Əli bəy, Feyzi bəy və Məhəmmədhəsən bəy və onlara tabe olanlar Əbülfət xana maildirlər. Hərçənd onu xan edib; və ona itaət etməyi zahirən özlərinə xiffət bilirdilər ki, İbrahim xanı və Məhəmmədhəsən ağanı tərk edib, Əbülfət xanı böyük edib, ona baş endirələr. Amma müstəqillən sahibi-hörmət olmağın istərdilər. Onu Məhəmmədhəsən ağaya və Mehdiqulu ağaya həmçeşm qərar verdilər. Ona görə sərdar Sisianov qalaya varid olan vaxtda Mirzə Əli bəyi və Feyzi bəyi tutdurub, buyurdu ki, gərək evlərinizi götürüb, köçüb Tiflis şəhərinə gedəsiniz. Axırül-əmr İbrahim xan xahişmənd olmağa görə onlan buraxıb, amma Mirzə Əli bəyin böyük oğlu Behbud bəyi və Feyzi bəyin bir oğlu ki, qulluqçudan olmuşdu 15 yaşmda, hər ikisini zaval alıb Gəncə şəhərində Məhəmmədhəsən ağanın oğlu Şükrulla ağa ilə zaval saxladı. Ondan sonra bir para bəylərə ki, Əbülfət xana meyil idilər, onlara təhdid və pareyi-itab-xitab və qadağan eylədi. Bir para qərardadlar bina edib, haman üç nəfər dəxi qızılbaş xanlarından ki, İbrahim xan yanına Fətəli şah tərəfindən yuxarıda məzkur olunan mətaliblərdən elçiliyə gəlmişdilər, onlan da tutub; Qarabağdan kəmali-razı və xoşhallıq ilə yola düşüb Gürcüstana və şəhri Tiflisə rəvanə oldu.

## İYİRMİ BİRİNCİ FƏSİL

# MƏHƏMMƏDHƏSƏN AĞANIN VƏFAT ETMƏYİN VƏ SƏRDAR SİSİANOVUN BADKUBƏ SƏMTİNƏ GETMƏYİN VƏ ORADA QƏTLƏ YETMƏYİN BƏYAN EDƏR

Çün salari-əzəm knyaz Sisianovun ümdə fikirləri bu imiş ki, Böynəlnəhreyn əldə ola və ətrafı guşadə qıla, ta tərəddüdinam hər iki dəryadan müyəssər ola. Bu səbəbə Meqril (Minqreliya) torpağında Yeddiqat qalasını və Qara dəryanın kənarında bina elədi. Ondan sonra əzmi bu oldu ki, sahəti-Badkubəni təsərrüfə gətirsin. Elə ki Qarabağdan darüssürur Tiflisə müraciət qıldı, ondan ləşkər münəqid edib ciyuş və bəhri-şuriş və əsakiri-cövşənnuş ilə Badkubə təsxirinə azim oldu. İbrahim xandan dəxi kömək istəmişdi. Xan da buradan oğlu Mehdiqulu ağanı pareyi-Qarabağın bəyzadələri ilə və qoşunu ilə sərdarın hüzuruna göndərdi ki, orada əsakiri-padşahi üə müttəfiq olub, müqərrər olunan xidmətlərə canfəşanlıq ilə qiyam və iqdam edələr. Pəs haman ilin qış mövsümündə Gürcüstandan çıxıb gəlib Şəkiyə və Şəki hakimi Səlim xan dəxi ki, İbrahim xanın damadı idi və dövlətə müti və münqad idi, o da sərdara görə lazımeyi-ixlas və iradət və yaxşı peşkəşlər və tədarüklər edib Şəki vilayətindən yola saldı. Çünki sərdarın əzmi əvvəl Şirvan vilayətini təsxir edib və Mustafa xan şirvanlını itaətə gətirmək idi. Sonra Badkubəni və Qubanı və Dərbəndi müsəxxər eləmək idi. Pəs Şəkidən keçib, Şirvan sahətinə varid olub, Mustafa xanı itaətə təklif qıldı. Mustafa xan dəxi əgərçi əvvəl dəfə də bir para öz dövlətinə və möhkəm olan məqamlarına etimad edib sərdara görə məğruranə cavablar və hərəkətlər eləmişdi, ləğv cavablar söyləmişdi[1]. Amma sonra müşahidə etdi ki, şöylə ləşkəri-əzimə və Şəkinin və Qarabağın qoşunlarına və müxalifətinə müqavimət etməyə qadir ola bilməyəcəkdir. Əlavə Qarabağ qoşunu Şirvanın kəndlərini çalıb-çapıb və qarət qılmağa əl açdılar. Axırül-

[1] Hələ 1804-cü ildə və 1805-ci ilin yazında Sisianov Mustafa xandan Şirvanın Rusiyanın himayəsinə daxil olmasını istəmişdi və rədd cavabı almışdı. 1805-ci ilin oktyabrında razılıq vermişdisə də, Sisianovun ayağına gedib, orada müqaviləyə qol çəkməkdən imtina etmişdi.

əmr Mehdiqulu xanın və Səlim xanın dəlalətləri ilə o da itaətə gəlib necə ki, İbrahim xan və Səlim xan əhdnamə yazıb qərardad bina etmişdilər. Haman qərar ilə o da əhdnamə yazıb, zahirdə itaət qılıb, Rusiya dövləti-əleyhi-Rusiya təhtinə daxil oldu1. Bu əsnada general-mayor Məhəmmədhəsən ağa - İbrahim xanın böyük oğlu ki, qəleyi-Şuşada sahibi-azar və naxoş idi, vəfat edib, mərhum oldu. Elə ki bu məlalətamiz qəziyyə Qarabağda vaqe oldu, əhaliyi-vilayəti-Qarabağ üçün çox yəsi-tamam və pərişanlıq və qəmginlik üz verib, ənduh və məlali-külli əmələ gəldi. Pəs o şəxslər ki, batinən Rusiya dövlətinin itaətinə razı deyildilər və bəziləri də ki, Əbülfət xana mayil və raqib var idilər, Məhəmmədhəsən ağa vəfat edəndən sonra ki, onu çox sayardılar, həqiqətdə biqüsur əmir idi və hər vilayətdə avazəsi var idi. Və sərdar Sisianovun da ona çox etimadı və meyli-məhəbbəti var idi. Və hər gunə səlahdidini pəsənd etmişdi, onun bu cür qəziyyəsinə görə və həm də Mehdiqulu ağanın vilayətdən kənar və uzaqda olmağına binaən İbrahim xan da ki, qoca və müsini və kəmqüvvət və naxoş və pərişanhal olmuşdu. Haman şəxslər cari olub, bir para əhdnaməyə müxalif olan hərəkətlərə başladılar. Pəs bu əhval vaqiat sərdari-əzəm knyaz Sisianov hüzuruna və Mehdiqulu ağaya yetişəndən sonra sərdar səlah görüb, Mehdiqulu ağanı və Qarabağ qoşunlarını mürəxxəs edib, ezaz və ehtiram ilə və layiq olan ümidi-nəvid və ənam ilə Qarabağa rəvanə elədi. Dəxi necə ki, mərhum general Məhəmmədhəsən ağaya kamali-məhəbbət və ülfəti-səmimi qəlb ilə mehribanhğı var idi. Çox ənduhi-tamam və böyük təəssüf ilə onun oğlu, hörmətli general-mayor Cəfərqulu ağaya təziyənamə yazıb kəmali-dilsuzluq və mehribanlığı və təəhüdati-pərəstarlıq etmişdi. Elə ki Mehdiqulu ağa bəyzadələr ilə və qoşun ilə Qarabağa gəldi və pədəri-mehribani İbrahim xanın xidmətinə varid oldular və sərdarın məhəbbətamiz nəvidatını və peyğamlarım yetirdilər. Bundan sonra şərarət kiş və bədəndiş kəslərin dəf və rəfinə və dövləti-əleyhinin ixlas və iradatının istehkam qəvaidinə məşğul oldular. Dəxi bir az günlər bu müqəddimədən keçmişdi ki, xəbər yetişdi ki,

[1] Rus qoşunları Mustafa xanın Fit dağındakı qərargahına yaxınlaşarkən Şirvan xanı onlara qarşı müharibə etməyin çətin olduğunu görüb, 27 dekabr 1805-ci ildə Şirvanın Rusiyaya tabe olması haqqında müqaviləyə qol çəkməyə məcbur oldu.

sərdari-əzəm Badkubədə məqtul oldu. Pəs bu qəmli xəbər dəxi mərhum İbrahim xanın və onun övladının və əhaliyi-vilayəti-Qarabağın xatirələrinin pərişanlığına dübarə səbəb və bais oldu. Təfsili-məqal bu ki, çün sərdari-əzəm Sisianov Badkubə vilayətinə gedib yetişiblər. Hüseynqulu xan hakimi-Badkubə bənayi-məkr və hiylə qoyub, əvvəla zahirdə itaət məqamına gəlib, vədə ediblər ki, bir gün sərdari-əzəm qəleyi-Badkubənin həvalisinə gələ, Hüseynqulu xan dəxi hüzura varid olub, əhd və itaətin güftü gusunu təmam edələf. Heç vaxt sərdari-əzəmin xatirinə gəlməz idi ki, Hüseynqulu xandan və onun tabelərindən şöylə xəlaf və şəni əfal əmələ gələ. Qəzadan sərdari-əzəm iki nəfər bəyzadələri ilə ki, birisinin adı Ənbərbar knyaz imiş, Gürcüstan knyazlarından və birisi dəxi bəyzadə imiş və sərdarm hüzurunun müqərribləri ola. Mükalimə məqamına təşrif aparırlar. Bir İbrahim bəy adlı ki, Hüseynqulu xanın əqvanından idi, iki nəfər də əlahiddə adamlar ilə məxfi pusquda imişlər, nagah namərdlik edib, güllə atıb, sərdari-əzəmi rüfəqaları ilə qətlə yetirib[1], ədavət nəğməsini və müxalifət təbilini büləndavaz elədilər. Dəxi bu sani-həni Qızılbaşiyə dövlətinə xədamati-cəlilə və xülusi-cəmilədən hesab edib dərhal yel qanadlı çaparla bu əhvalı Qızılbaş dövlətinə irsal və izhar elədilər və o dövlət tərəfindən dəxi təcili-tamam ilə böyük qoşun və əyilməz ləşkər gəlib, səhrayi-Badkubə qoşun ilə doldu. Elə ki Rusiya qoşunu bu qəzayaları görəndə dəxi Gürcüstana qayıtmağı məsləhət bilməyib, oradan riayati-ehtiyat ilə gəmilərə minib Hacıtahirxan (Hacı Tərxan) vilayətinə keçib getmişdilər.

[1] Sisianov Hüseynqulu xanın xalası oğlu İbrahim bəy tərəfindən 8 fevral 1806-cı ildə öldürülmüşdür.
[2] Əslində isə rus qoşunları gəmi ilə Xəzər dənizindəki Sara adasına getmişdilər.

İYİRMİ İKİNCİ FƏSİL

# MEHDİQULU XANIN QARABAĞDA VARİS VƏ VƏLİƏHD OLMAĞINI VƏ PADŞAHİ-İMPERATOR FƏRMANI İLƏ ONU XANLIQ VƏ VARİSLİK VƏ HÖKUMƏTDƏ TƏSDİQ QILMAĞINI VƏ İBRAHİM XANIN MALKARLIĞINI BƏYAN EDƏR

Çün yuxarıda səmti-güzariş tapdı ki, İbrahim xan sərdari-əzəm Sisianov ilə əvvəl Kürək çayında mülaqat edib, əhdnamə yazıb, dövlətə, itaəti-möhkəm etdikləri zamanda, çünki Məhəmmədhəsən ağa xanın böyük oğlu və nəzərkərdəsi idi, varislik və vəliəhdlik onun adına hesab olunurdu. O səbəbə onun oğlu Şükrulla ağam sərdari-əzəmə girov və zaval rəsmi ilə vermişdilər ki, Gəncə şəhərinə aparmışdı. Çün general-mayor Məhəmmədhəsən ağa general-leytenant mərhum İbrahim xanın hali-həyatında vəfat etdi. Ondan sonra Mehdiqulu xan İbrahim xanın oğlanlarının böyüyü olduğuna görə və o zamanda dəxi hərçənd ki, Məhəmmədhəsən ağa varis hesab olunurdu, amma dürüst sərahətən adı vəliəhd yazılmışdı. Həmçinin qeyd olmuşdu ki, İbrahim xandan sonra böyük oğlu varisdir. Qəzadan iş ki, bu növ oldu və böyük oğlu Məhəmmədhəsən ağa özündən əvvəl vəfat elədi. Pəs İbrahim xan o ildə ki, səneyi-islamiyyə 1220-ci il hicridə idi zilhəccə ayının 4-cü günündə[1] 1 varislik və vəliəhdlik kağızı yazıb və möhür eləyib və tamam Qarabağ bəylərinin və əyan və əşxasm möhürləri üstündə, öz hali-həyatında cənab general-mayor Mehdiqulu xana verib, onu varislik və xanlıq xitabı ilə müxatəb elədilər. Bəd əz an ki, İbrahim xan vəfat etdi. Mayor Lisaneviç bu kağız ilə sərdarm canişini olan general-mayor Nesvetayev hüzuruna yazmışdı ki, təklif olub imperaturi-əzəm Aleksandr Pavloviç tərəfindən qızda bəzənmiş və ələmi-padşahi və Qarabağın xanlıq və hökumət fərmanı miladi 1806-cı tarixdə olanda, yəni sentyabr ayının onuncu günündə yazılıb və verilib general-mayor mərhum

[1] Hicri 1220-ci il, zilhiccə ayının 4-ü, miladi 1806-cı ilin fevral ayının 24-nə təsadüf edir

Mehdiqulu xana (fərman) gəlib yetişdi və (Mehdiqulu xan) Qarabağın əyalətinə mənsub oldu.

Sərdar Sisianov ki, Badkubədə məqtul oldu. Bu tərəflərin xəlayiqi çün dövləti-əleyhi-Rusiyanın qanun və zabitəsinə xəbərdar deyildilər, şöylə təsəvvür eylədilər ki, Rusiya dövlətinin nizam və qaydalarına xələl gətirir. Vaxt keçdikcə çoxlu iğtişaşlar və qarışıqlıq olur. İran şahı və Qızılbaş qalib (gələcək) və buralara şəksiz malik olacaqdır. İransayağı güman və təsəvvür edirdilər. Çünki İranda əgər şöylə sərdari-əzəm və hakim, sərdari-müəzzəm vəfat etsə, bir müddət nizami-ləşkər və qanun-qayda vilayətlər üçün tamamilə pozulur. Bunu bilməmişdilər ki, əgər neçə nəfər sərdar və sərkərdələrdən düşmənlər ilə müqatilə edən zamanda məqtun və ya hakimi-vilayətdən neçəsi vəfat qılsa qətiyyən dövləti-behiyeyi-Rusiyanın zakon və nizami-məhkəminə xələl və qəvaidi-vilayətinə iğtişaş və zərər hasil olmaz. Sərdar Sisianov vəfat edəndən sonra yenə general Nesvetayev canişin var idi. Tiflis şəhərində qoşunun və vilayətin nizam və intizamıyla iştaqal edərdi və sərdarhq ümuratını dolandırardı. Xalqa ürək-dirək və təsəllilər verib, Gürcüstanda Pənbəkdə əyləşmişdi. İbrahim xanın elçisi və səmimi məktubları gedib və gəlirdi. Hər halda xatircəmlik hasil olurdu. Pəs, haman 1806-cı ildə bahar fəsli olan kimi naibüssəltəneyi-İran Abbas Mirzə qoşunlar cəm edib və tədarüklər görüb. Qarabağa köçmək binasmı qoydu. Haman dəmlər Mirzə Əli bəy, İbrahim xanın əmizadəsi xandan xəlvət adam göndərib, oğlu Behbud bəyi ki, sərdar Sisianov zaval aparıb Gəncə şəhərində qoymuşdu, oradan oğlunu götürüb və Rusiya dövlətindən əl çəkməyi zahir edib və Feyzi bəy də ki, Mirzə Əli bəyin qardaşı oğlu idi və Mirzə Əli bəydən heç vaxt da ayn olmazdı, köçüb Qarabağdan Qızılbaşa və Arazın şul tərəfinə getdilər. Bəd əz an rəxnə düşüb xırda-xırda xalqdan çəpavül və qarət qorxusundan Qızılbaşiyyə canibinə azim olmağa başladılar. Tiflis və Gürcüstanda dəxi bir sərdari-məşhur olmamağa görə İbrahim xan mülahizə elədi ki, əgər Qızılbaş qoşunları Qarabağa gəlsə, mayor Lisaneviç bir batalyon ilə qaladan çıxıb, onlara cavab verə bilməz. Qarabağın şöylə ümdə bəyləri dəxi Qızılbaşa getdilər. Çoxusu dəxi üz rugərdanlığa mayil idilər. Aşikara, Əbülfət xan tamam xalqı və əhaliyi-Qarabağı

köçürüb aparacaqlar. Hər kəs də getməsə, (evini) çalıb-çapıb xarab edərlər. İlat və dihati-Qarabağ tamam pamal və qarət olar. Qəllə məhsulunun dəxi vədəsi yetişirdi. İbrahim xan Qızılbaş ilə müdara etməyi lazım və səlah bildi. Hər gunə ümurat və məsləhətlər mayora dəxi hali edərdi. Mayor da bu tədbiri səlah bilib, xana ürək-dirək verirdi ki, tezlik ilə dövlət tərəfindən qoşun bu tərəfə gəlir. Vədə və təəhhüdlər edirdi. Əlhəqq, qoşunun gəlməyi dəxi çox təxib və taliq oldu. Qızılbaş əsgərləri və Abbas Mirzə naibüssəltənə dəxi gəlib, Arazı keçib qalanın iki ağaclığına varid oldular. İbrahim xanı itaətə dəvət qılıb, xan da mayora məsləhət elədi. Mayor dedi ki, sən müdara etgilən, şimdi sərdarm yerində general Nesvetayev olur ki, Tiflisdə canişindir, ənqərib Qarabağın mühafızətinə qoşun gəlir. Bu növ ilə müdara olunub İbrahim xan Abbas Mirzəyə cavab verdi ki, mən İran dövlətindən bilmərrə məyus deyiləm. Əgər xatircəmlik olsa, itaətimdə varam. Əlhasil, be heynlərdə İbrahim xanın evi və külfəti Xan bağında olurdu. Oradan köçüb, qalanın iki verstliyinə gəldilər. Xan orada evində idi. Mehdiqulu xan ki, xidmətində idi. Bir gün irəli qalaya göndərib, vədə elədi ki, sübhdən oradan xan özü həm külfəti ilə köçüb qalaya gələlər. Pəs, şul gecə şeytanlıq peşəsi olan şər adamlar mayora şərarət edib, deyiblər ki, İbrahim xanın Qızılbaşla güftü gusu var. Bu gecə xanın yanında çox cəmiyyəti-külli və qoşun var ki, Qızılbaşdan gəlib, hazırdılar. Bu gecə gedəcəklər. Qərəz şul gecə, şeytan və bədxah adamlar mayoru fərağət qoymayıblar. Xüsusən, Miraxor adlı bir gürcü böyüyü var idi ki, mayorun yanında olurdu. O çox bais olmuşdu. Əlqissə, haman gecə, sabaha üç saat qalmış, mayor iki rədə soldat ilə qaladan çıxıb, xanın evi olan məkana gedirlər. Xəlvət xanın mənzilinə yavuq olub, mülahizə edirlər ki, görələr nə qədər cəmiyyət var və nə işlədirlər. Baxıb görüblər ki, tamamən rahat və fərağət yatıblar. Bir əlavə qoşun və biganə adam da yoxdur. Orada mayor gəlməkdə dəxi peşman olub, xan bidar olub rus qoşununun orada gəlməyindən xəbərdar olub, acıqlanıb, səslənib mayora ki, bu nə qismi gəlməkdir ki, bu gecə vaxtında övrət və uşağı qorxudursan. Bu əhvalat xanın yanında olan adamların içinə inqilab və vahimə düşüb, sərasimə yerindən qalxan hər kəs bir tərəfə qaçmağa başlayıblar. Əz qəza o ki, müqeddər olmuşdur, olacaqdır. Bu

əsnada mayor əmr eyləyib, soldatlar ataş açıblar. Tökülüb ələ düşəni qətlə yetiriblər. Qalan adamlar qaçıb xilas olub, xanın evini tarac etmişdilər. Xana əvvəl bir güllə dəyib, yıxılıb, bir övrəti ki, Səlim xan şəkilinin bacısı idi və bir Nəcibə qızı ki, Bikə ağadan olmuşdu və bir oğlu ki, Göhər ağanıv anasından olmuşdu, bir nəcib oğlan idi. On üç yaşında orada qətlə yetişib, övrəti və qızı yaralı qalaya gəlib, qalada mərhum oldular. Onlardan əlavə 17 nəfər bəy və bəyzadə və mirzə və nökər qətlə yetişmişlər ki, adları bu təfsil ilədir:

- İbrahim xan özü, Tubu bəyim - şəkili Hüseyn xanın qızı - Hərəmi xan, Səltənət bəyim-səbiyeyi-xan, Abbasqulu ağa-fərzəndi-xan, Hacı Hüseynəli bəy Kəbirli, Mirzə Haqverdi Kəbirli, Hümmət bəy Cavanşir, Həsənağa Gülməli bəy Sarıcah, Mirzətağı Əfşar, Əli-pənah-pişxidmət, Xacə Həsən Əcəm oğlu Kəbirli, Qaranm iki oğlu, başqa iki nəfər, birinin adı Teymur, iki nəfər də şuşalı.

Mehdiqulu ağa və sair xanlar bu müqəddimədən bixəbər, qalada asudə və fəraqət vardılar. Sübhə bir saat qalmış bu faciəli hadisə üz verib və mayor Lisaneviç xanın divanxanasına gəlib, qala xalqını cəm edib, Mehdiqulu ağanı xanlığa mənsub edib, bir para təkib elədi. Mehdiqulu xan dəxi Qarabağın vilayət əhlinə ki, səhrada idilər, mahal bemahal təliqələr yazıb, o tövr vəhşətki olmuşdu, fərağət olmağa hökm eylədi, hamılara təsəlli və xatircəmlik verirdi. O halda, Cəfərqulu ağa varislik barəsində zahirən bir cavab demədi. Amma batinən dilxor idi. On beş gün bu müqəddimədən keçmişdi ki, general Pyotr Petroviç Nebolsin qoşun ilə gəlib, Əsgəran yanında düşüb, ordu elədi. Mehdiqulu xan dəxi Qarabağın bəyzadələrindən yaxşı atlılardan götürüb, generalın hüzuruna getdi. Mayor (Lisaneviç) qalada qaldı. İki-üç gün general Əsgəranda var idi. Naibüssəltənə həm qoşun ilə Ağoğlanda ordu eləmişdi. General gördü ki, Abbas Mirzə döyüş meydani-rəzmə qədəm qoymağa hərəkət eləməz. Qoşun ilə o səmtə hərəkət edib, Xanaşen mənzilinə yavuq Abbas Mirzə qoşunu ilə müqabilə gəlib bir şiddət ilə əzim dava oldu. Pyotr Stepanoviçin bahadur şul mənzildə hər yerdən qoçaq soldatlar ilə qabaqda davada var idi. Yeddi saat qədəri dava olub, 30-40 nəfərdən ziyadə soldat və 4-5 əfsər məqtul və zəxmdar oldular. Pyotr Stepanoviç də özü dəxi o davada qıçmdan zəxmdar oldu. Axırül-əmr Qızılbaş əsgər-

ləri məğlub olub, fərar ixtiyar etdilər. General dallarınca Quru çayın Təxti-tavus mənzilinədək gedib, məlum oldu ki, naibüssəltənə Arazı keçib, Arazın şul tərəfində ordu edibdir. Elə ki bu xəbər məlum oldu, Əbülfət xan və sair Qarabağın Qızılbaş dövlətinə gedən bəyləri ki, Zəngəzur və Qapan səmtlərində var idilər, yaylaqdan Qarabağın tamam ilatmı və dihatını həm bəzilərini Naxçıvan və Ordubad tərəfinə köçürüb aparmağa məşğul oldular. Buna görə, cənab general-mayor Cəfərqulu ağa mayor Lisaneviç ilə soldat qoşunu və ilatın yaxşı məlum və namlı atlılarından həm götürüb, Qarabağın ellərini qaytarmaq üçün Zəngəzur mahalatına azim oldular. Gecə-gündüzə baxmayıb, səyi-tamamilə ilqar etdilər. Qapanın böyük olan dağlarında Cəfərqulu ağa atlıları ilə qabaqca gedib, Qızılbaş qoşunlarına yetişib, çünki soldat piyada olmaqlarına görə dalda qalmışdılar. Qarabağ atlıları ilə general Cəfərqulu ağa Qızılbaş ilə davaya başladılar. Orada bir yaxşı mərdanə savaş edib, iki min qədəri səvarə və piyada Qızılbaşdan basıb və sındırıb zir-zəbər elədilər. Əksərin lüt və qarət edib, daldan soldat həm gəlib çatdılar. Qızdbaşı basıb, dağıdıb, Ələngəz adlı böyük yaylaq dağdan ki, Ordubadın üstüdür, oradan ilatı qaytarıb götürüb Qarabağda yenə öz yurd və yaylaqlarından sakin və cabəca və fəraqət eylədilər. Həqiqət orada Cəfərqulu ağa xeyli rəşadət isbat etmişdi. Əlqissə, general Nebolsin Quruçay və Dizaq tərəfindən qayıdıb gəlib, qoşun ilə qala səmtindən keçib, yenə Əsgəran yanında ordu elədi. Özü oradan Şuşa qalasma Mehdiqulu xana qonaq gəlib, iki gün qalada var idi ki, Mehdiqulu xan kağız ilə yazıb, general hüzuruna hali etdi ki, çün mayor Lisaneviç İbrahim xanın haqqında bu tövr nahəqq iş elədi ki, özünü və övrətini və oğlu və qızmı yeddi nəfər yaxm adamları ilə qətlə yetirdilər. Təmam evi və əcnası qarət olundu. Ehtiyat edirəm ki, bu hərəkətə görə Qarabağın cahil-cühulundan bir yerdə mayora zərər hasil ola. Ya qətlə yetirələr. Səlah budur ki, bir qeyr hüznlük batalyona böyük ola, onu buradan kənar etməyə binagüzarlıq edəsiniz. Pəs, general Nebolsin qəbul edib, hökm yazıb, Lisaneviçi məzul etdi. Pyotr Stepanoviç Kotlyarevskini batalyona böyük elədi. Çün mayor Lisaneviç Kotlyarevski ilə çox yeganə dost idilər. Pyotr Stepanoviç bu səbəbə Mehdiqulu xan ilə ədavət və rəncidəliklər elədi. Onu məzul etdirmək istədi. Cəfərqulu ağa ilə

dostluq edib, onu təhrik etdi. Mehdiqulu xan ilə ədavət və küdurət başlayıb, iddia qıldı ki, varislik mənim haqqımdır. Amma, çünki Lisaneviç necə ki, yuxarıda məğrum oldu, əvvəl dəfə ərizə yazıb, general Nesvetayevə təqdim eləmişdi ki, İbrahim xan öz həyatında Məhəmmədhəsən ağanm vəfatından sonra Mehdiqulu ağanı kağız ilə varis və vəliəhd edibdir. Nesvetayev ki, canişin və əvəzi-sərdar idi, padşah hüzuruna yazmışdı. Dəxi orada iş təsdiq olub, qurtarmışdı. Buna görə Cəfərqulu ağanın iddiası məqbul olunmadı. Əlqissə, bu ilin qış mövsümündə ki, sərdari-əzəm knyaz Sisianovun məqtul olmaq müqəddiməsindən yeddi-səkkiz aydan ziyadə keçmişdi. General feldmarşal qraf Qudoviç sərdarlıq əmrinə mənsub olub gəldi. Hənuz Tiflisə yetişməmiş yoldan Mehdiqulu xana kağız yazıb, məlum eləmişdir ki, imperaturi-əzəm Aleksandr Pavloviçdən fərmani-hümayun sədr olub sizi Qarabağın əyalət və hökumətinə mənsub edibdir. Mən darüssürur Tiflisə varid olandan sonra sizi Tiflisə çağınram. Gərəkdir ki, padşahın ələminin altmda qəsəm yad etdirib fərmanı sizə və Qarabağın əhlinə təqdim edəm. Pəs bu xəbər məlum olan kimi Cəfərqulu ağa tədarük görüb, Mehdiqulu xandan irəli, qraf Qudoviç sərdar Tiflisə gəlməmiş Tiflisə getdi. Qudoviçin gəlməyi bir ay müddəti təxir oldu. Cəfərqulu ağa o biri ayı orada məəttəl qaldı. Qudoviç Tiflisə varid olan günü Cəfərqulu ağa istiqbal etməmişdi. Qraf hörmət edib, buyurmuşdu ki, Mehdiqulu xan sizi nə mətləb üçün buraya göndərib? Cəfərqulu xan demişdi ki, mən özüm gəlmişəm. Məni Mehdiqulu xan göndərməyib. Sərdara məlum olmuşdu ki, mətləbi özgədir. Pəs buyurmuşdu ki, mayor Lisaneviç sizi on yeddi yaşında yazıb varisliyə layiq bilməmişdi. Şimdi imperaruri-əzəmdən fərman sadir olub, dəxi bərhəm etmək mümkün olmaz. Pəs, qraf Tiflisə varid olandan sonra bir mötəmid müqərrər buyurmuşdu ki, gəlib Mehdiqulu xanı apara. Ona binaən Mehdiqulu xan tamam Qarabağ bəylərini və əyanlarını, hətta kənd yüzbaşılarını dəxi özü ilə bir yerdə aparıb, Tiflis şəhərinə daxil oldu. İki gündən sonra qraf ümumi məclis qayırıb, Mehdiqulu xana aman verdirib, Qarabağın hökumət fərmanını ki, xanın adına və əhaliyi-vilayəti-Qarabağa yazılmışdı orada təslim elədi. Pəs Cəfərqulu ağa əhvalı belə görəndən sonra orada sərdara məlum elədi ki, xan mənə 36 para kənd verdi. Mən artıq təmənna

elədim. Şimdi o hal ilə qalır. Qraf da xandan dil cavabı təvəqqe etdi ki, şul kəndləri Mehdiqulu xan Cəfərqulu ağaya maaş güzəran versin. Bu şərtlə ki, Cəfərqulu ağa və şul kəndlər Mehdiqulu xanın ixtiyarından xaric olmayıb, cüzvi divanların Cəfərqulu ağa kəssin. Amma ümdə təqsirlərinə yenə xan yetişib, qət qılsın. Tövci məsələlərin dəxi xanın əmri ilə əncam və məmun etsinlər. Hərçənd Cəfərqulu ağa israr edib, xahişmənd olmuşdu ki, təmam onun tabelərin ixtiyarı məhz öz əlində ola. Sərdar qraf razı olmamışdı ki, bir vilayətdə iki hökm ola bilməz. Cəfərqulu ağa qayıdıb, oradan Qarabağa gəldi. Mehdiqulu xan dəxi bir neçə gündən sonra Qarabağa gəlib, öz hökumətində müstəqil olub əyleşdi. Altı aydan sonra dəxi Mehdiqulu xana imperaturi-əfxəm tərəfindən cavahir qılınc və ələm mərhəmət olub, qraf sərdar yolladı, gəldi. Mehdiqulu xana kağız yazmışdı ki, Cəfərqulu ağaya vədə elədiyi kəndlər ki, bundan əqdəm Məhəmmədhəsən ağanın əlində olarmış və ixtiyarında imiş, onları Cəfərqulu ağaya versin. Çün, Mehdiqulu xan ilə Cəfərqulu ağanın arasında əzim, ədavət və küdurət var idi, dəxi kəndləri verməyib, xan bəhanə və dəstaviz qayırdı ki, şul kəndlər Məhəmmədhəsən ağanın əlində və ixtiyarında olmayıb, mən özüm ona verərdim ki, mənə itaət və xidmət edə. Şimdi ki, razı olmadı, mən də verməncəm. Bu növ ilə şərir və bədxah adamlar bayislik edib, Cəfərqulu ağanı qızışdırıb, arada söz-söhbət gəzdirib, küdurətlər saldılar. Lazım idi ki, çün varislik olmadı, bari xoşhallıq ilə 36 para kəndləri ki, ümdə mədaxil idi, alıb, xoşgüzəranlıq və rəfəhət edərdi. O tövr daimi savaş və küdurət arada olmayıb, şeytanət pişə adamların dilxahmda rəftar etmiyəydi. Çe fayda ki, küdurətdən bir nəfı olmadı ki, zərər və nidamət hasil oldu. Dəxi haman küdurət və dava-dalaş bais olub, Cəfərqulu ağaya və qardaşı Xancan ağaya ki, mütləqa ağlagəlməz idi ki, Qızılbaş dövlətinə gedələr. Çünki Qarabağın Urus dövlətinə itaət etməyinə səbəb və bais Məhəmmədhəsən ağa idi. Fətəli şahın dəxi ümdə rəncidəliyi və qəzəbi ona idi. Axır şöylə oldu ki, Mehdiqulu xanın küdurəti səbəb oldu ki, onlar hər ikisi Qarabağdan fərari olub Qızılbaşa getdilər.

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

## MEHDİQULU XANIN HÖKUMƏTİ-ƏYYAMINDA QARABAĞDA VƏ SAİR ƏTRAF VİLAYƏTLƏRDƏ VAQE OLAN BƏZİ ƏHVALATI VƏ MÜHARİBATI VƏQAYEYİ-MÜTƏFFƏRRİQƏTLƏRDƏN BƏYAN EDİR

Çün, səneyi-məsihiyyə 1808 tarixdə və islamiyyə tarixi ilə 1222-ci il hicridə sərdar qraf Qudoviç təyin olub, Gürcüstana gəldi. Tiflis şəhərində rəxti-iqamət salıb, əyləndi. Bir neçə müddət keçmişdi ki, sultani-Rum ilə ədavət və müharibə vaqe oldu[1]. Sərdar qraf dəxi general Nesvetayevi qoşun ilə Gömrüdə qoyub, özü əsgərləri ilə Axan kəklik (Axalkalaki) sövbünə rəvan oldu. Orada Axısqa hakimi Xümşizadə Səlim paşa ilə davalar edib, Axan kəklik (Axal-kalaki) qalasına yürüş elədilər. Axır mətləb hasil olmayıb, yenə məqsədə yetmədən Tiflisə müraciət qıldı. Sonra xəbər gəldi ki, Yusif paşa sərəsgər olub, əzmi-müqabilə üçün Qarsa gəlibdir. Pəs qraf tədarük görüb, Gömrüyə azim oldu. Arpa çayında sipahi-Rumiyyə ilə təlaqi olub, hər iki qoşun orada düşüb, əyləndilər. Bir neçə gündən sonra əzmi-meydan edib, tərəflər davaya başladılar. Bir gün əsr vaxtınadək cəng və guşiş əmələ gəlib, axır osmanlı qoşunu məğlub olub, axşamçağı fərar elədilər[2]. Sərdari-qanim və müzəffər çox qənimət və axtarma, böyük topları osmanlıdan ələ gətirib, fəth və nüsrət ilə qayıdıb, yenə Tiflisə gəldi. Qışı Gürcüstanda qalıb, bahar fəslində İrəvan və Naxçıvanı təsxir etmək üçün o tərəfə hərəkət elədi. Qabaqca general Nebolsini cunidi-məsud ilə Qarabağdan Naxçıvan təsxirinə mərsum və müqərrər etdi. Sonra özü dəxi tədarükü-şayan və əsakiri-firavan ilə İrəvan üstünə getdi. Naxçıvan müsəxxər olundu. Amma İrəvan qalasma müddəti-mühasirədən sonra yürüş elədilər. Çox qoşun tələf oldu. Axır, bineyl məqsud müraciət edib, oradan yenə Tiflisə gəldilər. Ondan sonra qrafı Rusiyaya izhar etdilər. Yerinə

---

[1] Müəllif səhv edir. Rus-türk müharibəsi hicri 1221 (1806)-ci ilin sonunda başlanmışdır.
[2] Ruslarla türk ordusu arasında Arpa çay döyüşü 18 iyun 1807-ci ildə baş vermişdır.

general adinfanter Tormasovu mənsub qıldılar. Bu canibə gəldi və sülh məsləhət bilib, dövləti-osmaniyyə ilə sülh və müsalihə elədilər. Amma İran dövləti ilə həmişə dava-dalaş var idi. Pəs məsihiyyə tarixi 1811-ci ildə olan vaxtı, naibüssəltəneyi-İran Abbas Mirzə qoşun ilə Bazar çaymda ki, Zəngəzur mahalatının Sisyanında vaqedir, gəlib düşüb ordu eləmişdi. General Xanveysov dəxi onun müqabilində var idi. O vaxtda Hacı Məhəmməd xan Mustofi ki, bir qoçaq və kardan və fəribəndə xan idi, Qaradağ vilayətində hakim idi. Xəlvət kağızlar yazıb, yollayıb Dizaq mahalında olan cəbrayıllı bəylərini təhrik edib və naibüssəltənə tərəfindən onlara ümid-nəvidlər verib ki, köçüb Qaradağa gedələr. Onlara kəndlər və mahallar və ənamlar verilib, xoşgüzəran olalar. Çünki Mehdiqulu xan ilə Cəfərqulu ağanın aralarında necə ki, fövqdə mərğul oldu, həmişə küdurət və daimi sitizə var idi. Cəbrayıllı bəyləri və sairlər üçün ki, Cəfərqulu ağanın mənsub və tabeliyində idilər, xoşgüzaranlıq məqsədəuyğun ola bilməzdi. Pəs, cəbrayılh bəyləri ki, Mahmud ağa, Lütfəli minbaşı, Yaqub ağa və Hüseyn bəy və qeyrə onun yazmağına və sözünə etimad edib, Qaradağa köçmək fikrinə düşdülər. Bu əhvalı Cəfərqulu ağa bilib, o vaxtlarda ki, Mehdiqulu xan və Cəfərqulu ağa bir parayi-sayir bəylər Zəngəzur mahalında general Xanveysovun yanında idilər, oradan generaldan mürəxxəs olub, şöylə fəsadı sakit etmək üçün Qarabağın bu tərəfinə gəldilər. Bu heynlərdə naibüssəltənə Bazar-çayından köçüb, Təbrizə getdi. General Xanveysov dəxi qayıdıb, geri gəldi. Mehdiqulu xan dəxi gəlib, qışlagi-Qırçıda batalyon ilə sakin olurdu. Cəbrayıllı bəyləri və xalqı dəxi tamam orada idilər. Hacı Məhəmməd xan məzbur dəxi qafil deyildi. Həmişə adamı və kağızı Cəbrayıllı bəylərinin yanına gəlib-gedirdi. Dürüst onları aldadıb və xatircəm edib, Qaradağa getməye raqib olmuşdular. Hərçənd Cəfərqulu ağa sayıq oldu ki, onlara mane olub, qoymaya, məqdur olmadı. Bu əsnada üç fərman, naibüssəltənədən bir bəyzadə ki, Mehdiqulu xanın nökəri idi, qaçıb Qızılbaş dövlətinə gedib, qulluq edirdi, gətirib öz əmisinin evində qoyub ki, bir əmizadəsi dəxi Cəfərqulu ağaya nökər idi. Ona verələr ki, fərmanları Cəfərqulu ağaya yetirə. Bu xəbəri Mehdiqulu xana hali ediblər. Xan bilib, adam göndərib ki, o fərmanları götürün. Adamı tutub və fərmanları dəxi hüzuruma gətirə. Çün haman adam qayıdıb getmişdi. Əmisini və fərmanları

və Cəfərqulu ağanın nökərini xanın hüzuruna gətirdilər. Pəs, xan da o adamları və fərmanları müşkteristki (atıcılar) batalyonunun böyüyü mayor Jenyaya verdi. O, dəxi adamları dustaqxanaya salıb, fərmanları da Şuşa qalasında olan podpolkovnik Jenkoviçə yolladı. O podpolkovnik dəxi bir kamil adam deyildi. Qızılbaşın hiylələrindən xəbərsiz idi. Lazım idi ki, həqiqət oluna, ayə Cəfərqulu ağanın ittilai və getməyə meyli vardırmı, ya nə? Heç həqiqət etməmiş hökm yazdı ki, Cəfərqulu ağanı tutub, məhbus edə. Mayor Jenya da adam göndərib, Cəfərqulu ağaya demişdilər ki, mayor səni tutub, dustaq edəcəkdir. Demişdi ki, mənim nə xəlafım var ki, məni dustaq edələr. Qızılbaşın bu növ hiylələri çox olacaqdır. Ondan ötrü mən ki, getməyə mail deyiləm. Nədən ötrü məni tutacaqdır. Haman saat mayorun evinə gəlmişdi. Haman ki, Cəfərqulu ağa daxil olacaq, qarovullar qapını tutub Cəfərqulu ağa həbsdə qalmışdı. Hərçi mayora dəlil və dəlaillər demişdi, mayor baxmayıb, o günü Qırçı qışlağında batalyonun içində dustaq saxlamışdı[1]. Ondan sonra bir gecə bir rota soldat ilə bir kapitana tapşırıb, Tiflisə yola saldı. Cəfərqulu ağa çox dedi ki, qarovul lazım deyil. Mən evimi və uşağımı və istəyən nökərlərimi zamin verib, özüm Tiflisə gedirəm. Məni bu xalqın içində dustaq göndərmə. Ya möhlət ver, ərizə yazım Tiflisdən cavab gəlsin. Əməl elə, əlac olmadı. Cəfərqulu ağa sübh açılanda Tərtər çayından keçən vaxtda belindəki xəncərin alt bıçağını çıxarıb, atın cilovun kəsib, dalısındakı soldatı ki, Cəfərqulu ağa ilə bir ata süvar olmuşdu, dalısından salıb, atı çapıb soldatın içindən çıxıb getmişdi. Gedib, qışlağa mayor Jenyaya kağız yazmışdı ki, mən dustaq kimi getməyi, ar bildim. İnşallah özüm sərdar hüzuruna gedirəm. Naibüssəltənə dəxi şul vaxtda ki, Mişkin mahalında Talış tərəfinə gedirmiş, naibüs-səltənə oradan Qarabağa gəlməyə təəhhüd edib, Cəbrayıllı bəylərinə adam göndərib, ümid və nəvidlər vermişdi. Cəfərqulu eşitmişdi ki, sərdar markiz Pauluççi Badkubədə olur və Şirvana gələcək. Pyotr Stepanoviç dəxi hüzurundadır. Pyotr Stepanoviçə və şirvanh Mustafa xana kağızlar yazıb ki, mənim haqqımda belə işlər tutarlar. Orada

[1] Əlyazmanın 91b vərəqinin haşiyəsində eyni xətt və qələmlə yazılmış bir qeyd vardır. Qeyddə deyilir ki, Cəfərqulu ağa ilə birlikdə Lütfəli minbaşını və daha 2 nəfəri dustaqxanaya saldılar. Bu əhvalat Cəbrayıllı bəyləri naibüssəltənə Abbas Mirzənin hüzuruna ərzidəşt etmişdilər.

sərdara ərz edin ki, izin versin hüzuruna gəlim. Pəs Mustafa xan da belə şəxslərin Rusiya dövlətindən uzaq olmağını və xain olmağını həmişə istərdi. Cəfərqulu ağanın adamlarına yəs və naümidlik cavabı deyib, geri qaytarıb və demişdi ki, mən sənin gəlməyinə izin verə bilmənəm. Çünki sən soldatın içindən qaçıbsan. Müşküldür. Qərəz, Cəfərqulu ağanın adamları o naümidlik xəbərləri ilə qayıdıb, bu günə yəs və xofnak xəbərləri gətirmişdilər. Cəfərqulu ağa ondan sonra qəti-ümid və məyus olub, İran tərəfinə getməyi azim oldu. Bu əsnada Abbas Mirzə naibüssəltənə qoşun və sərbaz və topxana ilə Araz kənarına yetişib, Cəfərqulu ağaya adam göndərmişdi ki, mən onun xilasından ötrü bu qış günü səfər etmişəm. Arazdan keçib, güclü atlı ilə öz dayısı Əmirxan sərdarı dəxi, Cəfərqulu ağanın yanına göndərib. Bir vaxtda Cəfərqulu ağa xəbərdar olub ki, Əmirxan atlı ilə daxili-qışlaq olub. Cəbrayılılar fövq-fövq köçüb, Araz tərəfə getməyə başlayıblar. Abbas Mirzə bu növ ilə Qarabağa daxil olub, hərçənd ki, Mehdiqulu xan naibüssəltənə Qaradağda və Mişkində olanda günbəgün əhvalatı qalada olan böyük Rifkoviçə və mayor Jenyaya məlum edib, yazırdı ki, naibüssəltənə qoşun ilə gəlir. Mütləqa mayor Jenya inanmazdı. Hətta, şul gündə ki, qışlağın və batalyonun üstünə gəldi. Ona da inanmazdı, ta ki, ləşkəri-qızılbaş gəlib, Qırçıda qışlağı və batalyonu əhatə elədi. Mehdiqulu xan öz hüzurunda olan bəylər ilə labüdən öz evlərini qoyub, batalyonun içinə qışlağa daxil oldular. Soldatlar ilə Qızılbaş qoşununa tüfəng atıb, dava edirdi. Tamam xanın atları və qatırları və hamı bəylərin at qatırlarm və məcmu yanlarında olan əcnas və əşyaları küllən qarətə getdi. Savayı səkkiz at əldə, batalyonun içində saxlamışdılar. Bir gün sübhdən axşama iki saat qalanadək dava olub, mayor Jenya ilə bir əlahiddə mayor və kapitan və neçə afiserlər qətlə yetişdilər. Batalyonun yarısı qırılıb, əksəri yaralı oldular. Bu əsnada Abbas Mirzə tərəfindən bir çinovnik ki, Rus dövlətindən qaçıb Abbas Mirzənin hüzuruna getmişdi, qışlağm kənarma gəlib, afiserlər ilə sülh və itaət kəlamatı aralığa salıb, itaətə təklif elədi. Çün mayor Jenya öləndən sonra bir kapitan ki, Cəfərqulu ağanı Tiflisə aparırdı ki, yolda Cəfərqulu qaçmışdı. O kapitanı o vaxtda dustaq etmişdilər. Afiserlər o halda gedib, onu dustaqxanadan çıxardıb, gətirdilər. Qalan afiserlər və soldatlar ona müti oldular. Qızılbaşın sərbazları az qalmışdı ki, qışlağın evlərinə

daxil olalar ki, kapitan soldatlar ilə həmlə edib, sərbazlardan öldürüb, qışlaqdan onları kənar eylədi. Naibüssəltənə baxıb gördü ki, əgər zor ilə dava olunar çox sərbaz tələf olunur. Müsalikə danışmağı bu səbəbə məsləhət bilmişdi.

Əlqissə, afiserlər cavab verib, neçə şərtlər aralığa qoydular. Kapitan Mehdiqulu xana təkid elədi ki, sən bəylər ilə əgər imkan olsa, qışlaqdan çıxıb, qalaya get. Bizlər hər neçə tədbir edər olsaq, bəlkə iki günədək bizə kömək də gələ. Ona görə də gecədən iki saat keçmiş xan ilə on iki nəfər bəylər və mülazimlər haman səkkiz at ilə süvar olub, Qırçıdan batalyonun içindən çıxıb dağ tərəfinə, Tərtər çayına səmt qaçdüar. Mirzə Camal mərhum yazar ki, mən özüm də orada var idim[1]. O gecə vaxtı qaçdıq. Sübh vaxtı idi, Qəsdabad kəndinə gəlib, daxil olduq. Oradan kağızlar yazıb, Tiflisə və Gəncə şəhərinə göndərdik. Çox təkid ilə kömək istədik. Qala böyüyü podpolkovnik Brikoviç dəxi neçə gün irəlidən xanın yazmağı ilə iki yüz soldat Məlik Vanyanın bələdliyi ilə batalyonun köməyinə göndərmişdi. Onlar Şahbulağa gəlib, oradan xəbər bilmişdilər ki, batalyon pozulub, yolları tamam Qızılbaş qoşunu kəsib və tutublar. Gedə bilməyib Şahbulaqda qalmışddar. Xan o gecə Qırçıdan gələndən sonra kapitan naibüssəltənə hüzuruna gedib, şərt ilə qayıdıb, sübhdən təmam soldatlar və afiserlər ilə naibüssəltənə xidmətinə getmişdilər. Naibüssəltənə oradan köçüb Şahbulağa yaxın gəlib, Şahbulaqda olan (rusların) böyüyünün yanına adam göndərib, təklif etmişdi ki, itaətə gələlər. Onlar da bir aydın cavab deməyib, möhlət istəmişdilər və haman gecə Məlik Vanyanın bələdliyi ilə Şahbulaqdan çıxıb, xəlvət yol ile qalaya gəlmişdilər. Ondan sonra naibüssəltənə köçüb Təbrizə getmişdi. Qarabağın tamam ilatı köçüb Cəfərqulu ağanın hüzurunda Arazın o tərəfinə getdilər ki, məcmu Arazdan Goran çayınadək Qarabağın torpağı xali qaldı. Məgər bir para cüzvi ilat ki, qaçıb dağlara getmişdilər, orada qalmışdüar. Orada Cəfərqulu ağaya xanlıq fərmanı verib, çox hörmətlər edib, Qaradağın məcmu Taxta qapı olan mahallannı və Əhər qəsəbəsini ona vermişdilər. Hər nə ki, Qarabağdan gedən ilatlar var idi, onlar da təmam xalisə özününkü idi. Əlavə

---

[1] Bu yeri Mirzə Camalın "Qarabağ tarixi"ndə tapa bilmədik. Ola bilsin ki, Xəzani Mirzə Camalın başqa əlyazmasını nəzərdə tutur.

ki, lazımeyi-tədarük var isə, nağd və cins və çadır və otaq və əsbabi-fərş və qab və tədarükat və taxıl və düyü ve sair lazımi mayəhtaclar verib, o ki hörmət rütbəsində heç bir qüsur qoymadılar. Cəfərqulu ağa sonra da qoşun ilə gəlib, Qarabağdan Tuğ kəndini köçürüb Araz kənarına apardı. Cəbrayıllı və sair xalqlar Arazın bu Qarabağ tərəfində rus qoşunundan ehtiyat etməyib, qışlaqlar tutub və tabei-qızılbaş olub, oturdular.

## İYİRMİ DÖRDÜNCÜ FƏSİL

## HÜSEYN XAN SƏRDARİ-İRƏVAN MƏĞLUB OLMAĞIN VƏ NAİBÜSSƏLTƏNƏ ASLANDUZDA ORDU QILMAĞIN VƏ PARAYİ-VƏQAYE ƏMƏLƏ GƏLİB VƏ DÖVLƏTEYN ARASINDA GÜLÜSTAN SÜLHÜ BÜQU BULMAĞINI BƏYAN EDƏR

Çün Qızılbaş dövləti və naibüssəltənə dail-ül-övqat həngameyi-cəng və cidalı əfsürdə, məhfili-niza və qitalı pəjmürdə qoymazdı, Rusiya dövləti ilə daima bu ətraflarda davaları var idi. Bir dəfə dəxi bu həngamələrdə şahzadə Məhəmmədəli Mirzə xəfiyyətən sərhəddən ürub edib, Gürcüstan səmtinə mahali-Borçalını nəhib və qarət edib, ziyadə xəsarətlər yetirib, hədsiz olan əsir və kəsib aparmışdüar. Ondan bir az sonra irəvanlı Hüseyn xan sərdari-Gürcüstan valisinin ittifaqı ilə Gürcüstan tərəfinə təyin və rəvanə etmişdilər ki, Axısqa tərəfindən gedib, Gürcüstana iğtişaş salsınlar. Çün sərdar Tormasov xəbərdar olmuşdur, qoşun ilə Şəmkürdən (Şamxordan) keçib, təcili-təmam ilə Sədra körpüsünün yanında düşüb, general-leytenant Pau-luççiyə və general Lisaneviçə qoşun verib, Axısqadan Hüseyn xan sərdarın qənşərinə göndərmişdi. Onlar oraya yetişib bir gecə nisfi-şəbdə Qızılbaş qoşununa qəfil hücum edib, çox adamlarını qətlə yetirmişdilər. Ləşkəri-qızdbaş sərasimə olub, atlı və piyada həzar

fəlakət ilə nicat tərəf üçün oradan azimi-vadiyi fərar olmuşdular. Ərzirahda dəxi osmanlı əsgərləri düçar olub, onların əksəriyyətini lüt və qarət edib bəqiyətül-seyfi oradan mühayəti-zillət ilə qaçıb, daxili sərhədi-İrəvan olmuşdular. Hüseyn xan sərdar dəxi bu səbəbə şərmsar olub, dövləti-qızılbaşdan xofnak olduğuna görə fərar edib, gedib Koroğlu qalasında mütəvari oldu. Bir müddətdən sonra (onu) yenə xatircəm edib, öz yerinə aparmışdılar. Onun sonuncu ili idi ki, sərdar Tormasov gedib yerinə knyaz Pauluççi sərdar olub, Tiflisə gəldi. Haman ilin qış mövsümündə idi ki, Cəfərqulu ağanm Qızıl-başa getməyi və Qırçıda müşktristki (atıcılar) batalyonu dağılmağı vaqe oldu. Sərdari-məzbur Tiflisdən Badkubəyə səfər əzmi ilə Gəncə vilayətinə gəldi. Cavad xan gəncəlinin əhli və əyalı və övlad və ətfalı ki, bir neçə nəfər Qızılbaş xanları ilə məhbus var idilər, onları mürəxxəs edib, oradan Badkubə tərəfinə getdi. Bu heyndə Kaxet və Qısıq bunt etdilər. Cəfərqulu ağanm Qızılbaşa getməyi vaqe oldu. Qarabağın elləri sınıb, Qızılbaşa getdilər. Qırçıda batalyon dağıldı. Bu müqəddimələrə görə sərdar knyaz Pauluççi Badkubə səfərini bərhəm edib bu gunə dəhşətli əhvalata görə qayıdıb, Şirvana Mustafa xanın yanına gəlib və oradan - Şamaxıdan Qarabağa - Şuşa qalasına gəldi. Pyotr Stepanoviç dəxi yanında idi. Gəlib bir para adamlara və Mehdiqulu xana çox itab-xətablar etdi. Xanı hökumətdən məzur etmək (işinə) başladı. Amma neçə gün ki, qalada qaldı kağızlara və işlərə baxıb gördü ki, Mehdiqulu xan heç gunə təqsir etməyib, tamam əhvalatı naibüssəltənə Təbrizdən çıxıb, ta Mişkindən Qarabağa gələnədək xan günbəgün qaladakı böyüyə və mayor Jenyaya məlum edib və təkid edib ki, batalyonu Şahbulağa apara. İlatı köçürüb dağlara apara. Mayor Jenya razı olmayıb və təqsir eləyibdir. Pəs bir neçə gündən sonra yenə sərdar Mediqulu xana nəvaziş və hörmətlər edib, Pyotr Stepanoviç dəxi vəsatət qılıb dübarə hökumətdə mənsub eylədi. Mığrı kəndində bir batalyon var idi ki, o zamanda Mığrıda olurdu. Onlar üçün taxıl və tədarükat bina edib, mayor Rüstəm bəy və podpolkovnik Cəmşid bəy özlərindən və kəndlərindən iki yüz çetvert buğda sərdarın təmənnasma görə mühəyya edib, Mığrı qəryəsinə mərsul qıldı. Ondan sonra Şirvan və Şəki və Qarabağ və Lənkəran və Talış vilayətlərini Pyotr Stepanoviçə təfviz

edib, özü darüssürur Tiflisə azim oldu. Amma rəşid və kamil olan Pyotr Stepanoviç əvvəl öz zirdəstində olan qoşunu ilə Araz kənarında olan Cəbrayıllı və sair xalqlara çapavül edib, çox mal və qoyun qarət və kəsib elədi. Tuğ kəndinin xalqını ki, Araz kənarında idilər, hənuz o taya getməmişdilər, köçürüb geri yenə özlərinə gətirdi və öz ziri-hökmündə olan polku götürüb Ağoğlanda ordu elədi. Həmişə irəliki böyüklər, general Nebolsin və general Xanveysov həmə il qoşun ilə Əsgəran qalalarının yanında ordu edərdilər. Amma Pyotr Stepanoviç Araza yavuq ordu elədi ki, sərhəd tərəfindən Arazdan keçib, quldurluğa və düşmənliyə gələn qoşunlardan tez xəbərdar olmağa ki, Ağoğlandan Araz kənanna altı ağac olub, o ilin bahar fəsli olanda, naibüssəltənə gəlib Araz kənarında Aslanduzda ordu elədi. Haman ildə fransızın Rusiyaya gəldiyi şöhrət buldu[1]. Sərdar markiz Pauluççi məzur olunub Rusiyaya çağırdılar. Əvəzində general Rtişşev sərdar olub, bu məmalikə gəldi. Yenə haman ildə İran dövləti ilə saziş və müsalihə nağılı aralığa düşüb, sərdar Rtişşev Qarabağa gəldi. General Haqverdiyev Araz kənarına gedib, vəziri-qayim-məqam Mirzə Əbülqasım ilə orada güftəgular elədilər. Əvvəldən Pyotr Stepanoviç müsalihə etməyə razı deyildi. İstərdi ki, Qırçı müqəddiməsinə bir əvəz çıxa. Amma sonra yenə şöylə oldu ki, Haqverdiyev ilə qayimməqamın güftü guları mütabiq gəlməyib, o dəfə müsalihə surəti əmələ gəlmədi. Pyotr Stepanoviç Ağoğlanda ordu ilə qaldı. Sərdar Rtişşev dəxi qayıdıb, Tiflisə getdi. Bu əsnada qayimməqam Mirzə Əbülqasım 200 atlı zübdə süvarilərdən xəlvət yollamışdı ki, Ağoğlandan Rusiya qoşununun ilxı atlarını qovub aparalar. Dəxi əlavə atlılardan xəlvət yerlərdə qoyub ki, əgər Qazax polku haraya gəlsələr, onlara həmlə edib, şikəst eliyələr. Pəs, rəşid olan Pyotr Stepanoviç xəbərdar olub, bir növ nizam ilə Qazax polkunun təyin eylədi ki, təmam Qızılbaşm o atlılarını basm, əlli-altmış nəfərdən ziyadə onlardan qətlə yetirdilər. Qalam bineyl məram həzimət qılıb, qayimməqamın o tədbiri özünə zərər etməkdən qeyri bir nəf hasil eləmədi. Əlqissə, haman Rtişşev sərdarın vaxtında idi ki, İran dövlətindən Mirzə Əbülhəsən xan əmri-müsalehədən ötrü məmur və

[1] Napoleon qoşunlarının 1812-ci ildə Rusiyaya hücumu nəzərdə tutulur.

təyin olub, gəldi Şəb torpağına və Rusiya dövlətindən dəxi mötəmid gedib, orada izdihami-təmam və cəmiyyəti-məlakəlam ilə bənayi-müsaliheyi-üstüvar və istiqrar tapdı. O müsalihəyə "Gülüstan sülhü"[1] adı qoydular. Ondan sonra müddəti-fəraqət və əmniyyət hasil oldu... Hicri 1229 (1813)-cu ildən ta 1242/1826 tarixədək aləmi-pürfıtnə aram qıldı. Ta ki, bir müddət keçəndən sonra general Rtişşev sərdarlıqdan çıxdı. Əvəzində general Yermolov mənsub olub, Tiflisə gəldi. Bundan sonra təmam vilayətlərin işlərinə diqqət yetirib, Yermolov təzə qanunlar qoydu. Hər vilayətin tələbinə görə zabitlər icad edib, bəzi vilayətlərdə qəribə görünən işlər və səyaqlar başladı. Pyotr Stepanoviç məzur olub, general Mədətov Şəki və Şirvan və Qarabağ və Talış və Lənkəran vilayətlərinə okrujnoy naçalnik mənsub oldu. Dəxi qoşun ilə Qarabağda sükunət edib, Mədətov həm pareyi-işlər əmələ gətirdi ki, şul zabitə və ixtiraata mütəhhəmmil ola. Bilməyib, o illərdə Qarabağ hakimi mərhum Mehdiqulu xan və Şirvan hakimi Mustafa xan Qızılbaşa fərar etdilər. Şəki xanı İsmayıl xan həm vəfat etdi. Bu üç xannəşin vilayətlər 1822-ci ildə dövləti-Rusiya təhtinə daxil oldular. Sərdar Yermolov dəxi bu yerlərdə divanxanalar açdı. Divanbəylər tikdi (seçdi), komendantlar təyin eylədi. Təmam işləri özü ixtira etdiyi qanun və zakona mühəvvəl və mərcu etdi.

---

[1] Gülüstan sülh müqaviləsi 12 oktyabr 1813 -cü ildə Qarabağın Gülüstan kəndində Rusiya ilə İran dövləti arasında imzalandı. Bu müqaviləyə görə Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlıqlan Rusiyaya qatıldı.

## İYİRMİ BEŞİNCİ FƏSİL

# QIZILBAŞİYƏ DÖVLƏTİ DÜBARƏ NƏQZİ-ƏHD EDİB, İZHARİ-ƏDAVƏT ETDİYİN VƏ 1242HİCRİDƏ MÜTABİQİ - 1826 - SƏNEYİ-MƏSİHİYYƏDƏ NAİBÜSSƏLTƏNƏ ABBASMİRZƏ ŞUŞA QALASI ÜSTƏ QARABAĞA GƏLİB, BURADAN MƏĞLUB OLUB GETDİYİN VƏ RUSİYA QOŞUNU VƏ PASKEVİÇ SƏRDARIN TƏBRİZƏDƏK ƏZM EDİB, GETDİYİN VƏ AXIRINCI ƏHD VƏ MÜSALEHƏ DÖVLƏTEYN ARASINDA İSTEHKAM BULMAĞIN VƏ CƏNG VƏ MÜNAZEƏ BİLMƏRRƏ QƏT OLUB, VİLAYƏTLƏR ARAM VƏ FƏRAQƏT OLMAĞIN BƏYAN EDİR

Dövləteyn-əliyyətey və səltənəteyni-behannəteyni-İran və rus arasında vaqe olan sülh və müsalihə ki, 1808-ci il[1] tarixi-məsihiyyədə vaqe olmuşdu. Lazım olan qanunlarla təsbitləşmiş və layiq olan qaydalar ilə möhkəm və məbud var idi. O vaxta qədər ki, məsihiyyə tarixi 1826 oldu. Pəs haman ildə xalqın arasmda şayə və müntəşe oldu ki, mübaşirini-dövləti-İran sülh peymamm pozmağı və viran etməyi lazım bilib, dava və ədavət fikrinə düşüblər. Əmnai-dövləti-Rusiya bu gunə kəlamata mütləqa bavər və etibar etməyib, kizb və xilaf buyurdular. Belə ki, bu əsnada imperaturi-əzim tərəfindən rəsuli-mötəmid və səfiri-mötəqid knyaz Menşikov İran dövlətinə rəsalət və səfarətə məmur olmuşdu. Gəlib Qarabağdan və Xudafərin körpüsündən keçib, İran dövlətinə elçiliyə getdi. Pəs bu əməl xalqı dəxi artıq fəriq və xatircəm elədi. Əlqissə, haman elçi Qoçandan übur edən vaxtda Qızılbaş sipahisi ilə mülaqat edib, dəxi məqdur olmayıb ki, əmnayi-dövlətə bu əhvalı izhar edib bu ətrafda olan hadisələrdən xəbərdar etsin. Ta ki, Qızılbaş əsgərləri və naibüssəltənə gəlib Araz suyundan keçən vaxtda neçə nəfər qazaxlar çayda bədənlərini şüs-tüşu edərmişlər. Onları mtub, məqtul edib, oradan keçib, gəliblər

[1] 1808 tarixi səhvdir, 1813-cü il olmalıdır.

Gorus kəndində olan batalyonun sərvəqtinə. O günlərdə dəxi, batalyona öz naçalniyindən hökm sadir olub ki, təcili-təmam ilə qalaya azim olsunlar. Paruçik Səfərəli bəy ki, şul vaxtda Zəngəzur mahalatına naib idi. O da qoşuna bələd idi. Gorusdan batalyon çıxıb, qalaya gələrkən, yolda Gorunzor kəndinin yanında sipahi-Qızılbaş batalyona düçar olmuşdular. Orada dava və qital vaqe olub, hərarəti-aftabdan atəş və susuzluq qoşuna kargər edib, çox səyi-təmam və etdimami-malakəlam etmişdilər ki, özlərini Həkəri çayına yetirələr. Kapitan Hacı Ağalar bəy ki, mütai-Qızılbaş idi, xəbərdar olub, neçə nəfər bəyzadələrin ittifaqı ilə əkradın süvarə və piyadələri ilə gəlib, çayın bu tərəfini kəsiblər. Bir heyət ilə, iki tərəfdən macal verməyib, soldatı aralığa alıb və bəzisini qılıncla öldürmüş və bəzilərini giriftari-kəməndi-üsar etmişdilər ki, onlardan bir nəfəri fəllahi olub fərar etməyə macal və məqdur olmamışdı. Pəs o gün naibüssəltənə oradan bu əsirləri götürüb, gəlib Gorunzorda Hacı Ağalar bəyə qonaq olub, oradan polkovnik Nazimovu və mayor Kovalevskini və sair tutulan afiserləri soldatlar ilə Fətəli şahın hüzuruna ki, o vaxt o qoşun ilə Ərdəbil şəhərində idi, fəthnamə göndərdi. Şah dəxi bu əvvəlinci fəthi baisi-fət və zəfər bilib, xoşhal olmuşdu. Haman vaxtda Mehdi-qulu xan Qarabaği dəxi Naxçıvanda sakin var idi. Şul 1242-ci ilin məhərrəmül-həram ayında[1] Fətəli şah bir fərman Mehdiqulu xana yazıb, guya onu Qarabağın hökumət və əyalətinə mənsub edib, naibüssəltənə xidmətində şəraiti-xülus və canfəşani əmələ gətirməyə təkid etmişdi. Mehdiqulu xan dəxi Əmirxan sərdar ilə Naxçıvandan əzimət edib, gəlib haman vaxtda Gorunzor kəndində şahzadəyə mülhəq oldular. Oradan sübh vaxtı köçüb, Mehdiqulu xanı Kuhistan səmtindən - kürd tayfalarının obalarının içərilərindən yola saldı. Özü Çanaxçı kəndində olan qoşunun sərvəqtinə əzm edib, təmam əsakir ilə yola düşdü. Ondan irəli Araz kənarında qazaxlar məqsul olanda Mehdiqulu xanın qardaşı Süleyman ağa pareyi-əqrəbaları ilə ki, o zamanlar Vərəndə mahalmda sakin idilər. Orada rugərdanlıq edib, xəyanəti-aşkar qılmışdılar. General Reutt ki, o vaxtda polk komandiri idi, piştdəstlik edib, qoşunu qalaya daxil eləmişdi. Amma onlar azuqə gətirənlərə macal verməyib, Zərgər və

[1] Hicri 1242-ci il məhərrəm ayı – miladi 1826-cı ilin avqust ayına təsadüf edir.

Sair ətrafda vaqe olan Cavanşir, Dizaq ilatları, Ağoğlanı və qoşunun anbar və azuqəsini qarət və nəhib və tarac eləmişdilər. Şahzadə oradan Gorus yolu ilə Çanaxçı qəsdinə azim olub, yolda bu əhvalı eşitdi. Yolu döndərib, qala canibinə barvər oldu. Gəlib haman həmlə ilə yürüş edib, qalanın (bir) gülləlik (məsafəsinə) və hətta barının dibinədək gəlib yetişib, sonra fikir və tədbir nə olmuşdursa, genə oradan müraciət edib, kənar olmuşdular. Bir para ermənilər şuşakəndli Səfər yüzbaşını götürüb, qalanın cənub səmtində vaqe olan Xəzinə qayasında səngər edib, oturmuşdular. (Şahzadənin əsgərləri) onların səngərlərini dəxi tutmaqda aciz olmuşdular. Amma şəhəri və qalanı mühasirə və əhatə edib, nikani-ənguş-tər kimi arahğa aldılar. Məhz əhaliyi-şəhərdən qeyri-Qarabağın təmam ilat və dihatı-mütii-Qızıl-baş olub, məcmu vilayətin bəyləri və məlikləri və kəndxudaları küllən Mehdiqulu xanın hüzuruna gedib, o da naibüssəltənə xidmətinə yetirib, tanıdıb, orada xədamət əncamı ilə xulai-fəxirə və ənamati-vafırələr ilə faydamənd oldular. Bəd əz an Qarabağ qoşunu da Qızılbaşa kömək edib, şəhərin üstünə hücumavər oldular. Hər gün qalada müharibə vaqe olub, iş yəs və naümidliyə çəkdi. Dəxi bu əsnalarda Talış vilayətindən Rusiya qoşununun çıxmağı səbəbinə Talış xanları həm Rusiya dövlətindən rugərdan olub, Mirhəsən xan hakimi-Talış öz qardaşlarını burada naibüssəltənə hüzuruna göndərib izhari-itaət elədi. Mustafa xan şirvanlı dəxi, gedib daxili-vilayəti-Şirvan olub, əhli-vilayəti təhrik qılıb, onlar dəxi məcmuən itaətə gəldilər. Hər canibdən üsyan və tüğyan avazəsi bülənd olub, həvaxahi-dövləti-Qızılbaşiyə ilə havalar başladılar. Dəfəat ilə Rusiya qoşunu ilə cəng və müharibat vaqe oldu. Axırül-əmr Şirvan vilayətində hər nə ki, qoşunlar var idi, bilkülliyə cəm olub, Quba vilayətinə getdi. Şirvan vilayəti xali olub, Mustafa xan yenə istiqlali-təmam ilə Şirvanda hakim oldu. Köhnə Şamaxını darülimarə qılıb, əyləşib, Qızılbaşa itaət qıldı. Həmçinin Şəki vilayətində olan Rusiya böyükləri Şəkini xali edib, Tiflisə getdilər. Şəkili Hüseyn xan Səlim xan oğlu dəxi Şəkidə hakim olub, məshədi-xanlıqda istiqlal buldu. Dəxi, Zurnaabada olan Rusiya qoşunu xahişmənd oldular ki, daxili-Gəncə olub, oradan Tiflisə gedələr. Əhaliyi-Gəncə onlara mane olub, şəhərə qoymadılar. Qoşun müraciət qılıb Uğurlu xan dəxi Gəncədə xanlıq və hökumət əmrinə mənsub və müstəqil oldu. İrəvan səmtində Hüseyn

xan sərdar və qardaşı Həsən xan gedib, Pənbək və Şuragildən knyaz Davud mirzə (Savarsamidze) xaric olandan sonra Rusiyanın orada olan təmiratlanm və dam-daşlanın yıxıb və yandırıb, tamam oralara malik oldular. Hətta Həsən xan gedib, Borçalı mahalında Göyçə altında olan nemsələri qarət edib, əsirlər gətirdilər. Və arabir də, hər gün qızılbaşlar belə təqrir edirdilər ki, sərdar Yermolov Tiflisi xali edib, Rusiyaya (gedib) general Mədətovdan dəxi bir əsər hənuz yox idi. Bu qərar ilə bir müddət keçib, ta bir vaxtadək, sonra xəbər gəldi ki, sərdar Yermolov Tiflisdə kamali-aram və qərar ilə əyləşib, Mədətov general dəxi Rusiyadan çox hədsiz qoşun ilə gəlibdir. Belə xəbər verirlər ki, padşahın öz xassə qoşunudur. Bu xəbərləri eşidəndən sonra Qızılbaş öz qəflət yuxusundan bidar olub, naibüssəltənə öz vəliəhdi Məhəmməd mirzəni və dayısı Əmir xan sərdan külli qoşun ilə və Nəzərəli xana həm sərbaz verib göndərdi ki, gedib Gəncədə oturub kəmali-sər və ehtiyat ilə qaladarhğa məşğul olsunlar. Müharisəti-ədada lazım ehtimal qılsmlar ta görsünlər, sərəncami-kar nə yerdə münəccər olur. Burada qalanı mühasirə qılandan bir neçə gün sonra şahzadə öz yaxını olan Bican xanı ümid və nəvid və nəva-zişlər ilə qalaya irsal etmişdi ki, qalanı təslim eləyim. Bu tərəfdən dəxi mayor Klugenaunu qaladan şahzadənin yanına elçi göndərdilər. Pareyi-güftəku və müşavirə və mühavirələr vaqe olub, axır qərardad belə olmuşdu ki, komendant mayor Çilyayevi bir kapitan ilə Qızılbaşa zaval verdilər. Mayor Klugenaunu və bir yüzbaşı da Qızılbaşiyyə tərəfindən müttəfiq, sərdar Yermolovun hüzuruna Tiflisə göndərdi-lər ki, sərdar Yermolov qala təslim olunmağa razı olsun. Onlar Tiflisə gedəndən sonra sərdar Yermolov cavabda yazmışdı ki, Rusiya zəbanında kapitulyasiya sözü yoxdur. Çünki kapitulyasiya sözünün mənası (fransızca) qala təslim etməyə deyirlər[1]. Pəs, mayor Klugenaunun özü orada qalmışdı. Kağızı bir İbrahim adlı yasavuldan bu tərəfə göndərmişdilər. Burada kağızı tutub vermədilər. Əlqissə, bu hal əsnasında İraq tərəfindən Allahyar xan çox olan iraqh qoşunu ilə gəlib, şahzadə mülhəq oldu. Dübarə qala üstə yürüş binası qoydular. Yenə bir murad hasil olmayıb, həvaliyi-şəhərdə ordu edib, əyləşdilər. Bu

[1] Xəzani qələmə aldığı bu hissələri Mirzə Adıgözəl bəydən (bu nəşrin I kitabı, səh.95) götürmüşdür. Orada Yermolovun cavabı aşağıdakı kimi verilmişdir: "Rus dilində kapitulyasiya yoxdur, çünki kapitulyasiya fransız dilində qalanı təslim etməyə deyilir"-

hala Əmir xan sərdarın Mədətov general ilə Şəmkirdə (Şamxorda) davaları olduğunu və Əmir xan ölüb, qoşunları dağılıb, şikəst bulduğunu naibüssəltənəyə xəbər verdilər. Elə ki şahzadə bu xəbəri eşidib, ətraf qaladan köçüb, Ağdama düşdü, oradan komendant Çilyayevi və Mirzə Adıgözəli və şul kapitam Təbrizə yola saldı. Özü qoşunu ilə Gəncə tərəfinə azim oldu. O tərəfdən general Mədətov ki, gəlib, Şəmkürdə sərdar Əmir xan ilə dava edib, Əmir xan orada qətlə yetişib, qoşunu şikəst olmuşdu. Ondan Mədətov qoşun ilə gəlib, Gəncəyə daxil olmuşdu. Onun ardınca general feldmarşal İvan Fyodoroviç Paskeviç qoşuni-əzim ilə gəlib, onlara qoşulub, Gəncədə bir neçə gün aram və asayiş edirdilər ki, Qızübaş üstə gələlər. Bu halda şahzadə Abbas Mirzə bu tərəfdən köç bir köç, gedib Gəncə torpa-ğma daxil olub, yük və çadırlarını Kürək çayında qoyub, özü yalnız süvarə qoşununu və sərbazları götürüb Gəncənin Zazalı nam arxının üstündə gecə yatıb, sübhdən ki, sərdar Paskeviç və general Mədətov qoşunlarına nizam verib, Şeyx Nizami məqbərəsinin yanına gəlmişdilər. Orada Qızılbaş ilə üzbəüz gəlib, mülaqat oldu. Pəs orada bir əzim cəngi-sultani vaqe olub, bir neçə saat atəşi-cidal naireyi-qital şiddəti-təmam ilə dava edib, axır ki, sipahi-Qızılbaşiyə münhəzir olub, basüdılar. Naibüssəltənə nə qədər guşiş etdisə, şikəsti-bəst eləmək mümkün olmayıb, oradan qaçaraq bir gün bir gecədə gəlib, Arazdan keçmişdilər. İki topları dəxi Tərtər çayı ilə İncə çaymın arasında qalmışdı. Amma bir xüsusi dəstə sərbaz o davadan sabitqədəm olub, qoşunları məğlub olub, fərar edəndən sonra Rusiya əsgərləri ilə mərdanə cəng edib, qaçmamışdılar. Ta ol qədər ki, barıt və güllələri var imiş, təmam olana kimi tədarükləri olub, ondan məqtul və dəstgir olmuşdular ki, o zamanda onları çox tərif edirdilər.

Əlqissə, Qızılbaş o cəmi kəsir olan qoşunları ilə ki, orada basılıb və qaçıb Arazı keçmişdilər, gedib o tayda təmam pərakəndə olub, dağılmışdılar. Naibüssəltənə dəxi Ərdəbildə Fətəli şahın hüzuruna getmişdi. O dəmlərdə ki, şah özü həm Ərdəbildən köçüb, Əhər qəsəbəsinin yanında Təviləyi-Şam adlı məhəldə düşüb təvəqqüf edirdi. Orada şah ilə mülaqat edib, bir para sərkərdələrindən və qoşunun-dan şikayət edib, Rusiya dövlətinin sipahını və sərkərdələrini şaha tərif eləmişdi. Ondan (sonra) oradan Təbriz və Tehran canibinə azim olmuşdular. Paskeviç sərdar dəxi o səfərdə gəlib Qarabağa Təxti-

tavusda ki, Dizaq mahalında və Quru çay üstə bir məhəldi, orada qoşun ilə bir müddət əyləndi. Çərəkən kənarında bir ay yarıım dayandı. Əlhəqq Məlik Aslan bəy Dizaqi o vaxtdan sərdar Paskeviç xidmətində çox layiqli xidmətlər eləmişdi. Orada qoşuna nabələd vaxtı çox tüncü və tədarükat hazırlayıb, sərdarı və qoşunu məmnun və razı eləmişdi. Bir növ ilə sərdar feldmarşal Varşavda olanda dəxi onu razılıq ilə yad etmiş və xatırlamış, oğlu kapitan Firudin bəyə o mükafata görə çox iltifat və mərhəmətlər eləmişdi.

Əlqissə, haman vaxtlarda ki, Paskeviç sərdar qoşun ilə Qarabağda dayanırdı, onda Mustafa xan hənuz Şirvanda, Hüseyn xan dəxi Şəkidə öz hökumətlərində var idilər. O hallarda Hüseyn xan şəkilinin qardaşı Hacı xan Şəkidən qoşun fərahəm edib, gəlib Goran çaymda Mirzə Adıgözəl bəyin obalarını çapıb, əlavə bir para kəndləri qarət və nəhib edib, aparmışdı. Mustafa xan dəxi Şirvandan kamali-asayiş ilə xudsər köçüb, öz evinə Qaradağa getmişdi. Amma Hüseyn xan hənuz Şəkidə məqs qalmışdı, ta ki, sərdar Paskeviç bu tərəfdən qoşun ilə gedib, Nuxanın üç ağaclığına yetişən vaxtda Hüseyn xan tabi-müqavimət gətirməyib, Şəkidən fərar edib, Arazdan keçib, İran dövlətinə getdi. Paskeviç sərdar dəxi Arazdan Qaradağ ölkəsinə übur edib, oradan çox çəpavül və qəsbi-qarət və əsir gətirib, Qarabağda xalqı cabəca və xatircəm edib, ondan izafə ləşkərini götürüb, Tiflisə azim oldu. Ondan sonra bir dəfə dəxi general Mədətov Qarabağ və Şirvanat qoşunlarını cəm qılıb, soldatı dəxi götürüb, Arazı keçib, Mişkinədək gedib, Mişkin və Qaradağdan külli qarət və çapavul edib, Şahsevən xanlarım müti edib, onlara xəyanət fikrinə düşmə-məkdən (ötrü) aid verdirib, sonra oradan müraciət etdi ki, ona da Mişkin çapqmı deyərlər. Hənuz, əlsəneyi-əvamda məzkur və məşhurdur. Mədətov general dəxi oradan qayıdandan sonra Tiflisə getdi. Təhiyyeyi-tədarük bina edirdi ki, bahar fəsli olanda İran tərəfmə əzimət etsin. Sərdar Yermolov tədarükati-şayan və istedadi-fıravan ilə Mədətovu yola saldı ki, İran səfərinə getsin. Mədətov dəxi Xudafərin körpüsünədək gəlmişdi. Qızılbaş dəxi istiqbal edib; bazari-kiridar gərm olub, binayi-mərikə başlanmışdı ki, Yermolov sərdarlıqdan məzur olub, Paskeviç sərdarlıq ümurunda istiqlal buldu. Baş sərdarhğa təkyə qıldı. Bəd əz an polkovnik knyaz Abxazovu bu vilayətlərə naçalnik və hakim pəst qılıb, Mədətovun ziri-hökmündə olan qoşunları təmam

general Pankratova tapşırdı. Abxazovun ştab naçalniyi edib, beş günədək Tiflisdən Xudafərin körpüsündə olan orduya özün yetirib, gecə yatıb, işləri Mədətovdan alıb, sübh Mədətovu Tiflisə yola salıb, qoşunu oradan köçürüb, qayıdıb gəlib Vərəndə mahalının Qozlu çayına daxil oldu. Sərdar Paskeviç özü dəxi tədarükati-şəyan ilə İrəvan səmtinə hərəkət edib, o sahətləri təsxir etməyə müsənnəm oldu, İrəvan sərdarı Hüseyn xan sərdar hər tamam ilatı köçürüb, yalnız bir Sərdarabad və bir də İrəvan qalasım mühafizət etməkdən ötrü qardaşı Həsən xanı qala içində qoyub, özü ətraflarda gəzirdi. Bu əsnada, general-mayor sahibi-həmail Mehdiqulu xan hakimi-Qarabağ ki, o vaxtlarda Daral-gözdə idi, Paskeviç ilə amadu-rəfti vaqe olub, İran dövlətindən rugər-danlıq qılıb, yenə bu dövlətin itaətinə gəlmək istədi. Knyaz Abxazov Pankratov ilə mühavirə və müşavirə edib, iki batalyon qoşun götürüb gedib, Ağ karvansarada ki, şul vaxtda iki sərhədi-dövləteyn idi, Mehdiqulu xanı (oradan) götürüb, xatircəmliklər verib, öz təvabei və ləvahədləri ilə köçürməyə məşğul oldular. Pəs o halda Ehsan xan Naxçıvani ki, haman vaxt qoşun ilə Abbasabad qalasının mühafizət edəni idi, xəbərdar olub, knyaz Abxazovun yanına adam göndərib, hali etmişdi ki, bu səmtə gəlsin ki, mütəvəcce olan kimi qalanı onlara təslim edirəm. Bundan sonra əhvalı bu növ görəndə, tutiya və təmhid edib, amma sərdarın izni olmamağa binaən cürət etmədilər. O dəmdə oradan Abbasabad səmtinə getmədilər. Qayıdıb Qarabağa gəlib, buradan macəranı sərdar hüzuruna ərizədaş qıldılar. Sərdar Paskeviç bu xəbəri eşidən zamanda İrəvan təsxirdən əl çəkib, Abbasabad səmtinə hərəkət elədi. Əmnai-dövləti-Qızılbaşiyyə bu əhvalı istima edən kimi Məhəmmədəmin xan Qacar neçə əlavə xanlar, çoxlu qoşun və sərbazi-bəxtiyari ilə Abbasabad qalasına irsal qıldılar. İxtiyari-qəleyi Abbasabad Ehsan xandan səlb olundu. Sərdar Paskeviç gəlib, Abbas-abadı mühasirə etdi. Naibüssəltənə dəxi o tərəfdən əsakiri-firavan ilə gəlib, qənşərə nümayan oldu. Pəs, Paskeviç əvvəl suvariye-Qazağı, sonra əqəbincə soldatı müqərrər etdi ki, Abbas Mirzəyə müqabil gedələr. Onlar Arazdan übur edib getdilər. O tayda Abbas Mirzə ilə cəng və dava etdilər. Az zamanda Abbas Mirzə məğlub oldu. Əsakiri-Rusiya qayıdıb, qalanm çar ətrafmdan yürüşə başladılar. Xəndəklər qazıb sibələr yeritdilər. Çün əhaliyi-qala Abbas Mirzənin imdadından məyus olub və sibənin yaxınlaşmağını gördülər. Ehsan xanı da

özlərinə qarşı xain bilib, qalanı təslini etməyə razı oldular. Pəs qala müsəxxər olandan sonra ki, orada olan təmam top və tədarükat və anbarlar təsərrüfə gəldi, sərdar qalada olan Məhəmmədəmin xanı və baqi xanları və sərbazı əsir edib Qarabağ yolundan Tiflisə rəvanə elədi. Ehsan xanı xidmətinin əvəzində Naxçıvanda naib edib, ondan sonra qəleyi-Abbasabadda kurval (qalabəyi) təyin edib, havanın yay fəslində hərarət ifrat olmaq səbəbinə oradan köçüb qoşun ilə Qarabağ yaylağma gəlib, orada aram və asayiş binası qoydu. Sonra Abbas Mirzə eşitdi ki, təxribi-binayi-qəla üçün Rusiya tərəfindən böyük toplar gətirirlər. Rəqəmlər (əmrlər) yazıb, Arazın o tərəfindən ilqar edib, Avaran nam məhəldə Rusiya qoşunu ilə bir əzim cəngi-sultani edib, hər iki canibdən rəşadət və cəladət zühura gəlib, amma susuz-luq cəhətinə soldata çox zərər yetişmişdi. General Krasovskiyə necə güllə dəyib, şahzadə buna iktifa edib, çox şad və xürrəm olub, ora-dan qayıdıb, azimi-darüssəfayi-Xoya varid olmuşdu. Elə ki sərdar Paskeviç Qarababa yaylağmda bu hadisəni eşitdi, ehmal və isqah orada qoyub, o kirü dara azim oldu, ta sərdar oraya yetişənədək, şahzadə çıxıb getmişdi. Sərdar oradan topları götürüb, əvvəla Sərdarabad qalasını tupayi-atəşbar sədamati ilə viran və yer ilə yeksan edib, müsəxxər elədi. Oradan çox hədsiz zəxirə və tədarük və bünə təsərrüfə gətirdi. Ondan fariq olandan sonra İrəvan qalasma rəvanə oldu. Və oradan dəxi bir neçə gün nayireyi-qital və atəşi-cəng və cidal şölələnib, haman əjdahədəm olan toplar ilə qəleyi-İrəvanm bürc-barısmı dağıdıb əhaliyi-şəhr çox səy və təlaş əmələ gətirib, istədilər ki, guşişi-təmam ilə mane ola biləlɘr. Məqdur və müyəssər olmadı. Nəhayət, Həsən xan və sair ümərayi-İran dəstgir və qəleyi İrəvan məftuh və təsxir olurdu. Sərdar oraları təsərrüfə gətirib, tənzim və tənsiq etdikdən sonra qoşununu cəm edib, əşhəbi-əziməti-Xoy səm-tinə kərəmi-cövlan elədi. Qarababa yaylağmda olan qoşuna ki, knyaz Eristov sərkərdə idi. Hökm qıldı ki, Təbriz canibinə ərəqraz şitab olsun. Özü Arazı keçib, gedib bir az müddətdə Xoy vilayətini müsəxxər etmişdi. Knyaz Eristov dəxi bi cəngi-cidal və biduni-sitizə və qital sahəti-Təbrizi öz ixtiyarına keçirdi[1]. Abbas Mirzənin cəmiyyətləri pərakəndə olub, özü nəhayət şərməndəlik ilə Marağa hüdudunda

[1] Rus qoşunları 13 oktyabr 1827-ci ildə Təbrizə girdilər. 226

övqat keçirirdi. Sərdar Paskeviç daxili-Dehxarqan olmuşdu. Hərçənd Abbas Mirzə tədbir etdi, dəxi bundan savayı çarə bilməyib, bir neçə nəfər üməraların ittifaqı ilə birlikdə sərdarm hüzuruna azim oldu. Sərdar Paskeviç dəxi təzim və təkrimdə dəqiqeyi-naməri etməyib, o ki lazımeyi-rəviyyə və rəftar idi, əmələ gətirib, müddəti-mədid bir yerdə qaldılar. Aralannda müsalehə və sərhəd və qəramətdən ötrü müşavirə və damşıqlar çox vaqe olub, şah dəfül-vaxt edərdi, razı olmazdı[1]. Axırda bunlar bir-biri ilə danışıq və məsləhətlər edib, ayrıldılar. Sərdar darülsəltəneyi-Təbrizə gəldi. Abbas Mirzə öz məmalikinə azim oldu. Miyanlarında əqdi-irtibati-möhkəm və rişteyi-ülfət və ixtilat müstəhkəm idi. Dedilər ki, bu binayi-müsalihəni təxrib edən, şahdan qeyri-bir əhəd deyildir. Pəs sərdar vilayətlərə, özünün qalib qoşunlarına hökmlər yazıb, avazələr saldılar ki, buni-saf şahın öz darül-xilafəsinə lazımdır gedəm və paytaxtı olan şəhəri gərək zəbt edəm. Naibüssəltənə dəxi atasma yazıb, bu sadir olan əhvalatı izhar edirdi. Əxbar etdi ki, sərdar şimdi nagəhan bəla kimi üstünə gəlməkdədir[2]. Axır ki, şah dəxi müsalihəyə razı olub, Türkmənçay adlı məhəldə müsaliheyi-möhkəm vaqe oldu[3]. Araz çayının sərhədi-dövləteyni-əliyyəteyn qərar qoyub, yeddi kürur pul cərimə verməyə razı oldular[4]. Neçə məşrutat və müahidat edib, Xoy vilayətini cərimə ödənən zamanadək rəhn və girov aldılar. Bundan sonra cərimə pulu gəlib çıxdı. Ondan sonra Xoyu da mübaşirini-dövləti İrana həvalə edib, sərdari-valatabar qoşunu götürüb, darüssürur Tiflisə müraciət etdi. Qalib və müzəffər gəlib, Gürcüstana varid oldu. Dəxi o müddətdən şimdiyədək vilayət kəmali-asayiş və fəraqət ilə aram və istiqrar tutub, günbəgün abad olmaqdadır. Şimdi xəlayiqi-padşahi-zillüllah aləm pənahın zilli-himayəsində kəmali-rahətlik və asudəlik ilə məişət və güzəran edib, əmnai-dövləti-əliyyənin əmr və dövlətlərinə duagu vardırlar. Həqq-sübhanə və təala bu dövləti-daimül-qərarı ədalət və mürüvvət ilə daim və əbədi etsin. Amin, ya müin.

---

[1] Danışıqlar 7 noyabr 1827-ci ildə başladı. İngiltərə və Türkiyənin təkidi ilə şah danışıqları uzadırdı, çünki Türkiyə tezliklə Rusiyaya müharibə elan edəcəyini şaha söz vermişdi.

[2] Rus qoşunları bu müddətdə, yəni 28 yanvar 1828-ci ildə Urmiyanı, 8 fevralda Ərdəbili tutdular.

[3] Türkmənçay sülh müqaviləsi 10 fevral 1828-ci ildə bağlandı.

[4] Müqaviləyə görə İran Rusiyaya 20 mln. manat gümüş pul verməli idi.

XATİMƏ

## XƏVANİNİ-MƏRHUMEYNİN MÜDDƏTİ-HÖKUMƏTLƏRİNİ VƏ QARABAĞDA OLAN TƏMİRATLARINI VƏ MÜDDƏTİ-HÖKUMƏTLƏRİNDƏ ASAR VƏ ADƏTLƏRİNİ BƏYAN EDİR

Çün səneyi 1160/1747 tarixi-islamiyyədə Nadir şahı Xorasanda qətlə yetirdilər. Pənah xan mərhum ki, neçə il ondan irəli Nadir şahdan qaçıb Qarabağa gəlmişdi. Məxfı dağlarda və meşələrdə quldur sayağmda dolanıb, övqat keçirirdi. Elə ki haman ildə Nadir şah məqtul oldu, Pənah xan qorxudan çıxıb, bənayi-hökumət xəyalına düşdü. Haman ildə, Bayat qalasını bina qoyub, xanlıq iddiasına başladı. Nadir şah məqtul olandan sonra Cavanşir və qeyri ellər ki, Nadir şah buradan onları köçürüb Xorasan məmləkətinə və Sərəxs torpağına aparmışdı. Pənah xanın evi və əyalı dəxi onların içində idilər. Təmamən köçüb birgə öz məkanları və vətənləri Qarabağa gəldilər. Xorasanda dəxi Nadir şahın qardaşı oğlu Əliqulu xan cülus edib, özünə Adil şah ləqəb qoyub, Nadir şahın məsnədində əyləşdi. Əmiraslan xanı hakim və sərdar edib, Azərbaycana mənsub edib, gəlib Təbriz şəhərində oturdu. Onun Pənah xan ilə ülfəti vaqe olub, vəsatət etdi. Adil şahdan Pənah xana xanlıq fərmanı verilib, 1161 (1748)-ci ildə Qarabağda hökumətə başlayıb, ətraf və əknaf mahalati-Qarabağı təsərrüfə götürməyə avaz etdi. Bir az zamanda Qarabağa təsəllüd tapıb, müddəti - 12 il Qarabağda istiqlal və hökumət etdi. 1168 (1755)-ci ildə Pənah xan Bayat bazarı mülkünü əsil malikləri Behbudəli bəy və Pənahəli bəy övladi-Sədrəddin sultan vələdi-Məhəmməd xan sultandan satın alıb, 1168-ci ilin zilhiccə ayında qəbalə həm yazılıb, qəbaləsi Mehdiqulu xan evində bu dəqiqə durur. Ondan 4 il Bayat qalasında oturub, sonra isti və aran zəmin olduğu üçün orada güzəran düşvar olmağa görə köçüb, Tərnəkütə gəlib və 1165 (1751) tarixdə dəxi Şahbulaq adlanan məhəldə Tərnəküt qalasını bina və təmir edib, orada sakin oldu. Ondan sonra istiqlal və ixtiyarı və calalı artıq olub, mahalati-xəmseyi-əraminə və qeyri ilat və dihati-Qarabağ ona müti oldular. Bəd əz an 1170 sənədə Vərəndə məliki Məlik Şahnəzərin və pareyi-

əkabir və əyanın məsləhətləri ilə Şuşa qalasını məsihiyyə ili 1753-də təmir və bina edib, şəhər qayırıb, kamali-istiqlal və istiqrar ilə hökumətə əyləşdi. Çünki az müddətdə Adil şahı Xorasanda Nadir şahın nəvadəsi Şahrux mirzə qətlə yetirdi. Özü təxti-səltənətə çıxdı. Onu dəxi bir az müddət keçməmiş, qətlə yetirdilər. Pəs məmaliki-İran məqşuş və pərişan olub, hərc-mərc oldu. Hərə bir iddiaya başladı. Pənah xan dəxi Qarabağda Şuşa qalasında aram və istiqlal ilə oturub, hökumət qıldı. Şul vaxtlarda Şuşa şəhərinə Pənahabad müsəmmi edib, Pənah xan adına orada sikkə çalınırdı ki, indi də məşhur və dillər əzbəridir. Pənah xan 12 il müddəti ki, 1161 (1748) tarixdən, ta 1174 (1760) ilədək[1] Qarabağda hökumət edibdir.

## İMARƏT VƏ ASAR Kİ, QARABAĞDA PƏNAH XANDAN QALIB

Əvvəl Bayat qalasıdır ki, bişmiş kərpic ilə barı və bürc və imarət və hamam və bazarı təmir olunmuşdur. Xarab edib, kərpicin həm aparıb, qeyri yerlərdə məsrəf ediblər. Qarabağın Kəbirli mahalında vaqedir. Dağılıb, indi cüzvi asar və nişanəsi vardır.

İkinci - qəleyi-Şahbulaqdır ki, daş və əhəng ilə çeşmə başmda təmir edib. Çarsu və bazar və məscid və hamam qəsəbə şəhər kimi qayırmışdı, indi dağılıb. Hasarı hənuz möhkəm və baqidir.

Üçüncü - Şuşa qalasıdır ki, onun köhnə barısını bina edib və bu halda olan şəhərin üçdən bir hissəsinə möhkəm hasar çəkmişdi. Qalanın bir kənarmda özünə imarət yapmışdı. Qalaça tək bürc və barılı idi və böyük oğlu İbrahim xana yenə bir təpə üstə öz evinə bərabər imarəti-mərqub yapmışdı ki, düşmən qalaya gələn çağda, lazım yerləri mühafızət edə. O da bürc və barıhdır. İkinci oğlu Mehrəli bəyə və üçüncü oğlu Talıbxan bəyə dəxi qala içində imarət və ev təmir edib ki, bürc-barılıdır. Onlar da indi durur. Hasarı möhkəm məlumdur. Qalanın köhnə barıları dağılıb, şimdi əmnai-dövləti-tazə bina etmişlər. Amma Pənah xanın hasarından bəzi yerlərdə yenə nişanəsi vardır. Pənah xan əsri Pənah xanın bacısı oğlu Lütfəli bəy idi. Əmisi.

---

[1] Əsərdə miladi tarixləri səhv (1744, 1757) göstərilmişdir

oğlanları İsmayıl xan və Behbudəli bəy, Mirzə Əli bəyin atası sərkərdə idilər. Qarabağ Pənah xanın əsrinədək və o zamanda şəhərsiz mahalat və əksəri ilat var idilər. Pənah xan mərhum Şuşa qalasını ki, şəhər bina elədi, ondan sonra tamam Gəncə və Ərdəbil və Qaradağ və Naxçıvan hakimlərinə hökmü işlədi. Ərdəbildə Dərgahqulu bəyi hakim qoymuşdu. Şul xanlarm övladlarından həmişə zaval rəsmi ilə hüzurunda gətirib, saxlardı. Pənah xan, Meğri, Güney mahalatını Bərgüşad çayınadək Qaradağ hakimindən məxuz edib, təsərrüt etdi. Tatef və Sisyan mahallarını Naxçıvan hakimindən (ahb) ixtiyarına keçirdi. Zəngəzur və Qapanat (Qafan) mahallarının Təbriz bəylərbəyisindən xilas edib, öz itaətinə gətirdi. Tərtər çayını Uşacıq günbədindən yuxarı Göyçə sərhədinədək ki, Kolanı məskənidir, İrəvan hakiminə tabe olardılar, hakimi-İrəvandan əxz qılıb, zəbt elədi. Xudafərin körpüsündən, ta Kürək çayınadək Gəncə hakimlərinə aid idilər. Onları həm Gəncə hakimindən mərxuz edib malik oldu. Bunlardan əlavə, ilati-Kəngərli dəstəsi bir minbaşıya tabe olar. Naxçıvandan gəlmədir və Dəmirçi Həsənli həm Gürcüstanda olan Dəmirçi Həsənlidəndirlər, sahibi-rəiyyət və sahibiləva olmuşdular. Bir minbaşıya tabe vardırlar. Cinni tayfası dəxi bir minbaşıya tabe yenə Gürcüstandan gəlmişlər. Təmamisi Pənah xan mərhumdan izzət və hörmət və ədalət görüb, öz xahiş və rizaları ilə onun yanına gəlib və ona müti olublar. Onlara yurd və məskən, yaylaq və aran mühəyya edib, Qarabağda sakin olublar. İxlas ilə Pənah xana xidmət edib, hamısı Qarabağlı mənsub olmuşlar. Və illa Qarabağın əsil ilatı dihatdan savayı Cavanşir və Kəbirli və Otuzikililərdirlər. Qalanları tamam Pənah xan təxti ələ gətirdikdən (sonra) Qarabağ cümləsinə lahəq etmişdir. Mərhum İbrahim xanın əyyami-hökuməti qırx yeddi ilə (yaxın) olub ki, min yüz yetmiş dörd tarixi-islamiyyədən, ta min iki yüz iyirmi bir tarixədək[1] Qarabağda hökumət edib. Əgərçi adı xan olub, amma balaca padşahlar kimi əsası və calalı və ixtiyari-kamil olub, əyyami-hökumətində heç bir padşaha itaət etməyib, xərac verməyib, istiqlal və ixtiyari-təmam ilə hökumət qıhbdır. Ağa Məhəmməd şah Qarabağa qala üstə gəlməmişdən müqəddəm. İbrahim xanın şahlıq əsası var imiş ki, əksər vilayəti-Azərbaycana hökmü cari olub, Naxçıvan,

[1] Miladi tarixi ilə 1760-1806-cı illərə uyğun gəlir

Xoy, Ərdəbil, Gəncə, Şirvan, Talış, Şahsevən, Marağa, Təbriz, hətta Qaplankuhədək İbrahim xana əksər vaxt müti olubdur. Şahverdi xan ki, Pənah xan əsrində Gəncə hakimi idi. Pənah xana müti olub. O vəfat edəndən sonra onun oğlu Məhəmməd xan İbrahim xanın əmri ilə hakim təyin olundu. Əvvəl Tutu bəyim adlı bir bacısını İbrahim xana verib, iki qızı şul həramdən olub, ondan o vəfat edib, ikinci bacısı Xurşid bəyimi yenə İbrahim xan alıb ki, Mehdiqulu xan o Xur-şudbanu bəyimdən olubdur. O cümlədən Mustafa xanı Şirvanda İbrahim xan mənsub edib, Şəkidə Səlim xanı və qardaşı Məhəmmədhəsən xanı yenə İbrahim xan hakim mənsub eləyib, Talışda Mir Mustafa xanı həm İbrahim xan nəsb edib, İbrahim xan mərhumun Qarabağda və sair vilayətlərin müti olanlarından əlavə, oruz beş minədək ev itaətində olub. On iki minədək dəftəri-məxsusi qoşunu var idi ki, həmişə zira-hökmündə və adları siyahı və dəftərdə yazılmış qoşun idi. Amma zərurət vaxtı öylə rəşid adamlar, çerik və tüfəngçi hazır olardılar. Dağıstanın Avar hakimi Ümmə xanın bacısı Bikə ağanı da almışdı, çox şirin qohum idilər. Hər vaxt xahiş edəndə, Dağıstandan və ləzgi qoşununu götürüb bir yerdə düşməni olsa, onlara tənbeh və siyasət edib, özünə müti edərdi. İbrahim xan əlavə çox xanların qızların alıb və qız verib qohum olmuşdu. O cümlədən Şahsevən xanı Nəzərəli xanın bacısını əvvəl almışdı ki, ondan üç qızı olmuşdu. İbrahim xanın calal və hökuməti həmişə artıq olub, ta ki, Ağa Məhəmməd vaxtıvadək. Elə ki Ağa Məhəmməd şah Qarabağa gəlib, bu vilayətləri xarab və aclıq etdi. Ondan sonra xarablıq olub, əksər xalq vilayətlərdə əfsurdə olub dağıldüar. Pərişanlıq əmələ gəlib, xanın calalı və hökuməti və ümuru və vilayəti bir az kəsir və qüsur və nəqs və fütur hasil etdi. Amma Fətəli şah İranda cülus edəndə yenə İbrahim xana hörmətlər və mərhəmətlər çox edirdi. Qızı Ağa Bəyim ağanı alıb, qohum olmuşdu. Qaradağın vilayətinin təmam mədaxilini İbrahim xana vermişdi. Qarabağ dəxi təmam özunün xalisəsi idi. Ta ki, İbrahim xan Rusiya imperatoru Aleksandr Pavloviçə itaət edənədək, Qaradağ hakimlərini yenə İbrahim xan təyin edirdi.

## ASAR VƏ İMARƏT Kİ, MƏRHUM İBRAHİM XANDAN QALIBDIR

Əvvəl, Şuşa qalasının sabiq divan və bansı idi ki, üç il müddəti yaxşı mühəndis peşə ustadları tərəfindən təmir olub, 1198 (1783-84)-ci ildə itmam bulmuşdu. Sonra əmnai-dövləti-Rusiya pozub əlavə yaxşı möhkəm bina və təcdid etdilər. Amma yenə bəzi məhəllələrində xanın təmiratından əsər və nişanəsi hənuz baqi qalmışdı.

İkinci, qalada vaqe böyük məscidi-camedir ki, daş və əhəng ilə səneyi 1182 (1768-69)-ci tarixdə təmir etmişdi. Amma sonra köhnə olmuşdu. 1281 (1864-65)-ci ildə öz mükərrəmə qızı Gövhər ağa təcdidi-imarət qılıb, yaxşı artıq möhkəm səliqə ilə təğdidən təmir elədi və iki ali minarə müzəyyid elədi. Əlavə bir qeyri məscid dəxi Gövhər ağa mərhumə qalada tikib. O hər iki məscidə dünyadan gedəndə çox kəndlər və əmlak və mədaxil və pul vəqf edibdir ki, indi də şul vəqfiyyat davam edir. Gövhər ağadan sonra haman xərc ilə Gövhər ağanın ikinci məscidini mühəndis Kərbəlayı Səfi xan Qarabağinin səy və sənəti ilə əlavə, xoş səliqə ilə möhkəm təmir edirlər. Bu 1290 (1873)-cı ildə çox mərqub və pəsəndidə olubdur.

Üçüncü, İbrahim xanın təmiratında iki mərqub imarətlər idi ki, öz evləri idi. Birisində Xurşidbanu bəyim, Mehdiqulu xanın anası sakin olardı. Birisində Ümmə xan Dağıstanlının bacısı Bikə ağa olurdu. Onların birində şimdi Mehdiqulu xanın evi sakindir. Birisində Əhməd xan evidir. Sonra təcdidi-imarət ediblər. Xanın divanxana evini dəxi şimdi qoşun kilsəsi edib, mərqub kilsə bina ediblər.

Dördüncü, Ağdam kəndində bağlar və hasarlar və üç günbəzi-alidir ki, Pənah xanın və sair övladlarının qəbirləri üstündə bina etmişdi. Böyük çarsu damları var ki, Pənah xanın atası İbrahimxəlil ağanın qədimi ocağı və evidir ki, yonma daş ilə tağbənd təmir olunmuşdu. Amma Ağa Məhəmməd şah gələndə o səmtdə ordu eləmişdi. Tiflis təsxirinə gedəndə günbəzləri və evləri xarab etmişdilər. Sonra mərhum Mehdiqulu xan irəlidən yaxşı təmir elədi. Dəxi bir ehsan bağı orada təmir olunub. Ətrafı hasar və barılı və bir böyük buzxana həm təmir olub. Yenə ehsan üçün və o məqbərələrə vəqf olunub ki, səhra xalqı ilat və dihat yay mövsümü və biçin vaxtlarında aparıb, sərf edərlər. Arazlılara götürüb məsrəf edirlər. Əlbəttə ki, min yük

buz və bəlkə ziyadə məsrəf olur. Yaxşı ehsandır. Bunları mərhum Mehdiqulu xan təcdidi ziyadə edibdir.

Beşinci, Xan bağmdakı imarətlərdir ki, qəleyi-Şuşanm bir ağaclığında vaqedir. Bağlar və tövlələr və buzxana və dəyirmanlar və arxlar bina edib qayırmışdı. Nəhayət, 1826-cı ildə Qızılbaş qoşunu gəlib, tamam onlan yandınb, xarab etmişdilər. Amma sonra fərzəndi-ərşədi Mehdiqulu xan ziyadə səliqə ilə təmir edib, yaxşı karvansara və dükanlar həm orada təmir etmişdir.

Altıncı, İbrahim xanın bir ümdə əsəri dəxi Əsgəran dağının iki qalasıdır. Çünki Şirvan və Şəki və Dağıstan xalqı Pənah xan ilə düşmən idilər. Ehtiyatən vəsiyyət elədi ki, hərgah mənə fürsət olmasa, gərək mənim oğlum İbrahim Xəlil bu iki dağın arasında iki qala təmir edə ki, düşmənçilik vaxtında Əsgərandan, ta Şuşa qalasınadək iyirmi səkkiz verst olur. Və ətraf möhkəm meşə və qayalı dağlardır ki, böyük dərələr və səhralar vardır. İlat xalqı o dağlarda və dərələrdə sığınaq edib, Əsgəran qalalarında qoşun və tüfəngçi qoysalar, düşmən keçib qala üstə müşkül gələ bilər. Əgər gələ bilsələr də, çəpavül edib, mal-məvaşi qarət edib, apara bilməzlər. Ona əsasən İbrahim xan iki qala - biri məşriq tərəfindən və birisi məğrib tərəfindən əhəng və daş ilə bürc və barını möhkəm təmir elədi. Belə ki, Ağa Məhəmməd şah qala üstən köçüb Tiflisə gedən vaxtda o qalalardan keçib gedə bil-mədi. İyirmi gün müddəti Şuşa qalası ilə Əsgəran arasmda şahın qoşunu məəttəl qaldı. Nə qədər ki, böyük toplarını o qalaya atdı, bir zərər edə bilmədi. Orada çox adamlar qətlə yetişdi. Çox zərər və nöqsanlar oldu. Axırül-əmr, İbrahim xan əmr eylədi, qoşun oranı boşaldıb, Şuşa qalasına gəldilər. Ondan sonra şahın qoşunu oradan keçib gedib, Qarqar çaymın kənarında yavuq ordu elədilər.

Yeddinci, Şuşa çayının Xəzinə qayasında, qayanın ortasında qırx-əlli sajin yer, eni və uzunu olan məqamda ki, oradan çaya yüz sajin və ondan yuxarı qayanın başına beş yüz sajin iltifa olub, otaqlar təmir etdirir ki, məhz qayanın arası ilə o otaqlara bir nazik yol gedir. O da piyada yoludur. Qalan yerləri tamam qayadır. Yol yoxdur. Qalanın içindən şul imarətlər olan yerə qayanın başından tüfəng atsalar, çətinlik ilə yetişir. Qayanın üstündən şul yerə daş və qaya salsalar, o imarətləri görməz, çaya gəlir. Yenə onun qənşərində Şuşa qalası tərəfində bir böyük mağara vardır ki, dərinliyi məlum olmaz. Onun

ağzına yavuq Məlik Şahnəzər özünə otaqlar və evlər tikdirib ki, xanın o imarətləri ilə qabaq-qabağa ki, düşmənçilik vaxtı olanda o imarətlərdə olanlar bir-birinə himayət edib, düşməni qoymayalar və aralarından Şuşa çayı axıb gedir ki, çayı və suyu düşmən kəsə bilməz. Belə ki, 1826-cı məsihiyyə ilində naibüssəltənə Abbas Mirzə qoşun ilə Qarabağa, qala üstə gələn vaxtda Şuşa kəndinin xalqı o Məlik Şahnəzərin mağara ağzmda olan imarətlərində sığınaq etmişdilər. Qalaya gəlib-gedirdilər. Qoşunun və şəhər əhlinin taxılını aparıb, un edib, gətirirdilər. Çaydakı dəyirmanları onların səbəbinə Qızılbaş qoşunu ala bilmədi. Qalaya külli nəfi oldu.

## MƏRHUM MEHDİQULU XANIN ƏYYAMİ-HÖKUMƏTİ

General-mayor sahibi-həmail mərhum Mehdiqulu xan 17 il Qarabağda xanlıq və hökumət edibdir. Belə ki, çün mərhum İbrahim xan məqtul oldu mayor Lisaneviç pristavit etməyinə görə 1806-cı ilin sentyabr ayının 19-cu günü imperaturi-əzim Aleksandr Pavloviç peyrəvidən fərmani-hümayun sadir olub, Qarabağın əhlinə yazıhb ki, Mehdiqulu xanın xanlıq və hökumət əmrinə mənsub etdim. Onun itaətində olasımz. Xan dəxi haman ildən hökuməti-Qarabağa mənsub olub, müddəti - 17 il və bir neçə ay ziyadə hökumət qılıb, ta ki, 1823-cü ildə ki, məğşuşluq olub, Arazın o tərəfinə Qızılbaşa qaçdı. Ondan vilayəti-Qarabağ dövləti-Rusiya ixtiyanna yetişdi. Zakon və zabitə qeyri səyaq olundu. Mehdiqulu xan çox səxavətli və güzəştli və kərim kimsənə idi ki, əyyami-hökumətində tamam Qarabağda olan nücəba və nüğəvalara və qeyrilərə kəndlər və rəiyyətlər verib və qürəbalara və üləmalara və fuqəralara ehsan və iltifat çox eyləyibdir. Dəxi əhvalat riyasəti-dəftərlərdə və dillərdə mənkur və məlumdur.

Xofı-tətvil üçün ziyadə yazılmadı. Mehdiqulu xana imperator Nikolay peyrəvidən həmail nişanı və hörmət fərmanı 1838-ci ilin oktyabr ayının 30-cu günü verilib, yetişmişdi.

**RZAQULU BƏY MİRZƏ CAMAL OĞLU**

# PƏNAH XAN VƏ İBRAHİM XANIN QARABAĞDA HAKİMİYYƏTLƏRİ VƏ O ZAMANİN HADİSƏLƏRİ

## RZAQULU BƏY MİRZƏ CAMAL OĞLU

Rzaqulu bəylə Mirzə Camal oğlu Vəzirovun həyatı yaxşı öyrənilməmişdir. Mənbələrdən məlumdur ki, o, XIX əsrin əvvəllərində Tiflis şəhərində praporşik vəzifəsində işləmişdir. Adolf Berje Mirzə Camalın "Qarabağ tarixi" əsərini ruscaya tərcüme edib 1855-ci ildə "Kavkaz" qəzetində çap edərkən Rzaqulu bəydən atasının tərcümeyi-halını almışdır. A.Berje yazır ki, onu Rzaqulu bəylə Mirzə Fətəli Axundov tanış etmişdir.

Rzaqulu bəy özü yazdığı kimi atası Mirzə Camalın "Qarabağ tarixi"ni xülasə etmiş və əsərə bəzi əlavələr etmişdir. Rzaqulu bəy ədəbiyyat tarixi üçün elmi maraq doğuran daha iki əsər yazmışdır:

1. "Müqəddimati-keyfiyyəti bəzi əhvalat və sərgüzəşti Axund Molla Əlipənah Vaqif təxəllüs".

2. "Müqəddimati-sərgüzəşti Qasımbəy Zakir təxəllüs mərhumun bəzi əhvalatları". Rzaqulu bəy Mirzə Camal oğlu Vəzirovun oxuculara təqdim olunan həmin əsəri Azərbaycan SSR EA-nın Əlyazmaları İnstitutunda mühafizə olunan (B-470 nömrəli şifrli, inv. № 2088) farsca əlyazmasından tərcümə olunmuşdur.

...Əql və bilik sahiblərinə gizlin və örtülü deyildir ki, hər vilayətin keçmiş vaqiələrini, hadisələrini, vəziyyət və keyfiyyətini bilib, onlardan xəbərdar olmaq məlumatın artmasına səbəbdir. Xüsusən bu, qüdrətli hakimlər üçün çox faydalıdır.

Ona görə də bu həqir fədakarın atası Qafqaz məmləkətinin məşhur adlı-sanlı alimləri və Rusiyamn şövkətli dövlətinin qədim sədaqətli işçilərindən olan Qarabağ vilayətinin xanları dövründə həmişə səlahiyyətli kargüzar olub, yüksək və şövkətli dövlət başçılarının yanında xidmət etmiş, əziz və möhtərəm tutulan vəzir Mirzə Camal bəy Cavanşir dövlət başçılarma öz məhəbbət və bəndəliyini göstərmək məqsədilə Qarabağ vilayətinin əhvalatını doğru və dolğun bir tarix şəklində yazıb, onların şanlı hüzurlarma təqdim etmiş, lütf və ehsanə nail olmuşdu.

Şərafətli və yüksək nəslə mənsub olan hökmdar, şahzadə Velikii knyazın - onun yüksək olan calalı daimi olsun - vücudu bu ölkelərin ümidvar və başıuca olmaq istəyən əhalisi üzərinə şahın iltifat nurunu saçdığı sədaqətli bir dövrdə bu fədakar praporşik Rzaqulu bəy mərhum Mirzə Camal bəy oğlu yuxarıda adı çəkilən öz atasının yolu ilə getməyi vacib bilərək, onun yazdığı tarixi, oxucunun şövqini artıran xoş və qəşəng ibarələrlə xülasə edib, əlahəzrət şövkətli və şərufetli şahzadəyə - onun yüksək olan calalı daimi olsun - hədiyyə etdi ki, yazdığı bu tarix vasitəsilə bu fədakarın yüksək və şövkətli dövlətə qarşı olan qədim sədaqətli və bəndəliyi onun günəş əsərli nəzərinə çatsın. Xoşlayıb qəbul edəcəyinə və hədiyyənin kiçikliyinə göz yumacağına ümidvaram.

B ey t:

Bağışlamaq Süleymana bir çəyirtkə ayağın
Eyb olsa da, lakin bu iş qarışqa üçün hünərdir.

## QARABAĞ VİLAYƏTİNİN VƏZİYYƏTİ, SƏRHƏDLƏRİ VƏ İQLİMİ HAQQINDA

Qədim tarixlərdə yazıldığı üzrə Qarabağ vilayəti Araz çayının Xudafərin körpüsündən, indi Qazaxla Dəmirçi Həsənli (kəndi) arasında sərhəd olan və Rusiya dövlət başçılarının Qızıl körpü və ya Krasnıy most dedikləri Sınıq körpüyə qədər olan məsafədən ibarətdir. Qərb tərəfi Qarabağ dağları, Gəncə, Şəmsəddin, Qazax mahalıdır. Cənub tərəfi Araz çayı; şimal tərəfi Kür çayı, Şərq tərəfi isə Cavad kəndidir ki, burada Kür və Araz çayları birləşərək, gedib Xəzər dənizinə tökülür.

Nəhayət, vilayətdə baş verən iğtişaşlarla əlaqədar olaraq İran, Rum və Türküstan padşahları buralara gəlib bu vilayətləri ələ keçir-dikdə əlahiddə sərhədlər qoymuş, qalalar tikdirmiş və onlara ayrı-ayrı adlar vermişlər.

Hal-hazırda, Qarabağın müəyyən edilmiş sərhədi cənub tərəfdən Araz çayı və şimal tərəfdən Gəncə sərhədində olan Kür çayıdır. Qarabağ vilayətinin eni bu iki çay arasındakı məsafədən ibarətdir. Xanlar dövründə ölçülüb hesablandığı üzrə 26 mildir (1 mil 7 verstdir). Şərq tərəfdən Cavad kəndi və qərb tərəfdən Güşbək, Salvartı və Ərikli adlanan Qarabağ dağlarıdır. Qarabağ vilayətinin uzununu təşkil edən bu dağların boyu 39 mildir.

Qarabağ vilayəti Aran məmləkəti vilayətlərindən biridir. Nuh peyğəmbərin tufanından uzun müddət keçdikdən sonra Kür və Araz çayları arasında Tiflis, İrəvan, Gəncə, Naxçıvan, Ordubad, Qarabağ torpağında olan Bərdə və Bəyləqan (indi Bəyləqan şəhəri xarabadır və Bərdə şəhərinin yerində Bərdə rəiyyətindən bir kəndin əhalisi qədər camaat qalmışdır) şəhərlərindən ibarət nə qədər vilayət və şəhərlər varsa, hamısma Aran demişlər. Nuhpeyğəmbərin övlad və nəvələrindən Aran adlı birisi bu vilayətlərdə hökmranlıq etmiş və özünün adını bu mülkə və vilayətlərə qoymuşdur.

Qarabağda ilk əvvəl bina olunmuş şəhər Bərdə şəhəri və qalasıdır. Bərdə Tərtər çayının başında, cənub tərəfdən Kürün 3 verstliyindədir. Lakin hicri 36-cı (miladi 656-657-ci illərdə) bəniümeyyə xəlifələrinin Dəməşqdə xəlifəlik etdikləri dövrdə Bərdə şəhərinin əhalisi müsəlman oldu.

Ondan sonra Bəyləqan şəhəridir. Bu şəhəri İran və Fars padşahlarından Qubad padşah, təxminən 1500 il bundan əvvəl bina etdirmişdir. Araz çayınmdan bir böyük arx çəkdirmişdir. Bu arx, Köndələn çayından tutmuş Qarqar çayına qədər Bəyləqanın təxminən 6 ağacdan ibarət olan geniş səhrasını suvarırdı. Qubad padşah bu səhrada kəndlər saldırmış, rəiyyətlərə yer və məskən vermişdi. Bu yerlər başdan-ayağa əkin və bağ idi. Haman arxın adı qədim tarixlərdə Barlas idi, indi isə Kovurarx adı ilə məşhurdur. Bu şəhər, kəndlər və arx Çingiz xanın dövrünə qədər abad idi.

Monqol Çingiz xanın qoşunu hicri 635-ci, miladi 1239-cu ildə[1] gəlib buranı mühasirə etmiş və bir neçə aydan sonra şəhəri tutaraq bütün xalqını qırdı. Bu vilayətin kəndliləri isə Qarabağ və Şirvan dağlarına dağıldılar. Bəyləqan şəhəri və haman böyük arx, Teymurun Türküstandan Rum vilayəti üzərinə hücum edərək müharibədə oranın hakimi Soltan Bayazidə qalib gəlincəyə qədər xaraba halında idi. Teymur oradan qayıtdığı zaman Bəyləqanı yenə əvvəlki kimi abad etdi. Oraya çoxlu əhali topladı və haman arxı təkrar şəhərə çəkdirdi. Bir müddət bura abad idi. Səfəvi padşahları və Nadir şah dövründə qoşunların Gürcüstan və Şirvan tərəflərinə yürüşündən və Tiflis, Gəncə, Qarabağ, İrəvan və Naxçıvanı zəbt etmiş osmanh dövləti qoşunları ilə edilən müharibədən Bəyləqan təkrar viran oldu və əhalisi dağıldı. İndi arx xaraba halındadır.

Doğrudan da bu çox mənfəət verən böyük bir arx idi. Bu arxdan suvarılan taxıl, çəltik və pambıq əkinləri, ipək qurdu üçün salınmış tut bağları və başqa bitkilərin zəmiləri bol məhsul verə bilər. Demək olar ki, bir çetvert[2] buğdadan 20 çetvertdən artıq məhsul əldə etmək olar. Xüsusilə, çəltik və darı əkilərsə, təxminən bir çetvertindən əlli çetvertdən artıq məhsul götürmək olar. Əkməyi də asandır. Belə ki, bu işi iki baş öküzlə yaxşıca görmək olar. Əgər bu yerlərdə qayda-qanunla arxlar çəkilsə, yəqin ki, 5-6 min ailə özləri üçün kəndlər və bağlar salaraq gen-bol yaşaya bilərlər.

Bu böyük arxdan başqa, qədim zamanlarda Araz çayından Bəyləqan şəhəri çölünə bir neçə arx da çəkdirilmişdi. Hər arxın başında

---

[1] Hicri 635 - miladi 1237-1238

[2] Bir çetvert-250 puddur.

100-200 evdən ibarət böyük və abad kəndlər var idi. Bu kəndlər taxıl, çəltik, ipək və pambıq məhsulundan çoxlu mənfəət əldə edirdilər.

Bəyləqan şəhəri 300 il bundan əwəl xarabalıq olduğuna baxmayaraq, mərhum Pənah xan və İbrahim xan hakimiyyətinin ilk dövrlərində bu arxlar abad idi, mərhum xanlar bu arxların gəlirindən faydalanırdılar. Arxların adları belədir:

1. Kürək arxı; 2. Luvar arxı; 3. Meymənə arxı; 4. Gəmiçi arxı; 5. Sarı arx; 6. Ayaz arxı; 7. Qaşqay arxı; 8. Xan arxı.

Doğrudan da Qarabağ vilayətinin abı-havası yaxşılıqda, təmizlikdə və gəlirdə cənnət kimidir və olduqca məhsuldardır. Əgər Qarabağ vilayətinin rəiyyətləri sair vilayətlərin rəiyyətləri kimi gəlir əldə etməyə və əkin işlərinə səy və cəhd etsələr, həddindən artıq varla-narlar. Camaatın tənbəlliyinə baxmayaraq, Qarabağ vilayəti Rusiya dövlətinin himayəsi altına daxil olandan və İran dövləti ilə sülh bağlandığı tarixdən etibarən hər tərəfdə rahatlıq və asudəlikdir.

Yüksək olan Allaha şükür olsun ki, Rusiyanın mərhəmətli böyük imperatorunun və əziz xaqanının əbədi olan dövlətinin bərəkətindən burada çoxlu bağlar salınmış, zəmilər əkilmiş, arxlar çəkilmiş, mal və heyvan misli görünməmiş bir dərəcədə artmışdır. Adamlar çox zaman, qədim vaxtlardan bəri Qarabağa mənsub olan ata-baba yaylaqlarına və qışlaqlarına yiyələnə bilmirdilər. Şükür olsun Allaha, indi onlara sahib olub, tam xatircəmlik və firavanlıqla yaşamağa nail olmuşlar. Onların dövləti, mülkü, mal-qarası ildən-ilə artmaqda və yaşayışları yaxşılaşmaqdadır. O cümlədən Şuşa şəhərini göstərmək olar. Şuşanın bazarı, küçələri və ali imarətləri böyük imperatorun əbədi dövlətinin sayəsində həddindən ziyadə genişlənmiş və artmışdır. Şuşa şəhərinin xoş havası və qalasının möhkəmliyi məşhurdur. Onun misli heç bir məmləkətdə görünməmişdir.

Allah rəhmli və ədalətli padşahın mərhəmətini bu yerin əhalisinin başının üstündən əskik eləməsin. Əlahəzrət böyük imperatorun və əziz vəliəhdin rəhm və mürvətini ümum sədaqətli nökərlərinə və xidmətçilərinə aid eləsin. Padşahın vilayətinin əhalisinə bədbəxtlik və səadətsizlik nəsib etməsin. Amin.

## QARABAĞ VİLAYƏTİNİN TƏBƏƏLİYİ HAQQINDA

İranda olan Səfəvi padşahlarının dövründə Qarabağ vilayətinin elləri, Dizaq, Vərəndə, Xaçm, Talış və Çiləbörddən ibarət olan erməni Xəmsə mahalları mərhum Nadir şahın dövrünə qədər Gəncə bəylər-bəyisinin hökmünə tabe idi. Cavanşir, Otuziki və Bərgüşad elləri içərisində kiçik xanlar olmuşsa da onların da hamısı Gəncə bəylərbəyisinin hökmünə tabe idi. Mərhum Nadir şah Tiflis, Gəncə, İrəvan, Naxçıvan və Qarabağ vilayətlərini Rum qoşununun və əhalisinin əlindən ahb öz ixtiyarına keçirdikdən sonra Qarabağ vilayəti, az da olsa yenə bir müddət Gəncə bəylərbəyisinin hökmünə tabe olaraq qalmışdı. Arabir Azərbaycan sərdarının hökmü altına da düşürdü. Hər elin və mahalın özünəməxsus xanı, məliki və sultanı var idi. Bunlar, Azərbaycan sərdarının əmri üzrə padşahın xidmətini yerinə yetirirdilər. Bu vəziyyət Nadir şahın öldürüldüyü 1160 (1747)-cı ilə qədər davam edirdi.

## İBRAHİMXƏLİL AĞANIN OĞLU MƏRHUM PƏNAH XAN CAVANŞİRİN QARABAĞ VİLAYƏTİNDƏ MÜSTƏQİL HÖKUMƏT SÜRMƏSİ HAQQINDA

Mərhum Pənah xanın əsil-nəsəbi Dizağın Cavanşir elindəndir. Bu el qədim zamanlarda Türküstandan gəlmiş Bəhmənli elinin bir qolu olan Sarıcalı oymağmdandır. Bu oymaq böyük Əfşar elindən, Əfşar eli dəxi böyük Türkmən elindəndir. Qeyd etmək lazımdır ki, mərhum Pənah xan hökumət qurmaq fikrinə düşdüyü zaman, Qarabağ kəndlərinin və ellərinin əhalisini öz başına toplamağa başladı. İranda hökmü keçən nüfuzlu, müstəqil padşah olmadığından, həm də Gəncə hakimi[1] öz hökmünü Qarabağ ellərində və kəndlərində yeridə bilmədiyindən Pənah xanın başına toplananlar, habelə Pənah xanın ələ keçirdiyi bütün mahallar, o vaxtdan başlanmış, xanın ölən gününə qədər; həmçinin mərhum İbrahim xanın müstəqil hökmranlıq etdiyi

[1] Qarabağ bəylərbəyliyi nəzərdə tutulur.

zamandan başlayaraq Qarabağ vilayətinin və Şuşa qalasının öz razılığı və rəğbəti ilə müharibəsiz böyük Rusiya dövlətinə qoşulduğu günə qədər[1] heç bir padşaha, istər az və ya çox xərc və vergi verməmişlər.

Onların ata-babası Cavanşir eli içində çörəkli, adlı-sanlı və məşhur adamlar olmuşlar. Nadir şah Qarabağ, Gəncə, Tiflis və İrəvanı ələ keçirdiyi vaxtlarda ellər və kəndlərdə olan igid, iş bilən və bacarıqlı adamları öyrənib, onları öz yanında qulluğa götürər, hörmət, mənsəb və məvacib sahibi edərdi. O cümlədən Cavanşir elləri içində Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə məşhur olan Pənah xan idi. O, bir çox məşhur işlərdə ad qazanmışdı. Müharibədə öz tay-tuşundan hünərli idi. Xüsusən, mərhum Nadir şahın Rum qoşunları ilə müharibəsində ad qazanmışdı. Ona görə də Nadir şah Pənah xanı öz yanına aparmışdı. Pənah xan sarayda və səfərdə sədaqətlə xidmət etməyə çalışırdı, mənsəb və hörmət sahibi olaraq, özünə həvalə olunan işləri yerinə yetirirdi.

Neçə müddət bu qayda ilə çalışdıqdan sonra Nadirin ona qarşı mərhəməti artdı. Öz tay-tuşunun arasmda rütbə və mənsəb cəhətdən yüksək mövqe qazandı. Şahın sarayında olan bir para fitnəkarlar və Qarabağ ellərinin Xorasanda olan bəzi kəndxudaları paxılhqdan gizlində və aşkarda xanın pisliyinə o qədər damşırlar ki, axırda Nadir şahın ürəyi Pənah xandan soyudu. İşin həqiqətini bilən Pənah xan, canınm qorxusundan şahın Xorasanda olmasmdan istifadə edərək, yaxm adamlarından və qohumlarından bir neçə nəfərin özü ilə götürüb hicri 1156 (1743)-cı ildə qaçıb Qarabağ vilayətinə gəldi.

Onun qaçmasından xəbər tutan şah, bəlkə yolda tutarlar deyə, ardınca athlar saldırdı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə təkidlə fərmanlar yazıb hökm etdi ki, Pənah xanı hər yerdə tapsalar, tutub şahın hüzuruna göndərsinlər.

Şahın hökmü ilə Pənah xanın Qarabağdan Xorasana köçürülmüş ailəsini və sair qohumlarını çox incitdilər və cərimə etdilərsə də bir fayda vermədi. Mərhum Pənah xan Qarabağa gəldikdən sonra vaxtını yaxın adamları ilə birlikdə gah Qarabağ dağlarında, gah da Şəki vilayətinin Qəbələ mahalında keçirirdi. Pənah xanın o vaxtlarda 15 yaşına çatmış Xorasanda öz evlərində qalan böyük oğlu İbrahim-

[1] 1805-ci il Kürəkçay müqaviləsi nəzərdə tutulur.

xəlil ağa bir neçə müddətdən sonra atasının dalınca Qarabağa gəlib, həmişə onun yanında yaşayırdı. 2-3 il bu qayda üzrə dolandı.

Hicri 1160 (1747)-cı ildə Nadir şah öldürüldükdən sonra Pənah xan Qarabağın yerdə qalmış əhalisi içərisində meydana çıxdı. Bacarıqlı cavanları başına toplayıb, Gəncə və Naxçıvan tərəflərini qarətə başladı. Yanında olan cavanların və yaxm adamlarının hamısınınvəziyyətini yaxşılaşdırdı. Onları at, paltar və mal sahibi etdi.

Bu zaman şahın əmri ilə köçürülüb, Xorasana aparılmış Cavanşir və sair ellərin adamları özbaşına köçüb, vətənləri olan Qarabağ vilayətinə gəlmələri xəbəri Pənah xana yetişdi. Pənah xan yanında olan adamları götürüb, Azərbaycan və İraq sərhədlərinə kimi onları qarşılamağa getdi. Hamı bir-birləri ilə görüşdü. Cavanşirin və başqa yerlərin elləri, qohum və dostlar Pənah xanı səlamət görüb, xoşhal və şad oldular və Pənah xanla birlikdə Qarabağ torpağına daxil olub, hər kəs öz yurduna gedib rahatlandı.

Ellərin əhalisi bütünlüklə qarət olunub yoxsul vəziyyətə düşdüklərindən mərhum Pənah xan ellərin və qohum-qardaşlarının bacarıqlı cavanlarını öz başına toplayıb hamısınm vəziyyətini yaxşılaşdınb varlandırdı. Əhalinin bəzisinə mal, at və xalat bağışlamaqla, itaət etmək istəməyənləri isə tutmaq və öldürmək vasitəsilə özünə tabe etdi. Cavanşir, Otuziki başqa ellər və kəndlərin əhalisindən heç biri onun hökmündən çıxa bilməzdi.

Şirvan və Şəki hakimləri Pənah xanın Qarabağda bu cür müstəqil olduğunu görərək, onu özlərinə zərərli bildilər və mərhum Pənah xanı məhv etmək üçün aralarında ittifaq yaratdılar. Pənah xan hələ Qarabağın Xəmsə mahalları ona tabe olmadığı zaman, ətraf xanların ona hücum edəcəkləri ehtimalını nəzərdə tutaraq, evini, əyalını, qohumlarını, qulluqçularını, yaxın adamlarını və böyükləri qorumaq üçün münasib yerdə bir qala tikdirməyi zəruri hesab edirdi. Yaxın adamları ilə müşavirədən sonra indi Kəbirli mahalında olan Bayat qalasının binasını qoydu. Az müddət içərisində onun ətrafına möhkəm hasar və xəndək çəkdirdi. Bu qalada bazar, hamam və məscid tikdirdi. Bütün ailəsini, qohum-qardaşını və elin böyük adamlarını oraya yığdı. Ətrafdan da, hətta Təbriz və Ərdəbil vilayətlərindən mərhum Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən, çoxlu sənət sahibləri öz ailələri ilə birlikdə gəlib, Bayat qalasında yerləşdilər. Bayat qalası hicri 1161 (1748)-ci ildə tikildi.

Mərhum Pənah xan Bayat qalasını möhkəmləndirib, oraya çoxlu adam topladıqdan sonra onun adamlarından və qoşunundan çoxlu zərər görmüş, Şirvan və Şəki hakimləri öz aralarında Pənah xana qarşı birləşərək, Bayat qalası üstünə gəlib, oranı mühasirəyə aldılar.

Mərhum Pənah xan adlı-sanlı atlıları, özünün igid qohum-qardaş və bacarıqlı nökərləri ilə hər 2-3 gündən bir qaladan dışarı çıxaraq, qala ilə düşmən qoşunu arasında olan geniş meydanda dava edib, qəhrəmanlıqlar göstərir və döyüşdə Şirvan və Şəki qoşunlarına qalib gələrək yenə qalaya qayıdırdı. Şəki və Şirvan xanları heç bir iş görə bilmədilər. Mühasirənin müddəti bir aydan çox çəkdi. Hər gün qoşunlarının qırılmasını, atlarının və ulaqlarının qarət olunmasını görən xanlar peşman və pərişan halda köçüb, hərə öz vilayətinə qayıtdı. Qayıdan zaman Şəki hakimi Hacı Çələbi bu sözləri dedi: “Pənah xan bir xan idi. Biz gəlib onunla dava etdik və heç bir iş də görə bilmədik. Biz indi onu şah edib qayıdırıq”.

Bu hadisədən sonra mərhum Pənah xanın işi, istiqlalı, hökuməti yüksəlməyə üz qoydu. O, Xəmsə mahallarını özünə tabe etmək fikrinə düşdü.

## XƏMSƏ MAHALLARINI TABE ETMƏK MƏSƏLƏSİ HAQQINDA

Əvvələn, Vərəndə mahalınm qədim məliki olan Məlik Şahnəzər, Çiləbörd, Talış və Dizaq mahallarınm məlikləri ilə ədavəti və düşmənçiliyi olduğundan mərhum Pənah xana tabe olmaq təkliflni qəbul etdi və ona olduqca sədaqət və səmimiyyət göstərdi. Pənah xan da belə böyük və hörmətli və dövlətli şəxsin tabe olmasını özü üçün xoşbəxtlik sanıb, ona qarşı hörmət və ehtiramı gündən-günə artırırdı.

Xaçın mahalının məliki bir neçə müddət düşmənçilik edib, tabe olmamağa cəhd etdisə də, nəhayət, təslim olub, Pənah xana itaət etdi. Pənah xan onu ata-babasmdan qalmış, indi də mövcud olan əlahiddə mülkünə məlik etdi. Xaçm mahalmm bütün əhalisi Pənah xana tabe oldular və tapşırılan xidmətləri düzgün yerinə yetirməyə başladılar. Dizaq, Çiləbörd və Talış mahallannın məlikləri bir neçə ili düşmənçiliklə başa verdilər. Nəhayət, (xan, onları da) öldürmək, qarət etmək və s. lazımi tədbirlərlə özünə tabe etdi.

Bayat qalasında beş il qaldıqdan sonra ətrafı düşmən bürüdüyündən, Bayat qalasında qalmaq həmişəlik şəhər salmaq və qala tikdirmək məsləhət bilinmədi. Dava zamanı Qarabağ elləri mal və heyvanlarını düşmən ziyanından möhkəm, keçilməz dağlarda qoruya bilmələri üçün Qarabağ dağlanna bitişik bir yerdə qala tikilməsi lazım bilindi.

Ən əwəl Şahbulaq üsründə olan, mərhum Pənah xanla daima düşmənçilik edən Xaçın mahalı əhalisinin fəsadını aradan qaldırmaq məsələsi vacib olduğundan (xan) ath və piyada qoşunla onlann üstünə getdi. Xaçın mahalının iki min nəfər tüfənglidən ibarət olan əhalisi öz ailələri ilə birlikdə Balhqaya ətrafında keçilməsi çətin olan bir yerdə sığınacaq və səngər qurub Pənah xana qarşı dava etməyə hazırlaşdılar. Mərhum Pənah xan onların səngərlərinə yürüş etdi. Hər iki tərəfin qoşunu üç gün ara vermədən vuruşdu, üçüncü gün Pənah xan onların səngərlərini tutdu. Onlann kişilərindənbir qədərini öldürdü...

Belə bir keçilməz, möhkəm yerin və iki min nəfər tüfənglinin səngəri Pənah xanın əlinə keçdikdən sonra ətrafdakı əhalinin və Xəmsə mahalları camaatımn canına qorxu düşdü. Onlar Pənah xanla gah sülh, gah da düşmənçilik edirdilər. Çoxlu dövləti və camaatı olan Çiləbörd və Talış mahallarmm qədim melikləri olan Məlik Hətəm və Məlik Usub bəy birləşərək, möhkəm və keçilməsi çətin olan yerlərdə Pənah xanla bir neçə dəfə vuruşdular, gah qalib gəlib, gah da məğlub oldular. Bu surətlə, Çiləbörd və Talış mahallarının əhalisi asudə dolanıb, əkin əkib, rahat yaşaya bilməyirdilər. Həmişə davada idilər. Pənah xanın atlı və piyada əsgərlərinin əlindən əziyyət çəkirdilər. Nəhayət, çətin keçilən yerlərdə, dərin dərələrdə və yüksək dağlarda yaşamaqdan təngə gəlib, evlərini, bağlarını və əkinlərini buraxıb ailələri ilə birlikdə cəlayi-vətən oldular. Onlar Gəncə tərəfə qaçıb Şamxor mahalında və Gəncənin dağlıq kəndlərində məskən saldılar. Bu yerlərdə onlar yeddi il qaldılar. Yeddi ildən sonra İbrahim xanın Qarabağda müstəqil hakim olduğu və Qarabağ vilayəti əhalisinin bürünlüklə ona tabe olduğu vaxtda Xaçın və Çiləbörd mahallarının əhalisi də Qarabağa qayıdıb, ürəkdən ona tabe oldular. Onlar xana qoşun və peşkəşdən başqa vergi vermirdilər. Xan dəxi onlara hörmət göstərib xələt və ənam verməkdən müzaiqə etməzdi. Hər iki məlikin var-dövləti, camaatı çox və heç bir şeyə ehtiyacları yox idi.

Pənah xan, Xaçın əhalisinin fitnə-fəsadından xatircəm və asudə olub, onlara ayrıca məliklər təyin və hamısını özünə tabe etdikdən sonra indi Şahbulaq adlanan Tərnəküt qalasını tikdirməyi lazım bildi. Ona görə də Bayat qalasını buraxıb, Şahbulaqda bir təpənin üstündə, böyük bir bulağın yanında qala tikdirdi. Bu qalanın ətrafma, uca bir yerdə, geniş hasar çəkdirdi. Bazar, meydan, hamam və məscid tikdirib, hicri 1165 (1751/52)-ci ildə bütün ellərin ailəsini və böyüklərin evlərini, sənətkarlan, özünün yaxın adamlarını və qulluqçularını Şahbulaq qalasında yerləşdirdi.

Pənah xan 3-4 il tamamilə müstəqil olaraq Şahbulaqda qaldı. Xanın istiqlaliyyəti gündən-günə şöhrət tapırdı, qüvvəsinin və camaatının artması xəbəri ətrafa yayılırdı. Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan və Qaradağ xanları Pənah xana məktublar və elçilər göndərərək, öz dostluqlarmı və həmrəyliklərini bildirdilər. O da bəzi xanlarla qohum oldu. Naxçıvan, Tebriz və Qaradağ hakimlərinin hökmü altında olan Naxçıvanm Zəngəzur mahalına, Təbrizin Qapan mahalına və Qaradağın Çuldur mahalına əl atıb, onların hamısına sahib oldu və Qarabağ rəiyyətləri sırasına keçirib o yerlərə məliklər və soltanlar təyin etdi. Onların hamısı mərhum Pənah xanın əmrinə tabe oldular...

## MƏRHUM PƏNAH XANA ADİL ŞAH TƏRƏFİNDƏN XANLIQ VƏ HAKİMLİK FƏRMANI VERİLMƏSİ HAQQINDA

Nadir şah öldürüldükdən sonra onun qardaşı oğlu Əliqulu xan Adil şah ləqəbilə Nadir şahın şahhq taxtına əyləşdi. Adil şah tərəfindən Azərbaycan sərdarlığına təyin olunub, Təbrizdə oruran sərdar Əmiraslan xan mərhum Pənah xanın bu cür müstəqilliyini eşidib, öz tərəfindən at, qılmc və xələt göndərərək, onu Adil şaha tabe olmağa təşviq etdi. Mərhum Pənah xan Əmiraslan sərdarın göndərdiyi adamlarla bərabər elin adlı-sanlı və işgüzar kəndxudalarından bir neçəsini onun yanına göndərdi. Çünki elə bir dövlət və şövkət sahibi olan adamlarla düşmənçilik edib, ədavət saxlamaq və müharibə etmək vaxtı hələ gəlib çatmamışdı. Eyni zamanda ətraf vilayətlərin xanları gizlində Pənah xanın pisliyini istəyirdilər. Ona görə Adil şah dövlətinə itaət etməyi lazım bilib, sədaqətini bildirən

cavablar və layiqli peşkəşlər göndərdi və şah tərəfdarı olduğunu bildirdi. Əmiraslan sərdar Pənah xanın bu cür itaətini və göndərdiyi adamların gəldiyini görüb, bu işi Adil şah dövlətinə böyük xidmət sayaraq, Adil şahın hüzuruna bu xüsusda bir ərizə yazdı. Hicri 1161 (1745)-ci ildə[1] şahın xanlıq və Qarabağ hakimliyi fərmanı bahalı xələt, qızıl yəhərli at, daş-qaşlı qılıncla Əmiraslan sərdarın yaxın adamları vasitəsilə o zaman yaşadıqları Bayat qalasına çatdı. Əmiraslan sərdar da bir neçə nəfər mötəbər adamla Pənah xana layiqli sovqat və hədiyyələr göndərdi. Pənah xanın göndərdiyi kəndxudalara hörmət edib, xələtlər bağışladı.

Beləliklə, xanlıq və hakimlik adı, mərhum Pənah xana, ilk dəfə mərhum Nadir şahın qardaşı oğlu Adil şahın fərmanı ilə verildi. Qısa bir müddətdən sonra mərhum Nadir şahın oğlu Şahrux Mirzənin Adil şah adlanan Əliqulu xanı öldürərək Xorasanda taxta çıxması, İraq, Azərbaycan və Fars torpaqlarında iğtişaş üz verməsi xəbəri mərhum Pənah xana çatdı.

Belə bir zamanda mərhum Pənah xan, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ və Ərdəbil vilayətləri ilə dostluq etmək və o yerlərin xanlarını öz tərəfinə çəkmək fikrinə düşdü. Az müddət içərisində onların bəzisini zorla, bəzisini elçilik və məktublaşma və bir parasını da yaxınlıq və qohumluq vasitəsilə özünə tabe etdi. Xüsusilə, Sarıcalı Dərgahqulu bəyi Ərdəbil şəhərinə hakim təyin etdi. Gəncə xan-zadələrindən kefi istədiyini hökumət işinə təyin edir, istəmədiyini isə qulluqdan çıxarırdı. O vilayətlərin xanlarının uşaqlarından bir neçə nəfərini gətirib öz yanında girov saxlayırdı.

Bu vəziyyət Məhəmmədhəsən xan Qacarın Mazandaran, İraq və Azərbaycan tərəflərində istiqlal qazandığı xəbəri yayıldığı günə qədər davam edirdi. Mərhum Pənah xanın daima hökumət işlərilə məşğul olan bacarıqlı və işgüzar adamları Pənah xanın işarəsi ilə yığılıb belə məsləhət gördülər: "Mərhum Nadir şahın vəfatından sonra bizimlə Əliqulu xan və Əmiraslan sərdar arasında sülh, ittifaq və dostluq əlaqəsi davam etməkdə idi. İndi mümkündür ki, belə bir dostluq əlaqəsi bizimlə Məhəmmədhəsən xanın arasında olmasın. Ətraf xanlardan da lazımi qədər xatircəm deyilik. Məhəmmədhəsən xanı əleyhimizə təhrik edərək, onunla birlikdə bizə qarşı çıxmaları

[1] Hicri 1161-ci il miladi 1748-ci ilinə təsadüf edir.

ehtimalı vardır. Belə bir vəziyyətdə Qarabağ elləri və qoşunları Qızılbaş qoşununun ayağı altında məhv olar, biz isə Şahbulaq qalasında elə qüvvətli düşmənin və ətraf xanların qarşısında müqavimət göstərə bilməyib tamamilə qırılarıq. Buna görə vaqiənin əlacını qabaqcadan düşünmək lazımdır. Qalanı dağlar arasında, keçilməz bir yerdə həmişəlik və əbədi olaraq tikmək lazımdır ki, hətta qüvvətli düşmən belə onu mühasirəyə ala bilməsin. Qalanm bir tərəfi daima dağlarda olan ellərin üzünə açıq olmalı, mahallarla da əlaqəmiz kəsilməməlidir".

Bu məsləhəti həmişə xeyirxah olan Məlik Şahnəzərə dedilər. Məlik Şahnəzər bəyin bəyənməsi ilə Şuşa qalasını tikmək qərarına gəldilər. Xanın bilici və məlumatlı adamlarından bir neçə nəfəri gedib qalanın yerini və ətrafını gözdən keçirdi. Qala yerinin içərisində 2-3 kiçik bulaqdan başqa axar su yox idi. Bu da qalanın bu qədər çox olan əhalisinə kifayət etməzdi. Güman gələn yerlərdə quyular qazdırıb, müəyyən etdilər ki, qalanın bir çox yerindən su çıxır. Bu xəbər mərhum Pənah xana verildikdə, çox xoşhal oldu. O, bir neçə nəfər yaxın adamı ilə gəlib, bu yeri gözdən keçirdikdən sonra qalanı tikdirməyə başladı.

Xan hicri 1160-cı ildə[1] Şahbulaqda sakin olan bütün rəiyyətləri, əyanların, məliklərin, qulluqçuların, ellərin və bəzi kəndlərin kəndxudalarının ailələrini köçürüb bu qalanın içərisində yerləşdirdi. Əvvəllər bu yerlərdə heç bir abadlıq yox idi. Bura, şərq tərəfdə, qalanın altı verstliyində olan Şuşa kəndi əhalisinin əkin və otlaq yeri idi. Xalqı rahatlaşdırıb, hamıya, xüsusən özü üçün ev, yurd və imarət müəyyən etdikdən sonra mahir ustalar, ağıllı, işgüzar adamlar vasitəsilə qalanın hasarını çəkdi. Mərhum Pənah xan tikdirdiyi o hasar və divar indi xarab olmuşdur. Yalnız bəzi yerdə qalıqlan görünür.

Qala tikilib qurtarandan bir il sonra Ağaməhəmməd şahın atası Məhəmmədhəsən xan Qacar İraq və Azərbaycan qoşunları ilə Şuşa qalasını tutmaq və Pənah xanı özünə tabe etmək üçün Arazdan keçib, qalanın dörd ağaclığında ordu qurdu. Mərhum Pənah xanı özünə tabe etmək və Şuşa qalasını ələ keçirmək üçün çox fikirləşdi, tədbirlər tökdü, lakin baş tutmadı. Bir ay orada dayandısa da, o qədər qoşunla qalaya yaxınlaşa bilmədi. Qarabağın qoçaq əhalisi onun ordusunun

---

[1] Hicri 1160-cı il miladi 1747-ci ilə bərabərdir. Lakin müəllif səhv edir. Şuşa qalası 1750-ci ildə inşa olunmağa başlamışdır.

at, dəvə və başqa heyvanlarını gizlində və aşkarda qarət edib, Məhəmmədhəsən xanın qoşununa çoxlu ziyan vurdular.

Bu zaman Kərim xan Zəndin Fars məmləkətini və Şirazı istila edib, başına çoxlu adam toplayaraq, İraq və Mazandaranı tatmaq qəsdində olması xəbəri Məhəmmədhəsən xana yetişdi. Ona görə qalanı almaq və Şirvanla Gəncəni tutmaq fikrindən əl çəkərək tam bir sürətlə İraq, Fars və Mazandaran tərəfə hərəkət etdi. Məhəmmədhəsən xan yetişənə qədər Kərim xan Zənd bütün İraq, Fars və ətraf vilayətləri ələ keçirib, Məhəmmədhəsən xanla dava etməyə hazırlaşmışdı.

Bu tərəfdən Məhəmmədhəsən xan Azərbaycandan, Gilandan və başqa yerlərdən çoxlu adam toplayıb, Kərim xanı aradan qaldırmaq niyyətilə Fars tərəfə hərəkət etdi. Amma necə ki, deyirlər "baxt ələmləri bəsləyənin bəxşişindən asılıdır. İstədiyinə mülk verər, istəmədiyinin əlindən mülkü alar, istədiyini əziz, istəmədiyini zəlil edər". Məhəmmədhəsən xanın yaxın adamlarından bir neçə nəfəri xəyanət fikrinə düşüb onu öldürdülər və böyük mənsəb və çoxlu bəxşiş almaq niyyətilə başını kəsib Kərim xan Zəndin yanına apardılar. Belə pis işlərdə böyüklərin və sərdarların qeyrətini çəkmək nəcib və alicənab adamların özdəsinə düşdüyündən Kərim xan Məhəmmədhəsən xanın qatillərini mərhəmət və bəxşişdən məhrum edərək, başqalarınm çöreyini yediyi ağalarına xəyanət etməmələri üçün onlara cəza verdi.

Məhəmmədhəsən xanın əhvalatından sonra mərhum Nadir şahın böyür sərdarlarından biri olan urmiyalı Fətəli xan Əfşar Urmiya vilayətindən baş qaldırıb, bütün Azərbaycanı əlinə keçirdi. Mərhum Pənah xan belə bir sərdara itaət etməyi həqiqətən özünə ar bilərək, onun göndərdiyi adamları kobud cavablarla geri qaytardı. Elçilər qayıdıb gəldikdən sonra Fətəli xan Azərbaycan[1], Urmiya və sair vilayətlərdən çoxlu adam toplayaraq, Şuşa qalasını almaq qəsdilə hərəkət edib, qalanm bir ağaclığında ordu qurdu.

Gizlində Pənah xana qarşı ədavət bəsləyən Çiləbörd və Talış mahallarının məlikləri Fətəli xanın yanına getdilər. Altı ay müddətində mərhum Pənah xanla Fətəli xanın qoşunları arasmda hər neçə gündən bir dava olur və hər dəfə Pənah xanın qoşunu Qızılbaş qoşununa qalib gəlirdi. Bu müddət ərzində Fətəli xan bir iş görə bilmədi. Nəhayət, bir gün, özünün gündən-günə çətinliyə düçar olaraq, şikəst

[1] Cənubi Azərbaycan nəzərdə tutulur

tapdığını müşahidə edən Fətəli xan bütün qoşunu və yuxarıda adları çəkilən məliklərin ixtiyarında olan mahalların atlı və piyadası ilə birlikdə hücuma başlayaraq Şuşa çayından keçib, qalanın yarım verstliyinə yetişdi.

Bu tərəfdən də mərhum Pənah xan adlı-sanlı və bacarıqlı cavanlar, ellərin, habelə Vərəndə və Xaçın mahallarının qoçaq tüfənglilərilə hücuma keçdi. Başqa tərəfdən, ellərin süvariləri öz sərkərdələri və Pənah xanın igid qohumları ilə birlikdə hücum edib, Fətəli xanın qoşununa böyük zərbə endirdilər. Dar dərələrdə, dava yerinin keçidlərində düşməni tutub öldürməyə başladüar. Fətəli xanın ordusu müharibədən əl çəkilməyincə, Pənah xanın qoşunu düşməni tutub öldürməyə davam etdi. Bu yürüşdə Fətəli xanın piyada və atlı döyüşçülərindən təxminən iki min nəfəri öldürüldü, əsir tutuldu, qalanı isə kor və peşman öz ordugahlarına qayıtdı. Mərhum Pənah xan Fətəli xanın qoşunundan alınmış əsirlər və qənimətlə qalib və müzəffər bir surətdə Qalaya qayıtdı.

Bu hadisədən sonra Fətəli xan Əfşar qoşununun belə bir məğlubiyyətə düçar olmasına və qışm yaxınlaşdığına görə sazişə girişmək və barışmaq istədi. Ona görə də Pənah xanın yanına məharətli elçilər göndərdi; bərk and içib vədə verdi ki, “Əgər Pənah xan qoşunundan aldığı əsirləri qaytarsa, mənimlə ittifaq və dostluq etsə, qızımın kəbinini ürəkdən onun böyük oğlu İbrahimxəlil ağaya kəsdirərəm. Beləliklə, biz əbədi dost və qohum olarıq. Şərtim budur ki, İbrahimxəlil ağanı mənim yanıma göndərsin. O da şirni içilib, kəbin kəsilənə qədər 2-3 gün mənim ordumda qalsın”.

Pənah xanı xatircəm salmaq üçün üç nəfər adlı-sanlı övladını və qohumunu onun yanına girov göndərdi ki, İbrahimxəlil ağa qayıdana qədər öz yanında saxlasın.

Mərhum Pənah xan Fətəli xanın möhkəm andlarına, övladını və qohumunu göndərəcəyinə inanıb İbrahimxəlil ağanı iki-üç nəfər kəndxuda ilə Fətəli xanın ordusuna göndərdi. Fətəli xan bu xəbərdən xoşhal olub, öz övladlarından bir neçəsini onları qarşılamağa göndərdi. İbrahimxəlil ağanı böyük ehtiram və izzət, şənlik və çalğı ilə orduya gətirdilər. Fətəli xan saatın bədliyini bəhanə edib, İbrahimxəlil ağanı iki gün hörmət və izzətlə orduda saxladı. Özgələrini aldadıb, öz işlərini düzəltmək bunların adəti olduğu üçün Pənah xanın yanına dəfələrlə etimadlı adamlar və şirai göndərdi. Üçüncü gün

İbrahimxəlil ağanı kəndxudalarla birlikdə həbs edib, heç bir yerdə dayanmadan Urmiyaya apardı.

Mərhum Pənah xan və Qarabağın əyanı bu işdən çox qəmgin və pərişan oldular. Nəhayət, Pənah xan peşmançılığın və qəmginliyin heç bir fayda verməyəcəyini düşünüb oğlunu azad və Fətəli xanı məhv etmək fikrinə düşdü. Bu barədə cürbəcür tədbirlər gördü.

Pərvərdigari-aləm, insi-cinsi yaradan Allah, hər bir an və zamanda doğruların, vəfalıların və haq tərəfdarlarının köməkçisidir. Xüsusən əhdində, ilqarında və sözündə möhkəm durub, dediyindən qaçmayanlara, xüsusilə sonu peşmançılıq və ziyan olan məkr və hiylədən çəkinənlərə kömək edər. Bu ruzigarın tədbirçisi olan Allah, Fars və İraqda baş qaldırmış Kərim xan Zəndə tam istiqlal mərhəmət etdi. Kərim xan Zənd, Fətəli xana qarşı mübarizəyə başlayaraq, onu məhv etmək üçün öz qohumlarından bir nəfəri İraq və Fars qoşunları ilə Azərbaycana göndərdi. Fətəli xan dəxi onların gəlməsi xəbərini eşidən kimi Azərbaycandan və ətrafdan qoşun toplayıb, Kərim xanın qoşunu gəlməmişdən əvvəl onların qarşısına çıxdı. İsfahanın yaxınlığında hər iki qoşun bir-biri ilə toqquşdu. Bu döyüşdə Kərim xanın qoşunu basıldı. Qoşunun sərdarı olan Kərim xanın qohumu da öldürüldü. Fətəli xan qalib gəlib, İraqın bəzi vilayətlərini də aldıqdan sonra öz mülkünə qayıtdı.

Bu hadisədən sonra Kərim xan Fars vilayətindən çıxıb intiqam almaq və Fətəli xanı məhv etmək məqsədilə saysız-hesabsız qoşunla Azərbaycana tərəf yola düşdü. Azərbaycana girmədən əvvəl, mərhum Pənah xanın yanına etimadlı bir elçi göndərərək, ona məhəbbət və birliyini andıran belə bir məkrub yazdı: "Fətəli xan bizim ilə nəinki düşmən, bəlkə qanlıdır. O, əhdə vəfa etməmək, andından və sözündən dönmək, hiylə işlətmək kimi yaramaz işlərin hamısını sənin haqqında etdi. Oğlunu məkr və hiylə ilə yanına apartdırıb həbsə aldı. İndi əlindən gələn yoldaşlığı və dostluğu müzayiqə etmə. İntiqam alsaq və oğlunu azad etsək, sən sevindiyin kimi biz də arzumuza çatmış olacağıq".

Pənah xan yalançı və hiyləgər olan düşməni məhv etmək üçün bu vasitəni qənimət bilərək müntəzəm qoşun və Qarabağın igid atlıları ilə Azərbaycan torpağında Kərim xanla görüşdü. Kərim xan dəxi lazım olan hörmət, ehtiram və bəxşişləri ondan müzayiqə etmədi. Pənah xanla birləşərək, Urmiyaya tərəf yola düşdü. Fətəli xan da öz

hökmü altında olan vilayətlərin çoxlu qoşunu ilə qarşıya çıxdı. Hər iki qoşun müharibəyə başlayıb, döyüşdü. Nəhayət, Fətəli xan basılaraq, Urmiya qalasına qaçdı və orada mühasirəyə düşdü. Bir neçə gündən sonra tabe olmaqdan başqa bir çarə görməyərək, Kərim xandan yaxşılıq görəcəyi ümidi ilə onun yanına gəldi. Beləliklə, Urmiya qalası Kərim xanın əlinə keçdi. Kərim xan, bütün İran vilayətlərində tam müstəqil hökmdar oldu.

Kərim xan özünə vəkil ləqəbi verib deyirdi: İranda müstəqil padşah olmağına görə, belə bir padşahın tapılıb taxta çıxan gününə qədər İranın vəkili mənəm. Ona görə də ona Kərim Zənd vəkil deyirdilər.

Kərim xan Urmiyada məhbus olan İbrahimxəlil ağanı yanına çağırdı. At, qılınc, xələt bağışlayıb, Qarabağ hökumətinin fərmanını onun adına yazdırdı, onu ehtiramla Qarabağa yola saldı. Pənah xandan isə mehribanlıqla xahiş edib dedi: "Göstərdiyin yaxşılığın və etdiyin köməyin xəcalətindən çıxmaq üçün bir müddət mənim yanımda qalmalısan”. Bəlkə də, Pənah xanın istedadlı və iş bilən adam olduğundan, Şuşa qalasına və Qarabağa getdikdən sonra itaətdən çıxıb, düşmənçilik edə biləcəyindən şübhələnərək onu öz yanında saxlamaq istəyirdi. Nə isə o, Pənah xanı özü ilə bərabər Fars və Şiraz vilayətlərinə apardı.

Mərhum İbrahim xan Qarabağa daxil olduqdan sonra Qarabağ əhalisinin hamısı ona tabe oldu. Sair vilayətlərin hakimləri də Pənah xan zamanında olduğu kimi İbrahim xanla da dost olaraq, onunla ittifaq bağladılar. İbrahim xan heç kəsə itaət etmədən, müstəqil olaraq hökmranlıq edirdi.

Mərhum Pənah xan Kərim xanın paytaxtı olan Şiraz şəhərində bir az qaldıqdan sonra öz əcəli ilə vəfat etdi. Kərim xan onun cənazəsini böyük ehtiramla Qarabağa göndərdi. Xanın cəsədini indi Ağdam adı ilə məşhur olan, özünün satın aldığı mülkündə basdırdılar. Allah ona rəhmət eləsin.

Keçmiş hadisələrdən və üz vermiş vaqiələrdən məlumdur ki, mərhum Pənah xan, rəhmətlik Nadir şahın vəfatından sonra davam edən hakimiyyəti dövründə 12 il baxtı və taleyi hər cəhətdən gündən-günə artmış, Azərbaycanın bir para vilayətləri - Ərdəbil, Qaradağ, Naxçıvan və Gəncə Pənah xanın dediklərindən, yazdıqlarından və məsləhətindən boyun qaçırmamışlar. Həmişə onun əmrinə tabe olmuşlar.

## MƏRHUM İBRAHİM XANIN HÖKUMƏT VƏ İSTİQLALI HAQQINDA

Hicri 1174 (1756)-cü ildən[1] hicri 1221 (1806)-ci ilə qədər mərhum İbrahim xan İran və Türkiyə padşahlarına tabe olmadan Qarabağ hökumətinin taxtında oturmuş və onun hökmü və əmri Şəki, Şirvan, Gəncə, İrəvan, Xoy, Naxçıvan, Qaradağ, Təbriz və Ərdəbil, hətta Marağa, İraq və Azərbaycanın sərhədi olan Qaplanguhə qədər işləyirdi. Vilayətlərin xanlan onun əmri ilə təyin edilir və ya vəzifəsindən çıxarılırdı. Dağıstan vilayətinin valisi Nüsal xanın oğlu Ümmə xanın möhtərəm bacısını alaraq onunla qohum olmuşdur. Lazım olan zaman Dağıstan və ləzgi vilayətindən qoşun istəyirdi. İbrahim xan Ümmə xanın və başqa sərkərdələrin başçılığı ilə Qarabağa gələn qoşunu öz övladları və Qarabağ qoşunu ilə birlikdə lazım olan yerlərə göndərir, istədiyi adamı tənbeh edir və öz itaəti altına çəkirdi. Habelə Şahsevən, Qaradağ, Xoy və Gəncə vilayətlərinin xanları ilə qohum olmuşdu. Bunların hamısı istər zor və istərsə qohumluq vasitəsilə mərhum İbrahim xanın hakimiyyətini canbaşla qəbul etmişdilər. O hətta Təbriz və Qaradağ vilayətlərinin bəzi mahallarını özünün adlı-sanlı sərkərdələrinə bağışlamışdı ki, onların gəlirindən faydalansınlar.

Mərhum İbrahim xan padşah deyildisə də, onun dövləti və calalı İran padşahlarınkına çatmışdı. Yuxarıda adları çəkilən vilayətlərdən xanların oğul-uşaqlarını gətirdib, həmişə Şuşa qalasında girov saxlayırdı.

Kərim xanın vəfatından sonra Məhəmmədhəsən xanın Şirazda girov saxlanan oğlu Ağa Məhəmməd xan oradan qaçıb hakimiyyət iddiasına düşdü. Bir neçə il çalışdıqdan sonra İraq və Fars vilayətlərini əlinə keçirib Tehran şəhərini özünə paytaxt etdi. Hicri 1207 (1792-1793)-ci ildə Azərbaycan vilayətinə gələrək İrəvan və Talış vilayətlərindən başqa Araz çayının cənubunda olan bütün vilayətləri zəbt etdi. Ağa Məhəmməd xan mərhum İbrahim xana əvvəlcə qılmc, xələt və qızıl yəhərli at göndərib, onu özünə tabe olmağa çağırmışdı. Mərhum İbrahim xan da zahirdə ona itaət edəcəyinə söz vermişdi. Arada elçilər gedib-gəlirdi.

[1] Hicri 1174-cü il miladi 1760-1761-ci illəre düşür. Lakin müəllif səhv edir. İbrahimxəlil xan Qarabağda xanlığa 1759-cu ildən başlamışdır.

Mərhum İbrahim xan özünün əmisi oğlu Əbdüssəməd bəyi, bacarıqlı və şirindilli Baharlı Mirzə Vəli ilə birlikdə girov olaraq Ağa Məhəmməd xanın yanına göndərdi. Ağa Məhəmməd xan onları öz yanında artıq hörmət və ehtiram ilə saxlayırdı.

Bu arada Ağa Məhəmməd şah Kirman vilayətində şahlıq iddiasına düşmüş öz düşməni olan igid və səxavətli Lütfəli xan Zəndə qalib gələrək Kirmanı tutdu və bürün əhalisini qırdı. 1209 (1794-1795) hicri ilində Ağa Məhəmməd şah mərhum İbrahim xana bir para çətin təkliflər etdi və əlaqənin pozulmasma səbəb ola biləcək işlər üz verdi. Əbdüssəməd bəy və Baharlı Mirzə Vəli neçə nəfər nökərlə Ağa Məhəmməd xanın yanından qaçdılar. 20 gün yol getdikdən sonra Qızıl Özən çayına çatdılar. Şahın göndərdiyi adamlar onlardan qabağa düşüb Sərcəm kəndinin əhalisinə xəbər vermişdilər. Yolları kəsmiş piyada və atlılar Əbdüssəməd bəyə rast gələrək vuruşdular. Bu davada Əbdüssəməd bəyin dizinə güllə dəyib yaralandı. Yaralı Əbdüssəməd bəyi, yoldaşlarını və Mirzə Vəlini tutdular. Əbdüssəməd bəy, orada həmin güllə yarasından öldü. Başqa tutulanları şahın yanına apardıqdan sonra Tehran şəhərində həbs etdilər.

Ağa Məhəmməd şah Şuşa qalasının ətrafında olan zaman onunla İbrahim xan arasında elçilər vasitəsilə danışıq gedirdi. Bir dəfə mərhum İbrahim xanın sifarişlərindən qəzəblənib, fərman yazdı. Ona əsasən Mirzə Vəlini Tehranda topun ağzına bağlayıb atdılar. Yerdə qalan on nəfər dustağı da öldürüb, bir nəfərini belə salamat qoymadılar. Allah onlara rəhmət eləsin.

Ağa Məhəmməd şah Şuşa qalası ətrafında olan müddətdə davalarda və yollarda onun o qədər xanı və əmiri öldürülmüşdü ki, mərhum Əbdüssəməd bəyin və Mirzə Vəlinin öldürülməsi, həqiqətən, onların mindən biri olmazdı. Elçi öldürmək heç bir padşahın qanunda olmadığına baxmayaraq, Ağa Məhəmməd şah, belə bir günahsız elçilərin öldürülməsinə fərman verdi. Allah xeyir işə mükafat, şər işə isə cəza verər.

Nəhayət, haman ildə mərhum İbrahim xanla Azərbaycandan qayıtdıqdan sonra özünə şah adı vermiş[1] Ağa Məhəmməd şahın arasında küdurət və inciklik olduğuna baxmayaraq, zahirdə heç bir ədavət əlaməti görünmürdü. Fars və Şiraz tərəflərində bir para inqilab

[1] Ağa Məhəmməd xan 1796-cı ildə şah elan edilmişdi.

və iğtişaş üz verdiyindən Ağa Məhəmməd şah o tərəflərə gedib işlərini islah və boyun qaçıranları itaətə gətirmək işi ilə məşğul idi.

1210 (1795)-cu ildə Ağa Məhəmməd şah Tiflis, İrəvan, Talış və Qarabağ vilayətlərini istila etmək məqsədilə Azərbaycan tərəfə gəlib, sərkərdələrinin ən böyüyü olan Şahsevən Əliqulu xanı bəzi xanlarla birlikdə İrəvan qalasını almağa göndərdi, özü isə bütün İraq, Fars, Xorasan və Azərbaycan qoşunu ilə Şuşa qalasınm üstünə gəlib, onun bir ağaclığında Govaxan adlı yerdə ordu qurdu.

Tiflis valisi şövkətli İrakli xan, İrəvan hakimi Məhəmməd xan və Talış hakimi Mir Mustafa xan, mərhum İbrahim xanla birlikdə Ağa Məhəmməd şaha itaət etməyəcəkləri və həmişə müttəfiq olub bir-birinə kömək edəcəkləri haqqında and içmişdilər. Buna görə İbrahim xan Qarabağ ellərinin bəzisini Tiflisə, bəzisini isə Şirvan tərəfə, özünün Şirvana təyin etdiyi Mustafa xanın ixtiyarına göndərdi. Siyahıda və dəftərdə qeyd olunmuş qalan elləri və qoşunu Qarabağın dağlarında və qalanın içərisində yerləşdirdi. Qarabağın elləri və mahallarından çoxlu atlı və piyada qoşun toplayaraq, qalanın mühafizəsinə lazım olan bütün vəsaiti tədarük edib böyük və kiçik toplarla şaha qarşı müharibəyə hazırlaşdı. Ağa Məhəmməd şahın ordusu 33 gün qalanın ətrafmda dayanıb, gücünün çoxluğuna baxmayaraq, qalanın beş verstliyində olan çaylardan keçə bilmədi.

Qarabağın piyada və atlı qoşunu, kəndlərin və ellərin sərkərdələri Vərəndə, Dizaq və Talış mahallarının məlikləri Qızılbaş qoşununu meşələrdə, yollarda və keçidlərdə tutub qarət edirdilər. Onlar hər gün vilayətlərdən ordu göndərilən at, dəvə, qatır və başqa tədarükat və taxıl karvanlarını qarət edib, adamlarını əsir rutub mərhum İbrahim xanın yanına gətirirdilər. İş bir yerə çatmışdı ki, o vaxtın pulu ilə bir qatır 4 manata, bir dəvə 6 manata və yaxşı atın biri 10 manata satılırdı. Ağa Məhəmməd şah, Qarabağ qoşunlarının gecələr basqın etməsindən qorxaraq, öz ordusunun ətrafında yaxşı və möhkəm bürclər düzəltdirdi.

Vərəndə mahalının piyadaları da Məlik Şahnəzər bəyin böyük oğlu Məlik Cəmşid bəyin sərkərdəliyi ilə böyük işlər gördülər. Məlik Şahnəzər bəyin ailəsi ata-babadan mərhum Pənah xana və İbrahim xana sadiq və xeyirxah olub xidmət etmiş, mərhum Pənah xan və İbrahim xan da onlara olduqca hörmət və mərhəmət göstərirdilər. Bunların məhəbbəti o dərəcəyə çatmışdı ki, Məlik Şahnəzər bəy

məzhəbinin yol vermədiyinə baxmayaraq, qızı Hurizad xanımı İbrahim xana ərə verdi. Bir gecə mərhum İbrahim xan tərəfindən Vərəndə mahalına məlik təyin edilmiş haman Məlik Cəmşid bəyin əmri ilə Vərəndə yüzbaşıları və piyada əhalisinin bir dəstəsi gedib Ağa Məhəmməd şahın xüsusi tüfəngçiləri tərəfindən qorunan böyük bir bürcü bir saatın içində rutdular. Onların tüfəngçilərindən 60 nəfərdən artığını öldürdülər və iki-üç nəfəri diri tutub səhər açılan zaman mərhum İbrahim xanın hüzuruna gətirdilər və İbrahim xanın bəxşiş və nəvazişinə nail oldular.

Qarabağ qoşunları Qızılbaş qoşununa istər gecə, istər gündüz rahatlıq vermirdilər. Şahın özü üç-dörd dəfə çoxlu qoşunla çaydan keçmək qəsdi ilə qala tərəfə gəldi. Bu tərəfdən cəld piyadalar, qoçaq atlılar və adlı-sanlı sərkərdələr qabağına çıxıb, mərdcəsinə dava etdilər və düşməni sındırıb geri qaytardılar.

Bu zaman vaxtilə İbrahim xandan üz döndərib, Gəncə vilayətinə gedərək oranın hakimi Cavad xanın yanında gün keçirən Çiləbörd mahalının məliki Məlik Məcnun Cavad xanla birlikdə Ağa Məhəmməd şahın yanına gəldilər. Ağa Məhəmməd şah onların məsləhəti üzrə böyük bir məğlubiyyət və pərişanlıqla qalanın yanından köçüb, Gürcüstanı tutmaq məqsədilə Tiflis tərəfə getdi. Mərhum İbrahim xan, bu xəbəri şahın yola düşməsindən qabaq yuxarıda adı çəkilən şövkətli valiyə çatdınb bildirdi ki, Ağa Məhəmməd şah qalanı almaqdan aciz qalıb qoşununa və ordusunun heyvanlarına çoxlu zərər dəymişdir. Bu zərərin əvəzini çıxmaq üçün Tiflisi tutmaq və Gürcüstan kəndlərini qarət etmək xəyalına düşmüşdür. Onun fəsadını və hücumunu dəf etmək tədarükündə olun.

Ağa Məhəmməd şah həqiqi mühasirə dövrü keçirmiş, heyvanlarını və qoşununu rahat etmək üçün Ağdam yaxınlığında qərargah qurdurub bir ay, bəlkə daha artıq istirahət etdikdən sonra Gürcüstan vilayətində və Tiflis şəhərinə tərəf yola düşdü.

Cavad xanla Məlik Məcnunun hər yerdə qoşununun qabağmda gedib, şaha bələdçilik edirdilər. Ağa Məhəmməd şah Tiflisə yaxınlaşıb, onu qısa bir müddət ərzində tutdu. Şəhərin və ətraf kəndlərin əhalisini qarət və əsir etdikdən sonra Tiflisi yandırıb Azərbaycan tərəfə qayıtdı. Kür boyu ilə gedərək Cavad kəndi yaxınlığında, Muğanda qışlaq etdi.

Yaz vaxtı, İrəvan qalası hələ işğal olunmadığı halda yenə də Fars vilayətində inqilab, Kirman və sair vilayətlərdə böyük iğtişaşlar üz verdiyindən, şah o yerləri islah etmək niyyətilə Fars vilayətinə tərəf hərəkət etdi.

Haman yaz fəslində, şah Fars vilayətində olduğu zaman, mərhum İbrahim xan Gürcüstan valisinə də təklif edib, Dağıstandan qoşun gətirtdi. Tiflisin xarab olmasına (Cavad xan) bais olduğu üçün Gəncə şəhərini mühasirə etdi. Çox çəkmədi ki, Cavad xan yenə İbrahim xana tabe olub, oğlunu və öz bacısını mərhum İbrahim xanın yanında əmanət qoydu. Onun hökmündən və itaətindən boyun qaçırmayacağına söz verdi. Məlik Məcnun bu davada öldürüldü.

## RUSLARIN İLK GƏLİŞİ

Ağa Məhəmməd şah, hələ Fars və Xorasan vilayətlərində ikən böyük sərdar general-anşef qraf Valerian Zubov əzəmətli imperat-riçə Yekaterinanın əmr və fərmanı üzrə güclü və tükənməz qoşunla Dərbəndə gəldi. Dərbənd qalasını rutduqdan sonra Şamaxıya gedib şəhərin yaxınlığında ordu qurdu.

Mərhum İbrahim xan, oğlu Əbülfət xanı bir neçə nəfər Qarabağ bəyzadələrinə qoşub peşkəş, sovqat və cins atlarla bərabər tam razılıq və hüsn-rəğbətlə böyük sərdar general Zubovun yanına göndərib, Rusiya dövlətinə ürəkdən itaət edəcəyini bildirdi. Eyni zamanda böyük imperatriçəyə sədaqətini andıran bir ərizə də yazdı.

Böyük sərdar, Əbülfət xanın və sair Qarabağ bəyzadələrinin barəsində lazım olan hörmət və ehtiramı göstərib, mərhum İbrahim xanın ərizəsini, xanın etimadlı elçisi və özünün eşikağası ilə birlikdə Dərbənd və Qızlar yolu ilə imperatriçənin hüzuruna göndərdi. Eyni zamanda bir knyazla İbrahim xan üçün qiymətli sovqat və hədiyyələr göndərib, onu əzəmətli padşahın əbədi mərhəmətinə ümidvar etdi.

Ətraf xanları, mərhum İbrahim xanın öz oğlunu böyük sərdarın yanına göndərdiyi xəbərini eşitcək hamısı - Talış xanı Mir Mustafa xan, şirvanlı Mustafa xan, gəncəli Cavad xan, hətta İrəvan, Naxçıvan, Xoy və Qaradağ xanları mərhum İbrahim xanın yanına elçilər göndərib dedilər ki: "Biz İbrahim xanın məsləhətindən çıxmırıq. Madam

ki, yüksək Rusiya dövlətinə itaət etməyi lazım bilmişlər, biz də mərhəmətli Rusiya padşahına dostluq göstərib, ona itaət etməyi qəbul edəcəyik". Mərhum İbrahim xan adları çəkilən xanların məktublarını yenə də böyük sərdar Zubova göndərdi.

Gürcüstan valisi Şirvan, Xoy və İrəvan xanlarına nisbətən daha böyük əzəmət və calal, qədim ocaq, geniş vilayət və çoxlu dövlət sahibi olduğuna baxmayaraq, bütün işlərdə mərhum İbrahim xanla məsləhət edir və onun göstərişindən kənara çıxmırdı. Çünki, Avar hakimi Ümmə xan və Dağıstanın sair böyükləri mərhum İbrahim xana yaxın və qohum olduqlarına görə ona itaət edirdilər. Gürcüstan valisi ilə mərhum İbrahim xanın arasında düşmənçilik əmələ gəlsə idi Ümmə xan və Dağıstanın sair xanları mərhum İbrahim xanın işarəsi ilə güclü qoşun götürüb Gürcüstan üzərinə yürüş edərək, oraya böyük zərər vururdular. Məsələn, hicri 1199-cu ildə[1] Gürcüstan valisi ilə mərhum İbrahim xanın arasında düşmənçilik törəmişdi. Avar hakimi Ümmə xan, çoxlu Avar qoşunu ilə Gürcüstan tərəfə hərəkət edib, valinin Sığnaq qalasını və Gürcüstanı tutdu və çoxlu adam öldürdü. Yerdə qalan arvad-uşağı əsir edərək, ətraf kəndlərin bir çoxunu soyub taladı. Axıska vilayətinə, Süleyman paşanın yanına gedərək, qışı orada qaldı. Osmanlı padşahından çoxlu bəxşiş və xələt alıb, yazda yenə Gürcüstan yolu ilə Dağıstana tərəf hərəkət etdi.

Keçid və sərhəd üstündə olan Knyaz Abaşidzenin öz ailəsi ilə yaşadığı möhkəm Vaxan qalasını mühasirə edib aldı. Qala əhalisindən çoxunu öldürdü. Yerdə qalan arvad-uşağı əsir alıb mallarmı qarət etdi.

Knyaz Abaşidzenin bir qızmı peşkəş və sovqat kimi bəzi şeylərlə birlikdə mərhum İbrahim xanın yanına göndərdi. Mərhum İbrahim xan o qızı aldı və knyaz Abaşidzenin bu qızından İbrahim xanın bir qızı oldu. Haman knyaz Abaşidzenin o biri qızını da Ümmə xan özü aldı. Belə işlərə görə də valinin mərhum İbrahim xana çox ehtiyacı var idi. Şirvan, Şəki, Gəncə, İrəvan, Xoy, Qaradağ, Naxçıvan, Talış, Təbriz, Şahsevən və Şəqaqi xanları mərhum İbrahim xana itaət edərək, onun sözündən çıxa bilmədikləri kimi, Tiflis valisi də həm səmimiyyət, həm də ehtiyat üzündən yüksək Rusiya dövlətinə itaət etməyə razı olub, elçilər və ərizələr göndərmişdi.

---

[1] Hicri 1199-cu il miladi 1784/85-ci illərə uyğundur. 258

Bunların hamısı yüksək Rusiya dövlətinə tabe olmağa hazırlaşdıqları bir zamanda imperatriçə vəfat etdi. Böyük sərdar Zubov Əbülfət xanı Qarabağ kəndxudaları və bəyzadələri ilə birlikdə izzət, hörmət və çoxlu peşkəşlərlə yola salıb, mərhum padşah Pavelin əmrinə görə Rusiyaya qayıdacağını mərhum İbrahim xana xəbər verdi.

Xan bu xəbərdən çox kədərləndi. O tərəfdən də Ağa Məhəmməd şahın ədavəti artdı. Bəlkə də Ağa Məhəmməd şahın ürəyindən keçirdi ki, çoxlu zərər görmədən, İbrahim xanı yumşaqlıqla özünə tabe etsin. Lakin mərhum İbrahim xanın davasız, müharibəsiz əbədi Rusiya dövlətinə itaət edib, səmimiyyət göstərməsi, islam və İran padşahından üz çevirməsi onu olduqca qəzəbləndirib, yaz fəslində saysız-hesabsız qoşunla Azərbaycan üzərinə getməyə vadar etdi.

Qarabağ vilayətində üç il tamam yağmursuzluq və quraqlıq olub, taxıl və başqa dənli bitkilər bitmədiyindən bərk qəhətlik üz vermişdi. Taxılın məzənnəsi o dərəcəyə qalxmışdı ki, hətta bir çetvert buğdanı o vaxtın pulu ilə 45 manata çətinliklə almaq olurdu. Vəziyyətin belə bir çətinləşdiyi vaxtında Ağa Məhəmməd şah Qızılbaş qoşunu ilə Araz kənarına gəlib çatdı. Neçə illik qəhətlik və əziyyətdən sonra elə bir padşahın qarşısmda qalada dayanınaq çətin olduğundan, İbrahim xan çarəsiz qalıb, öz ailəsini, oğul-uşağını, qohumlarını, məşhur bəylərin ailəsini və səmimi qulluqçularını götürüb Car və Tala tərəfə getdi ki, orada dayanıb Dağıstandan, Gürcüstandan və sair vilayətlərdən kömək və tədarük ala bilsə, Ağa Məhəmməd şahın qarşısına çıxsın. Yoxsa oradan Dağıstana, qohumu Avar hakimi Ümmə xanın evinə gedib özünü Ağa Məhəmməd şahın tənbehindən qorusun.

Mərhum İbrahim xanın yanında olan və ondan ayrılmaq istəməyən xanlar sırasında kürəkəni mərhum Nəsir xan, Şahsevən Əta xan, yenə kürəkəni olan Şəki vilayətinin hakimi Səlim xan, Şahsevən və Şəki vilayətinin bəyləri və onların oğul-uşaqları da var idilər.

Ağa Məhəmməd şah, Araz çayı kənannda mərhum İbrahim xanın qaladan çıxıb getdiyini eşitcək ona Gəncə yolunda və ya Kür kənarında çatmaq üçün sərkərdələrilə iki min atlı göndərdi. Qızılbaş qoşunu Tərtər körpüsünün yaxınlığında mərhum İbrahim xanın köçünə və adamlarına yetişdi. Arada dava oldu. Köçə, külfətə və sair adamlara zərər dəymədi. Onlar ancaq köçün bir para şeylərini qarət edib geri qayıtdılar.

Mərhum İbrahim xan, Kürdən və Şəkidən keçib, Balakən və Car torpağına daxil oldu. Car, İlisu və Balakən əhalisi mərhum İbrahim xandan uzun müddət məhəbbət və çoxlu bəxşişlər gördüklərindən və həmişə mərhum xanın əmrlərinə itaət edib, xeyirxahı olduqlarından, Car və Tala kəndxudaları və başçıları mərhum İbrahim xanı başqa xanlarla Dağıstan tərəfə getməyə qoymamaları haqqında Ağa Məhəmməd xandan fərman aldıqlarına baxmayaraq, ona lazım gələn ehtiram və qonaqpərəstlik göstərərək, istədiklərini yerinə yetirdilər. İbrahim xan Balakən torpağında 20 gün qalmışdı ki, Ağa Məhəmməd şahın Şuşa qalasında öldürülməsi xəbərini eşitdi.

## AĞA MƏHƏMMƏD ŞAHIN ÖLDÜRÜLMƏSİ

Ağa Məhəmməd şah Şuşa qalasına girib, bir həftə orada qaldıqdan sonra bir gecə xoşu gəlmədiyi bir işə görə Səfərəli bəy və Abbas bəy adlı iki nəfər yaxın qulluqçusuna acıqlanıb dedi: "Səhər açılan kimi hər ikinizi cəzalandıracağam". Qulluqçular şahın sözündə və buyruğunda dəyişiklik olmadığını bildikləri üçün qorxularından səhər açılanadək şahı öldürməyi lazım bildilər. Səhərçağı, hələ şah yuxuda ikən, əllərində iti və qan tökən xəncər və qılıncla içəri girib, şahı öldürdülər. Qapıları bağlayıb, şahın cavahirli bazubəndini, tac və həmailini götürüb, Şəqaqi Sadıq xanın yanına getdilər və işin həqiqətini ona söylədilər. Sadıq xan, şahın qorxusundan inanmadı. Şah tərəfindən əmin və xatircəm olmayıb, həmişə öz canının qorxusunu çəkdiyindən o söhbətləri şahın hiyləsi təsəvvür etdi. Nəhayət, onlara qəliz andlar verdikdən sonra yenə əvvəlki kimi qorxa-qorxa Ağa Məhəmməd şahın yaşadığı İbrahim xanın böyük oğlu mərhum Məhəmmədhəsən xanın evinə daxil oldu. Baş əyə-əyə, yavaş-yavaş, tam bir ədəblə şahın yatdığı otağa girdi. Səfərəli bəyin ona ürək verməsinə baxmayaraq, yenə də qorxurdu. Səfərəli bəy irəli gedib şahın başından yorğanı götürdü və onun xəncərlə doğranmış cəsədini Sadıq xana göstərdi. Sadıq xan tab gətirməyib, tez bazubəndi, tacı və həmaili götürüb, öz mənzilinə qayıtdı. Şah məni Gəncə və Gürcüstan tərəfinə göndərir deyə səs salıb, bütün öz tabelərini, Şəqaqi qoşununu və şahı öldürənlərdən Abbas adlananı özü ilə götürüb qaladan çıxdı. Səfərəli bəy isə qalada qaldı.

Sadıq xanın getməsindən iki saat keçməmişdi ki, şahın öldürülməsi xəbəri qalanın içərisində yayıldı. Qızılbaş xanları özlərini itirərək, pərişan bir halda, toplaya bildikləri adamları ilə dəstə-dəstə qaçmağa başladılar. Şəhər əhalisi tökülüşərək, əllərinə keçəni soyub qarət edə-edə imarətə girdilər. İmarət müxalifatı xah-gəbəsi, qızıl-gümüş qab-qacaq və şahın cavahiratı qarət edildiyi zaman, şücaəti və igidliyi ilə məşhur olan mərhum İbrahim xanın qardaşı oğlu gənc Məhəmməd bəy hadisədən xəbər tutdu. Bir neçə nəfər qulluqçusu ilə imarətin qapısını kəsdi. Hər kəs əlinə keçəni aparmışdısa da, qalan malları evdən bayıra çıxan adamların əlindən aldı. Cavahirat, qızıl, qızıl və gümüş qablar, xalı və sair nağd pul və cinsdən nə qalmışdısa hamısına yiyələnərək, mərhum Məhəmmədhəsən ağanın evindən öz evinə daşıtdırdı.

(Məhəmməd bəy) qalanın içərisində hökumət və divan işlərilə məşğul olaraq, Ağa Məhəmməd şahın kəsilmiş başını öz ərizəsilə birlikdə qədim qulluqçularından birinin vasitəsilə Balakənə, mərhum İbrahim xanın qulluğuna göndərdi.

Şahın başı Balakəndə mərhum İbrahim xana yetişdikdə şahın öldürülməsi hamıya aydın oldu. Xan, nəcabət və ehtiramının tələbinə görə şahın başını qüsl və kəfən etdirib, vacib və lazım olan işləri yaxşı bilən mötəbər mollalarla Cara göndərərək böyük adamların basdırıldığı qəbiristanlıqların birində dəfn etdirdi.

Bəzi maneələrə görə, İbrahim xan Qarabağa qayıda bilməyib, üç ay Balakəndə qaldı. Bu müddətdə hər tərəfdən, xüsusilə Gürcüstan valisindən, Gəncə hakimi Cavad xandan və şirvanlı Mustafa xandan hədiyyələr gəlirdi. Onlar İbrahim xanla bir və müttəfiq olduqlarını bildirdilər. Çünki qüvvətli düşmən olan padşah öldürülmüşdü. Azərbaycanın başqa yerlərinin xanları da İbrahim xanın həmişə əzəmətli və şövkətli və əmirinin hökmünün nüfuzlu olmasını bilirdilər və uzun müddət görmüşdülər. Hamı istəyirdi ki, onun mübarək xatirini öz xeyrindən ötrü hər kəsdən əvvəl ələ gətirsin və onunla möhkəm dost olsun.

Məhəmməd bəy də, İbrahim xan gəlib yetişənə kimi Qarabağda hökumət işi ilə məşğul olurdu. İbrahim xan Balakəndə bir ay qaldıqdan sonra Avar hakimi Ümmə xan və Dağıstanın başqa sərkərdələri çoxlu yeməli və geyməli şeylər və böyük qoşunla onun yanına

gələrək belə bir böyük əmirə layiq olan qohumluq və mehribanlıq və qonaqpərvərlik şərtini yerinə yetirdilər. Onlar bu hörməti yalnız İbrahim xana, onun igid oğul-uşağına və Qarabağ bəylərinə deyil, Şahsevən xanları, onların övladlarına və bəylərinə də etdilər. Onlara xərclik və ərzaq verməkdə heç bir qüsur qoymadılar. Ümmə xanın qoşun və Dağıstan sərkərdələri ilə gəlməsindən iki ay sonra İbrahim xan, Şahsevən və Qarabağ əhalisi ilə birlikdə Balakəndən Qarabağa yola düşdü.

Mərhum İbrahim xan Qarabağa yola düşməzdən əvvəl, o zaman hələ Mehdiqulu ağa adlanan Mehdiqulu xanı bir neçə nəfər övladı və Qarabağ bəyzadələri ilə (zəminə hazırlamaq üçün) Qarabağa yola saldı ki, xan gəldikdə, Qarabağ əhalisi bir para xilaf işlərə girişməyib, hökmə tabe olmamaq fikrinə düşməsinlər; habelə, Məhəmməd bəy, cavanlığının gücünə güvənməkdən başqa, belə bir şahanə dövlət və vəsaitin əlinə keçdiyindən şeytana uymayıb müxalifət göstərməsin və özündən başqa kimsəni tanımıram deməsin.

Mehdiqulu xan bəyzadələrlə birlikdə Qarabağa daxil olduqda Məhəmməd bəy zahirdə ona bəzi mehribanlıqlar göstərib, mərhum İbrahim xanın əmrindən çıxmayacağına söz verdi. Səmimiyyət və doğruluqdan dəm vururdusa da batində hakimiyyət başına keçmək istəyirdi. Bir para oğru-əyrini və bəzi xain və qorxaqları başına toplayaraq, hökuməti öz əlinə almaq fikrində idi. Mehdiqulu xan isə vaxtın tələbinə görə onunla müdarə edib, işin üzərindən pərdəni qaldırmağı, faydasız olduğu üçün hələlik məsləhət bilmirdi. Gah ətrafda, gah da qalanın içərisində dolanaraq işin həqiqətini mərhum xana yazaraq, gözləyirdi. Bu xəbər Kürün kənarında mərhum xana yetişəndə, ən böyük oğlu Məhəmmədhəsən ağanı beş yüz nəfər ləzgi qoşunu və Qarabağ sərkərdələri ilə birlikdə tam sürətlə qalaya göndərdi. Mərhum xanın gəlməsi xəbərini eşidən Məhəmməd bəy Qarabağ ellərini, Araz kənarına aparmaq və orada dayanıb müxalifət göstərmək fikrinə düşdü.

Məhəmmədhəsən ağa, Məhəmməd bəyin qoşunu və tərəfdarları toplandığı yerə, qalanın üç ağaclığında olan Kirs dağına gəlib çatdı. Bütün Qarabağ əhalisi, qoşunu və mərhum ağanı gördükdə dəstə-dəstə onun qulluğuna gələrək əlini öpdülər. Ellərdən topladığı adamları təyin etdiyi meşələrdə və səhralarda yerləşdirdi. Adam göndərib

Məhəmməd bəyi öz yanına çağırtdı. Məhəmməd bəy, əvvəl qorxdusa da nəhayət, xatircəm olub, Məhəmmədhəsən ağanın yanına gəldi; əlindən öpüb, onun yanında qaldı.

Məhəmməd bəyin müstəqil hakimiyyət dövründə qarışıqlığa bais olan bir neçə nəfəri Məhəmməd bəyin gözü qabağında cəzalandırıldı.

Qalanın içində olan Mehdiqulu xan mərhum ağanın gəlməsini və qoşunun qalanın qabağından keçdiyini eşitcək, əmisi oğlu Məhəmməd bəyin adamlarını tutub həbsə aldı.

Mərhum Məhəmməd Həsən ağa Qarabağ ellərini xatircəm edib, rahatlaşdırdı. Mahallara hökmlər göndərib, hamını öz işilə məşğul olmağa və kasıbçılığını etməyə əmr etdi. Bir qədərdən sonra mərhum İbrahim xan qalan qoşun və adamları, Şahsevən Nəsir xan və Əta xanla birlikdə Qarabağa gəldi.

## AĞA MƏHƏMMƏD ŞAH ÖLDÜRÜLDÜKDƏN VƏ MƏRHUM İBRAHİM XAN BALAKƏNDƏN QARABAĞA QAYITDIQDAN SONRA BAŞ VERƏN BƏZİ HADİSƏLƏR HAQQINDA

Mərhum xan Qarabağa qayıdıb hakimiyyət başına keçdiyi zaman Qarabağ vilayəti əhalisinin vəziyyəti aclıqdan, qəhətlikdən, hədsiz-hesabsız əziyyətdən olduqca pərişan idi. Qarabağ elləri və kəndlərinin çoxu dağılıb, Gürcüstana, Gəncəyə, İrəvana, Şirvana, hətta Rum vilayətlərinə getmiş və mal-dövlətləri tamamilə qarət olunmuşdu. Qonşu və ətraf xanlar zahirdə itaətdən və dostluqdan dəm vururdularsa da, batində öz xeyirlərini güdürdülər. O cümlədən şirvanlı Mustafa xan hələ İbrahim xan Balakəndə olduğu xaman onun kürəkəni Səlim xan Şəkidə hakim olarsa, özünün hakimiyyətinə zərər dəyə biləcəyindən qorxub, Səlim xanın böyük qardaşı kor Məhəmmədhəsən xanı çağırıb ona kömək etdi və Şəki vilayətinə hakim qoydu.

Məhəmməd bəy mərhum Məhəmmədhəsən ağa tərəfindən xatircəm edildiyindən sonra özünü mərhum Pənah xan silsiləsi övladları və başqa xanlar kimi hiss edərək, heç bir şeydən qorxu çəkmirdi. O yalnız cavanlığının və dövlətinin qürurundan Kür qırağına gedib,

şəkili Məhəmmədhəsən xanla dost olmağa başladı. Məhəmmədhəsən xan onu aldadıb dedi ki, mən bir kor adamam, Mustafa xanın hökmündən cana gəlmişəm. Mənim yanıma gəlsən, qızımı sənə verərəm. Şəkidə hökumət sürməyə başlarsan.

Məhəmməd bəy aldanıb, özünün adlı-sanlı övladından və hörmətli əmisindən əl çəkərək, Məhəmmədhəsən xanın yanına getdi. Məhəmmədhəsən xan haman saat Məhəmməd bəyi həbs edib, yanında olan cavahirata, nağd pula və qiymətli şeylərinə sahib oldu. Mustafa xan Məhəmməd bəylə qədimdən qanlı idi. Çünki Məhəmməd bəy atasının qanını almaq üçün Mustafa xanın atasını və qardaşını öldürmüşdü. Odur ki, Məhəmmədhəsən xanın yanına adam göndərib, Məhəmməd bəyi apartdırıb öldürtdü.

Mustafa xan bu dəfə mərhum İbrahim xanın qardaşı oğlunu öldürtdüyü üçün qorxuya düşdü, onunla düşmənçilik etməyə başladı. O tərəfdən də Məhəmmədhəsən xan və Gəncə hakimi Cavad xan İbrahim xanla düşmən oldular.

Bu zaman xəbər yetişdi ki, Ağa Məhəmməd şah tərəfindən Fars vilayəti və Şiraz şəhərinə vali təyin etdiyi Baba xan sərdar adlanan Fətəli şah, Ağa Məhəmməd şahın öldürüldüyünü eşidib hücum etmiş, Tehranı tutub, şahın xəzinəsinə və malına sahib olmuş və taxtında əyləşmişdir.

Bu tərəfdən də Şuşa qalasından qaçmış Sadıq xan Şəqaqi, Azərbaycanı sahibsiz görərək, başına çoxlu adam toplayıb Tehranı tutmaq və girov aparılmış ailəsini geri qaytarmaq üçün İraq tərəfə getdi.

Bu zaman Fətəli şaha birdən xəbər yetişdi ki, Sadıq xan Şəqaqi Azərbaycan vilayətini əlinə keçirmiş və başına çoxlu adam yığıb, İraq vilayətləri sərhədinə girişmişdir. Onun niyyəti Qəzvini almaq, Azərbaycan xanlarının Ağa Məhəmməd şahın əmri ilə əmanət saxlanan ailələrini xilas edib, öz vilayətlərinə çatdırmaq və sonra Tehran qalasının üstünə gəlməkdir.

Mərhum Fətəli şah Fars, Xorasan, Mazandaran, Astarabad və başqa vilayətlərin qoşunlarını toplayıb böyük calal və istiqlaliyyətlə Sadıq xanın qarşısına çıxdı. Arada baş verən böyük müharibədə Sadıq xanın qoşunu basıldı.

Azərbaycanın və sair vilayətlərin əhalisi dəstə-dəstə Fətəli şahın yanına gəldilər. Sadıq xan öz yaxın adamları ilə qaçdı və ailəsini

götürüb Şirvan vilayətinə getdi. Orada bir müddət qaldıqdan sonra, nəhayət, şaha itaət etməkdən başqa bir çarə tapmadı. Onun yanına elçi göndərib, günahının bağışlanmasını xahiş etdi. Şah tərəfindən etimadlı adamlar gəlib ona xatircəmlik verdilər.

Sadıq xan Ağa Məhəmməd şahın həmailini, tacını və bazubəndini götürüb, Ağa Məhəmməd şahın qatili olan Abbas bəylə Tehrana getdi və orada bir neçə müddət qaldı. Nəhayət, Fətəli şah, Sadıq xanı öldürməyəcəyinə and içdiyinə baxmayaraq, onu bir otağa salıb qapısını möhkəm bağladılar və Sadıq xan orada acından öldü.

Fətəli şah İbrahim xanın yanına böyük ehtiramla elçi göndərərək, Ağa Məhəmməd şahın nəşini istəyib, onu itaət etməyə çağırdı. O zaman Qarabağ vilayətinin vəziyyəti ağır və ətraf xanların hamısı İbrahim xanın düşməni olduğundan şahla yola getməyi məsləhət bilərək Ağa Məhəmməd şahın nəşini böyük ehtiramla Tehrana göndərdi.

Fətəli şah, mərhum İbrahim xanın belə münasibətini gələcək taleyinin xoşluğuna yozaraq, onun göndərdiyi elçiləri peşkəşlər və xələtlərlə yola saldı. Qaradağ hökumətinin və o vilayətin bütün mədaxilini mərhum İbrahim xanın öhdəsinə qoyub ona xələt və qılınc göndərdi. Onunla qohum olmaq istəyib xəbər göndərdi ki, hər iki tərəfin xatircəmliyi üçün öz əziz qızı Ağa Bəyim ağanı bizim hərəmxanamıza layiq bilsin. Ağa Bəyim ağa bizim hərəmxanamızın xanımı olsun. Müşavirədən sonra İbrahim xan şahın bu təklifini də qəbul etməyi məsləhət bildi.

O tərəfdən şah xanları tədarüklə göndərdi. Şah tamam calal və izzətlə Ağa Bəyim ağanı alıb, öz hərəminin xanımı və hərəm əhlinin ən böyüyü etdi. Mərhum İbrahim xan Əbülfət ağa adlanan Əbülfət xanı da şahın yanına göndərdi. Şah, onu böyük xanlar sırasına keçirib, öz məclisinin yaxın adamı etdi. Şah Əbülfət xanı həmişə əziz və möhtərəm tuturdu. Hər il Fətəli şah tərəfindən mərhum İbrahim xana və mərhum Məhəmmədhəsən ağaya xələt, qılınc, qızıl yəhərli at göndərilirdi. Bu vəziyyət Rusiya sərdarının Tiflisə gəldiyi günə qədər davam edirdi.

Yüksək Rusiya dövlətinin böyük imperatoru tərəfindən bir sərdar, ixtiyarında olan qoşunla Tiflisə gəlib, müstəqil olaraq Gürcüstanın Tiflis şəhərində yerləşdi. Hələ İrəvan, Gəncə, Şirvan və Qarabağ

vilayətlərini zəbt etmək fikri Rusiya dövləti başçılarının xatirindən keçmədiyi vaxtda belə mərhum İbrahim xan mərhəmətli padşah mərhum Yekaterinanın zamanından başlamış daimi olan Rusiya dövlətinə dostluq və ixlas göstərmək istəyirdi.

General-anşef Zubov gələn vaxtda, bəlkə də ondan daha əvvəl Gürcüstan valisinin məsləhəti ilə İbrahim xanın elçiləri böyük valinin elçisi ilə birlikdə Mozdok liniyasında sərdar qraf Qudoviçin yanına gedərək, onların Rusiya əbədi dövlətinə olan səmimiyyətlərini və itaət edəcəklərini bildirmişdilər. Bu dəfə də məktub yazıb, Tiflisə gəlmiş yüksək Rusiya dövləti sərdarının yanına göndərdilər və qədim dostluğu təzələdilər.

Keçmiş sərdar qayıdandan sonra general Kovalevski sərdarlığa təyin olundu. Gürcüstan valisi və mərhum İbrahim xan yenidən Kovalevskinin yanına elçilər və hədiyyələr göndərib, dostluqlarını ona bildirdilər. Həqiqətən, general Kovalevski elçilərə olduqca hörmət edib, onları sovqat və peşkəşlə yola saldı və İbrahim xanın haqqında çox mehribanlıqlar göstərdi.

Nəhayət, böyük sərdar knyaz Sisianov Gürcüstana gəldi. Knyaz qeyrətli və cürətli sərdar olduğundan bir para Car və Tala ləzgilərinin hərəkətini və Gəncə hakimi Cavad xanın dönüklüyünü və müxalifətini görüb, sair sərdarlar kimi bu işə dözə bilmədi. O, Gürcüstan əhalisinin rahatlığı üçün Car və Tala ləzgilərinin və Cavad xanın tənbeh edilməsini lazım bildi.

Knyaz Sisianov 1803-cü ilin axırlarında Gəncə qalasına gələrək, oranı mühasirə etdi, birayhq mühasirədən sonra Cavad xanın yanına neçə dəfə elçi göndərib onu böyük imperatora tabe olmağa və qalanı təhvil verməyə dəvət etdisə də, bir fayda vermədi. Haman il ramazan ayının axırıncı gecəsi bayram axşamı yürüş edib qalanı aldı. Cavad xan və onun oğlu Hüseynqulu ümumi qırğında öldürüldü. Bütün əhli-əyalı əsir düşdü. Şəhər əhalisindən bir parası öldürüldü. Qalanı isə ölümdən xilas oldu.

General cənab mayor Lisaneviçi Gəncə qalasından mərhum İbrahim xanın yanına göndərib, onu həmişə mərhəmətli olan padşaha tabe olmağa dəvət etdi.

Mərhum İbrahim xan mayora xoş cavablar verərək, hörmətlə geri qaytardı və onunla ehtiramını bildirən məktub göndərdi.

1804-cü ilin yazında Fətəli şahdan qorxusu olan İrəvan hakimi Məhəmməd xan və Fətəli şahdan qaçaraq İrəvanda yaşayan Naxçıvan hakimi Kəlbəli xan sərdar Sisianovun yanına elçi göndərib ondan kömək istədilər və xəbər verdilər ki, Fətəli şah, oğlu vəliəhd Abbas Mirzəyə İrəvan üzərinə getməyə əmr vermişdir. Hərgah sərdar gəlib bizə kömək göstərərsə, biz İrəvan qalasını sərdara təslim edib, yüksək Rusiya dövlətinə tabe olmağı qəbul edərik.

Ona görə də sərdar Sisianov İrəvana tərəf hərəkət etdi. O tərəfdən də Qızılbaş vəliəhdi naibüssəltənə Qızılbaş qoşunu ilə gəlib İrəvana yetişdi. Arada böyük müharibə oldu. Qızılbaş qoşunu basılıb qaçmağa üz qoydu.

## FƏTƏLİ ŞAHIN İRƏVANDA RUSİYA SƏRDARI İLƏ MÜHARİBƏSİ

Bu xəbər Fətəli şaha yetişəndən sonra knyaz Sisianovu dəf etmək, həm də İrəvanın Rusiya dövləti əlinə keçməsinə yol verməmək üçün böyük qoşunla İrəvana gəldi.

Bir tərəfdən Fətəli şah, digər tərəfdən naibüssəltənənin qoşunu, o biri tərəfdən də sərdarla bağladıqları əhdi pozub qalanı ona təslim etməyən Məhəmməd xan və Kəlbəli xan Rusiya qoşununu aralığa alaraq, hətta azuqənin gəlməsinə belə mane oldular. Bu qədər zəhmətlərə baxmayaraq, yene də Rusiya qoşununa əl tapa bilmədilər, hər iki qoşuna çoxlu ziyan dəydi, knyaz Sisianov Tiflisə qayıtmağı məsləhət bilərək, köçüb Tiflisə getdi.

## ƏBÜLFƏT XANIN TUĞ KƏNDİNDƏ İBRAHİM XAN, MƏHƏMMƏDHƏSƏN XAN VƏ MEHDİQULU XANLA DAVASI

Fətəli şah Azərbaycan və oradan da Tehran tərəfə qayıtdı. İrəvandan qayıdan zaman mərhum İbrahim xanın Rusiya sərdarları ilə olan dostluğunu və onların yanına elçilər göndərməsini eşitmişdi. Əbülfət xanı 5 min nəfər qoşunla Qarabağa, İbrahim xanın yanına

göndərdi ki, mərhum xana kömək etsin və mərhum Məhəmmədhəsən ağanı bir neçə nəfər Qarabağ bəyzadələri ilə birlikdə Fətəli şahın yanına göndərsin. Nə qədər ki, İbrahim xan sağdır, Əbülfət xan onun yanında vəkil olaraq qalsın. Qarabağda Əbülfət xandan icazəsiz heç bir iş görülməsin.

Mərhum İbrahim xan Fətəli şahın bu təklifiərindən inciyib, Əbülfət xana kobud cavab yazdı və geri qayıdıb Qarabağ torpağına ayaq basmamasını təklif etdi.

Əbülfət xan hörmətli atasının əmrini qəbul etməyərək, Qızılbaş qoşununu götürüb, mərhum İbrahim xan və Məhəmmədhəsən ağanın Dizaq mahalının Tuğ kəndində olduqları zaman böyük qələbəliklə onların üzərinə hərəkət etdi. Əbülfət xanın belə hərəkət edəcəyinə kimsə inana bilmirdi. Buna baxmayaraq, Zəngəzur mahalında olan Mehdiqulu xan dağın o tərəfindəki əhalinin qoçaq tüfəngçilərini və özünün bacarıqlı qulluqçularını götürüb tam sürətlə mərhum İbrahim xanın və böyük qardaşı mərhum Məhəmmədhəsən ağanın yanına gəldi. Mehdiqulu xanın gəlib çatdığı gecənin səhəri, Əbülfət xan çoxlu qoşunla Tuğ kəndi üzərinə hücum etdi. Mərhum xanın və oğullarının yanında olan qoçaq tüfəngçiləri və adlı-sanlı atlılar hücum edib, Qızılbaş qoşununu sındırdılar. Onların bütün atları, heyvanları qarət edildi. Onlardan bir çoxu tutuldu və öldürüldü. Əbülfət xanın özü isə bir neçə nəfərlə Arazın o tayına qaçdı.

Fətəli şah bu əhvalatı eşidib, mərhum İbrahim xanın Qızılbaş dövlətindən bütünlüklə əl çəkməməsi və Rusiya dövlətinə qoşulmaması üçün yenə yumşaqlıqla mərhum İbrahim xanın yanına iki-üç nəfər elçi göndərdi və Əbülfət xanı danlayıb məzəmmət etdi. Kərim xan, Rəhim xan və Abdulla xanı nəvazişli fərmanlar, təəhhüdlərlə və qəliz andlarla İbrahim xanın yanına göndərib, belə danışmaqlarını tapşırdı: bütün Qaradağ vilayəti padşahlığa çatan gəliri ilə birlikdə həmişəlik olaraq İbrahim xan nəslinin ixtiyarında qalacaqdır. Öz övla-dından iki nəfərini Şuşa qalasında, mərhum İbrahim xanın yanında əmanət qoyacaqdır. İbrahim xan da Tiflis və Yelizavetpol yolları üstündə, Şuşa qalasının üç ağaclığında olan hər iki Əsgəran qalasını Qızılbaş qoşununun ixtiyarına verməlidir. Rus qoşununun yolunu kəsmək üçün hər iki qala möhkəmləndirilməli və içinə qoşun qoyulmalıdır. Həmçinin, qalanın bir ağaclığındakı çayı və Şuşa qalasının

üç verstliyində olan səngəri Qızılbaş qoşununun ixtiyarına verməlidir. Hər iki çay keçidlər və yollar Qızılbaş qoşununun əlində olmalıdır. Rusiya dövlətinin qoşunu Şuşa qalasına gəlmək istədiyi zaman onun qarşısını almaq üçün bu yerlərdə möhkəm səngərlər qurulmalıdır. Bir nəfər sərdar 2-3 min atlı ilə Şahbulaqda dayanmalı, Tiflis və Gəncə tərəflərindən xəbər tutmalı və o tərəflərin xalqını qırıb, qarət etməlidirlər. Hər bir kimsə İbrahim xanın əmrindən çıxmamalıdır. Qızdbaş qoşununun bütün xərci Fətəli şahın xəzinəsindən veriləcəkdir. Qarabağ vilayətinin heç bir şeyinə tamah gözüylə baxılmamalıdır. Qızılbaş qoşununa lazım olan sursat və qeyri şeylər qoşunun öz pulu ilə alınmalıdır. Bunlardan məqsəd Gürcüstanın və Şirvanın qapısı olan Allahın əli ilə yaranmış möhkəm Şuşa qalası Rusiya dövləti əlinə keçməməsidir.

Mərhum İbrahim xanın qızı Ağa Bəyim ağa Fətəli şahın birinci və baş hərəmi, oğlu Əbülfət xan isə şahın ən hörməfli adamı olduğuna baxmayaraq, o, (İbrahim xan) yüksək Rusiya dövlətini əbədi və böyük imperatorun mərhəmətini daimi sanıb, qüdrətinin və mərhəmətinin dəyişilməz olduğuna inamı var idi. Ona görə də Tiflis şəhərinə təkrar elçi göndərib Sərdar Sisianovla görüşmək, itaət və dostluq şərtlərini yazıb, bitirmək istədiyini bildirdi. Knyaz Sisianov, mərhum İbrahim xanın elçilərini hörmət və ənamla geri qaytarıb, görüşün yazda, Gəncə vilayətində əmələ gələcəyini xəbər verdi.

Ona görə, 1805-ci il may ayının əvvəlində mərhum İbrahim xan öz oğulları: mərhum general-mayor Məhəmmədhəsən ağa, general-mayor Mehdiqulu xan, polkovnik Xanlar ağa[1] və Qarabağın başqa əyanları ilə birlikdə gəlib, onlardan qabaq Kürək çayının başında ordu qurub böyük sərdar Sisianovla görüşdü. Eyni zamanda etimadlı bir adam göndərib, kürəkəni olan Şəki vilayətinin hakimi Səlim xanı da Şəkinin əyanları ilə birlikdə böyük sərdarın yanına gətirtdi.

Bir neçə gün Kürək çayında böyük təntənə, şənlik və qonaqlıq oldu. Sonra traktat və əhdnamə yazıldı. Mərhum İbrahim xan və Şəki hakimi Səlim xan əhdnaməni möhürlədikdən və böyük sərdar isə onu imzaladıqdan sonra bir-birinə izzət və hörmət göstərib qayıtdılar.

[1] İbrahimxəlil xanın oğlanları Məhəmmədhəsən ağa, Mehdiqulu ağa və Xanlar ağa yalnız 1805-ci il Kürəkçay sazişindən sonra hərbi rütbə almışlar.

## RUSLARIN İLK DƏFƏ QARABAĞ VİLAYƏTİNƏ GƏLİŞİ HAQQINDA

(Əhdnamə bağlanan zaman) belə şərt elədilər ki, mərhum Məhəmmədhəsən ağanın ikinci oğlunu Tiflisdə əmanət qoysunlar. Mərhum İbrahim xan da Rusiya qoşunlarından bir dəstəsinin topxana ilə bərabər həmişə Şuşa qalasında saxlanmasını xahiş etmişdi. O məclisdə, mərhum İbrahim xanla, Səlim xana general-leytenantlıq, Məhəmmədhəsən ağa ilə Mehdiqulu xana general-mayorluq və mərhum Xanlar ağaya polkovniklik rütbəsi verilməsi haqqında sərdarın vasitəsilə padşahın hüzuruna məktub yazıldı. Bu iltifat və məvacibli rütbələrin verilməsi haqqında fərman 4 aydan sonra gəlib çatdı.

Kürək çayı yığıncağından sonra mayor Lisaneviç sərdarın əmri üzrə bir yeger dəstəsi və topxana ilə Qarabağın on verstliyində olan Xan bağına gəldi. Bu zaman, Qızılbaş qoşununun Araz qırağına yaxınlaşması xəbəri yetişdi.

## MƏHƏMMƏDHƏSƏN AĞANIN RUSİYA QOŞUNUNU QARABAĞA GƏTİRMƏSİ VƏ QIZILBAŞLARLA DAVA ETMƏSİ HAQQINDA

Məhəmmədhəsən ağa yeger dəstəsini və mayoru götürüb, Qarabağın adlı-sanlı atlıları ilə birlikdə Qızılbaş qoşununun qarşısını almaq üçün yola düşdü. Araz çayının daşan vaxtı idi. Körpüdən başqa ayrı bir keçid yox idi. Məhəmmədhəsən ağa, Qızılbaş qoşununu Qarabağa girməyə qoymamaq, ellərin, kəndlərin, habelə vilayətin malı, taxılı ayaq altında tələf olmaması üçün körpünün yanını kəsdirmək fikrində idi. Lakin Qızılbaş qoşunu onu qabaqlayıb körpüdən keçmiş və Qarabağ torpağına girmişdi. Qızılbaş qoşunu Cəbrayıllı bağları ətrafında Rusiya və Qarabağ əsgərlərinə rast gəldi. Hər iki qoşun arasında bərk dava oldu. Gecə, mərhum Məhəmmədhəsən ağa Şuşa qalasını qorumağı vacib bilərək, qoşunla qalaya qayıtdı. Qızılbaş qoşunu, qalanın dörd ağaclığında olan Ağoğlana girdi. Onlar 5 minə yaxın qoşunla Əsgəran qalasına yaxınlaşaraq, hər iki tərəfdən qalanı almaq istəyirdilər.

Mayor bu əhvalatı sərdara yazmışdı. Bu zaman İranın naibüssəltənəsi Çanaxçı kəndində dayanaraq, Əsgərandan qoşunun gəlməsini gözləyirdi.

Böyük sərdarın əmri ilə polkovnik Karyagin və podpolkovnik Kotlyarevski topxana ilə Şahbulaq qalasına yetişdilər. Naibüssəltənə Çanaxçıdan köçüb polkovnik Karyaginin üstünə getdi. Onun qoşunu vuruşa-vuruşa Əsgəran yaxınlığına çatdı. Qızılbaş qoşunu hər yeri, bütün dərələri, yolları möhkəm edib, Əsgəran qalasını tutduğundan qoşunun və topxananın keçməsi çətinə düşdü. Rusiya qoşununun bir dəstəsi Əsgəran ətrafında səngər qurub 15 gün ərzində gecə-gündüz Qızılbaş qoşunu ilə dava etdi. Bunu da qeyd etmək lazımdır ki, Rusiya qoşununun səngərləri sudan uzaqda idi. 15 gün arasıkəsilmədən dava etdikdən sonra polkovnik Karyagin və Kotlyarevski yaralandılar. Rusiya qoşununun yarısı davada tələf oldu. Onlar 300 nəfər soldatı və topxananı götürüb, hal-hazırda məlik olan Vanya yüzbaşının bələdçiliyi ilə Şahbulağa qayıtdılar. Məlik Vanya o müharibədə diqqətəşayan xidmətlər göstərdi.

Rus qoşununun Şahbulağa girə bilməməsi üçün orada çoxlu piyada Qızılbaş qoşunu qoyulduğuna baxmayaraq, (ruslar) haman gecə yürüş edib, qalanı qızılbaşların əlindən aldılar və bir Qızılbaş xanını neçə nəfər əsgəri ilə birlikdə öldürdülər. Orada üç gün qaldıqdan sonra yenə də məlik Vanyanın bələdçiliyi ilə Yelizavetpola getdilər.

Fətəli xan Qızılbaş qoşunu ilə Qarabağa gəlib, Şuşa qalasının altı ağaclığında ordu qurdu. Polkovnik Karyagin Yelizavetpola getdikdən sonra naibüssəltənə Abbas Mirzə Şahbulağın ətrafında ordu qurmuşdu. Bu zaman böyük sərdar Sisianov naibüssəltənə Abbas Mirzəni və Fətəli şahı dəf etmək üçün Rusiya əsgərləri ilə Qarabağ torpağı və sərhədinə daxil oldu...

Fətəli şah Ağoğlanda qalmışdı. Bu zaman Rəşt tərəfindən xəbər yetişdi ki, Rusiya dövlətinin qoşunu Xəzər dənizi yolu ilə Talış və Rəşt vilayətlərinə tərəf gəlməkdədir. Şah, bu xəbərə görə, habelə Sisianovdan gələcək zərərdən ehtiyat edərək, Ərdəbil tərəfə hərəkət etdi. Sərdar Sisianov Ağoğlanın iki ağaclığında olan Xonaşenə çatdıqda, şahın köçüb getdiyindən xəbər tutaraq, Şuşa qalasına getdi. Burada bir para işlərə baş çəkib Fətəli şah tərəfindən yuxarıda

göstərilən şərt və təəhhüdlərlə İbrahim xanın yanına elçi sifətilə göndərilmiş 2-3 nəfər xanı götürüb, çox hörmət və razılıqla Qarabağdan Tiflis tərəfə yola düşdü.

Haman ilin qışında yüksək dövlətin əsgərləri ilə Kürdən keçərək, Şirvan, Bakı, Quba və Dərbəndi almaq niyyəti ilə Şəki tərəfə hərəkət etdi.

Yüksək dövlətə səmimiyyəti olan mərhum İbrahim xan, öz ali-cənab oğlu mərhum Mehdiqulu xanı Qarabağ qoşunu və bəyzadələri ilə birlikdə padşahın əsgərləri sırasında tapşırılan işləri yerinə yetirmək üçün sərdarın yanına göndərdi.

Yüksək dövlətə tabe olan Şəki hakimi Səlim xan da çoxlu tədarük və sərdarə layiq peşkəşləri Şəki vilayəti sərhədindən ötürüb, Şirvan vilayətinə çatdırdı.

İlk günlərdə mal-dövlətinə və məkanının çətin yollarına güvənən Mustafa xan bir neçə gün sərdara qürurlu cavabını yazaraq itaətdən boyun qaçırdısa, axırda qüdrətli rus əsgərləri və Qarabağla Şəki qoşunu qarşısında müqavimət göstərə bilməyəcəyini düşündü. Bu zaman Qarabağ qoşunu da fürsət tapdıqca Şirvana əl uzadıb, qarət edirdi. (Buna görə Mustafa xan) Mehdiqulu xanla Səlim xanın təşviqi ilə itaətdən dəm vuraraq mərhum İbrahim xan kimi əhdnamə yazdı və üzdə yüksək Rusiya dövlətinin itaəti altına keçdi.

Böyük sərdar Şirvandan keçib, Bakı tərəfə getdi. Bu zaman mərhum İbrahim xanın böyük oğlu general-mayor Məhəmmədhəsən ağa Allah rəhmətinə getdi. Bu küdurətli hadisədən bütün Qarabağ vilayətini qəm və pərişanlıq basdı. Batində yüksək Rusiya dövlətinə tabe olmaq istəməyən bəzi adamlar Məhəmmədhəsən ağanın vəfatından Mehdiqulu ağanın vilayətdən uzaqlaşmasından və mərhum İbrahim xanın xəstəliyi, zəifliyi və qocalığından istifadə edərək, peyman və əhdnamənin əksinə olan işlər görməyə başladılar. Odur ki, böyük sərdar Mehdiqulu xanı Qarabağ qoşunu ilə geri göndərməyi məsləhət bilərək, onu izzət, hörmət, layiqli ənam və ümidlərlə Qarabağa yola saldı. Mərhum general-mayor Məhəmmədhəsən ağa xüsusi məhəbbəti və səmimiyyəti olduğundan hörmətli cənab polkovnik Cəfərqulu ağaya həmdərdlik və mehribanlıq andıran məhəbbətli bir məktub yazıb, onu sevəcək və atalıq edəcəyini bildirdi.

General-mayor Mehdiqulu xan Qarabağın qoşunu və bəyzadələri ilə birlikdə hörmətli atasının yanına gələrək, böyük sərdarın məhəb-

bətli və ümidverici sözlərini ona söylədi. Bir para fitnəkarların fəsadını dəf etmək və yüksək olan dövlətə sədaqət göstərmək qaydalarını möhkəmləndirməsi uğrunda çalışırdı.

Bu zaman sərdar Sisianovun Bakı vilayətinə yetişdiyi xəbəri çatdı. Bakı hakimi Hüseynqulu xan ilk günlərdə itaət etməyə razı olmuşdu. Sərdar ondan və adamlarından pis hərəkət baş verəcəyini ürəyinə gətirmirdi. Bir gün sərdar iki nəfər bəyzadə ilə birlikdə Bakı qalası ətrafında Hüseynqulu xanla söhbət etdiyi zaman İbrahim bəy adlı birisi iki nəfər başqa adamla gizləndikləri pusqudan güllə atıb, böyük sərdarı və yoldaşlarını öldürdülər və bununla da özlərini pad-şahın əsgərlərinə düşmən etdilər. Bu kədərli xəbərdən mərhum İbrahim xanın övladının və vilayət əhlinin halı pərişan oldu. Çünki hələ Rusiya dövlətinin qayda-qanunundan xəbərdar deyildilər. Onların fikri İran qaydalarına gedirdi. Əgər (İranda) belə bir böyük sərdar vəfat etsə, vilayətin də nəzmi tamamilə pozular. Halbuki, yüksək dövlətin bir deyil, bir neçə sərdarı və sərkərdəsi belə, düşmənlə müharibədə öldürülərsə ondan dövlətin möhkəm nizamına və işlərinə xələl dəyməz və vilayətə qarışıqlıq düşməz.

Sərdar Sisianovun vəfatından sonra general Nesvetayev Tiflisdə qoşunun və vilayətin işlərini nizama salmaqla məşğul oldu. Mərhum İbrahim xanın adamı dostluq məktubu ilə generalın yanına getdi, hər cəhətdən xatircəmlik hasil oldu.

Haman 1806-cı ilin yazında Qızılbaş qoşunu Qarabağ tərəfə keçməyə başladı. Fətəli şah mərhum İbrahim xanın yanına xəlvətcə adamlar göndərib, ona ümidlər verirdi. Belə bir qüvvətli düşməni dəf etmək üçün Qarabağda yeger dəstəsi və mayor Lisaneviçdən başqa qoşun olmadığından ellər və kəndlər ayaq altında məhv ola bilərdi. (Bir tərəfdən də) taxıl biçiminin vaxtı gəlib çatmışdı.

Buna görə mərhum İbrahim xan Qızılbaşla yola getməyi məsləhət bildi. O hər bir məsləhəti mayora deyirdi. Mayor da İbrahim xana Rusiya qoşununun tezliklə gəlib yetişəcəyini vəd edirdi. Doğrudan da qoşunun gəlməsi çox yubandı. Qızılbaş qoşunu qalanın iki ağaclığına yetişmişdi. Mərhum İbrahim xan evini, ailəsini xan bağından qalanın yaxınlığına köçürmüşdü. Bilmirəm bir para fitnəkar adamlar mayora nə demişdilər ki, o, 200 nəfər soldatla İbrahim xanın və ailəsinin üstünə gedib, o gecə Allahın qəzasından İbrahim xanı, arvadı Tuba xanımı, qızı Səltənət bəyimi, 12 yaşlı bir oğlunu, həmçinin Kəbirli

Abbasqulu ağanı, Hacıhəsənli bəyi və Mirzə Haqverdini, qərvəndli Hümmət bəyi, sarıcalı Gülməli bəyin oğlu Cavanşiri və Həsənağanı, qərvəndli qulluqçu Əli Pənahı, əfşar Cavanşiri və Mirzə Nağını, kəbirli Əcəmoğlunun oğlu Hacı Həsəni və onun iki oğlunu, iki nəfər şelli və iki nəfər başqa adamı, cəmi 17 nəfəri öldürdü. Bu adamlar 1221-ci ildə[1] gecə səhərə 3 saat qalmış öldürüldü.

Bu hadisə üz verdiyi zaman general-mayor Mehdiqulu xan və polkovnik Cəfərqulu ağa qalada idilər. Onlar yüksək Rusiya dövlətinə qarşı dostluq qaydasını poza bilən heç bir iş görmədilər. (Əksinə) qorxuya düşmüş xalqı sakit etməyə çalışdılar və heç bir işdə cənab mayorun ziddinə getmədilər. Taxıl və ərzaq az tapıldığı üçün onu tədarük etməyə səy etdilər.

Bu zaman Qızılbaş qoşunu naibüssəltənə Abbas Mirzə ilə Ağoğlanda idilər. İbrahim xanın bu qəmli hadisəsindən hələ 15 gün keçməmişdi ki, qoşun və topxana general Nebolsinin sərkərdəliyi ilə Şahbulağa çatdı. Qoşunun gəlməsi xəbərini eşidən Mehdiqulu xan Qarabağın adlı-sanlı atlıları, qulluqçuları və bir neçə bəyzadələr ilə birlikdə Qızılbaş qoşununun yollarını hər tərəfdən kəsdiklərinə baxmayaraq, qaladan çıxıb Nebolsinin yanına gəldi və Rusiya dövlətinin qoşununa qoşuldu. Onlar Əsgəran ətrafında ordu qurdular. Polkovnik Cəfərqulu ağa, mayor və yeger dəstəsi qalanı qorumaq üçün orada qaldılar.

General Nebolsin, İranın naibüssəltənəsi Qızılbaş qoşunu ilə hücum edəcəyi ehtimalı ilə 2-3 gün gözlədi. Lakin onlardan bir əsər görünmədi. Ona görə də belə məsləhət gördülər ki, Qızılbaş qoşunu tərəfə hərəkət etsinlər, onlar vuruşmaq istəsələr, vuruşsunlar, əks təqdirdə hücum edib, onları Qarabağ torpağından çıxartsınlar.

Naibüssəltənə Rusiya qoşununun ona tərəf gəlməsini eşidib, bütün qoşunu ilə müharibə etməyə gəldi. Xonaşen mənzilinin yaxınlığında hər iki qoşun bir-biri ilə üzləşdi. Aralarında böyük dava oldu. Mehdiqulu xan öz adamları ilə Qarabağ qoşunu ilə həmişə bələdçilik edib, döyüşdə də Rusiya qoşunu sıralarında Qızılbaş qoşununu dəf etməyə çalışırdı. İyul ayının 15-də Xonaşen mənzilində, hər iki qoşun arasında 7 saat davam edən döyüşdən sonra general Nebolsinin təd-

---

[1] Hicri 1221-ci il miladi 1806-cı ilə bərabərdir. İbrahimxəlil xanın qətli 1806-cı il 14 iyun gecəsinə təsadüf edir.

biri, Kotlyarevskinin şücaəti və Mehdiqulu xanın köməyi ilə Qızılbaş qoşunu məğlub oldu. Onlardan bir qədəri öldürüldü, bir parası əsir oldu, qalanı da Araz tərəfinə qaçdı. Bu davada Kotlyarevski də yaralandı. Ondan başqa 30 nəfərə qədər zabit və soldat da yaralandı və öldürüldü. General qoşun götürüb, onları (qızılbaşları) Qozlu çaya qədər təqib etdi, lakin bir əsər tapa bilmədi.

Naibüssəltənə ağır yükünün çoxusunu töküb, Qızılbaş qoşunu ilə qaçdı. İki gün ərzində Arazdan keçib, sərhədin o tayına çıxdı.

Qızılbaş qoşununun məğlub olması xəbəri yayılan zaman Əbülfət xan, Qarabağın başqa qaçqın xanları və bəyləri ilə birlikdə bütün elləri və bəzi kəndləri köçürüb Naxçıvan və Ordubada tərəf aparırdılar. General-mayor Cəfərqulu ağa cənab-mayor Lisaneviç ilə ellərin məşhur atlılarını və yaxın adamlarını götürüb, Qarabağ ellərini qaytarmaq və Qızılbaş qoşununu dəf etmək üçün Zəngəzur mahalı yolu ilə hərəkət etdilər. Soldatların dağlarda piyada yol getməsi və arxadan atlılara çatması çətin olduğuna baxmayaraq, var qüvvə ilə gecə-gündüz dayanmadan yol getdilər. Nəhayət, Qarabağ atlıları polkovnik Cəfərqulu ağanın başçılığı ilə Qapan və Ordubad dağlarında Qızılbaş qoşununa yetişib onunla davaya başladılar. Qızılbaş qoşunundan 2 minə yaxın atlı və piyadasını dar dərələrdə məğlub edib, hamısını tutub soydular. At, paltar, yaraq və başqa şeylərini əllərindən alıb, lüt elədilər. Arxadan gələn soldatlar Qızılbaş qoşununun bir parasını ölü, bir parasını əsir və qalanını da qaçmış gördülər. Sürülüb aparılmaqda olan Qarabağ elləri və rəiyyətlərinin hamısı qala ətrafında olan dağlara qayıtdılar. O zaman naibüssəltənə Araz kənarında idi.

Bir tərəfdən general Nebolsinin qoşunu Mehdiqulu xanla birlikdə naibüssəltənəni məğlub etmələri, o biri tərəfdən də mayorun və polkovnik Cəfərqulu ağanın belə bir işi yerinə yetirmələri padşah əsgərlərinin gücünü nümayiş etdirdi. Qarabağ camaatı asudə olub, hər kəs öz yerində, öz məkanında yerləşib, tam rahatlıqla yaşamağa başladılar.

Həmin ilin qışında general-anşef qraf Qudoviç böyük imperator mərhum Aleksandr Pavloviç tərəfindən sərdar təyin olunaraq, Tiflis şəhərinə gəldi. General-mayor Nesvetayevin imperatora yazdığı ərizəsinə görə Mehdiqulu xanı öz yanına Tiflis şəhərinə çağırdı. Mehdiqulu xan bütün kəndxudalar və ellərin bəyləri ilə birlikdə

Tiflis şəhərinə gedib, qrafla görüşdü. İkinci gün, ümumi yığıncaq oldu. Qraf əhdnamədə qeyd olunmuş Qarabağ hakimiyyətinin fərmanını, cavahiratla bəzənmiş qılıncı və padşahlıq bayrağını Mehdiqulu xana təhvil verib, onu böyük mərhəmət, ümid və vədlər ilə Qarabağa yola saldı.

Mehdiqulu xanın hökuməti bu tarixdən 1822-ci ilin oktyabr ayına qədər davam etmişdir. Əlbəttə, yüksək dövlətin kargüzarları bu barədə dəftərlərə yazmış və sizə məlum olduğundan mənim ərzimə ehtiyac qalmır.

## MEHDİQULU XANIN VARİSLİYİ VƏ VƏLİƏHDLİYİNİN SƏBƏBLƏRİ

Yuxarıda qeyd olunduğu kimi mərhum İbrahim xan Kürəkçayda sərdar knyaz Sisianovla ilk dəfə görüşdükdə varislik və vəliəhdlik böyük oğlu mərhum Məhəmmədhəsən ağanın adına idi və orada Məhəmmədhəsən ağanın ikinci oğlu əmanət və girov sifətilə sərdar Sisianova verildi. General-mayor Məhəmmədhəsən ağa, mərhum İbrahim xanın sağlığında vəfat etdiyindən xanın ən böyük oğlu general-mayor Mehdiqulu ağa idi. Buna görə də mərhum İbrahim xanın sağlığında varislik və vəliəhdlik kağızı xanın və Qarabağın başqa əyanlarının möhürü ilə Mehdiqulu ağaya verildi, xan və varis adlandırıldı.

Bu səbəbə görə mərhum İbrahim xan vəfat etdikdən sonra mayor Lisaneviç əhvalatı general-mayor Nesvetayevə yazmışdı və ona əsasən böyük imperator mərhum Aleksandr Pavloviçin fərmanı, bayraq və qılıncla Mehdiqulu xanın adına göndərildi və o, 1807-ci ildə Qarabağ hökumətinə və xanlığına təyin edildi.

## XANLARIN HAKİMİYYƏT DÖVRÜ HAQQINDA

Mərhum Pənah xanın Qarabağ vilayətində hakimiyyəti Nadir şahın qardaşı oğlu Adil şahdan aldığı xanlıq ləqəbi və hakimlik fərmanından sonra 12 il davam etmişdir.

Mərhum İbrahim xan Qarabağ vilayətində 44 il[1] müstəqil xanlıq etmiş və bir kəsə xərac verməmişdir.

Mərhum Mehdiqulu xan böyük imperatorun fərmanı üzrə 17 ildən bir neçə ay artıq hakim olmuşdur.

## PƏNAH XANDAN QARABAĞDA QALMIŞ ƏSƏRLƏR VƏ İMARƏTLƏR HAQQINDA

Əvvəl Bayat qalasıdır. Bu qala bişmiş kərpicdən tikilmiş, içində bazarı, hamamı, barsı və Pənah xanın özünə məxsus imarəti var idi. İndi xarab olmuş, xırdapara qalıqları görünür. Mərhum Pənah xan Bayat qalasını hicri 1161-ci, miladi 1745-ci ildə[2] tikdirmişdir.

İkincisi - Şahbulaqdır. Burada bulaq başında daşla və əhənglə məscid, hamam, şəhər və bazar tikilmişdir. Bunun adına Tərnəküt qalası deyirlər. Pənah xan o qalanı 1165-ci ildə[3] tikdirmişdir.

Üçüncüsü - Şuşa qalası adlanan Pənahabaddır. Şuşa qalasının binasını Pənah xan qoymuş, hal-hazırda abad olan qalanın üçdəbir hissəsini o bina etmiş və ətrafına, əvvəldən, möhkəm hasar çəkdirmişdir. Onun bir tərəfində, qalanın kənarında özü üçün kiçik qalaya bənzər bürclü, barılı imarət düzəltmişdi. Bir təpənin üzərində öz evinə bənzər bürclü və banlı gözəl bir ev də böyük oğlu İbrahim xan üçün tikdirmişdi. Bundan məqsəd düşmən gələndə qalanı ondan qorumaq idi. İkinci oğlu Mehralı bəy, üçüncü oğlu Talıbxan üçün də qalada gözəl evlər tikdirmişdi.

Mərhum Pənah xan tərəfindən binası qoyulmuş Şuşa qalası hicri 1170, miladi 1754-cü ildə[4] tikilmişdir. Kərim xan Zənd İraq, Fars və Azərbaycan vilayətlərini ələ keçirdikdə mərhum Pənah xan ehtiyat üçün Şuşa qalasının binasını qoydu. Qala Vərəndə mahalının məliki Məlik Şahnəzərin tədbiri və bələdçiliyi ilə tikilmişdir.

---

[1] İbrahimxəlil xan 1759-1806-cı illərdə 47 il Qarabağ hakimi olmuşdur.

[2] Hicri 1161-ci il miladi 1748-ci ilə təsadüf edir və həmin ildə Bayat qalası tikilmişdir.

[3] Şahbulaq qalası 1749-cu ildə tikilmişdi. Hicri 1165-ci il isə miladi 1751-1752-ci illərə təsadüf edir.

[4] Hicri 1170-ci il miladi 1756/57-ci ilə bərabərdir.

## MƏRHUM İBRAHİM XANIN QARABAĞDA APARDIĞI ABADLIQ İŞLƏRİ

Birincisi - indi də şəhərin ortasında, qalanın içərisində olan böyük məsciddir ki, hicri 1182-ci il miladi 1766-cı ildə[1] tikilmişdir. Köhnəldiyinə görə onu mərhum İbrahim xanın qızı Gövhər ağa bu yaxınlarda 1279-cu ildə[2] əsaslı surətdə təmir etdirdi.

İkincisi - Şuşa qalasının hasar və divarıdır ki, indi də durur. Bunu mərhum İbrahim xan 1198-ci ildə[3] tikdirmişdir. Bu hasar 3 ilə, yəni 1782-ci ildə tikilib qurtarmışdır. Bəzi yerləri köhnəlmiş idi. Yüksək Rusiya dövləti işçiləri onu tezliklə möhkəmlətdilər.

Mərhum İbrahim xanın yadigarlarından üçüncüsü - hər iki Əsgəran qalasıdır. Bu qalaları hicri 1203, miladi 1786-cı ildə tikdirmişdir[4]. Bu qalalar Şuşa qalasının üç ağaclığında, Qarqar çayının keçidi olan iki dağın arasında yerləşmişdir. Şirvan, Şəki və Dağıstan vilayətləri əhalisi mərhum Pənah xanla düşmən olduqlarından ehtiyat üçün böyük oğlu İbrahim xana vəsiyyət etmişdi ki, əgər fürsət tapmasam, sən bu iki Əsgəran dağının arasında iki qala tikdir ki, düşmən gələn zaman piyada qoşunlarımız bu qalalarda olsunlar. Oradan Şuşa qalasına 8 verstə qədər məsafə vardır[5]. Düşmən oradan keçib qalaya gələ bilməz. Belə ki, bu qalaların ətrafı möhkəm dağlar, meşələr, daşlar, qayalar və böyük səhralardır. Düşmənçilik zamanı ellər və başqaları orada sığınaq edərlər. Qalalarda tüfəngçilər qoyarlarsa, düşmən oradan keçib, xalqın mal-qarasını qarət və talan edə bilməz.

Mərhum İbrahim xan haman vəsiyyətə görə hər iki qalanı - birini Şərq, o birini isə Qərb tərəfdə daş və əhənglə tikdirib, möhkəm bürc və barı çəkdirdi. Ağa Məhəmməd şah gələndə əvvəl Şuşa qalasının üzərinə qoşun çəkdi. Şuşa qalasını tutmağı bacarmadığı üçün Şuşa kəndindən köçüb Tiflis tərəfə getdiyi

---

[1] Hicri 1182-ci il miladi 1768/69-cu ilə bərabərdir.

[2] Hicri 1279-cu il, miladi 1862/63-cü ilə bərabərdir.

[3] Hicri 1198-ci il, miladi 1783/84-cü ilə bərabərdir.

[4] Hicri 1203-cü il, miladi 1788-1789-cu illərə təsadüf edir. Əslində Əsgəran qalaları 1783-1784-cü illərdə tikilmişdir.

[5] Əslində Əsgərandan Şuşaya 24 kilometr məsafə vardır.

zaman Qızılbaş qoşunu bu qalalardan keçib gedə bilmədi. Bu qalalara bir neçə böyük top atdılarsa da, onların möhkəm binasına bir zərər yetirə bilmədilər. Nəhayət, Əsgəranla Şuşa qalası arasında iyirmi gün məəttəl qaldılar. Onların qatır, at və sair malları oğurlanıb, tələf oldu. Axırda, mərhum İbrahim xanın əmri ilə tüfəngçilər və başqa qoşun əhli Əsgəran qalasını boşaldıb Şuşa qalasına gəldilər. Bundan sonra Ağa Məhəmməd şahın qoşunları oradan keçib, Qarqar çayının kənarında ordu quraraq, bir müddət dincəldilər və sonra Tiflisə getdilər.

Dördüncüsü - İbrahim xanın özünəməxsus imarətləridir. Şuşa şəhərində olan bu imarətlərin birində Gəncə xanzadələrindən olan Mehdiqulu xanın anası yaşayırdı. Bir imarətdə də polkovnik Xanlar ağa və Əhməd xanın anası Bikə ağa olurdu. Bikə ağa, Avar vilayətinin valisi dağıstanlı Ümmə xanın bacısı idi.

Beşincisi - Xəzinə dərəsinin imarət və otaqlarıdır. Şuşa qalasında dağların, daşların arasında olan imarətdir ki, mağaranın içində əhəng və daşla tikilmişdir. Buraya təkcə bir yol vardır, çıxış yolları isə yoxdur. Bu yoldan yalnız piyada keçmək olar. Burada eni və uzunu təxminən 40-50 sajen olan bir yer vardır ki, oradan çaya qədər 100 sajen hündürlüyündədir. Əgər qaya başından tüfəng atsalar, buraya çox çətinliklə gəlib çatar, böyük daş atmaq istəsələr, imarətlərə və otaqlara dəyməyib çaya düşər, o imarətin qarşısında Şuşa qalası tərəfində böyük bir mağara vardır ki, dərinliyi kimsəyə məlum deyildir. Məlik Şahnəzər bu mağaranın ağzına yaxın bir yerdə özü üçün bir neçə otaq tikdirmişdir ki, xanın otaqlarına baxır. Düşmən gələn zaman o mənzillərdə oturanlar bir-birlərinə kömək edərək, düşməni Şuşa qalasına və çaya tərəf gəlməyə qoymazlar. 1826-cı ildə Şuşa kəndi əhalisi orada mənzil edib, o evlərə və mağaraya pənah apardılar. Qalaya və şəhərin içinə gedib-gəlirdilər, qoşun və şəhər əhalisinin taxdını orada, çayda üyüdüb gətirirdilər. Qızılbaş qoşunu orada olan şeyləri ala bilmədilər. O zaman, o yerin şəhərə və qalaya çox köməyi dəydi.

Altıncısı - qalanın bir ağaclığında olan Xan bağı imarətləridir. Burada tövlələr, bağlar, buzxana, dəyirmanlar və arxlar vardır. Habelə burada böyük bir zorxana tikilmişdir. Mərhum İbrahim xan, vaxtının çoxunu burada keçirərdi. 1826-cı ildə Qızılbaş qoşunu bu imarətləri xarab edib yandırmışdı. Sonra Mehdiqulu xan bunları yenidən təmir etdirdi.

Yeddincisi - Ağdam bağının hasarı və oranın böyük günbəzləridir. Bu günbəzlər mərhum Pənah xanın və onun vəfat etmiş başqa övladlarının qəbirlərinin üzərində tikilmişdir. Orada qəşəng otaqlar, imarətlər və böyük üstüörtülü bazar tikilmişdir. Bura mərhum Pənah

xanın və atası İbrahimxəlil ağanın qədim ocağı idi. Evləri yonulmuş daşdan tikilib, səqfi taqbənd idi. Ağa Məhəmməd şah burada ordu qurduğu və Tiflis şəhərinə getdiyi zaman evləri və günbəzləri xarab etmişdi. Rəhmətlik İbrahim xanın oğlu və varisi mərhum general-mayor Mehdiqulu xan o yerləri yenidən təmir edib əvvəlkindən daha zinətli bir şəklə saldı. Haman qəbirlərə vəqf olaraq, ayrıca ehsan bağı saldırdı. Haman bağın 4 tərəfinə daş və əhənglə divar-barı çəkdilər. Bu qəbirlərə ehsan olmaq üçün böyük bir buzxana düzəltdi. Ellər, səhrada yaşayanlar və kəndlilər hər il yayda biçin vaxtı öz xəstələri üçün buradan buz aparırdılar. Ən azı min yük bəlkə daha çox buz sərf olunurdu. Allah ona rəhmət eləsin.

General Cəfərqulu xanın atası mərhum general-mayor Məhəmmədhəsən ağa, rəhmətlik Pənah xanın imarətinin yanında gözəl imarət tikdirmişdi. Cəfərqulu ağa onu daha da zinətləndirib içində yaşayır. Ağa Məhəmməd şah qalanı alıb, haman imarətdə sakin oldu. Oranı özünə mənzil etmişdi. Onun içində də öldürüldü. Mərhum İbrahim xanın qədim evlərini rəhmətlik arvadı Bədircahan bəyim çox qəşəng təmir etdirmişdi.

## MƏRHUM İBRAHİM XANIN ƏXLAQ VƏ RƏFTARI HAQQINDA

Mərhum İbrahim xan qəribləri dost tutan, qonaqpərəst, yetimpərəst, qeyrətli, ürəkli, çörək verən, səxavətli bir adam idi. Mərhum İbrahim xan çox əliaçıq idi. O çoxlu sədəqə, nəzir və çörək verərdi. Alimlərə və seyidlərə olduqca hörmət edərdi. Ətrafın: Azərbaycan, Şirvan və sair vilayətlərin xanları və bəyzadələrindən hər kəs ondan kömək istəyib, ona pənah aparsa idi, o adamların xahişlərini yerinə yetirməyə çalışardı. Onları məqsədlərinə nail edərdi. Gözəl qadınlarla söhbət etməyi çox sevərdi. Yaxşı at və qəşəng ilxı saxlardı. Xanın ilxısındakı atlar o dərəcədə yaxşı idi ki, hətta İran və Türkiyə vilayətlərində şöhrət tapmışdılar. O atların çoxu mərhum Nadir şahın Azərbaycan, Şahsevən, Şəqaqi, Türkmən və Xorasan xanlarından alıb, topladığı atların cinsindən idi. Cins ayqırlardan başqa 3500, bəlkə daha çox balalayan doğar madyan at saxlardı. Özünəməxsus olan qoyun sürülərinin mal və camışının sayı-hesabı yox idi.

## İBRAHİM XANIN SURƏTİ VƏ ŞƏKLİ

Mərhum İbrahim xan qarabuğdayı, iri cüssəli, uzunboylu, gözəl əndamlı bir kişi idi. Boyu o qədər uca idi ki, ayaq üstündə duranda başqa adamların hamısından tez gözə çarpardı.

## MƏRHUM İBRAHİM XAN HÖKUMƏTİNİN NİZAM VƏ ZABİTLƏRİ HAQQINDA

Mərhum İbrahim xanın əsrində Qarabağın bütün elləri dəftərə və siyahıya alınmış atlı qoşundan ibarət idi. Lazım olan vaxtda mahalların və kəndlərin piyada tüfəngçiləri məliklərlə birlikdə hazır olurdular. Qarabağ ellərindən ev başı töycü pulu və məhsuldan malcəhat alınmırdı. Lakin mahallardan və kəndlərdən hər il malcəhat və töycü alınırdı. Arabir Dağıstandan ləzgi qoşunu gətirildikdə bu qoşun üçün həmçinin qoşunun batan, itən və tələf olan atlarının əvəzini ödəmək üçün ellərdən də töycü pulu və başqa sursat - taxıl, qoyun və mal alınardı. Adları dəftərə yazılmış nökər və qoşun sıralarında olanlardan heç bir şey alınmırdı. Onlar vergidən azad idilər. Onların taxılı, atı və başqa şeyləri mərhum İbrahim xandan yetişərdi. Hər bir nökər və qoşun əhli bir evə tapşırılmışdı. Bu evlər nökər və süvarinin ehtiyacını təmin etməli idilər.

## MƏXARİC VƏ PEŞKƏŞLƏR

Mərhum İbrahim xan hər il novruz bayramı günündə, qoşunun bütün sərkərdələrinə və minbaşılarına xələt, bəxşiş, at və qılınc verərdi. Hər kəs öz rütbəsinə görə Azərbaycan vilayətlərindən, mahallarından və məliklərindən İbrahim xana peşkəşlər gətirərdi.

İbrahim xan səfərə çıxdığı və ya bir yerdə ordu qurduğu zaman onun yanında olan minbaşıların, yüzbaşıların, bəylərin, ağaların və Azərbaycan xanlarının hamısının günorta, səhər və axşam naharı, həmçinin onların atlarının arpaları xanın hesabına olurdu. Qoşun əhlinin bəzisi, bütün əmələlər, mirzələr, eşikağasılar, keşikçilər və

yasavullar mərhum İbrahim xanın hesabına dolanırdılar. Minbaşılara və sairlərə verilən diri qoyunlardan başqa, çoxlu keçə, 40 puddan artıq düyü və 30 baş qoyun işlənərdi. Bu hesabdan sərf olunan başqa şeylərin - çörəyin, atlara verilən arpanın, yağın, halvanın, qənd və ədviyyənin miqdarını təsəvvür etmək olar.

## MƏRHUM İBRAHİM XANIN GƏLİRİ

Mərhum İbrahim xanın gəliri mahalların və kəndlərin istər taxıl, istər çəkil (tut) bağlarından və başqa əkinlərdən alman malcəhatdan, habelə xanın xüsusi kotanlarından əldə edilən mənfəətdən ibarət idi. Hətta yadımdadır ki, bir dəfə xanın taxıl zəmilərində işləyən xüsusi cüt və kotanını hesabladılar. Məlum oldu ki, xanın cüt və kotanı bütün Qarabağ əhalisinin cüt və kotanına bərabər, bəlkə də onlardan iki cüt artıqdır. Bu qədər taxılın, malcəhatın hamısı qoşuna, karxanaya, hərəmxanaya, nökərlərə, qulluqçulara və qonaqlara sərf edilirdi. Qarabağın icarəyə verilmiş yerlərindən zərbxanadan mədaxil olur və Azərbaycan vilayətlərindən istər pul, istərsə cins şəkildə çoxlu peşkəş gəlirdi.

## MƏRHUM İBRAHİM XANIN KARGÜZARLARI HAQQINDA

İbrahim xanın qardaşları, qardaşı oğlanları, öz övladları və əmisi uşaqları məruf bəy olub, mal-dövlət, nökər və calal sahibi idilər. Onların hər biri başqa vilayətlərin xanlarına bərabər idi. O cümlədən öz əmisi oğlu mərhum Mirzə Əli bəy və Lütfəli bəy və bibisi oğlu Feyzi bəyi göstərmək olar. Cavanşir, Kəbirli, Otuziki, Dəmirçi Həsənli, Püsyan, Bərgüşad, Qaraçurlu, Hacısamlu və Kolanı ellərinin bəyləri, Vərəndə, Çiləbörd, Talış, Dizaq və Xaçın mahallarının məlikləri də sair vilayətlərin xanları kimi əsaslı-köklü dövlət sahibi idilər. Mərhum İbrahim xanın özü bəslədiyi çalışqanlıqları və rəşa-

dətlərinə görə dövlət və rəiyyət sahibi etdiyi başqa bəylər və evində olan qulluqçular və dövlət işlərinə baxan adamları da məşhurdurlar.

Əvvəl mərhum Axund Molla Pənah idi ki, o, ağlı, tədbiri və kamalı ilə məşhurdur. İranda və Türkiyədə böyük şöhrət qazanmışdır. Təxəllüsü Vaqif idi. Onun türkcə yazdığı şeirləri ağızlarda deyilir və dillər əzbəridir. Sair kargüzarları, eşikağasılan, nazirləri və məmurları çox idi. Ağa Məhəmməd şah əhvalatından sonra Qarabağ vilayətinin halı pərişan və camaatın dağınıq düşməsi ilə əlaqədar olaraq mərhum xanın məmur və kargüzarlarından elə adamlar qalmadı.

Adlı-sanlı övladı haqqında bunu demək olar: mərhum İbrahim xan sağ ikən Allah rəhmətinə gedən böyük oğlanları Cavad ağa və Məhəmmədhəsən ağa bir anadan cəbrayıllı bir bəyin qızından olmuşdular. Mərhum İbrahim xandan sonra polkovnik Xanlar ağa vəfat etdi. Əbülfət xan da İranda vəfat etdi. Podpolkovnik Məhəmməd Qasım ağa, Fətəli ağa, Süleyman ağa və Hüseynqulu ağalar, bu yaxın günlərdə Allah rəhmətinə getdilər. Onun bir oğlu da rəhmətlik general-mayor Mehdiqulu xan idi. Mehdiqulu xan böyük imperator, kəramətli Xaqan Nikolay Pavloviçdən daş-qaşlı cıqqa, cavahirli qılınc və həmail almışdı. Əhməd xanın anası xan qızı idi. Şıxəli ağa isə kənizdən doğulmuşdur.

Mərhum İbrahim xanın indi Qarabağda yaşayan qızlarından biri Göhər ağadır ki, Gürcüstan əyanlarından bir Tavadzenin qızından olmuşdur.

İkinci qızı İzzət bəyim Gürcüstan valisinin vəziri Mirzə Rəbiin qızından olmuşdur. Gürcüstan valisi İrakli xan həmişə mərhum İbrahim xanla müttəfiq və dost olmağa çalışırdı. Məzhəblərinin ayrılığı, qohum olmağa yol vermədiyindən vəzirinin üç qızını mərhum İbrahim xana və onun iki oğlu Əbülfət xana və Məhəmməd Qasım ağaya vermişdi ki, bu vasitə ilə aralarında dostluq və məhəbbət olsun.

# QARABAĞ VİLAYƏTİNİN TORPAĞI VƏ ƏYALƏTİ HAQQINDA

Doğrudan da Qarabağ vilayətinin əyaləti hər cəhətdən yer üzünün behiştidir. Qarabağ torpağının ab-havası, məhsulu və genişliyi gərək ki, yer ölçənlərin hesabı ilə yüksək Rusiya dövləti başçılarına məlumdur. Qarabağın dağlıq yerləri və yaylaqları Göyçə sərhədindən tutmuş Ordubada qədər başdan-başa cənnətə bənzər çəmənlikdir. Yaylaq olmasına baxmayaraq, burada qışda da mal-qara, qoyun, heyvan saxlamaq olur. Bu yerlər də, Qarabağ səhrasının qışlaqları kimi çox səlamət olur və qışda mal-qaraya soyuqdan heç zərər toxunmur. Dağlıq yerləri və dərələrinin hamısı rəiyyətlərin kəndləri və məskəni idi. Rəiyyətlər qışda və yayda qoyun və mal saxlayır, taxıl əkirdilər. Çox xoş dolanırdılar. İndi bir çox zəmi və kənd yerləri vardır ki, əgər onları əkmək və kənd salmaq üçün qayda-qanunla rəiyyətlərə paylasalar, kəndləri abad edər, əkin əkər və heyvan saxlarlar. Bu yerlərdə 5 mindən artıq ailə yaşaya bilər. Taxıl əkilərsə, bir çetvertdən 3-4 çetvert məhsul alınar. Xüsusilə bal arısı saxlayanlar hədsiz-hesabsız gəlir əldə edirdilər.

Qarabağ səhralarına gəldikdə demək olar ki, dağın ətəyindən, Arazın Xudafərin körpüsündən başlayaraq, Gəncə sərhədi və Cavad kəndinə qədər olan yerlərin hamısı Arazdan çəkilən arxların suyu ilə suvarılırdı. Bir tərəfi Qarqar çayı, başqa tərəfdən isə Köndələn çayı axır. Köndələn çayından Qarqar çayının kənarında olan Qala təpəsinə qədər böyük bir arx vardır ki, su gəlib, Qarqar çayına tökülür. Bu böyük arxdan Cavad kəndinə qədər olan məsafə təxminən altı ağacdır ki, 42 verst edir. Bunlar, əlbəttə, yüksək dövlət məmurlarına məlumdur.

Mustafa xanın ixtiyarına verilmiş yerlər və arxlardan başqa, burada 5-6 minə yaxın, bəlkə daha artıq rəiyyətin ailəsi asudə yaşaya bilər. Taxd, çəltik, pambıq və sair dənli bitkiləri əkməkdə, çəkil (tut) və üzüm bağları salmaqda heç bir çətinlik çəkməzlər. Mal-qaralarını və qoyun sürülərini yaylaqda və qışlaqda otarıb, gen-bol həyat sürər, çoxlu fayda əldə edərlər.

Qarabağ torpağı çox mənfəətli və bərəkətlidir. Heç bir iqlim və məmləkətdə bu cür torpağın olduğunu eşitməmişəm. Lakin Qarabağ

rəiyyətləri məişət işlərində kahil və tənbəldirlər. Onlar sair vilayətlərin rəiyyətləri kimi qazanmağa, bağ salmağa və əkin əkməyə səy etsələr, var-dövlətlərinin sayı-hesabı olmaz. Burada əkin əkmək asandır. Yeri birbaş atla əziyyət çəkmədən, yaxşıca şumlamaq olar. Buranın iki baş qoşqu malı sair vilayətlərin 12-16 baş kəl və başqa heyvandan düzəltdikləri kotan dəstəsinə bərabərdir. Rəiyyətlərin əkin, biçin və ziraət işlərindəki bu tənbəlliyinə baxmayaraq, İran ilə sülh müahidəsi bağlandığı tarixdən Qarabağda padşahın müzəffər əsgərlərinin gücü sayəsində tam farağatlıdır. O gündən bəri rəiyyətlər o qədər bağ salmış, əkin yerlərini abad etmiş, təzə arxlar, kəhrizlər və yeni kəndlər qurmuşlar ki, misli indiyə qədər görünməmiş və eşidilməmişdir. Pərvərdigari-aləm böyük imperator, kəramətli xaqanın və əziz vəliəhdinin mərhəmət kölgəsini əbədi Rusiya dövlətinin itaəti altında olan bütün vilayətlərin, xüsusən Qarabağ əhalisinin başı üstündən əskik eləməsin. Qarabağ əhalisi ürəkdən, davasız, savaşsız, öz razılığı və rəğbətilə böyük kərəm sahibi olan əzəmətli padşaha ümidvar olub, əlahəzrət, kəramətli imperatorun himayəsi, müdafiəsi altına daxil oldular. İran dövləti ilə düşmənçilik edilən zaman gördükləri çoxlu zərər və narahatlığa baxmayaraq, neçə il padşaha qulluq etməkdə sabitqədəm və fədakar oldular. Müzəffər əsgərlərlə birlikdə düşmən qarşısında igidlik göstərərək padşahın lütfünə nail oldular.

## MÜNDƏRİCAT

Tərtibçidən.........................................................................................5

**Mirzə Yusif Qarabaği**
Tarixi-Safi
(On söz Ə.Hüseynzadənindir.
Farscadan tərcümə, şərhlər N.Axundovundur)................................................7

**Mir Mehdi Xəzani**
Kitabi-tarixi-Qarabağ
(Müqəddimə və şərhlər A.Fərzəliyevindir.
Transliterasiya A.Fərzəliyev və A.Ramazanovundur)................................107

**Rzaqulu bəy Mirzə Camal oğlu**
Pənah xan və İbrahim xanın Qarabağda
hakimiyyətləri və o zamanın hadisələri
(Ön söz, farscadan tərcümə və şərhlər N.Axundovundur)...........................235

# QARABAĞNAMƏLƏR

**İkinci kitab**

"ŞƏRQ-QƏRB"
BAKI-2006

| | |
|---|---|
| Buraxılışa məsul: | Əziz Güləliyev |
| Texniki redaktor: | Rövşən Ağayev |
| Tərtibatçı-rəssam: | Nərgiz Əliyeva |
| Kompyuter səhifələyicisi: | Ələkbər Kərimov |
| Korrektorlar: | Elnaz Xəlilqızı<br>Fəridə Səmədova |

Yığılmağa verilmişdir 25.07.2006. Çapa imzalanmışdır 08.12.2006.
Formatı 60x90 $^1/_{16}$ Fiziki çap vərəqi 18. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 190.

DÜST 5773-90, DÜST 4.482-87

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.